İsfəhan **Qaimiyyə** kompüter araşdırmalar mərkəzi

# Qaimiyyə




www.Ghaemiyeh.com
www.Ghaemiyeh.org
www.Ghaemiyeh.net
www.Ghaemiyeh.ir

# DİNLƏRLƏ TANIŞLIQ

SEYİD
ƏHMƏD MAHMUDİ

بسم الله الرحمن الرحیم

# DİNLƏRLƏ TANIŞLIQ

:Müəllif

Seyid Əhməd Mahmudi

:Çap nəşriyyat

Şəhriyar

:Digital nəşriyyat

İsfəhan Qaimiyyə adına komputer araşdırmalar mərkəzi

# Mündəricat


Mündəricat ۵
DİNLƏRLƏ TANIŞLIQ ۱۹
KİTAB HAQQINDA ۱۹
MÜNDƏRİCAT ۱۹
MÜQƏDDİMƏ ۴۶
BİRİNCİ DƏRS ۴۸
DİN ۴۸
SUALLAR ۵۴
İKİNCİ DƏRS ۵۶
۱) DİNƏ MEYLİN SƏBƏB VƏ MOTİVLƏRİ ۵۶
İŞARƏ ۵۶
۱. CƏHALƏT NƏZƏRİYYƏSİ: ۵۶
۲. QORXU NƏZƏRİYYƏSİ: ۶۰
۳. ƏXLAQİ VƏ İCTİMAİ EHTİYACLAR NƏZƏRİYYƏSİ: ۶۲
SUAL VƏ TAPŞIRIQLAR ۶۴
ÜÇÜNCÜ DƏRS ۶۵
۲) DİNƏ MEYLİN SƏBƏB VƏ MOTİVLƏRİ ۶۵
İŞARƏ ۶۵
۴. İQTİSADİ AMİL NƏZƏRİYYƏSİ: ۶۵
۵. FREYDİZM) CİNSİ NƏZƏRİYYƏ:) ۶۹
۶. BƏXT NƏZƏRİYYƏSİ: ۷۱
SUAL VƏ TAPŞIRIQLAR ۷۳
DÖRDÜNCÜ DƏRS ۷۵
۱) İBTİDAİ DİNLƏR ۷۵

١. FETİŞİZM ---------- ٧٥
٢. ANİMİZM ---------- ٧٧
ANİMİZM İLƏ FETİŞİZMİN FƏRQİ ---------- ٧٩
ƏRƏBİSTAN YARIMADASINDA ANİMİZM ---------- ٨١
SUAL VƏ TAPŞIRIQLAR ---------- ٨٣
BEŞİNCİ DƏRS ---------- ٨۴
İBTİDAİ DİNLƏR (٢) ---------- ٨۴
٣. TOTEMİZM ---------- ٨۴
TOTEMİZMİN ƏSAS PRİNSİPLƏRİ ---------- ٨۴
QƏDİM VƏ MÜASİR TOTEMLƏR ---------- ٩٠
SUAL VƏ TAPŞIRIQLAR ---------- ٩٢
ALTINCI DƏRS ---------- ٩٣
İBTİDAİ DİNLƏR (٣) ---------- ٩٣
İBTİDAİ DİNLƏRİN ORTAQ XÜSUSİYYƏTLƏRİ ---------- ٩٣
İŞARƏ ---------- ٩٣
١. MÜQƏDDƏS BİR ƏŞYA ---------- ٩٣
٢. MANAYA E'TİQAD ---------- ٩۴
٣. SEHR VƏ CADU ---------- ٩۵
۴. TABUYA E'TİQAD ---------- ٩۵
۵. TƏMİZLƏNMƏ VƏ PAKLANDIRMA ---------- ٩۶
۶. DİRİ ZƏNN ETMƏ ---------- ٩٧
٧. TƏBİƏTƏ SİTAYİŞ ---------- ٩٧
٨. QURBANLIQ ---------- ٩٩
٩. ÖLÜLƏRƏ HÖRMƏT QOYULMASI ---------- ١٠١
١٠. İNSAN, TƏBİƏT VƏ VARLIQ RUHUNUN VƏHDƏTİ ---------- ١٠١
١١. VARLIQ ALƏMİNİN MƏNŞƏYİNƏ QOVUŞMAQ MEYLİ ---------- ١٠١

۱۲. EŞQ VƏ SİTAYİŞ ---------- ۱۰۲
۱۳. ƏBƏDİYYƏTƏ E`TİQAD ---------- ۱۰۳
۱۴. İXTİYAR VƏ SEÇKİ ---------- ۱۰۳
SUAL VƏ TAPŞIRIQLAR ---------- ۱۰۳
MÜTALİƏ ÜÇÜN ---------- ۱۰۵
BİR İBTİDAİ CƏMİYYƏTİN TƏDQİQİ ---------- ۱۰۵
YEDDİNCİ DƏRS ---------- ۱۱۶
۱) VEDA DİNİ ---------- ۱۱۶
İŞARƏ ---------- ۱۱۶
VEDA AYİNİNİN TARİXİ ---------- ۱۱۶
VEDA MƏ`BUDLARI ---------- ۱۱۸
SUAL VƏ TAPŞIRIQLAR ---------- ۱۲۴
SƏKKİZİNCİ DƏRS ---------- ۱۲۵
۲) VEDA AYİNİ ---------- ۱۲۵
MÜQƏDDƏS KİTABLAR – VEDA ---------- ۱۲۵
SUAL VƏ TAPŞIRIQLAR ---------- ۱۳۱
DOQQUZUNCU DƏRS ---------- ۱۳۴
۱) BRAHMAN AYİNİ ---------- ۱۳۴
VEDA AYİNİNDƏKİ DƏYİŞİKLİKLƏR ---------- ۱۳۴
İDEOLOJİ DƏYİŞİKLİKLƏR ---------- ۱۳۴
۱. BRAHMANA E`TİQAD: ---------- ۱۳۶
۲. ATMƏN ---------- ۱۳۶
۳-۴. KARMA VƏ TƏNASÜX ---------- ۱۴۰
۵. NİCAT YOLU (MUKŞA) ---------- ۱۴۲
SUAL VƏ TAPŞIRIQLAR ---------- ۱۴۲
ONUNCU DƏRS ---------- ۱۴۵

۲) BRAHMAN AYİNİ) ---- ۱۴۵
۲. İCTİMAİ QURULUŞ ---- ۱۴۵
۳. MÜQƏDDƏS KİTABLAR ---- ۱۴۹
SUAL VƏ TAPŞIRIQLAR ---- ۱۵۳
ON BİRİNCİ DƏRS ---- ۱۵۵
۱) CAYNİZM) ---- ۱۵۵
MÜQƏDDİMƏ ---- ۱۵۵
CAYNİZM AYİNİNİN BANİSİ ---- ۱۵۵
SUALLAR ---- ۱۶۳
ON İKİNCİ DƏRS ---- ۱۶۴
۲) CAYNİZM AYİNİ) ---- ۱۶۴
ƏQİDƏ VƏ ƏXLAQ ---- ۱۶۴
MƏ`BUDA E`TİQAD ---- ۱۶۴
CİVA VƏ ACİVA ---- ۱۶۶
KARMA VƏ SAMSARA ---- ۱۶۸
MUKŞA ---- ۱۶۸
NORMALARI) ƏXLAQ VƏ RƏFTAR PRİNSİPLƏRİ) ---- ۱۷۰
POLEMİKA VƏ TƏDQİQAT ---- ۱۷۴
ON ÜÇÜNCÜ DƏRS ---- ۱۷۵
۱) BUDDİZM) ---- ۱۷۵
BUDDA ---- ۱۷۵
SUALLAR ---- ۱۸۳
ON DÖRDÜNCÜ DƏRS ---- ۱۸۴
۲) BUDDİZM) ---- ۱۸۴
ƏQİDƏLƏRİ ---- ۱۸۴
KARMA VƏ SAMSARA ---- ۱۹۰

SUAL VƏ TAPŞIRIQLAR ---------- ١٩٢
ON BEŞİNCİ DƏRS ---------- ١٩٣
٣) BUDDİZM) ---------- ١٩٣
ƏXLAQ ---------- ١٩٣
SUAL VƏ TAPŞIRIQLAR ---------- ٢٠١
POLEMİKA VƏ ARAŞDIRMA: ---------- ٢٠١
ON ALTINCI DƏRS ---------- ٢٠٢
٤) BUDDİZM) ---------- ٢٠٢
AYİN VƏ MƏRASİMLƏR ---------- ٢٠٢
MÜQƏDDƏS KİTABLARI ---------- ٢٠٨
SUAL VƏ TAPŞIRIQLAR ---------- ٢١٠
ON YEDDİNCİ DƏRS ---------- ٢١١
٥) BUDDİZM) ---------- ٢١١
FİRQƏLƏR ---------- ٢١١
SUAL VƏ TAPŞIRIQLAR ---------- ٢٢٠
ON SƏKKİZİNCİ DƏRS ---------- ٢٢٢
١) HİNDUİZM) ---------- ٢٢٢
MƏQSƏDLƏR VƏ YOLLAR ---------- ٢٢٢
HƏYATIN DÖRD MƏQSƏDİ ---------- ٢٢٤
NİCAT YOLLARI ---------- ٢٢٨
SUAL VƏ TAPŞIRIQLAR ---------- ٢٣٠
ON DOQQUZUNCU DƏRS ---------- ٢٣٢
٢) HİNDUİZM) ---------- ٢٣٢
ALTI MƏKTƏB ---------- ٢٣٢
POLEMİKA VƏ TƏDQİQAT ---------- ٢٤٠
İYİRMİNCİ DƏRS ---------- ٢٤١

۳) HİNDUİZM ۲۴۱

TRİMURTİ ۲۴۱

MƏ`BUDLARIN HƏYAT YOLDAŞLARI ۲۴۷

POLEMİKA VƏ TƏDQİQAT ۲۴۹

İYİRMİ BİRİNCİ DƏRS ۲۵۰

۴) HİNDUİZM ۲۵۰

DİGƏR ƏQİDƏLƏR ۲۵۰

۱. SAYSIZ-HESABSIZ TANRILAR ۲۵۰

۲. İBADƏT VƏ PƏRƏSTİŞ ۲۵۲

۳. MƏ`BƏDLƏR ۲۵۲

۴. QANQA ÇAYI ۲۵۴

۵. BRAHMAN ۲۵۶

۶. İNƏYİN HÖRMƏTİ ۲۵۶

SUAL VƏ TAPŞIRIQLAR ۲۵۹

İYİRMİ İKİNCİ DƏRS ۲۶۱

۵) HİNDUİZM ۲۶۱

FİRQƏLƏR ۲۶۱

POLEMİKA VƏ TƏDQİQAT ۲۶۷

İYİRMİ ÜÇÜNCÜ DƏRS ۲۶۸

۱) SİQH AYİNİ ۲۶۸

İŞARƏ ۲۶۸

SİQH AYİNİNİ FORMALAŞDIRAN ZƏMİNLƏR ۲۷۰

NANAKIN TƏBLİĞAT METODU ۲۷۲

SUAL VƏ TAPŞIRIQLAR ۲۷۴

İYİRMİ DÖRDÜNCÜ DƏRS ۲۷۵

۲) SİQH AYİNİ ۲۷۵

١. Tovhid: ---------- ٢٧٥
٢. ALLAHI ZİKR ETMƏK ---------- ٢٧٧
٣. İNSAN VƏ DÜNYA ---------- ٢٧٧
٤. İBADƏT ---------- ٢٨٠
٥. QRANT ---------- ٢٨١
SUAL VƏ TAPŞIRIQLAR ---------- ٢٨٣
İYİRMİ BEŞİNCİ DƏRS ---------- ٢٨٤
١) TAO AYİNİ) ---------- ٢٨٤
KÖKLƏRİ VƏ FƏLSƏFƏSİ ---------- ٢٨٤
TAO AYİNİN KÖKLƏRİ ---------- ٢٨٤
SUALLAR ---------- ٢٩٠
İYİRMİ ALTINCI DƏRS ---------- ٢٩١
٢) TAOİZM) ---------- ٢٩١
ƏXLAQ VƏ DİN ---------- ٢٩١
LAO-TZE FƏLSƏFƏSİ ƏSASINDA ƏXLAQIN ƏSASLARI ---------- ٢٩١
B) TAOİZMDƏ SEHRKARLIQ ---------- ٢٩٣
C) TAOİZMİN DİNİ YÖNLƏRİ ---------- ٢٩٥
SUALLAR ---------- ٢٩٧
İYİRMİ YEDDİNCİ DƏRS ---------- ٢٩٩
KONFUSİON AYİNİ ---------- ٢٩٩
KÖKLƏRİ ---------- ٢٩٩
KONFUSİON BARƏSİNDƏ ---------- ٢٩٩
KONFUSİON AYİNİNİN ƏSAS MƏNBƏLƏRİ ---------- ٣٠١
KONFUSİON AYİNİNİN FORMALAŞMA ZƏMİNİ ---------- ٣٠٣
SUAL VƏ TAPŞIRIQLAR ---------- ٣٠٥
İYİRMİ SƏKKİZİNCİ DƏRS ---------- ٣٠٦

(KONFUSİON AYİNİ ٢) ---- ٣٠۶
ƏSAS VƏ E`TİQADLARI ---- ٣٠۶
KONFUSİON ƏXLAQI ---- ٣٠۶
KONFUSİON AYİNİNİN ƏQİDƏLƏRİ ---- ٣١٢
SUAL VƏ TAPŞIRIQLAR ---- ٣١٢
İYİRMİ DOQQUZUNCU DƏRS ---- ٣١۴
ŞİNTO AYİNİ ---- ٣١۴
İŞARƏ ---- ٣١۴
ŞİNTONUN MƏ`NASI ---- ٣١۴
ƏSASLARI VƏ E`TİQADLARI ---- ٣١۶
DİNİ DƏYİŞİKLİKLƏR ---- ٣١٨
DİNİ AYİN VƏ MƏRASİMLƏR ---- ٣١٩
SUAL VƏ TAPŞIRIQLAR ---- ٣٢٢
OTUZUNCU DƏRS ---- ٣٢٣
(ZƏRDÜŞTİLİK ١) ---- ٣٢٣
MÜQƏDDİMƏ ---- ٣٢٣
ZƏRDÜŞTİLİYİN TARİXÇƏSİ ---- ٣٢٣
MUĞAN DİNİ ---- ٣٢۵
MEHRPƏRƏSTLİK, YAXUD MİTRAİZİM ---- ٣٢٧
SUAL VƏ TAPŞIRIQLAR ---- ٣٢٩
OTUZ BİRİNCİ DƏRS ---- ٣٣٠
(ZƏRDÜŞTİLİK ٢) ---- ٣٣٠
İŞARƏ ---- ٣٣٠
PEYĞƏMBƏRLİYƏ SEÇİLMƏ ---- ٣٣٢
SUAL VƏ TAPŞIRIQLAR ---- ٣٣۵
OTUZ İKİNCİ DƏRS ---- ٣٣٧

ZƏRDÜŞTİLİYİN ƏQİDƏLƏRİ ---------- ۳۳۷
SUAL VƏ TAPŞIRIQLAR ---------- ۳۴۱
OTUZ ÜÇÜNCÜ DƏRS ---------- ۳۴۳
AVESTA ---------- ۳۴۳
SUALLAR ---------- ۳۴۹
OTUZ DÖRDÜNCÜ DƏRS ---------- ۳۵۰
ZƏRDÜŞTİLİYİN DİNİ AYİNLƏRİ ---------- ۳۵۰
SUAL VƏ TAPŞIRIQLAR ---------- ۳۵۶
OTUZ BEŞİNCİ DƏRS ---------- ۳۵۷
ZƏRDÜŞT DİNİNDƏKİ DƏYİŞİKLİKLƏR ---------- ۳۵۷
İŞARƏ ---------- ۳۵۷
۱. FİRQƏLƏR ---------- ۳۵۷
۲. YENİ DİNLƏR ---------- ۳۵۹
۳. SİAYSİ DƏYİŞİKLİKLƏR ---------- ۳۶۲
SUALLAR ---------- ۳۶۳
OTUZ ALTINCI DƏRS ---------- ۳۶۴
BƏNİ-İSRAİL QÖVMÜ ---------- ۳۶۴
SUAL VƏ TAPŞIRIQLAR ---------- ۳۷۰
OTUZ YEDDİNCİ DƏRS ---------- ۳۷۱
HƏZRƏT MUSA (Ə) ---------- ۳۷۱
TƏVƏLLÜDÜ VƏ UŞAQLIQ İLLƏRİ ---------- ۳۷۱
CAVANLIĞI VƏ AİLƏ QURMASI ---------- ۳۷۳
PEYĞƏMBƏRLİYƏ ÇATMASI ---------- ۳۷۵
SUALLAR ---------- ۳۷۷
OTUZ SƏKKİZİNCİ DƏRS ---------- ۳۷۸
YƏHÜVƏH ---------- ۳۷۸

SUALLAR ---------- ۳۸۴
OTUZ DOQQUZUNCU DƏRS ---------- ۳۸۶
YƏHUDİ TƏFƏKKÜRÜ ---------- ۳۸۶
İŞARƏ ---------- ۳۸۶
TÖVHİD VƏ ŞİRK ---------- ۳۸۶
AXİRƏT ---------- ۳۹۲
SUALLAR ---------- ۳۹۲
QIRXINCI DƏRS ---------- ۳۹۳
YƏHUDİ AYİNLƏRİ VƏ İXTİLAFLARI ---------- ۳۹۳
ŞƏNBƏ GÜNÜ MƏRASİMİ ---------- ۳۹۵
BAYRAMLAR ---------- ۳۹۵
ŞƏRİƏT HÖKMLƏRİ ---------- ۳۹۸
YƏHUDİ ƏXLAQI ---------- ۳۹۹
SUAL VƏ TAPŞIRIQLAR ---------- ۳۹۹
QIRX BİRİNCİ DƏRS ---------- ۴۰۱
TÖVRAT ---------- ۴۰۱
SUAL VƏ TAPŞIRIQLAR ---------- ۴۰۷
QIRX İKİNCİ DƏRS ---------- ۴۰۸
TƏLMUD ---------- ۴۰۸
TƏLMUDUN YAZILMASI ---------- ۴۰۸
TƏLMUD TƏ'LİMLƏRİNDƏN BƏ'Zİ NÜMUNƏLƏR ---------- ۴۱۲
SUAL VƏ TAPŞIRIQLAR ---------- ۴۱۴
QIRX ÜÇÜNCÜ DƏRS ---------- ۴۱۵
YƏHUDİ FİRQƏLƏRİ ---------- ۴۱۵
İŞARƏ ---------- ۴۱۵
۱. FƏRİSYUN ---------- ۴۱۵

۴۱۶ ---------- SƏDUQİYYUN .۲
۴۱۷ ---------- SAMİRİYYUN .۳
۴۱۷ ---------- İSİNİYYUN .۴
۴۱۹ ---------- QURRAVUN, YAXUD ƏNANİYYUN .۵
۴۱۹ ---------- QƏBALƏT .۶
۴۱۹ ---------- SUAL VƏ TAPŞIRIQLAR
۴۲۱ ---------- QIRX DÖRDÜNCÜ DƏRS
۴۲۱ ---------- SİONİZM
۴۲۱ ---------- İŞARƏ
۴۲۱ ---------- ?SİONİZM NECƏ YARANMIŞDIR
۴۲۵ ---------- SİONİST TƏRZİ-TƏFƏKKÜRÜ
۴۲۸ ---------- SUAL VƏ TAPŞIRIQLAR
۴۳۰ ---------- QIRX BEŞİNCİ DƏRS
۴۳۰ ---------- SABEİ DİNİ
۴۳۰ ---------- MÜQƏDDİMƏ
۴۳۰ ---------- SABE KƏLMƏSİNİN LÜĞƏT MƏ’NASI
۴۳۲ ---------- DİNİ ƏSASLARI
۴۳۲ ---------- MÜQƏDDƏS KİTABLARI
۴۳۳ ---------- FİRQƏLƏR
۴۳۴ ---------- ƏQİDƏLƏRİ
۴۳۵ ---------- AYİNLƏR VƏ HÖKMLƏR
۴۳۶ ---------- SUALLAR VƏ TAPŞIRIQLAR
۴۳۷ ---------- QIRX ALTINCI DƏRS
۴۳۷ ---------- MƏSİHİLİK
۴۳۷ ---------- MÜQƏDDİMƏ
۴۳۸ ---------- İSANIN (Ə) ZÜHUR ETDİYİ ƏSR

SUALLAR ۴۴۳
QIRX YEDDİNCİ DƏRS ۴۴۴
HƏZRƏT İSA (Ə) VƏ MƏRYƏM ۴۴۴
(QUR’AN NÖQTEYİ-NƏZƏRİNDƏN HƏZRƏT MƏRYƏM (Ə ۴۴۴
(QUR’AN NÖQTEYİ-NƏZƏRİNDƏN HƏZRƏT İSA (Ə ۴۴۶
(İNCİL NÖQTEYİ-NƏZƏRİNDƏN HƏZRƏT İSA (Ə ۴۴۸
SUAL VƏ TAPŞIRIQLAR ۴۵۰
QIRX SƏKKİZİNCİ DƏRS ۴۵۱
PULS RƏSUL ۴۵۱
PULSUN KEÇMİŞİ ۴۵۱
PULSUN İFA ETDİYİ ROL ۴۵۳
SUAL VƏ TAPŞIRIQLAR ۴۵۷
QIRX DOQQUZUNCU DƏRS ۴۵۹
(MƏSİHİLİYİN ƏQİDƏLƏRİ (۱ ۴۵۹
İŞARƏ ۴۵۹
BİRİNCİ MEHVƏR ۴۵۹
MƏSİHİLİK TƏFƏKKÜRÜNDƏ ALLAH ANLAMI ۴۵۹
MƏSİHİ MƏNBƏLƏRİNDƏ TÖVHİD VƏ TƏSLİS ۴۶۱
SUALLAR ۴۶۵
ƏLLİNCİ DƏRS ۴۶۶
(MƏSİHİLİYİN ƏQİDƏLƏRİ (۲ ۴۶۶
İŞARƏ ۴۶۶
HƏZRƏT MƏSİHİN İNSAN SURƏTİNDƏ NAZİL OLMASI ۴۶۶
FİDA ۴۶۸
TƏNQİDLƏR VƏ MÜLAHİZƏLƏR ۴۷۰
ÜÇÜNCÜ MEHVƏR ۴۷۲

HƏZRƏT MƏSİHİN MÜHAKİMƏSİ ---- ۴۷۲
SUALLAR ---- ۴۷۲
ƏLLİ BİRİNCİ DƏRS ---- ۴۷۴
MƏSİHİLİYİN ƏXLAQI ---- ۴۷۴
İŞARƏ ---- ۴۷۴
ASİMANİ MƏLƏKUT ÜÇÜN HAZIRLIQ ---- ۴۷۶
İNSANLARA MƏHƏBBƏT ---- ۴۷۸
RİYAKARLIQDAN UZAQ OLMAQ ---- ۴۸۰
SUALLAR ---- ۴۸۰
ƏLLİ İKİNCİ DƏRS ---- ۴۸۲
MƏSİHİLİYİN DİNİ QAYDA-QANUNLARI VƏ MƏRASİMLƏRİ ---- ۴۸۲
SUALLAR ---- ۴۸۸
ƏLLİ ÜÇÜNCÜ DƏRS ---- ۴۸۹
İNCİL ---- ۴۸۹
SUALLAR ---- ۴۹۸
ƏLLİ DÖRDÜNCÜ DƏRS ---- ۴۹۹
(RAHİBLİK (TƏRKİ DÜNYALIQ ---- ۴۹۹
MÜQƏDDİMƏ ---- ۴۹۹
TARİXÇƏSİ ---- ۴۹۹
QƏRBDƏ RAHİBLİK ---- ۵۰۲
SUALLAR ---- ۵۰۵
ƏLLİ BEŞİNCİ DƏRS ---- ۵۰۶
(MƏSİHİ MƏZHƏBLƏRİ (۱ ---- ۵۰۶
İŞARƏ ---- ۵۰۶
MƏSİHİLİKDƏ MƏZHƏB VƏ FİRQƏLƏRİN YARANMA SƏBƏBLƏRİ ---- ۵۰۶
(ORTODOKS (ORTHODOX ---- ۵۱۰

SUALLAR ---------- ۵۱۲
ƏLLİ ALTINCI DƏRS ---------- ۵۱۳
۲) MƏSİHİ MƏZHƏBLƏRİ ---------- ۵۱۳
CATHOLİC) KATOLİK) ---------- ۵۱۳
PROTESTANT) PROTESTANT) ---------- ۵۱۵
SUAL VƏ TAPŞIRIQLAR ---------- ۵۱۹
ƏLLİ YEDDİNCİ DƏRS ---------- ۵۲۰
۱) MƏSİHİ FİRQƏLƏRİ ---------- ۵۲۰
İŞARƏ ---------- ۵۲۰
PROTESTANT FİRQƏLƏRİ ---------- ۵۲۰
۱. KALUNİSTLƏR ---------- ۵۲۰
۲. ANABA PETİSTLƏR ---------- ۵۲۲
۳. NANKONFURMİSTLƏR ---------- ۵۲۲
۴. PİVERİTENLƏR ---------- ۵۲۲
۵. KƏVİKİRLƏR ---------- ۵۲۴
۶. PİTİSTLƏR ---------- ۵۲۴
SUALLAR ---------- ۵۲۶
ƏLLİ SƏKKİZİNCİ DƏRS ---------- ۵۲۷
۲) MƏSİHİ FİRQƏLƏRİ ---------- ۵۲۷
YƏSUİLƏR ---------- ۵۲۷
NURMUNLAR ---------- ۵۲۹
ŞAHİDLƏR) YƏHÜVƏH) ---------- ۵۳۰
MUNİZM ---------- ۵۳۱
SUAL VƏ TAPŞIRIQLAR ---------- ۵۳۱
Haqqında mərkəzi ---------- ۵۳۳

# DİNLƏRLƏ TANIŞLIQ

## KİTAB HAQQINDA

Kitabın adı:Dinlərlə tanışlıq

Müəllif:Seyid Əhməd Mahmudi

Naşir:Şəhriyar

Çap tarixi:۲۰۰۰

Səhifələrin sayı:۲۷۶

Çap növbəsi:Birinci

Tirajı:۲۰۰۰

səh:۱

## MÜNDƏRİCAT

MÜQƏDDİMƏ ........................................ ۱۲
BİRİNCİ DƏRS ........................................ ۱۳
DİN ........................................ ۱۳
İKİNCİ DƏRS ........................................ ۱۷
DİNƏ MEYLİN SƏBƏB VƏ MOTİVLƏRİ (۱) ........................................ ۱۷
CƏHALƏT NƏZƏRİYYƏSİ: ............... ۱۷ .۱
QORXU NƏZƏRİYYƏSİ: .................... ۱۹ .۲
ƏXLAQİ VƏ İCTİMAİ EHTİYACLAR NƏZƏRİYYƏSİ: ..................................... ۲۰ .۳
SUAL VƏ TAPŞIRIQLAR ........................ ۲۱
ÜÇÜNCÜ DƏRS ........................................ ۲۲
DİNƏ MEYLİN SƏBƏB VƏ MOTİVLƏRİ (۲) ........................................ ۲۲
İQTİSADİ AMİL NƏZƏRİYYƏSİ: ....... ۲۲ .۴
CİNSİ NƏZƏRİYYƏ: (FREYDİZM) .... ۲۴ .۵
BƏXT NƏZƏRİYYƏSİ: ........................ ۲۵ .۶
SUAL VƏ TAPŞIRIQLAR ........................ ۲۶
DÖRDÜNCÜ DƏRS ................................. ۲۷
İBTİDAİ DİNLƏR (۱) ................................ ۲۷
FETİŞİZM VƏ ANİMİZM ......................... ۲۷
FETİŞİZM .............................................. ۲۷ .۱
BEŞİNCİ DƏRS ........................................ ۳۲

İBTİDAİ DİNLƏR (۲) ................................ ۳۲

TOTEMİZM .......................................... ۳۲ .۳

TOTEMİZMİN ƏSAS PRİNSİPLƏRİ ....... ۳۲

QƏDİM VƏ MÜASİR TOTEMLƏR ......... ۳۵

SUAL VƏ TAPŞIRIQLAR ........................ ۳۶

ALTINCI DƏRS ........................................ ۳۷

İBTİDAİ DİNLƏR (۳) ................................ ۳۷

İBTİDAİ DİNLƏRİN ORTAQ XÜSUSİYYƏTLƏRİ .................................................. ۳۷

MÜQƏDDƏS BİR ƏŞYA ...................... ۳۷ .۱

MANAYA E'TİQAD ............................. ۳۷ .۲

SEHR VƏ CADU .................................. ۳۸ .۳

TABUYA E'TİQAD .............................. ۳۸ .۴

TƏMİZLƏNMƏ VƏ PAKLANDIRMA ۳۸ .۵

DİRİ ZƏNN ETMƏ .............................. ۳۹ .۶

TƏBİƏTƏ SİTAYİŞ .............................. ۳۹ .۷

QURBANLIQ ........................................ ۴۰ .۸

ÖLÜLƏRƏ HÖRMƏT QOYULMASI .. ۴۱ .۹

İNSAN, TƏBİƏT VƏ VARLIQ RUHUNUN VƏHDƏTİ ........................................ ۴۱ .۱۰

VARLIQ ALƏMİNİN MƏNŞƏYİNƏ QOVUŞMAQ MEYLİ ................................ ۴۱ .۱۱

EŞQ VƏ SİTAYİŞ ................................ ۴۱ .۱۲

ƏBƏDİYYƏTƏ E`TİQAD .................. ۴۲ .۱۳
İXTİYAR VƏ SEÇKİ .......................... ۴۲ .۱۴
SUAL VƏ TAPŞIRIQLAR ........................ ۴۲
MÜTALİƏ ÜÇÜN .................................... ۴۳
BİR İBTİDAİ CƏMİYYƏTİN TƏDQİQİ .. ۴۳
YEDDİNCİ DƏRS .................................... ۴۹
VEDA DİNİ (۱) .......................................... ۴۹
VEDA AYİNİNİN TARİXİ ...................... ۴۹
VEDA MƏ`BUDLARI .............................. ۵۰
SUAL VƏ TAPŞIRIQLAR ........................ ۵۳
SƏKKİZİNCİ DƏRS ................................ ۵۴
VEDA AYİNİ (۲) ...................................... ۵۴
SUAL VƏ TAPŞIRIQLAR ........................ ۵۷
DOQQUZUNCU DƏRS ............................ ۵۹
BRAHMAN AYİNİ (۱) ............................ ۵۹
VEDA AYİNİNDƏKİ DƏYİŞİKLİKLƏR ۵۹
İDEOLOJİ DƏYİŞİKLİKLƏR .................. ۵۹
BRAHMANA E`TİQAD: ...................... ۶۰ .۱
ATMƏN ................................................. ۶۰ .۲
KARMA VƏ TƏNASÜX .................. ۶۲ .۳-۴

MUKŞA (NİCAT YOLU) ...................... ۶۳ .۵
SUAL VƏ TAPŞIRIQLAR ........................ ۶۳
ONUNCU DƏRS ........................................ ۶۵
BRAHMAN AYİNİ (۲) .............................. ۶۵
VEDA DİNİNDƏ DƏYİŞİKLİKLƏR ....... ۶۵
İCTİMAİ QURULUŞ ............................. ۶۵ .۲
MÜQƏDDƏS KİTABLAR .................... ۶۷ .۳
SUAL VƏ TAPŞIRIQLAR ........................ ۶۹
ON BİRİNCİ DƏRS .................................. ۷۰
CAYNİZM (۱) ............................................ ۷۰
TARİXÇƏSİ ............................................... ۷۰
MÜQƏDDİMƏ ........................................... ۷۰
CAYNİZM AYİNİNİN BANİSİ ................ ۷۰
SUALLAR .................................................. ۷۴
ON İKİNCİ DƏRS ..................................... ۷۵
CAYNİZM AYİNİ (۲) ................................ ۷۵
ƏQİDƏ VƏ ƏXLAQ .................................. ۷۵
MƏ`BUDA E`TİQAD ................................ ۷۵
CİVA VƏ ACİVA ...................................... ۷۶
KARMA VƏ SAMSARA ........................... ۷۷

MUKŞA ...................................................... ٧٧

ƏXLAQ VƏ RƏFTAR PRİNSİPLƏRİ (NORMALARI) ............................................... ٧٨

POLEMİKA VƏ TƏDQİQAT ................... ۸۰
ON ÜÇÜNCÜ DƏRS ................................ ۸۱
BUDDİZM (۱) .......................................... ۸۱
BUDDA ..................................................... ۸۱
SUALLAR ................................................ ۸۵
ON DÖRDÜNCÜ DƏRS .......................... ۸۶
BUDDİZM (۲) .......................................... ۸۶
ƏQİDƏLƏRİ ............................................. ۸۶
KARMA VƏ SAMSARA .......................... ۸۹
SUAL VƏ TAPŞIRIQLAR ........................ ۹۰
ON BEŞİNCİ DƏRS ................................. ۹۱
BUDDİZM (۳) .......................................... ۹۱
ƏXLAQ ..................................................... ۹۱
SUAL VƏ TAPŞIRIQLAR ........................ ۹۵
POLEMİKA VƏ ARAŞDIRMA: ............... ۹۵
ON ALTINCI DƏRS ................................ ۹۶
BUDDİZM (۴) .......................................... ۹۶
AYİN VƏ MƏRASİMLƏR ........................ ۹۶
MÜQƏDDƏS KİTABLARI ...................... ۹۹
SUAL VƏ TAPŞIRIQLAR ...................... ۱۰۰

ON YEDDİNCİ DƏRS ............................ ١٠١
BUDDİZM (٥) ......................................... ١٠١
FİRQƏLƏR ............................................. ١٠١
SUAL VƏ TAPŞIRIQLAR ...................... ١٠٥
ON SƏKKİZİNCİ DƏRS ........................ ١٠٧
HİNDUİZM (١) ....................................... ١٠٧
MƏQSƏDLƏR VƏ YOLLAR ................ ١٠٧
HƏYATIN DÖRD MƏQSƏDİ ............... ١٠٨
NİCAT YOLLARI .................................. ١١٠
SUAL VƏ TAPŞIRIQLAR ...................... ١١١
ON DOQQUZUNCU DƏRS ................... ١١٢
HİNDUİZM (٢) ....................................... ١١٢
ALTI MƏKTƏB ...................................... ١١٢
POLEMİKA VƏ TƏDQİQAT ................ ١١۶
İYİRMİNCİ DƏRS ................................. ١١٧
HİNDUİZM (٣) ....................................... ١١٧
TRİMURTİ ............................................. ١١٧
MƏ`BUDLARIN HƏYAT YOLDAŞLARI ................................................. ١٢٠
POLEMİKA VƏ TƏDQİQAT ................ ١٢١
İYİRMİ BİRİNCİ DƏRS ........................ ١٢٢

HİNDUİZM (۴) ........................................ ۱۲۲

DİGƏR ƏQİDƏLƏR ................................ ۱۲۲

SAYSIZ-HESABSIZ TANRILAR ....... ۱۲۲ .۱

İBADƏT VƏ PƏRƏSTİŞ .................... ۱۲۳ .۲

MƏ`BƏDLƏR .................................... ۱۲۳ .۳

QANQA ÇAYI .................................. ۱۲۴ .۴

BRAHMAN ........................................ ۱۲۵ .۵

İNƏYİN HÖRMƏTİ ............................ ۱۲۵ .۶

SUAL VƏ TAPŞIRIQLAR ...................... ۱۲۶

İYİRMİ İKİNCİ DƏRS ........................... ۱۲۸

HİNDUİZM (۵) ......................................... ۱۲۸

FİRQƏLƏR ............................................. ۱۲۸

POLEMİKA VƏ TƏDQİQAT ................. ۱۳۱

İYİRMİ ÜÇÜNCÜ DƏRS ....................... ۱۳۲

SİQH AYİNİ (۱) ...................................... ۱۳۲

SİQH AYİNİNİ FORMALAŞDIRAN ZƏMİNLƏR ................................................... ۱۳۳

NANAKIN TƏBLİĞAT METODU ......... ۱۳۴

SUAL VƏ TAPŞIRIQLAR ...................... ۱۳۵

İYİRMİ DÖRDÜNCÜ DƏRS ................. ۱۳۶

SİQH AYİNİ (۲) ...................................... ۱۳۶

ƏQİDƏLƏRİ ........................................... ۱۳۶

ALLAHI ZİKR ETMƏK ..................... ۱۳۷ .۲

QRANT ............................................ ۵. ۱۳۹
SUAL VƏ TAPŞIRIQLAR ..................... ۱۴۰
İYİRMİ BEŞİNCİ DƏRS ........................ ۱۴۱
TAO AYİNİ (۱) ...................................... ۱۴۱
KÖKLƏRİ VƏ FƏLSƏFƏSİ .................. ۱۴۱
TAO AYİNİN KÖKLƏRİ ........................ ۱۴۱
SUALLAR .............................................. ۱۴۴
İYİRMİ ALTINCI DƏRS ........................ ۱۴۵
TAOİZM (۲) .......................................... ۱۴۵
ƏXLAQ VƏ DİN .................................... ۱۴۵
LAO-TZE FƏLSƏFƏSİ ƏSASINDA ƏXLAQIN ƏSASLARI ................................. ۱۴۵
B) TAOİZMDƏ SEHRKARLIQ ............. ۱۴۶
C) TAOİZMİN DİNİ YÖNLƏRİ ............ ۱۴۷
SUALLAR .............................................. ۱۴۸
İYİRMİ YEDDİNCİ DƏRS .................... ۱۴۹
KONFUSİON AYİNİ .............................. ۱۴۹
KÖKLƏRİ ................................................ ۱۴۹
KONFUSİON BARƏSİNDƏ .................. ۱۴۹
KONFUSİON AYİNİNİN ƏSAS MƏNBƏLƏRİ ....................................................... ۱۵۰
KONFUSİON AYİNİNİN FORMALAŞMA ZƏMİNİ ............................................... ۱۵۱

SUAL VƏ TAPŞIRIQLAR ...................... ۱۵۲

İYİRMİ SƏKKİZİNCİ DƏRS ................. ۱۵۳

KONFUSİON AYİNİ (۲) ........................ ۱۵۳

ƏSAS VƏ E`TİQADLARI ...................... ۱۵۳

KONFUSİON ƏXLAQI .......................... ۱۵۳

KONFUSİON AYİNİNİN ƏQİDƏLƏRİ . ۱۵۶

SUAL VƏ TAPŞIRIQLAR ..................... ۱۵۶

İYİRMİ DOQQUZUNCU DƏRS ............ ۱۵۷

ŞİNTO AYİNİ ....................................... ۱۵۷

ŞİNTONUN MƏ`NASI .......................... ۱۵۷

ƏSASLARI VƏ E`TİQADLARI ............. ۱۵۸

DİNİ DƏYİŞİKLİKLƏR ......................... ۱۵۹

DİNİ AYİN VƏ MƏRASİMLƏR ........... ۱۵۹

SUAL VƏ TAPŞIRIQLAR ..................... ۱۶۱

OTUZUNCU DƏRS ............................... ۱۶۲

ZƏRDÜŞTİLİK (۱) ................................ ۱۶۲

MÜQƏDDİMƏ ...................................... ۱۶۲

ZƏRDÜŞTİLİYİN TARİXÇƏSİ ............. ۱۶۲

MUĞAN DİNİ ....................................... ۱۶۳

MEHRPƏRƏSTLİK, YAXUD MİTRAİZİM ........................................................... ۱۶۴

SUAL VƏ TAPŞIRIQLAR ..................... ۱۶۵

OTUZ BİRİNCİ DƏRS .......................... ۱۶۶

ZƏRDÜŞTİLİK (٢) ................................ ١۶۶

PEYĞƏMBƏRLİYƏ SEÇİLMƏ ............ ١۶٧

SUAL VƏ TAPŞIRIQLAR ..................... ١۶٨

OTUZ İKİNCİ DƏRS ............................ ١٧٠

ZƏRDÜŞTİLİYİN ƏQİDƏLƏRİ ............ ١٧٠

SUAL VƏ TAPŞIRIQLAR ..................... ١٧٢

OTUZ ÜÇÜNCÜ DƏRS ......................... ١٧٣

AVESTA ............................................... ١٧٣

SUALLAR ............................................. ١٧۶

OTUZ DÖRDÜNCÜ DƏRS .................... ١٧٧

ZƏRDÜŞTİLİYİN DİNİ AYİNLƏRİ ...... ١٧٧

SUAL VƏ TAPŞIRIQLAR ..................... ١٨٠

OTUZ BEŞİNCİ DƏRS ......................... ١٨١

ZƏRDÜŞT DİNİNDƏKİ DƏYİŞİKLİKLƏR ............................................. ١٨١

FİRQƏLƏR ......................................... ١٨١ .١

YENİ DİNLƏR .................................... ١٨٢ .٢

SİAYSİ DƏYİŞİKLİKLƏR ................. ١٨٣ .٣

SUALLAR ............................................. ١٨۴

OTUZ ALTINCI DƏRS ......................... ١٨۵

BƏNİ-İSRAİL QÖVMÜ ........................ ١٨۵

SUAL VƏ TAPŞIRIQLAR ...................... ۱۸۸

OTUZ YEDDİNCİ DƏRS ........................ ۱۸۹

HƏZRƏT MUSA (Ə) ............................. ۱۸۹
TƏVƏLLÜDÜ VƏ UŞAQLIQ İLLƏRİ... ۱۸۹
CAVANLIĞI VƏ AİLƏ QURMASI ........ ۱۹۰
PEYĞƏMBƏRLİYƏ ÇATMASI ............ ۱۹۱
SUALLAR ............................................. ۱۹۲
OTUZ SƏKKİZİNCİ DƏRS .................... ۱۹۳
YƏHÜVƏH ........................................... ۱۹۳
SUALLAR ............................................. ۱۹۶
OTUZ DOQQUZUNCU DƏRS .............. ۱۹۷
YƏHUDİ TƏFƏKKÜRÜ ........................ ۱۹۷
TÖVHİD VƏ ŞİRK ................................ ۱۹۷
SEÇİLMİŞ QÖVM ................................. ۱۹۹
AXİRƏT ................................................ ۲۰۰
SUALLAR ............................................. ۲۰۰
QIRXINCI DƏRS .................................. ۲۰۱
YƏHUDİ AYİNLƏRİ VƏ İXTİLAFLARI ............................................................. ۲۰۱
ŞƏNBƏ GÜNÜ MƏRASİMİ ................... ۲۰۲
BAYRAMLAR ...................................... ۲۰۲
ŞƏRİƏT HÖKMLƏRİ ............................ ۲۰۳
YƏHUDİ ƏXLAQI ................................ ۲۰۴

SUAL VƏ TAPŞIRIQLAR ...................... ۲۰۴

QIRX BİRİNCİ DƏRS ............................ ۲۰۵

TÖVRAT .................................................. ۲۰۵

SUAL VƏ TAPŞIRIQLAR ...................... ۲۰۸

QIRX İKİNCİ DƏRS ............................... ۲۰۹

TƏLMUD ................................................. ۲۰۹

TƏLMUDUN YAZILMASI ..................... ۲۰۹

TƏLMUD TƏ’LİMLƏRİNDƏN BƏ’Zİ NÜMUNƏLƏR .......................................... ۲۱۱

SUAL VƏ TAPŞIRIQLAR ...................... ۲۱۲

QIRX ÜÇÜNCÜ DƏRS .......................... ۲۱۳

YƏHUDİ FİRQƏLƏRİ ........................... ۲۱۳

FƏRİSYUN .......................................... ۲۱۳ .۱

SƏDUQİYYUN ................................... ۲۱۳ .۲

SAMİRİYYUN ..................................... ۲۱۴ .۳

İSİNİYYUN ......................................... ۲۱۴ .۴

QURRAVUN, YAXUD ƏNANİYYUN ...................................................... ۲۱۵ .۵

QƏBALƏT .......................................... ۲۱۵ .۶

SUAL VƏ TAPŞIRIQLAR ...................... ۲۱۵

QIRX DÖRDÜNCÜ DƏRS ..................... ۲۱۶

SİONİZM ................................................ ۲۱۶

SİONİZM NECƏ YARANMIŞDIR? ....... ۲۱۶

SİONİST TƏRZİ-TƏFƏKKÜRÜ ............ ۲۱۸

SUAL VƏ TAPŞIRIQLAR ........................ ۲۱۹

QIRX BEŞİNCİ DƏRS ............................... ۲۲۱

SABEİ DİNİ ................................................ ۲۲۱

MÜQƏDDİMƏ ......................................... ۲۲۱

SABE KƏLMƏSİNİN LÜĞƏT MƏ’NASI ................................................................ ۲۲۱

DİNİ ƏSASLARI ..................................... ۲۲۲

MÜQƏDDƏS KİTABLARI ...................... ۲۲۲

FİRQƏLƏR ................................................ ۲۲۲

ƏQİDƏLƏRİ ............................................. ۲۲۳

AYİNLƏR VƏ HÖKMLƏR ...................... ۲۲۳

SUALLAR VƏ TAPŞIRIQLAR .............. ۲۲۴

QIRX ALTINCI DƏRS ............................ ۲۲۵

MƏSİHİLİK ................................................ ۲۲۵

MÜQƏDDİMƏ ......................................... ۲۲۵

İSANIN (Ə) ZÜHUR ETDİYİ ƏSR ......... ۲۲۵

SUALLAR ................................................... ۲۲۸

QIRX YEDDİNCİ DƏRS ......................... ۲۲۹

HƏZRƏT İSA (Ə) VƏ MƏRYƏM .......... ۲۲۹

QUR’AN NÖQTEYİ-NƏZƏRİNDƏN HƏZRƏT MƏRYƏM (Ə) .............................. ۲۲۹

QUR’AN NÖQTEYİ-NƏZƏRİNDƏN HƏZRƏT İSA (Ə) ......................................... ۲۳۰

İNCİL NÖQTEYİ-NƏZƏRİNDƏN HƏZRƏT İSA (Ə) ........ ٢٣١
SUAL VƏ TAPŞIRIQLAR ........ ٢٣٢
QIRX SƏKKİZİNCİ DƏRS ........ ٢٣٣
PULS RƏSUL ........ ٢٣٣
PULSUN KEÇMİŞİ ........ ٢٣٣
PULSUN İFA ETDİYİ ROL ........ ٢٣٤
SUAL VƏ TAPŞIRIQLAR ........ ٢٣۶
QIRX DOQQUZUNCU DƏRS ........ ٢٣٧
MƏSİHİLİYİN ƏQİDƏLƏRİ (١) ........ ٢٣٧
BİRİNCİ MEHVƏR ........ ٢٣٧
MƏSİHİLİK TƏFƏKKÜRÜNDƏ ALLAH ANLAMI ........ ٢٣٧
MƏSİHİ MƏNBƏLƏRİNDƏ TÖVHİD VƏ TƏSLİS ........ ٢٣٨
SUALLAR ........ ٢۴٠
ƏLLİNCİ DƏRS ........ ٢۴١
MƏSİHİLİYİN ƏQİDƏLƏRİ (٢) ........ ٢۴١
İKİNCİ MEHVƏR ........ ٢۴١
HƏZRƏT MƏSİHİN İNSAN SURƏTİNDƏ NAZİL OLMASI ........ ٢۴١
FİDA ........ ٢۴٢
TƏNQİDLƏR VƏ MÜLAHİZƏLƏR ........ ٢۴٣
ÜÇÜNCÜ MEHVƏR ........ ٢۴۴

HƏZRƏT MƏSİHİN MÜHAKİMƏSİ ..... ۲۴۴

SUALLAR ................................................ ۲۴۴

ƏLLİ BİRİNCİ DƏRS .............................. ۲۴۵

MƏSİHİLİYİN ƏXLAQI ......................... ۲۴۵

ASİMANİ MƏLƏKUT ÜÇÜN HAZIRLIQ ................................................................ ۲۴۶

İNSANLARA MƏHƏBBƏT .................... ۲۴۷

RİYAKARLIQDAN UZAQ OLMAQ ..... ۲۴۸

SUALLAR ................................................ ۲۴۸

ƏLLİ İKİNCİ DƏRS ................................ ۲۴۹

MƏSİHİLİYİN DİNİ QAYDA–QANUNLARI VƏ MƏRASİMLƏRİ ........................ ۲۴۹

SUALLAR ................................................ ۲۵۲

ƏLLİ ÜÇÜNCÜ DƏRS ............................ ۲۵۳

İNCİL ........................................................ ۲۵۳

SUALLAR ................................................ ۲۵۷

ƏLLİ DÖRDÜNCÜ DƏRS ...................... ۲۵۸

RAHİBLİK (TƏRKİ DÜNYALIQ).......... ۲۵۸

MÜQƏDDİMƏ ........................................ ۲۵۸

TARİXÇƏSİ ............................................ ۲۵۸

QƏRBDƏ RAHİBLİK .............................. ۲۵۹

SUALLAR ................................................ ۲۶۱

ƏLLİ BEŞİNCİ DƏRS ............................ ۲۶۲

MƏSİHİ MƏZHƏBLƏRİ (۱) .................. ۲۶۲

MƏSİHİLİKDƏ MƏZHƏB VƏ FİRQƏLƏRİN YARANMA SƏBƏBLƏRİ ............ ۲۶۲

ORTODOKS (ORTHODOX) .................. ۲۶۴

SUALLAR ............................................... ۲۶۵

ƏLLİ ALTINCI DƏRS ............................ ۲۶۶

MƏSİHİ MƏZHƏBLƏRİ (۲) .................. ۲۶۶

KATOLİK (CATHOLİC) ......................... ۲۶۶

PROTESTANT (PROTESTANT) ........... ۲۶۷

SUALLAR VƏ TAPŞIRIQLAR ............. ۲۶۹

ƏLLİ YEDDİNCİ DƏRS ........................ ۲۷۰

MƏSİHİ FİRQƏLƏRİ (۱) ....................... ۲۷۰

PROTESTANT FİRQƏLƏRİ .................. ۲۷۰

KALUNİSTLƏR .................................. ۲۷۰ .۱

ANABA PETİSTLƏR .......................... ۲۷۱ .۲

NANKONFURMİSTLƏR ................... ۲۷۱ .۳

PİVERİTENLƏR ................................. ۲۷۱ .۴

KƏVİKİRLƏR ..................................... ۲۷۲ .۵

PİTİSTLƏR ......................................... ۲۷۲ .۶

SUALLAR ............................................... ۲۷۳

ƏLLİ SƏKKİZİNCİ DƏRS ...................... ۲۷۴

MƏSİHİ FİRQƏLƏRİ (۲) ....................... ۲۷۴

YƏSUİLƏR ............................................... ۲۷۴

NURMUNLAR ......................................... ۲۷۵

YƏHÜVƏH (ŞAHİDLƏR) ...................... ۲۷۵

MUNİZM .................................................. ۲۷۶

SUAL VƏ TAPŞIRIQLAR ...................... ۲۷۶

## MÜQƏDDİMƏ

İslamın əziz Peyğəmbəri (s) və mə’sum imamlar (Allahın salamı onlara olsun) Qur’anın elmi əsaslarını həyata keçirməklə cəmiyyətdə müqəddəs İslam dininin inqilabi və parlaq mədəni təməlinin əsasını qoymuşlar. O əzizlər maariflərini həyatda yaşatmaq və onun yayılması, tə`limi naminə bu işin ağır yükünü çiyinlərinə çəkməyə qüdrəti .olanlardan heç nəyini əsirgəməmək üçün şəriətşünas, təmiz alimlər tərbiyə etmişlər

Müasir dövrdə də istismarçı və zülmkarların ruhanilik, dini təhsil ocaqlarının kökünü kəsmək və ya onların inkişafına, yüksəlişinə mane olmaq, doğru yollarından sapdırmaq üçün göstərdikləri təzyiqlərə rəğmən bu müqəddəs qurum əvvəlkitək .möhkəm iradə və alnıaçıqlıqla öz inkişaf və yüksəliş yolunu davam etdirir

Bu qüdrətli elmi-dini mərkəz mövcud olduğu dövrdə müxtəlif nəsillərin ehtiyacını ödəmiş, bəşər tarixində dost və düşmənlərin sual və şübhələrinin aradan qaldırılmasına nail olmuşdur. Belə bir xüsusiyyəti isə o, daha çox mülayimlik, açıqlıq və .novatorluq nümayiş etdirdiyi dövrdə kəsb etmişdir

:Bu gün uğurlu dini-elmi məktəblər aşağıdakı xüsusiyyətlərinə görə qiymətləndirilirlər

İslam elm-maarifinin bütün sahələrinə diqqət yetirmək, bu sahələrin hər birində. ١ ;yorulmadan araşdırma aparmaq və davamlı sə`y göstərmək

Günün tələbinə uyğun və elmi inkişaf, novatorluq xüsusiyyətlərilə dərin düşüncə və .٢ qiymətli İslam mirası ilə əlaqəsinin qorunub saxlanılmasını özündə birləşdirəcək şəkildə tədris və dərsliklərin hazırlanma metodlarının mütəmadi olaraq yenidən ;nəzərdən keçirilməsi

Günümüzün problemləri ilə tanışlıq və Qur`anın elmi prinsiplərinə, möhkəm əqli .٣ əsaslara istinad etməklə şübhə və yeni yaranan ehtiyaclara zəmanənin tələbi ilə səsləşən və hətta onu da qabaqlayacaq bir səviyyədə cavab vermək məs`uliyyətini .öhdəsinə götürmək

Belə bir şəraitdə, ölkə xaricində Dini-Elmi Müəssisələr Təşkilatı görkəmli tədqiqatçı və alimlərin əsərlərindən faydalanmaqla hazırladığı və təhsil, tədris metodları, dərsliklərin

:işlənməsini əhatə edən yeni təhsil planında aşağıdakı məqamları nəzərə almışdır

a.) Hər bir dərs saatı üçün nəzərdə tutulan proqrama əsasən hər bir dərsin təhsil ;məqamlarına riayət olunması

;b.) Tədris pillələrinin hər birində tələbələrin elmi səviyyəsinin gözlənilməsi

s.) Bir semestrin dərslikləri arasında bağlılıq və mütənasibliyin gözlənilməsi, ;materialların keçilməsində yüklənmə və səthilikdən çəkinmək

.d.) Dərsliklərin hazırlanma prinsiplərinə riayət etməli

səh:۱۲

## BİRİNCİ DƏRS

## DİN

?Din nədir .١

?Dinin əsas dayaqları nədən ibarətdir .٢

Din" kəlməsinin müxtəlif mə'naları vardır. Onlardan: "cəza", "itaət", "adət", "hökm"," "bağlılıq", "qəhr və qələbə" və s. qeyd etmək olar. Amma, bu sözün ən mühüm və ümdə mə'nası "İtaət və əmrə tabe olmaqdır". Əlbəttə, dinin "bağlılıq" mə'nasında olmasını da nəzərdən qaçırmaq olmaz. Bütün bu mə'nalara diqqət yetirməklə din anlamını belə :tə'rif etmək olar

Varlığın mənşəyinə itaət üçün insan həyatını nizama salan qanun və hökmlər . ١ .toplusuna din deyilir

:Yuxarıdakı tə`rifi daha da dəqiqləşdirmək üçün dini belə də tə'rif etmək olar

Din – varlığın mənşəyinə əqidə yolunda insanın rəftar və əməllərində qəbul etdiyi bir .٢ .bağlılıqdır

:Bu iki tə'rifə əsasən dinin iki mühüm və əsas kökü olacaqdır

;Varlığın mənşəyinə əqidə.١

.Bu əqidədən doğan tələblərə əməl etmək.٢

İnsanların, varlığın mənşəyi haqda olan baxışları müxtəlif olduğundan, onların dinə olan münasibətləri də bir-birindən fərqlidir. Ayrı-ayrı şəxslər və ya cəmiyyətlər .arasındakı dini ixtilafların da kökü məhz budur

Mərhum Əllamə Təbatəbai din haqda belə deyir: "-Qur'an nöqteyi-nəzərindən, xalq arasında mövcud olan ictimai adət və ən`ənələrə din deyilir. Bu ictimai adət-ən`ənələr də öz növbəsində fitri və haqq dinə və bir də təhrif olunmuş və qeyri-fitri ".dinə bölünür

Digər bir cəhətdən də, ilahi dinlər ayrı-ayrı fərdlərin və cəmiyyətin islahı, təkamülü, nicat və xoşbəxtliyi üçün göndərilmişdir. Ona görə də dinin mahiyyətini başqa bir ifadə ilə belə izah edirlər: " - Din, Allah-Təala tərəfindən bəşəriyyətin xoşbəxtliyə çatmasından ötrü haqq peyğəmbərlərə nazil olan hökmlər və göstərişlər toplusudur. Ona görə bu əmrlərə və qayda-qanunlara tabe olmağı lazım bilmişdir ki, insanlar ".bunlara tabe olmaqla Allahın və`d və zəmanət verdiyi səadətə çatsınlar

Bə'zi alimlər və tədqiqatçılar isə din haqqında belə demişlər: " - Din elə bir ilahi quruluşdur ki, ağıl və təfəkkür sahiblərini öz iradə və ixtiyarı ilə dünyada xeyirə və ".axirətdə isə səadətə tərəf sövq etdirir və onları düzgün yola istiqamətləndirir

Qərb alimləri də din haqqında müxtəlif mülahizələr irəli sürmüşlər. Onlardan bə'ziləri deyirlər: " - Din, yaranmışların yaradan qarşısındakı, insanın Allah, cəmiyyət və özü qarşısındakı vəzifələr toplusudur". Yaxud, - "Din insanların öz

vacib və zəruri vəzifələrini ilahi əmrlərin nəzərə alınması əsasında olduğunu dərk ".etmələrinə deyilir

Başqa bir tə`rifdə deyilir: " - Din, həmin ibadətdir. İbadət iki məqulədən, iki ünsürdən ".ibarət bir əməldir

İbadət insan ağlının qəbul və təsdiq etdiyi bir əməldir. İnsan onun vasitəsilə yenilməz.١ ;bir qüvvənin varlığını qəbul edir

İbadət məhəbbətlə yoğrulan içəridən gələn bir əməldir. İnsan onun vasitəsilə.٢ .yenilməz bir qüvvənin eşq-məhəbbətinə doğru yüksəlir

Dinə verilən bütün bu tə'riflərin hamısında müəyyən iradlar və çatışmazlıqlar tapmaq olar. Tə'rif və izahların müştərək nöqtəsi budur ki, onların hamısı səmavi vəhyə, mütləq vücud sahibinin (yə'ni Pərvərdigarın) varlığına inama əsaslanır. Ona görə də belə tə'rifləri yalnız ilahi dinlərə aid etmək olar. Halbuki, bəşəri əqidələrin arasında qeyri-İlahi dinlər də mövcuddur. Kor- təbii surətdə yaranaraq təkcə insan ağlına əsaslanan, yaxud xəyal və gümanlardan yaranan xurafat dinlər və ümumiyyətlə bütlərə, ulduzlara, mələklərə və s. əsaslanan dinlər də vardır. Bunları nəzərə alsaq, belə dinlər yuxarıdakı tə'rifdən kənarda qalacaq. Halbuki, Qur'an nöqteyi-nəzərindən bu kimi düzgün olmayan əqidələr də "din" adlandırılmışdır. Ali-İmran surəsinin ٨٥-ci ayəsində oxuyuruq: " - Hər kim İslamdan başqa bir din ardınca gedərsə, heç vaxt ".ondan qəbul olunmaz

Bundan əlavə, "Kafirun" surəsinin ٥-ci ayəsində buyurulur: " - Sizin öz dininiz və mənim ".də öz dinim vardır

Yuxarıda qeyd olunan bu çatışmazlığlar, bə'zi dinşünas alimlərin dinin tə'rifini genişləndirməsinə səbəb olmuşdur. Onlar dinin tə'rifində yazırlar: " - Din, insanların mütləq azadlığına və özbaşınalıqlarına mane olan çəkinmələr və pəhrizlər toplusuna ".deyilir

Başqa bir tə'rifdə deyilir: " - Din, insanların müqəddəs hadisə və varlıqlarla bağlı olan ".əməl və e'tiqadlarından ibarətdir ki, onlar bir-biri ilə sıx əlaqədədir

Yuxarıdakı iki tə’rifdə mütləq vücud və varlıq sahibindən danışılmır. Bu kimi izahları qəbul edənlər, əslində qeyri-İlahi dinləri də dinin tə’rifinə daxil etmək istəmişlər. Lakin bu mövzuda başqa bir məsələyə də diqqət yetirmək lazımdır. Dinlər tarixi barədə nəzəriyyə irəli sürən tarixçilər yekdilliklə bu qənaətə gəliblər ki, bəşər tarixində formalaşan bütün cəmiyyətlərdə daimi olaraq, insan həyatının əvvəli və sonu, varlığın və yaradılışın səbəbləri haqda düşünüblər. Bu barədə onlar müəyyən fikirlər irəli sürmüş və ona e`tiqad bəsləmişlər; düzgün və ya səhv, haqq və ya batil, ağıl və məntiqə uyğun və ya xurafi olmasından asılı olmayaraq, onları qəbul etmişlər. Başqa sözlə desək, xurafi dinlərin meydana gəlməsi insanların özü barəsindəki suallara necə cavab tapmalarından asılı olub. İnsanlar daim “ - Haradan gəlmişəm?”, “ - Nə üçün gəlmişəm?”, “ - Hara gedirəm?” və bu kimi digər suallara cavab tapmağa çalışıb. İlahi və xurafi olmasından asılı olmayaraq, demək olar ki, bütün dinlər varlığın nizam və quruluşu barədə müxtəlif cür düşünüb müəyyən nəzəriyyələr irəli sürüblər. Onların arasında nəzərə çarpan fərq, yalnız bu fikirlərin məntiq və əql və ya xurafat və mövhumat əsasında

olmasındadır. Gələcək dərslərdə öyrənəcəyik ki, “Buddizm”, “Caynizm” və “Konfisiyus” əqidələrində varlığın yaradanına e’tiqadın olmasını təsəvvür etmək səhv və qəbulolunmazdır. Buradan mə`lum olur ki, varlığın mənşəyinə e`tiqad bütün dinlərin əsas özəyini təşkil edir. Diqqət olunmalı başqa bir əsas da “pərəstiş və ibadətin .əsasları”dır ki, yuxarıdakı tə’riflərin bə’zilərində öz əksini tapmışdır

İnsan varlıq aləminin başlanğıcını dərk etdikdən sonra başa düşür ki, onun yaradanı sonsuz qüdrət və diqqət sahibidir. İstər-istəməz insan Onun bu əzəmət və qüdrəti qarşısında özünü zəif, gücsüz və möhtac hesab edir. Ona görə də insanda bütün qəlbi ilə əyilmə, boyun əymə, itaət hissi yaranır. Bu hisslə yanaşı insanda mütləq varlıq müqabilində ehtiyac hissi və müqəddəs bilmək, məhəbbətini izhar etmək hissi əmələ gəlir. Belə bir halətə ibadət və pərəstiş deyilir. Əslində, insan bir tərəfdən varlığın Yaradanının qəzəb və tədbirinin qorxusundan amanda qalmaq, başqa tərəfdən də Onun razılığını, lütf və mərhəmətini qazanmaq istəyir; Ondan kömək almaqla öz ehtiyaclarını tə`min etməyə çalışır. Bu iş adətən xüsusi əməl və zikrlər vasitəsilə həyata keçirilir; bu hər bir din və məzhəbdə özünə xass şəkildə, müxtəlif cür baş verir. Ona görə də hər bir dinin ibadət və mərasimləri başqa dinlərdən fərqlidir. Müəyyən bir dinə e`tiqad bəsləyən şəxsin ibadət forması onun “varlıq mənşəyini” necə tanımasını və dərk etməsini göstərir. Qeyd etmək lazımdır ki, dində boyun əymə və itaət yalnız varlığı idarə edən yenilməz qüvvə sahibinə tabe olmaqdan ibarət deyil. Çünki, varlıq aləmində yerin cazibə qüvvəsi kimi elə qüvvələr vardır ki, insanlar istər-istəməz onlara boyun əyir və tabe olur. Bu kimi hallara adətən ibadət deyilmir. İbadət elə bir tə’zim, itaət və boyun əyməyə deyilir ki, əvvəla o, tə`zim olunan və müqəddəs sanılan bir zat və həqiqi varlığın müqabilində olsun. Mə’lum olduğu kimi, varlıq aləmində heç bir qüvvə təkcə qorxulu və qəzəbli olduğu üçün müqəddəs sayılmır və tə’zim olunmur. İkincisi, elə bir zat və varlığı müqəddəs sayılır və tə’zim olunur ki, mütləq dərəcədə kamala və yenilməz vəsflərə malik olsun. Belə ki, o zat və qüdrət bütün varlıqlardan üstün olmalıdır ki, insan bu mütləqiyyətə görə özünü ona möhtac bilib onun .müqabilində pərəstiş hissi keçirsin

Beləliklə, mə’lum olur ki, hər hansı bir varlığı müqəddəs sanmaq və ya ona tə’zim etmək heç də həmişə sitayiş etməklə yanaşı olmur. Məsələn biz şərəf, namus, azadlıq,

səxavət və s. bu kimi məfhumlara dərin hörmət və tə’zimlə yanaşır, lakin heç vaxt .onlara ibadət və pərəstiş etmirik

Üçüncüsü, elə bir zat və qüdrətə pərəstiş olunur ki, təbiət və maddi varlıqların növündən olmasın. Bu zat və varlıq hər bir şeydən yüksək olub, bütün varlıqlara hakim olmalıdır; bütün yaranmışlarda dəyişiklik etmək qüdrətinə malik olub, mə’nəvi və .maddi ehtiyaclarımızı ödəyə bilməlidir

Nəhayət, bu ulu və müqəddəs Zat bütün varlıq aləminin tədbirini öz üzərinə götürməlidir; varlıqlardan və mövcudatdan ayrı olmamalı, bəşəriyyətlə, bütün yaranmışlarla dərin və qırılmaz tellərlə bağlanmalıdır; onların bütün sirlərini və ehtiyaclarını bilməlidir, dərd-qəmindən və istəklərindən xəbərdar olmalıdır. O, hər

bir dində mövcud olan – xüsusi şərtlərə riayət olunduqda onları istəklərinə çatdırmalıdır. Beləliklə, aydın olur ki, dində boyun əymə və tə`zim hissi əslində varlıq aləminin mənşəyi olan mə`bud kimi pərəstiş və ibadət olunan yenilməz qüvvət və qüdrət sahibini müqəddəs sayıb ona tə`zim etməkdən ibarətdir. Burada belə bir sual ?qarşıya çıxa bilər. Bu qayda-qanunlar bütün ilahi və qeyri-ilahi dinlərə də aiddirmi

Mə'lum olduğu kimi, bir çox ibtidai-xurafi dinlərdə daş, ağac, çay, dəniz, ulduz, quşlar və bu kimi digər şeylər müqəddəs sayılır və insanlar onlara pərəstiş edirdilər. Amma .yuxarıda sadaladığımız xüsusiyyətlərin heç biri onlarda yoxdur

Bu sualın cavabında demək lazımdır ki, belə ibtidai dinlərin ardıcıllarının fikirlərini, düşüncə tərzlərini tədqiq etdikdə mə`lum olur ki, bizim "totem" və ya "büt" adlandırdıqlarımızın heç birinə onlar heç vaxt müstəqil bir rəbb və mə'bud inancı ilə ibadət etməyiblər. Yə'ni, heç də ibtidai insanlar daş, ağac və s. şeylərə, onların həyatında və işlərində hansısa bir ehtiyaclarını ödəyə biləcək bir tərzdə əqidə bəsləməyiblər. Onlar öz səhv e'tiqadlarına görə bütün bunları uca və yenilməz qüdrətin feyz və rəhmət vasitəsi hesab edirdilər; güman edirlərmiş ki, bu əşyaları müqəddəsləşdirməklə və onlara tə'zim etməklə həqiqi rəbbi özlərindən razı salar və yaxud onların vasitəsilə öz hacət və istəklərinə çatarlar. Onlar bu "totem" və "büt"ləri .e`tiqad bəslədikləri həqiqi mə'budun xüsusiyyətlənin təcəllisi kimi düşünürdülər

Qur'ani-Kərimdə bütpərəstlərin məntiqi və onların bütləri müqəddəsləşdirmələrinin səbəbi barəsində belə oxuyuruq: "(Bütpərəstlər) dedilər: " – Biz bunlara (bütlərə) yalnız Allaha yaxın olmaqdan ötrü pərəstiş edirik". Bu izahla əvvəldə dediklərimizi belə :tamamlayırıq. Dinin iki əsas dayağı vardır

Varlıq aləminin sahibinə e'tiqad – yə`ni öz yenilməz qüvvət və qüdrəti ilə varlıq .١ .aləmini idarə edənə e`tiqad

Bu e'tiqaddan doğan tələblərə əməl etmək və onun mütləq varlıq sahibinə mə'bud, .٢ rəbb adı ilə tə'zim və pərəstiş etmək – bu yolla onun razılığını qazanıb, maddi-mə'nəvi .ehtiyaclarımızı təmin etmək

**SUALLAR**

?Dinin” lüğəvi mə’nası nədir“ .۱

?Dinin” terminoloji mə’nası nədir“ .۲

?Dinin” əsas kökləri hansılardır“ .۳

?Bütün dinlərdə Allaha e’tiqad inancı vardırmı .۴

?Bütün dinlərdə pərəstiş və ibadət ayini vardırmı .۵

səh:۱۶

## İKİNCİ DƏRS

### (DİNƏ MEYLİN SƏBƏB VƏ MOTİVLƏRİ (١

### İŞARƏ

?İnsan dinə, məzhəbə və Allaha e`tiqad bəsləməyə necə meyl göstərmişdir .١

İnsanların dinə yönəlməsində cəhalət, qorxu və ictimai-əxlaqi ehtiyaclar nə kimi .٢ ?tə`sir göstərmişdir

Dini anlayışlar və bu barədə aparılan araşdırmalar baxımından hər bir din tədqiqatçısı və sosioloqun qarşılaşdığı ilk sual bundan ibarətdir: Tarix boyu hansı amillər insanların dini düşüncələrə yönəlməsinə səbəb olmuşdur? Görəsən insanı dinə, mə’nəviyyata, təbiətin fövqündə olan həqiqətlərin axtarışına vadar edən səbəblər daxili bir amil və ehtiyac hissindən doğmuşdurmu? Və yaxud o, digər amillərin, ümumiyyətlə onun ixtiyarında olmayan səbəblərin tə`siri ilə bu kimi inancları qəbul etmək məcburiyyətində qalmışdır? Bundan əlavə, din elə ilk dövrlərdən insanla birlikdə yaranmışdır, yoxsa onu insanlar yaratmışdır? Qısa şəkildə desək, “din necə formalaşmışdır?” sualı din sahəsində çalışan hər bir tədqiqatçı alimin və sosioloqun .rastlaşdığı ilk sualdır

Tarixçilər və din tədqiqatçıları tərəfindən bu kimi suallara cavab verilərkən insanın dinə və dini meylliliyə yönəldən səbəblər barədə bir-birindən fərqli nəzəriyyələr irəli sürülmüşdür. Bu və gələn dərslərdə məhz həmin mövqeləri araşdırıb, mühüm .nəzəriyyələri tənqid və təhlil edəcəyik

#### :CƏHALƏT NƏZƏRİYYƏSİ .١

Bu fikri irəli sürənlər sübut etmək istəyirlər ki, daim arayıb-axtaran insan ruhu hadisələrin səbəbini axtarıb - həmən hadisənin səbəbini tapmaqda aciz qaldıqda, onlar üçün qeyri-adi səbəblər təsəvvür etməyə başlamışdır. Misal üçün, ildırımın nə olduğunu bilmədiyi üçün onu allahların qəzəbi kimi başa düşmüşdür, yaxud ağcaqanad vasitəsi ilə yayılan malariya xəstəliyinin səbəbindən xəbərsiz olduğu üçün, belə bir e`tiqada malik idi ki, hər kim gölməçənin yanında yatsa - orada yaşayan cinlər onun

başına yığışaraq xəstəliyə duçar edəcək. Məşhur tarixçi Vil Dorant bu barədə deyir: “ – Təsadüfən yaranan, yaxud insanın, səbəblərini aşkar edə bilmədiyi hadisələrdən ”.doğan təəccüb hissi dini e`tiqadların meydana gəlməsinə səbəb olan amillərdəndir

Samuel Kinq isə deyir: “ – Elmi inkişaflar sayəsində təbii sirlərin bir çoxunun aydınlaşmasına baxmayaraq, bu amillərdən bə`ziləri elmi izahlar çərçivəsindən xaricdə qalmışdır; bu amillərin dərk olunma və onlarla uyğunlaşmaq zərurəti dinin ”.yaranmasına səbəb olmuşdur

Bu nəzəriyyənin cavabında qeyd etmək lazımdır ki, Devid Hiyum, Aqost Kent və Eynşteyn kimi qərb alimləri tərəfindən irəli sürülən bu fərziyyənin bir neçə əsaslı iradı :vardır

Bu nəzəriyyə, səbəbləri mə'lum olmayan qeyri-təbii və təsadüfi hadisələr . ١ əsasındadır. Halbuki qədim zamanlardan indiyə qədər ilahiyyatçı filosofların əsaslanaraq istinad etdikləri sübutların ən mühümü "nəzm bürhanıdır". Din alimləri həmişə insanları kainatda mövcud olan nəzm və harmoniya dəlili, eləcə də varlıq aləminə hakim kəsilən dəqiq və heyrətamiz səbəb-nəticə qanunu əsasında təbiətin .fövqündə dayanan həqiqətlərə və Allaha doğru hidayət etmişlər

Bu nəzəriyyənin başqa bir nöqsanı budur ki, burada maddi səbəblərlə Allah arasında bir növ qarşıdurma irəli sürülmüşdür; bu fikrə əsasən hər bir varlığın maddi və vahid bir səbəbi vardır ki, kəşf edildikdə və ya mə'lum olduqda, artıq o hadisə Allaha aid edilməyəcəkdir. Guya insan, yalnız hər hansı bir şeyin maddi səbəbini tapa bilməsə, onu Allaha və təbiətin fövqündə dayanan metafizik səbəblərə aid edir. Halbuki məsələ belə deyildir; dindar bir insan heç vaxt maddi işlərin axarında olan təbii qanunauyğunluqları və hadisələrin yaranma səbəbini inkar etməmişdir. Dini nöqteyi-nəzərdən Allah-Təala varlıq aləmində olan bütün səbəblərin əsl səbəbkarıdır.(١) Deməli, varlıqların və hadisələrin maddi səbəbləri ilə, onların yaradılışının əsil səbəbi - .yə`ni Allah - arasında heç bir qarşıdurma mövcud deyildir

Bu nəzəriyyədə bir sıra xurafatçı və əsassız e`tiqadlara istinad olunmuşdur ki, . ٣ adətən savadsız insanlar onlara e`tiqad bəsləyirlər; ilahi dinlərin baniləri və alimlər arasında dini inancların yaranması barədə qeyd olunan həmin e`tiqadlara rast gəlmək .olmaz

Dini əqidələrin yaranmasını bəşəriyyətin cəhalət və mə'lumatsızlığı ilə əlaqələndirən .۴ alimlərin müqabilində alimlərin böyük bir dəstəsinin əqidəsi belədir ki, onların elmi tədqiqatları artdıqca, varlıq aləmində son dərəcə ali bir səbəbin varlığına qarşı olan iman və e`tiqadı da artmışdır. Misal üçün, Funtetel, Burlishaman, Montnel, Herşel, Ədvinfəst, Kepler, Çestrreks, Buhler, Vinçester və s. alimlər bu qəbildəndir. Məşhur bioloq Vinçester bu barədə deyir: " - Elm insanın bəsirətini və dünyagörüşünü artırır,

şəxs öz Allahını daha yaxşı tanıyır, Onun əzəmət və qüdrətini daha yaxşı dərk edir. Elm aləmində baş verən hər bir yeni kəşf imanın dərəcəsini yüz dəfələrlə artırır; bizim inanclarımızın batinində yerləşən son vəsvəsələrin və şirkin səbəblərini aradan ".qaldırır, onun yerini yüksək ilahiyyat və tovhid fikirləri əvəz edir

səh:۱۸

---

Məsələn, dində deyilmir ki, Allah-Təala göydən su tökür və nəticədə yağış yağır; [۱] -۱ qeyd olunur ki, günəşin hərarəti və istiliyi nəticəsində dənizlərin və okeanların suyu buxarlanır, səmada bulud şəklinə düşür, küləklər buludları müxtəlif istiqamətlərə aparır və nəhayət bütün proseslər başa çatdıqdan sonra yağış yağır. Amma bütün bu (ünsürlərə və mərhələlərə təsir qüvvəsi Allahdandır. (Tərcüməçi

## :QORXU NƏZƏRİYYƏSİ .٢

İnsanlar ilk dövrlərdən başlayaraq, həmişə həyatlarını təhdid edən, qorxu və iztirab yaradan bir çox amillərlə qarşılaşmışlar. Sel, zəlzələ, tufan, vulkan, ildırım, şimşək və bu kimi digər təhlükələr daimi olaraq insana qorxu və nigarançılıq gətirmişdir. Buna görə də o, özünə bu kimi təhlükə və bəlalardan nicat verə biləcək bir sığınacaq axtarmışdır. Alimlərdən bir qrupu bu fərziyyəyə əsaslanaraq belə təsəvvür etmişlər ki, ibtidai insanlar yırtıcı heyvanların təhlükəsindən qorunmaq üçün mağaralara sığındıqları kimi zəlzələ, sel və bu kimi digər təbii fəlakətlərdən xilas olmaq üçün də təbiətin fövqündə dayanan yenilməz və qüdrətli bir qüvvə axtarmağa başlamışlar. Dinə inanan şəxslərin e`tiqadına görə təbiətin fövqündə olan bir qüvvəyə malik Allah, yaxud sair mə'budlar insanların məhz kömək və sığınacaq məqsədilə üz tutaraq sitayiş etdikləri inanc mənbələridir; mə`lum olur ki, din və Allaha e`tiqad insanın bir çox təbii hadisələr qarşısındakı acizliyi və dəhşətli hadisələrdən yaranan qorxusunun .nəticəsidir

Vil Dorant bu barədə deyir: "Romalı filosof Lukeryetus demişdir: " – Bizim ilk qorxumuz allahlardandır; qorxunun növləri arasında ölümdən yaranan qorxu daha çox tə'sirə malikdir. İbtidai insanların həyatı hər addımda təhlükə ilə qarşılaşırdı və çox az hallarda bir şəxs təbii ölümlə dünyadan köçürdü... Məhz buna görə də ibtidai insanlar ölümün bir təbii hadisə olmasına inana bilmir, həmişə onun üçün qeyri-adi səbəblər ".təsəvvür edirdilər

Bertrand Rassel də bu barədə deyir: " – Zənnimcə dinlərin mənşəyi hər şeydən əvvəl qorxu və vəhşət hissidir. İnsan özünü son dərəcə gücsüz hesab edir. Onun :qorxusunun əsas səbəbi üç amildən ibarətdir

Təbii fəlakətlər; Məsələn, insan ildırım vasitəsilə öləcəyindən, yaxud zəlzələ .١ .nəticəsində yerin altına batacağından qorxur

İnsanlar arasında baş verən hadisələr; müharibədə öldürülmək, yaralanıb əlil olmaq .٢ .və bu kimi digər səbəblər

İnsanda olan güclü şəhvət hissi; Düzdür bu hiss insana zərər yetirir, amma ola bilsin .٣

ki, insan həyatının hansısa bir anında itirdikləri üçün peşiman olsun. Din onun bu qorxu ".və şəhvət hissini azaldır və bir növ müvazinət və mö`tədillik yaradır

Eynşteyn bu barədə deyir: " – İbtidai insanlar ölümün, aclığın, vəhşi heyvanların, ".qocalığın qorxusu dinin meydana gəlməsinə zəmin yaratmışdır

:Bu nəzəriyyəni araşdırıb təhlil edərkən bir neçə məsələni qeyd etməliyik

Bu nəzəriyyədə dinə və xüsusi ilə də Allaha olan e`tiqad qorxu və vəhşət hissindən .۱ doğan bir nəticə kimi qeyd olunmuşdur. Deməli, hər yerdə qorxu olarsa, Allaha e`tiqad da olmalı və qorxu olmayan hallarda bu əqidələr mövcud olmamalıdır. Başqa sözlə desək heç bir şeydən qorxmayan şücaətli insanlar arasında Allaha inanan insan tapmaq olmaz. Halbuki heç də belə deyildir. Bu nəzəriyyəyə görə, insanın elm və mə'lumatı nə qədər çoxalsa və insanın təbii hadisələrin səbəbi haqqında mə`lumatsızlığı nə qədər az olsa – Allaha olan e`tiqad və dini meylliliyi də bir o qədər ,az olmalıdır. Çünki, həmin fərziyyəyə əsasən

təbii hadisələrdən yaranan qorxu hissi onların səbəbini bilməməkdən irəli gəlir. Misal üçün, insan hər hansı bir xəstəlikdən qorxa bilər, lakin onu doğuran səbəbləri və müalicə yolunu tapa bilsə, qorxusu aradan gedər. Yaxud, təbii hadisələrə qalib gəlsə, artıq bu barədə təhlükə hiss etməz. Deməli, yuxarıdakı nəzəriyyəyə əsasən, insanın qorxu yaradan amillər barədə mə'lumatı nə qədər artsa, imanı da bir o qədər .azalmalıdır. Halbuki bu mətləb real gerçəkliyin əksinədir

Başqa əsaslı bir irad budur ki, bu nəzəriyyəni irəli sürənlər öz tədqiqatlarının .٢ bünövrəsini ibtidai dinlər üzərində qurmuşlar. Xatırladırıq ki, əvvəla bu dinlər barəsində tam aydın bir təsəvvür və dəqiq mə`lumat mövcud deyildir; bu barədə söylənilənlərin əksəriyyəti sırf fərziyyə və güman əsasındadır. İkincisi, bu kimi dinlər əsas e`tibarilə mütərəqqi və yetkin dinlərdən hesab olunmurlar; cəhalət, mövhumat və xurafatla qarışmış inanclar silsiləsindədir. Bu sahədə tədqiqat aparan alimlər öz elmi araşdırmalarını İslam dini kimi ağıl və məntiq əsasında olan kamil bir din üzərində .qursalar, alınan nəticələr tamamilə fərqli olacaqdır

İkinci bənddə qeyd olunanlara diqqət yetirsək mə`lum olar ki, qorxu nəzəriyyəsini .٣ irəli sürən sosioloqlar, tarixçilər və din tədqiqatçıları onu yalnız bir nəzəriyyə olaraq qəbul etmişlər. Buna görə də hansısa bir müddəanın isbatında ondan elmi bir mətləb .kimi istifadə etmək olmaz

Samuel Kinq bu barədə deyir: “ – Dinlərin mənbə və mənşəyi müəmmalarla örtülmüşdür. Bu barədə alimlər saysız-hesabsız nəzəriyyələr irəli sürmüşlər ki, onlardan yalnız bə'ziləri ağıl və məntiqlə uyğundur; hətta ən yaxşı nəzəriyyələr belə, elmi cəhətdən isbat olunmamışdır; fərziyyə olaraq söylənən bu fikirlər məntiqi təsəvvür dairəsindən bir addım belə önə keçə bilməmişdir. Buna görə də sosioloqlar ”.arasında dinlərin mənbəyi ilə əlaqədar kəskin fikir ayrılığı mövcuddur

### :ƏXLAQİ VƏ İCTİMAİ EHTİYACLAR NƏZƏRİYYƏSİ .٣

Bu nəzəriyyənin tərəfdarları inanırlar ki, insanın bir sıra əxlaqi, ruhi və ictimai ehtiyacları vardır; bu ehtiyaclar böyük, qüdrətli, əbədi bir varlığa e`tiqad bəslənilmədən tə'min olunmur. Bu daxili tələbat insanların qüvvət və qüdrət sahibı olan Allaha e`tiqad bəsləməsinin əsasını təşkil edir. Eynşteyn bu barədə deyir: “ – Hər

kəs ideoloji hərəkətlərin nəticəsini görmək istəyirsə, yadda saxlamalıdır ki, insan övladının bütün təfəkkür və sə`yləri həyatda qarşılaşdığı ehtiyacları ödəmək və problemlərini həll etmək üçün olmuşdur. İki heyrətamiz qüvvə olan eşq və arzu bəşəriyyətin hərəkətverici qüvvəsi, mübarizə və ixtiraların əsas mühərriki olmuşdur. Bundan da önə keçib bəşər həyatı üçün müxtəlif məqsədlər qeyd etmək mümkündür, lakin onlar bu iki haldan kənar olmayacaqdır…" O sonra əlavə edərək deyir: " – İnsanın ictimai xüsusiyyəti də dinlərin yaranma səbəblərindən biridir. Hər bir şəxs öz ata-anasının, qohum-əqrəbasının, rəhbərinin və böyük şəxsiyyətlərinin ölümünü görür; buna görə də hidayət olunmaq arzusu, sevmək, sevilmək, bir şəxsə arxalanıb ümid bəsləmək

:Bu nəzəriyyəni araşdırarkən iki məsələyə diqqət yetirmək lazımdır

Burada din haqqında söylənən bütün faydalı tə`sirlər qəbul olunur. Şübhə yoxdur ki, .١ dini e`tiqadlar insanın psixoloji və ictimai əzab-əziyyətlərinin azaldılmasında özünəməxsus rol ifa edir. Allaha e`tiqadlı olan bir kimsə təklikdən əzab çəkib ruhi narahatlıq keçirmir, iman və e'tiqadı sayəsində əmin-amanlıq, rahatlıq hiss edir. Amma tə'sirlə məqsədi bir-birinə qarışdırmaq olmaz. İnsan həmişə müəyyən bir işi xüsusi bir məqsədlə yerinə yetirə bilər, amma o işin digər bir müsbət və mənfi tə`siri də ola bilər və bu, ilkin məqsədə diqqət yetirmədən yaranar. Din haqda qəbul etdiyimiz tə'sirlər Allahı tanıma və ona e'tiqaddan sonra hasil olur. Amma Allaha e'tiqad .bəsləməkdə məqsəd tamamilə başqa bir şeydir

Eynşteyn eşq və arzunu insanın bütün həyati fəaliyyətlərinin yeganə hərəkətverici .٢ amili hesab edir və bu iki amildən kənarda olan digər məqsədləri qəbul etmir. Mə`lum məsələdir ki, o öz müddəasına dəlil gətirməmişdir. Deməli, onun sadəcə fərziyyə və .iddia olaraq söylədiyi məsələdən yaranan nəticəni qəbul etmək olmaz

**SUAL VƏ TAPŞIRIQLAR**

?Nə üçün cəhaləti dinə yönəlmənin əsas amillərindən biri hesab etmək olmaz .١

.Qorxu nəzəriyyəsini qısa şəkildə izah edin və onun iradlarını bəyan edin .٢

?Allaha e'tiqadın əsas mənşəyi kimi irəli sürülən əxlaqi-ictimai ehtiyaclar hansılardır .٣

?Əxlaqi-ictimai ehtiyaclar nəzəriyyəsinə deyilən iradlar nədən ibarətdir .۴

.Cəhalət nəzəriyyəsini qısa şəkildə bəyan edin

## ÜÇÜNCÜ DƏRS

## (DİNƏ MEYLİN SƏBƏB VƏ MOTİVLƏRİ (٢

### İŞARƏ

?İqtisadi amillərin və cinsi ehtiyacların dinin formalaşmasında nə kimi rolu olmuşdur .١

?Bəxt və taleyə inamın dinə yönəlmənin səbəblərindən biri hesab etmək olarmı .٢

?Dinə yönəlmənin əsas amilləri hansılardır .٣

İkinci dərsdə insanın dinə yönəlməsi və Allaha e`tiqad bəsləməsi barədə olan üç nəzəriyyə aydınlaşdırıldı. Bu dərsdə isə digər üç nəzəriyyə araşdırılaraq təhlil .olunacaqdır

### :İQTİSADİ AMİL NƏZƏRİYYƏSİ .۴

Bu nəzəriyyə marksizm ideologiyasında irəli sürülmüşdür. Marksizm ictimaiyyət tarixində və cəmiyyətdə baş verən bütün dəyişiklikləri iqtisadi zərurətlərdən doğan bir nəticə hesab edir. Bu ideologiyaya görə bəşəriyyət tarixi həqiqətdə sinfi mübarizələr tarixindən ibarətdir ki, onlar da hər bir dövrdə və istehsal əlaqələrini və münasibətləri nəticəsində meydana gəlmişdir. Marks və Engels deyir: " – İndiyənədək mövcud olan ictimai tarix bütünlüklə sinfi mübarizələr tarixindən ibarətdir. Ağalar və qullar, feodallar və kəndlilər, burjuaziya və fəhlə sinfi və ümumiyyətlə istismar edən və istismar olunan siniflər daim bir-biri ilə ziddiyyətdə olmuş, sonu görünməyən çəkişmələrlə bə`zən gizlin, bə`zən də aşkar şəkildə mübarizə apararaq öz həyatlarını davam etdirmişlər; bu qarşıdurmalar bə`zən ictimaiyyətdə inqilabi dəyişikliklərlə nəticələnmiş, bə`zən də mübarizə aparan siniflərin hər ikisinin məhv olması ilə sona ".çatmışdır

Bu nəzəriyyəyə əsasən, ictimai dəyişikliklərin əsas amili sinfi ziddiyyətlər və bu zəmində aparılan mübarizələrdir. İctimai təbəqələşmənin özü də bir növ istehsal münasibətlərindən irəli gəlir. Əmək alətlərinin inkişafı nəticəsində istehsal münasibətlərində dəyişikliklər yaranır və bunun ardınca da tarixi zərurət olaraq ictimai dəyişikliklər prosesi başlanır. Marksizm nəzəriyyəsinə görə iqtisadiyyat cəmiyyətin

bazisini təşkil edir; din, məzhəb və bu kimi ictimai dayaqlar da üst qurum hesab olunur. Aydındır ki, hər bir cəmiyyətin üst qurumu hakim təbəqənin mənafeyi əsasında formalaşır. Din də varlı sinfin mənafeyini qorumaq üçün hakim təbəqə tərəfindən icad edilir. Bu yolla bir növ istismarçı qüvvələrin istismar olunan təbəqə üzərindəki hakimiyyətinə zəmanət verilir və cəmiyyətdə əzilən kütlənin e`tirazına son qoyulur. Lenin bu barədə deyir: " – Din daima başqaları üçün çalışıb əziyyət çəkən, yoxsulluq içərisində yaşayıb istismar olunan təbəqəyə qarşı həyata keçirilən psixoloji tə`sirlərin bir formasıdır." Konfurs

səh:٢٢

deyir: “ – Din, xəyali təsəvvürlərdən ibarət olduğuna və hakim təbəqə vasitəsilə xalq kütlələrini aldatmaq məqsədi ilə yayıldığına görə məhkum olunmuşdur. Bununla belə, din xalq kütlələrinin itaəti və zülmə dözməsi üçün bir vasitə olaraq yaradılmamışdır, bu inanclar xalqın öz içərisindən qalxmışdır. Amma buna baxmayaraq, həmin əqidələr istismarçı qüvvələrin mənafeyini himayə etməkdə bir növ vasitə, başqa insanlara qarşı vəhşilik hissini aşılamaqda və bu əmələ bəraət qazandırmaqda bir alət olduğu ”.üçün məhkum olunmuşdur

Marksizm nəzəriyyəsinin din barəsində olan mövqeyi belədir ki, din xalq kütlələri üçün .bir növ tiryək və narkotikdır

Marksizmin dinə yönəlmə haqda söylədiyi nəzəriyyəyə bir neçə irad tutulmuşdur. O :cümlədən

Əgər dinin iqtisadi maraqlarla bağlı olduğunu qəbul etsək, hasil olan ən böyük nəticə .۱ bu olacaq ki, varlı sinif yoxsul təbəqə üzərində olan istismarçılıq siyasətlərini möhkəmləndirmək üçün din və imandan sui-istifadə etmişlər. Bu o demək deyil ki, dini hakim sinif icad etmişdir. Konfursun sözlərində də dinin xalq kütlələrinin arasından qalxdığı göstərilir. Buna əsasən də yalnız belə iddia oluna bilər ki, din iqtisadi amillər deyil, başqa səbəblər əsasında xalq arasında meydana gəlmişdir. Amma hakim sinif aldatmaq və təhrif etməklə bu dini e`tiqadlardan öz mənafeyini qorumaq, cəmiyyətin aşağı təbəqələri üzərində olan hakimiyyətlərini davam etdirmək üçün sui-istifadə etmişlər. Əlbəttə, bu sözdə müəyyən mə`nada həqiqət vardır; unutmaq olmaz ki, tarix boyu dəfələrlə hakim siniflər dindən öz hakimiyyət və istismarçı siyasətlərini qüvvətləndirmək üçün bir vasitə kimi faydalanmışlar. Amma bu kimi sui-istifadələri bəşər cəmiyyətlərində dinə yönəlmənin və dini formalaşmanın əsas amili hesab etmək .olmaz

Marksizm nəzəriyyəsində ictimai tarix beş mərhələyə bölünür ki, onun ilkin .۲ mərhələsi ibtidai icma quruluşu adlanır; bu quruluşda heç bir ictimai təbəqə və sinif mövcud olmamışdır. Belə bir sual yaranır ki, əgər din sinfi ziddiyyətlərdən doğan qarşıdurmanın nəticəsidirsə, onda ibtidai icma quruluşu dövründə dinə yönəlməni ?necə izah etmək olar

Bütün bəşər tarixini tədqiq edən tədqiqatçıların fikrinə görə insanlar həyatın ilk mərhələlərindən başlayaraq, müəyyən yollarla təbiətin fövqündə dayanan həqiqətlərə əqidə bəsləmişlər; bu barədə kifayət qədər tarixi sübutlar da mövcuddur. Bu halda görəsən marksistlər belə bir e`tiqadın ictimai təbəqələşmədən meydana gəlmədiyini necə əsaslandırırlar?! Onların öz e`tiqadına görə ibtidai icma quruluşunda insanlar arasında heç bir çəkişmə və ziddiyyət olmamışdır; çünki istehsal vasitələri .hansısa bir qrupun ixtiyarında deyildi

Tarix açıq-aşkar sübut edir ki, yüksək rifahda və firavanlıqda yaşayan bir çox .٣ şəxslər də dinə üz tutmuşlar. Əgər dini hakim sinfin quraşdırdığı bir şey və istismar olunan təbəqəni itaətə vadar etmək vasitəsi hesab etsək, bu kimi meyllər necə izah ?oluna bilər

Bəşər tarixində istismarçıların və hakim sinfin dindən sui-istifadə etməsi faktı qəbul .۴ olunası bir məsələdir. Amma bu məsələni ümumi bir qayda olaraq bütün

zamanlarda olan dinlərə aid etmək olmaz. Çünki əvvəla, peyğəmbərlərin özləri də istismarçılar, zalımlar və hakimlər əleyhinə ciddi mübarizələr aparmışlar; ikincisi, mö`minlərin zülm və ədalətsizliklə mübarizə aparması və istismarçıların aldatmalarının müqabilində ayıq-sayıq olması üçün peyğəmbərlər tərəfindən bir çox tə`limlər gətirilmişdir ki, onları marksizm nəzəriyyəsi əsasında izah etmək mümkün .deyildir

## (CİNSİ NƏZƏRİYYƏ: (FREYDİZM .۵

Bu nəzəriyyə Freyd tərəfindən onun psixologiya və psixopatologiyasında irəli sürülmüşdür. Freydə görə bütün ictimai, psixoloji və əxlaqi hadisələrin mənşəyi cinsi meyllərdən qaynaqlanır. Onun nəzərinə görə, cinsi meyl insanda, qidalanmağa doğru təhrik edən iştahaya oxşar bir təsəvvür formasında mövcuddur - o da bir növ ödənilməyə və tə`min olunmağa ehtiyaclıdır. Əlbəttə Freydin nəzərində cinsi meyllər deyildikdə, onun ümumi şəkildə başa düşülən cinsi ehtiraslar məfhumundan daha geniş mə`nalar kəsb edilir. Bu nəzəriyyəyə əsasən uşağın ana döşünə olan meyli, qızın ataya, oğlanın anaya, yazıçının öz yazdığı əsərə olan rəğbəti də cinsi meyllərdən irəli gəlir. Bu ehtirasların qarşısı müəyyən vasitələrlə alındıqda, onlar gizli şəkildə insanın özünün agah olmadığı batində qalır və fürsət yaranan zaman qeyri-ixtiyari olaraq .agah batinə varid olur və özünü tə`min edir

Freyd öz nəzəriyyəsinin hüdudlarını daha da artıraraq onu əxlaqi və mə`nəvi dəyərlər sərhəddinə qədər genişləndirmişdir. O iddia edirdi ki, insanların dinə və Allaha itaətə .meylliliyi, qarşısı alınmış cinsi ehtirasları tə`min etməkdən başqa bir məqsəd daşımır

Freyd öz nəzəriyyəsini ibtidai insan cəmiyyətlərindən bir əfsanə nəql etməklə şərh edir. Qeyd edir ki, ibtidai icma quruluşunda ata qəbilənin başçısı olduğuna görə qəbilənin bütün qadın və qızlarını öz ixtiyarında saxlayaraq öz oğlanlarına qadınlarla cinsi əlaqədə olmağa icazə vermir və onları öz rəqibi hesab edirdi. Atanın kobud rəftarından cana doyan oğlanlar əlbir olaraq öz atalarını qətlə yetirir və onun cəsədini yeyirlər; bu işlə onlar həm ondan intiqam alır və həm də öz cinsi ehtiraslarını tə`min etmək yolunda mövcud olan maneəni aradan qaldırırlar. Amma belə etdikdən sonra öz əməllərindən hədsiz dərəcədə peşman olur və nəticədə atalarının onlara qadağan

etdikləri şeyləri özlərinə haram edirlər; etdikləri əməllərdən sonra düçar olduqları iztirab və peşmançılıq hissini özlərindən uzaqlaşdırmaq üçün bir heyvanı totem kimi seçərək, onu öz atalarının canişini adlandırır, qəbahətli işlərinin tə`sirini azaltmaq üçün bu heyvanı öldürməyi özlərinə qadağan edirlər. Tarix boyu tədricən simvolik olaraq totem və ata simvolu olan həmin heyvan allaha çevrilərək qəbilə üzvləri .tərəfindən sitayiş olunmuşdur

:Bu nəzəriyyəni araşdırarkən aşağıdakı məsələlərə diqqət yetirmək zəruridir

Bu nəzəriyyənin ən əsas məqamları ibtidai dövrlərə aid olan əfsanələr üzərində .١ qurulub və onların həqiqət və düzgünlüyü barədə əldə heç bir mö`təbər

sənəd yoxdur; onun elmi cəhətdən isbat edilməsi də mümkün deyildir. Özümüzü bu kimi əfsanələrə inandırmağa çalışsaq da belə, ibtidai insanların dinə meyl göstərməsində qeyd olunan amillərin əsas səbəb olmasını və bu hadisələrdən öncə ?allaha heç bir şəkildə e`tiqad bəslənilməməsini necə isbat etmək olar

Əgər Allaha inam, zahir olmağa imkan tapmayan və bir növ cilovlanmış cinsi ٢. ehtiraslardan doğmasını qəbul etsək, onda öz cinsi istəklərinin qarşısında heç bir maneə görməyən və bu hissləri müntəzəm olaraq doyurulan şəxslərin arasında Allaha inanan bir kimsə tapmaq mümkün olmamalıdır. Halbuki real gerçəklik bunun əksini .təsdiq edir

İnsana yalnız bir yöndən nəzər salmaq, onun yalnız cinsi ehtiraslarını əsas tutmaq ٣. və sair istəklərini nəzərə almamaq heç bir şəkildə elmi əsasla əsaslandırıla bilməz. İnsanın gözəlliklərə, xüsusilə mə`nəvi gözəlliklərə, yüksək əxlaqi keyfiyyətlərə, elm mənimsəməyə, həqiqətləri öyrənməyə və s. işlərə qarşı olan marağı cinsi meyllərin ?əsas götürülməsi ilə necə uyğun gələ bilər və ya necə izah edilə bilər

### :BƏXT NƏZƏRİYYƏSİ ۴.

Bu nəzəriyyəyə görə, ibtidai insanlar həyatda müəyyən uğursuzluqlarla qarşılaşdıqları zaman, xoşbəxtlikdən əl üzüb bədbəxtliyə düçar olarkən bu uğursuzluqların yaranma səbəblərini bilmədikləri üçün təbiətin fövqündə dayanan bəxt və alınyazısı adlı qeyri-təbii və qeyri-iradi bir gücə inanmağa başlamışlar. Həmin inam və e`tiqad tədricən dinə və məzhəbə çevrilərək, nəticədə Allaha e`tiqadı yaratmışdır. Məşhur sosioloqlar Simner və Kler bu barədə deyir: “ - İbtidai insanlar arasında yekdilliklə qəbul edilən bir məsələ tapmaq olsaydı, şübhə yoxdur ki, həmin məsələ təbiətin fövqündə dayanan qüvvələrin insan övladlarının bəxt və taleyinə hakim kəsilməsi inamı idi. İbtidai dövrün insanlarının düşündüyü əsas məsələ bundan ibarət idi: Bu sirli qüvvələrin rəğbətini qazanmaqla bədbəxtliyin qarşısını almaq, xoşbəxtliyə nail olmaq, öz arzu və hədəflərinə yetişmək. Cəmiyyətin bütün üzvləri daimi olaraq bu məsələ ilə bağlı iztirab və narahatçılıq hissi keçirir, bütün güclərini səfərbər edərək qarabəxt və tale`siz olmaqdan yaxa qurtarmağa çalışırdılar. Beləliklə aşkar bir ehtiyacdan din ”...yaranmışdır

:Bu nəzəriyyəni araşdırarkən bir neçə məsələyə diqqət yetirmək lazımdır

İbtidai insanların e`tiqadları arasında bəxt və taleyə inam məsələsinin geniş .١ yayılmasına baxmayaraq, məsələ heç də bu iki sosioloqun dediyi kimi deyildir; bu inancların formalaşıb yayılmasında təkcə savadsızlıq və cəhalət deyil, məs`uliyyətdən yayınmaq, səhlənkarlıq, qüsur və nöqsanların üstünü örtmək, vicdan əzabından xilas .olmaq məqsədi də bəxt və alın yazısına inamı yaradan səbəblərdəndir

Dinə yönəlmənin əsas səbəbi bəxt və alın yazısına inam olarsa, bəxtə e`tiqad .٢ bəsləməyən şəxslər allaha sitayiş etməməli və heç bir ilahi qüvvəyə

inanmamalıdırlar. Qeyd olunduğu kimi, real gerçəklik bu məsələnin tamamilə əksinədir.

٣. Bu nəzəriyyə bütün dinlərə yönəlmənin səbəbi kimi izah edilə bilməz; çünki dinlərin bir çoxunda, xüsusilə İslam dini heç vaxt bəxt məsələsini əsas e`tiqadi prinsip kimi işıqlandırmamış və öz ardıcıllarını bu işə təşviq etməmişdir.

٤. Bəxtə və alın yazısına inanan şəxslərin əksəriyyəti onu qaçılmaz və dəyişməz bir hökm kimi qələmə verməmişdir. Çünki belə olsaydı onu dəyişdirməyə, sirli qüvvələrin rəğbətini qazanaraq həyatda qarşıya çıxan bədbəxtliklərin qarşısını almağa çalışmazdılar.

* * * * * *

Qeyd olunan altı nəzəriyyədən əlavə, dinlərin mənşəyi və dinə yönəlmənin səbəbləri barədə başqa fikirlər də irəli sürülmüşdür ki, onlarla tanış olmaq üçün daha geniş və ətraflı kitablara müraciət etmək lazımdır. Amma həqiqət bundan ibarətdir ki, insanda olan Allaha e`tiqadın əsası və dinin mənşəyi daima hadisələrin və varlıqların səbəbini arayan-axtarıb insan ruhiyyəsidir. İnsan bir tərəfdən varlıq aləmində saysız-hesabsız qəribəlikləri, nizam-intizamı müşahidə edir, digər tərəfdən isə varlıq aləmindəki səbəblə səbəbkarını, yaradanını tanıyıb dərk etmək barəsində olan fitri ehtiyacı ilə vahid və qüdrətli Allahın varlığını dərk edir. Bu nəzəriyyənin geniş və əhatəli şərhi e`tiqadlar barədə yazılmış dərsliklərdə bəyan olunmuşdur.

### SUAL VƏ TAPŞIRIQLAR

١. Marksizmin dinin yaranması barədə olan nəzəriyyəsi necədir?

٢. Nə üçün iqtisadi amil dinə yönəlmənin əsas səbəbi ola bilməz?

٣. Freydin cinsi nəzəriyyəsi hansı əsasda qurulub?

٤. Freyd hansı dəlilə görə Allaha olan e’tiqadı cinsi ehtiraslarla əlaqələndirir?

٥. Freydin nəzəriyyəsinin əsas iradı nədən ibarətdir?

?Bəxt və alın yazısına e’tiqad bəsləmək Allaha e’tiqadın əsası ola bilərmi .۶

E`tiqadlar barədə olan dərsliklərdən istifadə etməklə, Allaha və dinə yönəlmənin əsas .səbəblərini izah edin

səh:۲۶

## DÖRDÜNCÜ DƏRS

## (İBTİDAİ DİNLƏR (١

### FETİŞİZM .١

İlk insan cəmiyyətləri ilə əlaqədar aparılan sosioloji tədqiqatlar göstərir ki, ibtidai :insanların dini e’tiqadları əsasən üç təfəkkür tərzi üzərində qurulmuşdur

;Fetişizm.١

;Animizm.٢

.Totemizm.٣

Bu kimi e’tiqadlar üçün müəyyən və vahid bir tə`sisçi və bani göstərmək mümkün deyildir; amma sırf bu e`tiqadların mövcud olması onu göstərir ki, insanlar xilqətin əvvəlindən təbiətin fövqündə olan həqiqətlərə e’tiqad bəsləmişlər. Amma onlar bu barədə düzgün dərk etmədikləri üçün, eləcə də ilahi rəhbərlərdən uzaq düşmələri, xalis e’tiqadın olmaması ucbatından müxtəlif təhriflərə mə’ruz qalmış, xurafat və mövhumatlara üz tutmuşlar. Bizim ibtidai insanların varlıq aləminin həqiqətlərinə baxışı barədə zəngin və dərin mə`lumata malik olmağımız üçün növbəti iki dərsdə bu .üç təfəkkür tərzini izah edəcəyik

Fetişizm (Fetish) – Portuqaliya mənşəli bir kəlmə olub sehr və cadu mə’nasını ifadə edir. Portuqaliyalılar bu kəlməni Afrikanın qərb sahillərini kəşf etdikləri zaman yerli zənci əhalinin müqəddəs sayıb sitayiş etdikləri əşyalar barəsində işlədirdilər. Onlar bu sözdən təbiətin fövqündə dayanan varlıqların tə`sirlərini, məsələn düşmənlərin şərrinin dəf edilməsini nəzərdə tuturdular. Buna görə də demək olar ki, “fetiş” kəlməsi terminologiyada müqəddəs bir şey, fetişizm isə onun sitayiş olunduğu dinə deyilir. İbtidai insanlar inanırdılar ki, xüsusi formada yonulmuş heyvan buynuzları, kiçik daş qırıntıları, taxta və filiz kimi təbii əşyalardan bə’ziləri, xariqul-adə qüdrətə malikdirlər; cahandakı hadisə və varlıqlara tə’sir göstərə bilirlər. Buna görə də həmin əşyaları müqəddəs sanaraq onlara ehtiram qoyur, xüsusi şəkildə pərəstiş etməklə öz .həyatlarındakı məqsədlərinə çatmaq üçün onlardan kömək diləyirdilər

Fetişlər iki yerə bölünürdü: Onlardan bə’zilərinin tilsim gücünə malik olduğu zənn edilir, bə’zilərindən isə qoruyucu və pənah yeri kimi istifadə olunurdu. Birinci qrup törədici yönə malik idi; onlardan düşmənlər qarşısında maneə yaratmaq üçün istifadə edirdirlər. İkinci qrup isə dəfedici və qoruyucu xüsusiyyətə malik idi; onlardan düşmənləri, yırtıcı heyvanları, təbii fəlakət və müsibətləri dəf etmək üçün istifadə .olunurdu

Sosioloqlar fetişizmi ən ibtidai bir din hesab edir və onu sair dinlərin mənşəyi sayırlar. Onların fikrincə bu cərəyan ilk əvvəllər bə’zi təbii əşyalara sitayiş və

ibadət formasında idi; zaman keçdicə insanlar daşdan, taxtadan və s. şeylərdən hazırlayıb müxtəlif şəkillərə saldıqları əşyalara da ibadət və pərəstiş etməyə .başladılar. Bu baxımdan fetişizmi bütpərəstliyin mənşəyi hesab etmək olar

Qeyd etmək lazımdır ki, daşdan, taxtadan, xurmadan və s. əşyalardan müxtəlif formalarda bütlər düzəldib onlara sitayiş edilməsi Misir, Aşur, Babildən tutmuş Yunanıstan, Roma, Hindistan və Çin xalqlarına qədər bütün qədim tayfa və millətlərin .hamısında ən adi bir iş olmuşdur

Həzrət İbrahim (ə) və ondan sonrakı ilahi peyğəmbərlərin gəlişindən sonra bütpərəstliyin qarşısı alındı, tovhid və təkallahlıq əqidəsi onu əvəz etməyə başladı. Müasir dövrdə insanların əksəriyyəti İbrahim (ə)-a məxsus olan dinlərin ardıcılları olmasına baxmayaraq, fetişizm və bütpərəstliyin tə’sirləri hələ də dünyanın ayrı-ayrı .məntəqələrində müxtəlif formalarda müşahidə olunur

Hindistanda üçlük təşkil edən mə’budlara (Vişno, Şiva, Brahma) sitayiş olunmasını, yaxud orada Buddanın ardıcıllarının daşdan, taxtadan, metaldan və digər şeylərdən Buddanın heykəlini düzəldərək ona sitayiş etməsini müasir dövrün fetişizm .nümunələrindən hesab etmək olar

### ANİMİZM .٢

Bu kəlmə latın sözü olan “Anima” kəlməsindən yaranmışdır; ruha pərəstiş, bütün .varlıqlarda və təbii şeylərdə ruhun varlığına e’tiqad bəsləmək mə’nasını daşıyır

Animistlər bu gün də dünyanın bir çox nöqtələrində, o cümlədən Afrikada, Avstraliyada, Amerikada yaşayırlar. Onların əqidəsinə görə dünyada olan bütün varlıqların, hətta təbii hadisələrin, o cümlədən sel, zəlzələ, ildırım və s.-nin ruhu vardır və kainatda olan hər bir şeyin müqəddəratı ruhların ixtiyarındadır. Animistlərin fikrincə bu ruhların insan ruhuna oxşar bə`zi səciyyəvi xüsusiyyətləri vardır. Yə’ni, onlar da insan kimi agahlıq, iradə, eşq, nifrət, kin-küdurət, sevmək, məhəbbət bəsləmək, şər işlər törətmək, xeyirxahlıq, xəyanət və əmanətdarlıq kimi qüvvələrə malikdirlər. Onlar inanırlar ki, ruhlar əbədi olaraq diridirlər və ölən şəxslərin ruhu ya dünyada əbədi qalır, .ya asimana qayıdır, yaxud da qaranlıq zülmətlərdə öz həyatını yenidən başlayır

Bu ruhların meşələrin dərinliklərində, şəhərlərin xəlvət guşələrində məskunlaşması da mümkündür. Animistlərdən bir qrupu inanırlar ki, ruh həmişə öz cəsədinin kənarında qalaraq onu qoruyur; çünki ruhla bədənin taleyi bir-biri ilə tam şəkildə əlaqədədir. Bu təfəkkürə əsasən hər kim cənazəyə hörmətsizlik etsə, onun ruhu nə vaxtsa ondan intiqam alacaq, ona qarşı hörmətsizlik edən şəxs ağır cəzalara düçar olacaqdır. Əksinə, hər kim ölülərə hörmət qoyarsa, vəfat edənin ruhu bir keşikçi kimi onu qoruyacaq, özünə və ailəsinə xeyir-bərəkət, sağlamlıq və toxunulmazlıq ərməğanı gətirəcəkdir. Buna görə da animistlərin çoxu öz ölülərini xüsusi qayda-qanunlar əsasında, təzə paltarlar və bəzək əşyaları ilə birlikdə dəfn edirlər. Onlardan bə’ziləri ölülərin asayiş və rahatlığını tə’min etmək

üçün onları xüsusi mərasimlə qəbirlərindən çıxardaraq yenidən başqa bir yerdə .torpağa tapşırırlar

Animistlərin e’tiqadlarından biri də tənasüxdür. Yə’ni, onlar inanırlar ki, ölümdən sonra insanın ruhu ya əbədi olaraq onunla qalır, yaxud da başqa bir cismə keçir. Hər hansı bir cismə daxil olan ruh daha sonra ya ruhlar aləminə seyr edir, yaxud da üçüncü bir cismə nəql olunur. Beləliklə, həmin ruh bir cismdən digərinə ötürülür. Bu cism insan bədəni, bitki, cansız əşyalar da ola bilər. Vəfat edən şəxsin ruhunu daşıyan şəxs və ya əşya onun qohum-əqrəbası tərəfindən xüsusi hörmətə layiq görülür. Animistlər ruhların növbənöv fəaliyyət və iş görmək qabiliyyətinə malik olduğuna inanırlar. Onların e`tiqadına əsasən insan ölmədən də ruh müvəqqəti olaraq insanın bədənindən çıxıb, uzaq məsafədən onun əməl və rəftarlarını nəzarət altında saxlaya bilər. Ruhların bə`zən hər hansı bir cisimdən oğurlanması və ya dəyişdirilməsi halları da baş verir. Amerikalı hindulardan birinin nəql etdiyi məşhur hekayə də bunu əks etdirir: Müharibələrin birində bir qəbilənin başçısı düşmənlərin hücumundan qorunmaq məqsədi ilə öz ruhunu ağacın üstündə yerləşdirir. Düşmənlər hücüm etdikdən sonra onun cismini tapırlar, amma nə qədər ox atsalar da onu öldürə bilmirlər. Nəhayət onun hiyləsini başa düşüb görürlər ki, onun ruhu ağacın budaqları arasındadır; onun ruhuna .ox atmaqla cismini də məhv edirlər

Bu əqidəyə əsaslanan animistlər təsəvvür edirlər ki, insanın cismi ilə əlaqədar olan hər bir şey, yaxud insanın cismindən ayrılan bədən üzvləri, o cümlədən tük, dırnaq, hətta ifrazatlar da insan ruhunun bir hissəsidir. Ruh bu əşyalara və həmin üzvlərə daxil olmuşdur. Başqa ruhlar da onlara tə’sir edə bilər. Deməli, mümkün qədər çalışmaq lazımdır ki, insanın bədəni ilə əlaqədar olan şeylərin heç biri düşmənlərin əlinə düşməsin; çünki onlar sehr və cadu qüvvəsindən istifadə etməklə onların sahibinə .əzab-əziyyət verə bilərlər

### ANİMİZM İLƏ FETİŞİZMİN FƏRQİ

Sosioloqlar əvvəllər belə təsəvvür edirdilər ki, animistlərlə fetişistlər arasında heç bir fərq yoxdur. Amma sonrakı tədqiqatlar göstərdi ki, bu iki təfəkkür arasında müəyyən fərqlər vardır. Animistlər təkcə maddi əşyaların deyil, hətta onların nəzərində varlıq

aləminin bütün işlərinə hakim kəsilən mücərrəd qüvvələrin də ruhları vardır. Halbuki fetişistlər yalnız bə’zi maddi əşyaların ruha malik olduğunu təsəvvür edərək onlara sitayiş edirdilər. Eyni zamanda animistlərlə fetişistlər arasında müştərək bir cəhət də mövcuddur. Yə’ni, onların hər ikisi inanır ki, müharibədə sehr və cadudan düşmənlərin əleyhinə bir döyüş vasitəsi kimi istifadə etmək olar; hər ikisinin əqidəsinə görə ruh sahibi həm xəbis və murdar ruha, həm də pak və xalis ruha malik ola bilər. Bu əqidəyə əsasən bütün müsibət və bəlalar, çətinlik və xəstəliklər insana düşmən olan bədxah ruhlar tərəfindən törənir və onları dəf etmək üçün sehrkarlıq və cadugərlikdən istifadə etmək lazımdır. Onlar belə təsəvvür edirdilər ki, sehr və cadu pis insanların şərrini dəf ,etməkdə tə’sirli olduğu kimi, müharibələrdə, xəstəliklərin müalicəsində

fəlakət və çətinliklərin dəf olunmasında da tə’sirli sayılır. Buna görə də hər iki əqidənin ardıcılları müəyyən bir xəstəliyə tutulmuş şəxsin ətrafına yığışır, bə’zi kəlmələri uca səslə və xüsusi avazla oxumaqla, yaxud quşların uçuş hərəkətlərini təqlid etməklə özlərinə təlqin edirlər ki, guya quşlar ətrafda qanad çalıb uçduqları kimi, xəstəlik də bu şəxsdən qaçacaqdır. Yaxud onlar quraqlıq illərində xüsusi bir mərasim təşkil edərək qablarla havaya su atırlar və öz söylədikləri kimi bununla yağışa ethiyaclı olduqlarını .xatırlatmaq istəyirlər. Onlar inanırlar ki, bu iş yağışın yağmasına səbəb olur

## ƏRƏBİSTAN YARIMADASINDA ANİMİZM

Ərəbistan yarımadasında bə’zi ərəb qəbilələri bütpərəstliklə yanaşı, xeyirxah və şər ruhlara, ay, günəş, ulduzlar və s. göy cisimlərinin ruha malik olduğunu güman edərək onlara sitayiş edirdilər. Bə`zi qəbilələr isə mələkləri Allahın qızları hesab edərək, onlara ilahi əzəmətin məzhəri gümanı ilə pərəstiş edir və bununla da bir növ onların məhəbbət və rəğbətini qazanmaq istəyirdilər. Bə’ziləri də şeytanlara pərəstiş edərək onların təhlükəsindən qorunmaq və onların zərərlərini dəf etməyə çalışırdılar. Burada cinlərə pərəstiş də mövcud idi; çünki onlar qaranlıq, səssiz-səmirsiz və qorxulu Ərəbistan səhralarında və çöllərində keçirdikləri şiddətli qorxu hisslərinə görə onlara pərəstiş edirdilər. Çünki onlarda belə bir inanc vardır ki, səhralar cinlərin ixtiyarındadır; onların rəğbət və məhəbbətini qazanaraq qorxu və vəhşətdən xilas olmaq üçün cinlərə və onların allahlarına pərəstiş etmək lazımdır. Ərəblər bu işlə sanki özlərini cinlərin pənahında hiss edirdilər. Həmin ərazilərdə yaşayan Bəni-Xuzaə qəbiləsinin bir qolu olan Bəni-Məlih sülaləsi cinpərəstliklə tanınmışdı. Bə`zi ərəb qəbilələri, o cümlədən Himyər qəbiləsinin bə’zi üzvləri, Yəməndə Səba tayfası, Bəni-Təmim, Bəni-.Ləxim, Bəni-Xuzaə tayfalarından bə’ziləri də göy cisimlərinə pərəstiş edirdilər

Qeyd etmək lazımdır ki, göy cisimləri səhra ərəblərinin həyatında yüksək əhəmiyyətə malik idi. Onlar ay, günəş və ulduzlardan, yolun və istiqamətin tə`yin olunmasında istifadə edirdilər. Bu məsələlər də göy cisimlərinə həddən artıq diqqət yetirilməsinə və nəticədə tədricən onlara məhəbbət göstərmələrinə səbəb oldu. Zaman keçdikcə bu iş göy cisimlərinin müqəddəs sanılmasına və onlara pərəstiş olunması ilə yekunlaşdı nəticədə belə bir e`tiqad yarandı ki, səmavi cisimlər ruha, əsraramiz qüvvəyə malikdir, insanların həyatında birbaşa tə’yinedici rol oynayır. Ulduzların bəxt ulduzları

.və günlərin də yaxşı və pis günlərə bölünməsi də bu fikirlərdən doğmuşdur

Beləliklə bütün əşyalarda, təbii varlıq və hadisələrdə ruhun varlığına inanmaq, div, pəri və s. qorxulu surətlərə və xəyali varlıqlara e'tiqad bəsləmək, onların səhralarda, meşələrdə, xarabalıqlarda olmasını zənn etmək, bu kimi varlıqların xariqul'adə və son dərəcə böyük qüdrətə malik olmasını təsəvvür etmək bütünlüklə animizm təfəkkürünün məhsuludur. Qədim xalq ədəbiyyatında div, pəri və s. qeyri-adi varlıqlar haqda çoxlu hekayələrin mövcud olması keçmişdə belə bir e'tiqad və fikrin geniş yayılmasının aşkar sübutudur. Hal-hazırda da bə'zi

cəmiyyətlərdə bu kimi inanclar istər rəsmi, istərsə də qeyri-rəsmi şəkildə animizm .tərzi-təfəkkürünün tə`sirləri kimi müşahidə olunmaqdadır

## SUAL VƏ TAPŞIRIQLAR

?Fetiş” sözünün mə’nası nədir“ .١

?Fetişin neçə növü vardır .٢

.Animizmi izah edin .٣

?Animistlərin ruh barəsində düşüncələri nədir .۴

.Animizmdə e`tiqad bəslənən tənasüx məsələsini şərh edin .۵

?Animizmlə fetişizm arasındakı fərqlər nədən ibarətdir .۶

?Animiz ilə fetişizmin ortaq xüsusiyyətləri hansılardır .٧

Qur’ani-Kərimin Ən’am-١٠١, Cin-٧, Ə’raf-١٩۴, Zuxruf-١۵ və ١٩, Səba-۴٠ və Yasin surəsinin ۶١-ci və digər şərif ayələrindən istifadə etməklə animizmin müxtəlif formalarını ayırd edərək, onları qruplaşdırın və Qur’anın bu ayinlər barəsindəki .nəzərini bəyan edin

## BEŞİNCİ DƏRS

## (İBTİDAİ DİNLƏR (٢

### TOTEMİZM .٣

Totempərəstlik də qədim bir e'tiqadi cərəyandır; bu dinin ardıcıllarına hələ də Amerika, Avstraliya və Afrikanın yarımvəhşi qəbilələri arasında rast gəlmək olur. Əslində totem sözü Şimali Amerikanın yerli əhalisi ilə bağlıdır. Sosioloqlar totemizm sözünü e'tiqadi baxımdan Şimali Amerikanın yerli əhalisi ilə oxşar olan dünyanın sair nöqtələrindəki .yerli əhalinin əqidəsini bəyan edərkən işlədirlər

Totem dedikdə hər hansı bir qəbilə tərəfindən pərəstiş olunub müqəddəs sayılan bitki, heyvan və ya başqa bir şey nəzərdə tutulur. İbtidai insanlar müəyyən bir əşyanı və ya heyvanı (daha çox heyvanlar və quşları), özləri üçün totem kimi seçir və ona pərəstiş edirdilər. Onlar inanırdılar ki, ulu babalarının ruhu o quş, yaxud heyvanın cisminə keçib. Bu ruh ölümdən sonra həmin quş, yaxud heyvan surətində qəbilənin ətrafında gəzməyə başlamış və onları himayə etməkdən əlavə, həmin qəbilənin sağlamlıq və xeyir-bərəkətinə də səbəb olur. Yerli əhali totem kimi qəbul etdikləri həmin varlığı həqiqətdə özlərinin ulu babası və soyları hesab edirlər. Qəbilənin hər bir üzvü öz nəslinin davam gətirib həyat sürməsində totemin istisnasız rolu olduğunu zənn edir, .onun ətinin yeyilməsini özlərinə və başqalarına qadağan edirdilər

Totem kimi qəbul olunan həmin heyvanın, yaxud quşun nəsli davam etdiyindən, onlar belə güman edirdilər ki, qəbilənin ulu babası əbədi olaraq totemin simasında diri qalacaqdır. Deməli, totemizm həqiqətdə qəbilənin ulu əcədadına pərəstiş etmək, başqa sözlə desək, o cəmiyyətin müştərək ruhu formasına düşmüş bir varlığa sitayiş .etmək deməkdir

Qəbilə üzvləri xüsusi ibadət mərasimləri təşkil edərək totemin hərəkət, səs və rəftarını təqlid etməyə çalışır, bununla da qəbilənin ulu əcdadına itaət və məhəbbətlərini izhar .etmək istəyirlər

### TOTEMİZMİN ƏSAS PRİNSİPLƏRİ

:Totemizmin əsas prinsipləri aşağıdakılardır

.Totem; mana; tabu

:a) Totem

Mə`lum olduğu kimi, totem müqəddəs bir varlıqdır ki, camış, qartal, tutuquşu, kenquru, qırğı və ağac qurdu kimi heyvan, çay kolu kimi bitki, nadir hallarda yağış və hər hansı predmetlərdən biri ola bilər; yerli əhali bu kimi varlıqları özlərinin ulu babası hesab edərək onu müqəddəs sanmış və onlara pərəstiş etmişlər. Məsələn, qartalı özünə totem seçən hər bir qəbilə qartalın bütün növlərini müqəddəs sayaraq sitayiş .edirdilər

Totem qəbilə üzvlərinin milli simvolu, tayfa nişanəsi, bayraq və gerb surətində olmuş, qəbilə üzvlərinin bir-birinə bağlılıq və birlik amili sayılmışdır. Bu simvollar müxtəlif qəbilələri bir-birindən ayırmaqda seçilməkdə yeganə amil hesab olunur. Hər bir qəbilə üzvü adətən toteminin heykəlini və ya şəklini evinin qapısında yaxud meydanlarda həkk etdirir, öz bədəninin müxtəlif nahiyəsinə dərinin üzərinə döydürür, bə`zi vaxtlarda hətta ölən şəxslərin cənazəsi üzərində də çəkirdilər. Qəbilə üzvlərindən bə`ziləri çalışırlar ki, öz zahiri quruluşlarını da totemin şəklinə salsın. Misal üçün qəbilənin totemi quş olarsa, onlar öz başlarına, sinələrinə və bədənlərinə o quşun lələklərini yapışdırırdılar; totemi buynuzlu heyvanlardan olan qəbilə üzvləri isə ona .tabe olaraq öz başlarına buynuz vururdular

(b) Mana: (Mana

Mana qeyri-müəyyən və mistik həyat qüvvəsi ilə hər yerdə pərakəndə vəziyyətdə dolaşan, canlı və ya cansız, müqəddəs və qeyri-müqəddəsliyindən asılı olmayaraq, .məxluqat arasında mövcud olan əfsanəvi bir varlıqdır

Mana" kəlməsinin kökü şimali-şərqi Avstraliyanın Malineziya adalarında yaşayan " xalqların dilindən götürülmüşdür. Manaya e`tiqad bəsləmək dünyanın bir çox nöqtələrində yaşayan xalqlar arasında müşahidə olunduğundan, sosioloqlar "mana" kəlməsini mistik qüvvənin varlığından başa düşülən elmi ifadə kimi işlədirlər. Hər bir yerdə mana ilə əlaqədar xüsusi qayda-qanunlar və adət-ən`ənələr mövcud olmasına baxmayaraq, bu əqidənin ardıcıllarının hamısı müştərək fikirdədirlər; onların inancına görə hər bir varlıqda namə`lum və mistik bir qüdrət vardır ki, qeyri-təbiidir, onun fəaliyyətləri mananın təbii həyat qüvvəsinin fövqündədir, müəyyən şəxslərin vasitəsilə, yaxud diri və hərəkətdə olan şeylərin vücudunda zahir olur. Onun belə bir xüsusiyyəti vardır ki, cansız əşyalardan canlılara, bir şəxsdən başqa bir şəxsə və ya .müəyyən şəxslərdən cansız əşyalara keçə bilir

Səhra və çöllərdə yaşayan qəbilələr çox qüdrətli nəzərə çarpan hər bir şəxs, yaxud heyvan qarşısında özlərinin acizliklərini hiss etdikləri üçün onların mana qüvvəsinə malik olduğunu zənn etmişlər. Buna görə də bu qüvvənin qarşısında özlərini qorumaq, gündəlik fəaliyyətlərində ondan kömək istəmək, yaxud öz fiziki qüvvələrini artırmaq

üçün ona müqəddəs bir varlıq kimi yanaşmış və onlara sitayişolunma dərəcəsinə .qədər xüsusi diqqət yetirmişlər

(۷) Tabu: (Taboo

Totemizm kimi ibtidai dinlərin ardıcılları arasında sirli və gizli qüvvəyə malik olan, fövqəl-təbii gücdən əlavə qüvvənin mövcudluğuna, ondan uzaq olmağın gərəkliliyinə inanc da yayılmışdı. Hər kəs bu əşyalara yaxınlaşsa başına böyük bəlalar gələcəyi gözlənilirdi. Buna görə də həmin qəbilələr qorxularından bu kimi əşyalardan çəkinər və ona əl vurmazdılar. Çünki onlara əl vurmaqla qeybdən gələn cəzalara düçar olacaqlarına inanırdılar. Əşyaların daxilində olan bu gizli və sirli qüvvəyə terminologiyada “tabu” deyilir. Tabu Sakit okeanın cənub qərbində yerləşən Aloneziya arxipelaqında yaşayan yerli əhalinin işlətdiyi xüsusi bir

sözdür. Bu e`tiqadın oxşarı, yaxud eynilə özü dünyanın digər ölkələrində olan qədim dinlər arasında da müşahidə olunduğundan, etnoqraflar tabu ifadəsini bütün oxşar .e`tiqadlar üçün də istifadə edirlər

Səhra və çöllərdə yaşayan qəbilələrin əksəriyyətində tayfa başçısı tabunun bariz nümunələrindən hesab olunur. O, qəbiləyə rəhbərlik etmək qüdrətinə malik olana qədər qəbilə üzvləri onun elə bir qeybi, sirli qüdrətə malik olduğuna inanırdılar ki, hətta onun bədəninə, paltarına və yaxud vəsaitlərinə, xalça-palazına, ayağının izinə əl vurmağı belə təhlükəli hesab edirdilər. Belə güman edirdilər ki, bu günahlar törədənlərin həyatına qeybdən təhlükələr yaradacaq. Buna görə də, günahın kəffarəsi .kimi yaxşı iş görmək lazımdır

Bu qəbilələrdə tabuların sayı-hesabı yoxdur. Cənazə, ovçu, balıqçı, əsgər, uşaq, həddi-büluğa çatmaqda olan qız və ya oğlan, hətta bə`zi işlər, o cümlədən müəyyən sözləri demək, yaxud bə`zi məkanlara daxil olmaq da tabu sayılır və onlardan uzaq gəzmək .vacib hesab edilirdi

Tabu” sözü totemizm ayininin xüsusi əməl və qaydaları barəsində də işlədilir. Bu“ :qayda və əməllərin iki növü var

١. Ləğv edilmiş;

٢. Lazımi əməllər.

Əməllərin bu şəkildə bölgüsü bir növ İslam dininin vacib və haramlar təsnifatına bənzəyir. Totemizm ayinində ləğv edilmiş ədəb və əməllərin ən mühümü :aşağıdakılardır

Qəbilənin totemi hesab olunan heyvanları öldürmək, ətini yemək, totem əşya və bitkilərə hörmətsizlik etmək, hətta onlara toxunmaq və baxmaq. Misal üçün, totemi inək olan qəbilələr onun ətini yeməkdən çəkinməlidir. Amma qəbilə üzvləri xüsusi ayin və mərasimlər keçirərkən öz totemlərinə qovuşmaq üçün təntənəli ritualla onun .ətindən yeməlƏri kimi xüsusi hallar istisna olunur

Ləğv olunan inkari əməllərdən biri də toteməri bir olmayan qəbilənin qızları ilə

evlənməkdir. Dini bayram sayılan günlərdə işləmək, yaxud bir şey yemək də eyni .qayda ilə haram sayılırdı

İndi isə Avstraliyanın bə`zi primitiv qəbilələri arasında geniş yayılmış totemist :mərasimlərinin bir nümunəsini şərh edirik

Bu qəbilələrin insanları təzə həddi-büluğa çatmış bir şəxsi üzvlüyə, yaxud qəbiləyə və totemist dəstəyə qəbul etmək istəsələr, əvvəlcə onu müəyyən bir müddət tərki-dünya həyat sürməyə, qadınlarla və hələlik totemizm ayinini qəbul etməyən şəxslərlə görüşməkdən çəkinməyə vadar edirlər. Belə hallarda onun meşələrdə özünə sığınacaq seçməsi daha məqsədəuyğun hesab olunur. Bu halda xörəklərin əksəriyyəti ona haram sayılır, halal olanlar da ya xüsusi şəxslər vasitəsilə onun ağzına qoyulmalı, .yaxud özü acından ölməyin qarşısını alacaq miqdarda yeməlidir

Təzə həddi-büluğa çatmış oğlan uşağı məşəqqətli ruhi məşğələlərlə müşaiyət olunan bu ağır dövrü keçdikdən sonra pak, xalis və mə`nəvi bir halda asketik həyat tərzindən .çıxır və bundan sonra dini mərasimlərdə iştirak etməyə icazə alır

İntişiyuma" əslində totemizmin ən əsas ayini kimi qeyd olunan mərasimlərdəndir. Bu" ayin ilk baharda və yağışlar yağmağa başlayan zaman təntənəli və böyük bir bayram kimi keçirilir. Mərasimdə qəbilənin bütün üzvləri daşlı, kələ-kötür bir yamaca yığılır, tam çılpaq halda oynayıb rəqs etməyə, var gücləri ilə ayaqlarını döyəcləməyə və atılıb-düşməyə başlayırlar. Onlar müəyyən mahnılar oxuyur və həmin halda güllərin tozlarını havaya səpirlər. Onların inancına görə bu əməl əkin-səpinin bərəkətinin çoxalmasına, onların nəslinin artmasına səbəb olur. Bu mərasimi yerinə yetirdikdən sonra qəbilənin bütün üzvləri totem sandıqları müqəddəs heyvanın ətini yemək üçün bir yerə yığışır və bununla da, öz ulu babalarının ruhu hesab etdikləri totem ilə birləşməyi mümkün sayırlar. Qəbilə üzvləri bu mərasimlə öz ulu babalarına qarşı olan sədaqət, vəfadarlıq .və həmrəyliklərini nümayiş etdirirlər

Qeyd olunan mətləblərdən belə bir nəticəyə gəlirik ki, totemizmdə qəbilənin ulu babası qəbilə üzvlərinin əsli vücudu və kökü hesab olunur. Qəbilənin ulu babası öldükdən sonra ruhunun qəbilənin totemi şəklində zühur etdiyinə görə, o da müqəddəsləşdirilərək sitayiş olunur. Ancaq, məşhur sosioloq Emil Durkim bu fikirdədir ki, totemistlər totemə pərəstiş və onun fövqəladə qüdrətinə inanmaqla yanaşı bütün dünyada tə`siri olan yeganə yaradan və yox edən qüvvəyə də e`tiqad bəsləyirlər. Totemlər bütün bu qüdrətlərdən məhrumdurlar. Dünya səviyyəli bu qüdrətli güc totemlərdə də təcəssüm olunmasına baxmayaraq, dünyanın bütün başqa varlıqlarında mövcuddur. Əlbəttə, varlıqlardan heç biri ilə eyni deyil, bu qüvvə əzəli və əbədi olmuş, totemlərin yaranmasından əvvəl və onlardan sonra da mövcud .olmuşdur

## QƏDİM VƏ MÜASİR TOTEMLƏR

Müxtəlif xalqların tarix və ədəbiyyatından qalmış əsərlər aşkar şəkildə göstərir ki, totemizm ayinin təxminən dünyanın hər yerində qədim tayfa və millətlərin böyük .əksəriyyətində olduğunu göstərir

Dünya xalqlarının şifahi və yazılı ədəbiyyatının müasir dövrə gəlib çatmış dastan, nağıl, atalar sözləri uzaq keçmişdə totemə e`tiqadın geniş yayılmasına dəlalət edir. Bu mənbələrdən biri kimi romalıların əfsanəvi dastanlarını və Yupiterin hekayəsini

göstərmək olar. Məşhur nəzəriyyəyə görə, öz sevgilisinin diqqətini cəlb etmək üçün o özünü qu quşu formasına salmışdır. Bu hadisə göstərir ki, latınların əsil əcdadı sayılan Ariya qəbilələrindən biri qu quşunu özünə totem seçmişdir. Sonralar, tədricən bu quş ilahiləşdirilmiş və nəticə e`tibarı ilə Yupiter hekayəsi formasına düşmüşdür. Firdovsinin "Şahnamə" əsərində də bu e`tiqadın müxtəlif yönlərini tapmaq olar. Bu əsərdə İranın müxtəlif tayfa və köçəri xalqlarının bayraqları haqda deyir: " – İran şahının ordusunda xidmət edən hər bir qəbilənin bayrağında müxtəlif rəngli bir ulduz, yaxud heyvanın təsviri var idi. Bu bayraqlar hər bir tayfanın düşərgə saldığı yerlərdə yüksək bir nöqtədə dalğalanırdı. Onların üzərində ayın, ulduzun, canavarın, əjdahanın, ".filin və s. heyvanlar təsvir olunmuşdu

səh:۳۵

Eyni zamanda demək olar ki, hal-hazırda da müəyyən şəhər və ölkələrin simvolu kimi tanınan bə`zi rəsmlər, o cümlədən Almaniya və Amerikada qartal, Tailandda fil, Yaponiyada günəş, Şri-Lankada şir və s.-də totemlərə e`tiqadların qədim dövrlərdən mirasıdır. Bundan başqa, dünyanın müxtəlif yerlərində, eləcə də Avstraliyada, Amerika qitəsinin şimal və mərkəz bölgələrində, bə`zi Afrika ölkələrində totemizmə inanan, qədim dövrdə mövcud olan e`tiqadlardan bir çoxunun mədəniyyət və düşüncələrində qaldığı çoxsaylı primitiv qəbilələr həyat sürürlər. Hindistanda inəyə vəsfolunmaz hörmət və müqəddəsləşdirmə şübhəsiz ki, totemizm düşüncəsinin bariz nümunələrindəndir. Bir çox avam kütlələr və hətta bə`zi müsəlmanlar da ağaclardan, daşlardan və s.-dən kömək ummaq, onlara ehtiram göstərmək kimi hallar da gözə çarpır. Bu sahədə daha ətraflı və çoxsaylı nümunələri müasir dünya xalqlarının mövcud adət-ən`ənələrini araşdırmaq və totemist təfəkkürünü adət-ən`ənələrlə .tutuşdurmaqla qalıqlarını müşahidə edərək, uyğun olduğunu görmək olar

## SUAL VƏ TAPŞIRIQLAR

?Tabunun neçə növü vardır .١

.Totemin tə`rifini deyin

.Totemizmin əsaslarını izah edin

.Totemizm ayinində haram olan şeylərdən bə`zilərini izah edin

.Müasir dövrdə totemizmin simvollarından sayılan bir neçə nümunə göstərin

Zümər" surəsinin ٥-ci ayəsindən istifadə etməklə, totemistlərin qəbilənin bütü və" .totemi barədəki nəzərini şərh edin

## ALTINCI DƏRS

## (İBTİDAİ DİNLƏR (٣

### İBTİDAİ DİNLƏRİN ORTAQ XÜSUSİYYƏTLƏRİ

### İŞARƏ

İbtidai dinlərin müxtəlif fərqlərlə yanaşı, çoxlu ortaq cəhətləri də vardır. Bu ortaq cəhətlər bütövlükdə bütün ibtidai dinlərin vahid bir ideologiya və eyni mənbədən qaynaqlanmasını göstərir. İbtidai icma və qəbilələrin dünyanın müxtəlif nöqtələrində dağınıq şəkildə yaşamalarına görə, əlifba və yazışmaların olmadığı bir şəraitdə onların mədəniyyət, e`tiqad və adət-ən`ənələri yalnız şifahi şəkildə söylənilərək sinədən-sinəyə keçməklə sonrakı nəsillərə ötürülmüşdür. Keçən dərslərdə qeyd olunduğu kimi, səmavi elçilər tərəfindən təkallahlıq ayininin əsası olan - Allah Təalanın əbədi və əzəli kimi qiymətləndirilməsi bütün dinlərdə oxşar və eyni şəkildə nəzərə çarpır. Buna görədə, belə nəticə almaq olar ki, ilahiyyatçıların ümumbəşəri dinlərdəki e`tiqadların hamısının əsas və kökünün tovhid, təkallahlılıq olması fikrinin doğruluğu barədə nəticəyə gəlmək olar. Amma zaman keçdikcə dini məsələlərin qavranış və şərhinə nöqsanlı bəşəri duyğu və ambissiyaların müdaxiləsi və eyni zamanda öz mənfəətlərini güdənlərin, dünyapərəstlərin dini əqidələri təhrif edərək onlarda dəyişikliklər aparması nəticəsində təkallahlılıq təhrifə mə`ruz qalmış və ağlasığmaz, şirkə qarışmış .formaya düşmüşdür

Bu müqəddimə ilə ibtidai dinlərin müştərək xüsusiyyətlərini bəyan edərək onların .ortaq cəhətlərini ayrı-ayrılıqda araşdırırıq

### MÜQƏDDƏS BİR ƏŞYA .١

İbtidai icma və qəbilələrlə əlaqədar aparılan ilkin araşdırmalar göstərir ki, onların özəl bir məkan, yaxud müəyyən bir əşya barədə xüsusi əqidə, məramları olmuş və bu kimi münasibətlər tədricən müqəddəsləşdirilərək xüsusi ehtirama layiq olmuşdur. Bu ehtiram hissi onlara qarşı ehtiyatlı rəftar və müdafiə, digər adi şəxs və əşyalara münasibətdən təmamilə fərqli şəkildə təzahür etmişdir . Güman etmək olar ki, bu cür müqəddəslik və ehtiramın kökündə müqəddəs şeylərin fövqəl-təbii qüvvəyə malik

olması, xeyir və yaxşılıq, yaxud şər və pislik mənşəyi ola bilmələrinə dair e`tiqad dayanır. Nəticədə, bu əşyaların hörmətini saxlamaq iki şeyə görə ola bilərdi: ya onların şərr və qəzəblərindən amanda qalmaq, yaxud da onların xeyir-bərəkət və .mərhəmətlərindən bəhrələnmək

**MANAYA E'TİQAD .۲**

Bütün ibtidai qəbilələr müəyyən mə`nada qeybi və mə`nəvi qüvvəyə, bu qüvvənin bütün əşyalarda olduğuna və hər bir yerdə tapıla biləcəyinə, fövqəladə

həyati tə`sirlərinə inanırdılar. İbtidai insanlar bütün işlərində bu fövqəl-təbii qüvvədən .kömək diləyirdilər

### SEHR VƏ CADU .۳

İbtidai cəmiyyətlərdə yaşayan insanlar baş verən hadisələrin düzgün və real qavrama, məntiqi təhlil imkanına malik olmadıqlarından, ətraflarında cərəyan edən prosesləri anlamaqda aciz qaldıqlarından özlərini xatircəm etmək, işlərin axarını xəyali olaraq öz xeyirlərinə yönəltmək üçün bir sıra xurafatçı işlərə, o cümlədən cadugərlik .və sehrkarlığa əl atırdılar

Əlbəttə unutmaq olmaz ki, sehr və caduya müraciət əslində onların fövqəl- təbii qüvvələrə e`tiqad bəsləməsinin, öz ətraflarında baş verən hadisələrdə onların müəyyən tə`sirlərinə inandıqlarının in`ikası idi. Başqa sözlə desək, sehr və cadu müqəddəs ruhlar və mana ilə əlaqə yaratmaqla əzazil ruhların şərrinin dəf edilməsində, o ruhların onlara hakim kəsilməsinin qarşısını almaqda, bu müqəddəs ruhlardan düşmənlərə qalib gəlib onları məğlub etməkdə, eləcə də əleyhdarlarının sehr və cadularının xoşagəlməz tə`sirlərini neytrallaşdırmaqda istifadə üçün bir vasitə idi. Sehr və caduya qarşı dərin inam hissi cadugərlik və sehrbazlığın geniş yayılmasına .və bu təbəqənin cəmiyyətdə mühüm mövqeyə çıxmalarına səbəb olurdu

Cəmiyyətdə sehrkar və cadugərlər iki dəstəyə bölünürdü: onlardan bir qrupunun fəaliyyəti camaatın xeyrinə və sosial vəziyyətlərini yaxşılaşdırmağa xidmət edirdi. Sehrkar həkimlər də belələrindəndir. Onlar xüsusi ictimai mövqeyə malik idilər və öz sehr, caduları ilə xəstələrə şəfa verməyə çalışırdılar. Bu cadugərlər xəstəliyi xəbis və şər ruhların bə`zi bəd əməllərinin mənfi tə`sirləri kimi qələmə verirdilər. Falçılar, gələcəkdən xəbər verənlər, tilsim işləri ilə məşğul olanlar və s. həmin dəstədən hesab olunurdular. Digər bir dəstə isə sehr, cadu ilə camaata zərər yetirən cadugərlər idi və .onların işi ölüm, xəstəlik, çətinlik, quraqlıq və s. problemlər yaratmaqdan ibarət idi

### TABUYA E'TİQAD .۴

Keçən dərsdə tabu barədə müfəssəl bəhs olundu. Burada qeyd ediləsi məqam bundan ibarətdir ki, tabuya e`tiqad sırf totemizm ayini üçün xarakterik deyildir, bu e`tiqad

bütün ibtidai dinlərdə müxtəlif adlarla, müxtəlif formalarda və müəyyən mə`nada .oxşar tərzdə mövcud olmuşdur

Qısa şəkildə izah etmək istəsək, tabu bütün qəbilə üzvlərinin totemə, ruha və onların müqəddəs və möhtərəm saydıqları hər bir şeyə hörmət və çərçivənin gözlənilməsinə .deyilir

### TƏMİZLƏNMƏ VƏ PAKLANDIRMA .۵

Tabuya hörmət və ehtirama riayət vacib olduğundan, ibtidai icmaların üzvləri bu qaydalardan çıxaraq onları pozan hər bir şəxsi çirkli və nəcasət sayırdılar. Doğuş, səh:۳۸

ölüm, qan tökmək, tabuya toxunmaq, qana bulaşmaq və s. işlər insanın murdarlanmasına səbəb olurdu. Onların nəzərində bu kimi işlər qəbilə üzvlərinin həyatında və hətta bütün canlılar üçün xoşagəlməz dolaşıq vəziyyətlərin yaranmasına səbəb ola bilərdi. Buna görə də onlar öz ruhlarını paklaşdırmaq üçün xüsusi ritual və mərasimlər keçirirdilər. Belə rituallardan oruc tutmaq, baş qırxdırmaq, dırnaq tutmaq, bədəni yerə çırpmaq, tüstünün qarşısında dayanmaq, odun içində qaçmaq, suyun üstündən tullanmaq, qanla bədəni yumaq, yaxud bədənin hər hansı bir üzvünü yaralamaq və s.-ni qeyd etmək olar. Adətən bu əməllər xüsusi dua və zikrlərin .müşayiəti ilə icra olunurdu

### DİRİ ZƏNN ETMƏ .۶

Daş dövründə yaşamış ibtidai qəbilələr, eləcə də müasir dövrdə həmin əqidələrlə uyğun həyat sürən insanlar varlıq aləminin bütün ünsürlərini diri və canlı hesab edirlər. Onların e`tiqadına görə bütün əşyalar və cansız varlıqlar insanlara və yaxud əşyalara tə`sir göstərə biləcək gizli bir ruha malikdirlər. Bu ruhlarda insanların ruhuna bənzər xüsusiyyətlər, duyğu, hisslər olduğu üçün iradə və qüdrətlərilə bütün aləmi əhatə edə bilər və bu zaman həddindən artıq təhlükəli və zərərli olurlar. Müvafiq olaraq, insanlar da onları razı salıb sevindirə bilsələr, həyatda xeyir-bərəkət, firavanlıq, rahatlıq və uğur əldə edə bilərlər. Bu ruhların razılığını qazanmağın yolu qarşısında sədaqət, .vəfadarlıq və dərin ehtiram hissini izhar etməkdir

İbtidai icmalar arasında əşyaların və cansız varlıqların ruha malik olma əqidəsi o qədər inkişaf etmişdi ki, hətta onlardan bə`ziləri dağ, daş, dəniz və s.-nin də erkək və dişi cinsinə mənsub olduğuna inanmış və onların izdivacından, vüsalından başqa dağ, daş .və dənizlərin yarandığını güman etmişlər

### TƏBİƏTƏ SİTAYİŞ .۷

Yuxarıda qeyd etdik ki, ibtidai icmalar hər bir şeyin ruh və canının olmasına inanırdılar. Bilmək lazımdır ki, gedən proseslər arasında daha çox tə`sirli, bərəkətli, həyat və varlığın rövnəqvericisi olanlar, ibtidai insanların həyatlarının asılı olduqları fenomenlər diqqəti özünə daha artıq cəlb edirdi. Belə ki, bu fenomenlərə qarşı münasibətdə sırf

ehtiram və müqəddəslikdən daha irəli gedərək onlara sitayiş etməyə başlayırdılar. İbtidai insanların məişət şəraiti və yaşadıqları mühitin coğrafi mövqeyi barədə aparılan araşdırmalarda sübuta yetirilmişdir ki, hər bir bölgədə varlıq simvolları və təbii fenomenlər camaatın məişət vəziyyətinə, onların ətrafındakı təbii şəraitə mütənasib olaraq müqəddəslik və ehtirama layiq görülmüşdür. Belə ki, onlar üçün daha artıq həyati dəyərə malik olan hər bir təzahürə daha çox pərəstiş və hörmət olunurdu. Misal üçün, Avropanın şimalındakı meşə zolaqlarında ağaclar müqəddəs sanılır və onlara sitayiş edilirdi. Çünki, yerli camaatın ehtiyac və güzaranı ağacları kəsib satmaqla tə`min olunurdu. Onlar böyük gövdəli və uzun ömürlü ağacları qırarkən dodaqlarının səh:۳۹

altında sanki bağışlanmalarına zəmanət verəcək xüsusi duaları züm-zümə edirdilər. Buna əks olan hallar da var idi. Torpağın və əkinin məhsuldarlığı yalnız yağışdan asılı .olan quraqlıq səhra sakinləri daha çox səmaya və buluda ehtiram qoyurdular

Bunun ən yaxşı sübutu müxtəlif məntəqələrdə yaşayan insanların səmavi ruhların .razılığını əldə etmək və yağış istəmək məqsədi ilə keçirdikləri ibadət mərasimləridir

Müasir dövrdə də svilizasiyalı xalqlar və səmavi dinlərin ardıcılları arasında belə əqidə və ideyalar üçün zəminələr müəyyən qədər nəzərə çarpır. Necə ki, neçə əsr bundan əvvəl insanların əsas qida rasionunu təşkil edən çörək və buğda indinin özündə də təkallahlı din ardıcılları arasında ilahinin digər ne`mətlərlə müqayisədə daha çox ehtirama malikdir. Onu murdarlamaq, ayaq altına salmaq, zibillə birlikdə atmaq və s. işlər günah sayılır. Əgər yolun kənarında bir tikə çörək görərlərsə, dərhal onu yerdən .götürərək öpür və əldəyməz bir yerə qoyurlar

Cahiliyyət dövründə ərəblər bütləri bə`zən xurmadan düzəldirdilər. Çünki, bu məhsul bolluğuna görə ərəblərin ən əsas qida maddəsi hesab olunurdu. Ərəblər xurmanı bütə .çevirməklə, ona sitayiş və müqəddəsləşməsinə zəmin yaradırdılar

### QURBANLIQ .۸

Əvvəldə qeyd olunduğu kimi, ibtidai insanlar müxtəlif şəkil, hal və formaları olan qeybi qüvvələrin mövcudluğuna inanırdılar. Onların fikrincə, bu qüvvələr firavanlığın, bol ne`mətlərin mənşəyi və təbiət aləminin müqəddəratına hakimdirlər. Bu əqidənin sahibləri sehr və cadudan istifadə etməklə həmin namə`lum qüvvələrin rəğbətini qazanmaq, onlardan öz mənafelərinin tə`mini üçün istifadə etmək istəyirdilər. Bu məsələ ibtidai insanların heç vəchlə qalib gəlinməsi mümkün olmayan bir çox təbii hadisələr qarşısında aciz qalıb məğlubiyyətləri ilə barışmalarına, varlıq aləmində əlyetməz, dünya işlərinin çoxunu idarə edən bir, yaxud çoxlu sayda böyük qüdrətlərin .varlığına inanmalarına səbəb olmuşdur

İbtidai insanlar bu güc və ya güclərin razılığını cəlb etmək, öz məqsədlərinə çatmaq üçün onların qarşısında öz acizliklərini izhar etmiş, təmənna və yalvarışla, hədiyyə və qurbanlıq verməklə bu fövqəl-təbii gücləri razı salmağa çalışmışlar. İndinin özündə də,

müxtəlif şəkillərdə qurbanlıq mərasiminin keçirilməsinin bütün ibtidai dinlərdə, eləcə də böyük ilahi və qeyri-ilahi dinlərin çoxunda xüsusi bir ayin kimi yayılmasının şahidiyik. Müxtəlif dinlərdə mövcud olan qurbanlıq mərasiminin əsas fərqlərini üç mövqedən :araşdırmaq olar

Fövqəl-bəşər güclərlə əlaqədar təfəkkür tərzi burada əzəli və vahid Allahın varlığı, .١ növlərin rəbbi, qəbilənin ulu babasının ruhu və s. məsələlərdə dinlər arasında çoxlu .fərqlər və fikir ayrılıqları nəzərə çarpır

Qurbanlığın seçilməsi; onun növündən asılı olaraq, heyvanlardan tutmuş insana və .٢ .hətta qəbilənin ən əziz üzvlərinin qurbanlıq edilməsi baxımından fərqlər var

.Qurbanlıq etməkdə məqsəd və niyyətlərin fərqli olması .٣

### ÖLÜLƏRƏ HÖRMƏT QOYULMASI .٩

İbtidai insanlar ölülərə, xüsusilə öz ulu babalarına xüsusi hörmət bəsləyirdilər. Bu kimi ehtiramlar bə`zi hallarda pərəstiş və sitayiş həddinə cəlib çatırdı. Onların e`tiqadına müvafiq olaraq, heç bir insan, hətta heç bir heyvan öldükdən sonra tamamilə məhv olub aradan getmir və ölümdən sonra onun ruhu əbədi qalaraq insanlar arasında dolanır. Ruhlar ölümdən sonra heyvanların, yaxud müxtəlif əşyaların vücuduna da daxil ola bilər. Bu e`tiqada əsasən ibtidai insanlar ölülərə hörmət qoyulması və onların ehtiramının qorunub saxlanılmasını özlərinə vacib hesab edir, ölülərinə əzab-əziyyət verilməsinə mane olurdular. Onlar inanırdılar ki, ölülərlə bağlı qadağalara riayət edilməməsi, onlara hörmətsizlik ölülər tərəfindən onlara əzab-əziyyət, çətinlik və bəla .gəlməsinə səbəb ola bilər

### İNSAN, TƏBİƏT VƏ VARLIQ RUHUNUN VƏHDƏTİ .١٠

Bütün ibtidai dinlərdə insanla təbiət arasında qarşılıqlı əlaqə və bağlılıq müşahidə olunur. Sanki, insanla təbiət arasında müəyyən bir “qohumluq” əlaqələri mövcuddur. İbtidai insan əslində özünü təbiətin ayrılmaz bir hissəsi, hətta onu özünün ata-babası sanır. Sonrakı mərhələdə ibtidai insan özü ilə təbiət, fövqəl-təbii varlıq aləminin mənşəyi olmasına inandığı qüvvə və sirli ruh arasında əlaqə qururdu. İbtidai insan varlıqların çoxluğunu, rəngarəngliyini təcrübədən keçirdikdən sonra bütün varlıq .aləminin vəhdətinə və bütövlüyünə inanırdı

### VARLIQ ALƏMİNİN MƏNŞƏYİNƏ QOVUŞMAQ MEYLİ .١١

İbtidai insanlar varlıq aləminin mənşəyi barədə, öz zehinlərindəki təsəvvür və mə`lumat əsasında müxtəlif vəsflər, cürbəcür adlardan istifadə edirdilər. Bununla belə, onların hamısı varlıq aləminin mənşəyinin əzəli, əbədi bir varlıq olması, onun qüdrətinin bütün sirli və qüdrətli ruhların fövqündə olması məsələsində eyni fikirdə olmuşlar. Bu yenilməz varlığın razılıq, diqqət və mərhəmətini cəlb etmək üçün ibtidai insanların əməl, rəftar və qayda-qanunları bu həqiqəti çatdırır ki, əqidələrinə görə, onlar yalnız əzəli bir varlıqla əlaqə yaradıb ona qovuşmaqla həqiqi səadət və .xoşbəxtliyə nail ola bilərlər

## EŞQ VƏ SİTAYİŞ .١٢

Dediyimiz kimi, ibtidai insanlar varlıq aləminin mənşəyi ilə əlaqə yaradıb ona qovuşmaq, bununla da onun razılıq və diqqətini cəlb etmək üçün öz mə`budlarına sitayiş etməyə, yaxud onların təsəvvürünə görə, onun təzahürlərinə pərəstiş etməyə yönəldilər. Bilmək lazımdır ki, onlar bu işin həyata keçməsi üçün özlərinin yeganə məhbubunun razı qaldığı hər bir şeyi yerinə yetirirdilər. Bu işlə özlərinin hörmət və məhəbbətlərini sübuta yetirir, bu yolla bir tərəfdən əmin-amanlıq, asudəçilik duyur, digər tərəfdən isə bunlardan öz həyat və təkamülləri yolunda ehtiyacları olan şeyləri diləyirdilər. Əslində onların kamilliyə olan meyllərinin mə`buda pərəstiş və sitayişə .səbəb olduğunu görürük

## ƏBƏDİYYƏTƏ E`TİQAD .۱۳

İbtidai insanlar cismani ölümdən sonra ruhun yeni həyat qazandığına inanırdılar. Onların e`tiqadına görə ruhlar insanın ölümündən sonra da onların arasında yaşayır, insan və digər varlıqların bədəninə keçir. Bu cür ruhun digər predmetlərə keçidinə, tənasüxə e`tiqadın məntiqi əsaslı olmadığı sübuta yetirilsə də, hər halda belə inanclar ibtidai insanların ölümündən sonra varlıqların məhv olmasını qəbul edənləri və insan .həyatının fövqündə başqa bir həyatın olmasına inandıqları reallıqdan xəbər verir

## İXTİYAR VƏ SEÇKİ .۱۴

İbtidai insanların fikrincə varlığın həqiqətləri və özü, əşyalar, insanların bütün əməl və :davranışları iki qrupa bölünür

;(Müqəddəs (sakrəh .۱

.(Qeyri-müqəddəs (profan .۲

Onların əqidəsinə görə bir nəfər qeyri-müqəddəs – profan əşya və rəftarı müqəddəsləşdirmək istəsəydi, prinsipcə müqəddəs olan varlıqlara pənah aparmalı idı. Bu varlıqlara qovuşub onlarla vəhdət təşkil etməklə qeyri-müqəddəs profanın müqəddəs olan sakrəhə çevrilməsinə imkan yaranırdı. Bunun əksinə olaraq bir şəxs müqəddəs varlıqlara hörmətsizlik etsəydi, onun ruhu murdarlanardı və həmin şəxs bu bəhsin beşinci bölməsində göstərilmiş paklaşma, və saflaşdırılma metodlarından biri ilə özünü paklamalı idi. Bu e`tiqadlar toplusundan belə nəticə çıxır ki, ibtidai insanlar həm özləri, həm də başqaları üçün seçki və ixtiyara yer qoymuş, öz talelərini .əvvəlcədən tə`yin olunmuş və dəyişilməz bir təqdir hesab etməmişlər

## SUAL VƏ TAPŞIRIQLAR

İbtidai dinlər arasında mövcud olan ortaq xüsusiyyətlərə diqqət yetirməklə, onların .۱ ?vahid bünövrəyə malik olmasını necə əsaslandırmaq olar

?İbtidai dinlərdə sehr və cadu hansı mövqeyə malik olmuşdur .۲

?İbtidai cəmiyyətlərdə sehrkarlar nə kimi rol ifa edirdilər .۳

?İbtidai insanlar hansı səbəbə görə təbiətə sitayiş edirdilər .۴

?İbtidai insanlar hansı məqsədlə qurbanlıq kəsirdilər .۵

?İbtidai insanlar çirklənmiş ruhlarını necə paklaşdırırdılar .۶

?İbtidai dinlərdə ruhun əbədiliyinə və məada inam izləri görünürmü .۷

Keçən iki dərsdən (dörd və beşinci dərslərdən) istifadə etməklə, ibtidai dinlərdə .mövcud olan ortaq xüsusiyyətlərə dair daha çox nümunə tapın

İbtidai dinlərin ortaq prinsiplərini İslamın ideoloji prinsipləri ilə müqayisə edərək .onlardan hansının İslam e`tiqadlarına uyğun gəldiyini aydınlaşdırın

səh:۴۲

## MÜTALİƏ ÜÇÜN

### BİR İBTİDAİ CƏMİYYƏTİN TƏDQİQİ

İbtidai cəmiyyətlərdə həyat tərzi və rəftarlarla daha yaxından tanış olmaq üçün müasir dövrdə də dünyanın bə`zi nöqtələrində yaşayan qəbilələrdən birini seçərək .onların mədəniyyət və davranışlarını araşdırırıq

Nümunə üçün Avstraliyanın cənub-şərqində yaşayan “diri”, yaxud “murduz” qəbiləsini seçmişik. Hal-hazırda da Avstraliyanın yerli əhalisi sivilizasiya, həyat səviyyəsi və tərzi baxımından qədim və yeni daş dövründə, yə`ni təqribən miladdan ٨-١٠ min il öncə .yaşayan bir cəmiyyətə oxşayır

Avropoidlərin qara irqli adlandırdıqları Avstraliyanın yerli əhalisinin şokolada bənzər qəhvəyi rəngi, enli burunları, içəri batmış gözləri, geri çəkilmiş alınları, çox qalın sümükləri, saf tükləri vardır və kişilərinin saqqalı həddən artıq sıxdır. Onlar ilin əksər vaxtlarında çılpaq gəzir, soyuq havalarda isə əyinlərinə kenquri, yaxud səhra siçanının .dərisini geyinirlər. Yalnız kişilər silah asmaq üçün bellərinə kəmər bağlayırlar

Diri” qəbilələri bölgədə dağınıq halda yaşamalarına baxmayaraq, eyni dilə malikdirlər“ və bir-birləri ilə əlaqə yaradaraq ehtiyac duyulan əmtəələri mübadilə edirlər. Bə`zi .vaxtlar onların arasında qarşıdurma və müharibə də müşahidə olunur

Diri”lər yalnız heyvanları ovlamaqla dolanırlar. Onların ov aləti uzun və möhkəm“ ağacdan hazırlanmış nizədir ki, onun başına iti uclu daşlardan və bitki lifləri keçirilmişdir. Bu silahı kamana qoymadan, əllə ova tərəf atırlar. Yerli əhali digər ovçuluq vasitələri kimi yonulmuş daşlardan hazırlayaraq itilədikləri bıçaq və baltadan istifadə edirlər. Bu qəbilənin yaşayış yerləri daxmalar, buynuz və ağac yarpaqlarından .yarımkürə şəklində hazırlanan, yalnız bir tərəfində bacası olan çox sadə alaçıqlardır

Diri” qəbilələrinin kökü matri və karuru adlı iki qəbiləyə gedib çıxır ki, onların özü də“ müxtəlif tayfalara bölünürlər. Bu qəbiləni digər qəbilələrdən ayıran ən mühüm xüsusiyyət onların totemidir. Totemə e`tiqad bəsləmək təxminən “Diri” tayfalarının hamısında müşahidə olunur və hər bir qəbilənin özünün ayrıca totemi vardır. Matri tayfaları qaz, ipəkqurdu, dəvəquşu, qırğı, it - karuru tayfaları isə ilan, qarğa, səhra

.siçanı, qurbağa və yarasanı totem kimi qəbul edərək onlara sitayiş edirlər

səh:۴۳

Hər bir ailədə totem ananın əlində olur və ailənin qalan üzvləri də ona sitayiş edirlər. Nəslin silsiləsi də ana tərəfindən qorunur. Hər bir tayfanın idarəçiliyi "pinaro" adlanan ən yaşlı kişinin öhdəsinə düşür. Pinarolar matri və karuru tayfalarında qrup halında qəbilə rəisliyinə tə`yin olunur və onlardan biri həmişə başqalarından üstün hesab edilir. Ayinlər və müxtəlif mərasimlər keçirilən zaman ən əsas rolu da həmin şəxs ifa .edir

İbtidai dini təfəkkürlərin əsas ideoloji əsaslarından olan sehr və cadu "diri" qəbilələri arasında da müşahidə olunur. Xalq arasında "konki" adlandırılan qəbilənin sehrkar təbibləri xüsusi mövqe sahibidirlər. Bu məsələdə konkilərin kuçi adlandırılan fövqəl-təbii varlıqlarla birbaşa və sıx əlaqə yaradaraq bu qəbilənin inancına görə, Avstraliya qəbilələrinin əcdadı sayılan və mura-mura adlandırılan qədim pəhləvanların ruhları ilə .də bilavasitə əlaqədə olmasına inanılır

Özünün sirli və qeybi qüvvəsini mura-muradan alan konki, kuçilərlə yaratdığı əlaqə sayəsində xəstəlikləri sağaldar, yuxuları yozar, natəmiz ruhları və əziyyət verən şeytanları da qəbilə üzvlərinin başından dəf edə bilər. O, həm də gözəgörünməz və sirli tərzdə dağdakı büllur daşı, yaxud sümüyü qəbilənin düşmənlərinin bədəninə sancaraq onları öldürməyə də qadirdir. O, guya istədiyi şəxsin bədənindən piy və .yağları çıxarıb ondan sehirli bir məhlul hazırlaya bilir

Diri"lər inanırlar ki, insanların bədənindən piyin oğurlanması, onların ölümünün əsas" amili olacaqdır. Buna görə də hər hansı bir şəxs öldükdə onun qohum-əqrəbaları konkinin yanına gedərək ondan bu ölümün səbəbkarını tapmasını istəyirlər. Onların əqidəsinə görə, konki öz qeyri-adi qüvvəsindən istifadə etməklə onun bədənindən yağların kim tərəfindən oğurlanmasını və bu əməli ilə onun ölümünə bais olduğunu .aşkar edə bilər

Bu tayfaya görə, ölüm labüd və təbii bir iş olmayıb sehr və cadunun tə`siri və ya qeybdə olan ruhların törətdiyi təxribatlar və yaxud da kuçinin vasitəsilə baş verir. Onlar inanırlar ki, xəstəliklər xəbis, murdar ruhların (kuçilərin) əməli sayəsində baş verir və əzazil ruhların mənfi tə`sirlərini xəstənin bədənindən çıxarmağa, və onun .sağlamlığını bərpa etməyə qadir olan yeganə şəxs də odur

Diri”lərin əqidəsinə görə ölümün düşmənlərin nəzərdə tutulan şəxsə tərəf sümüklə“ işarə etməsi də ölümün başqa səbəblərindəndir. Belə ki, hər hansı bir şəxsin düşməni başqası ilə əlbir olaraq xüsusi sehirli ritualları yerinə yetirir, gizli şəkildə insan cəsədinin bud sümüyünü götürərək nəzərdə tutduğu şəxsə tərəf tuşlayır. Sonra sehrli ofsun və .zikrləri deməklə sirli əməlləri yerinə yetirir, onu xəstələndirir və ölümünə səbəb olur

Buna əsasən, yerli əhali kimsə xəstələndikdə ilk növbədə konkidən sümüyü kimin ona tərəf tuşladığını aşkar etməsini istəyir; kimsə ittiham olunarsa xəstənin yaxınlarından bir dəstəsi intiqam almaq üçün bir yerə toplaşır və qəbilə başçısının rəhbərliyi ilə onu qətlə yetirməyi qərara alırlar. “Diri” qəbiləsi arasında bu intiqamalma əməli “pinya” .adlandırılır

Bu tayfalar quraqlıq və qəhətlik hallarını aradan qaldırmaq üçün də konkiyə müraciət edirlər. Avstraliyanın cənub-şərq rayonları quraqlıq və susuz ərazilərdir

və bə`zən bu yerlərdə dalbadal bir neçə il quraqlıq və qəhətlik olur. Bu bölgənin yerli əhalisi quraqlığı aradan götürmək üçün konkiyə müraciət edir. Belə ki, onlar yalnız konkidən kömək diləməklə iqlim şəraitini dəyişdirmək, yağış yağdırmağın mümkünlüyünə inanırlar. Onlar həm də inanırdılar ki, buludlar qablar kimidir və səmanın yüksək səhralarında məskən salan mura-muralar yağış suyunu onların daxilində ehtiyat saxlaya bilər. Buna görə də yağış diləmək üçün keçirdikləri xüsusi mərasimlərdə dərinliyi təqribən ۳۵ santimetr, uzunluğu ۱.۵ metr və eni təqribən ۱ metr olan çala qazır, onun üzərinə buynuz və ağac yarpağından hazırlanmış alaçıq qoyurlar. Daha sonra bir dəstə qəbilə ağsaqqalı alaçığın içərisinə daxil olur və konki orada onların bilək damarını iti bir daşla kəsir; bu zaman qan fəvvarə vuraraq ətrafdakıların bədəninə sıçrayır. Onlar öz ayaqqablarını qanla doldurur və qanın yağışın rəmzi olmasına inanmaqla bu qanları səmaya səpirlər. Bu mərasimin davamı olaraq, qəbilənin qocasından tutmuş cavanına qədər bütün üzvləri alınları ilə alaçığa hücum edir və onu dağıdaraq altını üstünə çevirirlər. Alaçığı dağıdıb onu deşmək buludların deşilməsinin, qanın axması isə yağışın yağmasının rəmzidir. Onlar daha sonra uzun-uzadı ah-nalə və yalvarışla mura-muralardan yağış nazil etmələrini istəyir, bununla da quraqlıq və qəhətlik təhlükəsindən xilas olacaqlarına ümid bəsləyirlər. Bu mərasimin ardınca yağış yağmasa, mura-muraların onların əlindən qəzəbləndiyini zənn edirlər. Əgər quraqlıq uzun müddət davam edərsə bunu düşmənlərin hiyləsi hesab edir və .onların sehrlərinin asimandan gələn yağmurun qarşısını aldığını güman edirlər

Diri”lərin digər bir mərasimi mura-muraya tə`sir etmək üçün qum təpəsinin altında“ dəfn edilməsinə inandıqları “Minka” adlı mura-mura ilə əlaqədar ayini yerinə yetirirlər. Bu ayini totemləri qara ilan və ya kərtənkələ olan tayfalar keçiririrlər. Onlar inanırlar ki, bu mərasimi yerinə yetirməklə minkanın diqqəti onlara yönələcək, onun bərəkətindən .qara ilan və kərtənkələlərin sayı çoxalacaqdır

:Bu mərasim aşağıdakı qaydada yerinə yetirilir

Əvvəlcə, qəbilənin kişiləri bir yerə toplaşır və minkanın olmasını güman etdikləri yerə doğru hərəkət edirlər. Daha sonra həmin yeri fərziyyələrinə görə mura-muranın dəfn olunduğu yer olan torpağın rütubətli layına qədər qazırlar. Bundan sonra qazıntı işini öz gümanlarına görə, minkanın dirsəyinə çatmaq üçün çox diqqətlə davam etdirirlər.

Sonra iki kişi onun üstündə dayanır və başqaları onların biləklərindəki damarları kəsirlər ki, qanları minkanın üstünə tökülsün. Bu zaman minkanın həyat yoldaşını çağırır və silah götürüb həyəcanlı halda bir-birlərinə hücum edirlər. Bu işi öz qəbilələrinin qərargahına çatana qədər davam etdirirlər. Bu zaman qəbilədə qalan qadınlar onları qarşılayaraq uca səslə qışqırır və irəli çıxırlar. Qadınlar öz kişilərini müdafiə və müharibədən əl çəkmək əlaməti olaraq oğlanlarını onların başları üzərində saxlayırlar. Qəbilənin kişiləri daha sonra öz yaralarından topladıqları qanı minkanın şərti ifrazatı ilə qarışdırır və qum

təpələrinə səpirlər. Onların təsəvvürünə görə bu əməl xeyir-bərəkətin nazil olmasına, .qara ilanların və kərtənkələlərin çoxalmasına səbəb olacaq

Diri"lərin başqa bir e`tiqadına görə, günəş gecələr bir bacaya daxil olub yerin altında" hərəkət edir, səhərlər isə şərq tərəfdə yerləşən digər bir bacadan çıxıb yuxarı qalxır. Onlar kəhkəşanı asimanın çayı hesab edir və səmanın özünü isə Yer kimi ağacları, çayları və s. şeyləri olan bir ölkə sanırlar. Bu insanların düşüncələrinə görə ölülərin ruhları və mura-muralar burada yaşayırlar və ölülər həmin yerlərələ gedib çatdıqda oraların səfalı yer olduğunu görəcəklər. Ölülər oradan yerə enməyə və ətrafda gəzib-dolanmağa, və yaxud yuxuda insanlarla görüşməyə qadirdirlər. Belə olan təqdirdə, sağ olanların vəzifəsi görüşə gələn ölü üçün yemək hazırlayıb onun qəbri üstə aparmaq və onunçün tonqal qalamaqdır. Çünki, əks halda ölülər qəzəblənib dirilərə .əzab-əziyyət verərlər

Bu qəbilələrdən bə`ziləri səmada yaşayan fövqəl-təbii varlıqlara inanırlar. O nə mura-muralardır, nə də əcdadların ruhları; səmavi, əzəli, əbədi, sonradan xəlq olunmayan, xilqətdən əvvəl mövcud olmuş, onaheç bir oxşar tapılması mümkün olmayan bir .qocadır

Diri" qəbilələri bu qocanı səma məmləkətinin başçısı hesab edərək onun çox qədim" zamanlarda onların bütün adət-ən`ənələrinin əsasını qoyan ilk şəxs olduğuna inanırlar. Bu qoca murander, biyamban, buncil, muşkanqha, nurli və s. kimi adlarla çağırılır. Amma əksər hallarda onun adını çəkmir və bu adların yerinə "bizim atamız" .adlandırırlar

Bu qəbilələrdən bə`ziləri səmavi atanın insanların işinə diqqət yetirməsini inkar edirlər. Digər bir qrup isə onun həmişə insanların əməl və rəftarlarına nəzarət etdiyinə inanır. Bu qəbilələrin e`tiqadları barəsində aparılan digər tədqiqatlar göstərir ki, Avstraliyanın bütün yerli tayfaları hər halda müəyyən formada böyük, əzəli və əbədi .bir tanrıya e`tiqad bəsləyirlər

Bu qəbilələrin e`tiqadlarından biri də can verən şəxslərin başı üzərində keçirdikləri mərasimdir. Belə ki, can verən şəxsin qohumları iki dəstəyə bölünürlər. Onun ata, bibi, əmilər, övladlar və həyat yoldaşı kimi yaxın qohumlarından bir dəstə can verənin

ətrafına toplaşır, dünyadan getdiyi zaman özlərini cənazəsinin üstünə atırlar. Digər bir dəstə isə – yə`ni ana, xala, dayı və bacıları isə ondan uzaq duraraq baxışlarını ondan qaçırmağa çalışırlar. Sonra bu qrupun kişiləri meyit üçün qəbir hazırlayır və hər iki dəstə yas saxlamağa başlayır. Onların əzadarlıq mərasimləri belə keçirilir: birinci dəstə öz bədənini hüzn əlaməti olaraq ağ rəngə, ikinci dəstə isə qırmızı rəngə boyayır. Onlar meyidi qəbirə qoymazdan əvvəl soruşurlar ki, kim sənin ölümünə bais olmuşdur? Bu zaman cənazəni çiyninə götürən iki kişi gözlənilmədən qəbiləyə tərəf fırlanaraq onun ölümünə səbəb olan şəxsi göstərirlər. Sonra ölünü qəbirə qoyur, yalnız Avstraliyanın yerli əhalisinə məxsus olan qəribə adətlərlə onu dəfn edirlər. Yerli əhali ölmüş şəxsin bədənindəki yağ və piylərin sehirli xüsusiyyətinə inandığından vəfat edən şəxslə qohumluğu olan qəbilənin yaşlı şəxslərindən birini qəbrin içinə göndərirlər. O, ölünün üzündən, bud, bilək və qarnından bacardığı qədər piy

çıxarır və qəbrin ətrafında dayanan şəxslərə yemək üçün paylayır. Bir-birinin piyini yeməläri qadağan olunan ata və övladlardan başqa, meyidin yaxın adamlarının hamısına ölünün piyindən müəyyən pay düşməlidir. "Diri"lər inanırlar ki, bu piyi yemək ölülərin xüsusiyyətlərinin, qüvvə və iste`dadlarının onların öz bədənlərinə keçməsinə səbəb olur. Bu mərasimin davamı olaraq, qəbri torpaqla doldurarkən onun üstünə böyük budaqlar düzürlər. Ölünün bütün yaxın adamları oradan dağılışır, ruhunu narahat etməmək üçün heç kəs onun barəsində danışmır, yaxud ona işarə etmir. Meyit qəbilənin nüfuzlu şəxslərindən olarsa, onun qəbrinin üstündə bir neçə gün .müxtəlif yeməklər qoyarlar; qış fəsli olarsa, qəbrin üzərində tonqal qalayarlar

Bə`zi "diri" qəbilələri ölünün dünyaya qayıda biləcəyinə inanır. Buna görə, də bu işin qarşısını almaq üçün vəfat edən şəxsin ayaqlarının baş barmaqlarını iplə bir-birinə möhkəm bağlayır, əllərinin baş barmaqlarını da arxa tərəfdən bir-birinə birləşdirirlər. Gecə ikən bir dəstə qəbrin ətrafını süpürür və torpağın üzərində onun ayaq izlərinin qalıb-qalmadığını görmək üçün səhər onun dəfn olunduğu yerə baş çəkirlər. Ayaq izləri göründükdə ölünün öz qəbrindən razı olmadığını və buna görə də qəbirdən .çıxdığını güman edir, qəbri yararaq ölünü yenidən başqa bir yerdə dəfn edirlər

Diri"lərin digər bir ayini qəbilə yeniyetmələrinin həddi-büluğa çatdıqları vaxt" keçirdikləri mərasimdir. Onlar inanırlar ki, belə mərasimlərdə qocalardakı sifətləri, xüsusiyyətləri və e`tiqadları gənclərə keçirməyə nail ola bilirlər. Mərasimin qaydası belədir ki, oğlan və ya qız həddi-büluğa çatdığı zaman kamil qadına, yaxud kamil kişiyə çevrilmələri üçün onların ölüb yenidən dirilən kimi qələmə vermək lazımdır. Bu məqsədlə, xüsusilə oğlanlar üçün qəbilə başçısının nəzarəti altında bir neçə ay davam edən mərasim həyata keçirilir. Bu mərasimin (zahirən ölmək) təşkil olunması üçün oğlanları bir yerdə oturdur, iti uclu bir çubuqla onların qabaq dişlərini çıxardır və onu on səkkiz düym dərinliyində bir yerdə basdırırlar. Bu dişlər bir il həmin yerdə qalmalıdırlar. Doqquz, ya on yaşlarına çatdıqda oğlanlar üçün sünnət mərasimi də yerinə yetirilir. Bu zaman ata oğulun üzərinə əyilir və ona ad qoyur. Sonra isə yerli camaatın dilində "kulpi" adlanan bir mərasimin növbəsi çatır. Belə ki, nəzərdə tutulan yeniyetmə ilə uzaq əmizadəlik qohumluq münasibəti olan qoca kişilər onu özündən xəbərsiz səhraya aparırlar. Sonrakı gün səhər çağı onun ətrafına toplaşaraq gözlərini bağlamasını təklif

edirlər. Sonra qocalardan biri digərinin qolunu iplə möhkəm bağlayır və dirsək tərəfdən damarını kəsir ki, onun qanı cavanın bədəninə axsın. Əgər qoca kişi qanaxma nəticəsində zəifləsə, digər bir qoca öz damarını kəsir ki, onun da qanı yeniyetmənin bədəninə axsın. Bu ritualı oğlanın bütün bədəni qana qərq olana qədər təkrar edirlər. Yerlilər belə zahiri ölümlə şücaət və mərdanəliyin qocalardan yeniyetmələrə keçməsinə və yeniyetmələrin qəlbinin güclü və qüvvətli olacağına, artıq qan gördükdə qorxmayacaq qədər müharibə və döyüşlərə hazır olacağına inanırlar. Belə mərasimlərin keçirilməsinin digər bir səbəbi kimi

qocaların ruh və ağıllarının yeniyetmələrə tə`sir göstərməsi, onların hamısını vahid .qan və sifətə malik olmasına çalışmağı qeyd etmək olar

Yerli əhali bu mərasimlərin davamında qana bulaşmış yeniyetməni bir yerdə oturdur və çox iti daşlarla onun boynuna və kürəyinə zərbələr vururlar ki, sağaldıqdan sonra bu yaraların izləri əbədi olaraq onun bədənində qalsın. Sonra üzəri insan tükü ilə hörülmüş, uzunluğu bir metr – bir metr yarıma çatan ağac parçasını cavanın əlinə verirlər ki, onu havada fırlatsın. O da, əvvəlcədən tə`lim keçdiyinə görə ağacı tükürpəşdirici səs çıxan tərzdə fırladır. Onların inancına görə bu səslər mura-muranın razılıq əlamətidir. Sonra həmin ağacı yeniyetmənin əlindən alıb bir yerdə gizlədir və onu heç vaxt qadınlara göstərməməyi, təsvir etməməyi yeniyetməyə tapşırırlar. Yeniyetməni daha sonra onu tək-tənha meşə və səhralara buraxır, yaraları tamamilə sağalmamış və qanın əsər-əlaməti bədənindən getməmiş qəbiləyə qayıtmağı ona qadağan edirlər. Beləcə başlanan yalqız həyat və ayrılıq bə`zən bir neçə ay çəkir. Bu müddət ərzində heç bir qadının yeniyetməyə yaxınlaşmağa haqqı yoxdur. Həmin gənc yaraları sağaldıqdan sonra qəbiləyə qayıdır və qohum-əqrəbasına həddindən artıq sevinc və şadlıq gətirir. Beləliklə, həmin yeniyetmə artıq yetkin və igid kişi hesab olur və qadın asılılığından qurtarır. Bu ayinin son mərhələsində bayram və şənlik məclisi təşkil olunur. Qəbilə üzvlərinin hamısı bir yerə toplaşır, rəqs edir və ayaqlarını yerə döyəcləyirlər. Bütün mərhələlərdə qəbilənin yaşlı kişiləri gənclərə yol göstərməyi öhdələrinə götürürlər. Onlar qəbilə əfsanələrini, maraqlı əhvalatları nəql etməklə bu ayinin hər bir hissəsinin mə`na və sirrini aydınlaşdırır, yeniyetmələrə tövsiyələr verir, .onları gələcək vəzifə və məs`uliyyətləri ilə tanış edirlər

Qeyd olunan mətləblər hal-hazırda öz həyatını davam etdirən və ibtidai dinə malik .olan bir cəmiyyətin ümumi təsviri idi

Başqa dinlərin araşdırılması zamanı bu kitabda rastlaşacağınız digər dini icmalara dair tədqiqatlar sizə ayin, e`tiqad və ideyaların qarşılıqlı müqayisəli təhlilinə imkan .yaradacaqdır

## YEDDİNCİ DƏRS

### (VEDA DİNİ (۱

### İŞARƏ

Veda ayini Hindistanın ən qədim tarixə malik əsas və mütəşəkkil dinlərindən biri hesab olunur. Belə ki, Hindistanın ən məşhur dinləri, o cümlədən brahmanizm, hinduizm, caynizm, buddizm və siqhizm də bu ayin əsasında formalaşmışlar. Əslində onlar veda dininin dəyişdirilmiş və islah olunmuş forması hesab olunurlar. Qeyd olunan dinlər üzrə tədqiqatlar veda ayini ilə tanışlığa əsaslanır. Buna görə də hal-hazırda saysız-hesabsız Hindistan əhalisinin əksəriyyətinin itaət etdiyi hinduizm və buddizm kimi mühüm və böyük dinləri araşdırmazdan əvvəl, onların veda ayinindən qaynaqlanan dəyişikliklər .prosesini tədqiq etməyi lazım bildik

### VEDA AYİNİNİN TARİXİ

Hindistan şimal tərəfdən fələyə ucalan Himalay dağları ilə əhatə olunduğuna görə monqol fatehlərinin hücumlarına, ağrı-acılarına mə`ruz qalmasa da, şimal-qərb istiqamətdən Bəlx və ya İran tərəfdən mühacir və fatehlər üçün yol açıq idi. Bu amil də miladdan ۱۵۰۰ il əvvəl mühacir ariya tayfasının İrandan Hindistana köçməsinə və hal-hazırda "dəravidi" adlanan qara dərili yerli əhali arasında davamlı müharibələrin baş verməsinə səbəb olmuşdur. Nəticədə köçərilər Hindistan yarımadasının şimal hissələrini ələ keçirdilər. Onlar öz hakimiyyət dairələrini Vendiya sıra dağlarına, daha sonra isə Dekan məntəqəsinə qədər cənuba doğru genişləndirdilər. Ariyalılar Hindistanın bu ərazilərində hökmranlığı ələ aldıqdan sonra tədricən öz mədəniyyət, e`tiqad və təfəkkür üslublarını da yerli əhali arasında yaymağa başladılar. Veda ayinini həmin e`tiqadların Hindistan yarımadasına nüfuz edib yayılmasının nəticəsi hesab .etmək lazımdır

Veda ayini ilk dövrlərdə xüsusi və ailə dini sayılırdı. Onun ən mühüm və ən geniş yayılmış dini ritualı günəş çıxanda və batarkən hər gün iki dəfə evlərdə qeyd olunan .Aqnihutradır

Bu rituala uyğun olaraq ailənin başçısı gün çıxmazdan qabaq yuxudan oyanır və su ilə

yuyunub özünü paklaşdırırdı. Daha sonra müqəddəs ifadələri təkrarlaya-təkrarlaya xüsusi kömürlə atəş allahı adlanan “Aqni”nin adına od qalayır, üzünü şərq tərəfə tutaraq əllərini yenicə doğmaqda olan günəşə doğru qaldırır və məhsul və bərəkət tanrısı olan Savityara müraciətlə yalvarmağa başlayırdı. Onlar ailə üzvləri ilə birlikdə :bu müqəddəs ayəni oxuyurdular

Bizim də Savityarın əzəmət və cəlalını qazanacağımıza ümidlə. Dualarımıza rövnəq - “ verməsi ümidi ilə. Hədsiz şövqlə, tam ağıl və düşüncə ilə, məişət və rifahdan bizə ”.düşən payı Savityardan istəyirik

Bu ayin eyni şəkildə axşamlar günəş qürub edən zaman yoxsuldan tutmuş varlıya qədər - kahinlər, cəngavərlər və şahzadələr - bütün ariya ailələrinin evində səh:۴۹

keçirilmişdir. Hətta bə`zi hind tayfaları bu mərasimi sübh və axşamdan əlavə günorta .vaxtı keçirmişlər

Veda ardıcıllarının əqidəsinə görə, onların müqəddəs kitabdan günəş barəsində oxuduqları yuxarıda qeyd olunan ayə onun xüsusi ayinini nəzərə almaqla günəş üçün daha artıq həyat, parlaqlıq və nur mənşəyi olmaqla yanaşı, onların özlərinə də qüvvət və firanvanlıq gətirir. Vedaya e`tiqad bəsləyənlərin digər mə`budları barəsində də buna bənzər ayələr vardır. Veda adlanan məcmuələrdə dini nəğmələr şəklində yazılmış bu dualar veda ayininin müqəddəs və dini kitablarının tərkib hissəsidir. Gördüyünüz kimi bu ayinin adı da həmin ayə və kitabların adından götürülmüşdür. Bu müqəddimədən sonra bu ayinin araşdırılmasında mühüm rolu olan iki prinsipi şərh :edirik

١. Bu ayinin Allah və varlıq aləminin mənşəyi barəsindəki baxışları;

٢. Veda ayininin müqəddəs kitablarının xüsusiyyətləri və mühtəvası.

### VEDA MƏ`BUDLARI

Veda dininin əsası çoxallahlıq üzərində qurulub. Demək olar ki, dinin ardıcılları təbiətdə olan bütün varlıqların hər biri üçün ayrıca rəbb və allahın olduğuna inanmışlar. Bu .hesabla belə allahların sayı-hesabı yoxdur

İndi isə vedalıların Allah və varlıq aləminin mənşəyi barədə təfəkkürlərini daha dəqiq öyrənmək məqsədilə yuxarıda qeyd olunan üç xüsusiyyətdən hər birini ətraflı şəkildə .izah edirik

١. Çoxallahlıq:

Veda ayinində tanrıların sayı və növü o dərəcədə çoxdur ki, din tarixi ilə məşğul olan mütəxəssis və sosioloqların əksəriyyəti mövzunu daha yaxşı öyrənmək üçün onların bölgüsünü aparmışlar. Bu bölgülərin birində veda allahları əvvəlcə iki dəstəyə - fərdi :və kollektiv hissəyə, fərdi allahlar da öz növbəsində aşağıdakı üç dəstəyə bölünürlər

١. Səmavi allahlar: Diyavs, Varuna, Mitra, Suriya və s.

٢. Səma ilə yer arasındakı bərzəxdə olan allahlar: İndra, Rudra və s.

٣. Yer allahları: Pritvi, Aqni, Soma və s.

Kollektiv allahlar da aşağıdakı üç dəstəyə bölünürlər:

١. Adityalar;

٢. Marutlar;

٣. Vasular.

səh:٥٠

Bu allahlardan bə`ziləri daha artıq əhəmiyyətə malikdir və aşağıda onların hər birinin :şərhi verilir

.Əmr verən allahlar - Mitra və Varuna .١-١

Veda ayinində ən qədim və ən uzaq keçmişə malik allahlardan biri də səmavi mə`bud "Diyavs"dır. O, öz həyat yoldaşı olan yer allahı "Pritvi" ilə birləşərək səma-yer cütünü təşkil edir. Zaman keçdikcə bu mə`bud öz əhəmiyyətini itirmiş, yer və səma hökmdarı məqamından təkcə səmavi varlıqlara, işıqlıq, gündüz və s. kimi səmavi varlıqlara hakim olmaq dərəcəsinə düşmüşdür. Diyavs öz məqamını itirdikdən sonra "Varuna", yaxud "Vişva-darışna" adlı (mə`nası - "hər yerdə zahir olan" deməkdir) digər bir mə`bud onun yerini tutmuşdur. Bu allah işləri nizam-intizama salan, tənzimləyən və nizamlayan ilahədir. Onların əqidəsinə görə dünyadakı bütün qüvvələr hər bir yerdə və hər bir zamanda onun əmrlərinə tabedir, təbiət qanunları onun iradəsindən asılıdır. Veda ardıcılları inanırlar ki, Varuna dünyanı və fiziki şeyləri puç edib dağıdan mə`budlardan qoruyur, digər tərəfdən də insanları əxlaqi qayda-qanunlara riayətə məcbur edir. O, günahkarları faş edir və haqqla batil arasında mühakimə yürüdür. Onun gizli xəfiyyələri hər bir yerdə insanların əməl və rəftarlarına, davranışlarına nəzarət edirlər. Kimsə günah edərsə Varunanın qarşısında ahu-zar etməli və ondan .əfv diləməlidir

Onların inancına görə vəfadarlıq, himayədarlıq və əhd-peyman allahı olan Mitra təbiət aləminin idarəçiliyində Varunanın şəriki və həmkarıdır. Varunanın malik olduğu fövqəladə qüvvə "maya" (sehr və cadu) adlandırılır. Varuna mayanın köməyi ilə öz səmavi taxtına söykənərək yeri ölçür, gündüzü işıqlandırır, günəşə nur verir. Axşam yaxınlaşdıqda günəşin üzünə niqab salır. O, hər bir şeydən agah, qüdrətli və hakimdir; .heç nə ondan gizlin qalmayacaqdır

.Müharibə, tufan və yağış allahı – İndra .١-٢

Veda ardıcıllarının e`tiqadına görə İndra müharibə və döyüş allahıdır. Çünki o, Hindistanın fəthində və bu ölkənin şimal bölgələrində məskunlaşmaqda ariyalılara yaxından kömək göstərmişdir. Bu mə`budun ixtiyarında ildırım kimi bir silah vardır. O, eyni zamanda tufan və yağış allahı da hesab olunur. Bundan əlavə sərvət, xüsusi ilə

müharibə qənimətləri bəxş etmək, güc-qüvvət, eləcə də uzunömürlülük, səadət və xoşbəxtlik müjdəsini gətirən kimi də məşhurlaşmışdır.

۳-۱. Aqni – Od-alov allahı.

Aqni bu bölgüdə yer allahları sırasında olsa da, o bütün varlığı qət edən bir allahdır. Səmada günəşin yanında məhsuldarlıq, xeyir-bərəkət, insanlar, heyvanlar və torpağın mənşəyi olduğuna görə sitayiş olunur. Bu allah, eləcə də yerlə səma arasında ildırım və şimşək surətində müxtəlif buludlardan çoxlu qığılcımlar yaradır və bununla da insanlara allahların xəbərdarlıqlarını çatdırır. Aqni yerdə də bütün ariyalıların evlərinə gedib-gəlir və onların həyatlarının bütün sahələrinə nəzarət edir.

Aqni, bundan başqa təmizləyici və saflaşdırıcı rolunu yerinə yetirir və şeytanların, əzazil ruhların, cadugərlərin əleyhinə güclü bir qüvvə kimi insanları onlardan qoruyur. O da digər allahlar kimi veda ardıcıllarının ondan umduğu

xeyir-bərəkət göndərir. Ondan mal-dövlət, sərvət, xoşbəxtlik, uzunömrülülük, çoxlu .qəhrəman oğul övladları və s. ne`mətlər bəxş etməsini də diləyirlər

;Kollektiv mə`budlar .۲

:Veda ayinində bu allahların özləri də üç qrupa bölünürlər

Vasular; (ne`mət, sağlamlıq və firavanlıq bəxş edən mə`budlar). Onların sayı səkkiz .۱ :olmaqla aşağıdakılardan ibarətdir

Od, torpaq, külək, hava, səma, ay, günəş və ulduzlar. Vedalıların e`tiqadına görə üzərində Aqninin yerləşdiyi yer, həyatın əsası olan küləyin də fəza, əqlin əsas iqamətgahı olan səma və əbədi həyatın əsası olan ulduzların sintezi ümumilikdə təbii həyatın əsasını təşkil edirlər. Əslində bu səkkiz ünsür varlıq, ne`mət və firavanlıq .allahları sayılırlar

Marutlar; Marutların sayı mə`lum olmasada kollektiv, mütəşəkkil bir-biri ilə qardaş, .۲ yaşıd və həmrəy, birlikdə böyümüş tə`siri bağışlayırlar. Marutların ildırımla bağlılıqları var və günəş kimi parlaqdırlar. Onlar ildırıma bağlılıqlarına və müharibələrdə İndraya kömək etdiklərinə görə onun səmimi dostları sayılırlar. “Marut” sözünün leksik mə`nası bir o qədər də aydın deyildir. “Mar” ölmək, “ut” şəkilçisi isə ola bilər ki, əbədilik .və ölməzlik mə`nasını ifadə edir

Aditiyalar; Bu allahların sayının ۶, ۸ və bə`zən də ۱۲ olması məsələsində fikir ayrılığı .۳ var. Adityalar səmadadırlar və təbiət ünsürləri üzərində hökmranlıq edirlər. “Aditya” ilahəsinin övladları, yə`ni mə`budlar anasının övladları olan onlar parlaqlıq, paklıq, .varlıq aləmini idarə etmək kimi sifətləri daşıyırlar

Qeyd olunanlar elə “Varuna”nın da malik olduğu sifətlərdir. Bu sifətlərin ortaqlığı .Adityaların Varuna ilə əlaqəli olmasının bir sübutudur

.Monoteizm .۳

Son Veda nəğmələrində digər allahları öz kölgəsi altına alan, vahid və müstəqil bir şəkildə təzahür edən vahid allah təqdim olunur. Yaradıcılıq və dünyanı xəlq etmək kimi

xüsusiyyətlər ona aid olunur. Bu yeganə mə`bud “Vişvakarma”, yaxud “Puruşa” adlandırılır. “Vişva” hər bir şey, “Karma” isə yaradan mə`nasını verir. Bu iki söz birlikdə bütün məxluqatı yaradan mə`nasını ifadə edir. Vişvakarma hər bir şeyi görən, yeri-göyü və ayı yaradan, dünyanı nizamlayan, bütün canlı varlıqları və insan qövmlərini .idarə edəndir

Bu mətləblər Veda ayininin iki əsas – çoxallahlıq və təkallahlıq üzərində qurulduğunu göstərir. Diqqətəlayiq məqam budur ki, prinsipcə Veda ayini tovhid, monoteizm, varlığın yeganə yaradıcısına inama əsaslanır. E`tiraf etmək lazımdır ki, bu ayinin ardıcılları tərəfindən tək tanrı üçün müxtəlif sahə və aspektlərdə sadalanan çoxsaylı simvol və atributlarda hədsiz dərəcədə mübaliğəyə yol verilmişdir. Bu isə ilk baxışda hər bir tədqiqatçıda belə bir fikir yaradır ki, təsəvvürə sığmayan bu xüsusiyyətlər tədricən veda ardıcıllarında bu atributların hər birinin müstəqil tə`sir qüvvəsinə inanaraq və nəticədə bu allahlara sitayiş

edərək ehtiyaclarını onlardan diləmək kimi azğın fikirlərin yaranmasına səbəb .olmuşdur

## SUAL VƏ TAPŞIRIQLAR

?Veda ayini Hindistana ilk dəfə kim tərəfindən yayılmışdır .١

.Ən mühüm Veda allahlarının adlarını sadalayın .٢

?Hansı Veda allahları başqa allahlardan daha üstün sayılır .٣

.Aqni-hutra mərasimini izah edin

.Maya”nı izah edin“

Müəllimin istiqamətləndirməsi ilə, əqaid dərsinin tovhid və şirk məsələləri ilə və bu dərsdə öyrəndiyiniz bəhslərə diqqət yetirməklə vedalıların müşrik olub-olmamasını .araşdırın

səh:٥٣

## SƏKKİZİNCİ DƏRS

### (VEDA AYİNİ (٢

### MÜQƏDDƏS KİTABLAR – VEDA

Veda dinində “Veda” adlanan dörd müqəddəs kitab vardır. Hind-ariya xalqlarının ən qədim sənədləri olan, ariyalıların Hindistana köçməsi, orada yaşamaları, tarixi keçmişləri, mədəniyyətləri, yaşayış tərzləri, ticarət və məşğuliyyətləri, əxlaq, ədəb, ictimai və fərdi həyat tərzlərinin şərh edildiyi bu kitablar onların dini və e`tiqad qayda-.qanunları sayılır

Vedalıların tarixi ən azı miladdan ١٢٠٠ il əvvələ gedib çıxır. Bu kitablar əvvəllər kahinlər vasitəsilə ustad-şagird üslubunda və şifahi surətdə sonrakı nəsillərə ötürülürdü. Qədim hindlilərin inancına görə, veda nəğmələri onları hərf, söz və kitab çərçivəsinə salmaqdan daha müqəddəsdirlər. Belə ki, o kitab halına salınarsa öz zati bərəkət və fəzilətlərinin yarısını itirəcəkdir. Amma vedalar nəhayət, miladdan əvvəl altıncı əsrdə .yazı halına salındı

Veda” sözü bilmək mə`nasını verir, bu söz xüsusi ali elm və mə`rifət mə`nasında“ işlədilir. Vedaya “Apaverşiya”, yə`ni “fövqəl-insan” da demişlər. Hindusların əqidəsinə görə bu nəğmələr heç bir məxluq, şair təfəkkürünün məhsulu deyil və onlar yalnız qeyri-adi bir varlıqdan, vəhydən qaynaqlanır. Buna görə də vedaları “nazil olma” mə`nasında işlənən, ilahi feyzdən qaynaqlanaraq qədim hind şəxsiyyətlərinin qəlbinə süzülən və onların varlıqlarının ayrılmaz bir hissəsinə çevrilən “Səruti” mətnlərinin bir hissəsi hesab edirlər. Buna görə də hinduslar veda məcmuəsinin heç bir şəxs tərəfindən qələmə alınmadığına inanırlar. Tarixi sənədlər də bu müqəddəs kitabların kimlər tərəfindən yazıldığına aydınlıq gətirmir. Dörd veda kitabı aşağıdakılardan :ibarətdir

:Riqveda .١

Bu kitab vedaların ən məşhur, ən mühüm və ən əhatəli hissəsi sayılır və qədimilik baxımından da sonrakı üç kitabdan irəlidir. Riqvedada mə`budların tə`rif və mədhinə həsr olunmuş ١٠١٧ nəğmə vardır. Bu nəğmələr ehtiyacların istənilməsi üçün yalvarışla

oxunur. Bu nəğmələr Veda allahları arasında hamısından daha çox İndra, sonra Aqni .və daha sonra isə Varunaya ünvanlanıb

Bu kitabların yazılmasından ۳۰۰۰ il keçməsinə baxmayaraq, hinduslar indinin özündə də onun nəğmələrini sübh və axşam çağları, toy mərasimlərində xeyir-dua məqsədi ilə oxuyurlar. Onların təfəkkür tərzi ilə tanış olmaq üçün burada həmin nəğmələrdən bə`zilərini heç şərh və izahsız nümunə seçmişik. İndraya xitab olunan ilk nəğmədə :belə deyilir

!Ey İndra, bizim düşmənlərimizin hamısını qov“

!İstər çox güclü qərb fatehləri olsun və istərsə də şərqin müzəffərləri

,Ey qəhrəman, şimal və cənub düşmənlərimizi uzaqlaşdır

!Sənin sayəndə şad və xürrəm yaşaya bilməmizdən ötrü

?O gün nə gün olacaqdır

.Elə insanlar ki, onların əkinləri arpa ilə doludur

.Yetişmiş taxılları biçirlər və xırmana aparırlar

.Belə isə o insanların yeməklərini cücərt

.Elə bir yerdə cücərt ki, yeri pərəstiş üçün hazırlamayıblar

!İndra xilas etməkdə güclü və kömək etməkdə bağışlayandır

!O hər bir şeyin sahibidir, nə qədər bağışlayan və mehribandır

!Bəlkə düşmənlərimizi pərən-pərən salıb əmin-amanlığı bizə hədiyyə etsin

.Bəlkə biz qaçan güclülərin ağası olaq

.Bəlkə müqəddəs pənahında onun lütfündən bəhrələnək

.Onun bərəkətli şəfqətindən faydalanaq

!Bizi qüdrətli və gözəl saxlayan İndra

”!Bizə qarşı ürəklərində kin bəsləyənləri bayıra at və bizi qoru

İkinci nümunə yaradılış nəğməsi adlanır. Onun məzmunundan tovhid və təkallahlığa meyllə yanaşı, veda dininin xüsusiyyətlərindən olan çoxallahlığa e`tiqad da mə`lum olur. Eyni zamanda, xilqət aləmi və yaradılışın forması barəsində şəkk və tərəddüd də :nəzərə çarpır

.Nə varlıq var idi, nə də ki, yoxluq“

.Nə parlaq səma görünürdü, nə də səmanın geniş tavanı yuxarıda döşənmişdi

?Onların hamısını nə örtürdü? Nə onları gizlədirdi

?Ucsuz-bucaqsız su çalası idimi

?Dərin və çatılmaz sular

.O zaman ölüm, əbədilik də yox idi

.Gecə-gündüzdən bir nişanə də yox idi

.Yeganə vücud təklikdə nəfəs çəkirdi

.Ondan başqa hələ bir şeyin vücudu yox idi

.Zülmət idi, qaranlığı qaranlıq bürümüşdü

.Bunların hamısı su idi və əlamətsiz

.O yeganə vücud təbiəti yandırıcı istiliyin içindən yardı

.Əvvəlcə eşq göründü, sonra əqlin mənşəyi əyan oldu

.Sonra toxumlar səpildi və qüdrətli güclər qalxdılar

.Təbiət altda, qüdrət və iradə isə yuxarıda

?Bu sirlərdən agah olan kimdir

?Burada kimdir ki, aşkar edib haradan olduğunu desin

?Bu rəngarəng yaradılış haradan qaynaqlanır

.Allahlar özləri bir qədər gec varlıq libasını əyinlərinə geydilər

?Kim bilir bu böyük yaradılışın mənşəyi haradandır

".Ən yüksək səmalarda olan ən ali görəndir

Bu nəğməyə uyğun olaraq, allahların mövcudluğu və varlıq aləmi təbiətin yaradılışından sonra ilə əlaqələndirilir. Təbiət haqda onun xaliqinə sual verir və xaliqə fərd qismində müraciət edir. Eyni zamanda, Riqvedanın başqa bir nəğməsində :oxuyuruq

...Bəxş edənin həyat və qüvvə sayəsi əbədidir“

.O kəs ki, ucqar dağlar, dənizlər və çayların varlığı ondandır

.O kəs ki, səma onun qüdrət nahiyəsidir

?Öz qurbanlarımızla ona hörmət etdiyimiz o Allah kimdir

...O kəs ki, yeganə və bütün allahların fövqündə olan Allahdır

.Əql sahibləri vahid Allaha müxtəlif adlar qoyurlar

.Onu Aqni, Mitra və Varuna adlandırırlar

:Yacurveda .٢

Vedaların ikinci müqəddəs kitabı olan Yacurveda nisbətən az əhəmiyyətə malikdir. Çünki, Riqveda nəğmələrinin bir çoxunun məzmunu bu kitabda da əks olunmuşdur. Bu kitab nəsr formasında yazılan və adətən qurbanlıq mərasimlərində istifadə edilən zikr .və virdlərdən ibarətdir

:Samaveda .٣

Bu, allahlara ibadət və onlarla razi-niyaz etmək üçün lazım olan dua və nəğmələrdən təşkil olunmuş vedaların üçüncü müqəddəs kitabıdır. Bu nəğmələrin əksəriyyəti .Riqvedadan götürüldüyündən, ayrıca dəyər daşımır

:Asarvaveda .۴

Bu vedanın dördüncü və sonuncu kitabıdır. Məzmun baxımından yerdə qalan üç kitabla müqayisədə daha fərqli üsluba malikdir. Çünki, bu kitab sehr və cadugərlik məsələlərində Əhrimən qüvvələrinə qələbə çalmaq məqsədi ilə yazılmış müxtəlif .mətn, zikr və nəğmələr toplusundan ibarətdir

:Bu dörd vedadan hər biri öz növbəsində iki müstəqil hissəyə bölünür

;Samhita .١

.Brahmana .۲

Samhita” dedikdə, müxtəlif mərasimlərdə, xüsusilə qurbanlıq mərasimlərində veda“ kahinləri tərəfindən oxunan nəğmələr toplusu nəzərdə tutulur. Qurbanlıq mərasimlərində adətən əsas aparıcı kahin olan brahma əvvəlcə Asarvavedadan bir parçanı oxuyur, sonra “huteri” adlı başqa kahin Riqvedadan müəyyən nəğmələri ifa edir. Bundan sonra üçüncü kahin, yə`ni “ədqateri” Samavedadan bə`zi nəğmələri əzbərdən deyir, daha sonra isə dördüncü kahin “adhuvariyu” camaatın qurbanlıq məqsədi ilə gətirdiyi hədiyyələri pak və əbədi atəşə qurban edərək Yacurvedadan bir .sıra zikrləri oxuyur və beləliklə də ibadət mərasimi sona çatır

Brahmana veda kahinlərinin dua və qurbanlıq mərasiminin keçirilməsi ilə əlaqədar .vedalara yazmış olduqları şərh və bəhslər toplusudur

Dini göstəriş və hökmlər, dini başçıların borc və vəzifələrinin bəyan olunması, hökmlərin, duaların, qurbanlıq mərasimində oxunan nəğmələrin mə`naları Brahmanın bəhslərinin mühüm hissəsini təşkil edir. Bu məsələlər hekayə, simvol və ya əfsanələr .şəklində bəyan olunmuşdur

:Brahmana iki ümumi hissədən ibarətdir

;Aranyaka .۱

.Upanişad .۲

Aranyakalar meşə kitabları adı ilə məşhurdur və ucqar meşələrə asketik həyat tərzi .keçirməkdən ötrü pənah aparan tərki-dünya şəxslər üçün yazılmışdır

Bu kimi təcrid olunmuş şəxslər tənha həyat sürdükləri mühitlərdə dini vəzifələrini yerinə yetirmək üçün kifayət qədər vəsaitə malik olmadıqlarından batini həqiqətlərə diqqət yetirmiş və daha çox psixoloji vəziyyətlərinə nəzarət üzərində işləmişlər. Sonralar asketik həyat tərzi keçirmək və daxili aləmə diqqətin əhəmiyyəti barədə düşüncələr vedaya inananların dua mərasimində elə böyük tə`sir göstərmişdir ki, bu məsələ tədricən qurbanlıq mərasiminə alternativ olaraq batini qurbanlıq adı ilə məşhurlaşmışdır. Əvvəllər müqəddəs od olan qurbanlığın məqamı bu hadisələrdən sonra öz yerini insan bədəninə vermiş və get-gedə insanın bədəni də mehrab və .qurbangaha çevrilmişdir

Upanişadlar vedaların son hissələri hesab olunur. Buna görə də onlara vedanta, yə`ni vedanın sonu da aid olunur. Aranyakaların, qələmə alınmasından sonra upanişadlar maddi aləmdən uzaqlaşıb xüsusi mə`nəvi həyat üslubunu seçərək nəfsini .saflaşdıranlar üçün yazılmışdır

Aranyaka və Upanişadın yazılması veda ayini üçün nəticə e`tibarı ilə brahman dininin formalaşmasına gətirib çıxaran başlanğıc idi. Bu dəyişikliyin mühüm xüsusiyyətlərindən biri kimi ruhani başçıların və kahinlərin mə`nəviyyatın yüksəldilməsi, allahlarla əlaqə və sitayiş məsələlərində rollarının azalması, .brahmanların nisbi olaraq mə`budların yerinə keçməsini qeyd etmək olar

Gələn iki dərsdə brahman dinini təhlil və şərh etməklə yanaşı, veda ayinindəki əsaslı dəyişiklikləri, bu ayinin xüsusiyyətlərini, ibadi və ideoloji səciyyələrini və upanişadların .məzmununu aydınlaşdıracağıq

**SUAL VƏ TAPŞIRIQLAR**

?Veda nə deməkdir .١

?Nə üçün vedalara “səruti” deyilir .٢

Riqvedanın nəğmələrinə əsasən veda ayininin monoteist din olmasını isbat etmək .٣

?olarmı

?Yacurvedanın məzmunu nədir .۴

?Samhita mövzusu nədən ibarətdir .۵

?Aranyaka hansı mövzulara həsr olunub .۶

?Nə üçün upanişada vedanta deyilir .۷

.Veda ayininin digər ibtidai dinlərlə ortaq və fərqli cəhətlərindən bir neçəsini izah edin

## DOQQUZUNCU DƏRS

### (BRAHMAN AYİNİ (۱

### VEDA AYİNİNDƏKİ DƏYİŞİKLİKLƏR

Miladdan əvvəl ۸-۹-cu əsrlərdə brahmanlar (veda ayininin ruhaniləri) veda ayinində çox dərin dəyişikliklər etdilər. Bu dəyişikliklər əsasən həmin ayinin iki əsas aspektində :baş vermişdi

Birincisi ideologiya sahəsində idi, bu ayinin ardıcılları özlərini xilas etmək və tanrılarının güclənməsi üçün çoxsaylı allahlara sitayişdən, onların hüzurunda qurbanlıq kəsməkdən üz döndərərək bütün əşyaların vəhdətinə inam yaratmağa meyl etdilər. İkinci dəyişiklik isə dinin ictimai yönümü baxımından baş verdi. Onlar bu ayin ardıcılları arasında sinfi quruluş formalaşdırmağa başladılar. Bu quruluşda brahmanlar ən .yüksək ictimai mövqeyə sahib oldular

Bu dəyişikliklərdən sonra veda dövrünün klassik anlayışı öz yerini brahman ayininə verdi və bu cərəyan rəsmi olaraq öz çiçəklənmə dövrünü başladı. Brahman ayinində müqəddəs veda kitablarının öz əvvəlki e`tibar və dəyərini saxlamasına baxmayaraq, əsas me`yar brahman və upanişad kitabları idi. Buna əsasən brahman ayinini üç əsas :istiqamətdə araşdırmalıyıq

;İdeoloji dəyişikliklər .۱

;İctimai proseslər .۲

.Müqəddəs kitablar .۳

Bu dərsdə veda ayininin ideoloji dəyişikliklərdən bəhs olunacaq, qalan iki istiqaməti .gələn dərsdə tədqiq edəcəyik

### İDEOLOJİ DƏYİŞİKLİKLƏR

Brahmanların veda ayinində yaratdıqları ən mühüm ideoloji dəyişiklik onların nicat və .qurtuluş anlayışına verdikləri yeni tə`rif idi

Veda ayininin tə`rifinə uyğun olaraq insanların nicat və qurtuluşu mə`budların, xüsusilə atəş allahı olan Aqninin razılığını əldə etməklə müyəssər olur. Bu da qurbanlıq mərasiminin təşkil olunması ilə mümkündür. Yeni tə`rifin müddəalarına görə isə brahmanlar nicat və qurtuluşun aləmin həqiqət və ruhuna qovuşmaqla, brahmanları tanımaqla müyəssər ola biləcəyi fikrindədirlər. Buna əsasən veda dinində zahiri və əyani olaraq keçirilən qurbanlıq mərasimi brahmanizmdə öz yerini batini mərasimə .verdi

:Brahman ayininin əsas ideoloji prinsipləri aşağıdakılardır

;Brahmana e`tiqad .١

;Atmənə e`tiqad .٢

;Karma .٣

;Tənasüx .۴

səh:۵۹

.(Mukşa (nicat yolu .۵

### :BRAHMANA E`TİQAD .۱

Brahman, yaxud brahma veda ayini baxımından varlıq aləminin özü, həqiqəti, zatı, başlanğıcı və sonudur. O, əbədi və həmişəlikdir, hər yerdə vardır, onun vücudunda səma və yer, maddi və ya qeyri-maddi olmasından asılı olmayaraq dünyanın bütün .varlıqları əhatə olunmuşdur

Upanişadda brahman belə təqdim olunur: " - Odur fənaya uğramayan əbədi allah! "!Elmli, hər yerdə olan və dünyanın gözətçisi! Odur varlıq aləminin hökm verəni

Başqa bir yerdə isə belə deyilir: " - O vahid və sonu olmayan fərd aləmi yuxudan oyatdı." " - Əslində dünyanın əvvəlində brahman idi. Onun dörd tərəfdən heç birində ucu-bucağı yoxdur; ruhu sonsuz bir zatdır ki, doğulmamışdır və ağlın gücü ilə dərk oluna bilməz. O, göyün, kainatın ruhu idi və dünya fənaya uğradığı vaxtda yalnız o qalacaqdır. O, aləmi sonsuz göylərdə oyatdı və o sıx yığılmış xəyal toplusudur, xəyal da odur və nəticədə hər şey ona qovuşub yox olur. Odur şəfəq saçan parlaq günəşin kütləsində yanar bir od, tüstüsüz alov kimi nur ələyir! Onun hərarəti ilə qidalar mə`dəyə gedir. Buna görə onu atəşdə, qəlbdə hazır, günəşin daxilində mövcud ".adlandırırlar

Upanişadın başqa bir yerində brahmanın xüsusiyyətləri barədə deyilir: " - O həm sabitdir, həm də səyyar, həm uzaqdır, həm də yaxın... O şimalda, cənubda hər bir yerdədir. Bütün çaylar okeanlardan qaynaqlanıb yenidən ona qayıtdığı kimi, hər bir ".şey brahmandan yaranır və ona qayıdır

### ATMƏN .۲

Atmən təkcə insanın düşünüb-daşınan ruhu, zehni-düşüncəsi deyil (brahmanın simvolu), eynilə brahmanın özüdür. Bu əqidəyə əsasən brahma ilə atmən arasında ortaq şəxsiyyət və tam vəhdət vardır. Bütün nəfslər - insani nəfs və ya heyvanların, həşəratın və bitkilərin ruhu, hər canlı varlığın nəfsi olmasından asılı olmayaraq – özlərinin bütün formaları ilə birgə başqa bir şey deyil, məhz brahmanın özündən .ibarətdir

Upanişad bu barədə belə deyir: “ – Brahmanın zühur və təcəllisi, hər bir şeyin ruhu məhz sənin ruhundur”. Sonra deyilir: “ – Onun yerlərdə, sularda, odda, havada, zəif küləkdə, səmada, günəşdə, fələkin dörd bir tərəfində, ulduzlarda və ayda, zülmətdə və nurda olan hər bir şeylə birgə, eyni zamanda hər bir şeydən fərqlidir... O kəs ki, daxildən hər bir şeyin ixtiyarını ələ alıbdır. O sənin ruhundur. Əbədi və batini bir nəzarətçi. O kəs ki, tənəffüsdə, danışıqda, gözdə, qulaqda, beyində, dəridə və idrakda yeri vardır və bununla belə, özü idrakdan

deyildir. O görünməyən göz, eşidilməyən qulaq, düşüncənin zatına yol tapmadığı bir mütəfəkkir, fəhmin əlinin yetmədiyi başa düşəndir. Bütün bunlarla belə, gözə görünməz, eşidilməz və dərk olunmazdır... O sənin ruhundur: batini və daimi bir ”!nəzarətçi

Bu ifadələrdən belə mə`lum olur ki, atmən-brahman dini nöqteyi-nəzərdən bütün varlıqların müştərək ruhu sayılır. Ruh dedikdə, göz önündə insan ruhu canlansa da, diqqət yetirmək lazımdır ki, su, od, hava, səma, günəş və s. barəsində də həmin ifadə, .yə`ni “sənin ruhun” sözü işlədilmişdir

Başqa sözlə, brahman ayinində insanlar üçün xüsusi bir ruh nəzərdə tutulmuşdur və ona atmən deyilir. Həmçinin bu dində atmənlə tam vəhdətdə olan kainatın ruhu, və ya “dünyanın canı” da mövcuddur. Upanişadlarda sonuncu mə`na sanskrit dilində “tet .tom isi” kimi verilmişdir ki, bu da “sən odsan” deməkdir

Atmən ilə brahman arasında müəyyən mə`nada ayrılmaz birlik vardır və onun müddəalarına görə bu iki varlıq müqəddəs nəfs və əbədi həqiqətdən ibarətdir. Brahman-atmən yozumu bu vəhdətin isbatı ola bilər. Upanişadda yuxarıdakı ifadə :barədə belə oxuyuruq

Mənim qəlbimin daxilində olan ruh - düyü dənəsindən, yaxud buğda dənəsindən, - “ yaxud xardal dənəsindən, yaxud ərzən dənəsindən, yaxud ərzən dənəsinin məğzindən daha kiçikdir. Qəlbimin içindəki ruh yerdən-göydən böyük, səmadan və ”!bütün dünyadan əzəmətlidir. Bu mənim qəlbimin daxilində olan brahmadır

Brahman ayininin yuxarıda qeyd olunan fəlsəfəsi əsasları üzərində tədqiqat aparan alimlər brahmanla atmən arasında vəhdəti-vücudun olmasını bəyan etdikdən sonra, irfan sahəsinə daxil olaraq bu ayinin ardıcıllarına tövsiyə etmişlər ki, nəfsi kamilləşdirmək üçün nirvana - fəna mərhələsinə keçsinlər. Yə`ni, insanın ruhu dünyəvi ruhla vəhdət təşkil edib qovuşma mərhələsinə çatdıqdan, brahma ilə birləşdikdən sonra bu vüsalın özündən agah olur; bu birlik və agahlığın özü də onun daxilində bir növ cazibə, coşqunluq və məftunluq yaradır. Ondan sonra insan yəqin mərhələsinə çatdığı üçün təsvirəgəlməz səadət və ləzzətə nail olur. Sözlər və ifadələr onun həqiqi mə`nasını şərh etməkdə acizdir, əql onu dərk edə bilmir. Artıq bundan

sonra arif şəxs brahmaya qovuşmuş hesab olunur və eyni halda onu mütləq sükunət və nəzarət bürüyür. Yəqin gözü ilə özünün brahma ilə olan ruhani vəhdətini hiss edir. Belə ki, öz ətrafında mövcud olan və hiss olunan əşyaları başqa bir şey kimi deyil, vahid bir vücuda malik olan halda görür. Arif insan bu halətdə özünü hər biri vahid və əzəli varlığın ayrı-ayrı təzahürləri olmalarına baxmayaraq onun yanında olan ağacla bir görür. Brahman dinində varlıqlar brahmanla vəhdətdə olmaqla eyni zamanda brahmandan ayrılır və seçilir. Zahirdə bütün aləm çoxluqlardan təşkil olunmuşdur, gerçəkdə isə belə deyildir. Çoxluqlar varlıq aləminin bəsit və fərdi həqiqətindən ayrılıq və əksliklərin təzahürləridir. Buna görə də öz özlüyündə nöqsana, şərlərin meydana gəlməsinə və kamaldan uzaq düşməsinə səbəb olurlar. Əgər bu müxtəliflik və çoxluq .olmasaydı əzab-əziyyətin, çətinlik və kədərin mə`nası olmaz, aradan gedərdilər

səh:۶۱

Buna görə də insan fəna mərhələsinə yetişdikdə çoxluqdan yaxa qurtardıqda .qurtuluş, səadət, xoşbəxtlik və kamala çatmaq hissi keçirir

Brahmanların e`tiqadına görə atmən (yə`ni, varlığın ruhu və məğzi, insani mahiyyəti və batini) əzəli və əbədidir. Yaradılış və xilqətin bir dövrünə şamil edilən dünya dövranlarından hər biri (brahmanlar ona karpa deyirlər) bir gün sona çatacaqdır. Həmin gün bütün varlıqların ruhu öz cəsədlərindən ayrılacaq, asılı və sükunətdə olacaqlar. Uzun bir müddəti qət etdikdən sonra "pralaya" adlandırılan sükunət, yoxluq başa çatacaq, xilqət və yaradılış yenidən başlanacaq, yox olmuş aləm təzədən yaranacaqdır. Bu zaman ruhlar ətalət və donuqluq vəziyyətindən çıxacaq, yenidən hərəkətə, canlanmaya gələcəklər. Bütün kainat - bitkilər, canlılar, insanlar, şeytanlar və mə`budların hamısı - yeni bədənlərdə öz həyatına başlayacaqlar. İctimai sinif və təbəqələr yenidən təşəkkül tapacaq və yeni karpa başlanacaqdır. Bu dövr də özünün yekun nöqtəsinə doğru hərəkət edəcəkdir. Beləliklə, dünyanın mövcudluq tarixi əzəli, .əbədi şəkildə yeniləşmə və təkrarlanmaqdadır

### KARMA VƏ TƏNASÜX .۳–۴

Öyrəndik ki, brahmanların e`tiqadına uyğun olaraq atmən əzəli və əbədi olmaqla brahmanla vəhdət təşkil edir. Onun zatına azacıq belə olsa, nöqsan, şər və əzab-əziyyət yol tapmamışdır. Bu nöqsan, şər və əzab-əziyyət insanın rəftarındakı əməllərin nəticəsi, yaxud karmadır. Karma atməni özünə tabe edərək onun ruhunu müəyyən .şəklə salmış insani əməl və rəftarlardır

Bu e`tiqada əsasən insan murdar və pis əməllər törətməsə öldükdən sonra ruhu brahmana qovuşur və xoşbəxtliyə çatır. Əgər çirkin və yaramaz əməl - karma törətmiş olsa, yaxud gələcəkdə belə işlər görsə onun ruhu heyvan və ya insanların cisminə, yaxud sair əşyalara keçərək yenidən həyat sürəcəkdir. İxtiyari deyil icbari olan bu yeni həyat insanın bir daha əzab-əziyyətləri, müsibətləri yenidən təcrübədən keçirməsinə səbəb olur. Bu proses terminologiyada "samsara", yaxud tənasüx və ya .hülul adlandırılır

Karma prinsipi əsasında, insan ruhu onun törətdiyi əmələ uyğun olaraq ölümündən sonra özündən yuxarı və ya aşağı cəsədə keçir və nəticədə öz əməlinin bəhrəsini

görür. Upanişadlar bu barədə deyirlər: “ – Həyatlarında gözəl və bəyənilən əməl sahibi olanların ruhları ölümdən sonra pak və bəyənilən bətndə bir brahman(۱) qadının, yaxud da kşatriyə(۲) və yaxud da visiyə(۳) qadının bətnində özünə yer tapır. Amma şər işlər görən şəxslərin ruhları isə çox bəyənilməz bətnlərdə yerləşir.”(۴)

səh:۶۲

---

۱- [۲] Brahman ayinində ictimai sistemin ən yüksək təbəqəsidir.

۲- [۳] Brahman ayinində ictimai sistemin ikinci təbəqəsidir.

۳- [۴] Brahman ayinində ictimai sistemin üçüncü təbəqəsidir.

۴- [۵] İtin, canavarın, donuzun qarnında, yaxud cəmiyyətin aşağı təbəqəsindən olan bir qadının bətnində.

Samsara prinsipinə uyğun olaraq, qeyd etdiyimiz üslubda olan keçid, tənasüx və nəsil artımı ardıcıl surətdə insan əməlinə münasib şəkildə təkrar olunur. Cəmiyyətin aşağı təbəqəsindən olan yaxşı əməl sahibi olan insanın ruhunun ölümündən sonra brahmanın, yaxud cəmiyyətin yüksək təbəqəsindən olan bir şəxsin bədəninə keçməsi .də mümkündür və bunun əksi də ola bilər

## (MUKŞA (NİCAT YOLU.۵

Öyrəndiyimiz kimi, brahmanların e`tiqadına görə insan dünyada çirkin əməllərlə məşğul və şeytan xislətli olarsa, hökmən öz həyatının yeni dövrünü daha aşağı bir varlığın bədənində başlamalı, daha ağır əzab-əziyyət və müsibətlərə dözməlidir. Yaxşı əməl sahibləri isə öz həyatlarını daha üstün bir varlığın bədənində davam etdirəcəklər. Ancaq bilmək lazımdır ki, bundan əvvəl də qeyd olunduğu kimi, çoxluq aləminə yenidən qayıdış hər halda əzab-əziyyətlə müşaiyət olunacaqdır. Çünki həmin aləmin xüsusiyyətləri bunu tələb edir. Buna görə də nə saleh, nə də çirkin əməl nicat və qurtuluşa səbəb olmur. Brahmanların nəzərinə görə nicat və qurtuluş yalnız mukşanın vasitəsilə mümkündür. Mukşa maddi meylləri tərk edib fəna yoluna qədəm qoymaqdan ibarətdir. İnsan var-dövlət sevgisi və dünyəvi istəklərdən əl çəksə brahmana qovuşar və əbədi rahatlıq tapar. Bu barədə Upanişad elmi iki mərtəbəyə - :daha ali və daha aşağı dərəcəyə böldüyü[١] hissədə belə deyir

Daha ali elm – azadlıq elmi atməndə (yaxud insan varlığının həqiqəti və ruhu) bütün - " maddi meyllərdən və varlığı tələb edən şəraitlərin hamısından azad olmaqdır. İnsan bu məqama yetişməklə mukşaya, yə`ni nicat və qurtuluş yoluna çatacaq, atmən-brahmanın bir olmasını dərk edəcəkdir. Bu zaman vəhdətin şadlığında, əzəliyyət və əbədiyyət nə`şəsində qərq olacaq, aləmdəki daimi dəyişikliklərdən və köçmələrdən, ".samsaranın qeyri-ixtiyari həyat dəyişmələrindən həmişəlik xilas olacaqdır

## SUAL VƏ TAPŞIRIQLAR

?Veda və brahman ayini baxımından qurtuluşun tə`rifi necədir .١

?Brahman kimdir və onun üzərinə hansı vəzifələr düşür .٢

?Atmənin mə`nası nədir və onun brahmanla nə kimi əlaqəsi vardır .٣

?Varlıqların brahmanla olan əlaqəsi necədir .۴

?Brahman ayinində qurtuluş yolu nədir .۵

.Brahman ayini nöqteyi-nəzərindən tənsüxü izah edin

Müəllimin köməyi ilə və e`tiqadlar dərsində öyrəndiyiniz ideoloji arqumentləri nəzərə .almaqla, brahman ayininin e`tiqadi prinsiplərini araşdırıb təhlil edin

səh:۶۳

---

Aşağı elm dedikdə brahmanin təzahürlərini tanımaq və ona necə ibadət etməyi [۶] -۱ .bilmək nəzərdə tutulur

## ONUNCU DƏRS

## (BRAHMAN AYİNİ (٢

### İCTİMAİ QURULUŞ .٢

VEDA DİNİNDƏ DƏYİŞİKLİKLƏR

Brahman ayinində sanskrit dilində ona “kasta” deyilən veda ayininə nisbətən baş verən ən mühüm dəyişikliklər dörd təbəqəli quruluşun formalaşması idi. Miladdan əvvəl yeddinci əsrin sonlarından başlayaraq, tədricən Hindistanda bir-birindən tamamilə ayrı və fərqli dörd ictimai təbəqə formalaşdı. Bu təbəqələr bir müddətdən sonra brahman ayininin birbaşa tə`siri altında dini və əqidəvi səciyyə daşımağa başladı. Burada hər bir təbəqəni şərh etməzdən və brahmanın onlar barədə nəzərini :araşdırmazdan əvvəl, bu dörd təbəqənin yaranma tarixinə qısa ekskursiya edək

Miladdan əvvəl yeddinci əsrin sonlarında ariyalılar Qanqa dərəsini tamamilə əllərinə keçirdilər və orada tədricən çoxsaylı ictimai təşkilat və qurumlar yaratmağa başladılar. Bə`zi bölgələrdə müəyyən dövlətlər də yarandı ki, onlara monarxiyalı hakimiyyət quran “racelər” sülaləsi rəhbərlik edirdi. Bə`zi yerlərdə qəbilə başçılarından ibarət şuraların nəzarəti altında ictimai təşkilatlar yaranırdı və bunlar əslində bir növ “köçərilər respublikası” sayılırdı. Bu hindus təşkilatlarında fateh qövm (ariyalılar) ən yüksək məqama malik idi və məğlub olan qövm isə ən alçaq təbəqələrdə yer tutmuşdu. Bu təşkilatlar yarandığı ilk vaxtlarda bir-biri ilə çox da fərqli xüsusiyyətlərə malik olmasalar da tədricən bir-birindən tamamilə ayrı olan dörd təbəqəyə bölündülər. :Onlar aşağıdakılardan ibarətdir

;Kşatryalar təbəqəsi - əmirlər və şahzadələrə şamil edilirdi .١

;Brahmanlar təbəqəsi – ruhanilər və kahinlərdən ibarət idi .٢

;Vişiyalar təbəqəsi - əkinçilər və sənətkarlara aid idi .٣

Şudralar təbəqəsi – qeyri-ariyalı xalqlardan olan qara dərililər, qullar və . ۴ .başqalarından təşkil olunmuşdu

Bu sinfi quruluş sırf irqçilik prinsipləri əsasında formalaşmışdı. Buna görə də ilk üç təbəqə ariyalı irqindən olduğuna görə qeyri-ariyalı xalqlardan ibarət olan dördüncü təbəqədən uzaq gəzirdi. Onların arasında ayrılıq o həddə idi ki, aşağı təbəqə ilə ailə qurmaq qadağan edilmişdi və xoşagəlməz hal sayılırdı. Hətta onlarla oturub-durmaq, .bir süfrə başında çörək yemək belə yasaqlanmışdı

Əlbəttə, dördlük təşkil edən kastalardan əlavə, Hindistan cəmiyyətində başqa bir təbəqə də var idi ki, ümumiyyətlə bütün insani, ictimai hüquqlardan və hətta bə`zi heyvanlara məxsus imtiyazlardan da məhrum idi. Bu təbəqəyə "paryalar", yaxud "çəndəlalar" deyirdilər. Paryalar insan hesab olunmadığından, mövcud ictimai və

sinfi quruluşda onlara azacıq da olsa, yer verilmirdi. Digər təbəqələr tərəfindən paryalara qarşı nifrət hissi və onların cəmiyyətdən uzaqlaşdırılması yavaş-yavaş özünə dini rəng aldı. İctimai və ailəvi əlaqələrin bərqərar edilməsini qadağan etmək azmış kimi, hətta ariyalıların müqəddəs kitablarını (vedaları) öyrətmək və qiraət etmək haqqı da onlardan alındı. Bundan əlavə onlara hətta ariyalıların allahlarına sitayiş etmək icazəsi belə verilmirdi. Bu zülm və ayrı-seçkiliklər paryaları tədricən animizm və .s. kimi ibtidai dinlərə yönəltdi

Müqəddəs veda kitablarında da qeyd olunan kasta sinfi quruluşu dini və e`tiqadi baxımdan elə təfsir olunurdu ki, sonralar o, azacıq dəyişikliklə brahman ayininin yayıldığı dövrlərdə hind cəmiyyətinin ictimai quruluşunun əsasını təşkil etdi. Bu cüzi dəyişiklik brahmanlar təbəqəsinin kşatrya təbəqəsi ilə yerdəyişməsindən ibarət idi. Çünki ölkəni idarə etmək, düşmənlərlə mübarizə aparmaq və müxalifləri məhv etməklə məşğul olan əmir və cəngavərlər naçar qalıb daim ruhani (brahmanlara) gücünə arxalanırdılar. Onlar da xalqın dini hisslərindən istifadə edərək özlərinin hərbi-siyasi məqsədlərini həyata keçirə bilərdilər. Bu da tədricən əvvəllər dua, qurbanlıq mərasimlərinin keçirilməsini, mə`budların dərgahında ehtiyacların istənilməsi mərasimlərini həyata keçirən brahmanlar təbəqəsinin tədricən xüsusi mövqeyə yüksəlmələrinə səbəb oldu. Camaat brahmanların dua və zikrlərinin qeyri-adi tə`sirə malik olduğuna inandıqlarından get-gedə onların şan-şöhrəti və əzəməti artdı. Belə ki, brahmanlar hətta mə`budlarla eyni səviyyədə hesab olundular. Bu təbəqənin müsbət qarşılanması və onlara olan meyl son nəticədə brahmanların qalan üç təbəqə ilə yanaşı mövqeyinin yüksəlməsinə səbəb oldu və onlar üçün xalq arasında münasib sosial baza yarandı. Əlbəttə, kşatryalar siyasi və hərbi qüdrətdən bəhrələndiklərinə görə daha böyük ictimai imtiyazlara malik olub bütün təbəqələrə hakim kəsilsələr də brahmanların camaat arasındakı nüfuzu və ümumxalq rəğbəti elə bir vəziyyət yaratdı .ki, əmirlər və hərbiçilər tədricən bu yeni ictimai təbəqəni rəsmi olaraq tanıdılar

Bütün bunlara baxmayaraq indinin özündə də, Hindistanın ictimai quruluşunu təşkil edən bu sinifləşmə hələ də ayrı-ayrı təbəqələrin bir-birinə qarışıb ünsiyyətdə olmasını .qadağan edir

Hər bir şəxs öz təbəqəsindən olan insanlarla əlaqə yaratmalı və ya ailə qurmalıdır.

Hamı öz ata-babalarının həmin təbəqədəki işini davam etdirməli, öz təbəqəsindən çıxmamalıdır və başqa iş seçmək haqqına sahib deyil. Əlbəttə, Qandinin istiqlal mübarizəsinin ümumxalq hərəkatının qələbəsi ilə bu sinfi imtiyazların çoxu öz-özünə ləğv edildi. Xüsusilə də, paryalar müdafiə olundular və itirilmiş hüquqlarını bərpa etdilər. Hal-hazırda da onların arasında sinfi ayrı-seçkiliklər müəyyən qədər müşahidə olunur, xüsusilə də brahmanlar özlərinin əvvəlki sinfi və ictimai mövqelərini qoruyub .saxlamışlar

Hindistanın sinfi quruluşunda əhəmiyyətli məqam bu quruluşun dini və ideoloji əsaslandırılmasıdır və buna əsasən həmin təbəqələr brahmanizmin pozulmaz prinsipi - “ :sayılır. Bu barədə Riqveda kainatın yaradılışını bəyan edərkən deyir

Sonra onun ağzı (brahman – kainatın xaliqi) brahmana çevrildi. Onun biləkləri kşatrya, budları isə vişya oldu və şudra onun ayaqlarından yarandı.”

Brahmanlar Riqvedanın bu ifadəsini belə izah edirlər ki, hər fərdin sinfi mövqeyi karma qanunu və samsara, yə`ni tənasüx əsasında tə`yin olunur. İnsan ruhu əvvəlki həyatda özünün yaxşı və ya pis əməllərinə əsasən öldükdən sonra aşağı, yaxud yuxarı təbəqədən olan bir insana və yaxud da cismə keçib yeni həyatını başlayır. Buna görə də, cəmiyyətin aşağı təbəqələrinin öz mövcud vəziyyətləri və mövqelərindən şikayət və e`tiraz etmək haqları yoxdur. Çünki, belə bir şəraiti o seçməyib və bu işə görə müqəssir deyil. Daha üstün məqam və mövqe istəyən şəxslərin çarəsi yalnız bundadır ki, kastın sinfi quruluşu və onun qanunlarına qeydsiz-şərtsiz təslim olub ona tapşırılan vəzifə və məs`uliyyəti yerinə yetirməklə özündən müsbət bir karma qoyub getməkdən başqa çarəsi yoxdur. Bəlkə yalnız bununla gələcək həyatlarında yüksək təbəqədən olan bir şəxs formasına düşüb daha yüksək təbəqədə yeni həyatlarını başlaya bildilər. Bu ölüm və həyat ardıcıllığı tənasüx vasitəsilə bütün təbəqələrdə fərdi ruhun ötüb-keçməsinə və ən yüksək təbəqəyə çatmasına qədər davam edəcəkdir. Son mərhələ həmin fərdin göylərdə, ataların və mə`budların ruhlarının qonşuluğunda əbədi məqama, bundan daha yüksəkdə olan brahma ilə tam qovuşma məqamına çatmasıdır. Ruh hətta karyaların səviyyəsinə qədər enə bilər. Brahmanların inancına görə çirkin əməllər və brahma qanunlarına itaətsizlik insanı öz təbəqəsindən aşağı endirə və yeni həyatda daha alçaq təbəqədən olan bir fərdin qəlibində yerləşdirə bilər. Bu baxımdan paryaların aşağı məqamda olmalarının səbəbi budur ki, onların çirkin əməllər, brahman qanunlarından çıxmağa sə`y göstərmələri öz məqam və mövqelərindən aşağı enmələrinə səbəb olmuşdur. Bu mərtəbədə paryaların heç bir insani haqqı, ictimai nüfuz və heysiyyəti olmur. Onlar karma qanununa əsasən heç kəsin yerinə yetirməyə razı olmadığı ən alçaq ictimai işləri görməyə məhkum olunmuşlar.

### ٣. MÜQƏDDƏS KİTABLAR

Brahmanların ən müqəddəs və ən mühüm kitabları dörd vedadan ibarətdir. Amma onların arasında da yalnız Upanişad brahman ayininin əsas istiqaməti və vedanın ən mühüm təfsirlərindən biri sayılır.

Upanişad” sözü üç hissədən ibarətdir: “upa” – yaxın, “ni” – aşağı, “şad” isə oturmaq“ mə`nasını daşıyır. Bu söz terminologiyada mürşidlərin öz xüsusi müridlərinə öyrətdiyi bir sıra şifahi elmlərə aid olunur. Xüsusi diqqət və vasvaslıqla təqdim olunan bu tə`limlər xüsusi xarakterinə və yalnız bu elmləri öyrənmək ləyaqəti təsbit edilmiş şəxslərə tə`lim edildiyindən tədricən batini həqiqətlərə və sirli elmlərə çevrildi. Buna .görə də bə`zi alimlər “upanişad” sözünü “sirlər və rəmzlər” mə`nasına işlətmişlər

Brahma ayininə inananların nəzərinə görə Upanişadlar toplusu bəşər tərəfindən yazılan əsərlərdən olmayıb, yalnız vəhy və işraq yolu ilə meşələrdə tərki-dünya həyat tərzi keçirərək öz ruhlarını saflaşdırmağa nail olanlara və haqq hökmlərinin səh:۶۷

dinləyicilərinə ilham olunur, daha sonra isə sirli, simvolik cümlə və ifadələr şəklini almışdır. Upanişadların tarixi miladdan ٥٠٠-٨٠٠ il əvvələ gedib çıxır. Hal-hazırda ٢٠٠ nüsxəyə qədər Upanişad mövcuddur ki, onların bə`ziləri şe`r, bə`ziləri isə nəsr şəklində yazılmışdır. Bu nüsxələrdən bə`ziləri əslində sonralar brahman ayinində yaranan bir çox məktəblərin əsasını təşkil etmiş təfsirlərdir. Əvvəldə qeyd olunduğu kimi, brahman ayininin ideoloji dünyagörüşü və ictimai quruluşunun əsasları Upanişadların tə`limləri üzərində qurulub. Buna görə də, həmin kitablar brahman .ayininin ən mühüm və ən əsas kitablarından sayılır

Brahman ayinində ehtirama layiq görülüb müqəddəsləşdirilən və bu ayinin əməli əsaslarını təşkil edən digər bir kitab “Mano qanunları” adlanır. Keçmişi miladdan ٢٥٠ il əvvələ gedib çıxan bu kitab ١٢ fəsildən ibarətdir. Hər bir fəsildə əxlaqi və əməli tövsiyələr, ardıcılların vəzifələri, o cümlədən cəza qanunları, hər bir kasta üzvlərinin vəzifələri, təbəqələrlə əlaqədar müəyyən şərh və izahlar bəyan olunmuşdur. Bu kitabda brahmanlarla əlaqədar oxuyuruq: “ - Brahmanların vəzifəsi budur ki, vedaları tədris edib öyrətsinlər. Camaatın qurbanlıqlarını tanrıların dərgahına hədiyyə etsinlər, onlardan qeyrisinin vasitəsi ilə qəbul olunmaz. Brahmanlara bütün mə`budlar hörmət edir və buna görə də yüksək məqam sahibidirlər. Brahman heç bir günaha batmaz, hətta bütün insanları öldürsə belə cəzalandırılmayacaq. Padşahlara, hətta ehtiyacdan ”.ölüm ayağında olsalar belə, brahmana vergi qoymaq qadağandır

:Mano qanunlarında kşatrya təbəqəsi barədə deyilir

Yalnız bunların rəhbər, padşah, qazi və ya hakim olmağa səlahiyyətləri vardır. - “ Onların hərbi işlərdən başqa bir xidmətlə, hətta dinc şəraitdə olsa belə, məşğul ”.olmaları caiz deyildir

Yaxud vişiya təbəqəsi barədə deyilir: “ - Yalnız öz təbəqələrindən özlərinə həyat yoldaşı seçmək onlara vacibdir. Ticarət qanunlarını, əkinçilik və bağbanlıq qaydalarını öyrənmək də vişiyalılara vacibdir. Onlar müxtəlif xalqların dillərindən, bazarlardakı ”.qiymətlərdən xəbərdar olmalıdırlar

Bu kitabda şudralər haqda belə deyilir: “ - Onlara brahmanların əmrlərini yerinə yetirmək vacibdir. Yalnız bu halda sonrakı həyatda daha yaxşı məqama çata

biləcəklərinə ümidvar ola bilərlər. Onların sərvət toplamaları caiz deyildir. Çünki belə olan halda brahmanlar əziyyət çəkə bilərlər. Əgər şudra təbəqəsindən bir şəxs özünü daha yüksək təbəqədən olan fərdlə bərabər hesab edərsə sürgün edilməli və kürəyinə dağ basılmalıdır. Əgər özündən yuxarı təbəqələrə mənsub olan bir şəxsə əl qaldırarsa əli kəsilməlidir; təhqir edərsə ayağı kəsilməlidir. Həyasızlığı son həddə çatarsa, brahmanın rə`yi ilə onun ağzına və qulağına qaynar yağ tökmək padşaha ”.vacibdir

Göründüyü kimi, “Mano qanunları” kitabı ictimai təbəqələr arasındakı ziddiyyətləri daha da dərinləşdirir. Bu kitab təbəqələr arasındakı fərqin qorunub saxlanılmasını hər bir dindara itaəti vacib olan dini-əqidəvi və qaçılmaz bir iş hesab edir. Bu vəzifələrdən imtina etmək dindən çıxmaq, mürtəd olmaq, brahman

və digər mə`budlara qarşı üsyan, sonrakı həyatında hazırkı məqamından daha alçaq .məqamlara enməsinin səbəbi sayılır

Bu kitabda Mano qanunlarının düzgün olmayan tə`limlər, mənfi cəhətlər və ağlasığmaz hallarından əlavə, müsbət və dəyərli əxlaqi tövsiyələr də gözə çarpır. :Əxlaqi tövsiyələrdən bə`zilərini qeyd edirik

Valideynə və müəllimə itaət qarışıq ehtirama diqqətlə yanaşmaq, günahı e`tiraf .etmək, sədaqət və düzlük, çətinliklərə ruhi məşğələlər və şadlıqla dözmək və s

Mano qanunları" kitabında əhəmiyyət kəsb edən digər bir məqam, bu kitabda ilk dəfə" olaraq digər müqəddəs kitablardan, onların mə`bəd və ruhaniləri barədə söhbət açılmasıdır. Ümumiyyətlə "Upanişadları" və "Mano qanunları"nı özü də veda ayininin əsasları üzərində qurulmuş brahman ayininin əsas dayaqlarından hesab etmək olar. .Həmin kitablarda bu ayinin ideoloji, ictimai əsasları və dünyagörüşü şərh olunmuşdur

Hinduizmin əsası və bünövrəsi sayılan brahman ayininin hal-hazırda da Hindistan yarımadasında çoxsaylı ardıcılları vardır. Gələcək dərslər bu ayinin ətraflı təhlilinə həsr .olunacaq

**SUAL VƏ TAPŞIRIQLAR**

?Kasta nədir .١

?Paryalar hansı təbəqədir .٢

?Brahmanlar öz sinfi quruluşlarını dini baxımdan necə əsaslandırırlar .٣

?Upanişad hansı mə'nanı ifadə edir .۴

?Mano qanunları kitabında dörd təbəqə haqda nə deyilir .۵

.Brahman ayininin dörd ictimai təbəqəsinin adını sayın

İslam dininin insan və insan cəmiyyəti barəsində olan baxışları, bu ideologiya baxımından üstünlük me'yarından çıxış etməklə brahmanizmin siniflәşmə .nəzəriyyəsini təhlil və analiz edin

## ON BİRİNCİ DƏRS

## (CAYNİZM (۱

### MÜQƏDDİMƏ

TARİXÇƏSİ

Brahman ayininin bə`zi ictimai-ideoloji əsaslar, o cümlədən karma qanunu, tənasüx və kasta sinfi quruluşu sonrakı dövrlərdə onların ardıcılları tərəfindən inkar edilərək ciddi narazılıq və kəskin tənqidlə qarşılaşdı. Brahmanlar məhz bunlara əsaslanaraq açıq şəkildə bildirirdilər ki, öz təbəqələrindən olanlar istisna olmaqla, heç kəs kamil mə`nəvi mərhələləri qət edərək nicat və qurtuluş mənzilinə, yə'ni nirvanaya nail ola bilməz. Bu e'tiqad brahman ayinindəki digər e'tiqadlardan daha artıq tənqid və .e'tirazlara mə'ruz qaldı

Bu əqidənin ardıcılları üçün insanlar arasında yalnız bir təbəqənin nicat əhli olaraq nirvana kimi fəna mərhələsinə çata biləcəkləri, başqalarının isə on dəfələrlə doğulub-ölməkdən, sə`y göstərib əzab-əziyyət çəkməkdən sonra belə, nicat və qurtuluş mərhələsinə çata bilməyəcəkləri kimi e`tiqadı qəbul və həzm etmək çox dözülməz idi. Buna görə də Hindistan alimlərindən bir qrupu karma və tənasüx qanununu başqa bir yolla izah etməyə çalışaraq, onu təfsir etməyə başladılar. Bu təfsirlərin ən mühümü .sonralar caynizm və buddizmin yaranıb formalaşmasına səbəb olmuşdur

### CAYNİZM AYİNİNİN BANİSİ

Caynizm ayininin yaradacısı və banisi Natapute Vardmne idi və ardıcılları onu "mahavira", yaxud böyük pəhləvan adlandırırlar. Mahavira miladdan ۵۹۹ il əvvəl kşatrya təbəqəsindən olan "racelər" ailəsində dünyaya gəlmiş və sinfi vəziyyətinə görə öz inkişaf dövrünü rifah, var-dövlət, əmin-amanlıq içində keçirmişdir. Caynizmin :müqəddəs kitablarında onun həyatı ilə əlaqədar deyilir

Mahavira beş nəfər dayə tərəfindən qorunurdu. Hər bir dayə ayrıca onun ayaq - " yoluna getməsi, təharət işləri, bədəninin paklığı, paltar geyməsi, yaxud oynayıb-".əylənməsi işlərinə baxırdı. O, bir dayənin qucağından digərinin qucağına ötürülürdü

Mahavira öz gənclik dövrünü də atasının imperator sarayında naz-ne’mət içərisində keçirmiş, daha sonra zadəgan təbəqəsindən olan bir qızla evlənmişdir. Buna baxmayaraq, şahlara xass həyat tərzi ona çox iyrənc və dözülməz gəlirdi. O, zahidlik və rahiblik həyatına üstünlük verir və belə bir həyat tərzini daha çox sevirdi. Ata-anası həyatda ikən onun rahiblərə yaxınlaşması və həyat tərzlərinin tətbiqinin qəti əleyhinə olduğuna görə onlardan uzaq gəzirdi. Amma, təxminən ٣٠ yaşında ikən ata-anası öldükdən sonra sarayın kübar həyat tərzindən uzaqlaşıb ona miras qalan var-dövlətin hamısını yoxsulların arasında bölüşdürdü və şəhərin

kənarında rahiblərin monastırında yaşamağa başladı. Zadəgan paltarlarını çıxardıb, rahiblərin adətinə uyğun olaraq, əyninə sadə bir parça doladı və onların ayininə and içib öz cismini və bədənini unudacağına, üzləşəcəyi bütün xoşagəlməz hallara və .çətinliklərə səbr edəcəyinə söz verdi

Mahavira bir müddət rahiblərlə birgə yaşadıqdan sonra nicat və qurtuluşa nail olmaq, mukşadan nicat tapmaq üçün rahiblərin monastırını tərk etdi. Əbasını çiynindən götürdü, çılpaq şəkildə səhralara üz qoydu, evsiz-eşiksiz didərginlər kimi özünün asketik həyat dövrünü başladı. Yazırlar ki, o, öz səyahət və seyri-süluk müddətində bir gündən artıq bir kənddə və beş gündən artıq heç bir şəhər və ya qəsəbədə qalmamışdır. Belə ki, bir yerdə bundan artıq dayanmağı həmin yerlərə ürək bağlamaq kimi qiymətləndirirdi. Yalnız yağışlar mövsümündə bir yerdə qalmaq üçün yer seçir və orada mütləq sükunətə dalırdı. Bu fəsildə yer üzündə bir çox canlılar hərəkətə gəldiyindən Mahavira onları əzməmək və əzab-əziyyət verməmək üçün hərəkət etmirdi. O, nicat və qurtuluş prinsiplərindən birinin də canlılara əzab-əziyyət verməmək olmasına inanırdı. Buna görə də, yeriməyə başladıqda yumşaq bir süpürgə ilə öz yolunu təmizləyirdi ki, kiçik həşəratları, yaxud qarışqaları yolun üzərindən .götürsün və onlara əzab-əziyyət verməsin

Məhz bu səbəbdən, heç vaxt ət xörəkləri yeməzdi ki, heyvanların öldürülməsində payı olmasın. Həmişə dilənməklə başqalarının hazırladığı yeməklərdən yeyərdi. Su içən zaman nazik bir parça ilə suyun üzərini təmizləyirdi ki, onda kiçik canlılar olmasın. Hətta, həşəratların ağzına girib ölməməsi üçün danışan zaman ağzına bir dəsmal tuturdu. Yatan zaman da öz yatağını diqqətlə axtarırdı ki, hər hansı bir həşarat, yaxud həşaratın sürfələri olarsa, onlara zərər toxunmasın. Yazırlanlara görə o, başqa rahiblərin nazik paltar geydikləri və öz bədənlərini od qalamaqla qızdırdıqları soyuq fəsillərdə də çılpaq gəzər, ağaclara söykənməkdən çəkinər və heç vaxt sığınacağa girməzdi. Soyuq fəsillərdə kölgədə, isti fəsillərdə isə yandırıcı günəşin altında .oturmaqla dərin düşüncə və meditasiyalara qərq olardı

Mahavira heç vaxt rahatlıq məqsədi ilə yatmırdı. Yuxu onu üstələyəndə özünü oyadar və sutka ərzində azacıq yuxu ilə kifayətlənərdi. Heç vaxt dərman qəbul etməz, öz bədənini suya salmaz, başının tüklərini qısaltmazdı. Onun fikrinə görə ağızı və dişləri

yumaq lazım deyildi. Qəlbində heç kəsə məhəbbət yaranmaması üçün kimsə il oturub-durmaz və danışmazdı. Kəndlilər ətrafına toplaşıb onunla söhbət etmək istədikdə Mahaviranın uzun-uzadı sükutundan bezərək ondan əl çəkirdilər. O, nə kimsəyə salam verir, nə də bir kəsin salamını alırdı. Ümumiyyətlə heç bir kəsə diqqət yetirmir, başqalarının onu təhqir edib söymələrinə dözür və heç vaxt onları dəf etmək fikrinə düşmürdü. Hətta insanların, yaxud ziyanverici və yırtıcıların verdikləri fiziki əzab-əziyyətlərə də dözür, heç vaxt e'tiraz və ya şikayət etmirdi. Onun barəsində :hinduslarım müqəddəs kitablarında oxuyuruq

O, ifrazatın pis qoxusu, yaxud səndəl ağacının gözəl iyinə qarşı eyni dərəcədə – “e`tinasız idi. Samanla ləl-cəvahirata, zibillə qızıla, xoşluqla əzab-əziyyətə də eyni səviyyədə laqeydlik göstərirdi. Nə bu dünyaya bağlı idi, nə də ki bu dünyanın ”.fövqündəki dünyaya. Nə həyat arzulayırdı, nə də ölüm

Hindusların müqəddəs kitablarında yazılanlara əsasən, Mahavira nəhayət on iki ildən sonra dözülməz ruhi məşğələlər, nicat və qurtuluşa çatmaq yolunda səbr və müqavimət nəticəsində ١٣-cü ilin ortalarında bir küncdə təfəkkürə qərq olduğu zaman nirvana və kamalın, yetkinliyin son mərhələsinə nail oldu ki, buna da terminologiyada “kivala” deyilir. Hinduslar ona bu vəziyyətdə “caynizmeh”, yə`ni qalib və fateh ləqəbi verdilər. Çünki, o bu mərhələdə tam fəth və qələbənin son həddinə çatmış, bütün maddi və dünyəvi bağlılıqları özündən uzaqlaşdıra bilmişdi. O, nəhayət ki, ardıcıl ölüm və doğumların, tənasüx və möhnətin əzab-əziyyətindən xilas ola bilmişdi. Bu ayindəki .“caynizm” sözü də həmin məsələdən bəhs edir

Mahavira uzun sürən asketik həyat mərhələsini keçdikdən sonra sükutu pozmuş, camaata moizə etməyə, onlara yol göstərməyə, özünün hasil etdiyi ayin və məslək .yolunu davam etdirməyə başlamışdı

O, otuz il çəkən və həyatının sonuna qədər davam edən bu dövrdə öz ətrafına çoxlu şagird toplaya bilmiş və öz ayininin qayda-qanunlarını onlara öyrətmişdi. Onun hinduslar və sadə brahmanlar arasından da saysız-hesabsız ardıcılları var idi. Beləliklə, caynizm ayini Hindistanın qədim brahman cəmiyyətində meydana gəlib yayıldı. Bu ayinin qayda-qanunları və əməlləri tarixin bütün enişli-yoxuşlu yollar keçməsinə, müxtəlif çətinliklərlə rastlaşmasına baxmayaraq mövcudluğunu qoruyub saxlamış və indiyə qədər davam etməkdədir. Müasir dövrdə də Hindistan yoqalarının əksəriyyəti özlərini bu ayinin ardıcılı hesab edir. Əlbəttə, bu ayin sadə əhali arasında çox da geniş yayılmayıb. Demoqraflar, hal-hazırda Hindistanda ١٢-١٣ milyon nəfər caynizm ayininin ardıcılının olduğunu qeyd etmişlər. Ardıcıllarının az olmasını nəzərə almasaq belə, :caynizm ayininin araşdırılması iki cəhətdən əhəmiyyət kəsb edir

;Bu ayinin yeni hinduizm baxışlarına qoyduğu tə’sirlər .١

Bu ayinin brahmanizmlə hinduizm ayini arasında birləşdirici halqa olması və bu .٢

.dinlərin tarixi proseslər baxımından da tədqiqinin zəruriliyi

Başqa sözlə demək olar ki, qeyd olunan üç mərhələnin (brahmanizm, caynizm və hinduizm) araşdırılması ilə bu ayinlərin ideoloji və konseptual prinsiplərinin bir çoxu öz-özünə aydınlaşacaqdır. Çünki, caynizm ayinində baş verən sonrakı dəyişikliklər ondakı bə'zi iradların, zəif nöqtələrin və çatışmazlıqların üzə çıxması kimi qiymətləndirilir. Bu ayinlərin tədqiqi həm də ona görə əhəmiyyətlidir ki, Qərbdə bir çox insanlar maddi həyatın əbəsliyindən məğlub olduqlarına görə asketik ruhlu hindus cərəyanlara üz tutmuşlar. Bu ayinləri araşdırmaqla, yanaşmaların düzgün olub-olmamasını anlamaq .olar

Caynizmin müqəddəs kitablarının tədqiqindən Mahaviranın ١٢ illik üzücü ruhi məşğələlərdən sonra nirvanaya, kamal və mütləq yetkinliyə (kivala) necə nail

olması, bu vüsalın əlamət və nişanələrinin onda necə əks olması dəqiq aydınlaşmır. Əlbəttə, onun bu mə’nəvi məqama qovuşmasının dəqiq zamanı və məkanı bəyan olunmuşdur: “ - ١٣-cü ilin yay fəslinin ikinci ayının dördüncü həftəsində, əşyaların kölgəsi gün çıxan tərəfə qayıtdığı zaman Riqopalike çayının şimal sahilindəki Qrimbəhikə-qrame şəhərində, Samaqa adlı şəxsin tarlasında bir ağacın yaxınlığındakı köhnə mə’bədin şimal tərəfində dizləri üstə başını aşağı dikib, fikir və düşüncə ”.dəryasına qərq olduğu zaman nirvanaya qovuşdu

Gördüyünüz kimi Mahaviranın nirvanaya qovuşmasının məkan və zamanına aid ən xırda məqamlar belə bəyan olunduğu halda, onun necə vüsala yetişməsi və əlamətləri haqda heç bir aydın söz deyilməmişdir. Bununla belə, Mahaviranın ardıcılları onu müqəddəsləşdirərək sitayiş etmiş və ilahi sifətlərə məxsus olan bir şəxs kimi anmışlar. Hinduslarin müqəddəs kitablarında deyilir: “ - Hikmətə nail olan Mahavira heç bir günah iş görmədi... O, günahlardan, meyllərdən uzaq qalaraq dərin təfəkkür və tərki ”.dünyalıqla məşğul olurdu

Eyni zamanda onun haqqında belə də deyilir: “ - O böyük zahid heç bir yaramaz əməl törətmədi. Dünyapərəstliyin və günahkarlığın cərəyanlarını bilən o vahid kəramət sahibi ... həmişə heyvanların öldürülməsi kimi günaha batmaqdan çəkinərdi... O ”.günaha batıracaq heç bir iş görmədi

Bu kitablarda Mahavira bütün günahlardan pak hesab olunduqdan, əslində ona ismət məqamı verildikdən sonra mütləq filosof və alim adı ilə sitayişə layiq görülür. Bu kitablarda deyilir: “ - O, bütün alimlərin fikirlərini bilirdi.”, “ - O, ucsuz-bucaqsız və ali bir .”elm sahibi idi.”, “ - Bu böyük ağıllı və zəkalı filosof imana, sonsuz elmə malik idi

Nəhayət, caynizmin müqəddəs kitabları Mahaviranı bəşəriyyətin ٢۴-cü və sonuncu .xilaskarı kimi qeyd edir

Caynizm ardıcıllarının inancına görə, həmin ٢۴ xilaskar öz tə`birləri ilə ٢۴ cayn - bir-birinin ardınca bəşəriyyətin nicatı üçün zühur etmişlər. Onların birincisi “rəsabha” adlanır və o, çox uzaq keçmişdə yaşayırmış. Onun tarixi mə’lum deyil, yalnız caynizm ayininin dini mətnlərində olan əfsanələrin bə’zisi onunla əlaqələndirilir. Sonrakı caynlar biri digərinin ardınca bəşəriyyətin xilaskarı zühur etmiş və ٢٣-cü caynın adı Barsəvanas

olmuşdur. Qeyd olunduğu kimi, onların ۲۴-cüsü Mahaviradır. Barsəvanas miladdan qabaq ۹-cu əsrdə dünyaya gəlmiş və ۸-ci əsrdə dünyadan köçmüşdür. O, bu cərəyanda çox çətin və kəskin rahiblik sisteminin əsasını qoymuş, öz ardıcıllarını ümumi və xüsusi olaraq iki dəstəyə bölmüşdür. Xüsusi şəxslər özlərini çətin ruhi məşğələlərə dözməyə vadar edən, dünyadan, ailə-uşaqdan üz döndərən, şəhər və kəndlər arasında səfil qalan rahib və mürtazlardan ibarətdir. Amma ümumilər isə bu ayini təsdiq edən, onun tərəfdarı və müridi olan sadə camaatdır. Ümumi dəstədən olanlar rahiblərin ehtiyaclarının tə'min olunması işini öhdələrinə götürür və çirkin işlərdən uzaq olmağı öz adətlərinə çevirirdilər. Ondan sonra əvvəlki caynların göstərişlərinə əsasən, eləcə də özünün ۱۲ illik asketik həyatından və təfəkkürlərindən əldə

etdiyinə əsaslanaraq bu ayinin ondan əvvəl misli görünməmiş bir nizam-intizamla sistemləşdirən Mahaviranın növbəsi gəlir. Bu ayinin ardıcıllarının inancına görə Mahaviranın zühur etməsi ilə onların nicat və qurtuluş ayini kamilləşmiş, başqa bir .xilaskara ehtiyac qalmamışdır

**SUALLAR**

?Mahavira hansı təbəqədən idi və nə üçün rahat həyatı özünə haram etmişdi .۱

?Kivala nə deməkdir .۲

?Caynizmin mə’nası nədir .۳

?Caynizm ayininə əsasən qurtuluşa nail olmağın yolu nədən keçir .۴

## ON İKİNCİ DƏRS

### (CAYNİZM AYİNİ (٢

### ƏQİDƏ VƏ ƏXLAQ

Ötən dərsdə qeyd olundu ki, caynizm əslində brahmanizmə (qədim hinduizmə) qarşı bir növ e'tiraz hərəkatı xarakteri daşımışdır. Bu e`tiraz "kasta" təbəqəli quruluşa, brahmanların istismarına e'tiraz olmaqla yanaşı, tənasüxdən (samsaradan) və ya ölüb yenidən başqa bir insanın, hətta xərçəng və ya bit kimi başqa alçaq varlıqların cismində zahir olmağın vəhşətindən qurtulmağa xidmət edirdi. Nəticə e`tibarı ilə caynizmin demək olar ki, bütün ideoloji və əxlaqi prinsipləri yuxarıda qeyd olunan iki əsas üzərində qurulmuşdu – istər brahman ayinindən götürülmüş prinsiplər, istər özlərinin yaratdıqları əqidəvi əsaslar, istərsə də onlar tərəfindən rədd olunan brahmanizm prinsipləri və onlara alternativ baxışlar məhz bu əhval-ruhiyyədə .formalaşmışdı

### MƏ`BUDA E`TİQAD

Kasta sinfi quruluşunu və xüsusilə də brahmanların üstünlüyünün ləğvi brahman mə'budlarına e'tiqad məsələsi caynizm tərəfindən aradan götürüldü. Belə ki, bu caynizmin ardıcıllarının inancına görə Allaha və mə'buda e'tiqad bəslənilməsi brahmanlardan və yaxud kahinlərdən olan yeni təbəqəni rəsmi olaraq qəbul etmək, camaatla mə'budlar arasında bir vasitə olduqlarına görə onlara ehtiram qoymağı tələb edir. Buna görə də onlar belə bir üstünlük və hökmranlığın yaranmasının qarşısını .almaq üçün mə'budlara e'tiqad prinsipini tamamilə aradan götürdülər

Mə'budlara e'tiqadın rədd olunması bir tərəfdən ibadət, dua və qurbanlığa riayət olunmamasına, digər tərəfdən isə brahmanların imtiyazının aradan qaldırılmasına səbəb olurdu. Çünki onlara göstərilən ehtiram və imtiyazları əsas e'tibarı ilə camaatla mə'budlar arasında vasitə olduqlarına görə idi. Caynizmin ardıcılları bu e'tiqadı inkar etməklə həmin vasitəçiliyi də rədd etmiş olurdular. Nəticədə onların nəzərində qədim dövrlərdən hinduslların arasında və hinduizm məktəbində mövcud olan brahman ruhani təbəqəsinin imtiyaz və nüfuzu da aradan götürülmüş olurdu. Bütün bunlara baxmayaraq caynizmə tarixi aspektdən nəzər saldıqda bu kimi e`tiqad və yanaşma

tərzi yalnız nəzəriyyə olaraq qalmış, bu dinin ardıcılları əməli olaraq həmin ideyaların əksinə hərəkət etmişlər. Bu mətləbi daha ətraflı izah etmək üçün bir neçə məqama :diqqət yetirmək lazımdır

Caynizm ardıcıllarının Mahaviraya bəslədikləri hörmət və məhəbbət tədricən onun .۱ şəxsiyyətini təriqət başçısı, qəhrəman fatehlikdən ilahilik məqamına qədər yüksələcək bir şəkil aldı. Belə ki, onu əbədiyyət, tükənməzlik, mütləqiyyət və sonsuzluq kimi sifət və xüsusiyyətlərlə xarakterizə etdilər (ötən dərsdə müqəddəs kitablardan mövzular nəql olunmuşdu) və Mahavira get-gedə bir mə’bud kimi öz ardıcılları tərəfindən sitayiş olunmağa başlandı. İş o yerə çatdı ki, bə’zən bu

ayindən ayrılan firqələr arasında Mahaviranın heykəl və bütlərini bütün ömrü boyu yaşadığı çılpaq şəkildə hazırlamaq və ya onun bədənini sadə və ağ bir paltara .bürünmüş halda təcəssüm etdirmək üstündə ixtilaf düşürdü

Keçən dərsdən göründüyü kimi ۲۳-cü cayn, yə’ni Barsəvanas öz ardıcıllarını “ümumi” .۲ və “xüsusi” olmaqla iki dəstəyə bölmüşdür. Belə bölgü sonralar da qalmışdı. Hətta ümumi dəstədən olanların əsas vəzifəsi xüsusi təbəqədən olanların, yə’ni rahib və mürtazların ehtiyaclarını tə’min etməkdən ibarət olmuşdur. Ümumi dəstədən olanlar inanırdılar ki, bu yolla nicat və qurtuluşa nail olacaqlar. Göründüyü kimi caynizmin hakim olduğu cəmiyyət əslində iki təbəqəyə – ümumi və xüsusi siniflərin şamil edildiyi təbəqələşmiş cəmiyyətə çevirmiş və bu təbəqələşmənin özünü də “xüsusilər” sinfinin .imtiyazları yaratmışdır

Caynizm ayininin əməli prinsiplərindən biri də dinclik, kompromis, kobud rəftar edib .۳ bir başqasına – hətta heyvanlara, kiçik canlılara və həşaratlara – əziyyət verməməkdir. Bu prinsip ona səbəb oldu ki, ilk növbədə caynizmin tərəfdarları brahmanizmin ardıcılları ilə dinc yanaşı yaşayışlarını sübut etmək üçün brahman mə’budlarını qəbul edərək onlara ehtiramla yanaşdılar. Çünki, əks təqdirdə təəssübkeş brahmanlara qarşı kobudluq və zorakılıq yolunu tutmalı idilər. Bu məsələ tədricən əsaslı və ideoloji məsələ halını aldı və mə’budlar caynizm ardıcılları tərəfindən hörmətli, müqəddəs sayıldılar. İkincisi, caynizm ardıcılları kasta sinifli cəmiyyətində yaşadıqlarına görə bu sinifli cəmiyyəti qəbul edərək onunla razılaşdılar. Onlar sinfi cəmiyyətə hakim olan dəyərləri inkar etdiklərinə görə brahman ayininin ardıcılları tərəfindən təzyiqə mə’ruz .qalmamaq üçün belə bir təbəqələşməni qəbul etdilər

## CİVA VƏ ACİVA

:Caynizm ardıcıllarının inancına görə varlıq aləmi iki növ reallıqdan təşkil olunmuşdur

;Ruhi subyektlər, yaxud civa adlanan ruh.۱

.Maddə və onun aciva adlanan bütün formaları.۲

Civa və acivanın hər ikisi əbədi və əzəlidir, məhv və puç olmurlar. Onlar heç vaxt yaranmamışlar və məhv olmayacaqlar. Dünya acivanın tələsində əziyyət çəkən

civalardan təşkil olunmuşdur. Caynizm e’tiqadına uyğun olaraq, civa və acivadan təşkil olunan təkcə insan deyildir, civa bütün varlıqlar, o cümlədən heyvanlar və cansız varlıqların tərkib hissəsidir. Orijinallıq və ilkinliyin civaya verilməsinə baxmayaraq o, həmişə acivanın çəngindədir. Civa və aciva arasında istənilən təmas civanın əzab-əziyyətinə səbəb olur. Buna görə də dünyadakı bütün mövcudat müəyyən mə`nada əzabvericidir. Bu əzablardan qurtarmaq üçün insana xas xüsusiyyətlərdən xilas olaraq varlığın sifətlərindən tam uzaqlaşmaqdan başqa yol yoxdur. Əks təqdirdə, maddi aləmə-zaman-məkana bağlılıq və mövcudluğu bildirimək əzab-əziyyət gətirəcəkdir. Beləliklə, Mahaviranın öz ardıcıllarına tövsiyə etdiyi çox çətin və asketik əxlaqi prinsiplər insani civanın acivanın bənd

və zəncirlərdən xilas olmasına, daha sonra isə qurtuluş və nicat tapmasına .yönəlmişdir

### KARMA VƏ SAMSARA

Brahmanların inancında karma, əvvəllər də qeyd etdiyimiz kimi, insani əməl və rəftarın hasili, nəticəsidir. Belə ki, əgər bir şəxs yaxşı əməl sahibi olsa karma yaxşı, pis əməl sahibi olduqda isə karma əzab və bədxasiyyət, alçaq cinsdən olar. Karma həmçinin sonrakı həyatda şəxsin kasta ictimai təbəqələrində yüksəlişinə, yaxud enişinə səbəb olur. Ancaq, caynizm e'tiqadına görə karma, principcə ruhla qarışan maddi bir reallıqdır və ruh onu əhatə edir. Başqa sözlə desək, insanın əvvəlki həyatda əməl və rəftar tərzi onun hazırkı cizmini, yə'ni acivanı tə'yin edir və ruhu (civanı) öz əhatəsinə alır. Əgər bir şəxs xeyir əməl sahibi və düz adam olsa, günahlardan, çirkin və yaramaz işlərdən çəkinsə, onun karması sonrakı həyatında civasının daha yüngül və rahat aciva daxilinə keçməsinə, aciva tərəfindən daha az əzab-əziyyətə düşməsinə səbəb olur. Əksinə, çirkin işlər görüb günaha batarsa, əks mütanəsib şəkildə, sonrakı həyatında daha ağır və çətin acivadan əziyyət çəkir. Belə ki, həşarat, bitki, hətta cansız varlıqların timsalında heyvani dünya səviyyəsinə düşməsi, bu halda onun civasının daha əzablı və daha çətin olması da mümkündür. Bu vəziyyət yenidən insani həyat səviyyəsinə .yüksəlmək üçün min illərlə davam edə bilər

Bu izahda da caynizmin həm karmanın yozumunun və həm də samsara barəsindəki baxışlarının brahman ayinindən tam fərqləndiyi görünür. Caynizm ayinində ruhun (civanın) yüksələn xətlə inkişaf yolunda tənasüxdən xilas olub nicat tapması mümkündür. Tənəzzülə doğru olan hərəkətdə də ruh insanlıq miqyasından çıxaraq heyvan, bitki hətta cansız varlıq səviyyəsinə enə bilər. Brahmanizmdə isə hər iki tərəfdən məhdudiyyət vardır, yə'ni insan inkişaf yolunda yalnız brahman təbəqəsinin mə'nəvi məqamına yüksələ bilər; tənəzzülə gedən yolda isə insan ictimai quruluşun dördüncü təbəqəsi səviyyəsinə, yə'ni şudralarin və ən çoxu paryaların səviyyəsinə .enər

### MUKŞA

Qeyd olunduğu kimi caynizm də mukşa bütün maddi və mə'nəvi asılılıqlardan

tamamilə azad olmağa deyilir. Yalnız belə olan halda insan tənasüxün, davamlı doğum və ölümlərin əzabından xilas olaraq əbədi qələbəyə və qurtuluşa nail ola bilər. Deməli, caynizm ilə brahmanın fərqi qurtuluş və ardıcıl doğumlardan xilas olmaq məsələsindədir və caynizmə görə bu böyük çətinliklərlə və asketizmə dözməklə mümkün ola bilər. Brahman ayinində isə tənasüxdən qurtulmaq və xilas olmaq prinsipcə mümkün deyildir. Bununla belə aşağı təbəqələrdəki həyatın çətinliyindən, bu təbəqənin vəzifələrini yerinə yetirməklə və yaxşı işlər görməklə xilas olmaq olar; sonrakı doğulmalarda daha yüksək təbəqəyə mənsub olan şəxsin

cismində zühur etmək olar. Belə olan təqdirdə daha rahat və yaxşı həyatdan, daha çox .sosial imkan və nüfuzdan faydalanmaq mümkündür

Caynizm ardıcılları insanın əzab-əziyyətinin səbəbini civanın acivadakı həbsində gördüklərinə görə, nicat tapmaq və mukşaya çatmaqdan, ruhun azad və xilas olması üçün bu hasarın uçurulmasını labüd hesab edirlər. Bu hasarın uçurdulması üçün isə insanın bütün duyğu, emosiya və istəklərdən uzaqlaşmasından, maddi aləmlə heç bir formada əlaqə və bağlılığın olmamasından başqa yol yoxdur. Bu məqsədə çatmaq istəyən rahib və yoqalar heç bir şeyə ikrah və ya məhəbbət bəsləməməlidir; heç bir şeydən sevinməməli, yaxud kədərlənməməlidir; istidən və ya soyuqdan ləzzət və ya narahatlıq keçirməməlidir; aclıq və susuzluq, xeyir və şər, yaxşı və ya pis qoxu, qorxu .və ümid və s. qarşısında heç bir hiss duymamalıdır

Əslində, insan bütün proseslər, meyl və istəklər qarşısında donuq bir halətə malik olmalıdır. Çünki, bu dünyanın hər hansı bir hadisə və varlığa nisbətdə baş verən azacıq emosional dəyişiklik və hisslər civa, yə'ni fərdi ruhun maddi aləmlə əlaqə qurmasına səbəb olmaqla qurtuluşa mane olur və bir daha maddi aləmə qayıtmaqla nəticələnir. .Şübhəsiz, orada onu daha çətin və əzablı dövr gözləyir

### (ƏXLAQ VƏ RƏFTAR PRİNSİPLƏRİ (NORMALARI

Qeyd olundu ki, caynizmə görə nicat və qurtuluş bütün maddi - dünyəvi asılılıqlardan qurtulmaqdan asılıdır.Bu da yalnız uzunmüddətli asketizmsiz mümkün deyil. Əslində yoqaların (niqrante) vəzifələrinin əsasını təşkil edən bu asketizmin mahiyyəti əziyyət verməyin tərk edilməsi, dünya və onda olanlarla əlaqənin kəsilməsindən ibarətdir. .Caynizmin digər əxlaq və davranış prinsipləri bu əsas prinsip üzərində qurulmuşdur

Caynizm ayinində yoqa üçün rəftar normaları müəyyənləşdirilmiş və əhd-peyman kimi .onlara mükəlləf olmalıdır

Mən bütün canlı varlıqları öldürmək və onlara əzab-əziyyət verməkdən . ١ çəkinəcəyəm, buna şadlanmayacağ; onlara əzab-əziyyət yetirilməsinə mane olacağam, sağ olduğum müddətdə bu əməli böyük bir günah hesab edəcək, cismən və ;ruhən, sözdə və əməldə ondan uzaq duracağam

Bu prinsipə əsasən yoqa yol gedərkən, yatarkən, yeyib-içərkən və s. hallarda heç bir canlıya əzab-əziyyət verməmək, danışanda onun sözlərinin heç bir kəsin narahatlığına .səbəb olmasın deyə ehtiyatlı olmalıdır

Mən qəzəbə, hərisliyə, qorxuya, yaxud şadlığa səbəb olan hər hansı bir söz və ya .۲ əməldən uzaq olacağam, yalan danışmayacağam, başqalarını da yalan danışmaqdan ;çəkindirəcəyəm

Mənə əta olunan hər bir şeyi - istər kənd, şəhər və ya meşədə olsun, istər az və ya .۳ ;çox olsun - öz şəxsi mülkiyyətimə keçirməkdən çəkinəcəyəm

Mən cinsi ləzzət və şəhvəti özümə haram bilirəm və bu işi başqaları üçün də .۴ ;bəyənmirəm

۵. Mən az və ya çoxluğundan, canlı və ya cansızlığından asılı olmayaraq, hər növ bağlılıqdan çəkinəcəyəm və başqaları üçün də belə bir maddi əlaqə və məhəbbəti məsləhət görməyəcəyəm.

Sonuncu prinsipə əsasən, yoqa heç bir şeyə qarşı müsbət və ya mənfi hiss bəsləməməlidir. Buna görə də gözəllik və çirkinlik, yaxşı iş və ya pis qoxu, qəm və şadlıq, soyuq və isti, aclıq və susuzluq və s. bütünlüklə onun nəzərində eyni səviyyədə olmalı, onların heç birinə qarşı heç bir xüsusi hiss keçirməməlidir. Nə bir şeydən ləzzət almalı və nə də bir şeyə ikrah hissi ilə yanaşmalıdır.

Beşlik təşkil edən bu göstəriş və iltizamlar yalnız xüsusi təbəqədən hesablanan yoqalar üçündür. Amma bu çətin və uzun əməl və prinsiplərə riayət etməyə qadir olmayan ümumi təbəqədən olanlar üçün aşağıdakı ۹ benddə şərh edilən daha asan və münasib əxlaq və rəftar normaları müəyyən olunmuşdur.

۱. Heç vaxt qəsdən canlını qətlə yetirməmək; Buna görə də qəssablıq, ovçuluq, aşpazlıq və s. kimi sənətlərdən çəkinməlidir;

۲. Heç vaxt yalan deməməli;

۳. Oğurluq etməməli, onlara verilməyən malı mənimsəməməlidirlər;

۴. Fitnə və günaha səbəb olan hər bir əməldən, hətta əylənmək məqsədi ilə olan səfərlərdən belə çəkinməli; Ehtiyatlı olmaq lazımdır ki, xəta və şər işlərin toruna düşməyəsən;

۵. Şəhvətpərəstlikdən uzaq olmaq; Buna görə də ər və arvad bir-birlərinə qarşı vəfalı olmalıdırlar;

۶. Dünya malının azına qane olmalı;

۷. Nəfsani istəkləri tərk edib maddi aləmdə zahidliklə məşğul olmaq üçün müəyyən bir vaxt ayırmalı;

۸. Bütün günlərdə müəyyən bir vaxtı öz daxili aləmində təfəkkürə sərf etməli;

.Hamıya, xüsusilə də yoqalara tam səmimiyyət və ixlasla sədəqə verməli .٩

* * * * * *

Yoqalara məxsus olan beş iltizamın ən çətini beşincisidir. Onun tələbinə görə yoqa heç bir şəxsə və heç bir şeyə meyl göstərməməlidir. Bu məqsədə çatmaq üçün kimsə ilə söhbət etməməli, hətta Mahaviranın rəftarında gördüyümüz kimi, başqalarının salamına cavab da verməməlidir. Digər tərəfdən də bütün dünya işləri ilə əlaqənin kəsilməsi yoqanın öz cisminə də şamil olduğundan, aclıq və susuzluğa reaksiya göstərməməlidir. Bu məsələdə iş yoqa özü aclıq və ya susuzluğun ağırlığından can verəcək səviyyəyə çatır. Buna görə də, ölümlə nəticələnən aclıq və ya susuzluğa .dözmək yoqalar arasında yayılmış adi haldır

Bu düşüncə tərzində iki əsaslı irad və qaranlıq məqam nəzərə çarpır. Birincisi, caynizm ardıcılları canlılara əzab-əziyyət verməməyi özlərinin ən mühüm seyr-süluk prinsiplərindən birinə çevirdikləri halda, hansı əsasa görə varlığın ən şərəflisi sayılan özlərinə qarşı əzab-əziyyəti, hətta intiharı belə rəva görürlər? Necə ola bilər ki, bu məsələni bir prinsip kimi qəbul etsinlər?! İkincisi, susuzluq və aclığa e’tinasızlıq bir prinsip sayılırsa, qidanı (azacıq olsa belə) tə`mini üçün başqalarının qarşısında kiçilmək ?və dilənçilik, yolçuluğu necə əsaslandırmaq olar

Çünki hər bir halda, insanı başqaları qarşısında məcbur edən qidaya olan ehtiyac .hissidir

Bu ayində dünyəvi asılılığın kəsilmə prinsipinin digər yönü çılpaqlıq və paltar geyməmək şəklində meydana çıxmışdır. Çünki caynizm ardıcıllarının inancına görə hər növ örtük və geyim dünyaya müəyyən mə`nada bağlılıq sayılır. Belə ki, maddi və dünyəvi işlərin bir növü olan, eləcə də həya və utancaqlığa görə geyilən paltarın özü .insanın ruhən azad olmamasına, müəyyən mə’nada asılılığına dəlalət edir

Burada aydın olmayan məqam bundan ibarətdir ki, bu məktəb həya, iffət və s. kimi fitri-əxlaqi fəzilətləri, insani dəyərləri inkar etməklə nicat və qurtuluşa necə nail ola bilər?! Əlbəttə, qeyd etmək lazımdır ki, çılpaqlıq məsələsinin özü də bu ayinin iki firqəyə :ayrılmasına səbəb olmuşdur

١. Riqembra adı ilə tanınan firqə mütləq şəkildə çılpaq olmağa e’tiqad bəsləyirdi;

٢. Aşutamblar adı ilə tanınan digər bir firqə isə sadə və yüngül paltar geyməyi lazım .bilirdi

### POLEMİKA VƏ TƏDQİQAT

Müəllimin istiqamətləndirməsi ilə, ümumiyyətlə varlıqların mütləq məhvini təsəvvür .etməyin mümkünlüyünü araşdırın

## ON ÜÇÜNCÜ DƏRS

### (BUDDİZM (۱

### BUDDA

On birinci dərsin girişində qeyd olunduğu kimi, hind-brahman cəmiyyətində brahmanların iki ideoloji-konseptual prinsipi tənqid və e`tirazla qarşılanırdı. İki prinsipdən biri karma və samsara, yaxud tənasüxdən ibarətdir ki, əhalinin ağrılı reaksiyasına səbəb olmuşdu. Bu əqidəyə görə, insanlar davamlı doğumlar və ölümlərdə əzab-əziyyətlərə, müsibətlərə dözməli idilər. Digəri isə kasta sinfi quruluşu və brahmanların daimi hökmranlığı idi. Caynizm və buddizm bu iki prinsipə reaksiya və mübarizə qismində formalaşmışdır. Bu iki ayin bir çox cəhətlərdən bir-birinə oxşar və yaxındır. Geniş yayıla və inkişaf edə bilməyən caynizmdən fərqli olaraq, buddizm daha artıq ardıcıl toplamaq yolunda uğur qazanmışdır. Bu din çox sür'ətlə Hindistan sərhədlərini aşmış və bu gün Hindistandan tutmuş Monqolustan, Çin, Yaponiya və .Myanmar (Birma), Tailand, Kamboca və s. ölkələrdə yüz milyonlarla ardıcıla malikdir

Bu dərs buddizm ayininin banisi olan Buddanın həyatı, zühuru və meydana gəlməsi .barədədir. Gələn dərslərdə isə buddizmin ideoloji və əxlaqi prinsipləri araşdırılacaqdır

Buddanın əsl adı Siddharhta, sülaləsinin adı isə Qautamadır. O, təqribən miladdan ۵۶۰ il öncə Hindistanın Benares şəhəri yaxınlığında anadan olmuşdur. Onun atası kşatrya təbəqəsindən idi və sakya qəbiləsinin əmiri sayılırdı. Deyilənlərə görə Siddharhta onun yeganə oğlu idi və buna görə də əmirlik vəzifəsini özündən sonra ona tapşırmaq istəyirdi. Bu məqsədlə onu dünyaya gəldiyi ilk çağlardan tam firavanlıq, asayiş və rifahda böyüyüb boya-başa çatması üçün dövrünün ən təcrübəli tərbiyəçilərinin nəzarəti altında saxlamışdır. Onun çoxsaylı dayələri olmuşdur. ۱۶ yaşında olanda atası onun üçün ۳ cah-cəlallı qəsr tikdirdi; O, hər fəsli onların birində keçirirdi. ۱۹ yaşında ikən qonşu əyalətlərin şahzadələrindən biri ilə ailə qurdu və bir övladı dünyaya gəldi. Deyilənə görə, Siddharhta gənclik çağlarında bir gün əylənmək üçün qəsrdən kənara çıxan zaman dörd gözlənilməz mənzərə ona böyük tə`sir etmişdir: əsasına söykənən əldən düşmüş bir qoca, ağrının şiddətindən qovrulan əlacsız xəstə kişi - ətrafındakılar nə ona kömək edə bilir, nə də ağrılarını azaltmaq üçün bir iş görə bilirdilər, üfunətli

iyinin hamıya əziyyət verdiyi cənazə və bir küncdə tam arxayınlıqla oturan, üzündə heç bir iztirab və təşviş hissi görünməyən zahid. Siddharhta həmin zahidlə söhbət üçün əyləşmiş, sakitlik, əminliyin yalnız insanın xəstəlik, qocalıq və ölümdən xilas ola biləcəyi .halda mümkün olduğunu öyrənmişdir

Həmin dövrə qədər firavan, sakit və sağlam həyat sürən, heç bir əzab-əziyyət və məşəqqət görməyən, əzabın dadını dadmayan şahzadə bu səhnələri gördükdə səh:٨١

həyatda yeni-yeni reallıqları, varlıq aləminin yeni-yeni təsvirləri gözü önündə canlanmışdır. O, artıq başa düşmüşdür ki, həyat əzab-əziyyətlərlə qarışmışdır; cavanlığın, şadlığın sonu qocalıq və ölümdür; yalnız zahidlik və təfəkkürlə bu qədər əzab-əziyyətlərdən xilas olmaq mümkündür. Bu zaman onda dərin psixoloji dəyişikliklər baş vermişdir. O, ailəsi və övladından, taxt-tacından və imarətdən əl çəkib zahidlik və rahiblik yolunu seçmək qərarına gəlmişdir. Buna görə də başını qırxmış, rahiblərə məxsus olan paltar geyinmişdir. Qədim hind kitablarından birində Buddadan belə nəql olunur: " - Qara saçlarıma dən düşmədiyi gənclik dövrümün gözəllik və qüdrətinə, məndən ayrıldıqlarına görə matəmə bürünərək ağlayan valideyn və qohumlarımın istəklərinə, xahişlərinə baxmayaraq saçlarımı qırxaraq əynimə sarı ".köynək geyinib pərişan və sərgərdan öz yurd yuvamdan çıxdım

Siddharhta öz seyr-süluk və həqiqətlərin kəşf olunması dövrünü insani əzab-əziyyətlərə cavab axtarmaqla başladı. Bu məqsədlə brahmanların qurtuluş üçün ən məqbul metodunu tətbiq etdi. Başqa sözlə, insanların varlıq aləmi ilə əlaqəsi barədə dərin düşüncələrə qərq oldu. Bu məqsədlə dağdakı bir mağarada yaşayan ٢ brahman filosof və yoqa qoşuldu. Ancaq, onların tə'limlərinin əsasları da onun ruhundakı yanğını söndürüb onun suallarına münasib bir cavab tapa bilmədi. Buna görə də asketizmlə məşğul olmağa başladı. Bu elə caynizm ardıcıllarının nicat və qurtuluş üçün tövsiyə etdikləri yol idi. O, altı il ciddi şəkildə zahidlik və asketizmlə məşğul oldu və bu müddət ərzində hər gününü bir neçə küncüd, düyü və ya bir meyvə ilə keçinirdi. Bu vaxt ərzində o qədər zəifləyib arıqlamışdı ki, bir dəri və bir sümükdən başqa ondan bir şey :qalmamışdı. Siddharhta bu dövrdəki fiziki vəziyyətini belə təsvir edir

Günümü bir meyvə ilə keçirdiyim dövrdə bədənim son dərəcə zəifləmişdi. Əllərim - " və ayaqlarım nazik çubuğa, fəqərə sütunlarım bir-birinə dolaşmış iplərə oxşayırdı; arıq qabırğalarım dərimin altında titrəyirdi. Gözlərim dərin bir quyunun dibindən işıldayan iki ulduza bənzəyirdi. Bədənimin və başımın dərisi istidən qurumuş balqabaq qabığı "...kimi qırışmıdı

O, bu qədər məşəqqət və asketizmə dözməsinə baxmayaraq, istədiyi nəticəni ala :bilmədi. Siddharhtanın özü bu barədə deyir

İnsan üçün dözülməz olan bu qədər məşəqqətlərə baxmayaraq, yenə də həqiqətin – “ dərkindən ibarət olan son məqsədimə və ali məqamıma çata bilmirəm. Nə edim? Bəlkə ”?məqsədə çatmaq üçün başqa bir yolla getmək lazımdır

Bir gün Siddharhta zəiflik və aclıqdan huşunu itirir. Onunla olan brahmanlar onun öldüyünə əmin olurlar. Lakin, bir müddətdən sonra ayılır, sürünə-sürünə özünü bir arxa çatdıraraq bir qurtum su içir və yenidən canı bədəninə qayıdır. Bu hadisədən :sonra özünə xitabən deyir

Belə nəfsani əziyyət və cismin tərk olunması son nəticədə məni məqsədə – “ çatdırmadı. Artıq cismimin ruhumu daşımağa taqəti yoxdur, ona azacıq yeməklə qüvvə ”.verməliyəm

səh:۸۲

Buna görə də dilənçi bir kasası götürərək və yemək dilənmək üçün yola düşür. Onunla yoldaş olan rahiblər bu vəziyyəti gördükdə onun yoldan azdığını, nəfsani istəklərə giriftar olduğunu təsəvvür edərək ondan ayrılırlar. Siddharhta bu mərhələdə dərin düşüncələrdən sonra belə bir nəticəyə gəlir ki, nicat və qurtuluşa çatmaq yolunda ən böyük sədd, maneə və insanın bütün bədbəxtliklərinin səbəbi onun nəfsani istəkləridir. İnsanı kamal və qurtuluş yolundan uğursuzluğa, məğlubiyyətlərə sapdıran da bu meyllər və həvayi-nəfsdir. Buna görə də nəfsani istəklərdən azad olmaq üçün mütləq təslimçilik və razılığa üz tutmalı, insanın nəzərində şadlıq və kədər, əzab-əziyyət və ləzzət eyni olmalıdır. O, bu həqiqəti tapdıqdan sonra artıq öz məqsədinə çatdığını, fəna mənzilinə - nirvanaya nail olduğunu hiss edir. Bundan sonra onu "budda", yə'ni "elm nuru ilə parlayan" adlandırdılar və bu ad onun, bünövrəsini qoyduğu məktəb və dində .də qalmışdır

Budda həqiqət axtarışları dövrünü dörd prinsip əsasında və həqiqət prinsipləri adı ilə :təqdim etmişdir

Birincisi, hər bir varlıq və vücud dərd və əzab-əziyyətlə çuğlaşıb. İkincisi, bütün əzab-əziyyətlərin səbəbi nəfsani istəklərə və həvayi-həvəslərə yönəlməkdir. Bu tələbat isə zatən heç vaxt tə'min olunmaz. Üçüncüsü, bu meylləri və nəfsani arzuları yatırtmaqla bütün ağrı-acılara məlhəm qoyulacaqdır. Dördüncüsü, istəkləri neytrallaşdırmaq, əzab-əziyyətlərə son qoymaq üçün mö'tədil bir yol seçmək lazımdır (Nə sırf təfəkkür .(və düşüncə, nə də tam asketizm və rahiblik yolu

:Bu mö`tədil mövqenin özü də səkkiz ünsür və ya mərhələdən ibarətdir

Düzgün iman, düzgün düşüncə, düzgün danışıq, düzgün əməl, düzgün yaşayış, düzgün .sə'y, düzgün diqqət, düzgün müraqibə

Budda bu barədə belə deyir: " - Mənim bu dörd müqəddəs və kamil həqiqətin hər biri barədə bilik və görüşlərim kamilləşən kimi nə asimanlarda, nə də yerdə ondan irəliyə gedilməyən üstün bir elmə yiyələndiyimə əmin oldum. İndi azadlıq mənim qəlbimdə kök salaraq möhkəmlənib. Bu mənim yekun vücudumdur. Mən yenidən dünyaya ".gəlməyəcəyəm

Beləliklə, Budda tənasüx (samsara) və davamlı doğumlardan fərqli bir şey olan həqiqəti kəşf etdiyinə əmin oldu. Buna görə də o, özünü əzab-əziyyətlərdən, .vəhşətlərdən xilas olmuş görür və nirvanaya qovuşmuş sayırdı

Bundan sonra Budda öz ayinini təbliğ etmək və camaatı ona də’vət etmək qərarına gəlir. Bu din ədalətsizlik və brahmanın sinfi quruluşu rədd etdiyindən caynizmin dözülməz asketizminə də icazə verilmədiyindən, digər tərəfdən tənasüx problemini həll etdiyi iddiasında olduğundan Hindistan cəmiyyəti tərəfindən geniş müdafiə olunaraq sür’ətlə yayıldı. Budda o dövrdə tezliklə öz ətrafında çoxlu ardıcıl toplaya bildi. Əvvəllər şagirdləri moizəsinə qulaq asmaq üçün ətrafına toplaşırdılar. Bir müddətdən sonra isə uzaq məntəqələrdə yaşayan camaat da onun moizələrini eşitmək istədiklərinə görə o, öz şagirdlərini moizə üçün müxtəlif məntəqələrə göndərməyə başladı. Yavaş-yavaş onun ardıcılları və müridlərinin sayı artmağa başladı; Budda onlar üçün “singə” adlanan monastırlar açdı. Bu

monastırlarda nizam-intizam yaratmaq üçün bir sıra qanunlar müəyyən edildi və hamı :bu qanunlar qarşısında bərabər idi. Həmin qanunlar aşağıdakılardan ibarət olmuşdur

Sarı paltar geymək, saçı və saqqalı qırxmaq, əlinə dilənçi kasası almaq, müəyyən bir saatda sükuta qərq olmaq (meditasiya), müraqibə və təfəkkürlə məşğul olmaq, aşağıdakı məzmunda olan bir zikri təkrarlamaq: " - Mən Buddaya qovuşuram və haqq şəriət olan dharmaya iman gətirmişəm, haqq şəriətə sığınıram və singəlin pənahında ".dinclik axtarıram

:Bu qaydalardan əlavə aşağıdakı on prinsipə də riayət olunmalı idi

;Canlıları öldürməkdən çəkinmək .١

;İnsanın ona əta olunmayan malı ələ keçirməkdən çəkinməsi .٢

;Həyasızlıq və pozğunluqdan uzaq olmaq .٣

$Vərh də yakaylay epau okvau .۴

;Sərxoşluqdan və şərab içməkdən uzaq olmaq .۵

;Çox yeməkdən və qarınquluîuqdan imtina etmək .۶

;Rəqs, musiqi və kef məclislərinə tamaşa etməkdən çəkinmək .٧

;Zinət əşyaları və ətirdən istifadədən, bəzənməkdən uzaq olmaq .٨

;Yumşaq yataqlarda yatmamaq .٩

.Pul (qızıl və gümüş) qəbul etməmək .١٠

Bu on prinsip buddizmin fundamental əsasları hesab olunur. Budda dininə inanan hər bir şəxs onlara dərindən inanmağa və riayət etməyə borcludur. Əgər qanunları pozarsa və bu prinsiplərin ziddinə iş görərsə, günahlarının yuyulması üçün öz dindaşları, monastır rahiblərinin iştirakı ilə ayda iki dəfə keçirilən yığıncaqda günahlarını e`tiraf etməlidir. Bu metodun xristianlıqla nə qədər oxşar olduğunu görürük. Bu ayin zaman baxımından xristianlıqdan əvvəl yarandığına görə buddizmin

onun tə’sirinə düşdüyünü iddia etmək olmaz. Bəlkə də demək olar ki, xristianlığı bürümüş təhriflərdən biri də buddizm dinində mövcud olan və sonradan xristianlığa .keçən “günahların e`tirafı”dır

Bu dərsin əvvəlində qeyd olunduğu kimi, Budda ilə caynizm dinləri arasında müəyyən oxşarlıqlar vardır. Belə ki, nicat və qurtuluş, tənasüxdən və ardıcıl doğumlardan xilas olmaq hər iki dinin məramlarındandır. Brahmanizmdə zülmkar kasta sinifli cəmiyyətindən xilas olmaq da bu iki dinin oxşar xüsusiyyətlərindən sayılır. Bundan əlavə, hər iki din bir sıra göstəriş, ideoloji prinsiplər və əxlaqi normalarda müəyyən oxşarlıqlara malikdir. Ancaq, bu iki dinin arasındakı əsaslı fərq rəftar üslubu və bu rəftarların me’yar və sərhədlərdədir. Nümunə kimi qeyd etmək olar ki, caynizm tam və ağrılı asketizm üzərində qurulmuşdur. Bə’zən bu asketizm ölüncəyə qədər davam etməli; onlar bütün cinsi və instinktual ehtiyaclardan çəkinməlidirlər. Bu ayində nəfsani şəhvət və instinktlər insani dəyərlərə zidd hal kimi qiymətləndirildiyi halda buddizmdə ən mühüm məsələ dünyəvi ləzzətlərdə və maddi işlərdə ifratçılıqdan çəkinməkdir. Bu ayində çox çətin asketizm də tövsiyə olunmamışdır və bunun müqabilində hər bir işdə mö’tədillik məsləhət görülür. Yə’ni, caynizm ayininin əksinə olaraq, burada cinsi səh:۸۴

ehtiraslar mütləq şəkildə qadağan olunmur, yalnız fahişəlik, zinakarlıq yasaqlanaraq ondan çəkindirilir. Buddizmdəki bu liberallıq və mö`tədillik onun sür'ətlə genişlənib inkişafına səbəb oldu. Cəmiyyətin bütün təbəqələrindən olan insanlar bu dini qəbul edərək "singələrin" – Budda monastırlarının inkişafı və genişlənməsi üçün külli miqdarda vəsaitlərini böyük həvəslə hədiyyə və nəzir kimi təqdim edirdilər. Caynizm buddizmdən bir əsr öncə meydana gəlməsinə baxmayaraq, özünə çoxsaylı tərəfdar toplaya bilməmişdi. Belə ki, bu gün həmin dinin ardıcıllarının sayı ۱۲-۱۳ milyon nəfərdən .artıq deyil

Nəhayət Budda ۳۵ il moizədən və öz ayinini təbliğ etdikdən sonra ۸۰ yaşında öldü. Buddizm mənbələrində qeyd olunur ki, o, ölümündən qabaq öz ardıcıllarına etdiyi :axırıncı tövsiyəsində demişdir

İndi ey qardaşlar, agah olun ki, hər bir mürəkkəb varlığın yoxluq və fənaya – " ".uğraması qəti və mütləqdir; sə'y və zəhmətlə öz xilasınızı tapın

**SUALLAR**

?Budda nicat və qurtuluşa çatmaq üçün hansı yolları keçdi .۱

?Buddaya görə insanların əzab-əziyyətlərinin əsas amili nədir .۲

?Budda əzab-əziyyətdən və möhnətdən xilas olmaq üçün hansı yolu təklif edir .۳

?Budda və caynizm arasında hansı oxşar və fərqli xüsusiyyətlər var .۴

## ON DÖRDÜNCÜ DƏRS

### (BUDDİZM (٢

### ƏQİDƏLƏRİ

Keçən dərsdə qeyd olundu ki, buddizm əqidə və tə'limlərinin əsasları həyati çətinliklərə, ondan xilas olma yollarına aiddir. Bu dərsdə bir daha həmin məsələni .araşdırırıq

Buddanın özü tənasüxdən, ardıcıl doğulmalardan xilas olmaq, dünyəvi əzab-əziyyətlərdən qurtarmaq üçün uzun-uzadı və üzücü asketizmə üz tutmuş, qurtuluş mərhələsinə nail olduqdan sonra öz ayinini təbliğ edib yaymağa başlamışdır. O, bütün zəhmət və sə`ylərini insanın əzab-əziyyətlərinin səbəbini və bundan qurtuluş yollarını öz ardıcıllarına açıqlayıb izah etməyə çalışırdı. Buna görə də buddizm tə'limlərinə .hakim olan ruh, kəlami və fəlsəfi olmaqdan daha çox psixoloji və əxlaqidir

Buddanın tə'lim verdiyi ilk qrup əvvəl ondan ayrılan, lakin nirvanaya qovuşduqdan sonra Buddaya qoşularaq onun şagird və müridlərindən olan ٥ rahib olmuşdur. Budda onlara xitab edərək deyərdi: " - Qulaqlarınızı açıb eşidin ey rahiblər! Ölümdən xilas yolu tapılmışdır. Bunu mən sizə öyrədəcəyəm." Sonra dörd ali həqiqəti onlar üçün şərh etmişdir. Bu dörd ali həqiqət əslində onun dəfələrlə ardıcıllarına izah etmiş olduğu buddizmin əsas ideoloji prinsiplərini təşkil edirdi. O, rahiblərə müraciətində bu dörd :prinsipi belə bəyan edir

Ey rahiblər! Ümumbəşəri əzab-əziyyətin ali həqiqəti budur: doğulmaq doğrudan da" .١ əzabdır, qocalıq əzabdır, xəstəlik əzabdır, ölüm əzabdır, xoşagəlməz şeylərlə birgə olmaq əzabdır, xoşa gələn şeylərdən uzaqlaşmaq əzabdır, arzulara çatmamaq ".əzabdır. Bir sözlə - dünyaya bağlılıq əzabdır

Ey rahiblər! Əzabların mənşəyinin ali həqiqəti budur: əzabların mənşəyi ikinci dəfə" .٢ doğulmaqla nəticələnir, şəhvət, arzu və meylləri yaradan; hər bir yerdə arzularına nail olmaq və xoş güzərana çatmaq istəyən nəfsani istəklərdir. Nəfsin həmin o arzuları ".bunlardır: şəhvət yanğısı, varlıq yanğısı və hakimiyyət yanğısı

Ey rahiblər! Əzablardan xilas olmağın ali həqiqəti budur: əzablardan xilas olmaq elə“ .۳ nəfsani arzulardan xilas olmaq deməkdir. Onu tərk etmək, ondan üz döndərmək, ondan azad olmaq və ondan qırılmaqdır. Ondan elə ayrılmaq lazımdır ki, heç bir əsər-".əlamət qalmasın

Ey rahiblər! Budur ali həqiqət, budur əzab-əziyyətdən qurtuluşa aparan yol! O yol“ .۴ əslində həmin səkkiz yoldur...” (Səkkiz yol barədə keçən dərslərdə qısaca bəhs olunub, .(növbəti dərsdə onlar haqda ətraflı mə`lumat veriləcək

Buddanın əqidəsinə görə, insan həyatında əzab-əziyyət və qəm-qüssə şadlıqdan daha çoxdur. Hətta Buddanın “ - Doğulub dünyaya gəlməsəydim daha yaxşı olardı” dediyi dərəcədə çoxdur. O, inanırdı ki, insanların öz əzizlərini itirməyin dərd-qəminə görə .axıtdıqları göz yaşları dörd okeanın sularından daha çoxdur

Ancaq, bir gün şagirdlərdən biri onun bu qəbil tə’limlərindən “ – Mənə elə gəlir ki, qəm-qüssədən qurtarmaq üçün intihar etmək lazımdır”- qənaətinə gəldikdə Budda bu nəzəriyyəni qətiyyətlə rədd edərək cavab vermişdir: “ – Özünü öldürmək faydasızdır; çünki ruh bu dünyada paklaşmasa, hökmən sonrakı tənasüxlərdə yenidən doğulacaq və sonrakı həyatda məşəqqəti davam edəcəkdir.” Buna görə də o, əzab-əziyyətdən qurtarmağın yeganə yolunu daxili və ruhi paklaşmada görürdü. Belə olan halda .insanın şadlıq, asayiş sahilinə çatmasını mümkün hesab edirdi

Buddistlərin müqəddəs kitabı “Damapada” qəm-qüssənin, dünyaya bağlılıq və asılılığın əsas amili hesab olunmaqla asılılıqlardan yaxa qurtarmağın mütləq sevincin rəhni olduğu göstərilir. “ – Qəm-qüssə də, qorxu da sevinc və şadlıqdan yaranır. Hər kəs şadlıqlardan xilas ola bilsə, qəm-qüssənin əsarətində olmasa qorxu nədən yaranar?”, “ – Dünyaya yuxulardakı bir köpük və ilğım kimi bax; ölüm mələyi dünyaya belə bir nəzərlə baxan şəxsi görməz”, “ – O kəsi həqiqi brahman hesab edirəm ki, samsaranın və əhrimənin kələ-kötürlü yolunu keçmiş olsun, bu dünyanı, onun əbəs işlərini adlayıb sonuna çatsın və onun sahilinə qədəm qoysun. İstək və meyllərin əsarətindən xilas olub diqqət məqamına çatsın; şəkk-şübhədən azad olsun, varlıq əsarətindən qurtarsın və ruhi sakitlitk qazansın.” Bunun ardınca deyilir: “ – Əsil şadlıqda hər bir düşmənçilikdən uzaq asayişdəyik. Bu düşmənçilik dünyasında kin-küdurətli camaatın arasında kinimiz yoxdur. Əsil şadlıq və asayişdəyik; xəstələr arasında sağlamıq, xəstəliklər içrə heç bir xəstəliyimiz yoxdur. Əsil şadlıqda və asayişdəyik; əzab-əziyyət çəkənlərin qəm-qüssəsindən azadıq, əzab çəkənlərin arasında heç bir kədərimiz yoxdur. Şadlıq və sevincə heç bir bağlılıqları olmayan mütləq şadlıqla həyat sürə ”...bilər

Budda insanın əsas çətinliklərinin fəlsəfi və nəzəri bəhslərdə deyil, idrak və hisslərdə görür. O deyir: “ – İnsan bütün sə’y və bacarığını istəklərinə, şəhvət və ehtiraslarını dərk edib onlara hakim kəsilmək üçün sərf etməlidir. Çünki insanın həqiqi xeyir və mənfəəti də bu işlərdədir.” Bu barədə deyir: “ – Mən nə haqda danışmışam? Mən bədbəxtlik və ehtiyac barədə danışmışam. Bədbəxtliyin mənşəyini izah etmişəm. Nikbətli aqibət barəsində danışmışam, eləcə də ümumbəşəri bədbəxtlik, nikbət və yoxsulluğa son qoyan iman barədə izah vermişəm. Nə üçün məhz bu məsələləri önə

çəkmişəm? Çünki fayda yalnız bunlardadır. Bunlar dinin əsas bünövrələridir, insanı dərd, əzab və məşəqqətlərdən nicat və mütləq ağıl və nirvana yoluna yönəldər.” Sonra deyir: “ – Mən aləmin qədimliyi, dünyanın əzəli olması barədə izah, varlığın məhdud və ya qeyri-məhdud olması haqda heç bir şərh verməmiş, ruhla cismin vəhdəti, kamal mərhələsinə çatdıqdan sonra onun əbədi qalması barədə heç bir şey deməmişəm. Kamil insanın ölümdən sonra qalması və ya məhvi barədə söhbət açmamışam. Çünki ”.bu kimi bəhslər dinin əsası deyildir

Bu məsələləri qaldırmaqla Budda əslində öz e’tiqad və təfəkkürünün əsas prinsiplərini təqdim etmişdir. O, öz əqidəsinə görə dinin əsaslarına aid etmədiyi

mövzu və bəhslərdən yan keçərək onlara heç bir münasibət bildirməmişdir. Buna görə də əzab-əziyyətdən xilas olaraq kamal və qurtuluşa çatmaq üçün Buddanın təklif etdiyi yol və metod da - yuxarıda göstərilən mövzu və məsələləri öyrəndikdən sonra - .nəfsin təmizlənməsi, bütün maddi-şəhvani-nəfsi istəklərdən çəkinməyə əsaslanır

Əlbəttə, Budda bütün bu məsələlərdə ədalətə riayət olunmasını əsas şərt hesab edir (bu bəhs sonrakı dərsdə araşdırılacaq). Onun fikrincə, fəlsəfi bəhslərlə məşğul olmaq əbəs və bihudə bir işdir, onlardan mümkün qədər çəkinmək lazımdır. Onun ayini də bu kimi məsələlərdə bitərəf mövqe tutur. Buddanın hindlilərin diqqət və maraq göstərdikləri bə'zi e'tiqadlara, o cümlədən mə'budlara e'tiqad, mə'budlar üçün qurbanlıq kəsmək, razi-niyaz edib onların qarşısında ibadət etmək kimi məsələlərə diqqət yetirməyib susması təəssübkeş hinduslarin Buddanı dinsizlikdə ittiham etməsinə səbəb oldu. Bununla belə, onun doğrudan da allaha və mə'budlara .inanmaması, yaxud imanlı bir şəxs olması namə`lumdur

İzah edilməli olan məqam budur ki, bə`zi dinşünaslar, o cümlədən Radha Krişnan ümumiyyətlə Buddanın kamil bir dinin əsasını qoymaq fikrində olmadığını; onun qəlbini narahat edən məsələnin yalnız insanların qarşılaşdıqları çətinliklər, əzab-əziyyət və bunlardan çıxış yolu olması qənaətindədirlər. Buna görə də zahidlik, dünyəvi bağlılıqlardan çəkinmə, nəfslə mübarizə və düşüncəyə əsaslanan bir ayin yaratmışdır. Sonralar ardıcıllarının çoxalması və inkişaf edib genişlənməsi nəticəsində müasir buddistlərin mə'bədi sayılan "təfəkkür və müraqibə" monastırları tikilmiş, bu ayinə bə'zi əxlaq normaları və prinsiplər əlavə edilmiş və tədricən müəyyən bir din formasını almışdır. Bu baxımdan, böyük dinlərdə araşdırılan dinlərin mövqelərinin açıqlandığı bir çox məsələlərdən Budda ayinində bəhs olunmur. Buddizmdə allaha, ölümdən sonrakı dünyaya inanıb-inanmamaq, istəklərin vahid allahdan, yaxud çoxsaylı mə'budlardan dilənməsi, razi-niyaz etmək və s. məsələlərdən sükutla keçmişdir. Hətta, Buddanın söylədiyi söz və yozumu onun qeyd olunan məqamlara riayət etməməsini xatırladır. Misal olaraq onun öz çıxışlarının birində Allahı görmədiyi halda onun barəsində danışan şəxsi məsxərəyə qoyduğunu göstərmək olar. Budda elə insanları öz mə'şuqunun eşqində qərq olan, amma onun kim olduğunu bilməyən bir aşiqə bənzədir. Məhz bu kimi ifadələrə görə müasirləri olan brahmanlar onu dinsizlik və mürtədlikdə ittiham

etmişlər. Əlbəttə, Buddanın qeyd etdiyi tə’birləri irfani baxımdan əsaslandırmaq olar. Çünki, müsəlman ariflər də öz kəlamlarında bu kimi ifadələrdən istifadə etmişlər. Ancaq, bilmək lazımdır ki, İslam irfanı ilə buddizmin fərqi yuxarıdakı məsələ barədə İslam irfanının “haqqın görünməsi”ndən söz olaraq Allahı çağıran, ancaq, Onu şühud etməyən şəxsi etdiyi halda buddizm bu məsələnin üstündən sükutla keçmiş və Tanrı .barədə danışmağı öz səlahiyyəti çərçivəsində bilməmişdir

Digər tərəfdən, buddizmin allah məsələsinə diqqət yetirməməsi əvvəla, Buddanın ardıcıllarının ondan sonra bu məsələ barədə dərindən düşünmələrinə və allaha qovuşmaq üçün yol axtarmaqlarına səbəb oldu. Bu arada onlardan bir qrupu

Buddanın ümumiyyətlə insan deyil, fövqəlinsan olması nəzəriyyəsinə meyl etdi. Buna görə də ona ilahi sifətlər aid edib sitayiş predmetinə çevirdilər. Bu e’tiqada əsasən Budda qədim varlıq, mütləq bilik, mütləq elm, mə’budların və bəşəriyyətin xilaskarı kimi təqdim olunurdu. Müasir buddist mə’bədlərində Buddanın çoxsaylı heykəlləri sair şərq dinlərində, o cümlədən hinduizmdə mövcud olan mə’budları, bütləri əvəz etmiş .və onun ardıcılları öz dini rituallarını həmin heykəllərin qarşısında yerinə yetirirlər

## KARMA VƏ SAMSARA

Karma və samsara qanunu da buddizmin ideoloji prinsiplərindəndir. Bu iki prinsip əslində brahman ayinindən götürülmüş sonradan müəyyən dəyişikliklər və əlavələr .edilmişdir

Buddanın e’tiqadına görə, insan hansı təbəqə və hansı sinifdən olmasına baxmayaraq, öz ruhunda və nəfsində elə dəyişikliklər yarada bilər ki, həyatının keçmiş dövrlərindəki çirkin əməl və günahların aqibətindən xilas olsun. Bu prinsipə əsasən, insan öz nəfsani istəklərinə və ehtiraslarına tamamilə qələbə çalıb “ərhət” (kamil insan) mərhələsinə çatarsa, karma qanunu onun üçün tə’sirini itirəcəkdir. Artıq o, bundan sonra ardıcıl doğumlar nəticəsində kastanın dörd təbəqəsi arasında enib-yüksəlməyə məhkum olmayacaqdır. Həyat və əbədiyyətə meyilli olan, öz maddi bağlılıqlarına sadiq qalan şəxslər isə öldükdən sonra öz nəfslərini kamilləşdirmək üçün yenidən dünya həyatına .nazil olmağa məcbur olacaqlar

Digər bir prinsip olan samsara (tənasüx) əsasən ruh bir cismdən digər bir cismə keçə bilər. Əlbəttə, bu yozum Buddanın nəzərincə zehni və mə’nəvi anlayışa bənzəyir. Buddist kitablarının birində deyilir: “Sultan Milində həkim Nagsinədən soruşur: - Birinci cismdən ikinci cismə heç bir şey varid olmadan, yenidən doğulub həyat sürmək ?mümkündürmü

.Həkim cavab verir: - Bəli

.Şah deyir: - Misal göstər

Həkim deyir: - Kimsə şamı başqa bir şamın işığında yandırdıqda, birinci şamın işığı ?ikinci şamın cisminə keçirmi

.Şah deyir: – Xeyir

.Həkim deyir: – Həyatın yeniləşməsi də buna bənzəyir

Həkim başqa bir misal göstərib deyir: –Müəllim öz şagirdinə bir şey öyrətdikdə, elm və ?kəlam onun cismindən şagirdin cisminə varid olurmu

.Şah deyir: – Xeyir

Sonra həkim izah edərək deyir: – Yenidən doğulma da eynilə müəllimin dilindən şagirdin yaddaşına keçən zehni bir anlayış kimidir; bu halda müəllimin ruhu və cisminin ”.maddəsi şagirdə nəql olunmur

Eyni zamanda Budda inanırdı ki, insanın ruhu və nəfsi maddi asılılıqlardan qurtarıb fəna mərhələsinə və nirvanaya çatdıqda, ruh və cismindən heç bir şey qalmır ki, .ölümdən sonra insanın cismindən başqasının cisminə keçə bilsin

Nirvana” sanskrit dilində şamın və çırağın sönməsi kimi “sönmüş” mə’nasında işlənən“ sözdür. Buddizm inanclarına görə insan öz nəfsani istəklərini, dünyəvi asılılıqlarını söndürməklə dünyanın əzab-əziyyətindən və yeni doğulmalardan yaxa qurtarıb fəna mərhələsinə nail olur. Bu mərhələ buddizmdə son səadət və qurtuluş kimi təqdim .olunmuşdur

## SUAL VƏ TAPŞIRIQLAR

Budda əzab-əziyyətdən qurtarmaq üçün intiharı düzgün yol hesab edirdimi? Nə . ١ ?üçün

?Buddanın fikrincə insan şadlığa nə zaman nail ola bilər .٢

?Buddanın allah barədə fikri nədir .٣

?Buddanın ardıcılları ölümündən sonra onu hansı məqamda görürdülər .۴

.Buddanın dörd ali həqiqətini qısaca bəyan edin

## ON BEŞİNCİ DƏRS

## (BUDDİZM (٣

### ƏXLAQ

Keçən dərslərdə buddizmin əsas məqsəd və məqamı insanı dünyanın qəm-qüssə, əzab-əziyyətlərindən xilas etmək olduğunu öyrəndik. Sonra bəyan etdik ki, Budda bu məqsədə çatmaq üçün dörd həqiqəti çıxış yolu kimi təqdim etmişdir. Bu dörd həqiqətin ortaq xüsusiyyəti vücud baxımından insanın varlıq aləminə bağlılığı onun bütün əzab-əziyyətlərinin əsas amili olmasındadır. Bu baxımdan buddizmin varlıq aləmi haqdakı baxışları müəyyən mə`nada bədbinlik və pessimizmlə qarışmışdır. Belə ki, bu ayinin əxlaqi tövsiyələrinin çoxu arzuların tərk edilməsi, istək və meyillərin cilovlanmasına dəlalət edir. Bu ayinin tə`lim və göstərişlərinin mənfi, məhrumedici xarakterinə baxmayaraq, müsbət yönlü tövsiyələr də gözə çarpır. Belə ki, bir sıra müsbət əxlaqi .keyfiyyət və dəyər nəzərə alınmış, onların yerinə yetirilməsi tövsiyə olunmuşdur

Buddanın ən mühüm əxlaqi norması eyş-işrəti tərk etmək və ehtirasdan, şəhvətdən çəkinməkdir. Belə ki, bu qəbildən olan işlər insanın sonsuz əzab-əziyyətlərinin əsas :amili sayılmışdır. Buddanın özü bu barədə belə demişdir

Həyatda üzləşdiyimiz əzab-əziyyətlər şəhvətpərəstliyin və ləzzət axtarmağın zəruri“ nəticəsidir. Buna görə də, nəfsi bu buxovlardan tamamilə azad etmək və bu hissi özündən təmizləmək lazımdır. Başqa sözlə, həyacan və narahtılığa səbəb olan ”.istənilən meyl və istəklərin tərk edilməsi vacibdir

Bilmək lazımdır ki, buddizm tə `limlərinin ehtirasların tərk olunması, ləzzət və şəhvətlərdən çəkinməyə aid olan hissəsinə böyük ilahi dinlər və əxlaqi məktəblərin çoxunda da diqqət yetirilmiş, kamillik və səadətə nail olmaq üçün onların tərk olunması tövsiyə edilmişdir. Ancaq, buddizmin başqa dinlərdən fərqi bu əxlaq məktəbinin həmin məsələdə ifrata varması, qadın, övlad, sərvət, elm və s. kimi digər bağlılıqlar da bəyənilməmiş, məzəmmət olunmuşdur. Bu işlər insanı məşğul etdiyindən, onların yoxluğu qəm-qüssəsinə səbəb olduğundan, bununla da səadət və xoşbəxtliyə çatmasına mane olduğundan və nəticədə sonu görünməyən ardıcıl ölüm və doğum

.dolanbacına düşməyə məcbur etdiyi üçün Budda onların tərk olunmasını əmr etmişdir

Bu barədə Buddanın həyatından bir əhvalat nəql olunur: “Bir gün öz övladını itirdiyinə görə ah-nalə edən, göz yaşları axıdan bir qoca qarı Buddanın yanına gəlir. Budda bir qədər ona baxır, sakitlik və soyuqqanlılıqla soruşur: - Bu şəhərdə neçə nəfər yaşayır? Qadın ona cavab verir. Onda Budda deyir: - Ey ana! Bu şəhərin bütün sakinlərinin sənin övladların olmasını istəyirsənmi? Qadın cavab verir: - Əlbəttə ki, istərdim. Budda cavab verir: - Sənin bu qədər övladın olsa, gərək hər gün onlardan bir neçəsini itirdiyinə görə qəm-qüssəyə batasan. Çünki, hər gün bu şəhər əhalisindən neçə nəfər ölür. Qarı fikrə gedir, sonra Budda ona deyir: - Yüz nəfər yaxın, əziz adamı olan onlardan ayrıldıqda -da yüz dəfə qəm

qüssə çəkməlidir. Əzizlərinin sayı doxsan nəfər olsa, doxsan dəfə, bircə əzizi olan şəxs yalnız bir dəfə ayrılıq əzabını çəkər. Nəhayət, həmin şəxs qohum-əqrəba məhəbbətini ”.qəlbindən silsə ümumiyyətlə əzab-əziyyətdən xilas olacaqdır

Buddanın fikrincə, çəkiniləsi xoşagəlməz işlər həddindən artıqdır. Ancaq, onların hamısı on məsələdə toplanmışdır. Bunlara “onluq zəncirlər” deyilir. Bu zəncirlər insanın səadət və qurtuluşa nail olması yolunda maneədirlər. Onları tam qətiyyət və iradə ilə :qırıb atmaq lazımdır. Həmin on zəncir aşağıdakılardır

;Nəfsi sevmək .۱

;Şəkk-şübhə .۲

;Dini ayinlərdə adətlərə inam və rəsmiyyətçilik .۳

;Şəhvət .۴

;Qəzəb .۵

;Yenidən doğulma və ideal vəziyyətdə tənasüx arzusu .۶

;Yenidən doğulub mücərrədlər aləmində yaşamaq arzusu .۷

;Təkəbbür və qürur .۸

;Xudbinlik və eqoizm .۹

.Cəhalət və nadanlıq .۱۰

Öz nəfsini bu zəncirlərdən xilas edə bilən kimsə əslində ozünü hər arzu, təmənna, .aludəçilik və asılılıq əsarətindən təmizləyib mütləq sakitlik və asayişə nail olar

Budda bu məqama çatmaq üçün səkkiz mərhələdən ibarət olan seyr-süluk üslubunu :təqdim edir

Düzgün iman; Burada dördlük təşkil edən ana həqiqətə tam iman və öz həyatını ona .۱ ;uyğun qurmağa əzm və iradə göstərmək nəzərdə tutulur

Düzgün düşüncə; Burada cismani şəhvətlərin tərk olunması məsələsində dönməz .۲ əqidə, başqalarına qarşı həqiqi məhəbbət bəsləmək, canlılara əzab-əziyyət ;verməmək və bədbəxtliyə səbəb olduğuna görə arzuları tərk etmək başa düşülür

Düzgün danışıq və Düzgün rəftar; Burada əbəs və yersiz sözlərdən çəkinmək, .۳-۴ xoşagəlməz əməlləri tərk etmək nəzərdə tutulur. Buna əsasən, insan bütün yaranmışları sevməli, sədaqətli dostluğu ilə öz rəftar və sözlərində onlara məhəbbətini ;göstərməlidir

Düzgün yaşayış; Yə’ni hər bir şəxsin müəyyən bir məşğuliyyəti, peşəsi olmalı, öz .۵ enerjisini və vaxtını ona sərf etməlidir. Əlbəttə, bu peşə və məşğuliyyət buddizmin əsas prinsipləri ilə ziddiyyət təşkil etməməlidir. Məsələn, qəssablıq birinci əxlaqi prinsipə, yə’ni canlıları öldürməmək əqidəsi ilə uyğun gəlmir və ona görə də tərk ;edilməlidir

Düzgün sə’y; Hər bir şəxs haqqı batildən, zərərli istəkləri faydalı məqsədlərdən ayırd .۶ etmək, xoşagəlməz meylləri bəyənilən bağlılıqlardan seçmək üçün öz fiziki və əqli ;gücünü işlətməlidir

Düzgün düşüncə; Hər bir şəxs öz təfəkkür və düşüncə qüvvəsini davamlı müsbət .۷ vərdişlərə öyrətməli, sutkanın müəyyən saatlarını ali-insani məqsədlər barəsində ;düşüncə üçün ayırmalıdır

Düzgün müraqibə. Bu son mərhələdir və onun əsnasında bu yolu gedən şəxs .٨ Buddanın öyrətdiyi həqiqətlər ətrafında davamlı təmərküz və müraqibə yolu ilə (dörd həqiqət) ərhət (kamil insan) adlanan məqama çatır. Bu halda salik və rahib tam .fənalığa və mütləq paklığa (nirvanaya) nail olur

Bura qədər bəyan olunanlar buddizmin əxlaq və davranış tə`limlərinin mənfi, məhrumedici xarakterli prinsipləri idi. On üçüncü dərsdə qeyd olunan on ideoloji prinsip isə bu ayinin mənfi xüsusiyyətlərinə aiddir. Ancaq bu dində müsbət əxlaq normaları da nəzərdə tutularaq tə`kid olunmuşdur. Bu xüsusiyyətlərdən biri də ərhət məqamına çatmağın əlamət və sifətlərindən sayılan yaranmışlara mərhəmət və hamıya qarşı xeyirxahlıq hissidir. Bu məqama nail olan şəxs xoş məram, daxili saflıq və pak qəlblə bütün insanlar üçün xeyir və yaxşılıq istəməlidir. Budda bu barədə belə :deyir

Hamı səhra heyvanları kimi dolanmalı, kərkədan tək evsiş-eşiksiz, əhli-əyalsız“ yaşamaqla ömrünü nəfsini təkmilləşdirmək yolunda sona çatdırmalıdır. Lakin, eyni zamanda şəfqət və mərhəmət kimi bəyənilən sifətləri özündə tərbiyə etməli, ömrünü məxluqata xidmət və yaxşılığa həsr etməlidir. Elm öyrənib öyrətmək, gözəl nəsihətlərlə insanları nicat və qurtuluş yoluna yönəldib rəhbərlik etməli və öz körpəsinə mehriban olan bir ana kimi bütün insanlara qarşı mehriban olmalıdır. Ana öz körpəsini qorumaq üçün öz canını belə fəda etməyə hazır olduğu kimi, o da öz batinini insanlara qarşı o qədər məhəbbət və xeyirxahlıqla doldurmalıdır ki, yaranmışların nicatı üçün öz maddi canını əsirgəməməlidir. Hər yerdə, hər nəyi varsa pak və səfalı ”.qəlblə, aludəlikdən, xudbinliklərdən uzaq olmaqla onlara məhəbbət göstərməlidir

Buddizmi qəbul edən hər bir şəxs bu məhəbbət və şəfqətin bu mərtəbəsinə çatmaq üçün öz qəlbini başqalarına qarşı kindən tamamilə təmizləməli, digərlərinə münasibətdə kin-küdurət tozunun onun qəlbinə hakim kəsilməsinə heç bir vəchlə imkan verməməlidir. Belə ki, hətta kimsə onu söysə, yaxud ona qarşı hörmətsizlik etsə belə narahat olmamalıdır. Çünki insan qəlbində “filankəs məni təhqir etdi, məni döydü, mənim malımı oğurladı, yaxud mənə zülm etdi” kimi fikirləri təlqin etsə, tədricən ürəkdə kin-küdurət tozu, pası qəlbə qalib gələr. Bu vaxt belə fikirlərin batini aləmdən təmizlənməsi, silinməsi çox çətin, bə’zən də qeyri-mümkün olar. İnsan yalnız intiqam

almaq fikrinə düşər və belə olan halda da əxlaq normalarının ziddinə hərəkət etmiş olar. Buna görə də Budda öz ardıcıllarına başqalarının onlara qarşı etdiyi pislikləri hətta xəyallarından belə keçirməməyi tövsiyə etmişdir, o ki qala intiqam almağı. Buddanın :həyatı barədə başqa bir hekayətdə deyilir

Bir gün Puna adlı şagirdi onun yanına gələrək və ondan meşədə yaşayan – “ vəhşiləşmiş bir qövmə tə’lim-tərbiyə vermək üçün icazə istədi. Budda onun iman və :dözümünün nə dərəcədə ciddi olduğunu yoxlamaq üçün dedi

Ey Puna, onlar çox kobud, yırtıcı xislətli və əzazildir. Sənə qəzəbləndikdə nalayiq – “ sözlər işlədəcəklər. Bu barədə fikirləşmisənmi?” Puna dedi: “ – Qorxusu yoxdur, ey mənim ustadım! Mən öz qəlbimdə onları mehriban və yaxşı insanlar

hesab edəcəyəm. Çünki söysələr də, dillə incitsələr də, mənə cismani əzab-əziyyətləri çatmayıb, daşla, çomaqla məni döyməmişlər." Budda dedi: " - Bu qorxu-hürküsüz qəbilə səni daşla, çomaqla döysə necə?" Puna cavab verdi: " - Yenə də öz-özümə deyəcəyəm ki, onlar mehriban və pak qəlbli insanlardır, çünki məni xəncər və qılıncla qətlə yetirmək istəmirlər." Budda dedi: " - Əgər bu işi görsələr nə edəcəksən?" Puna dedi: " - Öz-özümə deyəcəyəm ki, onlar mənə qarşı çox mehriban və xeyirxahdırlar. Çünki həqiqətdə məni bu alçaq təbiətli cismdən xilas edərək azacıq bir əzabla varlığın əzabından qurtarmışlar." Budda bu cavabı eşitdikdə belə dedi: " - Çox gözəl dedin ey Puna! Malik olduğun bu səbr və dözümlülük ne'məti ilə get, çalış, özün xilas olduğun ".kimi başqalarına da nicat ver..

Buddanın çıxışlarından birində ona istinadən söyüş barəsində belə nəql olunur: " - Əgər kimsə öz axmaqlığı ucbatından mənə qarşı səhv bir addım atmış olsa, bu işin müqabilində onu öz sədaqətli məhəbbətimin kölgəsinə alacağam. Mənə qarşı pisliyii ".artırdıqca, mən də öz yaxşılıqlarımı artıracağam

Buddistlərin müqəddəs kitablarından olan Damapadanın nəğmələrindən birində oxuyuruq: " - Qoy insan öz qəzəbinə məhəbbətlə üstün gəlsin, qoy o pisliklərə yaxşılıqla qələbə çalsın, qoy o tamahkar insanın qarşısında əliaçıq, yalançının müqabilində isə düz danışan olsun." Başqa bir yerdə isə belə deyilir: " - Heç vaxt nifrəti ".nifrətlə aradan qaldırmaq olmaz. Nifrət yalnız mehr-məhəbbətlə aradan gedər

Yuxarıdakı cümlələrdən belə nəticə alınır ki, Budda ayininin başqalarına qarşı əxlaq və davranış normalarının əsası tam sülh və qeydsiz-şərtsiz məhəbbət üzərində qurulub. Bu ayində kobud hərəkət hər bir halda qadağandır. Bu baxımdan da buddizmlə .xristianlıq arasında çox oxşarlıq vardır

Bu ayində şəxsi əxlaqın əsasını nəfsin alçaldılması, bütün nəfsani istək və meyllərin, maddiyyat və dünyaya marağın itirilməsi təşkil edir. Buddizm bütün əxlaq və davranış prinsiplərində mö`tədil və loyal yol seçməyə çalışmasına baxmayaraq bu cəhətdən də onunla sufi firqələri arasında oxşar xüsusiyyətlər var. Qeyd etmək lazımdır ki, buddizm nəfsin təmizlənməsi, son qurtuluş məqamına nail olmaq üçün uzun illər boyu monastırlarda mümkün olan düşüncə və müraqibə ilə bütün nəfsani və dünyəvi

asılılıqları qırmaq tə’kid etdiyi halda, bu ayinin öz ardıcıllarına mö’tədil mövqe seçməyi tövsiyə etdiyini necə demək olar?! Bu mö’tədilliyin yeri ifrat və təfrit arasında hardadır? Buddizm özünü caynizmdə gördüyümüz üzücü və çətin asketizm, zahidlikdə ifrata varma ilə qeydsiz-şərtsiz azadlıqda təfrit arasında yerləşən mö’tədil mövqeli .hesab etdiyinə görə bu tənqid öz yerində qalır

Əvvəla, inkar etmək olmaz ki, buddizm həmin dövr Hindistan cəmiyyətində brahmanizm və caynizmin yaratdığı ifrata və təfritə varılan ayinlərindən uzaqlaşaraq daha mö`tədil yol təqdim etmişdir. Buddizmdə tövsiyə olunan asketizmlə caynizmdəki asketizm arasında müqayisə aparsaq, buddizm zahidanə göstərişlərinin ifratçılıqdan uzaq olduğunu, bu dində brahmanizmin təbəqələşmə

ilə bağlı tələbkarlığının olmadığını aydın şəkildə görərik. Qeyd olunduğu kimi, brahmanizmdə hər şeydən əvvəl insan təkrar doğulmaların dövri sistemində heç vaxt sinfi quruluşdan çıxa bilməz, yalnız insan yaxşı əməl sahibi olduqda daha yüksək təbəqələrə keçə bilər. Əks təqdirdə daha aşağıda olan təbəqələrə süqut edəcəkdir. Buddizm isə yenidən doğulmalardan tamamilə xilas olmaq üçün müəyyən bir yol təqdim etmiş və əsasən sinfi ziddiyyətləri rədd etmişdir. İkincisi, brahmanizmdə hər bir təbəqənin əxlaqi prinsipləri fərqlidir və hər bir təbəqənin özünəməxsus əxlaq normaları vardır. Bir təbəqədə çirkin, xoşagəlməz və haram sayılan bir işin digər bir təbəqə üçün yaxşı, yolverilən sayılması mümkündür. Buddizmdə isə nisbətən mö'tədil .və asan bir yol təklif edilmişdir

Digər məqam bundan ibarətdir ki, buddizmi İslam məktəbinin əxlaq normaları və davranışları ilə müqayisə etmək istəsək, şübhəsiz İslam qanunlarının mö'tədil və məntiqəuyğunluğunu, buddizmin əxlaq-rəftar prinsiplərindəki fanatizmi təsdiqləyəcəyik. Çünki, İslam dini insanın istər maddi, istərsə də mə'nəvi - bütün ehtiyaclarını haqlı sayaraq bütün hallarda loyal və mö'tədil yol seçməyi şərt qoymuşdur. Misal üçün: İslam zahidliyi dünyadan əl çəkmək və tərkidünyalıq demək deyil, maddi və dünyəvi istəklərin cilovlanması, nəzarət altına alınması deməkdir. Bu .mövzu barədə "İslam əxlaqı" dərsində daha ətraflı öyrənəcəksiniz

**SUAL VƏ TAPŞIRIQLAR**

?Budda hamıya qarşı sevgi və məhəbbət bəsləmək barədə nəyi tövsiyə edir .١

.Buddizm nöqteyi-nəzərindən qurtuluş yolundakı maneələri izah edin

.Buddizmdə qurtuluşa nail olmağın səkkiz əsas prinsipini izah edin

**:POLEMİKA VƏ ARAŞDIRMA**

İslam əxlaqına diqqət yetirmək və müəllimin köməyi ilə, buddizmin me'yarları .doğrudan da onun iddia etdiyi kimi mö'tədil olub-olmadığını müəyyənləşdirin

## ON ALTINCI DƏRS

## (BUDDİZM (۴

### AYİN VƏ MƏRASİMLƏR

Keçən dərslərdə öyrəndik ki, buddizmin Allah və mə’budlarla əlaqədar aydın, konkret bir ideoloji mövqeyi olmamış və bu barədə öz ardıcıllarına xüsusi bir göstəriş verməmişdir. Eləcə də qeyd olundu ki, buddizm brahmanizm sinfi quruluşuna və brahmanların xüsusi mövqeyinə qarşı mənfi mövqe tutmaqla onların digər e’tiqadlarına qarşı çıxmış, hətta brahman mə’budlarına e’tiqadı, onların qarşısında .pərəstiş və sitayişindən uzaqlaşmışdır

Buddanın ardıcılları bunları tə`lim edirdilər. İlk növbədə hər bir fərd nicat və qurtuluş üçün yalnız özünə arxalanmalıdır və başqalarından, hətta mə’budlardan heç bir kömək olmayacaq. İkincisi, nicat və qurtuluşa nail olmağın yeganə yolu zahidlik, təfəkkür və müraqibədir. Üçüncüsü, bə’zi əməllərin yerinə yetirilməsi, o cümlədən canlıları öldürülməsi qadağandır. Buna əsasən buddistlər brahmanların qurban kəsmək, mə’budlardan hacət diləmək və s. kimi ən mühüm ibadət ayinlərindən .uzaqlaşmışlar

Budda ayinində ibadət və sitayiş ilk növbədə “üç pənah” adlanan sadə və birbaşa təsdiq əsasında qurulmuşdur. Hər bir buddist ayırdığı müəyyən vaxtlarda diqqətini cəmləşdirərək bu üç cümləni təkrar edir: “ – Mən Buddaya pənah gətirirəm! Mən haqq şəriətə pənah gətirirəm! Mən sangəhə (Budda mə’bədinə) pənah gətirirəm!” Əlbəttə, Buddanın öz e’tiqadına görə Buddaya pənah aparmaq bu ayinə e’tiqadı olub həmin sözləri təkrar edən hər şəxsə nicat veriləcəyi demək deyil. Pənah aparmaq dedikdə məqsəd, Buddanın tə’limlərinə tam və kamil diqqət yetirməkdir. Çünki Buddanın yekun məqsədi də şagird və ardıcıllarının səadət və qurtuluşa nail olmaq üçün sə’y göstərib düşünməsi, meditasiya ilə məşğul olmaları olmuşdur. Belə bir şəraitdə, adi buddistlərin çətinlik və problemlərdən xilas olmaq üçün Buddanın özünə arxalanıb e`timad etməyin gərəkliyi barədə düşüncələrə sahib olmaları mümkün olurdu. Tarixi tədqiqatlar da Buddanın öz ardıcılları arasında xüsusi mövqe, şəxsiyyət və məqam sahibi olduğunu, mürid və ardıcıllarının rəğbətinin onu ilahiləşdirib sitayiş etmək

dərəcəsinə çatdığını göstərir. Hətta belə bir e’tiqad da yaranmışdı ki, brahman .mə’budları Buddanın mərhəmət və lütfünə çatmaq üçün yerə nazil olmuşlar

Buddizmin müqəddəs kitablarından nəql olunan aşağıdakı cümlələr və ifadələr deyilənləri aydın şəkildə açıqlayır: “ – Düşüncəli və kamil nurani şəxs olan Buddada heç bir sapma yox idi.”, “ – O misilsiz bir insan, xoşxasiyyət və mehriban bir varlıq idi; elə yüksək amalları, bu dərəcədə böyük sə`yləri var idi ki, ...”, “ – Dünya padşahlarının padşahı və qalib bir fateh idi.”, “ – Allah İndraya oxşar və insanların ən fəzilətlisi idi”, “ – Səmavi varlıqlar Brahmanın (brahmanların mə’budu) başçılığı ilə şəhərə gedib ona sitayiş etmişlər ki, bəlkə

onun (Buddanın) lütfünə nail olsunlar", " - Həm mə'budlar, həm də insanlar ona zaman hüdudlarından aşan yeganə əzəmətli şəxs kimi sitayiş edirlər", " -Dünyada bütün mə'budları ilə bir yerdə sənə bərabər heç bir kimsə yoxdur".

Buddanın şagirdləri onu sadə ardıcıllarına beləcə təqdim etdikcə Buddanın özü tədricən Allahın alternativinə çevrildi. Bu gün bütün mə'bədlərdə, hətta buddistlərin evlərində qoyulan büt və heykəllər, eləcə də bu ayinə e'tiqad bəsləyən hər bir şəxsin öz dini mərasimini Buddanın heykəllərinin qarşısında yerinə yetirməsi, əslində ona pənah aparıb ondan hacət diləməsi bu e'tiqadın bariz nümunəsidir.

Buddistlərin dini mərasimləri buddist rahiblərin hər gün səhər və axşam "Puca" adlanan dua mərasimini yerinə yetirmək üçün mə'bədlərdə bir yerə toplaşaraq və "üç pənah" zikrini təkrarlamaqla həyata keçirilir. Daha sonra dini nəğmələr oxunur, mə'bəd şamla işıqlandırılır, havanı təmizləmək və ətirləndirmək üçün buxurlardan istifadə edilir. Onlar hər ayda iki dəfə - ayın çıxdığı ilk gündə və ayın ortasında (۱۴-cü gecə) oruc tuturlar. Camaat bu iki gündə rahiblərin moizələrini, dua və zikrlərini dinləmək üçün mə'bədlərə gəlirlər. Bu mərasimdə bə'zi dini nəğmələr oxunur, rahiblər Budda ayini və hökmləri barəsində camaata moizə edib yol göstərirlər. Mərasim qurtardıqdan sonra kişilər gecəni mə'bəddə keçirə bilərlər, amma qadınlar öz evlərinə qayıtmalıdırlar. Mühüm mərasimlərdən biri hesab olunan "Puca" xüsusi münasibətlərdə qeyd olunur. "Vesak" mərasimi ayın ۱۴-cü günü keçirilir. Buddanın doğum, nirvanaya qovuşmasının, eləcə də vəfatının ildönümü olan bu gün camaat bayram edir, monastırların və mə'bədlərin ətrafı işıqlandırılır, hər yerdə canlanma müşahidə olunur, Buddanın həyatı və onun ayini ilə əlaqədar xüsusi tədbirlər keçirilir.

Budda rahibləri arasında geniş yayılmış başqa bir mərasim rahiblərin istirahət və guşənişinlik dövrü olan yağışlar mövsümündə keçirilir. Həmin mərasim ilk yağışın yağması ilə başlanır. Bu ə'ənələrinin digər bir hissəsini təşkil edən gündəlik ibadətlər çoxsaylı buddistlərin iştirakı ilə mə'bədlərdə keçirilir. Bu ibadətlər Buddanın heykəllərinə tə'zim, çələng qoyma və mə'bədin ətirlənməsindən ibarətdir.

Buddistlərin digər bir ayini də ruhlara pərəstiş etməkdir. Bu məqsədlə inşa edilmiş "ruhlar adı" ilə məşhur olan kiçik ibadətgahlarda ruhlara tə'zim edilir. Onların inancına

görə bu ruhlar yerin, təbiətin, yaxud ata-babaların ruhlarıdır. Ancaq, ruhun nirvanaya qovuşduqdan sonra tam fənalıq mərhələsinə çataraq istənilən mövcudluq formasını itirməsinə inanılan buddizmdə ruhların necə hörmət, tə`zim və sitayişə layiq .görüldüyü o qədər də aydın deyildir

Bütün bunlarla yanaşı buddist adət-ən'ənələrinin ümumi təhlilindən belə nəticə çıxır ki, bu ayin sitayiş, ibadət insandan daha yüksəkdə olan əbədi və əzəli bir həqiqətlə mə'nəvi əlaqədəki boşluqları doldura bilməmişdir. Buna görə də, bu ayinin ardıcılları bu boşluğu doldurmaq üçün ətraflarında gördükləri və mə`lumatları olduğu digər din və ayinlərdən bəhrələnməyə, öz emosional ehtiyaclarını tə'min etməyə çalışmışlar. Buna görə də buddizm hazırkı formaya

düşmüşdür. Mə’budlara e’tiqad brahman ayinindən götürüldüyü kimi, ruhlara ehtiram .da güman ki, animizmdən və bəlkə də brahmanizmdən əxz olunmuşdur

Buddizmdə ən həssas və ən mühüm mə’nəvi əməl buddizmin səkkiz yönlü yolunun yeddi və səkkizinci mərhələsini təşkil edən düşüncə və meditasiyadır. Budda mə’bədləri əsas e’tibarı ilə həmin məqsədləri həyata keçirmək üçün tikilmişlər. Bu mə’bədlərdə nəzərdə tutulan xəlvət və sakit məkanlar rahiblər üçün həyatın bütün iztirab və səs-küylərindən uzaq olmaqla şəxsi həyatları, həyatın əzab-əziyyətləri, ondan xilas olma yolları barədə düşünərək qurtuluşa (nirvanaya) nail olmaq üçün, asketizm və meditasiya ilə məşğul olmaları üçün təhlükəsiz bir yerdir. Bu baxımdan Budda “Sangəh” mə’bədləri inzibati idarə quruluşuna malik olmaqla onlarda çox ciddi və ağır qanunlar hakimdir. Bu mə’bədlərə daxil olub sangəhə üzv olmaq istəyən hər şəxs aşağıdakı suallara cavab verməlidir: “ - Səndə cüzam, qotur, çiban, xora, vərəm, ürək keçmə və s. xəstəlikləri varmı? Azad bir insansanmı? Heç bir borcun yoxdurmu? Hakimiyyətə xidmət etmirsənmi? Ata və anan bu işə razıdırmı? ٢٠ yaşın tamam olubmu? Sədəqə toplamaq üçün əldə tutduğun kasa və rahiblik üçün əyninə geyindiyin ”...?əbanın vəziyyəti münasibdirmi

Qəbul olunan şəxs sangəhə daxil olduqdan sonra geniş inzibati nizamnaməyə riayət etməlidir. Bu məsələdə yol verilən qanun pozuntuları həmin şəxsin cəzalandırılmasına, hətta mə’bəddən çıxarılmasına səbəb olur. Rahib “dörd səbəbdən məğlub edilmiş” :sayılır və onun rahiblikdən kənarlaşdırılması barədə qəti hökm verilir

;Cinsi əlaqədə olmaq .١

;Oğurluq .٢

Qəsdən törədilən qətl; (Başqalarında ölüm və intihara səbəb olan vəsvəsə . ٣ .(yaratmağa da şamil olunur

.Yalandan elmli şəxs iddiasında olmaq .٤

Bundan əlavə digər on üç qanun və normaya da riayət edilmədikdə ruhani rəhbərliyin rəsmi iclası keçirilərək qanunu pozmuş rahib bir aylıq kənarlaşdırılma formasında

cəzalandırılır. "Otuzluq" təşkil edən qanunlar pozulduqda isə tövbə edilməsi tələb olunur və rahiblik əbası, rahibə verilən dərviş kasası və palaz onun əlindən alınır. Digər bir qanun da ۹۹-lardır. Bu qanunlar pozulduqda tövbə edilməsi tələb olunur. O cümlədən, nalayiq sözlər danışmaq, insanları təfriqəyə, ikitirəliyə təhrik etmək və s. bu qəbildəndir. Burada başqa qanunlar da mövcuddur ki, onları pozduqda qanun pozucusu kollektiv qarşısında öz səhvini e'tiraf etməlidir. Rahiblər üçün sangəhdən çıxdıqdan sonra riayət etmələri tələb olunan bir çox qanunlar qoyulmuşdur. Bu qanunlar pozulduğu təqdirdə rahiblər davamlı əzab-əziyyətə düçar olacaq, qurtuluş :mənzilindən uzaqlaşacaqlar. Bu qanunlar aşağıdakılara şamil olunur

Münasib paltarlar geymək, bədənin müvazinətini saxlamaq, baxışlarını aşağı dikmək, .ucadan gülməmək, səs-küy salmamaq, əli-ayağı yellətməmək və s

səh:۹۸

Sarı rəngli əba geymək, başın və üzün tüklərini qırxmaq, dilənçi kasası gəzdirmək də sangəhdəki adətlərdəndir. Rahiblər hər gün axşam günəş batanda öz dilənçi kasalarını əllərinə alıb buddistlərin evlərinə gedir, düyü və digər qida məhsulları alırlar. Qayıtdıqdan sonra bunları bir yerə toplayır və onlardan bir öynəlik günorta xörəyi hazırlayırlar. Adətən gün ərzində həmin bir öynəlik yeməklə kifayətlənirlər. Günortadan qeyri vaxtlarda Budda rahiblərinin birdən artıq dilənçi kasası, alt paltarı, dərviş əbası, iynə-sap və bir üzqırxan ülgücdən əlavə əşyalara malik olmağa haqları yoxdur. Hətta dini kitablar və qeydlər də onların şəxsi mülkiyyəti sayılmır və sangəhin .ümumi malı hesab olunur

Burada Budda rahiblərinin monastırı, mə'bəd və ondan xaricdə riayət etməli olduqları bə'zi adət, norma və qayda-qanunlarla tanış olduq. Qeyd etmək lazımdır ki, bütün bu qayda-qanunlara riayət etmək nirvanaya qovuşmağa zəmanət üçündür. Təbiidir ki, bu qədər ağır və üzücü qayda-qanunlar buddistlərin hamısı üçün nəzərdə tutulmamışdır və bu ayinin adi ardıcıllarının daha yüngül vəzifələri vardır. Bu :vəzifələrdən bə'ziləri aşağıdakılardan ibarətdir

Ruhani aparatına hədiyyələr vermək – gəzib dolaşan rahiblərin kasasına bir neçə düyü dənəsi tökməkdən tutmuş rahibə paltar tikilişi üçün bir parça və ya paltarın özünü verməyə qədər, mə'bəd və monastır tikmək, tə'yin olunmuş vaxtlarda dua .mərasimlərində iştirak etmək və s. vəzifələr

Diqqətəlayiq məqam bundan ibarətdir ki, buddizmin sıravi ardıcılları bu kimi vəzifələri yerinə yetirmələrinə baxmayaraq, nicat və qurtuluşa və ya nirvanaya nail olmurlar. Onlar yalnız özlərini daha layiqli bir məqama, mərhələyə yüksəldə bilər və yeni həyatda, yenidən doğulmalarda mə'nəviyyat və qurtuluşa olan şövq baxımdan daha yüksək və ali bir mövqeyə çata bilərlər. Belə olan halda rahiblər cərgəsinə qoşulmaq .və qurtuluş yolunu qət etməyə daha artıq hazır ola bilərlər

### MÜQƏDDƏS KİTABLARI

Buddistlərin ən mühüm və ən kamil müqəddəs kitabı "٣ səbət" mə`nasını daşıyan :"Teripitaka"dır. Bu ٣ səbət aşağıdakılardır

Nizam-intizam səbəti; Buddizmi təzə qəbul edən şəxslərə, yaxud rahiblərə və . ١ yüksək səviyyəli buddistlərə aid qanunların icrasına nəzarət edir (bu qanun və ;(normaların bə`zilərinə toxunuldu

;Tə`lim səbəti - Buddanın tə`lim və polemikalarından təşkil olunub .٢

.Hekayələr səbəti .٣

Bu bölmədə buddizmin nəzəri bəhsləri, mürəkkəb və zərif psixoloji məqamları verilmişdir. Bu səbət əslində tə’lim səbətinin icmal və şərhidir. Burada hekayə və təmsillərdən istifadə yolu ilə Buddanın nəzəriyyə və e’tiqadlarının şərhi verilir. Buddanın nəzəriyyə və e’tiqadlarından ibarət olan tə’lim səbətinin özü də Buddanın xütbə və çıxışlarının həcminə müvafiq olaraq genişdən yığcama doğru ardıcıllıqla verilmiş və asketizmə, buddizmlə brahmanizm arasında əlaqə, səbəb-nəticə silsiləsi, sinfi quruluş barədə Buddanın fikirləri, dinin digər əsaslarının araşdırıldığı beş .məcmuədən ibarətdir

səh:٩٩

Bu üç səbətdən başqa buddistlərin “Athakatha” deyərək hörmət bəslədiyi bu səbətlər .barəsində digər təfsirlər məcmuəsi də qalmışdır

**SUAL VƏ TAPŞIRIQLAR**

?Buddizmin ilk ibadət ayini hansı olmuşdur .۱

?Sangəh”in mə`nası nədir“ .۲

?Buddizmin ən mühüm mə’nəvi əməli hansıdır .۳

?Ruhlar evi hansı məqsədlə yaradılmışdır .۴

.Buddizmin ən mühüm müqəddəs kitablarının adlarını sadalayın

## ON YEDDİNCİ DƏRS

## (BUDDİZM (۵

### FİRQƏLƏR

Buddizm ayini genişləndikdən sonra onun yayılmağa başladığı birinci yüzillikdə Buddanın tə`limlərinin prinsip və əsaslarının izah, qənaət və dəyərləndirmə forması ətrafında Buddanın şagirdləri arasında kəskin fikir ayrılığı yarandı. Bu təfriqə və ixtilaf son nəticədə Budda ardıcıllarının parçalanmasına və iki əsas firqənin yaranmasına səbəb oldu. Qeyd olunan firqələrin yaranmasına iki mühüm və əsas amil səbəb :olmuşdur

Buddanın bir çox ideoloji məsələlərdə, o cümlədən Allaha və ya mə’budlara inanıb- .۱ inanmamaq, Allaha sitayiş etməyin zəruri olub-olmamasında, ölümdən sonrakı həyatı barədə aydın, şəffaf mövqe seçməməsi qarşıya çıxan ixtilafların ilkin səbəbi idi. Tədqiqatlar insan cəmiyyətinin, o cümlədən qədim Hindistan cəmiyyətinin Buddadan çox əsrlər öncə Allaha, fövqəl-təbii həqiqətlərə və ölümdən sonrakı həyata e’tiqad bəslədiyini, daim axirətə müəyyən mə`nada ümidli olduğunu, onların həyatında mə`buda və ya mə`budlara ehtiyacın mövcudluğunu göstərir. Buna əsasən demək olar ki, həmin dövrdə yaşayan insanlar yaranmaqda olan yeni ayində (buddizmdə) qeyd olunan məsələlərə mövqe birdirilməsini gözləmişlər. Buddanın şagirdləri əksər hallarda brahmanizmin kasta sinfi quruluşundan mə`yus olduqlarına, eləcə də ardıcıl doğulmalar, tənasüxlərdən keçirdikləri iztirab və təşvişlərə görə bu ayinə meyl göstərmiş, digər ideoloji prinsiplər onlar üçün o qədər də şəkk-şübhə və narahatlıq yaratmamışdır. Məhz bu səbəbə görə Buddanın şagirdləri və onun canişinləri brahman ayinində (qədim hinduizmdə) mövcud olan bir çox ideoloji əsas və elementləri buddizmə əlavə etmişlər. Belə ki, həmin ideologiyaları Buddanın yeni tə`limlərinə zidd .hesab etmirdilər

Buddizmin əxlaqi və ideoloji prinsipləri ilə əlaqədar keçən bəhslərə yenidən nəzər .۲ salsaq, bu prinsiplərdə heç vəchlə bir-birilə uzlaşmayan bir sıra təzad və uyğunsuzluqların şahidi olarıq. Bu təzadların ən mühümü tərkidünyalıq, sükunət, guşənişinlik, məhəbbət və bağlılıqların (hətta ana və ataya münasibətdə belə)

kəsilməsi prinsipi ilə “hamıya qarşı ümumi, təmənnasız dostluq və məhəbbət” prinsipi arasında olan ziddiyyətdir. Bu iki prinsip arasındakı açıq-aşkar ziddiyyət Buddanın şagirdləri və ardıcıllarını iki qrupa böləcək səviyyədə olmuşdur. Onlardan hər biri iki .prinsipdən birinə inanmış və birini digərindən üstün tutmuşlar

Qeyd olunan iki qrup “böyük çarx” mə`nasını verən “mahayana” və “kiçik çarx” .mə`nasını daşıyan “hiniyana”dan ibarət olmuşdur

Bu firqə bəyan olunan iki prinsipdən birincisinə üstünlük verir və şəxsi qurtuluşa çatmağı son məqsəd hesab edir. Mahayana firqəsi ikinci prinsipə üstünlük verməklə dünyadakı bütün varlıqların xilas olmasını istəyir. Hiniyana

firqəsi özünü əsl buddist (ortodoks) hesab edərək, Buddaya sadiq qalmaqla, mahayana firqəsinin Budda tə'limlərinə artırdıqları e'tiqadları qəbul etmir. Bu firqənin nəzərində heç bir sabit cövhər, mütləq və həmişəlik həqiqət yoxdur. Əşyalar və varlıqlar fənaya uğrayan keçici və davamsız ünsürlərin davam etməsindən təşkil olunub və kamil faniliyə doğru hərəkətdədirlər. Bu e'tiqaddan belə başa düşülür ki, maddi aləmin fövqündə heç bir həqiqət yoxdur və maddi aləmin özünü də qeyri-sabit, mütləq fənalığa məhkum hesab etməliyik. Buna görə də firqə ardıcılları inanırlar ki, Buddanın özü də fəna və nirvana mərhələsinə çatdıqdan sonra mütləq faniliyə nail olmuşdur və artıq ondan heç bir əsər-əlamət yoxdur. O, hal-hazırda mütləq sükunət və sükuta qovuşmuşdur, varlıq aləmində baş verən hadisələrdən tamamilə xəbərsizdir. Onların nəzərində Budda, hətta əfsanəvi, yaxud ilahi bir varlıq kimi də qəbul edilmir. Sadəcə olaraq, bütün insanlar kimi bir varlıqdır; yalnız nirvana yolunu başqalarına öyrətdiyi və özü bu dünyadan tamamilə xilas olduğu üçün sitayişə layiqdir. Bu cəhətdən ona pərəstiş olunması onun xatirəsini anmaq mə`nasını daşıyır. Bu firqə Buddaya ehtiram göstərməyi, ona dəyər verməyi onun xatirələrini canlı saxlamaq kimi .qiymətləndirirlər

Bu firqənin əksi olan mahayana firqəsinin ardıcılları Budda tə`limlərinin humanist yönümlərinə daha çox diqqət yetirirlər. Onlar inanırlar ki, başqaları ilə mehriban əlaqə qurmaq, hər şeyə müsbət yanaşmaqla mütləq nur və qurtuluşa çatmaq olar. Onlar bu baxışların Buddanın şəxsiyyəti həddinə qədər genişləndirməklə onu sitayişə layiq olan ilahi varlıq sanırlar. Bu firqə ardıcılları inanırlar ki, Budda ibadət və pərəstişə layiq olan bir varlıqdır. Belə ki, o ilahilik xüsusiyyətlərinə malik olmaqla öz lütf və mərhəməti sayəsində bəndələrə nicat vermək üçün asimandan yer üzünə nazil olmuşdur ki, öz enişi ilə qaragün və azğın insanları düz yola, qurtuluş və nicata yönəltsin. Onların e'tiqadına görə Budda ilahi bir varlıqdır, mütləq elm və ismət məqamına malikdir. Ardıcıl doğulmalardan, dəfələrlə bədənlərdə zühur etdikdən, ömürləri və həyatları qət etdikdən sonra kamillik yolunda olan hərəkətini son nəticədə ilahi məqama yetişməyə və asimanlara qovuşmaq mərhələsinə qədər davam etdirmişdir. Sonra yerə enərək anasının bətnində yerləşmiş və daha sonra insan surətində doğulmuşdur. Doğulduqdan sonra onun ilahi mahiyyəti bütün həyatı boyu şühud və işraq zamanında zahir olmuşdur. Onun tə'limlərinə görə, hər bir şeyin ilahi rəngi var, onun rəftar və

əməlləri də həqiqət, ismət prinsipinə uyğundur. Hər kəs o yolla getsə, .bədbəxtliklərdən xilas olar, mütləq asayişə və sülhə nail olar

Mahayana firqəsinin ardıcılları nikbinlik və kompleks baxış prinsipi əsasında yə`ni hamının nicat və qurtuluşunu qəbul edərək hiniyana firqəsindən fərqli olaraq nirvanaya çatmağın xüsusi insanların inhisarında olmasına inanmırlar. Bu qrupun əqidəsinə görə, Budda (həqiqi və məhşur Budda) ilk və ya axırıncı Budda deyildir. Ondan qabaq da sayları ۲۴-ə çatan başqa buddalar olmuşdur və ondan sonra da digər .buddalar olacaqdır

Gələcək Budda Mahayana firqəsinin nəzərincə "Buddisətvə" adlandırılır və onun mə'nası "formalaşmaqda olan Budda" deməkdir. Bu firqənin inancına görə, formalaşmaqda olan buddalar buddaların nurani cismlərindən bəhrələnir və "tuşita" behiştində cah-cəlallı taxtlar üzərində əyləşən əfsanəvi varlıqlardır. Müqəddəslər və övliyalar onların ətrafında qərar tutmuşlar, onlar insanları xilas etmək üçün yer üzərinə peyğəmbərlər göndərirlər və insanların müqəddəratı mə`budların əlindədir. İnsanlar da ali vücudlara ibadət və sitayiş etməli, qurtuluş mərhələsinə çatıb nirvanaya nail olmaq istəsələr, Buddisətvə yolunu tutmalıdırlar. Bunlar insanın nirvanaya qovuşması üçün bir vasitə, əfv və rəhmdillilik, sə`y və mə`nəvi qüvvə, əxlaqın saflaşdırılması, səbr və təmkin, düşüncə və meditasiya, ağıl və zəka kimi altı fəzilətin atributudur. Bu firqənin e'tiqadına görə həmin altı fəzilətdən kömək almaqla, eləcə də nirvanaya nail olmaq üçün nəzərdə tutulan on buddist məqamı vasitəsilə ilə .bu mərhələyə çatmaq olar

Hiniyana firqəsinin buddizmin səkkiz e`tiqadının yerinə təqdim etdiyi on məqam :buddisətvalara aiddir və onlar qısaca aşağıda verilir

;Paklıq məqamı .۲

;Səbr və müqavimətin təcəlli məqamı .۳

;Parlaqlıq məqamı .۴

;Yenilməzlik məqamı .۵

;Buddaya üz tutma məqamı .۶

Durru məqamı (Mə`nəvi gücün zirvəsi olan, bununla belə ilahilik məqamına .۷ ;(.çatmayan bir məqamdır

;Sükunət və hərəkətsizlik məqamı .۸

;Pak fitrətlilər məqamı .۹

Əbri əyin məqamı. Bu, Buddaya xas olan bir məqamdır və daim ondan rəhmət və .۱۰ .mərhəmət yağışı gözlənilir

Mahayana firqəsinin e’tiqadlarındakı mühüm məqam budur ki, Buddanın yolu çox geniş və hamının üzünə açıq olan bir yoldur. Hər bir şəxs Sətvəbuddanın yüksələn xətt üzrə gedən yolunu qət edərək son nəticədə nirvana mərhələsinə çata bilər. Hətta həmin şəxsin özü gələcək buddalardan biri ola bilər. Bu firqə ardıcıllarının gözü həmişə digər bir böyük buddanın zühuru yoluna dikilib və nə vaxtsa Sətvəbuddanın yüksələn xətt üzrə gedən və kamillik yolunda digər bir böyük buddanın bəşəriyyəti əzab-.əziyyətdən, möhnətdən xilas etmək üçün zahir olacağına inanırlar

Bu firqənin nəzərində Sətvəbudda məqamına çatmaq hamı üçün mümkün olsa da həmin məqama nail olmağın xüsusi şərtləri vardır. Həmin firqənin dini risalələrindən birində bu barədə oxuyuruq: “ – Hər kəs yolu qət edərək Sətvəbudda mənzilinə çata bilər. Amma bu ali məqama yetişmək bir şərtlə mümkündür ki, insan öz nəfsində yaxşı və bəyənilən işlərə şövq, rəğbəti hiss etsin, canlı varlıqlara qarşı gördüyü yaxşılıqlara ürəkdən şad olsun. Bundan sonra Buddanın dərgahında dua edib onu işraq və şuhud ,məqamına çatdırması

ruhunu paklaşdırıb nurlandırması üçün kömək diləməlidir. Buddadan istəməlidir ki, onun nirvanaya qovuşmasını tə'xirə salsın (uzun ömürlülük duası) ki, o canlı varlıqlar üçün xeyir-bərəkət və xidmət mənşəyi ola bilsin. Yuxarıda qeyd olunan on mərhələ və ".məqamları keçdikdən sonra Sətvəbudda ləyaqətini qazanacaqdır

Mahayana firqəsinin ardıcılları nicat, qurtuluş yolunun hamının üzünə açıq olduğuna, hər kəsin Budda ola bilməsinin mümkünlüyünə inandıqlarına görə hiniyana firqəsinin davamçılarını özü üçün, fərdi səadət və nicat istəyən, Buddanın dediyi kimi dünya meşəsində kərkədan tək yalqız dolaşan eqoist və xudpəsənd hesab edirdilər. Ancaq, bilmək lazımdır ki, Buddanın müxtəlif tə'limləri olmuş, onların hər biri xüsusi auditoriyanın iste'dad və düşüncəsinə uyğun nəzərdə tutulmuşdur. Məsələn, onun təqdim etdiyi səkkiz yol nəfsləri zəif olanlar üçün tə`yin olunmuşdur. Daha yüksək və ali nəfsə, idraka malik olan şəxslər üçün isə nəfslərini kamala çatdırmaq, insana eşq və məhəbbət bəsləməklə Sətvəbudda məqamına layiq görülmək üçün tə`limlər də .mövcuddur

Mahayana firqəsinin ideoloji xüsusiyyətlərindən, əsas və prinsiplərindən biri də monoteizmdir. Bu firqə ardıcılları bütün buddalar ilk buddanın təcəllisi olmasına inanırlar. Bu firqənin nəzərində ilk budda brahmanizmdəki (qədim hinduizm) Brahmaya bənzəyir. İlk budda kimsə tərəfindən yaradılmamış, öz-özünə əmələ gəlmişdir. O, həmişə nirvanada və mütləq nurdadır. Digər buddalar yalnız onun məxluqu və yaratdığıdırlar. Bu ilkin budda həm də gvatamadır. Belə ki, gvatama (buddizm ayininin banisi) anadan doğulmuş, seyri-süluk, asketizm yollarını ötdükdən sonra fəna və nirvana məqamına çata bilmişdir. Halbuki ilkin budda öz-özünə yaranmış və öz vücudu ilə var olmuşdur. İlk buddanın zühur və təcəllisindən biri də mə`nası müxtəlif cür, o cümlədən: "varlıqlara mərhəmət nəzəri ilə baxan mə'bud" və ya "nəzəri hər bir cəhətə və hər bir istiqamətə dikilmiş mə'bud" və s. kimi izah olunan .avalukityadır

Avalukityanın özü ilahi fəzilət və xüsusiyyətləri ihtiva edən Sətvəbuddadır. O, bəşəriyyəti əzab-əziyyətdən, qəm-qüssədən xilas edəcəkdir. Onun mədhində yazılmış :nəğmələrdən birində oxuyuruq

Odur bütün fəzilətlərdə kamala çatan, bütün varlıqlara mehribanlıq və mərhəmət“ nəzəri ilə baxan... Odur bu dünyada özünü mərhəmətlə bəzəyən və buddanın gələcək ”.səfərində olan... Bütün qəm-qüssəni, əzab-əziyyəti məhv edən bu şəxsə sitayiş edirik

Mahayana firqəsi ictimai ruhiyyəni qəbul etdiyinə, hamıda nicat və qurtuluş üçün ümid yaratdığına görə cənubi və cənub-şərqi Asiyada böyük rəğbətlə qarşılanaraq geniş yayıldı. İndinin özündə də həmin bölgələrdə yaşayan əhalinin çoxu bu firqənin ardıcıllarıdır. Bu firqənin özü də müxtəlif hissələrə bölünmüşdür və onlardan bə`ziləri :aşağıda qeyd olunur

Pak torpaq firqələri – bu firqələr çox sadə və xalq kütlələrinin başa düşə biləcəyi bir .۱ dillə camaatı qurtuluşa, müqəddəs torpağa və əbədi cənnətə çatmaq

üçün hazırlayır. Bu firqəyə görə, qurtuluşa nail olmaq üçün əqli, fiziki fəaliyyət zəruri .deyil və yalnız xüsusi zikrləri təkrar etməklə bu məqama qovuşmaq olar

Batiniyyə firqələri – bu firqələr nicat və qurtuluşa, işraq və nuranilik mərtəbəsinə nail .۲ olmağın yolunu yalnız insanın batini hərəkətində görür, mütaliə, müəyyən əməllərin yerinə yetirilməsi, ibadət və s. işlərin də bu məqama nail olmaqda müəyyən tə'siri .olmasına e`tiqad bəsləyirlər

Əqli firqələr – bu firqənin inancına görə qurtuluşa nail olmaq üçün ilk növbədə zehni .۳ bütün fikir və adətlərdən təmizləmək lazımdır. Bundan sonra dini kitabların mütaliəsi, filosofcasına düşüncə və əqli təhlillər sayəsində tədricən kamilləşmə mərhələsinə .çatmağa hazırlaşmaq olar

Sirli, yaxud haqq kəlmə firqələri – bu firqənin ardıcılları kamilliyə çatmaq üçün öz .۴ inanclarına görə fövqəladə cadu gücü və müqəddəsliyi olan bə'zi söz və zikrlərdən istifadə edirlər. Onlar inanırlar ki, əqli təfəkkür və batini işraqın əvəzinə bu zikrləri .təkrarlamaqla müsbət nəticəni əldə etmək olar

Buddizmin mühüm firqələri sırasında, vacrayana, yaxud lama ayininin adını çəkmək .lazımdır. Bu firqənin də əsas e'tibarı ilə Tibetdə çoxlu ardıcılları vardır

Buddizmin Tibet torpaqlarında yayılmağa başladığı ilk dövrlərdə buddist düşüncələri hinduizm və eyni zamanda animizm təfəkkürü ilə qarışaraq buddizmə başqa bir imic bəxş etmişdi. Bu e'tiqadlardan biri də budur ki, budda mə'budları beşdir və onların hər birinin bir arvadı vardır. Buna görə də budda mə'bədlərindəki rahiblərə evlənməyə icazə vermiş və bu hal geniş yayılmışdır. Onlar xüsusi zikrlərlə Buddanın diqqətini özünə cəlb etmək, yaxud zərəri dəf etməyin mümkünlüyünə də inanmışlar. Onlar arasında Budda mə`budlarını şad etmək üçün şeytan rəqsləri, kəllə sümüyündə şərab içmək, ölülərin bud sümüyü ilə bə'zi mahnıları çalıb oxumaq kimi xurafatçı mərasimlər .də yayılmışdır

Tibet rahiblərindən olan "Tesvənig-xapa" XIV əsrdə lama ayinində islahatlar apardı. O, xurafatçı mərasimləri ləğv etməkdən əlavə, spirtli içkilər içməyi və rahiblərin nigaha girməsini qadağan edərək, ritualların əvəzinə daha artıq ibadət və namazları

qanuniləşdirdi. Belə ki, hal-hazırda buddistlər arasında ən çoxsaylı ibadət, namaz və dualar bu firqəyə məxsusdur. Dalay Lama, lama ayininin böyük rəhbəri, böyük Buddanın simvolu və təcəllisi hesab olunur. O, vəfat edərsə, firqəyə rəhbərlik tənasüx dövründə Dalay Lamanın ruhunun onun bədəninə daxil olduğu şəxsə keçir. Bu şəxsi ayırd etmək çox çətindir. Dalay Lama vəfat edərkən bu firqənin ardıcılları Tibet torpağının hər bir yerində düz onun öldüyü anda dünyaya gələn uşağı axtaracaqlar. Nəzərdə tutduqları uşağı tapsalar və o, Dalay Lamaya aid olan əmlak və əşyalardan hər hansı birinə müəyyən formada meyl edib ünsiyyət qursa onu sonrakı lama kimi seçəcək və xüsusi tə`lim-tərbiyə keçərək böyüdəcəklər. O həddi-büluğa çatana qədər Budda tə'limləri əsasında tərbiyələndiriləcək, daha sonra isə rəsmi şəkildə əvvəlki .lamanın canişini olacaq

**SUAL VƏ TAPŞIRIQLAR**

.Mahayana və hiniyana firqələri arasındakı fərqi göstərin .١

?Mahayananın özü hansı firqələrə bölünür .۲

?Vacriyana hansı firqəyə deyilir və necə yaranmışdır .۳

.Hiniyana və mahayana firqələrinin ümdə ideoloji əsaslarını izah edin

səh:۱۰۶

## ON SƏKKİZİNCİ DƏRS

## (HİNDUİZM (1

### MƏQSƏDLƏR VƏ YOLLAR

Keçən dərslərdə qədim hinduizmin (brahmanizm) ictimai, konseptual, ideoloji əsasları ilə tanış olarkən bu ayinin əsas ideoloji prinsiplərinin caynizm və buddizm tərəfindən kəskin tənqid olunduğunu, onun əleyhinə çıxıldığını və brahmanizm ardıcıllarından çoxunun caynizm və buddizmə meyl etdiklərini öyrəndik. Brahmanizmin digər iki dindən fərqli olaraq, heç vaxt vahid tə'sisçinin qayda-qanunları çərçivəsində, konkret bir istiqamətdə və məhdud, inzibati metodları olmamışdır. Bu ayin heç vaxt yeni yaranmış digər firqələrlə münaqişə və ixtilaf yolunu tutmamış, əksinə - həmişə güzəşt və kompromisi seçmişdir. Eləcə də, caynizm və buddizm ardıcıllarını kafir hesab etməmiş, əksinə bə'zən bu iki ayinin ideoloji əsaslarını qəbul və təqdir etmişdir. Bu baxımdan caynizmin əsas ideoloji əsaslarından olan və hinduslların bu gün də hörmətlə yanaşdığı canlılara əzab-əziyyət verilməməsi prinsipini qeyd etmək olar. Belə ki, ət yeməyi özlərinə haram etmiş və vegetarian həyatı seçmişlər. Bundan başqa, buddizm məktəbində nirvanaya çatmaq üçün nəzərdə tutulmuş nəfsani istəkləri tərk etmək kimi digər bir prinsipi də qəbul etmiş və onu öz üslublarına .çevirmişlər

Brahmanizm öz inkişaf yolunda enişli-yoxuşlu yolları qət etdikdən, müxalif, əks ideoloji cərəyanlar və rə'ylərlə qarşılaşdıqdan sonra bu çətinliklərə və uyğunsuzluqlara cavab tapmaq üçün öz ideoloji əsaslarını genişləndirməyə məcbur oldu. Onlar bununla cəmiyyətin müxtəlif təbəqələrinin istəklərinə cavab vermək və ayrı-ayrı düşüncə, maraq və mənafe sahiblərində bu ayinə meyl yaratmaq istəyirdilər. Bu kimi güzəştlərin miqyası elə bir həddə olub ki, Hindistanın müstəqilliyinin banisi Qandi demişdir: " - Ola bilər ki, kiminsə Allaha imanı olmasın, amma o, yenə də hinduizmdə dindar sayılacaqdır. Bu şərtlə ki, daim həqiqət axtarışında olsun. Çünki, Allah məhz ".həmin həqiqətin özüdür

Buna görə də, həm Allaha inanıb iman gətirənlər, həm də onu inkar edənlər - aydındır .ki, bu iki dəstə bir-birinə zidd olan iki qrupdur - bu ayinə əsasən hindus ola bilərlər

Bu kompromis əsasında, həyat üçün yalnız bir ali məqsədi qəbul edən və o məqsədə çatmağın da yalnız bir yolunu göstərən brahmanizm ayini öz dəyişikliklər dövründə insan həyatı üçün dörd icazə verilən məqsəd irəli sürmüşdür. Bu məqsədlərin hamısi icazəli və qəbul edilən olmaqla hər birinin xüsusi qayda-qanunları vardır. Zövq və meylindən asılı olmayaraq hər bir e`tiqadlı şəxs bu dörd məqsəddən birini seçə, öz həyatını onun qanunları əsasında qura bilər. Təbiidir ki, belə bir şəxs bu ayinin ardıcılı hesab olunur. Məqsədlərdən hər birinə çatmaq üçün bir-birindən fərqlənən üç konkret yol da nəzərdə tutulmuşdur. Bu izahla aydın olur ki, brahmanizm ayininə inananlar üçün həyatda

həqiqətə qovuşmaq naminə altı məqsəd müəyyənləşdirilmişdir. Eləcə də öncə sitayiş üçün təqdim olunan çoxsaylı mə`budlardan yeni dəyişikliklərdə yalnız üçü rəsmən .tanınaraq pərəstişə layiq görüldü, qalanlarına isə az diqqət yetirildi

Bəhsdən çıxan nəticə bundan ibarətdir ki, bu gün geniş Hindistan torpaqlarında şahidi olduğumuz və çoxsaylı ardıcılları olan hinduizm, yuxarıda qeyd edildiyi kimi, brahmanizmdə baş vermiş proses və dəyişikliklərin məhsuludur. Çünki qədim hinduizmin əsas xüsusiyyəti brahmanların (hindus ruhanilərinin) qeyd-şərtsiz hakimiyyətindən ibarətdir. Adətən bu dövrü brahmanizm, yeni dövrü isə hinduizm .adlandırırlar

Burada, hinduizmdə həyatın dörd icazə verilən məqsədini və üç nicat yolunu araşdıracağıq. Bu ayinin digər ictimai və ideoloji əsaslarında baş verən dəyişiklikləri isə .gələn dörd dərsdə təhlil edəcəyik

### HƏYATIN DÖRD MƏQSƏDİ

Bu dörd məqsəd və hədəfi öz həyatının amalına çevirən hər bir hindus məzəmmət və :qınağa tuş gəlməyəcəkdir. Bu dörd məqsəd aşağıdakı formada təqdim olunmuşdur

Kama: Maddi eşq və məhəbbət şəklində təzahür edən nəfsani ləzzətlər axtarmaq və .١ onlardan bəhrələnmək mə’nasını daşıyır. Hinduslar bu məqsədi o dərəcədə mühüm və həyati hesab edirlər ki, hətta kamaya ilahi və fövqəlbəşər qüvvə kimi yanaşır, onu müəyyən surətdə təsvir edərək pərəstiş edirlər. Kamanın təsviri müxtəlif növ güllər və çiçəklər bəzədilmiş kaman şəklində təqdim olunur və gülün beş şaxəsi insan qəlbini .hədəfə alan beş ox kimi onu əhatə edir

Hinduizmdə eşq (maddi-mə’nəvi) axtaranları, eləcə də cismani ləzzətləri sevənləri doğru yola yönəltmək üçün şe’r və ya səhnəcik şəklində müəyyən qayda və adətlər, .eləcə də “Kama-sutra” yaxud “Natiye-şastra” adlanan əsərlər nəzərdə tutulmuşdur

Buna əsasən də, öz ömürlərini bu kimi maddi ləzzətlərin axtarışına sərf edənlər məzəmmət olunmayacaqlar. Əlbəttə bu şərtlə ki, ictimai norma və qayda-qanunları ayaqlar altına atmasınlar. Eyni zamanda, inanclarına görə, insan sonrakı həyatında nəfsani ləzzətlərin nicata çatmaqda ruhun elə bir rolu olmadığı həqiqətini anlayacaq,

.buna görə də ruhunun tam sakitliyə qovuşduğu ali məqsəd tapmağa çalışacaqdır

Arta: Bu maddi şan-şöhrət və qüdrət axtarmaq, mal-dövlət toplamaq, sərvət . ٢ yığmaq, rifahda yaşamaq, yüksək ictimai məqam və mənsəblərə çatmaq deməkdir. Bu məqsəd də yolverilən sayılmışdır və insan ona çatmaq naminə çalışa bilər. Əlbəttə, bu məqsədə çatmaq başqaları ilə rəqabət aparıb onları arxaya atmaq və təbii ki, rəhimsizlik və qəddarlıqla müyəssər olur. Qədim hindus kitab və mənbələrində “ərta-şastra” adlanan yazılarda, eləcə də “pənce-təntrə” (“Kəlilə və Dimnə” hekayətləri) kitabında həyat və hakimiyyət uğrunda mübarizə meydanında düşmənlərə və rəqiblərə qələbəyə dair hekayələrdə zarafatla deyilmiş ciddi göstərişlər vardır. Buna -əsasən də, hinduizm ayinində tə’yin olunmuş qayda

qanun və şərtlərə əməl ediləcəyi, onlardan boyun qaçırılmayacağı təqdirdə şan-şöhrət və məqam üçün çalışmağın həyat amalına çevrilməsinə icazə verilir. Hərçənd, onun da sonrakı həyatlarda, yaxud hazırkı həyatında öz səhvini anlayaraq nicat yolunun bundan ibarət olmadığını başa düşəcəyi gün gəlib çatacaqdır. Göründüyü kimi, hinduizm ayinində yuxarıdakı iki məqsədə icazə verilməsi sonrakı doğulma və həyatlara e'timaddan, təmənnadan irəli gəlir. Bildiyimiz kimi, hinduizm dinində yenidən doğulmalara, yeni həyat və tənasüxə e'tiqad bəsləndiyinə görə insanın dünyadakı həyatının hər bir raundu sonrakı həyatlar üçün təcrübə meydanı ola bilər. Bu baxımdan hinduslarda belə bir ümid var ki, özlərinin ilkin həyatlarında həyat yolunu səhv getmiş olsalar, öz səhvlərini anlaya və sonrakı həyatlarda həmin işlərin təkrarından çəkinə bilərlər. Kama və artanın hər ikisinə e'tiqad bəslənməsi səhv və azdırıcı bir məqsəd olmasına baxmayaraq, burada hər iki məqsədin ardıcıllarının öz yollarının səhv və xəta olmasını anlayaraq sonrakı yeni həyatlarında düzgün yolu - qurtuluşu seçə bilmələrinə imkan var. Bu baxımdan hinduizmdə belə səhvlərə düçar olmaq yolları açıq qoyulmuş, hətta bu yolu gedənlərin özlərini daha arxayınlıqla hindus hesab etmələri və xəcalət hissi keçirmələri üçün müəyyən qanun və tə`limatlar da .işlənmişdir

Darma: Bu məqsəd dini-əxlaqi şəriət deməkdir. Hinduslar vicdanın bəyəndiyi incə .٣ qayda-qanunlar silsiləsini istəyən şəxs üçün müəyyənləşdirmişlər ki, şəriət tələb edən şəxs onun əsasında özünün - ailə, siniflər və cəmiyyət qarşısındakı vəzifələrini bilərək onlara əməl etsin. "Darmaşastra" adlanan digər şəriət qanunlarına dair kitablar, "Mano qanunları" kitabı da bu qrupa yol göstərmək üçün yazılmışdır. Bu məqsədi seçənlər özlərini nəfsani istəklər, şan-şöhrət və məqam istəklərinin buxovlarından azad edərək onları xeyir və saleh əmələ daha yaxınlaşdırmaqla onlar üçün ruhi şadlıq və fərəh hissini ərməğan gətirən məqsədi seçə bilərlər. Eyni halda bu məqsəd də son hədəf deyil əksinə, mütləq xilas və qurtuluşa nail olmaq üçün daha ali məqsədi .seçməlidir

Məkşe və ya mukşa: Bu da son məqsəd və hədəf mə'nasınadır ki, hinduizm .۴ məktəbində lap əvvəldən kitablarında insana səadət və qurtuluş bəxş edən yeganə məqsəd kimi təqdim edilən son məqsəd və hədəf mə`nasını verir. Bu məqsədi seçən

bir şəxs öz ruhunu bütün əzab-əziyyətlərdən xilas edərək nirvana məqamı olan mütləq rahatlığa nail olur. Bu mərhələdə artıq ardıcıl doğum və tənasüx dövrü çərxi aradan gedir. Bu məqsədə çatmaq bütün dünyəvi istəkləri tərk etmək və istənilən maddi istəkləri, nəfsani meylləri məhv etməklə mümkündür. Buna görə də, ümumiyyətlə götürdükdə hinduizm öz ardıcıllarının önündə açdığı yolverilən ۴ hədəf və .məqsəddən ikisi azdırıcı, digər ikisi isə düzgün və nicatvericidir

Hinduizm ayini əbədi səadətə, son məqsədə nail olmaq üçün üç yolu nicat yolu kimi təqdim etmişdir ki, onların hər üçü bu ayinin ardıcılları arasında mö’təbər və məqbul .sayılır. Bu üç yol aşağıdakılardır: əməllər, elm və ixlas yolu

Əməllər yolu: Bu ən ümumi yol olub xalq kütlələri üçün başa düşülən və praktikdir. .١ Bu yolda hindus olan şəxs nicat mənzilinə çatmaq üçün dini əməlləri, adət və ibadətləri öz yolunun şüarına çevirir. Bu yolda fəlsəfi, əqli məsələlərə daha az diqqət yetirilir, “Mano qanunlarında” və hindus şəriət mətnlərində təklif olunan ibadət və dini rituallar qurtuluşa zəmin hazırlayır ki, ruh bu vasitə ilə müsbət və layiqli karmadan –səadətdən bəhrələnir. Qurbanlıq mərasimini yerinə yetirmək, mə’bədə, mə’budların hüzuruna, yaxud əcdadların ruhlarına hədiyyələr vermək, günəşə, oda sitayiş, hörmətlə yanaşmaq üçün aqni-hutra ritualını icra etmək, bir sözlə bu dinin öz ardıcılları üçün nəzərdə tutmuş olduğu bütün saleh əməl və ibadətlər ixlas, dönməz e`tiqad və inamla yerinə yetirilərsə hindusun nicat tapmasına, ruhunun ölümdən sonra göylərdən birinə yüksəlməsinə səbəb olacaqdır. Bu ruhun yenidən brahmanın (hindus ruhani) müqəddəs vücudunda zühur edərək, onun brahmaya (mütləq ilahiləşməyə) gedən .yolunu daha da asanlaşdırması mümkündür

Hindus şəriətində dini əməllərin bir qismi kişilər üçün nəzərdə tutulmuşdur və yuxarıda onlardan bəhs olundu. Bu təkliflərin bir qismi də qadınlara aiddir ki, yalnız onları yerinə yetirdikləri təqdirdə onların üzlərinə qurtuluş qapısı açılacaqdır. Bu ayində qadın tam itaət və təvazökarlıqla ərinin quluğunda durmalıdır. Bu qulluq göstərməkdə o dərəcədə ifrata varmışdır ki, “Mano qanunları” kitabında deyilir: “ - Vəfalı qadın öz ərinə allah kimi pərəstiş etməlidir. Onun ölümündən sonra isə artıq başqası ilə ailə ”.qurmağa haqqı yoxdur

Elm yolu: Bu yolun əsası bundan ibarətdir ki, insanın bütün şər, müsibət və əzab- .٢ əziyyətlərinin əsas amili onun cahilliyidir. İnsan cəhalət zülmətlərində qərq olduqca həqiqətdən uzaq düşür, həqiqətin şərh və izahında zəlalətə, azğınlığa düçar olur. Bu əqidəyə görə əxlaqi xətalar insan bədbəxtliklərinin yeganə mənşəyi hesab olunmur; əksinə, insanı əzab-əziyyətlərə, o cümlədən əxlaqi pozğunluqlara, xətalara düçar

edən məhz onun ağlındakı və fikrindəki xətalarıdır. Bütün şərlərin, əzab-əziyyətlərin mənşəyi olan cəhalət əslində insanın öz nəfsinə müstəqil kimlik kimi yanaşmasından qaynaqlanır. Ancaq, həqiqət budur ki, yalnız mütləq vəhdət brahman atmənin tam ruhu və nəfsinin vücududur. Onun dərgahında ikilik və təfriqə yoxdur, insani nəfs də əslində onun özüdür. Buna əsasən hindus o zaman qurtuluşa nail ola bilər ki, bu həqiqətləri tapsın, elm yolunu qət etsin, cəhalətini bu həqiqətləri aşkarlamaqla aradan :götürsün. Bu yolun özünün də dörd mərhələsi vardır

.I. Tələb və təhsil; Bu mərhələdə hindus müəllimin yanında lazım olan tə’limləri alır

II. Ailə qurmaq mərhələsi; Bu mərhələdə hindus öz müəlliminin yanında təhsil aldıqdan .sonra elminin varisi olan oğul sahibi olmaq üçün ailə qurur

III. Təcridolunma mərhələsi; Bu mərhələdə tə’lim görmüş şəxs rahiblik və guşənişinlik .dövrünü keçir

IV. Müqəddəslik, yaxud arhat (kamil insan). Bu mərhələdə hindus son məqsədə nail .olur

Göründüyü kimi, bu yolda da yalnız elmi və əqli metodlarla kifayətlənməmiş, rahiblik .metodu da nəzərdə tutulmuşdır

İxlas yolu: Bəqti-marqə adlanan və əvvəlki iki yoldan sonra ixtira olunan bu yolda .٣ hindus xüsusi bir mə’buda sadiq iman və xalis məhəbbətlə özünü yaxşı padşahlığı qazanmaq üçün hazırlayır. Bu yol tədricən mə’buda qarşı yandırıb qovuran eşq formasını alır və hindus şəxs öz varlığını sevimli mə’buduna fəda edir. Bu halda o, hər .bir yerdə və hər bir halda mə’buda sitayiş və onunla razi-niyaz etməklə məşğul olur

Bu yol tərəfdarlarının fikrinə görə, əvvəlki iki yolun yolçuları əsas e`tibarı ilə xəta edənlər hesab olunurlar, çünki onlar seyri-süluka şəxsi mənfəət gözü ilə baxırlar. Halbuki, nicat və qurtuluşa nail olmaq üçün insan öz vücudunu büsbütün saflaşdırılmalıdır. O, özünü mə’budlardan birinə həsr etməlidir ki, onun lütfü yolçuya da .şamil olsun və onu səadətə, qurtuluşa yönəltsin

Bəqti-marqə” metodu ən mühüm, ən böyük və ən məşhur kitab olan Bhaqavad-gita“ kitabında irəli sürülmüşdür. Krişna nəğmələri adı ilə məşhur olan bu kitab hal-hazırda .hinduizmin ən mühüm və əsas kitablarından biri hesab olunur

### SUAL VƏ TAPŞIRIQLAR

?Brahmanizm və hinduizm ayinləri arasında hansı fərqlər vardır .١

.Hinduizm ayinində icazə verilən dörd məqsədi izah edin

.Nicat və qurtuluşun üç yolunu qısa şəkildə izah edin

.İcazə verilən dörd məqsəddən hansı biri ardıcıl doğulmalardan qurtarmaq yoludur

## ON DOQQUZUNCU DƏRS

## (HİNDUİZM (٢

### ALTI MƏKTƏB

Hinduizm də həqiqətin aşkarlanması və dərki üçün çox saylı əqli və əməli yollar mövcud olsa da, onların arasında altı ideoloji və fəlsəfi məktəb, daha böyük əhəmiyyətə malikdir. Bunun səbəbi həmin məktəblər arasında mövcud olan ayırıcı və fərqli xüsusiyyətlərdir. Əlbəttə, bu altı məktəbin ortaq cəhətləri də vardır və bu da onların vedalar, brahmanların və upanişadların hinduizmin iman qanunları səriəti qismində bu kitab üçün yazdıqları iki şərhə iman və e`tiqaddan irəli gəlir. Hindusİar bu .kimi məsələlərdə həmfikirdirlər

Hinduizm dünya görüşü və baxışlarının izahı saydıqlarına görə bu altı ideoloji məktəbin tədqiqi böyük əhəmiyyət daşıyır. Buna görə də bu dərsdə həmin altı əqidə məktəbini :qısa şəkildə araşdırırıq

Nyaye məktəbi: Bu məktəbdə məntiqi arqument və əsaslandırmalar üslubu Aristotel .١ məntiqi üzərində qurulmuşdur. Belə ki, bə’ziləri Aristotelin bu üslubu hinduslardan götürdüyünə inanırlar. Əlbəttə, bu iki cərəyanın hansının əvvəl, hansının sonra olmasını dəqiq şəkildə müəyyənləşdirmək olmaz. Nyaye məktəbi məntiq və əsaslandırma yolu ilə hinduslara görə dünyəvi əzab-əziyyətlərin səbəbi, ardıcıl .doğulmalardan xilas yolu olan yolu tapmağa çalışır

Bu dindəki inanclara görə, yenidən doğulmaların, sonsuz əzab-əziyyətlərin əsas amili bir sıra səbəblərə bağlıdır və bu səbəblər bir-birinin ardınca yox olarsa nicat və :qurtuluş baş tutacaqdır. Nyaye məktəbində bu barədə belə deyilir

Əzab-əziyyət, doğulmalar, fəaliyyət, bağlılıqlar və düzgün olmayan elm azğınlığın - “ və son nəticədə ardıcıl təvəllüdlərə düçar olmağın səbəbləri hesab olunur.” Bu əqidəyə əsasən, düzgün olmayan elm ürək bağlılıqlarından yaranır və onlar insanın fəaliyyətindən, fəaliyyət də doğulmalardan hasil olur. Yenidən doğulma və ölümdən sonrakı aqibət mə’nasını daşıyan təvəllüd elə yenidən doğulmaq deməkdir. Buna görə də, dünyəvi əzab-əziyyətlər aradan gedərsə, yenidən doğulma dövri çarxı dayanacaq

və nəticədə bağlılıqlar və düzgün olmayan elmlər də yox olacaqlar. Əzab-əziyyətləri yox etmək üçün bağlılıqlar nəticəsində yaranan düzgün olmayan elmi aradan götürmək lazımdır. Bağlılıqlar düşüncədəki asılılıqlardan, nadanlıq, nifrətdən ibarətdir və bunun özü də yeni fəaliyyət yaradır. Buna görə də, düşüncə asılılığı, nadanlıq və nifrət aradan gedərsə bağlılıq üçün heç bir əsas qalmır. Bağlılıq olmadığı təqdirdə isə yeni fəaliyyət – istər xeyir, istərsə də şər olmur. Çünki hər bir halda bağlılıq üçün səbəb aradan qalxmış olur. Belə ki, fəaliyyət olmayanda, heç bir təvəllüd də olmayacaqdır və .bu halda yenidən doğulmalar, yeni əzab-əziyyətlər də aradan qalxacaqdır

Nyaye e’tiqadlarından biri də ruhun müstəqil olmasıdır. Bu e’tiqada əsasən ölüm sadəcə olaraq ruhun cismdən və duyğu orqanlarından ayrılmasıdır. Ancaq, əvvəlki

əməllərin tə`sirləri lətif cismdə toplanır və ruhla birlikdə yeni bir qəlibə keçməklə insanın müqəddəratını və şəxsiyyətini formalaşdırır. Buna əsasən ruhun ardıcıl təvəllüdlər proseslərindən xilas olması üçün onu əməllərin tə'sirindən azad etmək .lazımdır. Bu məqsədə çatmaq üçün də fəaliyyət və bağlılıqlardan uzaqlaşmaq lazımdır

Vaysesika məktəbi: Bu məktəbin əsas üslubu dünyanın zatını tədqiq etmək ətrafında .٢ cərəyan edir. Bu məqsədə çatmaq və dünyanın zatı barədə tədqiqat aparmaq üçün motivləri nyaye məktəbinin prinsipləri üzərində qurulan analitik bir metod seçilmişdir. Bu məktəbdə obyektiv dünya bariz və aydın bir gerçəklikdir; onun əsaslandırma və arqumentlərinin əsasını hiss, təcrübə təşkil edir. Buna əsasən xarici aləm inkarolunmaz bir varlığa malikdir və aləmi təşkil edən zərrələr əbədi, sonsuzdur. Bu zərrələrdən təşkil olunan cismlərin davamsız, müvazinətsiz, süst bir mahiyyəti olmaqla sabitlik və mövcudluqlarını qorumaqdan məhrumdurlar. Bu varlıqların ömrü qısa olur və müəyyən müddətdən sonra yoxluğa düçar olurlar. Bu varlıqların sabit olmaması .onların zərrələrinin və zat tərkiblərinin möhkəm, davamlı olmamasından irəli gəlir

Vaysesika məktəbi ruhların çoxluğu, maddi aləmdə ikilik, ilkin zərrələr, mə'nəviyyat və ruhlar aləmini qəbul etmişdir. Bu e'tiqada əsaslanaraq belə deyirlər: " - Ruhların çoxluğu zərrələrin və cismlərin çoxluğu kimi saysız-hesabsızdır və hər bir ruh özünü tanıma, ağıl, müştərək hiss, duyğu hissələri, emosiyalar, bağlılıqlar, xatirələr və s.-nin şamil edildiyi daxili hissə malikdir. Yenidənyaranma prosesində təkrar doğulmanın səbəbi bir-birinə zidd olan iki dünyanın, yə'ni maddi və mə'nəvi aləmin bir-birinə qarışmasıdır. Bu qarışıqlıq ruhların sərgərdan qalmasına, çoxlu əzab-əziyyət və məşəqqət çəkmələrinə səbəb olur. Dünyanın əzab-əziyyətlərindən və maddiyyatın buxovlarından azad olmaq yalnız bu iki dünyanın bir-birindən ayrılması, ruhun maddənin çirkinliklərindən xilas olması ilə mümkündür. Ruh azad olduqdan sonra öz paklığı, lətifliyi və fitri sadəliyini yenidən tapır, ruhla yanaşı bir bədəndən digər bədənə keçən maddi eybəcərliklər, stereotiplər və əməl tə'sirlərindən təmizlənir. Bu buxovlardan xilas olan andaca, yenidən doğulmalardan da nicat tapır. Nəticədə əzab-əziyyətlərə və məşəqqətlərə son qoyulur, onun yerinə bəşər ruhunun dərinliklərində ".sonsuz sevinc hakim olur

Sankiya məktəbi: Bu məktəb hinduizmin ən mühüm fəlsəfi üslubu və ən geniş .٣

yayılmış ideoloji sistemi hesab olunur. Bu məktəbin əsasını ikiliyə pərəstiş təşkil edir və aşkar şəkildə veda monoteizmindən ayrılmışdır. Bu məktəb inancına görə varlıq aləmində iki qədim və əzəli həqiqət mövcuddur: birincisi maddə, yaxud təbiət aləminin özü olan və terminologiyada “prakriti” adlanan surətdir. Digəri isə ruh, yaxud gözəgörünməz, hiss olunmaz olan və “puruşa” adlandırılan “mə`na”. Prakriti bir-birindən ayrı olan başlanğıcını ağlın və nəfsani gücün ən ali təbəqələrindən götürərək gözlə yekunlaşan ۲۳ ünsürdən formalaşmışdır. Bu ۲۳ ünsürün hər birinin üç hal və təbiəti vardır ki, onlara “triqun” deyilir. Birincisi terminologiyada “sətvə” deyilən ,yüngüllük, səadət

rahatlıq, ağlıq və paklıq halıdır. İkinci, terminologiyada "rəcəs" adlandırılan hərəkətin yaradıcısı olan fəal istək və şövq halıdır. Üçüncüsü zülmət və qaranlığa səbəb olan durğunluq, donuqluq halıdır. Bu hala "təməs" halı deyilir. "Puruşe"nin ikinci həqiqəti fərdi ruhların hər biri müstəqil və əbədi olan sonsuz ədədlərindən ibarətdir. Bu ruhların təbiət aləmində həbs olunması, bədbəxtlik və əzab-əziyyətə dözməsi cəhalətdən, onları tanımamaqdan irəli gəlir. Cəhalət bütün bədbəxtliklərin mənşəyidir. Cəhalət insanların maddə ilə mə`na və ya cism ilə ruh arasında fərq qoymamasına, nəticədə ruhun cismin buxovlarında və təbiət qüvvələrinin əsarətində olmasına gətirib çıxarır. Buna görə də, çarəsiz qalıb dövri doğulmalar girdabında fırlanır. Yalnız arif insan bunların bir-birindən ayrı olduğunu dərk edərək, onları cism əsarətindən azad edər, sükunət və əbədi rahatlıq halına çatdırar. Məhz bu mərhələdə ruh nicat və qurtuluşa qovuşaraq ardıcıl doğulmalardan xilas olur. Buna əsasən də, son dərslərdə izah olunmuş əvvəlki üç yoldan yalnız elm yolu sankiya məktəbi tərəfindən qəbul olunur. Bu .məktəbə görə, səadət və qurtuluş da yalnız həmin yolla əldə oluna bilər

Yoqa məktəbi: Bu məktəb fəlsəfi və nəzəri məktəb olmaqdan öncə, müəyyən .۴ mə`nada irfani ayin və seyri-süluk hesab olunur. Bu məktəbin əqidəsinə görə, nicat və qurtuluşa nail olmaq üçün nəfsani, zehni və əqli məsələlər silinməlidir. Onlar bu mövzunu belə izah edirlər ki, xüsusiyyəti aydınlıq olan zehn cövhəri qaranlıq və hərəkət cövhərləri ilə qarışdıqda bütün əşyaları ihtiva edərək, onlara hakim kəsilir. Daha sonra isə onlara qarşı bağlılıq hiss edir. Qaranlıq cövhəri zehnə üstün gələrsə, insan fəzilətsizlik və mə`rifətsizlik uçrumuna, eləcə də maddi asılılıqlar zülmətinə yuvarlanır. Hərəkət cövhəri zehnə qələbə çaldıqda isə insanda fəzilət, mə`rifət və hürriyyət sifətləri formalaşır. Əgər zehn hərəkət cövhərinin çirkinliyindən də azad olarsa, öz zatında qərar tapır və daha sonra isə ruhla maddə arasında olan fərqləri, .ayrılıqları dərk edir

Bütün bunlara görə də, yoqa məktəbinin əsaslarının sankiya məktəbi ilə eyni olduğunu görürük. Çünki onların hər ikisi ruhla maddə arasında olan ayrılıq anlayışına yiyələnməyi nicat və qurtuluşa çatmağın yeganə yolu hesab edirlər. Əlbəttə, hər iki məktəbin tutduğu yol bir-birindən fərqlənir. Yoqa məktəbinə görə, insan cəmiyyətlə başı qarışdıqda və yemək, içmək və s. kimi gündəlik məşğul olduqda onda bağlılıq,

asılılıq yaranır və bu da ruhla maddənin həqiqəti arasında fərqi ayırd edə bilməməklə nəticələnir. Buna görə də ruhun həqiqi mə`rifətin bu mərhələsinə çatması üçün bütün adət və istəklərin əksinə hərəkət etmək lazımdır. Bu məqsədlə yoqa məktəbi cəmiyyətdən uzaqlaşmağı, ləzzətləri tərk etməyi, nəfsə nəzarət etməyi, hətta uzun bir müddətdə sakit qalmağı və nəhayət adətləri tərk etməyi, nəfsin həyatda xüsusi bir .praktikaya, üsluba aludə olmasından çəkinməyi öz şüarına çevirmişdir

Ümumiyyətlə yoqanın çətin və ağır asketik təmrinlər ayini olduğu təəsüratı yaranır. Xüsusi hərəkətlər vasitəsilə nəfsdə hiss və idrak öldürülür, cism ruha tabe etdirilir. Belə ki, tədricən hər bir hissdən məhrum olur. Yalnız belə olan halda ruh

bütün maddi, xəyali və zehni eybəcərliklərdən təmizlənir, batinin saflaşdırılması ilə .mütləq fənaya nail olur və beləliklə də səadətə qovuşur

Purva-mimansa məktəbi: Bu məktəb öz banisinin adı ilə adlandırılmışdır. Əslində .۵ veda nəğmələrinin şərh və tədqiqi üçün yaradılmışdır. Mimansa vedaların əbədi olmasına inanırdı. Bu e`tiqad söz və səslərin əbədi olması əsasında yaranmışdır. Hinduslar inanırdılar ki, səs hər bir yerdə və hər bir zamanda potensial olaraq mövcuddur və heç vaxt itmir. Buna görə də söz danışılan zaman səs yaradılmır, əksinə potensial haldan reallığa keçir. Sözlə mə`na arasında əzəldən sirli bir əlaqə olmuşdur və bu əbədiyyətə qədər davam edəcəkdir. Sözlərlə mə`nalar arasında olan əlaqədə insan tərəfindən tə`yin olunan qərarlar hakim deyildir. Onlar arasında həqiqi və fiziki bir əlaqə vardır. Bu baxımdan hinduslarının vəhy qismində qəbul etdikləri vedalar əbədi .və həmişəlik bir kəlamdır

Bu məktəb də vaysesiko məktəbi kimi ruhların çoxluğunu və karma qanununu qəbul edir. Yuxarıdakı prinsipə diqqət yetirməklə hər kimsənin vedanın ibadət ayinlərinə və vəzifələrinə əməl edərsə, onun nəğmələrini oxuyarsa, bu vəzifələrin yerinə yetirilməsi sayəsində həmin şəxsdə savaba, mükafata səbəb olan lətif qüvvənin yaranacağına onda mükafat, cəza, yaxşı əməllərin mükafatı da vedanın zatında gizlənmiş qanunlar əsasında formalaşacağına inanırlar. Buna əsasən də, həmin məktəbdə şər`i vəzifə və mükəlləfiyyətin yerinə yetirilməsi nicata, qurtuluşa çatmağın rəhni sayılır. Mimansa bu barədə belə deyir: “ - Şər`i vəzifə veda göstərişlərinə əsaslanan və insanı doğru yola ”.yönəldəndir

Vedanta məktəbi: Vedanta məktəbi vedaların son şərhi əsasında formalaşmışdır. .۶ Vedanta adı ilə məşhur olan bu təfsirlər upanişadların fəlsəfi əsasları sayılır. Bu məktəbdə xarici aləmin, duyulanların olduqlarına, ilğım və batil xəyal kimi qeyri-real və aldadıcı çöküntüyə malik olmalarına inanırlar. Bu məktəb eyni zamanda vəhdət prinsipinə inanmaqla, varlıq aləminin həqiqətində ikililik məsələsini rədd edir. Bu e`tiqada əsasən dünya və Brahma bir-birindən ayrı olan iki həqiqət deyildir və vücud başdan-başa Brahmanın vücududur. Qalan işlər isə xəyali düşüncə və aldadıcı illüziyalardan başqa bir şey deyildir. Fiziki aləm, fərdi ruh, ardıcıl doğulmalar və tənasüx aldadıcı, qeyri-real işlərdən hesab olunur. İnsan ruhu təkcə duyulanlara və

mə`lumatlara arxalansa yalnız əşyaların zahirini dərk edər, onun batinindən xəbərsiz qalar. Əgər əşyalar və duyğu orqanları ilə dərk olunan varlıqlar həqiqət kimi təsəvvür olunursa, bu da cəhalətdən və nadanlıqdan irəli gəlir. Deməli, Brahmanın özü olan mütləq ruh və nəfs barədə mə`lumatsızlıq və cəhalət fərdi ruha inanmağımıza, daha sonra buna əsaslanaraq əşya və duyulanlar üçün də müstəqil bir həqiqət nəzərdə tutmağımıza səbəb olur. Mütləq ruha (Brahmaya) diqqət yetirmək tənasüx və ardıcıl təvəllüdlər adı ilə zorla düşüncəmizə qəbul etdirdiyimiz xəyali əzab-əziyyətlərdən qurtulmağa zəmin yaratdığı halda, yuxarıdakı məsələ insanı çətinliyə, əzab-əziyyətə .düçar edir

**POLEMİKA VƏ TƏDQİQAT**

Hinduizm fəlsəfə məktəblərinin hər birinin nəzəri əsaslarını qısaca araşdıraraq bir-biri .ilə müqayisə edin

səh:۱۱۶

## İYİRMİNCİ DƏRS

### (HİNDUİZM (٣

### TRİMURTİ

Bundan əvvəlki bəhsdə brahmanizm ayinini araşdırarkən bu ayinin əvvəlcə həyat atributlarından hər biri üçün xüsusi mə’buda e`tiqad etdiyini, tədricən öz dəyişikliklər prosesi boyunca çoxsaylı tanrıları kənara qoyaraq, onlardan yalnız üçlük tanrılara inandığını öyrəndik. Üçlük tanrılar əslində çoxsaylı mə’budların təcəllisi və simvolu olmaqla onların bütün sifətlərini özlərində daşımışlar. Üçlük təşkil edən bu mə’budlar :qrupuna sanskrit dilində trimurti deyilir. Onların adları aşağıdakılardır

;Brahma – yə’ni yaradan mə’bud .١

;Vişnu – yə’ni qoruyan mə’bud .٢

.Şiva – yə’ni məhv edən mə’bud .٣

Bilməliyik ki, hinduizmdən əlavə, başqa məktəblərdə də üç mə’buda, yaxud üç həqiqətə e’tiqad bəslənilir. Qədim Misirdə “Ozirs”, “Əniris” və “Huros”adlanan üçlük tanrının Flutin fəlsəfəsində qədim və əsildən ibarət olan üç həqiqəti, xristianlıqdakı üçlüyü (ata, oğul və müqəddəs ruh) tao ayinində isə səma, yer və insan həqiqətlərini .üç mə’budun nümunələri kimi qeyd etmək olar

Əlbəttə, müxtəlif məktəblərdə üç həqiqətə, yaxud üç mə’buda e’tiqad bəslənməsinin eyni mənşədən qaynaqlanması və ya bu məsələnin sırf təsadüf olması dəqiq mə’lum deyil. Xüsusilə də, yuxarıdakı üçlüklərin mahiyyət və məzmunu bir-birindən tamamilə fərqlənir və onlardan birinin digərinin mənşəyi olmasını dəqiq iddia etmək mümkün .deyil

Hinduizmin ardıcılları, varlıq aləmində üçlük tanrıların dünyanın işlərini birgə idarə etməsinə inanırlar. Əlbəttə, vaxt keçdikcə və hinduizmdə müxtəlif firqələr yarandıqca firqələrdən hər biri üç mə’buddan birini digərindən üstün tutmuşdur. Belə ki, Şivanın digər mə`budlardan üstün sayıldığı Şiva firqəsində Vişnu və Brahma surətində də təcəlli edən Şiva varlıq aləminin mənşəyi və mütləq əsasdır. Vişnu firqəsinin ardıcılları

Vişnu mə’budunu ali qəbul edərək, Brahma və Şivanı onun təcəllisi kimi təsəvvür edirlər. Ancaq, hinduizm məktəbinin əsas e’tiqadları baxımdan bu üç mə’bud üç simvolun vücudunda təcəlli etmiş bir-birindən ayrılmaz vahid həqiqətdir. Hindus mə’budlarının bizə gəlib çatmış heykəl və təsvirlərin də trimurti üçbaşlı bir bədən .şəklində təsvir olunur

:Bu dərsdə hinduizmin üç mə’budla əlaqədar baxışlarını şərh edirik

Brahma: Bütün varlıqların yaradıcısı və xilqətin mə’budu Brahmaya daha az ibadət .١ və sitayiş olunur. Çünki hindusla r inanırlar ki, onun tanrılar tanrısı kimi dünyanı yaratdıqdan sonra artıq yer üzərində başqa heç bir məs’uliyyəti yoxdur, qalan işlər Vişnu və Şiva mə’budlarının öhdəsinə düşür. Bu baxımdan bütün Hindistanda Brahmanın adına az sayda mə’bəd var. Eyni halda hinduslar Brahmaya hörmətlə yanaşır və onun üzü vedalar oxumağa məşğul olan dörd başlı

bir padşah kimi təsvir olunur. Bu şəkillərdə o əksər hallarda ağ bir qaza minmiş halda .əks olunmuşdur ki, bu da onun yüksək məqamını, şan-şöhrətinin simvolu sayılır

Vişnu: Vişnu, yaxud qoruyub saxlayan mə’budun öhdəsinə yaradılış sisteminin . ۲ keşiyini çəkmək düşür. O kainatı fırladır və ilin ۳۶۰ günlük dövrünü hərəkətə gətirir. Bütün kainat onun zatına bağlıdır və həyatın bütün sahələrinə yayılmışdır. Eyni zamanda, həyatın əsası və yaşayışın davam etməsinin amili sayılır. Vişnu sonsuzluğa qədər genişlənib və heç kəs böyüklükdə və genişlikdə onun qarşısına çıxa bilməz. O, kainatın mehvəridir, ulduzlar və səma cisimləri onun ətrafına fırlanır. Şivanın ölüm və məhvetmə, Vişnonun isə həyatın yeniləşdirilməsi mə’budu olmalarına baxmayaraq, bunlar birlikdə olan və bir-birilərini tələb edəndir. Ölüm olmadan həyatın, yoxluq olmadan varlığın mə’nası yoxdur. Hinduslar Vişnunu xeyir-bərəkətin mənşəyi, mehr-məhəbbət və səmavi mərhəmətlərin kamil simvolu hesab edirlər. O, səmanın ənginliklərindən varlıqların əməllərinə nəzarət edir, əziz bir varlıq ölüm təhlükəsi ilə üzləşdikdə ona köməyə tələsər və onu xilas edər. Hindus dini mənbələrinə əsasən, Vişnu doqquz dəfə müxtəlif surətlərdə təcəlli edərək bəşəriyyətin köməyinə çatmışdır. O, ilk dəfə ilahi şəriət və sünnətləri gətirən, hinduslarin Nuhu sayılan qanunverici Manoya kiçik bir balıq surətində təcəlli etmiş və bundan sonra tədricən böyüyərək nəhəng bir balığa çevrilmişdir. Bu halda Mano onu tanıyır və Vişnu ona dəhşətli bir tufanın, selin olacağını xəbər verir. Sonra ona əmr edir ki, böyük bir gəmi düzəltsin və batmaqdan xilas olmaq üçün ona hər bir varlıqdan, bitkilərdən və insanlardan mindirsin. Vişnu bir daha tısbağa surətində zahir olur. Bu da aləmin süd okeanı formasında olduğu bir vaxtda baş verir. Digər mə’budlar dənizin dibində tısbağa kimi üzərkən Vişnudan okeanı hərəkətə gətirməyi və beləliklə də camaatı lazım olan kərə .və yağla əbədi olaraq tə’min etməsini istəyirlər

Üçüncü dəfə Vişnu qaban surətində təcəlli edir. Bu da yerin tərk edilmiş okeanın dibinə batdığı vaxtda baş verir. Vişnu öz dişləri ilə yeri qaldıraraq nur aləminə və işıqlığa doğru yönəldir. Vişnu dördüncü dəfə yarısı insan, yarısı yırtıcı şir surətində zahir olur. Bu vaxt Vişnuya e’tiqad bəsləyib, pərəstiş etdiyinə görə öz övladına əziyyət verib onu öldürmək niyyətində olan şeytanlardan biri Vişnunun güclü caynaqları ilə öldürülür və onun övladı da azad edilir. Beşinci dəfə cırtdanboy bir insan surətində zahir olan Vişnu

ruhi məşğələlər sayəsində fövqəladə qüdrət sahibi olan və nəticədə özünü üç aləmin hökmdarı hesab edən Bali adlı əhriməni cəhənnəmin dərin qatlarına göndərir və bununla da əhrimənin gücündən bərk qorxuya düşmüş digər mə'budlar rahatlıq tapırlar. Vişnu altıncı dəfə əlində balta olan "Rama" surətində və brahmanın bir övladı olaraq zahir olur. O zaman kşatrya təbəqəsinin döyüşçüləri brahman təbəqəsinin əleyhinə qiyam qaldırmışdılar. Vişnu brahmanların xeyrinə meydana daxil olaraq, ٢١ dəfə baş verən güclü müharibələrdən sonra kşatryaları məğlub edir və brahmanların hakimiyyətini möhkəmləndirir. Yeddinci dəfə o, yenə Rama surətində zahir olaraq vəzifə, kamal, şəriət və haqq simvoluna çevrilir. Səkkizinci dəfə isə Krişna

surətində zahir olur. Krişna məhəbbət, xoşbəxtlik simvolu, qəm-qüssəni məhv edəndir. Nəhayət, Vişnu doqquzuncu dəfə zühur etdikdə "Qautama-Budda" formasında zahir olur. Vişnunun doqquzuncu dəfə Budda şəklində zahir olmasına e'tiqad bəlkə də buddistlərin hinduizmdən ayrılmasının qarşısını almaq və bu iki ayin arasında bir növ dinc yanaşı yaşayış və sülh yaratmağa xidmət etmişdir. Əvvəlki dərslərdə qeyd olunduğu kimi, Hindistanda buddizm tədricən hinduizmlə qaynayıb-qarışmış ancaq, hinduizmin yayılmadığı və ya ümumiyyətlə mövcud olmadığı bir sıra .ölkələrdə bu ayin müstəqil şəkildə inkişaf edib genişlənmişdir

Hinduslar Vişnunun "kalki" surətindəki başqa bir təcəlli və zühurun olmasına və bu zühurun hələ baş vermədiyinə inanırlar. Vişnu hazırkı dövrümüz olan zülmət dövrünün sonunda "Kalki" surətində zahir olacaqdır. O ağ ata minəcək, əlində parlaq qılınc olacaq. Öz zühuru ilə dünyadakı pis əməl və din sahiblərini cəzalandıracaq, yaxşı əməl, din sahiblərini axirət ne'mətlərindən bəhrələndirəcəkdir. O, zühur edən zaman bütün varlıq məhv olacaq, yeni bəşər və yeni bir dünyanın bünövrəsi qoyulacaqdır. Gözəl adət-ən'ənələr yaranacaq, qızıl əsr yenidən başlanacaqdır. Bhaqavata-porana :kitabında bu barədə oxuyuruq

Hazırkı dövrün qürubunda, bu diyarın hökmdarlarının hamılıqla oğru olduğu zaman" ".kainatın əmiri brahmandan vücuda gələcək və onun adını "Kalki" adı qoyacaqlar

Şiva: Şiva hindusların üçüncü mə'budu, ölüm və yoxluq allahıdır. O viran qoyan, yox .٣ edən mə'bud olmaqla hindusların nəzərində əhəmiyyət və imtiyazına görə digər iki mə'buddan daha üstündür. Ona "Mahadeva"- yə'ni "ən böyük rəbb" ləqəbi də vermişlər. Şivaya müxtəlif simvollar və mürəkkəb sifətlər də sanmış, onu varlıqları öldürən və puç edən rudra kimi vəsf etmişlər. Riqveda onu "ən qüvvətli və qorxunc heyvan kimi qəzəbli" kimi qeyd edir. O, səmavi qəzəbi dövründə ona pərəstiş edənləri öldürür, onların uşaqlarını, atalarını və heyvanlarını da məhv edir. Ona pərəstiş edənlər ondan əmin-amanlıq, lütf və mərhəmət diləyirlər. Onun silahı ildırımdır, öldürücü ox və kamanı ilə bir arabaya minmişdir və qəzəbləndiyi zaman bütün varlıqları məhv edir. Bu sifətlərlə yanaşı ona bağışlayan və xəstəlikləri müalicə edən həkim kimi sifətlər də şamil olunur. Çünki o, mə'budların qəzəblənməsinin qarşısını alır, asimani ne'mətləri və feyzi insanlara bəxş edir. O, mö'cüzəli dərmanların sahibi,

həkimlərin həkimi, hər bir xəstəliyi sağaldandır. Bu mə`budun Veda dövrünün şairlərinin düşüncələrində yaratdığı qorxu və vəhşət, mübarək və uğur sifətlərinin, yə`ni Şivanın da rudraya aid edilməsinə səbəb olmuşdur. Hinduizmin sonrakı dövrlərində ona dağıdıcılıq sifəti də aid edilmiş və o, hindus müqəddəsliyinin üç .əsasından biri hesab olunmuşdur

Hindusların inancına görə Şiva, aləmi məhv etməklə iki iş görür: birincisi, dünyadakı surətləri bir-birindən ayırır və bununla da cəhalət və nadanlıq pərdələri aradan qaldırılır. Digər iş isə həyatı yeniləşdirməkdir. Aləmin məhv olunması yeni yaradılışı tələb edir. Şiva həm ölüm, yoxluq sultanıdır; həm həyatın mənşəyi və onun hərəkətverici qüvvəsidir. Şiva aləmi məhv etməklə yeni doğumlar prosesinin

əsir olanları, nadanlıq və cəhalət buxovlarındakı varlıqları azad edir. Yeni yaradılış mövsümündə Şiva divanə rəqqas kimi dağ və çölləri təpikləyərək əl çalır, təbil və şeypurundan qiyamət səsi çıxır, bütün varlıqlara forma və qiyafə verir, yeni bir aləmin .binasını qoyur. Bunun nəticəsində varlıqlar yenidən həyata və fəaliyyətə başlayırlar

Şivanı rəsmlərdə əksər hallarda dörd qolunu iki tərəfə açaraq havada əlini yelləməklə hiylə və yalan şeytanının cəsədi üzərində rəqs edə-edə onu təpikləyən halda təsvir edirlər. Onun bir əlində kiçik bir təbil, digər əlində isə şö’lələnən alov vardır. Təzə doğmuş aypara şəkli onun başının ətrafını örtür və Qanqa çayının suyu saçlarından axıb tökülür. Onun başında və ayağında da həyat qüvvəsi və varlıq qüdrəti cilvələnir. Hinduslar inanırlar ki, onun “rəqs edib təpik döydüyü” şəkli dünyada ölüm və həyat .dövri çarxının sür`ət rəmzidir

Eyni zamanda, hinduslarƒın inanclarına görə, dağlarda məskunlaşmış Şiva dağların zirvəsindən fələkə baş vuraraq səhralara və çöllərə hücum çəkir, bəla və müsibətləri camaatın başından tökür. Dağların ətəyində dərman bitkiləri bitdiyindən, hinduslar bunu da Şivanın lütf və mərhəmətinin bəhrəsi kimi qələmə verirlər. Sanki, o bununla xəstəliklərə də hücum etmək istəmişdir. Buna əsasən, Şiva heç də həmişə insanlar üçün ölüm və yoxluq amili deyil, əksinə xəstəlik törədən amilləri məhv etməklə camaatın asayiş, rifah və səadətinə də şərait yaradır. Buna görə də, hinduslar Şivanı təkcə şər və əziyyət verən bir mə’bud kimi tanımır, ona yaradıcı və həyatverici çalarlar da verirlər. Əlbəttə, Şivanın vasitəsilə bu kimi yaranışlar ilkin mərhələyə deyil, sonrakı mərhələlərə aiddir. Çünki qeyd olunuduğu kimi, ilk yaranış brahmanın vəzifəsidir və .sonrakı xilqətlər Şivanın, onun qorunub saxlanması isə Vişnunun öhdəsinə düşür

### MƏ`BUDLARIN HƏYAT YOLDAŞLARI

Hinduizm e`tiqadlarından başqa biri də dəyişiklik baş verdikdən sonra mə`budların özlərinə həyat yoldaşı seçməsidir. Hinduizmdə mə`budlar üçün yaradıcı qüvvəsi :qismində üç həyat yoldaşı nəzərdə tutulmuşdur və onlar aşağıdakılardır

;Vaç, yaxud Sarasvati – bu Brahmanın həyat yoldaşıdır .۱

;Şrilakşmi, yaxud Radha – bu Vişnunun həyat yoldaşıdır .۲

.Uma, Durqa, yaxud Kali – bu isə Şivanın həyat yoldaşı hesab olunur .٣

Hinduslar bir müddətdən sonra mə’budların “Şakti” adlandırılan həyat yoldaşlarına da mə`budlara olduğu kimi pərəstiş etməyə başladılar. Əslində Şivanın özünə nə dərəcədə xüsusi diqqət yetirilirsə, onun həyat yoldaşları da e`tiqad baxımdan hinduslar tərəfindən həmin xüsusi məqama layiq görülürlər. Bu iki həyat yoldaşına sitayiş tədricən xüsusi forma kəsb etmiş və hətta Hindistanın şimal-şərq bölgələrində .şaknizm adlı firqə də yaranmışdır

Ümumiyyətlə, hinduizm e’tiqadları arasında mə’budların xeyir və yaradılmışlar kimi qiymətləndirilənlər erkək və dişi mə’budların izdivacının səmərəsidir. Əslində varlıqların təvəllüdü bu üç mə’buddan hər birinin öz həyat yoldaşları ilə

izdivacının təzahürüdür. Başqa sözlə desək, üç mə’buddan hər biri öz vəzifə və .məs’uliyyətlərini həyat yoldaşlarının həmkarlığı ilə yerinə yetirirlər

**POLEMİKA VƏ TƏDQİQAT**

Əqaid dərsində öyrəndiklərinizi nəzərə almaqla hinduizmdəki trimurti e`tiqadını .təkallahlıq arqumentlərinə əsasən təhlil edin

səh:۱۲۱

**İYİRMİ BİRİNCİ DƏRS**

**(HİNDUİZM (۴**

**DİGƏR ƏQİDƏLƏR**

Keçən dərs hinduizm ideologiyasının ən mühüm əsaslarının, yə'ni üç mə'bud e'tiqadının (Brahma, Vişnu və Şiva) araşdırılmasına həsr olunmuşdu. Hindus cəmiyyətlərində mövcud olan digər e'tiqadların ən mühümləri ilə aşağıda tanış :olacağıq

**SAYSIZ–HESABSIZ TANRILAR .۱**

Keçən dərsdə qeyd olundu ki, brahmanizm ayinində baş verən və hinduizmin formalaşmasına gətirib çıxaran dəyişikliklərdən biri də çoxallahlığın üçlük təşkil edən trimurti mə'budlarına sitayişlə əvəz edilməsi olmuşdur. Ancaq, bu dəyişiklik və məhdudiyyət təkcə ideoloji strukturda və hinduizmin müqəddəs kitablarının nəzəri əsasları səviyyəsində təqdim olunur, onların ümumi inanclarında isə hələlik saysız–hesabsız tanrılara inam qalmaqdadır. Bunun səbəbi hinduizmdə – keçən dərsdə qeyd olunduğu kimi üçlük mə'budlar üçün müxtəlif zühurlar, təcəlli və simvollar nəzərdə tutulmasındadır. Bundan əlavə, onlara coxsaylı həyat yoldaşları da ayrılmışdır. Belə ki, həm mə'bud və həm də onun simvolu sayılan Krişnanın ۱۶۰۰۰ arvadı vardır ki, bu həyat yoldaşlarından hər biri ilahə (Şakti) qismində pərəstiş olunur. Nəticədə bu dinin sıravi ardıcılları öz istəklərinə uyğun olaraq təbii fenomenlərin və varlıq aləmindəki dəyişikliklərin, eləcə də həyatdakı hər bir iş üçün xüsusi bir mə'bud nəzərdə tutmuşlar. Onlara belə öyrədilmişdir ki, mə'budlar, onların təzahür və təcəllisi üçün heykəl və bütlər düzəldilməklə onlar müqəddəs sanılsın. Belə bir əqidə əsasında onlar bütün mə'budların simvolları üçün heykəl düzəltməyə başladılar. Bu heykəllər tədricən ayrıca büt və mə'buda çevrilmiş, onların simvol olmaları unudulmuşdur. Bu mə'budların sayı təxminən ۳۳۰ milyona çatır. Belə ki, hər bir hindus özünün hər bir istək və ehtiyacını tə`min etmək üçün bu mə'budlardan birinə sığınır. Misal üçün, onun işində müəyyən bir çətinlik, yaxud onun irəliləyişində bir durğunluq, və ya maneə yaranarsa "Qaneşa"ya təvəssül etməlidir. Zəifliyə, gücsüzlüyə mübtəla olarsa "Hanuman" mə'buduna pənah aparmalıdır. Bu ardıcıllıqla çətinlik, sonsuzluq, özünün, ailəsinin,

yaxud heyvanların xəstəliyi, təhlükəli səfərlər və bütün bu kimi çətin məsələlərdə mə’budlardan birinə pənah aparmalıdırlar. Bu tanrılar təkcə mə’bədlərdə və mənzillərdə deyil, hər bir yerdə, o cümlədən çayların sahilindən tutmuş ağacların altına, dağların ətəyindən başlayaraq ucsuz-bucaqsız çöllərə qədər büt, heykəl, yaxud .müəyyən əlamət şəklində qoyularaq sitayiş və ibadət olunurlar

Keçən dərslərdə qeyd olundu ki, ümumiyyətlə hinduizm məktəbi kompromis və güzəşt ayinidir. Çünki bu ayin camaatla qarşıdurmaya icazə vermir və bu zəmində

hamı ilə mülayim davranmağı öz devizinə çevirmişdir. Buna əsasən də, məzhəbin ardıcıllarının hər biri öz hiss, zövq və istəklərinə uyğun mə’budlarla əlaqə yarada bilmişlər. İnsanların təfəkkür tərzi, hissləri adətən bir-birindən fərqləndiyinə görə həyatdakı hər bir iş, xilqət aləmindəki təbii dəyişikliklər və fenomenlərin hər biri üçün tədricən müəyyən bir mə’bud nəzərdə tutmuşlar. Sadə hinduslərın e`tiqadlarında .saysız-hesabsız mə’budların yaranmasının səbəbi, rəmz və sirri də bundadır

## İBADƏT VƏ PƏRƏSTİŞ .٢

:Hinduizmdə ibadət və pərəstiş üç yolla yerinə yetirilir

;Fərdi .١

;Ailəvi .٢

.İctimai .٣

Fərdi ibadət adətən hindus şəxsin zərurət və ehtiyac olan hallarda evdə və ya mə`bəddə, yaxud da nəzərdə tutduğu tanrının sitayiş olunduğu yerə getməklə .yalvarış və ahu-zarla ibadət rituallarını yerinə yetirilməsi formasında olur

Ailəvi ibadət mərasimi ailənin bütün üzvlərinin iştirakı və üzvlərdən birinin və yaxud də`vət olunmuş brahmanın rəhbərliyi ilə ailənin mə’budu sayılan heykəl, təsvir və ya .hər hansı digər əlamət qarşısında yerinə yetirilir

İctimai ibadətlər də xüsusi vaxtlarda bütün camaatın iştirakı, eləcə də brahmanların rəhbərliyi və yol göstərməsi ilə şəhərin, kəndin, yaxud məhəllənin mə’bədində yerinə .yetirilir

## MƏ`BƏDLƏR .٣

Hindistanda çoxlu mə’bəd və ziyarətgahlar var. Bunun səbəbi əslində hinduizm e`tiqadlarında saysız-hesabsız mə’budların olması və ilahi təzahürlərin çoxluğudur. Varlıq aləminin təzahürlərindən hər birinin xüsusi bir mə’budu olduğu halda təbiidir ki, bütün təbiət aləmində və insan cəmiyyətində saysız-hesabsız mə’budların şahidi olacağıq. Hindistanda əvvəllər dua, ibadət mərasiminin yerinə yetirilməsi üçün tikilən

və hindusların dini mərasimləri üçün toplantı yeri olan mə’bədlərdən əlavə, camaatın e’tiqadına əsasən mə’budların təcəlli və zühur yeri, yaxud onlardan birinin diqqət yetirdiyi məkan olan çoxsaylı ziyarətgahlar da vardır. Bu ziyarətgahlar şəhərin, kəndin, dağların içində, çeşmələrin kənarında, çayların sahilində, çöldə, səhrada və bir sözlə hər bir yerdə tikilə bilər. Əgər bir şəxs “ – Bu ziyarətgahlar nədir?” deyə soruşarsa, güman ki, ona “ – Mə’budlardan hansı birisə xüsusi bir zamanda və xüsusi bir məqsədlə burada təcəlli etmiş”, yaxud “ – Bu yerdə onun hansısa bir mö’cüzə və ya kəraməti olmuşdur” deyə cavab veriləcəkdir. Hindus tarixi əfsanələrində çayın buruldugu hər bir yer, hər bir dağın zirvə və qabarıqlığına aid hekayə var və bu hekayənin məzmunu orada Şiva və Şaktinin zahir olması, yaxud Rama ya Krişnanın mö`cüzə, kəramət göstərməsindən ibarətdir. Mö’min və e’tiqadlı

hindusların nəzərində saleh əməllərdən və bəyənilən ibadətlərdən biri də çayın mənbəyindən sağ tərəfin kənarında su ilə eyni axarda hərəkət edərək bu işi çayın dənizə qovuşduğu yerə qədər davam etməkdir. Daha sonra həmin yolu çayın sol tərəfindən geri qayıdaraq bu əməli ibadət və dərgaha yaxınlaşmaq məqsədi ilə yerinə yetirsinlər. Yol boyunca hər hansı bir mə'bədlə qarşılaşsalar dayanıb orada zikr-dua etməli, müqəddəs kitabları oxuyub özləri üçün savab ehtiyatı toplamalıdırlar. Eyni zamanda, ziyarətgahlardan bə'ziləri hinduslar üçün xüsusi e`timada layiqdirlər. Belə ki, ehtiyacı olan insanlar hər il ziyarət məqsədi ilə uzaq-yaxın şəhərlərdən oraya axışırlar. Əlbəttə, yol boyu bir çox ziyarətgahlara da baş çəkib ibadət edirlər. Qeyd etmək lazımdır ki, bu ibadətgahların heç də hamısında ibadət etmək hinduslara .müyəssər olmur

## QANQA ÇAYI .۴

Qanq çayı hindusların e'tiqadına görə Şiva, Rama, Krişna, yaxud hər hansı hindus mə'budlarından birinin zühur və təcəlli yeri sayılan çaylardan daha müqəddəs və əhəmiyyətlidir. Hindusların dini əfsanələrində nəql olunur ki, "ana" da adlandırılan Qanqa çayı səmada Vişnunun ayağından qaynaqlanmışdır. Sonra Şivanın başının ortasına enmiş, onun saçlarından axmış və başdan-başa Hindistan torpaqlarına yayılmışdır. Bu çay Himalay dağları arasında, hinduslarin ən mühüm ibadət mərkəzlərindən sayılan Hardvar adlı yerdən qaynaqlanır. Mö'min, xəstə və ehtiyacı olanların öz diləklərini diləmələri, xəstəlikdən şəfa tapmaları və günahlardan təmizlənmələri üçün özlərini çayın suyu ilə yumaları məqsədilə bu yerdə, çayın hər iki .sahilində yüzlərlə hamam tikilmişdir

Cəmna və Qanqa çaylarının qovuşduğu yer də hinduslarin müqəddəs məkanlarından sayılır. Bu məkanda bir zaman hinduslar üçün müqəddəs sayılmış, indi isə qurumuş Səlsuti çayı da Cəmna və Qanqa birləsirdi. Çayların qovuşduğu bu yerdə hal-hazırda tarixi Allahabad şəhəri salınmışdır və bu yer hər il milyonlarla hindus ziyarətçini qoynuna alır. Onlar Məla adlanan böyük toplantıda bir yerə yığışaraq dini ibadət və ayinləri birlikdə yerinə yetirirlər. Qanqa çayının Benqal körfəzindəki qolu digər mühüm və müqəddəs məkanlardan sayılır. Bu çayın deltasında yerləşən Suqur adası da hər ilin ilk günündə minlərlə hindusun qüsl, ziyarət və ibadət əməllərinin yerinə yetirdiyi

məkanlara çevrilir. Qanqa çayının sahilində yerləşən Benares şəhəri də hinduslarin müqəddəs məkanlarındandır və hər il saysız-hesabsız ziyarətçi Qanqa çayında qüsl etmək məqsədi ilə Hindistanın hər bir yerindən ora tələsirlər. Hinduslar inanırlar ki, bu məkanda qüsl etmək onları bütün günahlardan təmizləyir. Buna görə də, çayın sahilində zəvvarların qüsl verməsi üçün “qat” adlanan çoxsaylı yerlər inşa olunmuşdur. Hinduslar ziyarət mövsümündə Qanqa çayının sahilində vəfat edənlərə, xüsusilə də ölüm anında ayaqları suda olana daha çox səadət və xoşbəxtliyin nəsib olduğuna inanırlar. Onların e’tiqadına görə belə bir şəxsin ruhu asimana gedir və Şivanın .qonşuluğunda əbədi şadlıqda həyat sürür

## BRAHMAN .۵

Brahmanlar, yaxud hinduizm ruhaniləri bu ayinin ardıcılları arasında xüsusi mövqe və müqəddəsliyə malikdirlər. Hindistanda bə'zi dini şəxsiyyətləri müqəddəsləşdirmək də qədim dövrlərdən geniş yayılmışdır. Buna görə də hinduizmdə brahmanlar müqəddəsləşdirilmişlər. Müqəddəs Mano qanunu brahmanı insanın xəlq edilməsində Allahla bərabər hesab edir və onun təvəllüdünü ilahi qanunun insan bədənində təcəssümü sanır. Buna görə də, hinduslar brahmanlara yalnız müəllimlik, mürşidlik və rəhbərlik baxımından deyil, ilahi məqam baxımından da hörmət edib onları müqəddəsləşdirmişlər. Əslində, dünyada olan hər bir şey onların diqqət və vücudlarının bərəkəti sayəsindədir; hansı vəzifə və mənsəbdə - istər cahil olsunlar, istərsə də savadlı - məqamlarından heç nə azalmır; onlara əzab-əziyyət vermək .bağışlanmaz günah hesab edilir

Bundan əvvəl də öyrəndiyimiz kimi, brahmanlar kasta sinfi quruluşunda ən yüksək təbəqə olmuş və hamı sonrakı təvəllüdlərdə brahman kimi yaşamağı arzulayır. Brahmanların arasında "Quru" adlanan brahman-müəllim camaatın nəzərində daha böyük imtiyaz və məqam sahibidir. Quru müəllimlik və ideoloji əsasların tə`limindən .əlavə, ailəvi-ictimai mərasimləri, dini-ibadət rituallarını keçirmək vəzifəsini daşıyır

Brahmanlardan başqa hinduslar tərəfindən ehtiram və hörmətə, müqəddəsliyə layiq görülən digər şəxslərin də adını çəkmək olar. Onlardan həqiqəti kəşf etmək, qurtuluş mərhələsinə nail olmaq üçün ən ağır şəraitdə yaşayan, özlərini ən ağır təzyiqlərə mə'ruz qoyan murtaz və cukyaları qeyd etmək olar. Hinduslar inanırlar ki, onlar özlərini mə'budların yoluna həsr etdikləri, dünyəvi həyatı qurtuluşa çatmağa fəda etdiklərindən ehtirama və müqəddəsliyə layiqdirlər. Bu müqəddəslik elə bir həddədir ki, onlar hinduslarin ibadət mərasimlərində iştirak etdikləri zaman camaat onların başına və üzünə əl çəkməklə, ayaqlarında olan toz-torpağı üzlərinə sürtməklə .təbərrük edirlər

## İNƏYİN HÖRMƏTİ .۶

Hinduslar inanırlar ki, yaranışın ilk dövrlərində insanla heyvan arasında heç bir ayrılıq və uçurum olmamışdır. Buna görə də, onlar insanla heyvan arasında sair heyvanların

insandan yarandığını göstərən təkvini əlaqənin olduğunu təsəvvür edirdilər. Bu e’tiqada əsasən insanla heyvanın ruhu əslində birdir və onların ruhları həmişə bir-birinə keçir. Heyvanların rəngarəngliyi, onlardakı dəyişikliklər də yalnız karma nəticəsində yaranan bir sıra tənasüx və ardıcıl doğumların tə’sirinə görədir. Nümunə üçün, hinduslar fili Şivanın oğlu hesab edirlər və onun heykəli bədbəxtliyin aradan qaldırılması üçün bir vasitədir. İlan və meymun onlara görə qorxunc olduğundan,onların ilahi bir məqama malik olduğuna inanırlar. Sancması dərhal ölümlə nəticələnən, kobra növündən olan naqa ilanına xüsusi ehtiram göstərilir. Hər il hinduslar bu ilana ehtiram naminə xüsusi dini

bayram keçirir; onların yuvalarının yanına gedir, hədiyyə, peşkəş kimi süd və banan verirlər. Hinduslar heyvanların hörmətini saxlamaq, xüsusilə ilanlara hörmət göstərmək üçün çoxlu mə'bədlər tikmişlər və oralarda da çoxlu heyvanlar yaşayır. Kərtənkələ, bəbir, tovuz quşu, tutuquşu, hətta siçana da pərəstiş edir; öz diləklərini .diləmək və istəklərinə çatmaq üçün meymuna da nəzir edirlər

Hinduslar inəyə daha böyük hörmətlə yanaşır, müqəddəs və xüsusi məqam sahibi sanırlar. Hər bir yerdə, mə'bəd və evlərdən başlamış şəhər meydanlarına qədər inək heykəli görmək olar. Bu heyvanı öldürmək və ya istifadə etmək tamamilə qadağan edilib və haram sayılır. Onlar küçə və xiyabanlarda sərbəst hərəkət azadlığına malikdirlər. İnəklərə əzab-əziyyət verməyə, azadlıqlarını məhdudlaşdırmağa icazə verilmir. İnək ifrazatı məlhəm və təbərrük kimi, onun sidiyindən isə daxili və xarici murdarlıqları paklaşdırmaq üçün istifadə olunur. Hinduslar öz ölülərini odda yandırsalar da, ölü inəklərin cəsədini çox böyük ehtiramla, xüsusi bir dini mərasimlə .torpağa tapşırırlar

Hinduların arasında geniş yayılmış adətlərdən biri də inəkləri Şivaya vəqf etmək, yaxud onları azad etməkdir. Onlar bu əməlin böyük savabı olduğuna inanırlar. Digər tərəfdən, bu heyvanı öldürmək bağışlanmaz günah hesab olunur və bu işi törədən şəxs kasta təbəqəsindən çıxarılaraq daha aşağı təbəqəyə endirilir. Hindistanda inəyə o qədər hörmət qoyulub ki, tarix boyu müsəlmanlarla hinduslar arasında baş verən toqquşmaların əsas amili müsəlmanlar tərəfindən qurban bayramında bu heyvanın .qurban kəsilməsi olmuşdur və bu indi də belədir

Hinduların üçün inəyin bu qədər hörmət və müqəddəsliyinin səbəbi dəqiq mə'lum deyil. Vill Dorant keçmiş dövrlərdə uzaqgörən bir hakimin bu yük heyvanının nəslini qoruyub saxlamaq, kənd təsərrüfatı işlərində istifadə etmək və mənfəət götürmək üçün onun öldürülməsini qadağan etdiyini və bu işin tədricən dini-məzhəbi xarakter alaraq müqəddəsləşdiyini ehtimal edir. Hər halda Hindistanda inəyə bu qədər hörmət və müqəddəslik indiyə qədər davam etməkdədir. Hətta Hindistanın müstəqillik :mübarizələrinin rəhbəri Qandi bu barədə münasibət bildirərək demişdir

Mənim fikrimcə, inəyi müdafiə edib qorumaq insanın dəyişməsinin ən təqdirəlayiq"

fenomenlərindən biridir. Mənə görə, inək bəşəriyyətdən sonrakı aləmin cövhəri və batini mə`nasıdır. O, insanı bəşər irqinin hüdudlarında yerləşdirir. Bəşər öz şəxsiyyətinin bütün canlılarla bütövləşməsinə inəyin vasitəsilə nail olur. Dişi inək milyonlarla hind bəşər övladının anası deməkdir. İnək bir mərhəmət və şəfqət şe'ridir. İnəyi qoruyub ona hörmət göstərmək tanrının bütün yaratdıqlarına hörmət ".göstərməkdir

## SUAL VƏ TAPŞIRIQLAR

?Hindusların saysız-hesabsız mə'budlara pərəstiş etməsinə nə səbəb olmuşdur .۱

?Hinduizmdə ibadət neçə formada yerinə yetirilir .۲

?Hindusların müqəddəs məkanları hansılardır .۳

?Hindusların Qanqa çayına olan e'tiqadları nədən ibarətdir .۴

?Hinduizm ardıcılları arasında brahmanlar hansı məqama və mövqeyə malikdirlər .۵

.Hindusların inək barədə olan baxışlarını izah edin

səh:۱۲۷

## İYİRMİ İKİNCİ DƏRS

### (HİNDUİZM (۵

### FİRQƏLƏR

Keçən dərsdə kompromis və mülayimlik hinduizmin təməl prinsipləri və ideoloji əsaslarından olması, hind cəmiyyətində rəngarəng təəssürat və qənaətlərin formalaşması, bunun nəticəsində çoxallahlılıq e’tiqadı, mə’budların saysız-hesabsız heykəlləri, bütlər, çoxlu mə’bədlər, çoxşaxəli dini qayda-qanunlar və əməllər, e’tiqad sahəsində müqəddəs kitablar yarandığı qeyd olunmuşdur. Zaman keçdikcə, bir tərəfdən belə bir vəziyyətin formalaşması, digər tərəfdən isə hinduizmin İslam və xristianlıq kimi böyük əqidə məktəblərilə qarşılaşması hinduslarin arasında müxtəlif firqələr yaranmasına gətirib çıxartdı. Bu firqələrin ən mühümi siqh ayinidir və əslində ona bir yeni din kimi baxmaq lazımdır. Bu din İslamla hinduizmin qarşılaşması nəticəsində meydana gəlmişdir. Bu barədə gələn iki dərsdə bəhs olunacaqdır. İngiltərənin Hindistandakı müstəmləkəçilik dövründə İslam, xristianlıq və qərb mədəniyyəti ilə qarşılaşma nəticəsində yaranan digər firqələrin ən mühümlərini bu :dərslərdə araşdıracağıq; onların ən geniş yayılmış dəstələri aşağıdakılardır

Brahma-samac firqəsi; Bu firqənin əsası ۱۸۲۸-ci ildə Ramnuhan Roy adlı brahman .۱ tərəfindən qoyulmuşdur. O, Mahavira və Budda və s. Hind mütəfəkkirləri kimi həqiqətin kəşf olunması üçün uzun illər sərgərdan həyat sürərək daim axtarış aparmışdır. Ramnuhan Roy digər ideoloji cərəyanlarla tanış olmaqla yanaşı, hind cəmiyyətində mövcud olan minlərlə təfəkkür tərzi arasında həqiqəti tapmağa .çalışmışdır

O, İngiltərə dövləti tərəfindən xristianlığın Hindistanda təbliği üçün göndərilmiş missionerlərlə tanışlıqdan sonra xristian əxlaqına maraq göstərmiş, İslam kimi monoteist dinləri tədqiq etdikdən sonra allahpərəstliyi və tovhidi seçmişdir. Sonra, təkallahlılıq baxışlarını hinduizmin müqəddəs kitabları ilə əlaqələndirmək üçün hindusların dini inanclarını yenidən nəzərdən keçirmişdir. Buna əsasən də upanişadlara yazdığı yeni təfsirdə hinduizmdəki bütün çoxallahlıq və müşrik .nəzəriyyələri rədd etmişdir

Buna görə də, brahma-samac hinduizmin təkallahlı firqəsi sayılır və onun inancları varlıq aləminin yaradıcısı və qoruyanı, əbədi ulu tanrının ruhi zatının təkliyi əsasında qurulub. Bu firqə şirkin hər bir növünü və çoxallahlığı batil hesab etdiyinə görə də hinduizmin şirkin, çoxallahlığın simvolu olan bütlərə, tanrıların heykəllərinə sitayiş, bütlərə qurban kəsmək kimi bütün ibadət ritualларını qadağan və rədd edir. Bununla yanaşı, xristianlığın əxlaq norması olan "başqaları ilə onlardan özünə qarşı gözlədiyin rəftara uyğun rəftar et" prinsipi bu firqədə mühüm əxlaq norması kimi xüsusi .mövqeyə malikdir

Ramnuhan Roy o dövrdə qərblilər tərəfindən öz müstəmləkələrində geniş təbliğ edilib yayılan Qərb humanizminin tə'siri altına düşmüşdür. Hinduizmin Qərbin

ümumbəşəri düşüncələrinin hücumu qarşısında müdafiə oluna bilməsi üçün insan hüquqlarını pozan bütün qanun və prinsipləri rədd edərək onlara qarşı çıxdı. Buna görə də, dul qadınların ölmüş ərlərinin cəsədi ilə birlikdə yandırılması, azyaşlıların zorla evləndirilməsi və s. qanunları tamamilə qəbuledilməz sayıldı. Ramnuhan Roy eyni halda hinduizmin müqəddəs kitablarını, yə'ni vedanta və upanişadları qəbul etmişdir. Bu firqə də hinduizm mə'bədlərində olan pərəstiş və dua mərasimlərini əvvəlki səpkidə yerinə yetirir. Firqənin kasta sinfi quruluşunu rədd etməsinə baxmayaraq, brahmanlar yenə də yüksək məqam sahibidirlər və bu firqədə onlara xüsusi hörmət göstərilir. Hətta Ramnuhan Royun ardıcıllarından çoxu onun şəklinə pərəstiş edərək .hörmətlə yanaşırlar

Buna görə də, brahma-samac firqəsi İslam, hinduizm, xristianlıq və qərb tərzi-təfəkkürlərinin, eləcə də onun banisinin şəxsi e'tiqadlarının sintezi nəticəsində formalaşmışdır. Bu ayin ۱۹-cu əsrin ikinci yarısında yenidən parçalanmasına baxmayaraq, hal-hazırda hinduizmin ən mühüm firqələrindən biri kimi tanınır və .Hindistanda çoxsaylı ardıcılları vardır

Arya-samac; Bu firqə də Qərb mədəniyyəti və fikirləri ilə birbaşa qarşılaşdıqda . ۲ hinduizmi qərblilərin tənqidlərindən qorumaq məqsədi ilə yaranmışdır. Bu firqə əslində hinduizmə mütərəqqi və humanist imic qazandırmaq, insanlar üçün cəlbedici görünəbiləcək bə`zi Qərb ideoloji prinsiplərinə müqavimət göstərmək məqsədi ilə yaradılmışdır. Brahma-samacın əksinə olaraq, bu firqə xristianlığın və Qərbin humanizm prinsiplərindən bə'zilərini qəbul etməklə hinduizm dini inanclarında .islahatlar aparmışdır

Brahmanlardan olan "Dayananda Sarasvati" bu firqənin banisidir. O veda, yaxud arya məzhəbinə qayıdışı, zaman keçdikcə xürafat, qeyri-məntiqi və qeyri-insani şəkilə düşmüş bütün inancların islahını öz ayininin əsasına çevirmişdi. O, vedaların büt və heykəllərə pərəstişə mənfi yanaşdığına; veda dövründə mə'bədlərdə bütlərə pərəstiş məsələsinin əsla olmadığına inanmışdır. "Dayananda" bu baxımdan həmin əməllərin əleyhinə çıxmışdır. O, insan hüquqları ilə əlaqədar veda mətnlərində dul qadının diri-diri yandırılması, uşaqların zorla evləndirilməsi barədə heç nə deyilmədiyi mövqeyində dayanmışdır. Buna görə də o, bu göstərişlər və bu qəbildən olan digər qanunlara qarşı

olmuşdur. Vedalar toplusunda kişilərə qarşı qadınlar tərəfindən heç bir həqarət və çatışmazlıq görmədiyindən, qadınlara ehtiram, onların şəxsiyyət və məqamına hörmət .qoyulmasını geniş təbliğ etmişdir

Sarasvati hinduizm ayinində apardığı bu islahatlarla yanaşı digər veda dini ayinlərin və ibadətlərinin üzərində xüsusi dayanmış, hindusların başqa insanlardan seçilməsində israr etmişdir. Bu baxımdan Sarasvati müəyyən mə`nada irqçi ayin yaratmağı nəzərdə tutmuş, ariya soyunun üstünlüyünü sübut etmək istəmişdir. Onun ariya irqi məsələsinə tə'kid etməsi və öz firqəsini arya-samac adlandırması da bu fikirləri təsdiq edir. Bu təfəkkür və e'tiqad tərzi tez bir zamanda həmin firqə ardıcıllarının Hindistandakı digər din və firqələrin davamçıları, xüsusilə də

.xristian və müsəlmanlar arasında kəskin və qanlı-qadalı qarşıdurmalara səbəb oldu

Arya-samac firqəsinin ardıcıllarının inancına görə Hindistan hindus məzhəbli bir ölkədir. Çünki onun əhalisinin əksəriyyətini hinduslar təşkil edir. Buna görə də müsəlman, xristian və ya qeyri-hindus məzhəb ardıcılları hindus qanunları əsasında yaşamaq istəməsələr bu ölkəni tərk edə bilərlər. Bu ayinin ardıcılları məhz həmin səbəbdən dünyəvi (qeyri-dini) əsasda qurulan Hindistanın hazırkı Konstitusiyasının əleyhinə çıxış edərək ölkədə hindus qanunlarının (hindu-rac) həyata keçirilməsini tələb edirlər. Onlar indiyə qədər dəfələrlə müsəlmanların, yaxud xristianların inək kəsmələrindən hindusların başqa dinlərin ardıcıllarına qarşı təhrik olunması üçün istifadə edə bilmiş, mülayim təbiətli, kobud rəftardan qaçan və güzəşt əhli olan əcdadlarının əksinə olaraq, çox kobud və militarist ruhiyyə ilə qorxu, zorakılıq və .münaqişə mühiti yaradırlar

Rama-Krişna firqəsi; Rama-Krişna uzun illər Kali (mə`nası "əsas ana" olan hindus .٣ ilahəsi) mə'bədində dini xidmətlə məşğul olmuş Şiva məzhəbinin brahmanlarından olmuşdur. O, bu müddət ərzində çox böyük həvəs və vurğunluqla Şiva məzhəbində Kali üçün nəzərdə tutulan xüsusiyyət və sifətlər barəsində diqqətlə araşdırma aparmışdır. Daha sonra Hindistanda mövcud olan sair din və məktəblərin ideoloji əsaslarını, o cümlədən caynizm, buddizm və s. araşdırmış, bir müddət sonra İslamı və xristianlığı da tədqiq etmişdir. O, bu tədqiqatlar dövründə bütün dinlərin varlığın mənşəyi və baş mə`bud məsələsində ortaq xüsusiyyətə malik olduğunu görmüşdür. Rama-Krişna sonda çoxluqlarla eyni zamanda müəyyən mə`nada təkliyə inandı. Yə'ni o, müxtəlif dinlərin varlıq mənşəyi və əsas xaliq kimi tanıtdıqları bütün ad və titullar Kali ilahəsinin müxtəlif dinlərin ardıcıllarının xüsusi, fərqli forma verərək təqdim etdikləri Kali ilahəsinin çeşidli izahı olmasına inanmışdır. Buna görə də, bütün dinlər üslub və yollarının fərqli olmasına baxmayaraq, vahid bir prinsipdə eyni mövqeyə malikdirlər. Bu baxımdan Krişna nəinki bütün dinlərin əsasını qəbul etmiş, üstəlik bütlərə pərəstiş olunmasına, çoxallahlılığın qanuniləşdirilməsinə icazə vermişdir. O, bütün ayinləri görünən fərqlər, yaxud mümkün olan təzadları ilə birgə məqbul saymış və onların qəbul olunmasını öz ardıcıllarına tövsiyə etmişdir. Bununla belə Krişna Kaliyə çatmağın yeganə yolunun Şiva zahidliyi və ixlas olduğuna, buna görə də Şiva məzhəbinin

tutduğu yol əsl yol, sair din və firqələrdəki seyri-süluk yollarının hamısının doğru yoldan kənar çıxma hesab edirdi.

Krişnanın həqiqəti tapmaq üçün təqdim etdiyi yol əqli, əqli tapıntıların tərk edilməsi, bütün maddi və dünyəvi buxovlardan xilas olmağa əsaslanır. İnsan bu vasitə ilə həqiqəti bütün maddi bağlılıqların və buxovların fövqündə özünün pak bir vicdanı ilə görə bilər.

Rama-Krişna tə'lim və e'tiqadları bir müddət sonra onun Svami Vivkanada adlı gənc şagird tərəfindən toplanmışdır. O, tezliklə bu e'tiqadın təbliğ olunması üçün sonralar Rama-Krişna adı ilə məşhurlaşan hərəkat yaratmışdır. Bu hərəkat Hindistan cəmiyyətində və Qərbdə çoxsaylı insanların, xüsusilə də Qərbin

rəngarəng məktəblərindən, maddi həyatından ümidsiz və mə'yus olan cavanları bu firqəyə cəlb edə biləcək səviyyədə uğur qazana bilmişdi. Bu gün Krişna mə`bəd və dərnəklərinin Qərbdə, xüsusilə Amerikada sərgərdan gənclər tərəfindən rəğbətlə qarşılandığını və onların həmin mə'bədlərdə Krişna ayinlərini yerinə yetirdiklərinin .şahidiyik

* * * *

Hindistanda qərb mədəniyyəti ilə təmas və qarşılaşma nəticəsində yaranan firqələri nəzərə almasaq, Qərbin liberal və sekulyarist baxışları daha çox tələbə və ali məktəb təbəqələri arasında dinsizlik, ateist hərəkatlarının formalaşmasına səbəb oldu. Bu hərəkatlar öz sə'ylərini hinduizmin ideoloji əsasları ilə mübarizəyə yönəldir, onu xurafat və ata-babaların möhumatçı fikirləri adlandırmaqla hinduizmin kökünü kəsmək istəyirdilər. Amma hər halda, yuxarıda şərh olunan firqələr yeni Hindistanın, onun mədəniyyətinin formalaşmasında mühüm və məs`uliyyətli rol ifa edə, hinduizmin yanlış və qeyri-məntiqi inanclarında böyük dəyişikliklər edə bilmişlər. Belə ki, bugünkü Hindistan cəmiyyətində nə kasta sinfi quruluşu rəsmi olaraq tanınır, nə də azyaşlıların nigahı, dul qadınların yandırılması və s. kimi ayinlərə icazə verilir. İnkar etmək olmaz ki, izahı qeyd olunan müxtəlif mə'budların çoxsaylı büt və heykəllərə sitayişə Hindistanda hələ də rast gəlinir. Bütün bu kimi hallar ölkə əhalisinin müşrikliyə .ciddi meylindən xəbər verir

## POLEMİKA Və TƏDQİQAT

Bu dərsdə qeyd olunan müxtəlif firqələrin əsas və e`tiqadlarını araşdıraraq onların hər .birini müqayisə edin

## İYİRMİ ÜÇÜNCÜ DƏRS

### (SİQH AYİNİ (١

### İŞARƏ

Siqh ayininin banisi Nanak adlı bir şəxsdir. Nanakın tərcümeyi-halı və onun bu dini necə yaratması barədə əsas informasiya mənbəyimiz “Canamsakhi” və ya həyat hekayələri adlı kitablar toplusudur. Bu toplu siqhlərin müqəddəs kitabı olan Qrantdan sonra ən mühüm və ən mö`təbər mənbədir. Bu sahədəki bitərəf kitablarda daha ətraflı mə`lumat olmadığına görə bu mə`lumatların doğruluğuna bir o qədər də əmin .olmaq olmaz

Siqh ayininin əsasının qoyan Nanak ١۴۶٩-cu ildə Pəncab əyalətinin Talvandi kəndində dünyaya gəlmişdir. Bu kənd sonralar onun şərəfinə Nanak-ara, yə’ni Nanakın yurdu .adlandırılmışdır

Canamsakhi kitabında qeyd olunur ki, o uşaq yaşlarından fitri iste’dada malik olmaqdan əlavə, həyatın adi, təbii məsələlərinə qarşı laqeyd idi və onlardan uzaq gəzirdi. Onun uşaqlıq dövrü barədə nəql olunur ki, ٧ yaşında ilk dəfə məktəbə gedərkən öz hindus müəllliminə bütün veda kitablarını mütaliə etmək əvəzinə ilahinin özünün rəhməti sayəsində allahın həqiqi adının həqiqətinin dərk etməsini tövsiyə etmişdi. Deyilənə görə, ٩ yaşında ikən brahmanlar müqəddəs hindus ipini ona verdikləri zaman dua mərasiminin əhəmiyyəti barədə onlara müəyyən göstərişlər vermişdi. Onun barəsində nəql olunmuş müxtəlif hadisələr onun adi gündəlik həyata nifrət etməsindən sakit, təfəkkür və şövq, həyacana qarışmaqla yanaşı olan dini həyata maraq göstərməsindən xəbər verir. Hətta, dostları və qohumları da onun adi işlər, fiziki fəaliyyətlər, alış-veriş və digər məşğuliyyətlərə nifrətini görüb ondan ümidlərini kəsmiş onu faydasız, əfəl və öz ailəsinə qaxınc hesab edirdilər. Bir dəfə Sultanpur şəhərində yaşayan qaynı ona ləyaqətli bir vəzifə təklif etsə də o, ilk .günlərdən bu işdən mə`yus olub uzaqlaşmışdır

Nanakın adi həyata laqeydliyi o həddə çatır ki, nəhayət arvadını və iki övladını buraxıb meşə və çöllərdə sərgərdan gəzməyə başlayır. Bu dövrdə o, vaxtının çoxunu təfəkkür

.və meditasiya ilə müşaiyət olunan asketizm ilə keçirmişdir

Onun barəsində yazırlar: “ – Bir gün Nanak çayda yuyunduqdan sonra meşəyə baş vurdu və görünməz oldu. Orada yuxu, yaxud aşkarlıq aləmində allahın hüzurunda hazır oldu. Cənnət içkilərindən bir cam doldurub ona verdilər və o, gözəl tərzdə bu şərabı qəbul etdi. Sonra allah ona dedi: Mən səninləyəm. Səni və sənin adını qəbul edən hər bir şəxsi xoşbəxt etdim. Qalx ayağa, get və mənim müqəddəs adımı təkrar et, başqalarına da mənim müqəddəs adımı zikr etməyi əmr et. Tərkidünyalıqda möhkəm ol və həmişə məni xatırla! Ismətli olmağı, cismin təmizliyini, allaha ibadəti və dünya barədə düşünməyi özünə peşə et... Mənim adım allahdır, birinci brahmayam, ”.sən də ilahi “quru”san

Bu müracitə cavab olaraq Nanak cabci adlı nəğmə və şe’rlər oxudu. Ardıcılları həmin .nəğmələri müqəddəs kitabın bir hissəsi hesab edir və hər sübh çağı onu oxuyarlar

Bu şe'rin məzmunu belədir: " – Allah birdir və onun adı haqdır. Yaradan qəzəbdən uzaq, qorxmaz, təmiz, qəyyum, böyük və mehribandır. Haqq əzəldən mövcuddur və əbədiyyətə qədər olacaqdır. Ey Nanak! O olub, var və olacaqdır".

Nanak bundan sonra meşədən çıxdı və sükut içində keçirdiyi bir gündən sonra özünün məşhur cümləsini belə bəyan etdi: " – Hindu və müsəlman yoxdu." Bu da onun siqh adı ilə məşhurlaşan yeni ayininin yaranışının və təbliğatının başlanğıcı idi.

### SİQH AYİNİNİ FORMALAŞDIRAN ZƏMİNLƏR

Müsəlman sultanların Hindistanı istila etməsindən, müqəddəs İslam dininin bu ölkədə yayılmasından və müxtəlif zümrələrdən olan insanların bu dinə meyl etməsindən sonra hinduslar müsəlmanlarla qarşıdurma və münaqişələrə başladı. Bu qarşıdurma əsas e'tibarı ilə iki yöndə baş verirdi: birincisi, İslamın arqumenti və məntiqi əsaslarının çoxu ilə tanışlığın və bunun nəticəsində öz qədim e'tiqadlarında şəkk və şübhəyə düşmüş alim və mütəfəkkirlər arya-samac kimi təəssübkeş hindus cərəyanları onların İslam dininə qovuşmaları yolunda başlıca maneə sayıldığına görə bu iki ayinin mütəfəkkirləri (müsəlman və arya-samac alimləri) arasında ideoloji çəkişmələr qaçılmaz oldu.

İkinci yönüm isə, əqidə yolunda təəssübkeş müsəlman və hindus kütlələri arasında baş verən qanlı müharibə və münaqişələr idi. Bu çəkişmə və çarpışmaların nəticəsi ondan ibarət oldu ki, həm hinduizm, həm də İslamla əlaqəsi, tanışlığı olan bə`zi hindus alimləri bütün münaqişələrə son qoymaq üçün bu iki din arasında birlik və inteqrasiya yaratmaq yolunu tutdular. Bu alimlərdən Nandiv, Ravidas və Kəbirin adını qeyd etmək olar. Kəbir daha önəmli və məhşur olmuşdur. Onda İslam alimlərindən mənimsədiyi tə'limlərin tə'siri altında İslamın əsaslarına maraq oyanmış və bu tə'limlərin bir hissəsini hinduizm düşüncələri ilə əvəz etmişdir. O, hinduizmdə geniş yayılmış bütpərəstlik və tanrıların heykəllərinə sitayişi pisləmiş və tovhidə, təkallahlılığa üz tutmaqla bildirmişdir ki, allah daşda, metalda yaxud başqa bir şeyə sığmaqdan, öz bəndələrinin kitab oxunuşu, rahiblik, çaylarda qüsl etmək, mə'bədlərdə təvaf etmək kimi zahiri işlərdən sevinməkdən ucadır. Allah öz bəndələrindən yalnız niyyətlərini paklaşdırmağı, əxlaq və əqidələrini saflaşdırmalarını istəmişdir. Kimsə sədaqət və

məhəbbətlə yeganə olan Allaha pərəstiş etsə, karma qanundakı əzab-əziyyətlərdən xilas və ardıcıl doğumlar dövri çarxından çıxacaqdır. O, həmçinin hər bir şəxsin nicata çatmaq üçün bir müəllimin yol göstərməsinə ehtiyacı olması məsələsinin (Pəncabın yerli dialektində buna “quru” deyilir) üzərində xüsusi dayanırdı. Siqh ayininin .rəhbərlərinə də “quru” deyilməsi də buradan başlanır

Kəbirin e’tiqadları barəsində dərindən düşündükdə onun İslam dininin bir sıra e’tiqad və təfəkkürlərini, o cümlədən tovhidi, xalis ibadəti İslamdan götürdüyünü, sonradan onları hinduizmdəki karma və tənasüx əqidəsi ilə birləşdirdiyini görərik. Eyni halda qeyd etmək lazımdır ki, Kəbir həqiqətən hinduizm və İslamın sintezindən ibarət yeni bir ayin yaratmaq fikrində olmamış, şagirdi Nanak onun bu

düşüncələri əsasında belə bir iş görmüşdür. Bir qrup insan mürid kimi onun ətrafına yığıldıqdan sonra o öz əqidəsini onlara öyrətmiş, müridləri ilə münasibəti müəllim-şagird münasibəti olduğuna görə onun ayinini “siqh” – bu Pəncab dialektində şagird deməkdir – adlandırmışlar. Nanakın vəzifəsi “quru” (müəllim) idi və siqh adı bu .baxımdan onun ayininə aid edilir

## NANAKIN TƏBLİĞAT METODU

Quru Nanakın təbliğat fəndlərindən biri də özünün geyim və zahiri bəzəklərində hindusların və müsəlmanların geyim və bəzəklərini birləşdirərək istifadə etməsi idi. Belə ki, cilitkə geyinər və adətən hindusların çiyinlərinə saldığı və safa adlanan ağ bir parçanı onun üstünə örtər, başına müsəlman dərvişlər sayağı papaq qoyardı. Boynuna .bir sümük asar və alnına hindus xalı vurardı

Quru Nanak bu şəkildə ١٢ il səfərdə oldu. O, Hindistanın müxtəlif şəhərlərində öz ayinini təbliğ etməyə çalışır; hər yerə çatırdısa öz şe’rlərini oxuyur və camaata moizə edirdi. Mərdana da rubabda çalmaqla onu müşaiyət edirdi. Nanak əsasən bu cümləni xüsusi vurğulayırdı: “ - Mən bu əsrdə insanlara yol göstərmək üçün zühur etmişəm. Mən bütün firqələri inkar edir və yalnız bir olan allaha pərəstiş edirəm. Mənim ”.tanıdığım Allah hər yerdə - asimanlarda və yerdə, hər tərəfdədir

Quru Nanak çoxsaylı səfərlərdən sonra ١٥٢٠-ci ildə vətəninə qayıtdı və öz varlı ardıcıllarından biri olan Kartar-purun ona bağışladığı torpaq da məskunlaşdı. Burada vəfat etdiyi ١٥٣٩-cu ilə qədər yaşamışdır. Nanakın ölümündən qabaq son tədbiri öz canişinini tə’yin etməsi olmuşdur. O, özündən sonra rəhbərlik iddiasında olan oğlu Şriçəndi zahidliyə ifrat meylinə görə canişinlikdən məhrum edərək və onun yerinə xüsusi şagirdlərindən biri olan Anqadı canişin və rəhbər tə’yin etdi. Ondan sonra da səkkiz başqa “quru” biri digərinin ardınca siqh cəmiyyətinə rəhbərliyi öhdələrinə götürdü. Amma onuncu quru olan və ١٧٠٨-ci ildə dünyadan köçən Qovind Sinqh ölümündən qabaq bu ayinin ardıcıllarına ondan sonra daha heç bir rəhbərin olmayacağını bildirmişdir. Buna görə də öz canişinini tə’yin etməmişdir. Bundan sonra “quru”ların yazıya köçürülmüş və “Qrant” adlandırılan tə’limat toplusu siqh cəmiyyətinə rəhbərliyi öhdəsinə

.götürmüşdür və siqhlər mə’bədə daxil olarkən ona tə`zim edərək hörmətlə yanaşırlar

**SUAL VƏ TAPŞIRIQLAR**

?Canamsakhi nədir .١

?Quru Nanakdan qabaq siqh ayininin yaranmasına kimlər zəmin yaratmışlar .٢

?Nanakın təbliğat metodu necə idi .٣

.Siqh ayininin formalaşmasının əsas zəminələrini şərh edin

## İYİRMİ DÖRDÜNCÜ DƏRS

### (SİQH AYİNİ (٢

### :Tovhid .١

:Bu dərsdə siqh ayininin ən mühüm ideoloji əsaslarını araşdırırıq

Keçən dərsdə qeyd olunduğu kimi, siqh ayininin banisi Nanak varlıq aləminin mənşəyi məsələsində tovhidə inanmış, öz yazı və şe'rlərində dəfələrlə bunu vurğulamışdır. Bu barədə Qrant kitabında oxuyuruq: " – Yalnız vahid Allah vardır ki, onun adı haqdır, xaliqdir, qorxu və düşmənçilikdən uzaqdır, puç olmaz, doğulmamışdır, öz zatı ilə mövcuddur, əzəmətli və səxavətlidir. Vahid həqiqi Allah əvvəldən mövcud olmuşdur. Vahid Allah əzəldən olmuşdur, indi də vardır və həmişə olacaqdır." Kitabın digər bir hissəsində isə deyilir: " – Allah birdir və ondan başqa heç bir mə'bud yoxdur, ey mənim "!qardaşlarım

Nanak həmçinin öz şe'rlərində Allaha xitabən belə deyir: " – Sənin heç bir şərikin yoxdur ki, sənin yanında olsun", " – Kimə ikinci Allah deyək? Heç kəs yoxdur. Bütün dünyada yalnız eyibsiz və pak vahid Allah vardır", " – Sənə heç kəs bənzəməz. Sən bütün əsr və dövrlər üçün yeganə Allahsan, həmişə vahidsən. Səndən başqa heç vaxt ".başqa bir mə'bud olmayıbdır

Nanakın öz təkallahlıq əqidəsində müsəlman sufi alimlərinin böyük tə`siri açıq-aşkar hiss olunur. Onun Allahın zatı ilə əlaqədar söylədiyi fikirlər və Allahı haqq adlandırması .da bu tə'sirlərin göstəricisidir

Nanak eyni halda ilahi təcəssümün müxtəlifliyinə və rəngarəngliyinə inanırdı. O, öz :nəğmələrinin birində belə deyir

Ey böyük Allah sən vahidsən, amma sənin təcəssümün çoxdur." O, hindus – " .mə'budlarından bə'zilərini Allahın təcəssümü və simvolu hesab edir

Nanakın Allah üçün işlətdiyi əsas ad haqqdır. Onun bütün yazı, nəğmə və məktublarının sərlövhəsində Satnam, yə'ni haqq adını görmək olar. Bununla belə, bə'zən onun əsərlərində İslami və hindus ifadələri birgə şəkildə müşahidə olunur.

Məsələn, Allah-Təala və uca Brahma. Nanak bə’zən də Allah barədə “ - Hamının hidayəti və müqəddəratı onun əlində olan mütləq qadir” ifadəsini də işlədir. O, nəğmələrdən birində deyir: “ - Hər kəsin çətinliyi və azadlığı sənin əmrinlədir. Heç kəsin ona müdaxilə etməyə qüdrəti çatmaz”, “ - O, hər şeyi istəsə yerinə yetirər. Bir kimsə ona fərman vermir. O sultan və sultanların sultanıdır. Hər bir şey onun iradə və əmrinə tabedir”, “ - Bəndələrini öz fərmanı ilə hidayət edir”, “ - Sənin razılığın olduğu şeylər mövcuddur. Sənin istədiyin və etdiyin işlər həyata keçər. Sənin razılığın olan şeylər ”.dərhal yerinə yetirilər

### ALLAHI ZİKR ETMƏK .٢

Allahı yad etmək və ona zikr demək Nanakın əqidə və tə’limlərinin başqa bir xüsusiyyəti hesab olunur. Əvvəlki dərsdə də gördüyümüz kimi, o ilk tapıntısından sonra da Allahın ona adını təkrarlamağı tövsiyə etdiyini, qurtuluş və`dəsini onun adını dildə təkrar-təkrar zikr edənlərə verdiyini bildirmişdir. Buna əsasən Nanakın təbliğinin əsas istiqaməti Allahı yad etmək və bu işdə ardıcıllıqdır. Nanak bu məsələdə o dərəcədə tə`kid edir ki, hətta ondan “ - Nə üçün “sat nama” (haqq adı kəlmələri) həmişə sənin nəğmə və şe’rlərinin başında gəlir” - deyə soruşduqda belə cavab verir: “ - Bu ad bütün mə’budların allahının adıdır. Qurunun şagirdləri və müridləri haqq ada pərəstiş edirdilər; ona sitayiş etməklə qurtuluş yolunu qət edir və bu yolda mövcud olan maneələri aradan qaldırırlar. Buna görə də, “haqq adı” sözü hər bir kitab, yazı və ”.nəğmənin əvvəlində yazılır

:O, başqa bir yazısında bu barədə belə deyir

Bu adı unudanlar azğınlığa düçar olarlar... Necə ola bilər ki, bir şəxs allahın adı - “ ”?olmadan nicat tapsın

:O başqa bir yerdə deyir

”.Mən Allahın adında rahatlıq tapıram və bu ad da mənim qəlbimdə özünə yer tapır - “

Tamamilə aydındır ki, siqh e’tiqadının bu hissəsi sufi e’tiqadlarından tə’sirlənmişdir. Allahı zikr etmək və bu işdə ardıcıllıq müsəlman sufilərin ən mühüm və ən geniş .yayılmış metodlarından biridir. Belə bir üslub hinduizm dinində müşahidə edilməmişdir

### İNSAN VƏ DÜNYA .٣

Nanak inanırdı ki, insan məxluqların ən şərəflisidir və digər varlıqlar ona xidmət etmək üçün yaradılmışdır. Bu baxımdan o, hinduslara görə haram olan heyvan ətinin yeyilməsini caiz hesab edir. Nanak bu işi caiz bilirdi və bu məsələdə ona ilham verən hind müsəlmanlarının əqidələri idi. O, həm də insanın böyük tanrının bəndəsi kimi səadət və qurtuluş yolunu öz qüdrəti ilə qət edəcəyinə inanırdı. Bununla belə, bəndələr allahın qüdrətindən və ondan kömək istəməkdən qafil olmamalıdırlar. Çünki, bütün

varlıqlar allahın fərmanı ilə xəlq edilmişlər və onun fərmanı ilə öz vəzifə və borclarını yerinə yetirirlər. Onlar Allahın əmri ilə ölümə təslim olur, onun fərmanı ilə “tək həqiqətə” cəlb edilirlər. Allahın razılığı olan hər bir iş baş verəcək, heç bir şey onun :yaratdıqlarının gücündə deyildir. Nanak öz şe’rlərinin birində belə deyir

Onun razılığı hasil olsa, istədiyi şəxsi əziz edər. Razılığı olmasa tənbeh edər; razı – “ ”?olduğu işlər gerçəkləşir. Ey Nanak, insan hansı ixtiyarın sahibidir ki

Görünür, insan həyatında müqəddərat və tale məsələsinə belə yanaşma da nicat və qurtuluş naminə Allahı ardıcıl zikr və təkallahlılıq təfəkkürü kimi müsəlman

sufilərin irfani əqidələrinə əsaslanmış, onların tə `siri altında olmuşdur. Belə ki, İslam irfan ədəbiyyatında ixtiyarın inkar olunması, tanrının mütləq fail olması və hətta insani təkliflərin yerinə yetirilməsində Allahın mütləq failiyyətinə dair terminlər yetərincədir. Amma Nanakın varlıq aləmi, eləcə də axirət aləminə baxışı İslam e'tiqadları ilə hinduizmin sintezidir. O, dünyanın ötəri və davamsız olmasına toxunaraq deyir: " – Bu dünyanın işləri davamsız və ötəridir, yalnız dörd gün davam edir. Biz tam əminliklə bu ".mərhələdən keçməliyik. Bu aləm bir yuxu və xəyaldan ibarətdir

O, Qrant kitabında behişt və cəhənnəmin olmasını dəfələrlə qeyd etməklə yanaşı bu dünyanın ötəri və xəyali olmasını "maya" e`tiqadlarına uyğun sayır. Hinduizm e'tiqadında maya "dünyanın batini surəti" kimi nəzərdə tutulur. Yə'ni, Allah maddəni xəlq etməklə haqqın üzərinə batildən niqab çəkmişdir və varlıq aləmi bundan sonra müxtəlif rəngarəng surətlərdə – Brahma, Vişnu və Şiva mə'budları, yer, səma, insan, bitki – hamılıqla haqqın insanın təsəvvür pərdəsində təcəssüm edən müxtəlif surətləridir. Nanak bu mətləbi qəbul etməklə aşkar şəkildə deyir ki, Allah özü dünyanı ".yaratmış və hər bir şeyə özü ad qoymuşdur. O, mayanı öz qüdrəti ilə yaratmışdır

Buna görə də, bütün xilqət amilləri, səbəb və nəticələr silsiləsinin hamısı batil, aldadıcı düşüncələrdir, yalnız aləmin yaradanı Allah haqqdır və dünya ilğımdan başqa bir şey deyildir. Nanak daha sonra hinduslərın insanların ruhlarının bir-birinə keçməsinə əsaslanan e'tiqadı (tənasüx) ilə razılaşaraq karma qanunundan xilas olmaq üçün həmişə Allahı yad etməyin lazım olduğunu və yalnız bunun sayəsində ardıcıl təvəllüdlərdən xilas olmağın mümkünlüyünü təsəvvür edir. Bu bəyanla Nanak İslam təfəkkürü ilə hinduizmin ortaq nöqtəsini seçmişdir. Çünki onun fikrincə, qurtuluş və səadət behiştinə daxil olmaq İslam düşüncəsinə,hinduizm təfəkkürünə görə isə nirvana mərhələsinə qovuşmaq, İslam əqidəsinə uyğun olaraq cəhənnəm əzabından xilas olmaq və hinduizm baxışlarında karma qanunu, tənasüxdən qaçmaq haqqı davamlı zikr etməklə mümkün ola bilər. Buna əsasən siqh ayininə görə, cənnət və cəhənnəm Allahı xatırlamaqdan uzaqlaşmaqdan başqa bir şey deyildir. Hinduizm baxışlarına uyğun olaraq, cənnət və cəhənnəm dünyanın batil surətləri, yaxud mayadır, cənnətin həqiqi surəti isə haqqın zikrində məhv olmaqdan ibarətdir. Bu yozum əslində hinduizmdə fəna mərhələsinə və nirvanaya qovuşmaq kimi təsvir

.edilən, haqda fani olmaq mərhələsi olan bə`zi sufi firqələrinin nəzəriyyəsini xatırladır

**İBADƏT .۴**

Siqh ayinində İslamda və hinduizmdə olan ibadət mərasimlərinin heç biri ilə rast gəlmirik. İslam dinində olan namaz, oruc, həcc və s. əməllər, eləcə də hinduizmdə geniş yayılmış qurban kəsmək, bütlərə pərəstiş, asketizm, çaylarda qüsl etmək və s. heç biri Nanak tərəfindən tövsiyə edilməmişdir. Siqh ayini ümumiyyətlə ibadət əməllərinin yerinə yetirilməsinin əleyhinədir və onların hamısını zahiri hesab edir. Amma, onların yerinə dərin daxili düşüncəyə qərq olmağa, irfani seyr-süluka

diqqət yetirilməsinə daha çox yer verilir. Nanak bu firqənin rəhbəri kimi yalnız Allahı zikr etməyi və bu işdə ardıcıllığı öz ardıcıllarına ən əsas ibadət və vəzifə olaraq tövsiyə :etmişdir. Belə ki, o deyir

Ey mənim qardaşlarım! Allah-Təala barədə düşünmək yeganə dini ayin və ritualdır - “ ”.

:Başqa yerdə deyir

Hamının ən böyük vəzifəsi tək Allahın adını təkrarlamaqdır”, “ - Çox pak olan Ram - “ adını (hindus mə’budlarından biri) yadında saxla və qalan hər bir şeydən əl çək”, “ - O müqəddəs adı təkrar et, onu eşit və onunla ünsiyyətdə ol. Öz diqqətini Allaha yönəlt və hər nəfəs çəkəndə və nəfəs verəndə onun adını təkrarla ki, sənin ruhun Allah nuruna ”.cəzb olunsun

Əlbəttə, siqh dininin göstərişlərində Allahı zikr etməkdən əlavə, quruya xüsusi ehtiram, diqqət yetirmək də tövsiyə və tə’kid olunmuşdur. Bu ayində heç bir şəxs qurunun yol göstərməsi olmadan nicat və qurtuluşa çata bilməz. Nanak bu məsələni belə bəyan :edir

Həqiqi bir quru olmadan siz nicat yolunu tapmayacaqsınız”, “ - Quru olmadan heç - “ ”.kəs Allaha çatmayacaq

Buna görə də quruya qarşı səmimilik və ehtiram siqh ayininin əxlaq normalarından biri kimi qəbul olunmuşdur. Siqh cəmiyyətini silahla müdafiə edən və onun genişlənməsi üçün mübarizə aparan Sinqat, yaxud xalis quruluş da sonradan yaranmasına baxmayaraq, quruya ehtirama əsaslanan təfəkkür üzərində qurulmuşdur. Çünki bu quruluşun əsasını quruya qarşı ən yüksək ixlas mərtəbəsini sübuta yetirmiş şagirdlərin .xalis fərd kimi tərbiyələndirilməsi təşkil edir

### QRANT .۵

Siqhlərin əsas və müqəddəs kitabı Adi-Qrant, yaxud ilkin kitab adlanır. Bu kitab siqh ayininin dini nəğmə və şe’rlərini əhatə edən böyük bir topludur. Bu ۱۴۰۰ səhifəlik kitabın birinci bölməsi quru Nanakın şe’rlərindən ibarətdir və ona Capci deyirlər.

Siqhlər hər gün sübh çağı, gün çıxan zaman onu oxuyurlar. Kitabda olan bə’zi nəğmələri gün batan zaman oxuyurlar. Siqhlər cəmiyyətində ١٠ “quru”nun təsnif toplusundan ibarət kitab da var. Həmin kitabda siqh ayininin ideya və e’tiqadları izah .olunaraq təkmilləşdirilir

Qeyd olunmalıdır ki, quru Qovind Sinqh dövründən sonra (siqhlərin sonuncu qurusu) siqhlər tərəfindən Qranta ehtiram qoyulması və müqəddəsləşdirilməsi “quru”lara olan ehtiramın yerini tutmuşdur. Hətta Qrant siqhlərin mə’bədlərində

xüsusi yerlərdə saxlanılır və siqhlər mə’bədə daxil olarkən onların qarşısında əyilib tə’zim edirlər. Nigah mərasimlərində bu kitabın ətrafına dolanmaq siqh dini adət-ən`ənələrinin bir hissəsi sayılır.

## SUAL VƏ TAPŞIRIQLAR

١. Siqh ayininə görə qurtuluşun yolu nədədir?

٢. Nanakın insan barəsindəki nəzəri nədir?

٣. Nanakın nəzərində varlıq aləmi necədir?

۴. Siqh ayininin ibadət əməlləri hansılardır?

۵. Siqhlərin müqəddəs kitabları barəsində nə bilirsiniz?

Siqh ayinin təkallahlılıq baxışlarını şərh edin.

Müəllimin göstərişi ilə siqh ayininin əqidə və rə’ylərini İslam və hinduizm əqidələri ilə müqayisə edib tənqid edin.

## İYİRMİ BEŞİNCİ DƏRS

## (TAO AYİNİ (۱

### KÖKLƏRİ VƏ FƏLSƏFƏSİ

Tao ayini Çində buddizm və konfusionizm dinləri ilə bərabər geniş yayılmış, qədim dövrlərdən indiyə qədər çoxlu ardıcılları olmuş mühüm dinlərdən biridir. Buddizmlə .tanışlıqdan sonra bu dərsdə Tao ayini qısa şəkildə şərh olunacaqdır

### TAO AYİNİN KÖKLƏRİ

Taonun leksikoloji və terminoloji mə’nası; Tao lüğət baxımından yol və təriqət . ۱ mə’nasını daşıyır. Onun terminoloji mə`nası fəzilət yolu, əqidə və nəzəriyyədir. Onun mə’nası “bir qanunun icra olunması”, “tə`limat vermək”, “bəyan etmək” və “demək” kimi də göstərilmişdir. Hər halda bu söz qədim Çin ədəbiyyatında olmuş, taoizm nəzərdə tutduğu “ilahi yol”, yaxud “səmanın yolu” kimi mə`naları da ona aid etmişdir. .Buna görə də, bu sözü həmin məktəbin ixtiralarından hesab etmək olmaz

Çinin ilkin və ümumxalq məzhəbində Tao fövqəladə və cadugərlik işlərini yerinə yetirmək bacarığı ya qüdrəti mə’nasını buna əsaslanaraq daşımış. Hakimiyyətləri əsasən cadugərlik üzərində qurulan padşahlar barəsində də işlədilmişdir. Tao sözünün .digər terminoloji mə’naları da vardır ki, bu bəhsin davamında onlardan söz açılacaqdır

Tao məktəbinin aspektləri; Tao məktəbi üç yönə – fəlsəfi, dini və sehrkarlıq . ۲ yönümünə malikdir. Bu üç yöndən hər biri özəl şəraitlərdə formalaşmış və Çin cəmiyyətində xüsusi rol ifa etmişdir. Əslində, Tao məktəbini tam və kompleks şəkildə .öyrənmək üçün bu üç yönü öyrənmək lazımdır

:A) Taoizmin fəlsəfi yönü

Taoizm ayinin fəlsəfi əsaslarını Tao–te–çinq kitabından əldə etmək olar. Bu kitabın yazılma tarixi və onun müəllifi ilə əlaqədar qənaətbəxş, dəqiq mə’lumat yoxdur. Dinşünaslardan bə’ziləri inanırlar ki, bu kitabın vahid müəllifi yoxdur. Çünki onun müəllifi, yaxud müəllifləri öz kitablarında daim digərlərini “xeyir işləri yerinə yetirməkdə adlarını açıqlamamağa” tövsiyə etmiş, buna görə də heç bir yerdə öz

adlarını bildirməmişlər. Bu ehtimal doğru olsa, kitabın müəllifi, yaxud müəlliflərinin aydınlaşdırılması artıq heç bir yolla mümkün olmaz. Amma məşhur nəzəriyyəyə görə bu kitab Lao Tze adlı yaşlı bir filosof tərəfindən yazılmış, və ya toplanmışdır. Əlbəttə, belə bir şəxsin tarixdə olub-olmaması da tədqiqatçılar tərəfindən böyük şübhə ilə qarşılanır və yalnız Çin tarixində Tao-te-çinq Tao ayinin müqəddəs kitabı və Lao-Tze .onun əsasını qoyan filosof kimi təqdim olunmuşdur

Tao-te-çinq kitabının adı müxtəlif mə’nalarla, o cümlədən “fəzilət yolu”, “əql və fəzilət qanunu” kimi daha məşhur yozumlarla izah olunmuşdur. Lao-tze bu

kitabda Tao barəsində ümumi və müəmmalı şəkildə təsvir etmiş, onun yolunu "əql, .fəzilət və qurtuluş yolu" adlandırmışdır

Lao-tzenə görə Tao iki formada – adlandırıla bilinən və adlandırıla bilinməyən formada təqdim olunmuşdur. Onun adlandırma imkanı olmayan surəti əslində sabit Tao ilə əlaqədar konkret surətdən ibarətdir. O, sabit bir prinsip kimi adlandırılan və konkret Taonun fövqündədir. Bu mə'lum Tao aləmi yaradandır. Lao-tze bə'zən ad qoyulmağa layiq olan Tao sözünü varlıq sözünün sinonimi kimi qeyd edir. Bu baxımdan Taonun əsərlərini tərcümə edənlərin çoxu ad qoyulması mümkün olmayan Taonu ilahi varlıq, yaxud Allah və uca zat kimi qəbul etmişlər. Bu cür adqoyma formasını Tao-te-çinq kitabında adsız Tao üçün qeyd olunan sifət və yozumlar da təsdiqləyir: " - Əsil, əzəli, səmalardan və yerlərdən qabaq, son, aram, şəkilsiz, dəyişməz, ruzinin yeganə mənbəyi və hər bir şey adsız Taodur və şərh olunması mümkün deyil. O, təsvir edilə bilinməyəcək bir həddə böyükdür. Tao özünün tanıtdırdığı şəxsi səmaların altında ən ".şərafətli bir şəxsə çevriləcəkdir

Tao vəsfləri və yozumları diqqətə, düşünməyə layiq olan bu kitabın digər yerində belə :vəsf olunub

Tao boş bir qab kimidir; boş olmasına baxmayaraq ondan su çıxartmaq olar. Tao - " daxilindəki şeylər qurtarmayan, dərinliyi sonsuz olan qab kimidir. Taoda hər bir sür'ətli şeyin sür'əti azalar, hər bir düyünlər açılar. Taoda hər növ nur öz parlaqlığını itirər, hər bir çətinlik asan və ram olar. Tao heç vaxt qurumayan dərin bir hovuza bənzəyir ki, suyu heç vaxt çəkilməz. Əsl insanın məqsədi Tao ilə birləşməkdir. Ancaq, bu məqsəd insan onun ardınca getməli və ona çatmaq üçün zəhmət, əziyyət çəkməli olduğu məqsədlərdən deyil. Əksinə, təbiətdən əldə etdiyimiz hər bir şeyi bəyənilən tərzdə istifadə etməli, lazımsız və artıq şeyləri qazanmağa çalışmamalıyıq. Tao kimi boşalmaq lazımdır ki, həqiqətlə dolaq. Tao təmiz və düz bir yoldur, lakin camaat yolunu azmaq istəyir. Tao bir əbədi yoldur. Bütün məxluqlar bu yoldan keçəcəklər, lakin onu heç bir şey yaratmamışdır. Çünki, onun özü yaradılışla eyniyyət təşkil edir. Tao hər bir şeydir və heç bir şey deyildir. Tao həm səbəbdir, həm də nəticə. Bütün əşyalar Taodan ".yaranır və Tao ilə birlikdə olub Taoya doğru qayıdır

Yuxarıdakı mətləblərdən aydın olur ki, Lao-tze Taonu bütün varlığın həqiqətinin əsası saymış, ona qovuşmağı bütün xeyir-bərəkətin və fəzilətlərin mənşəyi hesab etmişdir. Bu mütləq zata çatmaq vasitəsi vahidliyə qovuşmaq yolunda olan örtük və maneələr kimi bütün dünyəvi və nəfsani bağlılıqları qırmaqdır. Ona qovuşmaq o vaxt müyəssər ola bilər ki, arif onu tanısın və bu tanıma və irfan yalnız ilham yolu ilə mümkündür. İlham və işraq mərhələsinə çatmağın da, xəlvət yaşayışdan, asketizm, təfəkkürə qərq olmaqdan başqa bir yolu yoxdur. Bu mərhələləri qət edən şəxs Taoya çatacaq və o hal da Lao-tzenin tə'biri ilə desək "ölüm arabasına bağlı olmayacaqdır". Onun kamil ifadəsi belədir: " - Taonu tanıyanı və arif olanı fənaya uğramaz edir, o artıq ölüm arabasına qayıtmayacaqdır." Həqiqətən də, insan əbədi həyat çeşməsinə çatdıqda onun üçün .ölüm təsəvvür oluna bilməz

Tao ayinində Tao hər bir şeyin həqiqətidir. Buna görə də, hər bir şey onun nuru müqabilində işıqsızdır, hər bir iş və hərəkət onun müqabilində dəyərsizdir; çünki hər bir şey nəticə e'tibarı ilə Taoya qayıdır. Buna görə də çalışmamaq – "vi vay" prinsipi bu ayinin ən əsas prinsiplərindən hesab olunur. La-tze bu barədə belə demişdir: " - Şübhəsiz, Taoda sə'y və fəaliyyət yoxdur." Sonra deyir: " - Yalnız sakit və sə'y göstərməyən insan uğur qazanar." Sonra belə tövsiyə edir: " - Razılıq olan və müharibə, hakimiyyət, yazmaq, səfər etmək, ölüm qorxusundan uzaq olmaqdan ibarət sadə və təbii halətə qayıdın."

Bu ayində hər bir şey Tao tərəfindən yerinə yetirildiyindən hər bir halda və hər bir şeyə görə razılıq etmək lazımdır. Çünki hər bir şey sonda Taoya qayıdır. Bu e'tiqadın digər anlamına görə heç bir şey, hətta əzizlərin ölümündən ötrü qəm-qüssə çəkmək olmaz. Hətta, bu barədə Lao-tzedən sonrakı ən böyük filosof, yə'ni Çuvanq-tzonun həyat yoldaşı barəsində nəql olunan hekayədə deyilir ki, o dünyadan getdikdə Çuvanqın Huyinzo adlı dostu onun yanına gəlib bu ağır itki, faciə ilə əlaqədar baş sağlığı vermək istəmişdir. Qapıya çatdıqda Çuvanq dizlərinin üstünə kasa qoyaraq çaldığını və mahnı oxuduğunu görür. Təəccüblə ona deyir: " - Həyat yoldaşını itirdiyinə qəmgin deyilsən?! Musiqi və çalıb oxumaqla məşğulsan? Bu xoşagəlməz bir rəftardır." Çuvanq-tzo cavabında deyir: " - Həyat yoldaşım vəfat edəndə əlbəttə qəmgin oldum, ürəyim sıxıldı. Lakin, diqqətlə fikirləşdikdə onun əvvəldən də həyatda olmadığını anladım. O, nəinki diri deyildi, hətta onun şəkli və surəti də yox idi. Nəinki şəkli və surəti yox idi, heç bir maddi qüvvəsi və qüdrəti də olmamışdı. Sonra yoxluq-varlıq qarşılaşmasın müəyyən dövründə dəyişikliklər baş verdi. Maddə yarandı və o maddə forma qazandı; o forma həyat və ruh əldə etdi. İndi bu dəyişiklik yenidən başlayır və həyat ölümə, yoxluğa çevrilir. Həyat yoldaşımın başına gələnlər eynilə hər birinin başlanğıcı və sonu olan dörd fəslin yaranıb aradan getməsinə bənzəyir (bahar, yay, payız, qış). İndi həyat yoldaşım adı dünya olan bu böyük evdə yoxluq yuxusuna gedib çevrilib. Belə olan halda, mən ağlayıb şivən qoparsam demək ki, tale məsələsində cahil və qafiləm. Buna görə bu işdən çəkinirəm."

Bu nəzəriyyə varlıqların müqəddəratının qeyri-ixtiyariliyini, tao tərəfindən heç bir qanun pozuntusu mümkün olmadığını göstərir. Lao-tze bu barədə belə demişdir: " -

Hər kimsə taonun əleyhinə çıxsa, məhv olar. Eqoist parlamaycaqdır, xudpəsəndlər kamal yolunu qət etməyəcəklər. Səmanın yolları müharibə ilə açılmayacaqdır, zorla, məcburiyyətlə ələ keçirilməyəcəklər. Onun istəyi e'lan olunmaz, hələ heç kim onun ".cavabını eşitməmişdir

Buna əsasən insan kamala çatmaq üçün əvvəlcə özünü tao ilə uyğunlaşdırmalı, onun qarşısında səmimiyyətlə təslim olmalıdır. Başqa sözlə desək, insan özünü Tao yoluna tapşırmalıdır ki, Tao onu öz tərəfinə hidayət etsin. Buna görə də Lao-tze hamını vo-vu-:vaya də`vət edərək deyirdi

Fəaliyyətsizliyə alışın; arzu edin ki, heç vaxt arzu etməyəsiniz; əldə edə bilmədiyiniz – “ şeylərə dəyər verməyin. İnsanın əldən verdiyi vəziyyətə qayıtmağı öyrənməyin. ”.Günah etməyin, qoyun işlər öz təbii axarı ilə getsin

Vo–vay, yaxud fəaliyyətsizlik və çalışmamaq prinsipi istənilən dünyəvi fəaliyyətin inkar olunması demək deyil. Bu əksinə hər bir hadisə, həyatın təbii qanunauyğunluqlarına təslim olmaq, çayın axını istiqamətində özünü dalğalara tapşırmaq, hər bir halda rahatlığa, sakitliyə çalışmaq, həyatda baş verən hadisələrə müqavimət göstərməmək, hər növ ümidsizlikdən uzaq olmaqdır. İşlərin islah olunub qaydaya düşməsi üçün heç bir iş görmək lazım deyil. Çünki, yaxşılaşma və irəliləyiş insanın əlində deyil, Taonun əlindədir. Biz işlərin qaydaya, sahmana düşməsi üçün müəyyən planları fikirləşiriksə, əgər o, Taonun iradəsinə uyğun gələrsə ona ehtiyac yoxdur. Çünki Tao özü belə müəyyənləşdirmişdir. Taonun iradəsinin əksinə olduqda isə biz öz işimizdən tam geri qalacağıq. Çünki Taonun iradəsinə qarşı çıxmaq kamala çatmağa mane olur. Deməli, hər bir halda işlərin sahmana salınması, çətinliklərin qarşısının alınması və ya aradan qaldırılması üçün çalışmaq lazım deyil. Yalnız insan rahatlıqla özünü Taonun iradəsinə .tapşırmalı və onun yolunda olmalıdır

**SUALLAR**

?Tao nə deməkdir .۱

?Taoizmin banisi kimdir .۲

?Taonun ən mühüm müqəddəs kitabı necə adlanır .۳

?Taoizm nəzəriyyəsində insanın əsl məqsədi nədir və onun yolu nədən keçir .۴

?Hansı səbəbdən taoizm baxışlarına görə hər bir şeydən razılıq etmək lazımdır .۵

?Vo–vay prinsipi nədir? Bu əqidə nəyə görə tövsiyə olunmuşdur .۶

səh:۱۴۴

## İYİRMİ ALTINCI DƏRS

### (TAOİZM (٢

### ƏXLAQ VƏ DİN

Bu dərsin mövzusu taoizmin Lao-tze fəlsəfəsi və onun tövsiyələri əsasında qurulmuş əxlaqi prinsipləri ilə tanışlıqdır. Dərsin davamında bu dinin zaman baxımından dini yönümündən irəli olan sehrkarlıq aspekti nəzərdən keçiriləcək. Daha sonra taoizm bir .din kimi tədqiq edilib araşdırılacaq

### LAO–TZE FƏLSƏFƏSİ ƏSASINDA ƏXLAQIN ƏSASLARI

Lao-tze "Tao-te-çinq" kitabında Taoya qovuşmaq və onun yolunda addımlamaq istiqamətində öz ardıcıllarına çoxsaylı əxlaqi tövsiyələr verir. Bu göstərişlərin əsasını təvazökarlıq, tə'zim, şan-şöhrətdən uzaq olmaq, ifrata varmamaq, hamını məhəbbət .və səmimiyyətə də'vət təşkil edir

:Bu əxlaqi göstərişlərdən bə'zilərini şərh edirik

Laqeyidliyə, istəklərdə ifrata varmamaq və diqqətsizliyə də'vət taoizmin ən mühüm .١ əxlaqi prinsipidir. Lao-tze bu barədə deyir: " - İfrat diqqət və istəyin olmamasını öz məramına çevir, mümkün olan həddə sakitliyini tam qoru", " - Hikmət sahibi öz fikrini hər bir şeyə qarşı laqeyd etməlidir", " - Səma və yer heç bir xeyirxahlıq nümayiş etdirmir. Onların nəzərində dünyanın ١٠ min şeyi vəhşi itlər kimidir. Müqəddəs insan da xeyirxahlıq əhli deyildir. Onun nəzərində qohum-əqrəbadan ١٠٠ nəfəri vəhşi itlər ".kimidir

Tay-şanq-kanq-pinq-pi-yen, yaxud "Əməllər və onların cəzası" risaləsində digər .٣ əxlaqi göstəriş və tövsiyələrin şərhi verilmişdir. Bu tövsiyələrdən aşağıdakıları :diqqətəlayiqdir

Yaxşı bir insan heç vaxt azğın yollara düşməz. O, fəzilət və təqva qazanar, dəyərli - " işlər görüb toplayar. Bütün yaradılmışlarla mehribanlıqla rəftar edər. Özündən gənc qardaşlarına qarşı vəfalı və nəvazişli, özündən böyüklərə qarşı itaətkar olar. Əvvəlcə, özünün seçdiyi yolu islah edər ki, başqalarını da bu yolla dəyişdirib islah edə bilsin.

Yetimlərə və dul qadınlara qarşı mehriban olar, qocalara ehtiram qoyar. Gənclərə qarşı tərbiyəçi rolunu ifa edər. Hətta həşaratlara, otlara və ağaclara belə zərər yetirməməlidir. O, başqalarının şər və yaramaz rəftarları müqabilində şəfqətlə davranmalı, onların fəzilət və alicənablığından sevincini bildirməlidir. Onlara düzgün və layiqli işlərdə kömək

etməli, təhlükələrdən xilas etməlidir. Başqalarının qazandığı şeyləri onların öz qazanclarının hesabına qoymalı, əldən verdiklərini öz itkisi hesab etməlidir. Onların çatışmazlıq və nöqsanlarını üzə salmamalıdır (qeybət etməməlidir). Öz üstünlüklərini başa qaxmamalıdır. Belə bir insan şər işlərdən çəkinməli, müqabilində mə`nən yüksəlməli və yaxşı işlər görməlidir. Çoxunu camaata bağışlamalı, özünə az bir pay götürməlidir. Bir kimsədən dil yarası, yaxud söyüş eşidərsə, onu ikrah hissi olmadan qəbul etməli, vəziyyəti başa düşdüyünü deməklə öz şərafət və alicənablığını göstərməlidir. İnsanlara təmənnasız məhəbbət göstərməli, yaxşılıq etməli və peşman olmadan öz var-yoxundan başqalarına bağışlamalıdır. Məhz bu şəxsə yaxşı insan deyiləcəkdir. Bütün insanlar belə şəxsə hörmət edərlər. Göylər onu qoruyar. Səadət və mal-dövlət onun ardınca axıb gələr. Bütün şərlər və pisliklər ondan uzaqlaşar. Onun gördüyü hər bir iş mütləq müvəffəqiyyətlə nəticələnəcək və o, özünə əbədi və səmavi ”.(maddənin fövqündə) bir məqamın veriləcəyinə ümidvar ola bilər

:Bu kitabda xurafatla qarışmış olan digər, o cümlədən aşağıdakı göstərişlər də vardır .۴

Heç vaxt öz valideyninin səhvini ifşa etmə. Heç vaxt doğru ilə səhvi bir-birinə - “ qarışdırma. Səhv işə mükafat vermə. Günahsız insanı cəzalandırma. Küləyi qınama və yağışdan sui-istifadə etmə. Həyat yoldaşının və həyat yoldaşlarının dediklərinə qulaq asma. Ata-ananın göstərişlərindən boyun qaçırma. Yeni işlərlə köhnə işlərin unudulmasına mane olmasına imkan vermə. Öz borcunu sahibinə qaytar. Göylərdə sənin üçün tə`yin olunan paydan artığını əldə etmək fikrində olma. Ölçüdə qısa metrədən, çəkidə düz olmayan tərəzidən, yaxud kiçik özül çubuqlarından istifadə etmə. Ayın və ilin axırıncı günündə rəqs edib, mahnı oxuma. Ayın əvvəlində, yaxud səhər açılanda qışqırıb əsəbiləşmə. Üzünü şimala tutub ağlama və ağzının suyunu atma. Ağzının suyunu parlaq ulduzlara tərəf atma. Göy qurşağı tərəfinə işarə etmə. Səhv iş görmüş şəxs tövbə etsə, öz əməllərini islah etsə və bundan sonra da çirkin işlərdən çəkinsə, eləcə də bütün yaxşı işləri görsə şadlığa və səadətə çatacaqdır. Belə ”?isə nə üçün biz özümüzü yaxşı işlər görməyə vadar etməyək

### B) TAOİZMDƏ SEHRKARLIQ

Əbədi yaşayışa, yoxluq və ölümdən qaçmağa meyl bütün insanların firti xüsusiyyətidir.

Müxtəlif din və məktəblər bu məqsədə nail olmaq üçün cürbəcür vasitələr təklif etmişlər. Lao-tze və Çuvanq-tzonun məqsədi bu olmuş və əbədiyyətə çatmaq üçün (öz e'tiqad və gümanları əsasında) müəyyən yollar göstərmişlər. Çuvanq-tzo bu barədə deyir: " - Hər kəs Taonun zatına qovuşsa əbədi həyata nail olar və heç sancan, yırtıcı heyvan ona zərər yetirə bilməz. Belə ki, Çin imperatoru Fuşi Taoya qovuşduğuna görə də əbədiyyət sirrinə və əbədi həyata yiyələnmişdir. O, bu həqiqətə yiyələndikdən sonra buludlara minərək göylərə yüksəlmişdir. Gizlin mələk və ya ana mələk də belə ".etmiş və əbədi həyata nail olmuşdur

səh:۱۴۶

Keçən dərsdə və bu dərsin əvvəlində öyrəndiyimiz kimi, bu məqsədə çatmağın yolu fəaliyyətsizlik, ruhi məşğələlər, meditasiya və bir sıra əxlaqi göstərişlərə riayət etməkdən keçir. Bir sözlə Taoizmin baniləri bir sıra mə'nəvi üsullar toplusunu nəzərdə tutmuşlar. Amma sonrakı dövrlərdə bu ayinin rəhbərləri və onun ardıcıllarının böyük bir hissəsi maddi amillərdən istifadə edərək uzunömürlülük, əbədi qalmaq, bədənin çürüyüb aradan getməsinin qarşısını almaq üçün yollar axtarırdılar. Çuvanq-tzonun əsrindən sonrakı dövrlərdə Taonun zatına qovuşa bilmiş və əbədilik qazanmış filosofların adlarına rast gəlinir. Bu filosoflardan biri də ahıl yaşlarında bir uşaq qədər təravətli olmuş Oyodur. Bu da onun Taoya qovuşma nəticəsində mümkün olmuşdur. .O, bu vasitə ilə zaman və məkanın buxovlarından azad olmuşdu

Belə söhbətlərin yayılması sadə xalq kütlələrinin müxtəlif təbii ünsürlər və amillər arasında elə maddələr axtarmalarına səbəb oldu ki, onu istifadə etməklə uzunömürlülüyə və əbədiliyə nail olmaq mümkün olsun. Bu prosesdə falçı və cadugərlər meydana gəldilər ki, camaatı əbədi həyat maddəsi tapmaq adı ilə .aldatmaqla onlardan faydalansınlar

Bu barədə taoizmin əsərlərindən hesab olunan "Tzeanteonqçei" kitabını qeyd etmək olar. Bu kitabda şərh edilən kimyagər əməlləri və reaksiyalar vasitəsilə uzunömürlülük dərmanını, yaxud əbədilik iksirini tapmağın yolunun tə `liminə çalışılır. Kitabın bə'zi yerlərində belə qeydlərə rast gəlirik: " - Qurğuşun, civə və qızıl əriyib bir-birinə qarışsa və kiçik düyməciklər halına düşsə, onu yeməklə (iksiri) uzunömürlülüyə, hətta əbədiliyə çatmaq olar". Bundan başqa, Tao filosofu Kuhunq "Paop-otzo" adlı məşhur kitabında yazır: " - Mənim mütaliə etdiyim kitabların hamısında bu məqsədə çatmaq üçün civə sulfuru və ərinmiş qızıl qeyd olunmuşdur. Bu iki maddə əbədiliyə çatmağın zirvəsi və yoludur. Bu iki maddəyə nə qədər çox istilik verilsə, onda baş verən dəyişikliklər də heyrətamiz olacaqdır. Bu iki maddə birlikdə yeyilərsə bədəni ".gücləndirər və qocalmağın, yaxud ölməyin qarşısını alar

### C) TAOİZMİN DİNİ YÖNLƏRİ

Taoizm dini baxımından Lao-tze və Çuvanq-tzo fəlsəfəsi ilə onların əxlaqi tövsiyələrindən, eləcə də Taonun kimyagərlik və sehrkarlıq məqamlarının sintezindən

ibarətdir. Bu əqidələr çinlilərin əcdadlarının bütpərəstlik ayinindən, buddizm və digər .ayinlərdən götürülmüş, bə’zi əlavələrlə təkmilləşmişdir

Buddizm Çinin hər bir yerində genişləndiyi və hətta Koreya yarmadasına sirayət etdiyi II miladi əsrində taoistlər bunun qarşısını almaq və rəqabət aparmaq qərarına gəldilər. Onlar bu məqsədlə öz ata-babalarının e’tiqad normalarını – bu elə səma yolu, yaxud Tao yoludur – bərpa etməklə yanaşı digər ideoloji prinsipləri də öz ayinlərinə əlavə etdilər. Bu məsələ buddizmlə rəqabət etmək üçün Budda ayinlərinin cəlbediciliyin artmasına səbəb oldu. Bu zaman Lao-tzenin şəxsiyyəti Buddanın şəxsiyyəti ilə qarşı-qarşıya qoyuldu; buddistlər Buddanın ilahi məqamına inandıqları kimi, taoistlər də Lao-tzenin ilahi məqamı olduğuna

inandılar. Onun üçün büstlər yaratdılar, yazı və məktublarını mürsəl səhifələr kimi qələmə verdilər, adına çoxlu mə’bədlər tikdilər. Tao rahibləri və mürtazları o mə’bədlərdə Lao-tzenin büstlərinə pərəstiş etməyə başladılar. Bütün bunlar camaatın yeni və yad din olan buddizmə yönəlməsinə mane olmaq və öz ata-babalarının dinindən əl çəkməmələri üçün edilirdi. Beləliklə, taoizm Çinin rəsmi və milli dini oldu, imperatorlar da bu sahədə müəyyən tədbirlər görüb göstərişlər verdilər. O cümlədən, Han sülaləsindən olan imperator Həvan II əsrdə ilk dəfə olaraq və rəsmi şəkildə Lao-tzenin adına mə’bəd tikdirərək onun büstü önünə hədiyyələr təqdim etdi. Bu da taoizm .ayinində dini rəftar və sitayişin başlanğıcı oldu

Ondan sonra digər ideoloji əsaslar, o cümlədən mahayana firqəsində mövcud olan cənnət və cəhənnəm əqidəsi Tao e’tiqadlarına əlavə edildi. Bəlkə də onlar hinduizmin üç mə’bud, yaxud xristianlığın üç ruhuna təqlid edərək üçlük mə’budlar yaratdılar. Bu :mə’budlar aşağıdakılardır

;Ən yüksək məqam sahibi olan imperator Zəbərcədin .١

;İmperatorun yanında məqam sahibi olan Lao-tze .٢

.Ruhani varlıq və səmavi ruhların başçısı olan Linqpao .٣

.Bu üç mə’bud “üç pak gövhər” adı ilə də məşhurdur

Bu minvalla hər bir dövrdə tao rahibləri bu dində mə’budların və müqəddəs ruhların .sayını artırmışlar. Belə ki, hal-hazırda onların sayı-hesabı yoxdur

:Onların e’tiqad bəslədikləri mə’budlardan bə’ziləri aşağıdakılardır

.Ailə ocağının mə’budu, darvazanı mühafizə edən ١٢ mə’bud, şəhər mə’budu və s

Çində kommunist hakimiyyətindən sonra aradan götürüləcəyi güman edilən taoizm ayininin fəaliyyətdə olan çoxsaylı mə’bədləri vardır və Çində onun ٥٠ milyon nəfərə .yaxın ardıcılı vardır

**SUALLAR**

١. Taoizmin ən mühim əxlaqi prinsipi nədir?

٢. Taoizm ayininin əxlaqi tövsiyələrində ziddiyyət müşahidə olunurmu?

٣.Taoizmdə sehrkarlığı yaratmaqda məqsəd nə olmuşdur?

۴. Taoizm müstəqil bir din kimi necə formalaşmışdır?

səh:۱۴۸

## İYİRMİ YEDDİNCİ DƏRS

## KONFUSİON AYİNİ

### KÖKLƏRİ

İyirmi beşinci dərsin başlanğıcında qeyd etdiyimiz kimi, buddizm, konfusion və taoizm Çin əhalisinin ən mühüm və geniş yayılmış dini inanclarından hesab olunur. Bu üç din arasında konfusion digər iki dinlə müqayisədə daha çox nüfuz qazana bilmişdir. Bu din Maonun kommunist hökumətindən əvvəlki vaxtlara qədər Çinin hakim dini hesab olunurdu və onun vəfatından sonra da öz nüfuzunu və geniş arealını qoruyub saxlaya bilmişdir. Bu ayinin buddizm qarşısında üstünlüyünün səbəbi buddizmin Hindistandan Çinə nüfuz etdiyi halda Konfusionun yerli və milli din sayılmasındadır. Konfusionun taoizmə bu ayinin tərkidünyalıq və asketik həyat tərzinə meyilli olan taoizmdən fərqli olaraq insanlara və cəmiyyətə müsbət yanaşmasına görə qələbə çalıb üstünlük əldə etmişdir. Bu ayində hər bir şəxs öz cəmiyyətini puçluq və fəsad girdabında görməsinə baxmayaraq, nəinki onu tərk etmir, hətta islah etmək üçün hərəkətə keçir və insanlara yol göstərir. Konfusion əsas e`tibarı ilə ictimai islahatlara çalışır. Onu əvəz edə biləcək ideoloji və əxlaqi prinsip irəli sürmür; əksinə insanların ən`ənəvi e'tiqadı üzərində dayanır. Bu amil konfusionun taoizm qarşısında üstünlük qazanmasının əsas səbəbi olmuşdur. Konfusion tə'limləri Çin cəmiyyəti və insanlarının mədəniyyət, inanc .və qanuni prinsiplərinin əsas mahiyyətinin inanclarını təşkil edir

### KONFUSİON BARƏSİNDƏ

Əsl adı Konq-çiyu olan Konfusion miladdan əvvəl ۵۵۱-ci ildə Lo (hazırkı Şantung) əyalətində dünyaya gəlmişdir. Üç yaşında atasını itirdiyindən anasına kömək etmək üçün uşaq çağlarından işləməyə məcbur olur. O, təhsildən də uzaqlaşmamış və böyük müvəffəqiyyətlər əldə etmişdir. ۲۲ yaşında müəllimlik sənətini seçmiş, öz evini məktəbə çevirmiş və orada şagird hazırlamağa başlamışdır. Bu məktəb get-gedə genişlənmiş və Konfusion üç min şagird hazırlaya bilmişdir. Şagirdləri onu Konq-fotze (yə'ni müəllim Konq) adlandırırdılar. Həmin dövrlərdə Konfusion Lo əyalətində məhkəmə sədri tə'yin olunur və vergi yığımı ona tapşırılır. Gözəl idarəçiliyinə, sədaqətinə və düz işlədiyinə görə hər dəfə vəzifədə yüksəlmiş, nəticədə Lo

hökumətində vəzir tə`yin olunmuş, sonra baş vəzir olmuşdur. Gözəl rəhbərliyi və bacarığı rəqiblərinin paxıllığına səbəb olduğundan, onu öz vəzifəsindən istefa verməyə .məcbur etmişdilər

Bir müddətdən sonra öz görkəmli şagirdlərindən bir neçəsi ilə rəsmi iş axtarmaq üçün Lo əyalətindən çıxır və ۱۳ il Çinin digər şəhər və əyalətlərinə səfər edir. Amma hər yerdə ona mənfi cavab verilirdi. Qəbul edilməməsinin səbəbi onun

qəbul etdiyi və əxlaqi me`yarlara riayətə əsaslanan idarəçilik və hakimiyyət prinsipinin hökmranların xoşuna gəlməməsi idi. Hətta Kuvanq şəhərində şübhəli bilinərək bir müddət həbsdə saxlanılır. Nəhayət miladdan əvvəl ۴۸۴-cü ildə Lo hökumətində böyük rütbə sahibi olan şagirdi hörmətlə ondan doğma vətəninə qayıtmasını istəyir. Bu zaman Konfusion ۶۰ yaşına çatmışdı. Buna görə də hər bir vəzifə və mənsəbdən imtina edir və ömrünün miladdan əvvəl ۴۷۹-cu ilə qədər qalan hissəsini .öz fəlsəfəsinin əxlaq və ideoloji əsaslarını toplayıb kitab halına salır

## KONFUSİON AYİNİNİN ƏSAS MƏNBƏLƏRİ

Konfusionun ömrünün axırlarında yazıb topladığı başlıca əsərləri beş kitabdan ibarətdir və onlar bu ayinin əsas mənbələrindən hesab olunur. Bu beş kitab :aşağıdakılardır

Şuçinq (tarix kitabı); Bu kitab qədim Çinin sülalələri haqda mə`lumatları əhatə edir. .۱ Konfusion bu mə`lumatlarda hakimiyyətdə olmuş sülalələrinin yaranma və süqut etmə səbəblərini öz şagirdlərinə izah, onları bu sahədəki həqiqətlərdən hali etmişdir. Bu kitab Çinin, miladdan əvvəl ۲۴-cü əsrdən ۸-ci əsrə qədər davam edən hakimiyyət .sülalələrinin sənədlərinə şamil edilir. Hal-hazırda bu sənədlərdən yalnız ۲۸-i qalmışdır

Şiçinq (şe`r kitabı); Konfusion bu kitabda həmin dövrdə camaat arasında yayılan üç .۲ min şe’rdən ۳۰۵-ni seçərək onları öz tə’limlərinin əsasına çevirmişdir. Onun tə’limlərinin çoxunda bu şe’rlərdən istifadə olunmuşdur. Konfusion bu şe’rləri ۴ qrupa :bölüb təsnif etmişdir

;A. Qadınla kişinin əlaqələri barəsində olan şe’rlər

;B. Xalq bayramları ilə əlaqədar nəğmələr

;C. Dövlət bayramları üçün nəğmələr

D. Qurbanlıq mərasimləri və mə’bədlərdəki dini ayinlərin icrası zamanı oxunan dini .nəğmələr

Liçi (ayinlər, yaxud şe`rlər kitabı); Bu kitab qədim Çin imperator sülalələrinin və .۳

.əhalisinin ictimai rəftar və davranışlarını bəyan edir

İçing (dəyişikliklər kitabı); Bu kitabın mühtəvasını xəyali fəlsəfi dəstgahlar təşkil edir. .۴ Bə`zi din tədqiqatçıları onu falçılıq və qeybdən xəbər vermə sistemi adlandırmışlar. Bu sistem üç ədəd səkkizlik xətt üzərində qurulub. Bu üç xəttin hər biri də bir bütöv, düz xəttdən və bir də qırıq-qırıq xəttdən ibarət olmaqla bu iki xəttdən biri təkrarlanır. Bu xəyali-ideoloji sistemdə düz xətt yanq (erkək qüvvəsi), qırıq-qırıq xətt yinin (dişi qüvvəsinin) göstəricisidir. Həmin iki qüvvə bütün təbiət aləmini yaratmışdır və təbiətin bütün simvolları iki-iki, yaxud yanq və yinə aid edilir. Göylər və yerlər, ay və ulduz, .işıqlıq və qaranlıq, həyat və ölüm kimi təzahürlər də belələrindəndir

Çun-çyo (bahar və payız salnaməsi); Bu kitab Lo əyalətindən Yin padşahlığının ilk .۵ dövründən (miladdan əvvəl ۷۲۲-ci il) Ay şahın hökmranlığının ۱۴-cü ilinə qədər (miladdan əvvəl ۴۸۱-ci il) baş verən mühüm hadisələri barəsində

gündəlik xəbərlərdir. Konfusion dəqiq mə'lumatlar verməklə səlahiyyətli hökumətin formalaşmasını, qəddar vəzirlərin islahı üçün mexanizmləri göstərir. Bütün bunlar .qədim Çin hökumətinin və siyasət elminin əsası sayılır

Qeyd olunan beş kitabdan əlavə, Konfusionun əlaçı tələbələri vasitəsilə, o da Konfusionun əxlaqi şəxsiyyəti və fəlsəfəsini şərh edən başqa dörd kitab da qələmə :alınmışdır. Həmin kitablar aşağıdakılardan ibarətdir

Analekt; Lunyunun müntəxabatından ibarət olan bu kitab Konfusionun və onun bə'zi .١ şagirdlərinin sözlərini ehtiva edir. Kitabda Konfusionun fəlsəfəsinin kökləri və .şəxsiyyəti gözəl şəkildə bəyan olunmuşdur

Tasoe, yaxud böyük elm kitabı; Bu kitab şərafət, alicənablıq, xüsusilə də orta .٢ .məktəbdə yeni təhsilə başlayan şagirdlərə tə'lim-tərbiyə üsullarını aşılayır

Çunq-yunq, yaxud min kitabı; Bu kitab əslində Konfusionun nəvəsi Tzoso tərəfindən .٣ şərh olunmuş Liçi kitabının bir hissəsi olmuşdur. Kitabın mövzusu dünyadakı nizam-.intizamla insanın əxlaqi vəzifələri arasında əlaqədir

Mənkyus kitabı. Konfusionun fəlsəfi görüşlərinin izahı üzrə miladdan əvvəl üçüncü .۴ əsrdə yazılmış bu ilk kitab Konfusion əcdad və ardıcıllarının kəlam və sözlərindən .ibarət olmaqla nizamlı şəkildə tərtib olunmuşdur

### KONFUSİON AYİNİNİN FORMALAŞMA ZƏMİNİ

Lao tze və Konfusionun meydana gəldiyi əsr Çin tarixində günah və əxlaqsızlığın baş alıb getdiyi dövr hesab olunur. Bu kimi günah və əxlaqi pozğunluqlar fərdi, ailə, sosial həyatda və hökumətdə müxtəlif səviyyələrdə yayılmışdı. Bu iki filosofun mövcud vəziyyətdən keçirdiyi iztirablar da bu fəsadın əleyhinə mübarizə yolu axtarmaq olmuşdur. Onlar öz tədqidat və təfəkkürlərində səadət və qurtuluş yolunu, həmçinin insanların azğınlığa düşməsinin səbəblərini ayırd etmək üçün müəyyən mə`nada insani kamillik və yaradılışın motivlərini prinsipial şəkildə araşdırmışlar. Bununla belə, həmin filosofların tədqiqatlarının nəticəsi bir-birindən çox fərqlənən və hətta ziddiyyətdə olan iki nəzəriyyənin yaranmasına səbəb olmuşdur. Lao-tze belə fikirləşirdi ki, bu fəsad və günahlar insanların əməllərindən yaranır və insanların

işlərinin günahdan, fəsaddan başqa bir nəticəsi olmur. Həyatın hər bir sahəsində insanın əməl və fəaliyyət dairəsi nə qədər genişlənərsə, cəmiyyətdə günah və əxlaqsızlıq da bir o qədər artar. Buna əsasən Lao-tze fəaliyyətsizlik prinsipini irəli sürür ki, bunun vasitəsilə bütün işlərin gedişatını Taonun istəyinə uyğun izah edilib əsaslandırılsın. O əslində varlıq aləmindəki bütün işlərin Taonun iradəsinə tabe və insan özünü tamamilə ona tapşırarsa, onun işləri Taonun istədiyi tərzdə olacaqdır. Buna görə də, onun bütün işləri və ehtiyacları düzgün və məsləhətə uyğun həll olunacaqdır. Təbiidir ki, cəmiyyətdə belə fikirlərin yayılması cəmiyyətdə durğunluğa və .tənəzzülün başlanmasına səbəb olacaq

Bu təfəkkürün əksi cəmiyyətdəki fəsadın səbəb və amillərini bə’zi əxlaq normalarından uzaq düşməkdə görən Konfusion ideologiyasıdır. O da cəmiyyətin islahı üçün bu prinsip və me’yarların hakim olması şərtini irəli sürərək həmin

prinsipləri şərh edir. Konfusion insan cəmiyyəti və sivilizasiyasının əsaslı prinsipial olaraq Tao və təbiət müqabilində formalaşdığına, insanın tarix boyunca göstərmiş olduğu bütün fəaliyyətinin Taonun iradəsinə zidd olmasına inanmırdı. Buna görə də onun nəzərində insanların yaxşı əməl və rəftarları dəyərli, eyni zamanda varlıq nizam qamusu ilə uyğun sayılır. Ancaq, Konfusion əxlaq me'yarlarına zidd, səhv olan əməl və rəftarlar üçün islahedici mexanizmlərin işlənməsini təklif edir. O, həmin mexanizmləri açıqlamağa çalışmışdır. Konfusionun inancına görə Li termini sağlam cəmiyyəti formalaşdıran mexanizm və qanunlarından ibarətdir. Cəmiyyətin idarəçiliyi, təkamülü də Li qanununun hakim olması ilə şərtlənir və yalnız bu halda cəmiyyət Taonun istəyi əsasında hərəkət edəcəkdir. Buna əsasən cəmiyyətdə Tao iradəsinin gerçəkləşməsi Li qanunlarının icrasından asılıdır. Konfusionun bu ideologiyası insani fəaliyyət, sə`ylərə, tədbirlərə dəyər vermək deməkdir və Lao-tzenin inancına əksinə olaraq, onların inkar .edilməsi kimi qiymətləndirilməməlidir

**SUAL VƏ TAPŞIRIQLAR**

?Konfusionun Budda və Tao ayinlərindən üstünlüyünün səbəbi nə olmuşdur.١

?Konfusion kimdir.٢

Taoizm və Konfusion ayininin Çin cəmiyyətindəki fəsad məsələsinə baxışlarındakı .٣ ?fərqlər nədən ibarətdir

.Konfusion ayininin mövzularına diqqət yetirməklə onun əsas kitablarının adını çəkin

səh:١٥٢

## İYİRMİ SƏKKİZİNCİ DƏRS

### (KONFUSİON AYİNİ (٢

### ƏSAS VƏ E`TİQADLARI

Keçən dərsdə qeyd olunduğu kimi, Konfusion cəmiyyətin islah olunması üzərində xüsusi dayanmış və bu məqsədlə bir sıra əxlaqi tə`limatlar vermişdir. Bununla belə, o bir məktəbi digərlərindən fərqləndirən digər ideoloji əsaslar barədə yeni bir nəzəriyyə təqdim etməmişdir. Konfusionun özü yeni bir ideoloji cərəyan yaratmadığını, Çinin qədim və ən`ənəvi e'tiqad prinsiplərini qəbul etdiyini e`tiraf edərək deyir: " – Mənim işim ixtiraçılıq və təşəbbüskarlıq deyil, bir yerə toplamaqdır", " – Mən bir ixtiraçı deyil, mətləbləri nəql edənəm." O, hətta öz ayininin ən ümdə əxlaqi tə'limlərinin bir qismini .də şəxsi təşəbbüs və ixtirası hesab etmir, onlara əvvəlkilərin rəftarları kimi baxırdı

Hər halda əxlaqi prinsipləri Konfusionun əsaslarının ən mühüm hissəsi sayılır. Əhəmiyyət və bu ayinin belə tə`limatlar üzərində qurulması baxımdan onları digər .prinsip və əsaslardan öncə şərh etməyi lazım bilirik

### KONFUSİON ƏXLAQI

:Konfusionun əxlaqi tə'limlərinin üç əsas prinsipı aşağıdakılardır

.Li qanunu, Şu qanunu, Çun-tzo, yaxud kamil insan qanunu

Li; Konfusionun Çin cəmiyyətini islah etmək naminə bir qanun və norma olaraq . ١ yaratdığı bu söz müxtəlif mə'nalarda işlənmişdir. Bu mə'nalardan "paklıq və təharət, ədəb və insaniyyət, qayda-qanunlar, ibadət və əməllər, ictimai fəaliyyət və rəftar nümunəsi"- ni qeyd etmək olar. Li əslində sağlam cəmiyyəti formalaşdıran qanun və prinsiplərə şamil edilir. Cəmiyyətin idarə olunması və təkamülü də bu prinsip və qanunların əsasında baş tutur. Bu prinsiplər ailə, cəmiyyət və hökumətin islah olunmasında əsas rola malikdir. Konfusion inanırdı ki, bu qayda-qanunlara riayət olunarsa bütün ictimai ixtilaflar aradan götürülər, cəmiyyət maddi-mə'nəvi təkamül .yoluna qədəm qoyaraq, fəsad və əxlaqsızlıqdan xilas olar

.Konfusionun Li qanunun tə'limləri ilə əlaqədar üç məsələni araşdırırıq

Birinci, Li qanununun işlərin nizamlanması və insanlar arasında mehriban münasibətlərə xidmət edən beş əsas prinsipi vardır: övladın ataya, kiçik qardaşın böyük qardaşa, qadının ərinə, fəhlənin sahibkara və rəiyyətin hakimə itaət etməsi. Konfusion inanırdı ki, bu beş prinsipə riayət olunarsa ata, böyük qardaş, ər, sahibkar və hakim də öz vəzifələrinə əməl edəcək, bununla da cəmiyyət sağlam və xoşbəxt olacaq. O deyir: " – Hər bir ata öz ailə üzvlərinə asayiş və səadət yaratmaq işində tam məs'uliyyət daşıyır. O, öz övladlarına gözəl insani keyfiyyətlər aşılamalı, onlar üçün nümunə olmalıdır." Atanın bu vəzifəyə əməl edə bilməsi üçün övladın da öhdəsinə müəyyən vəzifələr düşür: " – Ata sağ

olduğu müddətdə onun istəyinə uyğun əməl etməli, dünyadan gedəndən sonra onun rəftar və əməllərini nəzərə almalıdır. Mümkün qədər onu təqvalı və düzgün əməl sahibi bilməlidir." Övlad valideynə itaət etməkdən əlavə, onlara ehtiram və qayğı göstərməli, inciməlorinə, narahatlıqlarına səbəb olmamalıdır. Bu barədə deyilir: " - Yaxşı övlad o deyil ki, imkanı olan təqdirdə öz gücsüz ata-anasına yemək çatdırsın. Çünki bə'zi heyvanlar da bu işi görürlər. Yaxşı övlad o kəsdir ki, öz valideyninə ehtiram göstərsin"; " - Yaxşı övlad o kəsdir ki, qeyri-iradi qarşıya çıxan xəstəliklər istisna ".olmaqla, heç bir vəchlə öz ata-anasının inciməsinə səbəb olmasın

Konfusion rəiyyət-hakimin, fəhlə-sahibkar əlaqəsi barədə belə deyir: " - Əgər rəiyyət dövlət başçılarının fərmanına itaətsizlik etməsə, dövlət adamları onun işlərində ədalətdən kənara çıxmayacaqlar. Fəhlələr sahibkarlara itaət etsələr, məhz bu zaman sahibkarlar adları sahibkar olsa da fəhlələrin tə'siri altına düşəcəklər (yə`ni fəhlələrin bütün istəklərinə müsbət cavab verəcəklər). Belə olan halda cəmiyyətdə heç bir təzad, müharibə, zülmə yer olmayacaq və insanlar bir-birini sevəcəklər. Beləliklə də cəmiyyət ".rifah və asayişdə yaşayaraq, maddi-mə'nəvi kamilləşmə yoluna qədəm qoyacaq

Buna görə də, ümumiləşdirmə aparsaq Konfusion övlad atasına itaət etsə, atanın da yaxşı tərbiyəçi olacağına, kiçik qardaş müti olsa, böyük qardaşın onu himayəsinə alacağına, qadın itaətkar olsa ərinin ona vəfalı qalacağına, rəiyyət itaət edərsə, hakimin rəiyyətin qayğısına qalacaq, fəhlə sahibkara itaət edərsə, sahibkar onun ehtiyaclarını tə'min edəcəyinə və beləliklə, bir-biri ilə sülh və səmimiyyət şəraitində .yaşayacağına inanmışdır

İkincisi: Konfusionun tövsiyələrinə əsasən Li qanunu ev, şəhər və kəndlərdə, nəhayət bütün ölkədə icra olunarsa, mö'tədillik və uyğunlaşma nəticə e`tibarı ilə insanla varlıq aləmi, yə'ni yerlə göy arasında gözəl əlaqə yaranacaq. Bu halda insani əməllər Tao yoluna uyğun – yə`ni dünyanın qüdrətli, mələkut iradəsi ilə həyata keçəcəkdir. Beləliklə, insanların iradəsi vasitəsilə Taonun istəyi gerçəkləşəcəkdir. Düzgün və Liyə müvafiq olan əməl bu iradənin həyata keçməsini mümkün edir. Taonun özü isə birbaşa cəmiyyətin təkamül və islahına əsaslanan istəyini (taostlərin inancına görə) .həyata keçirməklə məşğul olmayacaqdır

Üçüncüsü: Konfusion nəzəriyyəsinə uyğun olaraq, Li qanunu əsasında yerinə yetirilən ictimai qayda və ən`ənələr qədim nəslin adət-ən`ənəsinə müvafiq olmalıdır. Belə ki, keçmişdəki insanlar hamının səadətini istəmiş, qarşılıqlı qayğı və ehtirama səbəb olan insani ruh onlarda kamil zühur etmişdir. Ata-babaların hamısı bir-biri ilə ədalət və ədəblə rəftar etmiş; onların münasibətlərində ciddi nizam-intizam və möhkəm ədalət hakim olmuşdur. Yüksək rütbəlilərlə aşağı təbəqəyə mənsub olanlar bir-birinin vəziyyətindən tam xəbərdar olmuşlar. Bir-birinin məqam və mövqeyini gözləmiş, öz aralarında hədd-hüduda riayət etmişlər. Bu barədə Konfusion belə deyir: “ - Qədimdə Li qanununa əsasən camaata hökmranlıq edən Fuşi kimi imperatorlar olmuşlar. Onlar rəiyyətə qarşı ədalətli

və xeyirxah idilər, rəiyyət də onları sevir və itaət edirdi. Buna görə də ölkəni başdan-başa haqq-ədalət bürümüşdür. Buna əsasən ata-babalarımıza ehtiram qoymalı, onların adət-ən`ənələrinə pərəstiş etməliyik." Həmin səbəbdən, Konfusion şəxsən özü dini qayda-qanunlarda yeni bir şey ixtira etməməklə yanaşı, ata-babaların ən`ənəvi qayda-qanunlarına riayət və pərəstiş məsələsində sədaqətini göstərmişdir. O, çoxlu mə`budlara sitayiş, ruhlara pərəstiş, imperatora tə`zim edir, qurbanlıq ayinlərini, eləcə də düzgün olub-olmamasından asılı olmayaraq, keçmişdən yadigar .qalan xurafatçı adət-ən`ənələri yerinə yetirirdi

O inanırdı ki, "şu"nu ümumi bir göstəriş qismində ömür boyu həyatın bir qanunu kimi tətbiq etmək olar. Bu barədə deyilir ki, bir gün bir nəfər Konfusiondan soruşur: Dünyada elə bir hamıya aid söz və ümumi göstəriş varmı ki, onu bütün ömür boyu həyat qanunu seçək? O cavab verir: " - Bəli! Qarşılıqlı əməl, yə'ni şu həmin ümumi söz və tə`limatdır." Bu sözün də mə'nası budur ki, özünə rəva görmədiyini başqalarına da .rəva görmə

Çun-tzo; Konfusionun üçüncü əxlaqi əsası çun-tzo, yaxud kamil insandır. O inanırdı-٣ ki, insanın kamali, üstünlüyü də Li qanunu və şu prinsipinə riayət olunmasından asılıdır. Onun nəzərində kamil insan "valideynə məhəbbət həmişə qəlbində olan oğul, övladlarına qarşı ədalət və mehribanlıqla rəftar edən valideyn, öz sahibkarına vəfadar və əmanətdar olan mə'mur, həyat yoldaşına vəfalı və səmimi olan ər, dostu ilə ədəbli ".və səmimi olan insandır

Konfusion bütün bu xüsusiyyətləri sədaqət sifətində ümümiləşdirməklə insan şəxsiyyətinin və rəftarının əsasının sədaqət olmasına inanır. Bu sifət insanın üstünlüyünə və kamilləşməsinə səbəb olur. O, həmçinin kamil insan üçün sədaqətdən aşağı pillədə olan digər xüsusiyyət və sifətləri də qeyd edir. O cümlədən: "Üstün insan camaat arasında tanınmaqdan deyil, qüdrətə çatmaqda pərişan olar. Üstün insanın axtardığı onun varlığında mövcuddur, alçaq insanın axtardığı isə başqalarındadır. Kamil insan söz deməmişdən qabaq əməl edər, daha sonra öz əməlinin tələbinə uyğun danışar. O, az danışıb çox iş görəndir. İş və rəftarda mö'tədildir. Kamil insanın rəftarı və danışığı əvvəlki nəsillərin yaşadığı cəmiyyətin ümumi qanunlarına müvafiq ".olmalıdır

## KONFUSİON AYİNİNİN ƏQİDƏLƏRİ

Konfusionun əsas məşğuliyyəti cəmiyyətdə, xüsusilə də hökumətin vəziyyəti, xalq kütləəri ilə dövlət mə`murlarının əlaqələrində islahat aparmaq olmuş mə'nəvi məsələlərə daha az diqqət yetirmişdir. O, hətta dəfələrlə öz şagirdlərinin mə'nəviyyət və fövqəltəbii məsələlərə dair suallarına cavab verməkdən yayınmışdır. Misal üçün, şagirdlərindən biri ölülərə (ruhlara) xidmət barəsində soruşduqda cavabında demişdir: " – Xalqa xidmət etməyə qadir olmadığın halda onların ruhlarına necə xidmət edə bilərsən?" Yaxud, ölüm barəsində soruşulduqda demişdir: " – Sən həyatı dərk ”?etmədiyin halda, ölümü necə başa düşə bilərsən

Bütün bunlara baxmayaraq Konfutsionun müqəddəs kitabları böyük dünyanın ali qüdrəti olaraq böyük allahı açıq şəkildə qəbul və bə'zən onu ilahi hakim mə'nasını daşıyan Şankti, bə'zən də ərş, asiman mə'nasında olan Tiyen adı ilə qeyd edir. Konfusiondan nəql olunmuşdur ki: " – Səmavi istəkləri bilmədən ali insan olmaq mümkün deyildir. Yol qanunları ilə (Tao asiman yolu) tanış olmadan fərdi şəxsiyyətin ”.sabitləşməsi qeyri-mümkündür

Bununla belə, əvvəldə qeyd olunduğu kimi, Konfusion özündən yeni ideoloji əsas yaratmamış, öz ardıcıllarını ata-babalarının ayininə də'vət və təşviq etmişdir. Onun özü də keçmişdəkilərin e'tiqad və adət-ən'ənələrinə çox ciddi şəkildə riayət edirdi. Adi .camaat kimi mə'budlara sitayiş və onlara qurbanlıq hədiyyə edirdi

Konfusionun ölümündən sonra ardıcılları onu o dərəcədə müqəddəsləşdirdilər ki, ilahilik məqamına yüksəltməkdən əlavə, onun üçün mə'bədlərdə dua mərasimi, sitayiş və qurbanlıq da geniş yayıldı. Bu qanunların əsası ilk dəfə miladdan əvvəl ١٩٥-ci ildə Çin imperatorunun onun məzarı üstündə heyvanların kəsilməsini əmr etdikdən sonra qoyuldu və tədricən genişlənib yayıldı. Artıq, ١٢٠٠ ildir ki, hər il minimun iki dəfə Konfusion üçün mə'bədlərdə qurban kəsməklə müşaiyət olunan dua mərasimləri .keçirilir

## SUAL VƏ TAPŞIRIQLAR

?Li qanununun icrası cəmiyyətin islahı üçün kifayət edirmi .١

?Şu nə deməkdir .۲

.Li qanununu izah edin

.Çun-tzo, yaxud kamil insan Konfusiona görə hansı xüsusiyyətlərə malikdir

## İYİRMİ DOQQUZUNCU DƏRS

## ŞİNTO AYİNİ

### İŞARƏ

Şinto Yaponiyanın qədim ayinidir və hal-hazırda Yaponiya əhalisinin əksəriyyəti özünü bu dinin ardıcılı hesab edir. Şinto dininin keçmişi animizm, totemizm və ata-babalara gedib çıxır. Qədim yaponların inanclarına görə, ruhlar hər bir yerdə - istər ulduzlarda, bitkilərdə, istərsə də ağaclarda, həşaratlarda və heyvanlarda - mövcuddur. Onların fikrincə saysız-hesabsız mə'budlar evlərin və onların sakinləri üzərindən uçurlar. Qədim yaponlar ölülərdən qorxurdular və onların ruhlarının həyatda rola malik olmalarına, dünya işlərinin müqəddəratının onların əlində ol masına inanmışlar. Buna görə də onlara sitayiş edərək öz ehtiyaclarını onlardan diləyir və hədiyyələr verməklə özlərini onların qəzəbindən amanda saxlamağa çalışırdılar. Ölülərin qəbirlərində qiymətli əşyaların qoyulmasının səbəbi də bu idi. Kişi ölülərin qəbirlərinə qılınc, qadınların qəbrinə isə güzgü qoyurdular. Böyük bir şəxsiyyət dünyadan gedəndə, onunla əlaqədar olanları da birlikdə torpağa basdırırdılar ki, axirət səfərində onun müdafiəçisi olsunlar. Qədim yaponlar arasında ölülərə ehtiram və onların pərəstiş olunması o dərəcədə geniş yayılmışdı ölülərin ruhları tədricən tanrı məqamına çataraq, insanların xoşbəxtlik və bədbəxtliklərini tə`yin edən ilahələrə çevrildilər. Bu ruhlara yaxınlaşmaq məsələsində iş o yerə çatıb ki, onlar üçün hədiyyələr verməkdən əlavə, digər dini mərasimlər, o cümlədən ata-babaların qəbirləri önündə dua oxumaq, qurbanlıq vermək, hətta ziyanverici yağışların dəf edilməsi kimi bə'zi hacətlərin .istənilməsi üçün insanın qurbanlıq kəsilməsi barədə də mə`lumatlar var

Şinto ilk əvvəldə əcdadlara sitayişdən qaynaqlanmış və üç formada olmuşdur: ailənin əcdadına sitayiş, qəbilənin ata-babalarına sitayiş, bir qövmün mə'budlarına və sultanlarına sitayiş. Buna görə də, ata-babaların, xüsusilə sultanların ailələrinin, vəfat edənin ailə üzvləri, görkəmli şəxsiyyətlər, qəbilə və tayfa başçıları, milli qəhrəmanlar və bir sözlə öz canlarını Yaponiya naminə fədakarlıqla əldən verən hər bir şəxsin .ruhuna sitayiş bu ayinin əsasını təşkil edir

### ŞİNTONUN MƏ`NASI

Şinto Çin mənşəli mürəkkəb bir sözdür və iki hissədən – ruhlar, mə’budlar mə’nasını verən “şin” ilə yol mə’nasını daşıyan “tao” sözlərindən təşkil olunmuşdur. Deməli, bu sözün mə`nası “mə’budlar yolu”-dur. Şinto əvvəllər qədim yaponların arasında “ölülərin ruhlarının” ayini, yaxud “kamino-miçi” kimi tanınırdı. Yapon sözü olan “kami” təxminən Çin dilindəki “şin” kəlməsinin qarışılığı olub ruhlar mə’nasını ifadə edir və bu söz mə’budlar barəsində də işlədilmişdir. Bu şərhlə şinto aşağıdakı tə’rifi kəsb etmiş :olur

Bu ayin Kamiyə və kami təfəkkürünə əsaslanan ictimai həyata olan e’tiqaddır. Belə - “ ki, əsrlər boyunca istər yerli, istərsə də xarici olan müxtəlif

mədəniyyət və irqlərin birləşməsi, toqquşması nəticəsində qaynayıb-qarışmış və ”.imperator sülaləsinin nəzarəti altında vahid forma alaraq yaranmışdır

### ƏSASLARI VƏ E`TİQADLARI

:Müqəddəs Şinto mənbələrinə əsasən ilk əvvəldə üç mə’bud mövcud olmuşdur

;Amanumi-kanuşi-nukami, yaxud səma mə’budu .١

;Takami-nusubi-nukami, yaxud qoruma və mühafizə mə’budu .٢

.Kami-musubi-mukami, yaxud məhsuldarlıq və bərəkət mə’budu .٣

Daha sonra bunların nəsil artımı nəticəsində sonrakı mə’budlar nəsli yaranmışdır. Nəhayət yeddinci nəsildə izanaqi (erkək mə’bud) və izanami (dişi mə’bud) adlı iki mə’bud bacı-qardaş surətində dünyaya gəlmişlər. Yaşlı mə’budlar onlara Yaponiyanı xəlq etməyi əmr etdilər. O iki mə’bud yerlə göy arasında səyyar bir körpü düzəltmişlər. Sonra izanaqi oradan okeana enmiş, cəvahir nişanəli nizəsini şoran okean suyuna batırmış və onu o qədər qarışdırmışdır ki, onun şor suyu qatılaşıb donduqdan sonra öz nizəsini oradan çıxarmış və ondan daman hər bir damcı Yaponiyanın böyük adalarından birinə çevrilmişdir. Yaponiyanın digər adaları və eləcə də yapon xalqının nəsli bu iki bacı-qardaş mə’budun nəsil artımından yaranmışdır. Digər mə’budlar da başqa yollarla bu iki mə’buddan əmələ gəlmişdir. Məsələn, günəş mə’budu olan Amatraso izanaqinin sol gözündən xəlq olunmuşdur. Yapon imperatorları özlərini Amatrasonun nəvələri adlandırırdılar. Birinci Mikado (Yapon imperatorlarının ləqəbi və böyük darvaza mə’nasındadır) Amatrasonun övladı hesab olunur və onun tərəfindən Yaponiyaya hökmran tə’yin edilmişdir. Şintonun qədim mənbələrində qeyd olunur ki, Amatraso birinci Mikadoya xitab edərək demişdir: “ - Sən ey yüksək nəsəbli övladım, oraya (Yaponyaya) get və orada hökmranlıq et. Get, ne`mət və rifahın sənin sülalənlə birgə olacağına ümidvaram. Ümidvaram ki, o da (sənin hökumətin və sülalən) səma və yer kimi əbədi bərqərar olacaq.” Bu e’tiqada əsasən imperatora sitayiş Şintonun ən .əsas dini əməllərindən biri hesab olunur

Şinto dini mətnlərində mə’budlara yalnız təvəllüd və nəsil artımı deyil, adi insanlar üçün təsəvvür oluna bilən bütün xüsusiyyət və simalar aid edilir. O cümlədən xəstəlik,

qəzəb, hamama getmək, ağlamaq, paxıllıq, nalayiq sözlər danışmaq, viran etmək, ölüm-itim, aradan getmək və s. belə sifətlərdəndir. Nümunə olaraq, Şinto mənbələrində tufan mə’budu Susa-novonun dağıdıcı bir təbiətə malik olmasının, onun rəftarının tərbiyəsizlik həddini də aşdığının qeyd olunmasını göstərmək olar. O, qələbə çaldığı zaman zülm, sitəm etmiş və nəticədə sair mə’budlar tərəfindən cərimə .olunaraq sürgün edilmişdir

Şinto ayini təbiətin bütün təzahürlərinin günəş, tufan, yağış, ulduz və s. ayrıca bir allahı olduğuna inanır. Amma əvvəldə qeyd olunduğu kimi, bu mə’budların hamısı, eləcə də maddi və qeyri-maddi varlıqlar bir ata və bir ana mə’buddan, yə’ni izanaqi və izanamidən doğulmuşlar. Buna görə də bütün varlıqlarda ilahi təbiət vardır. Belə bir ideologiyanın əməli nəticəsi də bundan ibarətdir ki, hər bir

yapon həm buddist, həm xristian bu gün Yaponiyada mövcud olan ۳۷۵ firqədən hansı .birinə tabe olsa yenə də bir Şinto hesab olunur

### DİNİ DƏYİŞİKLİKLƏR

cı miladi əsrinin əvvəllərində buddizmin mahayana firqəsi Yaponiya ərazisinə nüfuz -۶ etdi. Bu firqə cəhənnəm və cənnətə e'tiqad kimi bə'zi ideoloji əsaslarına malik olduğuna görə Yaponiya əhalisi arasında sür'ətlə yayıla bildi. Belə bir ideologiya Şinto ayinində nəzərə çarpmırdı. Qarşılıqlı olaraq mahayana firqəsi Şintoya məxsus olan e'tiqadlardan bə'zilərini müəyyən dəyişikliklərlə qəbul etdi. O cümlədən, ölülərin ruhlarına pərəstişi qeyd etmək olar ki, Şinto ayinində ruhlar insan həyatında əsas rol oynadığına görə diqqət mərkəzində saxlanıldı. Onu belə izahla qəbul etdilər ki, bu ruhlar həyatın yeniləşməsindən və ardıcıl doğulmalardan bir əsr əvvəl Kami surətində .qalır və bu müddətdə diri insanların müqəddəratına tə'sir göstərir

Bu iki ayində digər tədrici dəyişikliklər də baş verdi və nəticədə bu iki firqə bir-birinə daha da yaxınlaşdı. Hətta Şinto mə'budları səmavi buddaların təcəssümü kimi də təqdim edildi. Həmçinin Budda ayinində ruhani hesab olunan dəstə mə'nasını ifadə edən budda-sətvə də tədricən şintoizm ardıcılları arasında yarandı. Halbuki, qədim .şintoizmdə belə bir titul yox idi

Mühüm mə qam budur ki, Şinto ayini güclü fəlsəfə və nəzəri əsaslara malik .olmadığından get-gedə mahayana firqəsində yox olmuşdu

cu əsrdə öz hakimiyyətlərinin əsaslarını möhkəmlətmək istəyən Yaponiya-۱۹ imperatorları mahayana firqəsinin nüfuzuna dözə bilmədilər və bunun əvəzində Şinto ayinini gücləndirib yaymağa başladılar. Bunun da əsas səbəbi şintoizm əqidəsinin ən mühüm prinsipi, yə `ni imperatopa müqəddəslik verilməsi və ona pərəstiş edilməsi idi. Bu isə imperatorlar üçün gözəl dəstavüz idi və onlar buna görə də Şinto ayinini bir daha rəsmi dövlət dini kimi dirçəltdilər. Nəticədə, mahayana firqəsi sür`ətlə öz nüfuz və qüdrətini itirdi. Əlbəttə, mahayana firqəsinin e`tiqadi prinsiplərindən bə `zilәri Şinto ayinində qaldı ki, onlardan ən mühümü kimi cənnət və cəhənnəmə e`tiqadı göstərmək olar. Bu e`tiqadın əsasını insanların xeyir və ya şər əməllərinə görə mükafat və cəzaya layiq görüləcəkləri təşkil edir. Bununla belə şintoizm öz irqinin üstünlüyünə e `tiqad

bəslədiyinə, yaponları digər xalqlardan daha kamil hesab etdiyinə və onları səmavi bir .irq saydığına görə yaponlar üçün Makanoha adlı bir cənnət də nəzərdə tutmuşdur

### DİNİ AYİN VƏ MƏRASİMLƏR

Ata-babaların sitayiş edilib müqəddəs sayılması, imperatora ehtiram qoyulub müqəddəs sayılması klassik sintoizmdə geniş yayıldığı kimi yeni şintoizmdə də qaldı. Bundan əlavə, Yaponiyanın və yapon nəslinin seçilmiş, üstün irq kimi səh:۱۵۹

müqəddəsləşdirilməsi, onların birbaşa allahların övladları hesab edilməsi Şinto ayininin .digər mərasimlərindəndir

Şinto ayinində ailənin özü bir növ mə'bəd sayıldığına görə çox müqəddəs və möhtərəm tutulur. Hər bir yapon ailəyə və ondakı qayda-qanunlara hörmət etməyə borcludur. Atanın ailədəki ixtiyarı həddindən artıq çoxdur. Onun hətta öz övladını satmaq haqqı da var və cəza qismində öz övladını e'dam edə bilər. Qadın da qeydsiz-şərtsiz öz ərinə tabe olmalı, onun kobud hərəkətləri və yaramaz işləri qarşısında yalnız mülayim rəftar etməlidir. Eləcə də qızlara atalarından miras düşmür. (Bu qayda-qanunlar Yaponiyanın müasir mülki-prosessual qanunlarında qüvvədən düşsə də, .(onlar Şinto ayininin mənbələrində nəzərə çarpır

Şinto ayinindəki ibadətlər bir sıra nəğmələrdən, dua və zikrlərdən ibarət olmaqla əsas e'tibarı ilə mə'bədlərdə və ibadət edən şəxsin istək, ehtiyacları əsasında seçilən mə'bud qarşısında icra olunur. Günəş ilahəsinə (Amatraso) ibadətin xüsusi mövqeyi vardır. Amatrasoya sitayiş edilməsi üçün xüsusi mə'bədlər tikilmişdir və il boyu bu ayinin ardıcıllarından böyük bir qrupları onu ziyarət edir. Çünki Şinto ayininə tabe olan hər bir şəxs heç olmazsa ildə bir dəfə bu mə'bədi ziyarət etmək üçün ən mühüm Şinto mə`bədinin yerləşdiyi İse şəhərinə getməyi özünə borc bilir. Bu mə'bədlərdə günəşin simvolu olan dairəvi bir güzgü asılmışdır. Şinto e'tiqadına görə həmin güzgü .Amatrasonun birinci Mikadoya etdiyi müqəddəs hədiyyədir

Bu güzgüyə Şintonun iki müqəddəs kitabında – Kuciki (qədim mövzulara aid qeydlər) və Nihunci (Yaponiyanın əhvalatları) - xüsusi diqqət yetirilir. Nihunci kitabında qeyd olunur: " - Amatraso qiymətli bir güzgünü əlinə alaraq və birinci Mikadoya xitabən dedi: -Ey mənim övladım! Bu güzgüyə baxanda mənə baxdığını zənn et. Ümidvaram ki, bu ".güzgü sənin üçün müqəddəs güzgü olacaq

Kuciki kitabında Amatrasondan belə nəql olunur: " - Bu güzgüyə böyük diqqət və ehtiram göstərin. Sanki o bizim əzəmətli ruhumuzdur, bizə hörmət etdiyiniz kimi ona ".da hörmət edin

Şinto mə'budlarının simvollarına hörmət və onların qarşısında baş əymək kimi mərasimlərinə, hədiyyə verilməsi və mə'budlar üçün maddi şeylərdən nəzirlər

yığılmasını da əlavə etmək olar. Bu nəzirlər adətən yeməkdən ibarət olur. Hətta, bə’zi mə’lumatlara görə hər gün müəyyən qədər qida məhsulları, o cümlədən ۴ fincan şərab, ۱۶ nəlbəki düyü, ۴ nəlbəki duz, balıq, quş əti, meyvə və göyərti ilə birlikdə “İse” mə’bədinə hədiyyə olunur. Bu hədiyyələrdən bə’ziləri hər il Cinunun (birinci .Mikadonun) qəbri üzərinə qoyulur

Şinto ardıcılları yuxarıda qeyd olunan ritualları yerinə yetirməkdən əlavə, bə’zi əməlləri də yerinə yetirməyə borcludurlar və bunlardan paklıq və təharətin adını çəkmək olar. Daimi yuyunmadan və paklanmadan əlavə, ildə iki dəfə çayda və dənizdə böyük paklanma mərasimi yerinə yetirilir. Belə ki, əvvəlcə hədiyyələr suya atılır və sonra .hamı suya girərək özlərini yumaqla böyük günah və cinayətlərdən təmizləyir

səh:۱۶۰

## SUAL VƏ TAPŞIRIQLAR

?Şintonun mə’nası nədir .۱

?Şinto ayininə görə varlıqların müqəddəratı kimin əlindədir .۲

?Şinto e’tiqadlarına əsasən Yaponiya və onun əhalisi necə yaradılmışdır .۳

?İmperatora sitayiş Şinto ayinində hansı əqidəyə əsaslanır .۴

?Nə üçün Şinto ayini ardıcılları digər dinlərin də ardıcılı ola bilərlər .۵

?Şintonun müqəddəs kitablarının adları nədir .۶

.Şinto ayinində baş verən dəyişiklikləri bəyan edin

.Şinto dininin ən mühüm mərasiminin adını qeyd edin

səh:۱۶۱

## OTUZUNCU DƏRS

### (ZƏRDÜŞTİLİK (1

### MÜQƏDDİMƏ

Zərdüştilik qədim iranlıların dini olmuşdur və islamdan qabaqkı dövrə qədər İran xalqları bu dinə e’tiqad bəsləmişlər. Tarixi məlumatlardan aydın olur ki, zərdüştilik eynilə məcus dini kimidir ki, Qur’ani-kərimdə ilahi dinlərdən biri kimi onun da adı sair dinlərlə yanaşı qeyd olunmuşdur. Qur’ani-Kərimdə buyurulur:

«Həqiqətən, Allah mö’minlər, yəhudilər, sabiilər, məsihilər və müşriklər arasında qiyamət günü hökm edəcəkdir. Həqiqətən Allah hər bir şeyə şahiddir».(1)

Bu ayədən məlum olur ki, məcus dini ilk əvvəllər tövhid əsasında olmuşdur; çünki burada o, təkallahlı dinlərlə yanaşı gətirilmiş, müşriklər isə “və” bağlayıcısı vasitəsilə onlardan ayrılmışdır.

Məcus dininin tövhid əsasında olmasını nəzərə alaraq, onu da ilahi dinlərlə bir sırada araşdırırıq. Diqqət yetirmək lazımdır ki, islam fəqihlərinin əksəriyyəti zərdüştləri kitab əhli hesab edərək, onları da rəsmi olaraq təkallahlı kimi tanımışlar.

### ZƏRDÜŞTİLİYİN TARİXÇƏSİ

Zərdüştün zühurundan və zərdüştiliyin, yaxud Məzdai ayininin tə’sis olunmasından qabaq, iranlılar bir neçə allaha inanırdılar. Yə’ni, allahların allahı, yaxud Yəzdaların Yəzdasının əmri altında olan mə’budlara sitayiş edirdilər. Bu dinin Hindistanın ariyailər əqidəsi ilə çox oxşarlığı və yaxınlığı vardır. Çünki, ariyailərin ən məşhur mə’budları olan od allahı Agini, təbiət allahı İndira, nur və günəş allahı Mitra, keşikçi allahı Varvina, su allahı Anatita olmuşdur; Agini ilə razi-niyaz edib ona pərəstiş etmə mərasimi onların arasında çox geniş yayılmışdır və həmin dövrlərdən e’tibarən od, Agininin təcəlli və zühur əlaməti olaraq, xüsusi hörmət və müqəddəsliyə layiq görülmüşdür.

Qeyd etmək lazımdır ki, qədim İranda iki din mövcud olmuşdur ki, onlar da öz növbəsində zərdüştilik ayininin formalaşmasında güclü tə’sirə malik olmuşlar. Başqa

sözlə desək, zərdüştilik aşağıdakı iki din əsasında formalaşmışdır:

١. Muğan dini;

٢. Mehrpərəstlik, yaxud Mitraizim.

səh:١۶٢

---

١- [٧] Həcc-١٧.

## MUĞAN DİNİ

Bu din həzrət Məsihin miladından qabaqkı minilliyin əvvəllərində və midiyalıların səltənət sülaləsinin təşkil olunmasından qabaq İranda mövcud olmuşdur. Müğ, yaxud :Müg kəlməsi iki mə’nada işlənmişdir

;Xidmətçi və nökər .١

.Din .٢

Tədqiqatçılardan bə’ziləri inanırdılar ki, köçəri ariyailər İran ərazilərində hakim olduqdan sonra yerli əhali onlar tərəfindən əsir götürüldü. Buna görə də onların dini (Muğan adlandırıldı.(١

Bə’ziləri inanırdılar ki, Müğ, yaxud Müg kəlməsiAvestanın ən qədim hissəsi olan müqəddəs Gata kitabında din mə’nasında işlədilmişdir. “Mügun” isə din ardıcılları mə’nasındadır ki, arami dilində “mügüs” formasına düşmüş və nəticədə Hicaz ləhcəsində ərəbləşərək Məcus kəlməsi kimi səsləndirilmişdir; Qur’ani-Kərimdə də (məhz belə tələffüz olunmuşdur.(٢

Bu ayinin əsas mənbələr məcmuəsindən belə başa düşülür ki, «Məcus» kəlməsi “məgus” sözünün təhrifolunmuş formasıdır və Muğan dini də məhz məcus dinindən .ibarətdir

Herodetdən nəql olunan məlumatlara əsasən, Muğanın e’tiqadi əsaslarının ən mühümü dördlük təşkil edən ünsürləri (od, torpaq, su və hava) müqəddəs saymaq, onların qarşısında, xüsusilə odun qarşısında ibadət etməkdən ibarətdir. Atəşgah yerləşən abidələrin tikintisinə geniş şəkildə başlanması bu dövrlərə təsadüf edilir ki, həmin iş sonralar zərdüşt dinində də davam etdirilmişdir. Bu ayində qeyd olunan dörd ünsürün paklığına riayət edilməsi elə bir səviyyədə idi ki, muğanların nəzərində murdar və istilahda isə tabo adlanan böyüklərin cəsədləri torpaqda dəfn edilmir, odla da yandırılmırdı; onları yüksək bir yerdə - açıq havada və küləyin qarşısında qoyurdular ki, qurd-quşa yem olsunlar. Bu məqsədlə muğanlılar tərəfindən “Bürci Xamuşan” binasının tikilməsi çox adi hal idi və bu iş sonralar zərdüştlər tərəfindən də .davam etdirilmişdir

Muğanın digər e’tiqadlarından biri də varlıq aləmində iki əzəli başlanğıca e’tiqad bəsləmək idi. Bu e’tiqadın mə’nası xeyir və nurun, zülmət və şərin müqabilində xeyir və nurun allahına iman gətirməkdir. Bu əqidə zərdüştilikdə dəyişdirilərək bir qədər fərqli hala düşdü; yeni əqidədə xeyir və nurun əzəli başlanğıcı olan Ahura Məzda həqiqətdə hər bir şeyin xaliqi hesab olunurdu ki, nəticə e’tibarilə o, şər və zülmətin əzəli başlanğıcı olan Əhrimənə qələbə çalacaqdır; halbuki Muğan təlimlərində onların .hər ikisi xeyir və şərin xaliqi, bir-birinə bərabər olan qüdrət və bacarıq kimi göstərilirdi

Muğan ayinində qiyamət gününə, ölümdən sonrakı əbədiyyətə inanc var idi ki, bu .əqidə də ilahi dinlərin əsas prinsiplərindən biri hesab olunur



---

۱- [۸] Əli Əsğər Hikmət, «Tarixi ədyan».
۲- [۹] Pur Davud, «Yaddaşthaye qasaha».

Muğan təlimlərinin digər bir e’tiqadı da günəşə müqəddəs bir varlıq olaraq, yüksək məhəbbət göstərmək idi. Hətta bu iş, həmin məqsədlə xüsusi mərasimlərin təşkil olunmasına və onun qarşısında sitayiş edilməsinə gətirib çıxarırdı. Muğan ayininin ardıcılları günəşə pərəstiş etdikləri zaman «Bərsum» adlı bir ibadət növünü yerinə yetirirdilər ki, bu zaman yaşıl budaqları öz üzləri və burunları qarşısında tuturdular. “Həzqiyal Nəbi” kitabının səkkizinci fəslinin on yeddinci ayəsində bu mərasim haqda danışılır; həmin mərasim sonralar zərdüştilikdə də müşahidə olunmuşdur. Heredot yazır ki, Muğan təlimlərində sehr və cadugərliyə də e’tiqad var idi; onlar xüsusi əməllər və müxtəlif zikrlərə malik idilər; göy cisimlərinin insanların xoşbəxt və ya bədbəxt .olmasında tə’sirli olmasına inanırdılar

## MEHRPƏRƏSTLİK, YAXUD MİTRAİZİM

Əvvəldə qeyd olunduğu kimi, qədim ariyailər çoxsaylı mə’budlara e’tiqad bəsləyirdilər; onlar varlıq və təbiət təzahürlərindən hər birinin ayrıca bir allahı olduğuna inanırdılar; bu təlimlərə əsasən, təbiətdə hər bir allahın özünü büruzə vermək üçün xüsusi təcəlli və məzhəri vardır. Məsələn, onlar günəş allahını Mitra adlandırırdılar. Ariyailərin fikrincə, bu allahlardan hər biri müxtəlif zamanlarda ayrı-ayrı ariya tayfaları arasında xüsusi şəkildə təcəlli etmiş və onların, digər allahlara diqqəti azaldaraq ibadət məqsədilə məhz ona tərəf üz tutmasına səbəb olmuşdur. Məsələn, əgər Agini əzəmətli və qorxunc bir hadisə xəlq etsəydi, ona sitayiş olunmaq üçün yetirilən diqqət, başqa mə’budlara pərəstiş edilməsini kölgədə qoyurdu. Mehrpərəstlik, Mitraizm, yaxud Mitra .təlimləri qədim İran xalqları arasında bu şəkildə meydana gəlmişdir

Bu təlimlərdə deyilir ki, Mitra günəşin, yaxud mehr-məhəbbətin allahıdır. O, bir zamanlar insan şəklinə düşərək, bir dağın zirvəsində yerləşən mağarada zahir olmuş, həmin yerdə qoyun otaran çobanlar ona iman gətirmişlər. Bu zaman Mitradan müxtəlif mö’cüzələr və kəramətlər zahir olmuşdur. O, erkək bir dananı kəsib qanını torpağa səpmiş, qan damlalarının düşdüyü hər bir yer yaşıllaşıb bəhrə vermişdir. Mitra yer üzərində uzun illər qaldıqdan sonra, böyük işlər baş verdi; sonra asimanlara getdi və orada əbədi varlıqlar cərgəsində yerləşdi. Amma onun ruhu yer üzərindəki .bəndələrinə kömək etmək üçün həmişə hazırdır

Mitranın ilk zühuru dağda olduğuna görə Mitraizm ardıcılları öz mə’bədlərini belə yerlərdə qururdular. Hal-hazırda bə’zi məntəqələrdə tapılan bu mə’bədlərdə Mitranın heykəli müxtəlif surətlərdə düzəldilib qoyulmuşdur ki, bir çox kitabələrdə onunla .əlaqədar olan əfsanələr də yazılmışdır

Mehrpərəstlik əqidələri arasında Zərdüştilik e’tiqadı ilə uyğun gələn məsələ günəşə diqqət yetirməkdir. Zərdüştilik təlimlərində günəşə diqqət yetirməyin xüsusi bir mövqeyi vardır. Amma Mehrpərəstlik və Məsihilik ayinləri arasında daha artıq oxşarlıq gözə dəyir. O cümlədən çörək və su mərasimi; məsihilərin ruhani gecə adı ilə kütləvi şəkildə yerinə yetirdikləri çörək və şərab mərasimi

deməik olar ki, zərdüştilərin eynilə çörək və su mərasimi kimidir. Bu ayin Mehrpərəstlik dinini qəbul edən şəxslər üçün icra olunurdu. Onlar bundan əlavə, həmin şəxsə erkək dananın qanı ilə tə'mid edərdilər.(Qana bulaşdırardılar.) Məsihilikdə də tə'mid qüslü vardır, amma onlar bu mərasimdə qan əvəzinə sudan istifadə edirlər. Sentyabr ayının ۲۵-i Mitranın təvəllüd günü kimi tə'yin olunmuşdur ki, bu gün sonralar həzrət Məsihin təvəllüd günü ilə uyğunlaşdırılmışdır. Onlar bazar gününü günəş günü adlandırırlar. (Bu söz həqiqətdə Sunday-dan ibarətdir.) Mehrpərəstlər ayinində bu gün istirahət və .günəşə ibadət günü sayılır. Məsihilikdə də bazar günü ibadət günüdür

## SUAL Və TAPŞIRIQLAR

?Həcc surəsinin ۱۷-ci ayəsindən Məcus dini haqda nə başa düşülür .۱

?Lüğət baxımından Məcus kəlməsinin kökü nədən ibarətdir .۲

?Zərdüştilikdən əvvəl iranlıların əqidəsi necə idi .۳

?Muğan təlimlərində nə üçün ölülərin torpaqda dəfn edilməsinə icazə verilmirdi .۴

.Bərsun" mərasimini şərh edin"

.Mitraizm ayinini qısa şəkildə izah edin

## OTUZ BİRİNCİ DƏRS

## (ZƏRDÜŞTİLİK (٢

### İŞARƏ

Din tarixini araşdıran tədqiqatçılar arsında qədim iranlıların peyğəmbəri olan Zərdüşt barəsində fikir ayrılığı vardır. İlk ixtilaf tarixdə belə bir şəxsin olub-olmaması ilə əlaqədardır. Yəni, bu barədə qarşıya çıxan ilk sual budur ki, görəsən, ümumiyyətlə nə vaxtsa belə bir peyğəmbər mövcud olmuşdurmu? Şübhə yoxdur ki, Zərdüştilik mənbələri onun varlığını tərəddüd etmədən qəbul edirlər. İslami mənbələrdə də Zərdüştiliyin eynilə Məcus dinindən ibarət olması təsdiq edilir; Qur'ani-Kərimdə də ona toxunulmuşdur. Məhz buna əsaslanaraq qəbul etməliyik ki, Zərdüşt bu dinin .peyğəmbəri kimi həqiqi vücuda malik olmuşdur

Başqa bir ixtilaf isə onun adı və nəsəbi ilə əlaqədardır. Zərdüşt kəlməsi bir çox şəkillərdə, o cümlədən «zərtüşt», «zəradüşt», «zəratüşt» və «zərdhəşt» kimi yazılmışdır. Avropalılar onun yunanca tələfüzzünü «zurratis», yaxud «zurastra» kimi yazmışlar. Amma «zərdüşt» və «zərtüşt» daha çox yayılmış adlardandır. Ümumiyyətlə, bu kəlmə "Qasaha"da qeyd olunduğu kimi, əslində «zərasuştar» kəlməsindən götürülmüşdür ki, bu da sarı rəngli və ya qoca dəvələrin sahibi kimi tərcümə olunur. Onun atası «Purvəşəb» yə'ni, "qoca at sahibi" adlı bir şəxs, anası isə «doğdu» yə'ni, "dişi inəyi sağan" adlı bir qadın idi. O, «sepitəmə», yə'ni ağ irqə mənsub olan sülalədən idi. Onun atası barədə qeyd olunur ki, o, sadə bir kəndli idi. Bə'ziləri də demişlər ki, «moğ» (mubəd) olmuşdur. Amma, onu kəndli hesab edənlərin nəzəri zərdüştilərin mənbələri ilə uyğun .olaraq, daha məşhur bir məlumat sayılır

Digər bir ixtilaf Zərdüştün doğum yeri və zamanı ilə əlaqədardır. Əksər tədqiqatçıların qəbul etdiyi kimi, İran tarixi mənbələri onun Miladdan ۶۶۰ il qabaq doğulduğunu qeyd etmişlər. Halbuki, bə'zi tədqiqatçılar onun Miladdan ən azı min il qabaq doğulduğunu .söyləyirlər. Əlbəttə, onu Miladdan altı min il qabağa aid edənlər də vardır

Bu müxtəlifliyin əsas səbəbi bə'zi tədqiqatçıların zərdüştlərin müqəddəs kitablarının yazılma tarixinə istinad etmələridir. Çünki bu kitabın bə'zi hissələri, xüsusilə "Qasaha"

daha uzaq keçmişə malikdir. Bu kimi şəxslər müqəddəs kitabın bə’zi izah və işarələrindən istifadə edərək bu ehtimalı gücləndirmişlər ki, Zərdüştilikdə çoxlu sayda Zərdüştlər mövcud olmuşdur. Miladdan ۶۶۰ il qabaq doğulan Zərdüşt onların axrıncısı olmuşdur. Ümumiyyətlə, ən mö’təbər sənəd və mənbələrdə Zərdüştün təvəllüd .tarixinin Miladdan ۶۶۰ il qabaq olduğu qeyd edilmişdir

Zərdüştün harada doğulması barədə də müxtəlif fikirlər söylənmişdir. Məşhur müsəlman tarixçisi olan Təbəri qeyd edir ki, o, Fələstində doğulmuş, sonralar İrana köçmüş və orada peyğəmbərliyə çatmışdır. Bə’zi tarixçilər də onun Əfqanıstanın Bəlx əyalətindən olduğunu söyləyirlər; digər bir qrupun fikrincə isə, o, İran Azərbaycanında dünyaya göz açmışdır ki, bu dəstənin nəzəri daha

mö'təbər hesab olunur. Əlbəttə, belə bir ehtimal da verilir ki, o, Azərbaycanda doğulmuş və İranın şərq hissəsində yerləşən Bəlx əyalətində peyğəmbərliyə seçilmişdir. Amma Zərdüşt mənbələri onun peyğəmbərliyə seçilmə yerini Urmiyyə gölünün yaxınlığındakı dağın zirvəsini qeyd edirlər. Buna görə də həmin gölün suyu zərdüştlərin kitabında müqəddəs hesab edilib. Mö'təbər mənbələrdən əldə olunan məlumatlara əsasən, Zərdüştilik Bəlx əyalətində yayılmağa başlamış və yerli hakim .onun peyğəmbərliyinə iman gətirmişdir

Zərdüştün təvəllüd tarixinin Miladdan ۶۶۰ il əvvələ təsadüf etdiyini qeyd edən məşhur nəzəriyyə əsasən o, Miladdan ۵۸۳ il qabaq, ۷۷ yaşında ikən Bəlxdə yerləşən atəşgahda .yerli hücumçular tərəfindən öldürülmüşdür

## PEYĞƏMBƏRLİYƏ SEÇİLMƏ

Zərdüştilik mənbələrində qeyd olunur ki, o, cavanlığının ilk çağlarından çox istedadlı, dərin ağıllı və dərrakəli bir şəxs olmuş, öz həmyaşıdlarından çox fərqlənmişdir. Belə ki, o, ilk baxışda hamının diqqətini özünə cəlb edirmiş; mehriban və incə xüsusiyyətlərə malik olmuş, ۱۵ yaşında din tə'limlərini öyrənməyə başlamış və öz müəlliminin əlindən kəştini(۱) almışdır; o zamandan e'tibarən "mubəd" ünvanı ilə öz dini-mə'nəvi həyatını davam etdirmişdir. Zərdüşt ilk əvvəllərdən öz zamanında geniş yayılmış bə'zi əqidələrə qarşı müxalifətçilik edərmiş. O cümlədən qeyd olunur ki, o, bir gün bir dəstə alimin yanına gəlib soruşdu: "İnsanın ruhi sakitliyinə və aramlığına səbəb olan ən yaxşı əməl nədir?" Cavabında dedilər: "Acları doyurmaq, heyvanlara yem verməк, od yandırmaq, su və huma şirəsi səpmək, divlərə pərəstiş etmək. Zərdüşt bu cavab barəsində bir qədər düşündükdən sonra deyir: "Əvvəldəki dörd iş layiqli əməllərdir; ədalətli insanlara yaraşan və bəyənilən məsələlərdir, qəbul oluna bilər. Amma divlərə .pərəstiş etmək çox çətindir. Behişt insanları ondan bizardır

Zərdüşt cavanlıq illərində öz ata-ana yurdunu tərk edərək dağlara sığındı. Yeddi il müddətində mağarada sakit mühitdə tənha yaşadı. Otuz yaşında müşahidə etdiyi qeyri-adi işlərdən başa düşdü ki, pak olmaq və peyğəmbərlik məqamına yüksəlmək üçün Ahura Məzdanın hüzuruna çağırılmışdır. Bundan sonra səkkiz il müddətində kəşf və şühud aləmində müqərrəb mələklərlə (Əmşasepəndan) söhbətlər etdi, hər birindən

bir həqiqəti öyrəndi və öz qəlbini saflaşdırıb nurani etdi. Bu müddətdən sonra daha on il Ahura Məzdaya pərəstiş etməyə məşğul oldu və sonra öz dini təbliğatına və də’vətə başladı. Uzun illər keçdi, lakin heç kəs ona iman gətirmədi. Deyirlər ki, o, bu müddət ərzində vəzifənin çətinliyinə və camaatın etdiyi əzab-əziyyətlərə görə bir neçə dəfə şeytani vəsvəsələrə düçar oldu və hətta Məzdaya ibadətdən əl çəkmək fikrinə düşdü. Amma yenə də öz əqidəsində möhkəm qaldı və cavabında dedi: “Xeyir! Mən yaxşı və düzgün



---

.Zərdüştlərin müqəddəs kəməri [۱۰] -۱

dindən əl çəkməyəcəyəm. Hətta canımı alsalar və bədən üzvlərimi bir-birindən ”.ayırsalar da Məzdaya pərəstiş etməkdən üz döndərməyəcəyəm

On il sə’y və fəaliyyətlərdən sonra əmi oğlusunu öz dininə gətirə bildi. Onun əmioğlusu Bəlx hakimi Viştasibin sarayında böyük hörmət sahibi idi və Zərdüşt onun vasitəsi ilə sarayın daxilinə yol tapa bildi. Zərdüşt bir müddət sarayda öz dinini Viştasibə təbliğ etməyə başladı. Firdosinin «Şahnamə» əsərində Qoştasib adı ilə qeyd olunan Viştasib pak qəlbli mö’min və gözəl fitrətli bir insan idi; nəhayət Zərdüştün dəvəti ilə onun dinini qəbul etdi. Viştasib Zərdüştün dəvətini qəbul etdikdən sonra bu ayinin genişlənib yayılması üçün şərait yarandı. Çünki onun iman gətirməsinin ardınca sair saray ə’yan-əşrafları və əmirlər də Zərdüştə iman gətirib onun dinini qəbul etdilər. Bundan sonra .artıq bu din kütləvi şəkildə genişlənib yayılmağa başladı

Tarixi məlumatlara əsasən, qohumluq münasibətlərinin bərqərar edilməsi də bu yeni dinin genişlənib yayılması və bünövrəsinin möhkəmlənməsində çox tə’sirli olmuşdur. Viştasibin müşaviri Fəraşauştra öz qızını Zərdüştə ərə verdi; Viştasibin baş vəziri Camnasıpa Zərdüştün qızı ilə evləndi. Bu qohumluq əlaqələri sayəsində Zərdüşt, padşahlıq sülaləsində xüsusi bir məqam kəsb etdi. Belə ki, hökumətin siyasi hərəkatları bundan sonra dini rəng aldı və hətta Zərdüştün həyatının son iyirmi ilində Viştasiblə turanlıların arasında baş verən iki müharibə müqəddəs Zərdüşt müharibələri adı ilə tanındı; Zərdüştiliyin müqəddəs kitablarında bu haqda danışılmışdır. Bu iki müharibə Viştasibin qələbəsi ilə sona çatdı, amma ikinci müharibədə turanlılar Bəlx şəhərini dağıdıb qarət etdilər; Turan əsgərlərindən biri Zərdüştü bir atəşgahda - atəş mehrabının qarşısında ibadətlə məşğul olan zaman .tapıb qətlə yetirdi. Beləliklə, Zərdüşt yetmiş yeddi yaşında turanlıların əli ilə öldürüldü

* * *

Təəssüflər olsun ki, Zərdüşt dininin araşdırılmasına məxsus olan tarixi mənbələrin çoxunda hadisələr və həqiqətlər əfsanələrlə qarışdırılmışdır; tədqiqatçılar da öz mətləblərini belə mənbələrdən iqtibas edir və onlar real gerçəklikləri əfsanələrdən ayırmağa müvəffəq olmamışlar. Buna görə də Zərdüştün həyatı və onun necə peyğəmbərliyə seçilməsi, öz təlimlərini İranda necə yayması haqda qəti bir nəzər

vermək olmur. Amma qətiyyətlə demək olar ki, Zərdüşt təkallahlı bir din gətirən peyğəmbər olmuşdur və bu ayinlər də sonradan sair tövhidçi (islamdan başqa) dinlər .kimi şirk və təhriflərə mə’ruz qalmışdır

Gələn dərsdə Zərdüştiliyin qədim ayinlərdən nə dərəcədə tə’sirlənməsi, tövhid əsasında qurulmasını izah etmək və sair əqidə üsullarını aydınlaşdırmaq üçün onun .əqidə və tə’limlərini araşdıracağıq

## SUAL VƏ TAPŞIRIQLAR

?Zərdüşt, peyğəmbərliyə harada və necə seçilib .١

?Zərdüşt dininin genişlənməsində Viştasibin nə kimi rolu olmuşdur .۲

.Zərdüşt sözünün lüğətdəki mə’nasını bəyan edin

?Zərdüştün ölümü haqda nə bilirsiniz

## OTUZ İKİNCİ DƏRS

## ZƏRDÜŞTİLİYİN ƏQİDƏLƏRİ

?Tövhid, yoxsa ikilik .١

Zərdüştilik, və ya Məzda ayini barədə aparılan ən mühüm əqidəvi bəhs, bu dinin tövhid və təkallahlıq, yoxsa sənəviyyət və ya ikilik etiqadi prinsipi əsasında olmasını aydınlaşdırmaqdan ibarətdir. Şübhəsiz, Zərdüşt ilahi bir peyğəmbər kimi ikiliyə sitayişin bünövrəsini qoya bilməzdi. Çünki istisnasız olaraq, bütün ilahi peyğəmbərlər insanları tövhidə və yeganəpərəstliyə də’vət etmiş, hər cür şirki və ikiliyi qətiyyətlə rədd etmişlər. Əgər Zərdüşt dinində ikiliyə sitayiş müşahidə olunursa, şübhəsiz bu, Zərdüştdən sonrakı dövrlərdə həmin təlimlərin təhrifə mə’ruz qalması nəticəsində .meydana gəlmişdir

Avestanın ən qədim hissələrindən yə’ni, qasahalardan belə mə’lum olur ki, Zərdüşt, Ahura Məzdanın hər bir varlığın yaradanı olmasına, hər bir şeyin Onun iradə və istəyi əsasında idarə edilməsinə inanırdı. Onun əqidəsinə görə, nur və zülməti yaradan məhz odur. Bu barədə qasahaların axırıncı ayəsində deyilir: «Kimdir ilk əvvəldən doğruluğu yaradan? Kimdir günəşi və ulduzları xəlq edən? Ayı öz qüvvəsi ilə bədirləndirən, sonradan onu hilala döndərən kimdir? Kimdir ki, yerin müvazinətini saxlayır və onun məhv olmasının qarşısını alır? Kimdir o bacarıqlı şəxs ki, qaranlığı və işığı, yatmağı və qalxmağı yaratdı? Suyu və ağacları yaradan kimdir? Kimdir buludlara və küləklərə hərəkət verən? Kimdir səhərləri və günortanı yaradan ki, insanlar vaxtında işlə məşğul ola bilsinlər? Mən bütün bu şeylərlə səni tanıdım, ey Məzda! Ey bütün varlıqları (!yaradan, mübarək ruhun köməyi ilə (səni tanıdım

Zərdüştlərin bütün dua və münacatlarda çağırdığı «Ahura Məzda» sözü “hikmətli allah” mə’nasını daşıyır. Amma bu ad Zərdüşt tərəfindən verilməmişdir; Məzda adı onun zamanında məşhur bir ifadə idi və hamı «Ahura Məzda»nı bütün varlıqların xaliqi və dünyanın allahı hesab edirdilər. Həmin ifadə hind ariyailərin nəzərində Varuna adı ilə tanınan bir varlıqdır. Ahura Məzda da Vidai dinində Aşura kimi tələffüz olunan həmin .kəlmədir; allah və sahib mə’nasındadır

Zərdüştün qədim dini rəhbəri olan Muğan sonralar divlərə pərəstiş etməyi İran camaatının inancına daxil etdi. Div, yaxud divlər ilahi yönə malik olan müqəddəs ruhlara aid edilir. Bu kəlmə Avropa dillərində də buna oxşar bir şəkildə tələffüz olunur. Belə ki, almanlar div mə'nasında olan həmin kəlməni "diyuyen" və fransalılar isə diyu (diey) kimi tələffüz edirlər. Ənqulusaqsonlar ona "diti", yaxud "diyudidi" deyirlər. Buna əsasən demək olar ki, bu söz ümumiyyətlə ilk əvvəldə Allah barədə yeganə mə'bud və xaliq mənasını daşıyan bir kəlmə kimi yaradılmışdır. Xatırladırıq ki, diyu sözü fransız dilində yalnız Allah mə'nasında işlədilir. Amma Muğan təlimlərində bu kəlmə öz ilk mə'nasından çıxarılmış, Məzda, yaxud Yəzdan kəlməsinin qarşısında qərar verilmiş və nəhayətdə müsibətlər və bəlaları yaradan səmavi şər varlıqlar mənasını almışdır. Divlərə pərəstiş etmək daha sonra, onların pislik və şərindən amanda qalmaq niyyəti ilə, yaxud düşmənlərinə qələbə çalmaq üçün yerinə yetirilmişdir.

Zərdüşt inanırdı ki, divlərə pərəstiş etmək insanı Ahura Məzdanın cəlal və əzəmətini dərk etməkdən saxlayır. Buna görə də cavanlığının ilk əvvəllərindən divlərə pərəstiş etməklə müxalifətçilik etmiş və peyğəmbərlik məqamına seçildikdən sonra özünün ən mühüm risalətini Muğan ayinini islah etməyə, divlərə pərəstiş etmək adətini dəyişməyə həsr etmişdir. Nəhayət hamı ona tabe olaraq, Ahura Məzdaya sitayiş .etməyə başlamışdır

Ahura Məzda Avestada kamal sifətlərilə vəsf edilmişdir; elə sifətlər ki, eynilə Qur'ani-kərimdə mütəal Allah barəsində işlədilmişdir. Məsələn, Xaliq, Bəsir, Əlim, Ən böyük, Ən qüdrətli, Kəramətli, Bağışlayan və s... Buna əsasən qəbul etməliyik ki, Zərdüşt dininin .əsası tövhid və yeganəpərəstlik əqidələri üzərində qurulmuşdur

:Dominu .٢

Zərdüştilikdə Ahura Məzda öz ilahi iradəsini müqəddəs və pak bir ruh vasitəsi ilə gerçəkləşdirir ki, onu «Sepentaminu», yaxud «Sepəndiminu» adalandırırlar. «Sepentaminu» xeyir, doğruluq, bərəkət və həyat mənşəyidir; altı mələk «Sepentaminu»ya əməl və rəftarlarında kömək edir. Bu altı mələyə «Emşasipənta», yaxud «Emşasipentand» deyirlər. Bu mələklərdən hər birinin özünəməxsus adı və vəzifəsi vardır. Vəhumine (Bəhmən) yaxşı fikir və yaxşı fitrət mələyidir; Aşa-vihiştab (ordubehişt) doğruluq və ədalət, Xeştira Virya (Şəhrivər) qüvvət, qüdrət və tam istila, İspinta Arimiti (İsfən ərməz) şəfqət, lütf və bəhrələndirmə, Həvaruvatat (Xordad) kamal və yetkinlik, Emrtat (Əmurdad) əbədiyyət, həyat və həmişəlik mələyidir. Əbədi .varlıqlar kimi tanınan bu altı mələk «Sepentaminu»ya kömək edir

Amma Ahura Məzda bütün işləri «Sepentaminu»ya və Emşasipiəntaya həvalə etməmişdir, çünki Zərdüşt dinində başqa mələklər də vardır; o cümlədən Suruş – itaət mələyidir ki, camaatı Ahura Məzdaya itaət etməyə də'vət edir, Geosmura, yaxud .Guşvarvan heyvanların keşikçisi olan mələkdir

Sepentaminunun qarşısında Əngireminu dayanır ki, o da çirkin ruh mə'nasındadır. O, çirkinlik və şərin mənşəyidir. Əngireminunu Əhrimən də adlandırırlar. Zərdüşt mənbələrində həmişə Sepento və Əngire bir-birinin qarşısında durur, Əngire Ahura Məzdadan çirkin işlər görmək üçün möhlət almışdır. Buna görə də həyat boyunca

həmişə Sepento və Əngire arasında mübarizə və qarşıdurma mövcuddur ki, əlbəttə, son və yekun qələbə Sepenta ilə olacaqdır. Axırda Əhrimənə və ümumiyyətlə şər qüvvələrə qələbə çalan məhz Ahura Məzda olacaqdır. Avestada belə oxuyuruq: “İndi şühud aləmində iki ilkin ruh (Sepento və Əngire) iki körpə kimi irəli düşmüşlər; biri yaxşılıq, biri isə pislikdir; təsəvvürdə, danışıqda və əməldə. Ağıl sahibləri bu ikiliyin arasından yaxşını seçir və pis adamlar isə pisliyi ixtiyar edirlər. Bu iki ruhun birlikdə yarandığı ilk gündən biri varlığı və həyatı bərqərar edir, digəri isə yoxluğa və məhvə doğru çalışır. Onların əbədi məqamları (yə’ni, cəhənnəm) yalançı ardıcıllarına nəsib olacaqdır. Amma yaxşıların əbədi məqamı və pak əndişələri (yə’ni, behişt) doğruluq .ardıcıllarına nəsib olacaqdır

:Axirət .۳

Zərdüştilikdə axirət məsələsi aşkar şəkildə işıqlandırılır. Zərdüştilik təlimlərinə əsasən, varlıq aləminin ömrü sona çatandan sonra ümumi qiyamət başlanacaqdır. O cümlədən, bütün əməllər haqda sorğu-sual ediləcək, yaxşı və pis əməl sahiblərinin yerləri müəyyənləşəcəkdir. Zərdüşt əqidələrinə uyğun olaraq, ölümdən bir az sonra insanın əməlləri araşdırılır. Amma onun müqəddəratı qiyamət günündə tə'yin edilir. Qiyamət günündə hamı cəhənnəmin üzərində olan "simut təhl" adlı bir körpüdən keçməlidir. O körpünün bir tərəfi behiştə gedib çıxır. (Bu əqidə eynilə İslami e'tiqadlarda olan sirat körpüsü ilə uyğundur). Körpünün əvvəlində əməl dəftəri oxunur və hamının əməlləri Ahura Məzdanın əlində olan tərəzinin iki gözünə qoyulur. Tərəzinin yaxşı əməllər qoyulan gözü ağır olarsa, həmin şəxs behiştə gedəcək, çirkin əməllər qoyulan gözü ağır olduqda isə, cəhənnəmə gedəcəkdir. Yaxşı əməl sahibləri Zərdüştün yol göstərməsi ilə o körpüdən sağ-salamat keçib gedəcəklər. Amma şər .əməl sahiblərinin cəhənnəmə süqut etməkdən başqa bir yolları olmayacaqdır

Zərdüştiliyin müqəddəs kitabında əfv, bağışlamaq, kəffarə və şəfaətdən söhbət açılır; deyilir ki, hər kəs öz əməlinin girovundadır. İnsan yaxşı iş görsə, yaxşı fikirləşsə və yaxşı danışsa nicat tapacaq, pis iş görüb, pis danışsa və şər əməl sahibi olsa .cəhənnəmə getməkdən başqa yolu qalmayacaq

:Müjdə .۴

Zərdüşt, xalqı Ahura Məzdaya doğru dəvət etməklə yanaşı, inanırdı ki, axırda elə bir gün gəlib çatacaq ki, hamı düzgün bir dinə qovuşacaqdır. Amma o, özünü axırıncı peyğəmbər və ümumbəşəri bir xilaskar kimi tanıtdırmamışdır; həmişə "suşyant" .adlandırdığı xilaskarın gəlişini müjdə verirdi

## SUAL VƏ TAPŞIRIQLAR

?Zərdüşt Ahura Məzdanı necə təqdim edirdi .۱

?Nə üçün Zərdüşt divə pərəstiş etməklə müxalifətçilik edirdi .۲

?Sepentaminu» və «Əngireminu» nədir və onların rolu nədən ibarətdir» .۳

?Emşasipentand»ın nədən ibarət olmasını izah edin« .۴

?Zərdüştilik tövhid dinidir, yoxsa ikiliyə pərəstiş dini .۵

?Zərdüşt əqidəsində axirətlə əlaqədar hansı inanclar vardır .۶

?Suşyant" nə deməkdir" .۷

Müəllimin köməyi ilə zərdüştlərin Əhrimən barəsində olan əqidələrini müsəlmanların .şeytan barəsində olan əqidələri ilə müqayisə edin

## OTUZ ÜÇÜNCÜ DƏRS

## AVESTA

Tədqiqatçıların arasında zərdüştlərin müqəddəs kitabı olan Avesta ilə əlaqədar yaranmış anlaşılmazlıq Zərdüştün özü barədə olan ixtilaflardan daha çoxdur. Fikir ayrılığının əsası bundan ibarətdir ki, Avesta, ümumiyyətlə Zərdüştin kitabıdır, yoxsa onun bir hissəsi ona məxsusdur, yerdə qalan hissəsi isə Zərdüştdən əvvəlki dövrlərə aiddir, və yaxud Mubədlərin vasitəsi ilə ona artırılmışdır? Görəsən hal-hazırda əldə olan Avesta həmin kitabın külliyyatıdır, yoxsa onun yalnız bir hissəsidir? Daha mühüm bir məsələ budur ki, Zərdüştin ümumiyyətlə müqəddəs kitabı olub, yoxsa yox? Daha məşhur və mö'təbər görünən, eləcə də alimlər tərəfindən daha çox qəbul edilən məsələ budur ki, zərdüştliyin müqəddəs kitabı olan Avestanın bir hissəsi Zərdüştün bəyanlar və münacatlar məcmuəsidir ki, onun şagirdləri və köməkçiləri tərəfindən toplanıb yazılmışdır. Amma dini mətnlərdən bir hissəsi Zərdüştdən əvvəl də mövcud olmuş və müəyyən mətləblər də sonralar mubədlərin vasitəsi ilə əlavə edilmişdir. Bə'zilərinin dediklərinə görə, Avestanın ilk nüsxəsi ٢١ kitabdan ibarət idi ki, Viştasibin göstərişi ilə qızıl xətlərlə on iki min inəyin dərisinə yazılmışdır. Amma makedoniyalı İsgəndərin İrana hücumları zamanı qarət edilib yandırılmışdır. Əşkanilər dövründə Avestanın yeniləşdirilməsinə sə'y göstərilmişdir və bu mərhələdə onun yalnız şifahi olaraq, yadda qalan hissələri toplanıb yazılmışdır. Buna görə də müasir dövrdə .mövcud olan kitab əsil Avestanın külliyyatı deyil, onun müəyyən bir hissəsidir

Bununla yanaşı, Avesta zərdüştlərin müqəddəs kitabıdır, onların dini mənbələrinin ən» üstünü sayılır; əxlaq və əqidələrinin əsasını təşkil edir. Zərdüşt mubədləri Avestaya müəyyən təfsir və şərhlər yazmışlar ki, onlar "Zend Avesta" adlanır. Avesta dörd :hissədən təşkil olunmuşdur

«Birinci hissə: «Yəsna

Yəsna» Avestanın ən mühüm hissəsidir. Yəsna kəlməsi pərəstiş və sitayiş mə'nasını» daşıyır. Bu hissə Ahura Məzdanın sitayiş və tə'rifinə aid ayə və nəğmələrdən təşkil olunduğu üçün Yəsna adlandırılmışdır. Bu bölmədə ٧٢ fəsil (mat) vardır. Yəsnanın ١٧ .fəsli zərdüştlərin məşhur nəğmələri yə'ni, "kasa"lardır

Kasaların özü də beş hissədən ibarətdir: “Əhlüb kas” (٧ fəsildir), “Üşnud kas” (۴ fəsildir), “Sepentaminu kas” (۴ fəsildən ibarətdir), “Rüxşirət kas” (١ fəsil) və “Vəhişto kas” (١ .(fəsil

Tədqiqatçıların əksəriyyəti bu fikirdədir ki, kasalar Zərdüştün öz nəğmələridir və buna görə də Avestanın ən mühüm və əsas hissəsi sayılır. Zərdüştlər barədə tədqiqat :aparan alimlərdən biri kasalar bəhsini aşağıdakı şəkildə xülasələndirmişdir

Allah-taala mövcuddur, O, bütün maddi və mənəvi şeylərin xaliqidir. O, . ١ «Sepentaminu» (Sepentminu) vasitəsi ilə və düşünməklə Öz yaratdıqlarına varlıq bəxş edir. O, müqəddəslik və düzlük sahibidir; xəlq etmək, bəxşiş (əfv), güzəştə

getmək və bərəkət vasitəsilə dərk olunur. O, altı müqərrəb mələk (mücərrəd) vasitəsilə əhatə olunmuşdur ki, onların atası və xaliqidir. Bu altı mələkdən üç müqərrəb və mələkuti varlıq onun öz cövhərindəndir, ondan ayrılmaz olduğunu demək olmaz. Yə'ni, Vəhumilər, Əşə, Sepəntminudur ki, onların vasitəsi ilə xəlq edir. Onun məqamı qəhr və şəhriyar məqamıdır; şübhəsiz, yaratdığı bütün şeylərin mütləq rəhbəridir. Şəhriyar, hal-hazırda əqidə bəslənən Vilruşun hücumu vasitəsilə Ənqireminunun əli ilə dağıdılmışdır. Amma son anda ilk vəziyyətinə qaytarılacaqdır. Xordad və Mordad da onun zatından ayrılan deyildir. Amma bunlar özləri mükafatdan ibarətdir ki, o, Allahın istəyi əsasında zahidliklə əməl edən şəxslərə və'də verilmişdir. Bu altı müqərrəbin axırıncısı Armiti, yaxud Harsayi müqəddəs insanla Allah arasında müştərək olub, bu iki varlıq arasında düzgün rabitənin göstəricisidir. Allah ağıllı bir rəhbərdir və Əhrimən .qüvvələrinin fövqündə dayanır

Dünya Əşə (düzlük) və yalan arasında bölünmüşdür. Əşə elimli rəhbər olan . ۲ Sepəndminun vasitəsilə yaradılmışdır. Amma yalanın mənşəyi barəsində peyğəmbər susmuş və heç bir şey deməmişdir. Bir-birilə fəza təşkil edən bu iki qütb arasında (düzlük və yalan) ikiliyə yönəlmə və onların arsında insanların azad seçməsinin .mümkünlüyü Zərdüşt təfəkkürünün əsasını təşkil edir

Elm sahibi olan rəhbərin məxluqatı azad şəkildə xəlq olunur. Onlar düzlük və . ۳ yalandan birini seçməkdə azaddırlar. Bu məsələ ilahi müqərrəblər qədərincə insanlara da aid olur. Buna əsasən heyrətləndirici tərzdə Sepentminunun qardaşı kimi vəsf olunan Əngireminu özü ən pis işləri seçir. Bu seçki onun ixtiyar və iradəsindən irəli gəlir; divlər də belədir. Zərdüşt köhnə mə'budları, onlara ibadət mərasimlərinin tələbi .olan kobudluq xatirinə şər və Əhrimən qüvvələri hesab etmişdir

İnsan tam azad olduğuna görə, özünün son talehinin məhsuludur və yaxşı işlər . ۴ yerinə yetirməklə əbədi mükafatlara nail olur; Xordad (yə'ni, salamatlıq) və Mordad (əbədilik) ona məxsusdur, divpərəstlər də vicdan və adil Allahın vasitəsilə əbədi əzabla .ən pis varlıqlara məhkum edilir

Əşənin xarici vücudu atəşdir və zərdüştlərin dini mərkəzlərinə və ocaqlarına çevrilən .۵ də məhz bu atəşgahdır. Ərimiş metalın və odun çətin imtahanları vasitəsilə Zərdüşt

sözünün haqq olmasını isbat edir. Həmçinin həmin atəş və qızarmış dəmir vasitəsilə (bəşəriyyət dünyanın son anlarında mühakiməyə və hesaba çağırılacaqlar.(١)

«İkinci hissə: «Vistert

Vistert» əbədi həyat dövranı və rəhbərlər mə’nasındadır. Avestanın bu hissəsi dua və» sitayişlərdən ibarətdir. Ahura Məzdanın dərgahında Zərdüşt, Emşanspentant, İzadan və s. mücərrəd aləmin, asimanın və onda olanların



---

١- [١١] (Teymur Qadiri :ar.si.zənd. Tülu və ğürubu zərdüştgəri, tərcümə).

rəhbərləridir. Bu bölmədə həmçinin dini bayramlar və onunla əlaqədar söhbətlər gedir. .Vistert ٢٢, yaxud ٢٧ fəsildən ibarətdir

«Üçüncü bölmə: «Vendidad

Vendidad» - divlər əleyhinə olan qanun mə'nasındadır. Avestanın bu hissəsində dini» qayda-qanunlar, hökmlər, dünya və axirətdəki cəzalar işıqlandırılır; fərdi və ictimai hökmlər bu hissədə toplanmışdır. Bu hissə həqiqətdə ٢٢ fəsildən ibarət olan fiqhi bir kitabdır ki, hər fəsildə şəriət hökmlərinin bir qismi bəyan olunmuşdur. Burada murdar şeylər, pakedicilər, murdarlanmış şeylərin paklanma qaydası, məssi-meyyit qüslünün qaydası, divlərin hücumunun, böyük günahların və murdar heyvanların həmləsinin .qarşısını necə almaq barədə qayda-qanunlar toplanmışdır

Vendidadda dünya və axirət və'dələri barəsində, Əhrimənin Zərdüştlə necə mübarizə aparması, elm öyrənməyə, tə'lim-tərbiyəyə rəğbətləndirmə, izdivac edib ailə qurmaq .və s. kimi məsələlər bəyan olunmuşdur

«Dördüncü hissə: «Kiçik Avesta

Bu bölmə Sasanilər dövrünün məşhur mubədi kimi tanınan Azər-pad-maraspənd (odun keşikçisi) tərəfindən yazılmışdır. Bu kitab dualar, namaz, müxtəlif günlərin münacatları, dini bayramlar, izdivac, ölüm mərasimləri, xoş və acı günlər, günahların .kəffarəsi, hacətlərin ödənilməsi və bu qəbildən olan digər məsələlərə aiddir

Yəştlər kiçik Avestanan digər bir hissəsini təşkil edir. Yəşt fidyə və yalvarış mə'nasındadır. Bu hissədə ٢٢ fəsil vardır və hər bir fəsil mələklərdən birinin tə'rif və .vəsfindədir. Yəşitlərdən hər biri zərdüştlər tərəfindən ilin müəyyən vaxtlarında oxunur

* * *

Dərsin əvvəlində qeyd olunduğu kimi, on iki min inək dərisində yazılmış əsil Avesta İsgəndər tərəfində yandırılıb məhv edilmişdir. Mövcud olan Avesta Əşkanilər dövründə ağızdan-ağıza eşidilməklə, yaxud da yadda qalanları yığıb bir yerə toplamaqla yazılmışdır. Bu tarixi məlumatların düzgünlüyü sübuta yetsə, Avestaya nə qədər təhrif və dəyişikliklərin edilməsini təsəvvür etmək olar. İlk Avestanın çox geniş

həcmə malik olmasını, onun ilk nüsxəsinin misilsiz bir vəziyyətdə yazılmasını və bütün ayələrinin qorunmasının qeyri-mümkünlüyünü nəzərə alaraq, onun sonrakı nəsillərə gəlib çatmasının nə dərəcədə çətin bir iş olduğunu başa düşmək olar. İlk Avestanın aradan getməsi ilə onun yeni nüsxəsinin yazılması arasındakı uzun zaman fasiləsi də .bu məsələnin mürəkkəbliyini bir neçə dəfə artırır

## SUALLAR

?Avesta kimin göstərişi ilə və necə yazılmışdır .۱

?Zənd Avesta” nə deməkdir” .۲

?Yəsnanın mövzusu nədən ibarətdir .۳

?Vəndidad hansı məsələləri əhatə edir .۴

səh:۱۷۶

## OTUZ DÖRDÜNCÜ DƏRS

## ZƏRDÜŞTİLİYİN DİNİ AYİNLƏRİ

:Odun müqəddəs sanılması .۱

Zərdüştlər dördlük təşkil edən ünsürləri (su, od, hava və torpaq) pak və müqəddəs sayırlar. Zərdüştilik hökmlərində bu dörd ünsürü aludə edən şəxslər üçün ağır cəza tədbirləri nəzərdə tutulmuşdur. Əlbəttə, atəş daha artıq ehtirama layiq görülüb və zərdüştlər onu nur və işıqlıq simvolu, ilahi mələkut nişanəsi, nurun və işıqlığın xaliqi olan Ahura Məzdanın rəmzi hesab edirlər. Zərdüştlər odu müqəddəsləşdirməkdə o qədər ifrata varmışlar ki, onların mə’bədləri də atəşgah adlandırılmışdır; onların ibadətləri də odun qarşısında yerinə yetirilir. Buna görə də zərdüştlər sair qövmlər və .digər din ardıcılları arasında atəşpərəst kimi tanınmışlar

Müqəddəs atəş uzun-uzadı hazırlıqlar və müfəssəl ibadətlər silsiləsi ilə yanaşı hazırlanır. Ən müqəddəs atəş odur ki, on altı ayrı-ayrı atəşdən təşkil olunsun. (Yə’ni, on altı məntəqədə xüsusi mərasim, dua və zikrlərlə müqəddəs atəş hazırlansın, daha .(sonra onlar bir-birilə birləşdirilsin

Atəşin müqəddəs sayılıb pak saxlanmasının qaydalarından biri də budur ki, ətirli səndəl ağacının odunlarından bir neçəsini yonaraq üst-üstə toplayır və onları odun üzərinə tökürlər. Sonra atəş şö’lələrinin yuxarısında azacıq məsafədə atəşlə təmasda olmayan metal bir qaşıq saxlayırlar; onda kiçik bir dəlik açılır və qaşığın arasında səndəl çubuqlarının ovuntularını tökürlər. Sonra müqəddəs çubuqlar yığımını alovlandırıb dua və nəğmə oxuyub qiraət etməklə məşğul olurlar. Bu əməli ۹۱ dəfə təkrar edirlər. Nəhayət mubədlərin ۱۶ müxtəlif məntəqədən bir yerə topladıqları pak atəş müqəddəs bir kürədə yandırılır və mubədlər öz ağızlarını incə bir parça ilə örtüb .uzaqdan tənəffüs etdikləri bir halda onu yandırırlar

Odun qorunduğu qab daxili otağın yaxınlığında küllə doludur və orada dörd ayaqlı bir kürsü vardır ki, mubədlər onu növbə ilə səndəl ağacının çubuğunun qırıqları ilə alovlu saxlayırlar. Ağızlarına bir parça bağlayırlar ki, nəfəsləri pak oda üfürülməsin və onu çirkləndirməsin. Həmçinin odun kənarında asqırıb və ya öskürməkdən özlərini

.saxlayırlar

Zərüdşt dininin ardıcılları günün istənilən vaxtında atəşgahın içərisinə gedə bilərlər. Mə’bədə daxil olmazdan qabaq öz əllərini və üzlərini suya çəkir, Avestanın bir hissəsini tilavət edir, dua və münacat oxuyurlar. Sonra ayaqqabılarını çıxardaraq mə’bəd otağına daxil olub, müqəddəs məşəlin qarşısında namaz qılır, bir qədər səndəl çubuğu ilə yanaşı olan nəzir və hədiyyəni mubədə təqdim edirlər. Bunun müqabilində mubədin ixtiyarında olan müqəddəs küldən bir qab götürür, feyz və bərəkət kəsb etmək niyyəti ilə öz üzlərinə və gözlərinə sürtürlər. Sonra oda tərəf tə’zim əlaməti olaraq əyilərək namaz qılır, dua oxuyur və hər bir halda həmin odu ilahi mələkut nişanəsi və rəmzi kimi qələmə

verirlər; onlar oda allah kimi deyil, onun nişanəsi kimi pərəstiş edirlər. Daha sonra .yavaşca arxaya çəkilir, ayaqqabı çıxarılan yerə çatır və atəşgahdan xaric olurlar

:Atəşgah .۲

Zərdüştlər atəşgahı ətrafı açıqlıq olan bir məkanda düzəldirlər. Hər atəşgahda atəş yandırmaq üçün xüsusi bir mərkəz vardır ki, ətriban yə’ni, odun qoruqçusu olan mubəddən başqa heç kəs oraya daxil ola bilməz. Ətribanlar atəşin ətrafına gedərkən tənan yə’ni, ağıza bağlanan şeyləri geyməlidirlər ki, onların nəfəsi müqəddəs odu aludə etməsin. Atəşgahın sağ tərəfində dördbucaqlı şəkildə geniş bir otaq vardır ki, müxtəlif və bir-birinə bərabər hissələrə bölünmüşdür; hər biri xüsusi bir iş üçün nəzərdə tutulmuşdur. Bu otağı yəzqənşah yə’ni, ibadət məkanı adlandırırlar. Od yandırılan yeri atəşgahın ortasında düzəldirlər ki, günəşin odun üzərinə saçmasının .qarşısı alınsın

Müqəddəs atəşin müxtəlif növləri vardır və onlara cəmiyyətlər əsasında tə’riflər verilir. Məsələn, evin atəşi, qəbilənin atəşi, kəndin atəşi, əyalətin atəşi və s. Atəşin qoruqçusuna “manənd” deyilir və bu vəzifə mubəd vəzifəsindən ibarət olan ətribanlardan fərqlənir. Manənd ruhani hey’ətlərin bir üzvüdür ki, mubədin nəzarəti altında odun qorunub saxlanması vəzifəsini öhdəsinə almışdır. Atəşgah həmişə ətirli yanıqlar səbəbi ətirlənir və odu səndəl çubuğunun hissələri ilə qeyd etdiyimiz .mərasimlər əsasında paklayır və həmişə yanar vəziyyətdə saxlayırlar

:Mubədlər .۳

Mubədlər zərdüşt dininin dini rəhbərləri və ruhaniləridir, müxtəlif dini vəzifələri öhdələrinə alırlar. Onlar öz ardıcıllarına moizə edib yol göstərməkdən əlavə, atəşgahların ibadət mərasimlərini, müqəddəs odu yandırmaq üçün odunların paklanmasını və müqəddəs atəşin qorunub saxlanmasını öhdələrinə alırlar. Həmçinin təharət hökmlərinin icrası, günahkarların e’tiraflarını eşitmək, onları əfv edib günahlarından keçmək, kəffarənin miqdarını tə’yin etmək, cərimələr, viladət zamanı adi təşrifatların yerinə yetirilməsi, müqəddəs kəmərin bağlanması (kəşti), əqd mərasiminin icra edilməsi, cənazənin dəfni, dini bayramların keçirilməsi və icrası çox ağır olan şər’i cəza qanunlarının tətbiqi və bu kimi digər işlərin hamısı zərdüşt

.rəhbərlərin və mubədlərin öhdəsindədir

:Nəcasət və təharətin hökmü .۴

Zərdüştlərin nəzərində əşyaların çoxu murdar və mənfurdur. Belə ki, bir şəxs və bir şey onlarla təmasda olsa, ciddi və xüsusi şəkildə paklanmalıdır. Ölü insan və heyvanların cəsədi, div, heyzli və nifaslı qadın, ölü uşaq dünyaya gətirən qadın, heyvanların cəmdəyi ilə təmasda olmaq, su, torpaq, yaxud atəşi aludə etmək və sair məsələlər nəcasətlərdən sayılır; nəcasətdən paklanmaq üçün çoxlu hökmlər müəyyənləşdirilmişdir. Bundan əlavə, qamçı, yaxud e'dam kimi şər'i cəza qanunları torpağı, və ya odu murdarlayan və yaxud da ölü bir şəxsi təklikdə daşıyan şəxslər .(üçün təyin edilmişdir. (Vendidad, dörd cildli kitab, Haşim Rəzi

Zərüdştlərin dini mərasimlərindən biri də budur ki, uşaq həddi-büluğ yaşına – ۱۵ . ۵ yaşına çatan zaman sidrə köynəyi geydirilir, belinə koşti bağlanır. Sidrə alt

köynəyə bənzər kiçik bir köynəkdir ki, xüsusi biri formada tikilir, koşti də hinduların .zənnarına oxşayan müqəddəs bir kəmərdir

Zərdüşt ayinində olan bir qız, yaxud bir oğlan həddi-büluğ yaşına çatıb Avestadan din tə'limlərini öyrəndiyi zaman, onun valideynləri sidrə geymək və koşti bağlamaq mərasiminin icra olunması üçün müəyyən bir gün tə'yin edir və öz qohum-əqrəbalarını, dostlarını bu mərasimə də'vət edirlər. Bu gündə əvvəlcə böyük bir süfrə salınır və onda atəş sinisi, səndəl ağacından düzəldilmiş qab, ud çubuğu, bir qabda qurudulmuş meyvələr (püstə, badam, qoz, fındıq, sincid, ərik yarpağı, əncir, nargil və bir qədər noğul və şirni tökülür; ona nərək deyilir) və bir qədər gül, göy, avişən yə'ni, kəklikotu və düyü ilə bəzəyirlər. Daha sonra həddi-büluğa çatan oğlan və ya qız sidrə köynəyini geydikdən sonra süfrənin bir kənarında üzü günəşə tərəf oturur, mubəd onun qarşısında dayanır və mərasimi orzodişt (razi-niyaz ayini) oxumaqla başlayır. Sonra mubəd süfrənin digər tərəfinə gedir, təzə həddi-büluğa çatan şəxsin arxasında dayanır və koştini onun belinə bağlayır. Bu müddətin hamısında həddi-büluğa çatan şəxs mubədin biləklərini öz əllərində saxlayır və dua oxuyarkən onunla birlikdə zümzümə edir, mərasim sona çatdıqdan sonra həddi-büluğa çatan şəxs öz yerində durur və mubəd də əvvəlki yerinə gedərək onun qarşısında ayaq üstə dayanıb Avestanı onun sağ-salamat olması niyyəti ilə qiraət edir. Qiraət halında da kəklikotu, .düyü və şirnilərin bir hissəsini onun başına tökürlər

:Ölülərin dəfn mərasimi .۶

Vendidadın çox hissəsi ölülərlə əlaqədar hökmlərə məxsusdur və bunun da səbəbi budur ki, zərdüştilik nəzərindən ölü çox çirkin bir varlıq hesab olunur. Buna görə də onun torpaqda dəfn edilməsi qadağan və haramdır. Çünki onların nəzərində torpaq pak və müqəddəs bir ünsürdür və buna görə də ölünü torpaqda dəfn edən bir şəxs üçün ağır cəza tədbirləri nəzərə alınmışdır. Bə'zi şəraitlərdə onun barəsində ölüm hökmü də verilir. Bu e'tiqad əsasında zərdüştlər öz ölülərini müəyyən mərasimdən sonra daxmada, yaxud "Bürcü xamuşan"da qoyurlar ki, qurd-quşlara yem olsunlar. Ölülərin sümükləri günəşin altında quruduqdan sonra həmin daxmanın axır hissəsində qazılmış quyuya tökülür. Amma son yarım əsirdə zərdüştlər dəfn üslubunu başqa bir şəkildə həyata keçirirlər. Bu məqsədlə əvvəlcə ölünün gözlərini bağlayır, əllərini

sinəsinə qoyur, ayaqlarını da dizlərinə qədər büküb təmiz bir otaqda daşla döşənmiş yerin üzərində, yaxud dəmir bir taxtın üzərində uzadırlar. Sonra isə sayı adətən iki, dörd, yaxud altı nəfərdən ibarət olan pişqahnam (ölü çəkənlər) vasitəsi ilə dəmir bir tabuta qoyularaq dəfn olunacaq yerə aparılır. Orada pakşuların (ölüyuyanların) vasitəsilə təhvil alınıb qüsl-kəfən edilir, koşti bağlandıqdan sonra dəmir taxtın üzərinə qoyulur və ağ bir parça ilə üzləri örtülür. Daha sonra namazxanaya aparılır ki, orada mubədlər qasaları oxumağa başlasınlar. Bu işin axırında ölünü həmin dəmir taxtla birlikdə qəbirin içinə qoyurlar ki, torpağa toxunmasın. Daha sonra qəbirin üstünü daş .və betonla örtürlər

Bu dərsdə qeyd olunanlar zərdüştlərin dini ayinlərindən bəzi nümunələr idi; onların dini hökmlərinin hamısı bu kitabın bəhslərinə sığışmaz və bu barədə yazılmış müfəssəl .kitablara, xüsusilə Vendidada müraciət etmək olar

## SUAL VƏ TAPŞIRIQLAR

?Atəşgah necə bir məkandır .١

?Mubədlərin vəzifəsi nədir .٢

.Sidrə geymək və koşti bağlamaq mərasimini izah edin .٣

?Qədim zərdüştlər ölülərlə necə rəftar edirdilər .۴

.Atəşin müqəddəsləşdirilməsi mərasimini izah edin

səh:۱۸۰

### OTUZ BEŞİNCİ DƏRS

## ZƏRDÜŞT DİNİNDƏKİ DƏYİŞİKLİKLƏR

### İŞARƏ

Zərdüştilik əsrindən sonra Mazdaizm çoxlu dəyişikliklərə mə’ruz qaldı. Bu din bir tərəfdən neçə-neçə firqələrə bölündü, digər tərəfdən də yeni ayinlərlə - Manəvi, Məzdəki kimi cərəyanlarla üzləşdi və həmçinin bir çox siyasi hadisələrlə qarşılaşdı.

### ١. FİRQƏLƏR

Üçüncü dərsdə qeyd olunduğu kimi, zərdüştilikdə əsas bəhs Ahura Məzdanın xilqət aləminə olan mehr-məhəbbəti, Sepentaminunun və Əngirəminunun Ahura Məzda ilə olan rabitəsinin necəliyi ətrafındadır. Zərdüştiliyin ilkin tə’limlərinə əsasən, Ahura Məzda öz əndişəsində iki minunu xəlq etmişdir. Bu iki minu xilqətin əvvəl çağlarından xeyirlə şərdən birini seçməyə və öz seçimləri ilə Sepənd və Əngura olmağa vadar edilmişlər. Bu seçki o qədər əsaslı və mühüm idi ki, Sependminu öz düşməni Əngirəminuya demişdir: “Bizim fikrimiz, ayinimiz, meylimiz, seçimimiz, söhbətimiz, əməlimiz, elmimiz və ruhumuz bir-birilə müvafiq deyildir”.

Hər halda Allah iki minunu xəlq etmişdir, onlardan biri xeyir və yaxşılığı, digəri isə şər və pisliyi seçmişdir. Buna əsasən, allah Ahura Məzda hər iki minudan ilkindir; baxmayaraq ki, Sepentminu ilə müvafiqdir və Əngireminunu rədd edir.

Amma Ahura Məzda ilə bu iki minu arasında əvvəlcədən tə’yin olunmuş rabitə sonrakı dövrlərdə dəyişdirildi və bu rabitənin təhlil və dəyişdirilməsinin necəliyi ilə əlaqədar olaraq, zərdüşt dini üç firqəyə bölündü: Sənəviyyani Məzdai, Məsxiyyə və Zərvaniyyə.

١. Sənəviyyani Məzdai:

Bu firqə nur və işıqlığın xaliqi və məzhəri olan Sepəndminunun Ahura Məzda ilə eyni səviyyədə olduğuna və Əhrimənin onun müqabilində dayandığına etiqadlıdır. Onlar mütləq işıqlığa və nura pərəstiş edir, hər növ nuru ondan bilir və onu (mütləq işıqlığı) aləmin rəhbəri kimi təqdim edirdilər; bütün yaxşı işləri ona aid edirdilər. Onun adı Ahura Məzda, yaxud Xudavənd və yaxud da Yəzdandır. Bunun da müqabilində

Əhrimən qərar tutur ki, bütün pis işlər ona mənsub edilir. Ahura Məzda bu kimi işlərdən pak və münəzzəhdir. Buna əsasən, bu firqə Ahura Məzdanı nurun xaliqi hesab edərək, onunla zülmət xaliqi olan Əhrimənin arasında daimi mübarizə və keşməkeş .olduğuna inanır və bu aləmin əslinin nur və zülmətdən nəş'ət tapdığına inanırdılar

:Məsxiyyə .٢

Məsxiyyə firqəsi varlığın əslini Ahura Məzda hesab edir, amma inanırdılar ki, Əhrimənin də əsli (qədimki tə'rifi ilə yanaşı) allahdandır. Bu firqə ona görə Məsxiyyə adlanmışdır ki, ona əqidə bəsləmək, Ahura Məzdanın Əhrimən üçün

mənşə olması, zülmətin və pisliklərin əsil ünvanı ilə tanınan Əhrimənin mütləq xeyir və .yaxşılıqdan ibarət olan Ahura da məsx olmasını tələb edirdi

:Zərvaniyyə .۳

Zərvan sonsuz zaman və məkan mə’nasındadır. Zərvaniyyə firqəsi inanır ki, Zərvan əsildir; Ahura Məzda və Əhrimənin xaliqidir. Zərvandan bir xeyir allahı və bir də şər div yaranmışdır ki, birincisi Orməzd, yaxud Ahura Məzda, ikincisi isə Əhrimən adlanmışdır. Zərvaniyyənin nəzəriyyəsinə uyğun olaraq, Ahura Məzda zərdüştlərin yeganə allahı .olmaqla, Zərvan adlı başqa bir allahın da məxluqudur

## YENİ DİNLƏR .۲

Zərdüşt dininin qarşılaşdığı digər bir cərəyan da iki yeni e’tiqadi cərəyanın formalaşması idi ki, Məzdai dininə artırılan inhiraf və təhriflər əsasında yaranmışdır. Bu :iki ayin aşağıdakılardır

.Manvi və Məzdəki ayini

Bundan əlavə, zərdüştilik digər bir real gerçəkliklə də qarşılaşdı və bu da məsihilik və .islam kimi yeni səmavi dinlərin zühur etməsi idi

:Manvi ayini .۱

Mani üçüncü miladi əsrinin əvvəllərində özünü axırıncı peyğəmbər, öz dinini isə dinlər arasında ən kamil bir din kimi təqdim etdi. O, zərdüştiliyin əqidəvi əsaslarını, xüsusilə zərvaniyyə firqəsinin təlimlərini məsihiliyin, budaizmin, hinduizmin əqidə üsullarına və eləcə də işraqi fəlsəfəsinə qatmaqla, bundan əlavə, onlara bə’zi şəxsi nəzərlərini artırmaqla Manvi ayininin əsasını qoydu. Onun dini kitabı Orjanək adlanırdı. Mani mahir bir rəssam olduğuna görə öz müqəddəs kitabını çoxlu rəsm əsərləri ilə bəzədi; bu .kitab həqiqətdə rəsm əsərləri ilə illüstrasiya olunmuş yeganə müqəddəs kitab sayılırdı

Öz ayinində zərvaniyyənin ikilik əqidəsinə yer verən Manvi firqəsi sür’ətlə yayılıb genişləndi və zərdüştliyin əhatə etdiyi sahələrin çoxuna hakim kəsildi. Amma İslam dini zahir olduqdan sonra müsəlmanlar manviləri təkallahlı və kitab əhli hesab

etmədiyinə görə, onlar azlıq təşkil edən dini bir qurum kimi islam cəmiyyətində öz .həyatlarını davam etdirə bilməyib, tədricən aradan getdilər

:Məzdəki ayini .۲

Məzdəkilik Manvi ayinindən parçalanaraq yaranmış bir firqədir ki, Məzdəkin vasitəsi ilə Miladın beşinci əsrinin axırlarında formalaşmışdır. Məzdək, Manvi rəhbərlərinin üstünlüyü ilə müxalif idi. Ona görə də öz yaratdığı firqəni Manvi və Zərdüştiliklə müxalifətçilik vasitəsi yaratmaq məqsədi ilə icad etmişdi. Məzdək əqidəsinin ən mühümlərindən biri mal, sərvət, ləzzət və maddi ne’mətlərdən, o cümlədən qadın, həyat yoldaşı, ev və s. kimi şeylərdən istifadədə hamının bərabər olmasıdır. O, inanırdı ki, mal-dövlət sərvətlilərdən alınaraq yoxsullara verilməlidir ki, hamı ondan bərabər .şəkildə bəhrələnsin

Sasani şahı Ənuşiravanın atası Qubad özünün şəxsi və siyasi hədəfinə görə (bəlkə də zərdüşt ruhanilərini və əşraf təbəqəsini əzmək üçün) Məzdəkiliyə üz tutub ona çox geniş imkanlar verdi. Beləliklə, Məzdək öz ayinini o dövrdə zərdüşt cəmiyyətində genişləndirə bildi. Amma Qubaddan sonra Ənuşiravan məzdəkiləri kütləvi şəkildə qırmağa başladı və bundan sonra Məzdəkilik gizli bir firqə şəklinə düşdü; bu firqə .İslamın zühurundan sonra üç əsr öz həyatını davam etdirə bildi

:Məsihilik .٣

Zərdüşt cəmiyyətini təhdid edən və onu bir din kimi əsaslı şəkildə təhlükə ilə qarşılaşdıran üçüncü din məsihilik idi. Məsihilik İran zərdüşt cəmiyyətinə əsasən iki yolla daxil oldu: Biri məsihi təbliğatçılarının vasitəsi ilə; digəri isə İran dövləti tərəfindən müharibələrdə əsir düşərək ölkənin müxtəlif məntəqələrinə yayılan şəxslərin əli ilə. Məsihilik Xosrov Pərvizin dövründə çox yüksək nüfuza malik idi və bu dövrdə İran şahlarının yaxın adamlarından çoxu məsihi oldular; şahın özü də bu dinə meyl etdi və .bununla da məsihiliyin genişlənməsi üçün münasib şərait yarandı

:İslam dini .۴

İslam dini İrana daxil olan ərəfələrdə zərdüştilik zərvaniyyə, manvi, məzdəki və s. cərəyanların xurafi əqidələrinə düçar olmuşdu və onun əqidə üsulları insani dəyərlərdən çox uzaq düşmüşdü. Digər tərəfdən də bu din fəsad, eyş-işrətçilik və sinfi ziddiyyətlər bataqlığında qərq olmuş, hökumət aparatı ilə mubədlərin əlində oyuncağa çevrilmişdi. Buna görə də xalq kütlələri əvvəldən az-çox tanış olduqları yeni bir din qarşısında müqavimət göstərmədilər və onu asanlıqla qəbul etdilər. Çünki, onun təkallahlıq və tövhid əsasında olmasını, fitrətlə uyğun və Ahura Məzda ruhuna malik bir din olduğunu görürdülər; bəlkə də zərdüştlərin belə bir mövqedə olmasında Suşyantın gəlişinə verdiyi və’də də tə’sirsiz olmamışdır. Bundan əlavə, İslam ordusu rəhbərlərinin çox sadə şəkildə yaşaması, onların adi əsgərlərlə eyni səviyyədə və birlikdə olması iranlıların ruhiyyəsində çox dərin tə’sirlər buraxdı; onlar yeni dini qəbul etmək üçün daha çox maraq göstərdilər. Buna görə də İranın müsəlmanlar tərəfindən fəth olunması hadisəsində, qısamüddətli müharibələrdə Nəhavənd şəhərinin yaxınlığındakı Qadisiyyə məntəqəsində baş verən vuruşmalar istisna olmaqla, İran

imperatorluğunun qalan şəhərlərində camaat islam dininə yüksək rəğbətlə .qoşulurdular

## SİAYSİ DƏYİŞİKLİKLƏR .۳

Dördüncü dərsdə qeyd olundu ki, İsgəndərin İrana həmləsindən sonra zərdüştilik rövnəqdən düşdü, Avestanın yeganə nüsxəsi də yandırıldı. Amma Əşkanilər silsiləsinin tə’sis olunmasının ardınca, Avestanın yenidən bir yerə yığılıb kitab halına salınması başlandı və bundan sonra Zərdüşt dini yenidən dirçəlməyə başladı. Bu rövnəq Sasanilər dövlətinin tə’sis olunması və Zərdüştliyin ölkənin rəsmi məzhəbi kimi e’lan olunmasından sonra bir neçə dəfə yüksəldi. Sasani şahları mubədlərə geniş imkanlar verib, sair məzhəb ardıcılları ilə pis rəftar

etdilər. Zərdüşt ruhanilərinin tə’siri altında camaatı öz məzhəblərini tərk etməyə və bu dini qəbul etməyə məcbur etdilər. Digər tərəfdən də zərdüşt mubədlərinin səltənət aparatında əldə etdikləri hədsiz mövqelərə görə cəmiyyət sinfi ziddiyyətlərə düçar oldu; camaatın dini rəhbərliyə qarşı narazılıqları artdı. Bu da İran xalqlarının İslam dininə üz gətirməsinin əsas amillərindən biri idi. Belə ki, qısa bir müddət ərzində camaatın əksəriyyəti islamı qəbul etdi və o zamandan indiyə qədər zərdüştlər İran .xalqları arasında azlıq təşkil edən dini qurum kimi öz həyatlarını davam etdirirlər

**SUALLAR**

Sepentminu və Əngireminunun rabitəsi Sənəviyyani Məzdai firqəsi nəzərindən . ١ ?necədir

?Nə üçün Məsxiyyə firqəsi belə adlanmışdır .٢

?Zərvan nə deməkdir və zərvaniyyə firqəsinin əqidəsi nədən ibarətdir .٣

?Manvi əqidəsi nədir .۴

?Məzdəki ayininin ən mühüm əqidəsi nədir .۵

?Nə üçün İslam dini Zərdüştiliyə qalib gəldi .۶

səh:١٨۴

## OTUZ ALTINCI DƏRS

### BƏNİ–İSRAİL QÖVMÜ

Yəhudi dini Bəni-İsrail qövmünə mənsub edilir və bu qövmdən olan həzrət Musa (ə) Bəni-İsrail arasında peyğəmbərliyə seçilmişdi. Həzrət Musa (ə)-ın be’sətinin tarixi şəraitlərini və yəhudi şəriətinin tə’sis olunmasını aydınlaşdırmaq üçün bu qövmün .tarixinə qısa bir nəzər salmaq zəruridir

Bəni-İsrail İbrani və Sami irqindəndir. İbranilər ilk əvvəldə Ərəbistan yarımadasının şimalındakı səhralarda, Şam diyarının ətrafında köçəri həyat tərzi sürürdülər. Onların əqidələri sair bədəvi ərəblər kimi fetişizm və animizm olmuşdur. Həzrət İbrahim (ə) .tövhid dininin əsasını qoyana qədər onlar bir neçə allaha inanırdılar

Bə’zi tədqiqatçıların fikrincə, İbrami ləqəbini Kənanilər həzrət İbrahim (ə) Kənana daxil olduqdan sonra ona və onun ardıcıllarına vermişdilər. Çünki «İbrani» sözü «əyn», «bey» və «re» kökündən olub «keçmək» mə’nasındadır. Həzrət İbrahim (ə) Kənan diyarına .çatmaq üçün Fərat çayından keçdiyinə görə ona bu ləqəb verilmişdi

Həzrət İbrahim (ə) qoca yaşlarında iki övlad sahibi oldu; biri İsmail digəri isə İshaq. İshaqın iki ekiz oğlu oldu ki, birinə İsu (çox tüklü deməkdir) adı qoyuldu; çünki dünyaya gələndə onun bədəni tüklü idi. İkinci oğlu isə Yə’qub adlandırıldı. Yə’qub isə tə’qib edən .mə’nasındadır; çünki birinci övladın ardınca doğulmuşdu

Həzrət Yə’quba Tövratda qeyd olunan bir xurafatçı hadisə əsasında yə’ni, Allahla güləşmək (nəuzibillah) məsələsində(١) İsrail ləqəbi verildi; yə’ni, qəhrəmana qalib gələn bir şəxs. Həzrət Yə’qubun on iki oğlu oldu ki, onların nəsli Bəni-İsrailin on iki .tayfasını təşkil edir

Eramızdan əvvəl, təqribən ١٧-ci əsrdə həzrət Yə’qub əhli-əyalı ilə birlikdə Kənanda quraqlıq olduğuna görə Misirə köçmüşdü. Misirdə Yə’qubun oğlu Yusif oranın baş vəziri olmuşdu. Buna görə də Yə’qub və onun ailəsi orada çox hörmətlə qarşılandı; onlarla layiqli tərzdə rəftar edilərək əkinçilik üçün çox yararlı, münbit torpaq sahələrini onların ixtiyarında qoydular. Məhz bu dövrlərdə Bəni-İsrail on iki tayfaya bölündü. Lavi, yaxud Levi qəbiləsi həzrət Musa, Harun, Məryəm və İsanın mənsub olduğu on iki

.tayfadan biridir

Bəni-İsrail tayfaları uzun illər Misirdə çox əzizlənib firavanlıqla yaşadılar və çoxlu sərvət toplaya bildilər. Onların çoxu yüksək hökumət məqamlarında idilər. Amma Misir fir'onları istilaçı qövm olan Higzus qövmünə qələbə çaldıqdan və onları öz diyarlarından qovduqdan sonra Bəni-İsrail illə çox pis rəftar etməyə başladı; çünki, Bəni-İsrail onların nəzərində qəribə və yad sayılırdı. Onlarla səh:١٨٥

---

.Peydayiş sifri, ٣٢-ci bab, ٢۴-٣٢-ci ayələr [١٢] -١

higzuslarla olduğu kimi çox da qəddar rəftar etmirdi, amma hər bir halda qibtilər(١) arasında yadlarla mübarizə ruhiyyəsinin icad olunması Bəni-İsraillə münasibətin dəyişməsinə səbəb oldu. Qur’ani-Kərimin bəyan etdiyi kimi, misirlilər Bəni-İsrail tayfalarına çoxlu zülmlər edir, onlara işgəncələr verirdilər. Onların oğlanlarını öldürür, qadınlarını özləri üçün saxlayır və onları qul kimi işlədirdilər.(٢)

Bəni-İsrail qövmü uzun müddət çox ağır vəziyyətdə fir’onların amansız zülmləri altında yaşayırdılar və Fir’ona sitayiş etməyə məcbur edilirdilər. Nəhayət, Allah-taala həzrət Musanı (ə) onların arasından peyğəmbərliyə seçdi, tövhid dininə də’vət edərək, onları vahid bayraq altında birləşdirdi və Fir’ona pərəstiş etməkdən xilas etdi. Sonra onları və’də verilmiş diyara getmək üçün Misirdən çıxartdı. Amma Bəni-İsrail Sina səhrasına çatdığı zaman oraya daxil olmaqdan imtina edərək, Musaya dedilər: “Bu şəhərdə zalım bir qrup vardır. Nə qədər ki, bu qövm orada hakimdir, biz oraya daxil olmayacağıq.” Onlar Musadan istədilər ki, Allahının köməyi ilə zalımlarla müharibə etsin ki, ondan sonra oraya daxil olsunlar. Buna görə də Allah-taala onlara qəzəb etdi, müqəddəs diyara daxil olmağı qırx il müddətində onlara haram etdi və onları səhralarda sərgərdan qalmağa məhkum etdi.(٣)

Bəni-İsrail qövmü biyabanlarda sərgərdan qaldığı qırx il müddətində öz üsyankarlıqlarını və bəhanə axtarmaqlarını davam etdirdilər; halbuki Allah-taala onlara buludlardan və dağlardan kölgələnəcək vermiş, “mənn” və “səlva” (çörək və qızardılmış toyuq) kimi xoşagələn yeməkləri onlar üçün müqəddər etmişdir. Həzrət Musa (ə) ümmətinin susuzluğu üçün Allahdan su istədikdə, Allah-taala ona öz əsasını daşa vurmağı əmr etdi. Əsanı daşa vurduqda Bəni-İsrail tayfalarının sayı qədər, yəni onlar üçün on iki çeşmə qaynadı ki, hər biri bir çeşməni öz ixtiyarlarında saxlasın və su üstündə bir-birləri ilə dava etməsinlər.(٤) Amma bütün bunlara baxmayaraq, Bəni-İsrail qövmü yenidən irad tutmağa başlayıb Musa (ə)-a dedilər ki, biz eyni növdən olan bir qida ilə kifayətlənə bilmərik. Allahdan istə ki, bizim üçün yerdən paxla, dənli bitkilər, xiyar, sarımsaq, mərci və soğan göyərtsin.(٥)

Həmin dövrdə Musa (ə) Allahla qırx gecə-gündüz danşımaq üçün Tur dağına getmək qərarına gəldikdə, Harunu öz yerinə canişin qoydu. Bəni-İsrail Samirin hiylələrinə aldandılar və Musanın tövhid dinini buraxıb danaya sitayiş etməyə başladılar.(٦)

-۱ [ ۱۳] Sami qövmünün bir şaxəsidir ki, Misirin fir’onları və qəbilələri həmin şaxayə mənsub edilir.

-۲ [۱۴] Bəqərə-۴۹, Ə’raf-۱۴۱, İbrahim-۶.

-۳ [۱۵] Maidə surəsi ۲۰-۲۶-cı ayələr.

-۴ [۱۶] Qur’ani-kərim, Nisa-۱۵۴, Ə’raf-۱۶۰ və ۱۷۱, Bəqərə-۵۷ və ۶۰.

-۵ [۱۷] Bəqərə-۶۱.

-۶ [۱۸] Ə’raf-۲۴۸, Taha-۸۵, ۹۵.

Bəni-İsrail qövmü qırx il səhrada qaldı və həzrət Musa da orada dünyadan köçdü. Amma yəhudilər razı oldular ki, gözəl mənzərələrə, səfalı yerlərə malik olan Fələstin diyarına varid olmaq üçün öz düşmənləri ilə müharibəyə başlasınlar; nəhayət onlar zor və qüdrət işlətməklə və'də verilmiş ərazi adlanan bu diyara daxil olub, oranı öz ixtiyarlarına keçirtdilər. Bu dövrdə Bəni-İsrail peyğəmbərləri bu qövmün hidayətini öhdəsinə almış, Harun, Davud və Süleyman kimi qüdrətli hakimlərin hakimiyyəti altında yaşamışdılar. Nəhayət Babilin məşhur padşahı Buxtunnəsər miladdan təqribən ۶۰۰ il əvvəl Fələstini işğal etmək üçün oraya qoşun yeritdi və Beytul-müqəddəsi fəth etdi. Yəhudi qövmü ona itaət etməkdən imtina etdikləri zaman, Buxtunnəsər onlara divan tutdu. O, həddən artıq yəhudi qətlə yetirdikdən, səltənət xəzinələrini və mə'bədlərini qarət etdikdən sonra onların sərvətlilərindən və sənətkarlarından on min nəfərdən artığını əsir edib Babilə apardı və öz tərəfindən Fələstinə bir nümayəndə tə'yin etdi. Amma on il sonra Buxtunnəsərin nümayəndəsi istiqlaliyyət əldə etmək fikrinə düşdü. Nəticədə Buxtunnəsər ikinci dəfə güclü bir qoşunla Fələstinə hücum etdi və yəhudiləri kütləvi şəkildə qırmağa başladı; şəhəri, xüsusilə mə'bədləri və yəhudilərin dini mərkəzlərini dağıtdı. Bu hadisə nəticəsində Tövratın müxtəlif nüsxələri və yəhud dininin müqəddəs kitabının saxlandığı şəhadət tabutu, yaxud müqəddəs .sandıq məhv edildi

Yəhudi qövmünün yerdə qalanları əsir olaraq Babilə aparıldı və əlli il müddətində orada əsarətdə yaşadılar. Bu dövrdə öz dini kitablarından və xüsusi mə'bədlərindən istifadə edə bilmədilər. Nəhayət miladdan ۵۳۰ il qabaq İran şahı və Həxamənişiyan sülaləsinin başçısı Kuruş Kəbir Babilə həmlə edərək Kildanilər səltənətinin kökünü kəsdi; Babili fəth etdi və yəhudi əsirlərini əsarətdən xilas etdi. Yəhudilər Kuruşun gördüyü tədbirlər nəticəsində İrana və iranlıların əqidəsinə meyl göstərdilər. Onlardan bir qurupu İrana gəldi. Kuruş böyük hörmət sahibi olan, hamının diqqət yetirdiyi Üzeyir adlı yəhudi alimini yəhud qövmünə rəis tə'yin etdi və ona icazə verdi ki, yəhudilər üçün yeni bir dini kitab yazsın. Üzeyir miladdan ۴۵۷ il qabaq yəhudilərdən bir qurupu ilə Fələstinə qayıtdı; orada yəhudi alimlərinin həmkarlığı ilə Əhdi-ətiqi yazmağa başladı. Yəhudilərin hal-hazırda müqəddəs kitabı adı ilə tanınan məcmuə, Üzeyir tərəfindən .toplanıb bir yerə yığılan həmin kitabdır

Əzra adlanan Üzeyir barəsində Qur’ani-kərimdə qeyd olunub. Belə ki, o, xarab olub dağılmış bir kənddən keçəndə heyrətlə sual etdi ki, Pərvərdigara! Ölüləri necə dirildəcəksən? Allah-taala onu yüz il müddətində ölü vəziyyətində saxladı və sonra dirildib buyurdu: “Nə qədər yatmışdın?” Cavab verdi: “Bir gün, yaxud yarım gün.” Allah-taala buyurdu: “Xeyir. Sən yüz il yatmısan. Sən öz yeməyinə və içməyinə bax; onlar hələ də xarab olmamışdır. Öz ulağına bax (o, ölmüşdü və sümükləri bir-birindən aralanıb dağılmışdı) ki, biz Səni camaat üçün ayə və nişanə qərar veririk. Sonra sümüklərə bax; gör ki, Biz onları bir-birinə necə yapışdırıb ətə

bürüyürük.(١) Qur’ani-Kərimin başqa ayələrində Allah-taala yəhudi qövmünün sözlərini nəql edir ki, onlar Üzeyiri Allahın oğlu kimi tanıtdırdılar və Allah bu işlərinə görə onları lə’nətləyir.(٢)

### SUAL VƏ TAPŞIRIQLAR

١. Həzrət İbrahimdən əvvəl İbranilərin əqidələri necə idi?

٢. Həzrət Yə’qub kimdir və nə üçün Misirə köçmüşdü?

٣. Fir’onun Bəni-İsraillə olan rəftarı necə idi?

۴. Nə üçün Bəni-İsrail qövmü qırx il müddətində səhrada sərgərdan qaldı?

۵. Buxtunnəsər Bəni-İsraillə necə rəftar etdi?

۶. Kuruş Kəbir Bəni-İsraillə necə davrandı?

٧. Yəhudilərin müqəddəs kitabı kim tərəfindən və nə vaxt yazılmışdır?

Qur’ani-kərimin Bəni-İsrail qövmü barəsində olan nəzərini araşdırın.



---

١- [١٩] Bəqərə-٢۵٩.

٢- [٢٠] Tövbə-٣٠.

## OTUZ YEDDİNCİ DƏRS

## (HƏZRƏT MUSA (Ə

## TƏVƏLLÜDÜ VƏ UŞAQLIQ İLLƏRİ

Həzrət Musa (ə) eramızdan əvvəl ۱۲۰۰-۱۳۰۰-cü illərdə Misirdə hökmranlıq edən Fir'on Ramsəsin zamanında dünyaya gəlmişdir. O, elə bir dövrdə doğulmuşdur ki, Fir'onun göstərişi ilə Bəni-İsrailin oğlan uşaqlarının qətlə yetirilməsi adi hal almışdı. Deyilənlərə görə, bu qətillərin əsas səbəbi ibrani cəmiyyətinin sür'ətlə çoxalması və qibtilərin, ibrilərin onlardan üstün olacağından ehtiyatlanması olmuşdur. Bu barədə verilən digər bir ehtimal da bundan ibarətdir ki, Fir'ona kahinlər, münəccimlər və sehrkarlar vasitəsi ilə xəbər verilmişdi ki, o ildə (Musanın təvəllüdü ilində) Bəni-İsrail qövmü arasında bir oğlan uşağı dünyaya gələcəkdir ki, fir'onçuların hakimiyyətinə və qibtilərin səltənətinə .son qoyacaqdır

Qeyd olunan ehtimalların hər biri düzgün ola bilər. Ümumiyyətlə, o ildə Fir'on göstəriş vermişdi ki, Bəni-İsrail qadınları hamilə olmamalıdır; hamilə olduqları təqdirdə, uşaqları ana bətnində ikən öldürülməlidir. Əgər övladları dünyaya gələrsə və oğlan uşağı olarsa, yerindəcə məhv edilməlidir. Bu göstərişi icra etmək üçün çoxlu məxfi mə'mur və casuslar tə'yin edilmişdi. Belə bir şəraitdə lavi tayfasından, İmranın Yokabid adlı arvadından bir oğlan uşağı dünyaya gəldi ki, onu sonralar Musa .adlandırdılar. Musa - sudan tutulan mənasını daşıyır

Musanın anası üç ay ərzində övladını gizli şəkildə böyütmüş və ona süd vermişdi. Amma həmişə onun öldürüləcəyindən qorxurdu. Qur'ani-Kərimdə Allah-taala bu :barədə belə buyurur

Biz Musanın anasına (ilahi yolu ilə, yaxud rö'yada): «Musanı əmizdir; elə ki ondan ötrü qorxdun, onu dəryaya (Nil çayına) at. (Uşağın suda boğulacağından) qorxma və (ayrılığına da) kədərlənmə. Biz onu sənə qaytaracaq, özünü də (şəriət sahibi olan) (peyğəmbərlərdən edəcəyik!» - deyə bildirdik.(۱

:Başqa bir ayədə buyurulur

.Anana vəhy edilməsi lazım olanı vəhy etdiyimiz zaman»

O zaman ki, mən anana buyurmuşdum): «Musanı bir sandığa qoyub çaya (Nilə) at. Qoy) çay onu sahilə çıxartsın və Mənə də, ona da düşmən olan birisi (Fir’on) onu (sudan tapıb) götürsün. (Ya Musa!) Gözümün qabağında boya-başa çatdırılasan deyə, öz tərəfimdən (insanların ürəklərində) sənə bir sevgi yaratdım. Elə etdim ki, Fir’on özü, (arvadı Asiyə və ətrafındakıların hamısı səni sevdi.)»(۲)

Musanın anası Fir’on mə’murlarının və cəlladlarının qorxusundan, bu ilahi vəhyə və ilhama əməl edərək, Musanı içərisini qırla örtdüyü bir sandığa qoyub Nil çayına .buraxdı



---

.Qəsəs-۷ [۲۱] -۱

.Taha-۳۸-۳۹ [۲۲] -۲

:Qur’ani-Kərimin «Qəsəs» surəsinin ٨-٩-cu ayələrində həmin hadisə belə bəyan edilir

Fir’onun adamları axırda özlərinə düşmən kəsiləcək və başlarına bəla olacaq Musanı» (içində olduğu sandıqla birlikdə) götürüb gəldilər. Həqiqətən Fir’on, Haman və onların .əsgərləri günahkar idilər

Fir’onun həyat yoldaşı (Asiyə) dedi: «Bu uşaq mənim də sənin də göz bəbəyimiz olsun, bəlkə də, o böyüyəndə bizə bir fayda verər, yaxud da onu oğulluğa götürərik!» Onlar «.işin nə yerdə olduğunu bilmirdilər

Sabahısı gün qəm-qüssəyə qərq olmuş ana həddindən artıq narahat idi; Musanın bacısını göndərdi ki, ondan bir xəbər gətirsin. O, uzaqdan-uzağa Musanı tanıdı. Lakin .Fir’onun ətrafındakılar onu tanımadılar

Sonra Allah-taala bütün qadınların südünü Musaya haram etdi; belə ki, Musa onların :heç birinin döşünü ağzına almadı. Hadisənin şahidi olan Musanın bacısı dedi

Musanın bacısı Fir’on əhlinə belə dedi: «Sizin adınızdan (o uşağa) zamin olub yaxşı...» (baxacaq və ona qarşı xeyirxah olacaq ev adamlarını sizə nişan verimmi?»(١

Fir’onun həyat yoldaşı bunu qəbul etdi. Musanın bacısı xəbəri anasına çatdırdı. O, Fir’onun qəsrinə gəlib övladını qucağına aldıqda, Musa anasının döşünü alıb süd yeməyə başladı. Fir’onun həyat yoldaşı çox sevindi və Musanı öz anasına qaytardı ki, onu böyütsün və vaxtaşırı onu görmək üçün qəsrə gətirsin. Allah-taala Musaya :xitabən belə buyurur

Artıq (salamat qalmağına görə) gözü aydın olsun və kədərlənməsin deyə, səni...» «.anana qaytardıq

Musanın südəmərlik dövrü belə bir şəraitdə keçdi. Sonra onu Fir’onun qəsrinə .qaytardılar; uzun illər orada yaşayıb boya-başa çatdı

### CAVANLIĞI VƏ AİLƏ QURMASI

Musa (ə) cavanlıq dövründə bir gün Misir əhalisindən xəbərsiz şəhərə daxil oldu. Şəhərin bir yerində iki nəfərin bir-birilə dava etdiyini gördü. Onlardan biri Bəni-

İsraildən, digəri isə Musanın düşmənlərindən idi. Bəni-İsraildən olan şəxs Musadan kömək istədi; Musa onun köməyinə tələsdi və ona elə bir güclü zərbə vurdu ki, həmin şəxs yıxılıb öldü. Musa (ə) qorxuya düşdü və düşməndən ehtiyatlanmağa başladı ki, qətl işinə görə tutub onu öldürməsinlər. Bəni-İsraildən olan həmin kişi yenidən Musanı köməyə çağırdı. Musa onu vurmaq istəyəndə Fir'onun qəbiləsindən olan qibti kişi dedi: "Məni də dünənki kişi kimi vurub öldürmək istəyirsənmi?" Musa başa düşdü ki, hamı onun qatil olduğunu anlamışdır. Bu zaman bir kişi gəlib dedi: "Fir'onun ətrafındakılar şura təşkil səh:١٩٠

---

.Qəsəs-١٢ [٢٣] -١

edərək, səni qətlə yetirmək qərarına gəliblər. Tez bir zamanda şəhərdən çıx. Musa bunu qəbul etdi və canını qorumaq üçün Misiri tərk etdi; Mədyən şəhərinə doğru yola düşdü. Mədyən şəhərinin kənarında bir quyu vardı; camaat oradan həm qoyunlarını suvarmaq üçün və həm də özləri istifadə edirdilər. Musa həmin quyunun yanında istirahət etdiyi zaman görür ki, camaat su çıxarmaq üçün izdiham yaratmışlar; suyun kənarında iki qız uşağı da dayanmışdı. Musa onlardan soruşdu: "Burada nə edirsiniz?" Dedilər: "Buraya qoyunlarımızı suvarmaq üçün gəlmişik; gözləyirik ki, camaat qayıtsın, ara sakitləşsin və biz də irəli gedək. Atamız qoca kişidir, ona görə də bu işi biz özümüz ".görürük

Musa irəli gəlib qızların qoyunlarını suvardı və istirahət üçün kölgəyə çəkildi; bu zaman .Allahdan kömək və yardım istədi

Musa istirahətə məşğul olduğu zaman gördü ki, o qızlardan biri tam həya və vüqarla qayıdıb dedi: "Atamız istəyir ki, qoyunlarımızı suvardığına görə sənə mükafat versin." Musa onların atasının yanına gəldikdə - yə'ni, həzrət Şüeybin yanına – başına gələn əhvalatı nəql etdi." Şüeyb (ə) da ona toxtaqlıq verib dedi: "Mən iki qızımdan birini sənə ərə vermək istəyirəm və sən də əvəzində (mehriyyə olaraq) səkkiz il (əgər istəsən on ".il) işlərimdə mənə yardımçı olarsan

Musa bu işi böyük məmuniyyətlə qəbul etdi və on il Şüeyb (ə)-ın yanında xidmətçi (oldu.(١

### PEYĞƏMBƏRLİYƏ ÇATMASI

Musa (ə)-ın Şüeybə on illik xidmət vaxtı sona çatdıqdan sonra öz ailəsini götürüb ana vətəninə qayıtmaq fikrinə düşdü; bu məqsədlə Tur dağına tərəf yollandı. Tur dağına yaxınlaşan zaman dağdan şö'lənən bir od gördü. Həyat yoldaşına dedi: "Sən burada qal, mən baxım görüm orada şölənən od nədir?! Bəlkə ondan bir az gətirim, yaxud ?onun nə olduğunu öyrənim

Lakin Eymən vadisinə çatanda, o mübarək vadiyə yetişdikdə müqəddəs ağacdan belə :bir səda eşitdi

"!Ey Musa! Mənəm yeganə olan Allah, aləmlərin Pərvərdigarı"

Qeybdən gələn həmin səs Musaya əsanı yerə atmağı əmr etdi! Musa əsasını yerə atdıqda dəhşətli bir əjdahaya çevrildi ki, hər tərəfə hərəkət edirdi. Sonra Allah-taala ona xitabən buyurdu: "Qorxma, onu tut! Əvvəlki halına qayıdacaqdır."

Sonra Allah-taala ona əlini qoltuğuna salıb çıxarmağı əmr etdi. Bu zaman o, əlinin çıraq kimi parladığını gördü.

Allah-taala iki mö'cüzəni Musanın ixtiyarına verdikdən sonra, onun peyğəmbərliyə seçildiyini buyurdu. Daha sonra ona tüğyançılıq yolunu tutan Fir'ona doğru getməsini əmr etdi. Musa Allahdan səbr, hövsələ, işlərdə asanlıq və dilindəki düyünlərin götürülməsini istədi. Həmçinin qardaşı Harunu ona vəzir və köməkçi tə'yin etməsini istədi. Allah-taala Musanın istəklərini qəbul etdi. Bu dəfə



---

١- [٢٥] Qur'ani-kərim, Qəsəs surəsi ١٥-٢٨-ci ayələr.

.Musa və Harun birlikdə Fir’onun yanına getmək istədilər. Çünki o, tüğyançılıq edirdi

:Qur’ani-kərimdə oxuyuruq

«(Rəbbindən) Onunla yumşaq danışın. Bəlkə, öyüd-nəsihət qəbul etsin, yaxud qorxsun!»(۱)

**SUALLAR**

۱. ?Fir’onun ətrafındakılar Musanın qoyulduğu sandığı tapdıqda nə etdilər

۲. ?Həzrət Musa hansı şəraitdə anasına qaytarıldı

۳. ?Həzrət Musa necə oldu ki, Şüeybin kürəkəni oldu

۴. ?Həzrət Musa nə vaxt və necə peyğəmbərliyə seçildi

۵. ?Həzrət Musanın mö’cüzələri hansılardır

۶. ?Həzrət Musanın ilk peyğəmbərlik vəzifəsi nə idi



---

۱- [۲۶] Taha-۴۴.

## OTUZ SƏKKİZİNCİ DƏRS

## YƏHÜVƏH

Həzrət Musadan əvvəl və sonra olan ilahi peyğəmbərlərin hamısında olduğu kimi, həzrət Musanın da risalət və tə’limlərinin sərlövhəsində tövhid və yeganə Allaha pərəstiş məsələsi dayanır. Həzrət Musa (ə)-ın risaləti ondan əvvəlki peyğəmbərlərin davamında və İbrahim (ə)-ın tövhid ayininin əsasında bərqərar olmuşdur. Allah-taala :Qur’ani-Kərimdə buyurur

Ya Məhəmməd!) Biz Nuha və ondan sonrakı peyğəmbərlərə vəhy göndərdiyimiz kimi,)» sənə də vəhy göndərdik. Biz İbrahimə, İshaqa, Yə’quba və onun övladlarına, İsaya, Əyyuba, Yunusa, Haruna və Süleymana da vəhy göndərdik. Biz Davuda da Zəburu (verdik». (١)

Buna əsasən nübüvvət və peyğəmbərlik bir-biri ilə bağlı olan bir silsilədir və bütün .peyğəmbərlər insanları tövhidə də’vət etmişdir

Musanın də’vəti də tövhidə və yeganə Allaha pərəstiş etməkdən ibarətdir. Qur’ani-Kərim İbrahimin dilindən onun tövhid əqidəsində olduğunu bəyan etdikdən sonra, onun nəslinin və övladlarının hidayət olunması ne’mətini də (o cümlədən Muasanın) :şərh edir. Allah-taala buyurur

Mən həqiqətən, batildən haqqa tapınaraq üzümü göyləri və yeri yaradana çevirdim.» !Mən (Allah) şərik qoşanlardan deyiləm

Tayfası İbrahimlə mübahisəyə girişdi. İbrahim dedi: «Allah məni doğru yola saldığı halda, siz Onun barəsində mənimlə mübahisə edirsiniz? Rəbbimin istədiyi hər hansı bir şey (bəla, müsibət) istisna olmaqla, mən sizin Ona şərik qoşduğunuz bütlərdən qorxmuram. (Onlar mənə heç bir şey edə bilməzlər). Rəbbim hər şeyi öz elmi ilə ehtiva ?etmişdir. Məgər düşünüb öyüd-nəsihət qəbul etmirsinizmi

Allah sizə (ibadət edilməsi barədə) heç bir dəlil endirmədiyi bütləri Ona şərik qoşmaqdan qorxmadığınız halda mən niyə sizin şərik qoşduqlarınızdan qorxmalıyam? Əgər bilirsinizsə, (deyin görək) bu iki dəstdən hansı (qiyamət əzabından) əmin olmağa

?daha haqlıdır

İman gətirib imanlarını zülmlə qarışdırmayanlar əmin-amanlıqdadırlar. Haqq yola yönəlmişlər də onlardır!

Bu, Bizim İbrahimə öz tayfasına qarşı verdiyimiz dəlildir. Biz istədiyimiz şəxsi mərtəbə-mərtəbə yüksəldərik. Şübhəsiz ki, Rəbbin hikmət və elm sahibidir.

Biz İshaqı və Yə’qubu Ona əta etdik. Onların hər birini hidayətə (peyğəmbərliyə) çatdırdıq. Bundan əvvəl Nuhu və onun nəslindən olan Davudu, Süleymanı, Əyyubu, Yusifi, Musanı və Harunu da hidayətə qovuşdurduq...



---

.Nisa-۱۶۳ [۲۷] -۱

.Zəkəriyyanı, İsanı, İlyası da hidayətə çatdırdıq. Onların hamısı əməli-salehlərdən idi

Biz həmçinin İsmaili, Ələysə'i, Yunusu və Lutu da hidayətə qovuşdurduq və onları ((özləri ilə bir dövrdə yaşayan bütün) insanlardan üstün etdik.»(١)

Bu ayələr gözəl şəkildə bəyan edir ki, İbrahimin dini tövhid ayinidir və ondan sonra gələn peyğəmbərlərin hamısı onun ayinində olmuşlar; risalət dövranında insanları .tövhidə və yeganə Allahın müqabilində təslim olmağa də'vət etmişlər

:Qur'ani-kərim buyurur

Ya Məhəmməd!) Özünü səfehliyə qoyanlardan başqa kim İbrahimin dinindən üz )» çevirər? Həqiqətən Biz onu dünyada (peyğəmbərlik və Kə'bəni tə'mir etmək üçün) .seçdik. Şübhə yoxdur ki, o, axirətdə də əməli-saleh olanlardandır

Rəbbi İbrahimə: «(Əmrimə) təslim ol!» - dedikdə, İbrahim də: «Aləmlərin Rəbbinə təslim .oldum (müsəlman oldum!») – deyə cavab vermişdi

İbrahim və (sonra da) Yə'qub bunu (müsəlman olmağı) öz oğlanlarına vəsiyyət edib, hər bir dedi: «Ey oğlanlarım, həqiqətən, Allah sizin üçün (belə bir) din (islam dini) seçdi, !siz də ancaq müsəlman olaraq ölməlisiniz

Ey yəhudilər!) Yoxsa Yə'qubun ölümü yetişdikdə siz onun yanında idiniz?! O, «Məndən ) sonra nəyə ibadət edəcəksiniz?» - deyə oğlanlarından soruşduğu zaman, onlar «Sənin Allahına və ataların: İbrahim, İsmailin və İshaqın Allahı olan tək Allaha təslim olub, ona (ibadət edəcəyik!» - dedilər.»(٢)

Buna əsasən bütün ilahi peyğəmbərlər İbrahimin dinindədir və həmişə öz ailə-övladlarına bu dinə tabe olmağı tövsiyə etmişlər. Qur'an həzrət Musa (ə)-ın dilindən, :Fir'onun ondan öz Allahı barədə soruşduğu zaman cavabında belə buyurur

Musa belə cavab verdi: Rəbbimiz hər şeyə öz surətini və şəklini verən, sonra da ona» (doğru yol göstərən Allahdır.»(٣)

Bəni-İsrail qövmü Musanın bir neçə gün olmadığı dövrdə danaya pərəstiş etməyə başladılar. Musa qayıdıb vəziyyətdən xəbərdar olduqdan sonra onlarla çox qətiyyətli

:və ciddi davranaraq öz qövmünə xitabən buyurdu

Sizin Tanrınız ancaq o Allahdır ki, Ondan başqa heç bir tanrı yoxdur. O, elmi ilə hər şeyi » ehtiva etmişdir.»(۴)

Yəhudilərin asimani və müqəddəs kitabı olan Tövrat da bu məsələyə tə’kid edir ki, Musanın Allahı elə ata-babaları Yə’qub, İshaq və İbrahimin Allahıdır. «Dedi: Mənəm sənin atanın Allahı – İbrahimin, İshaqın və Yə’qubun Allahı»(۵)

:Tövratın başqa bir ayəsində belə oxuyuruq

səh:۱۹۴

---

.Ən’am-۷۹-۸۶ [۲۸] -۱

.Bəqərə-۱۳۰-۱۳۳ [۲۹] -۲

.Taha-۵۰ [۳۰] -۳

.Taha-۹۸ [۳۱] -۴

.Sifri xuruc, ۳-cü bab, ۶-cı ayə [۳۲] -۵

Musa Allaha dedi: İndi mən Bəni-İsrailin yanına gedib onlara desəm ki, sizin ata-» babalarınızın Allahı məni sizin yanına göndərmişdir. Məndən onun adının nə olduğunu soruşsalar, onların cavabında nə deyim? Allah Musaya dedi: «Mən varam və o kəsəm ki, varam.» Bəni-İsrailə belə de: «İhyət (varam) məni sizin yanınıza göndərdi.» Allah Musaya yenə dedi: «Bəni-İsrailə belə de: Yəhuvə, sizin ata-babalarınızın Allahı – İbrahimin, İshaqın və Yə'qubun Allahı məni sizin yanınıza göndərmişdir. Bu əbədi (olaraq Mənim adımdır və ardıcıl nəsillərə olan yadigardır.(١

Buna əsasən, Musanın bəyan etdiyi Allahın məhz İbrahim tərəfindən təqdim olunan yeganə Allah olması barədə heç bir ixtilaf nəzərə çarpmır. Amma əsas məsələ bundan ibarətdir ki, görəsən Tövratda «Yəhuva» adlandırılan Allah, Qur'anda Əhəd və Səməd kimi vəsf olunan yeganə Allahdırmı? «Yəhuvə» kəlməsinin kökü və onun necə tələffüz olunması barədə din tarixçiləri və tədqiqatçılar arasında çoxlu mübahislər baş vermişdir. Bə'ziləri aşkar şəkildə demişlər ki, onun əsil və düzgün tələffüzü «Yəhüvəh» kimidir. Çünki həzrət Musa Bəni-İsrailə öyrətmişdir ki, tə'zim və ehtiram əlaməti olaraq, Allahın həqiqi adını işlətməsinlər; Allahın adını çəkmək lazım olduqda, kinayə və işarədən istifadə etsinlər. Bu tə'bir sonralar dəyişilərək «yəhvəh» formasına düşmüşdür. Əlbəttə, hazırda müqəddəs kitabda bu kəlmə «yəhuvə» kimi yazılıb tələffüz edilir. Alimlərdən bə'ziləri isə onun «həyat» kökündən alındığını və «o kəs ki, vardır» mə'nasına yozulduğunu deyirlər; bu ehtimalın düzgün olmasının əlaməti «ehyəh» (varam) və «ehyəh işrahiyəh» (varam o kəsəm ki, varam) tə'biridir ki, Tövratın müxtəlif ayələrində «Ləfzi Cəlalə»nin əvəzində işlədilmişdir. Ümumiyyətlə, hər yerdə «yəhuvəh» Musanın və Bəni-İsrailin Allahı kimi işlədilmişdir. Amma burada iki məsələni :xatırlatmaq yerinə düşərdi

Birincisi budur ki, Tövrat aşkar şəkildə deyir ki, yeganə Allah yalnız Musanın yanında «yəhuvəh» adı ilə tanınan varlıqdır; bundan əvvəl İbrahimin, İshaqın və Yə'qubun yanında mütləq qadir adı ilə tanınan Allahdır. «Və Allah Musaya xitab etdi, ona dedi: Mən Yəhuvəhəm. İbrahim, İshaq və Yə'quba mütləq Allah adı ilə zahir oldum. Amma (Yəhuvəh adımla onların nəzərində tanınmadım.»(٢

İkincisi bundan ibarətdir ki, Tövrat müəyyən sifət və xüsusiyyətləri Yəhuvəhə mənsub edir ki, Allah bu kimi xüsusiyyətlərdən pak və münəzzəhdir. Onlardan bə'ziləri bəşər

:sifətləridir ki, Allaha aid edilir

Musa, Harun, Nadab, Əbihu və İsrailin məşhur şəxsiyyətlərindən ۷۰ nəfərlə birlikdə» yuxarı çıxdı və İsrailin Allahını gördülər. Onun ayaqlarının altı göy yaqut kimi şəffaf və asimanın zatı kimi saf idi; Bəni-İsrail sərvərlərinə öz əlini qoymadı, onlar Allahı gördülər, yedilər-içdilər.»(۳)

səh:۱۹۵

---

۱- [۳۳] Sifri xuruc, ۳-cü bab, ۱۳-۱۶-cı ayələr.

۲- [۳۴] Sifri xuruc, ۶-cı bab, ۳-cü ayə.

۳- [۳۵] Sifri xuruc, ۴-cü bab, ۹-۱۱-ci ayələr.

Başqa yerlərdə isə Allah Musaya xitab edib deyir: “Bəni-İsrailə əmr et ki, Onun (Allah) üçün müxtəlif hədiyyələr gətirsinlər. (O cümlədən qızıl, gümüş, düyü, lil, ərğəvan, nazik kətan, xəz dəri və s.) Sonra buyurur: «Mənim üçün müqəddəs bir məqam düzəltsinlər (ki, onların arasında olum».(١)

Yəhuvəh digər bir yerdə xətakar şəxs kimi tanıtdırılır. Guya o, öz əməllərindən :peşiman olur

Allah “Öz qövmünə çatdır” deyə - buyurduğu pislikdən qayıtdı».(٢) Başqa bir yerdə» oxuyuruq: «Allahın kəlamı Səmuilə nazil oldu: «Mən peşiman oldum ki, Şaiulu (tağutu) padşah etdim. Çünki mənə tabe olmaqdan üz çevirmiş, mənim kəlamımı yerinə yetirməmişdir».(٣) Buna əsasən aydın olur ki, müqəddəs kitab təhrif olunan zaman ilahi .həqiqət müəyyən dəyişikliklərə mə’ruz qalıbdır

Əlbəttə, bu məsələ Bəni-İsrail qövmünün tövhiddə törətdikləri inhirafçı keçmişə diqqət yetirməklə də aydın olur. Çünki, Musa qısa müddətli qeybə çəkildiyi zaman, bu qövm dərhal danaya pərəstiş etməyə başladılar. Bəni-İsrail peyğəmbərlərinin çoxluğu da göstərir ki, bu qövm tövhid yolundan azmağa və şirk bataqlığında qərq olmağa .daha çox meyilli olmuşdur

## SUALLAR

?Qur’ani-kərim İbrahimin və onun övladlarının dinini necə təqdim edir .١

?Qur’ani-Kərim nöqteyi-nəzərindən hansı kəslər İbrahimin dinindən üz döndərər .٢

?Tövrat insanları yeganəpərəstliyə də’vət edirmi .٣

?Yəhuvəh nə deməkdir .۴

?Yəhuvəh yeganə Allahdırmı .۵



---

.Sifri xuruc, ٢۵-ci bab, ٨-ci ayə [٣۶] -١

.Sifri xuruc, ٣٢-ci bab, ١۴-cü ayə [٣٧] -٢

۳- [۳۸] Kitabi əvvəli Səmuil, ۱۵-ci bab, ۱۰-cu ayə.

## OTUZ DOQQUZUNCU DƏRS

## YƏHUDİ TƏFƏKKÜRÜ

### İŞARƏ

Keçən dərsdən məlum oldu ki, Həzrət Musanın (ə) əsas ilahi vəzifəsi insanları tövhidə, yeganəpərəstliyə də’vət etmək olmuşdur. İndi isə Bəni-İsrail əqidəsinin nədən ibarət olmasını araşdırırıq. Aydınlaşdırmalıyıq ki, görəsən onlar öz peyğəmbərlərinin tövhid əqidəsində qaldılar, yoxsa şirkə düçar oldular. Həmçinin bunu da araşdırmalıyıq ki, bu qövmün alimləri öz dinlərini necə təqdim edirlər?

### TÖVHİD VƏ ŞİRK

Yəhudi qövmü həmişə özlərinin yeganəpərəst olmasına tə’kid edərək, tövhidi həzrət Musanın on fərmanından biri kimi qəbul etmələrinə baxmayaraq, daimi olaraq bütpərəstliyə və şirkə meyl göstərmiş və bütpərəstlər kimi gözləri ilə görə bilmələri mümkün olan Allah qarşısında ibadət etmək istəmişlər. Qur’ani-Kərim onların Musadan etdikləri istəyi belə bəyan edir:

«Və yadınıza salın ki, siz: «Ya Musa Allahı aşkarsurətdə görməyincə, heç vaxt sənə inanmayacağıq» - dediyiniz zaman gözünüz görə-görə sizi ildırım vurmuşdu.»(١)

Başqa bir yerdə buyurulur:

«...Dedilər: [Ya Musa] Allahı bizə aşkar şəkildə göstər...!»(٢)

Bəni-İsrailin bütpərəstliyə meylli olmaqlarının ən aşkar dəlili onların danaya sitayiş etmələridir. Musa (ə) qısa müddətli qeybə çəkildiyi dövrdə Allahla otuz günlük görüş üçün öz qövmündən uzaqlaşdı və Tur dağına getdi. Orada həmin otuz günə on gündə əlavə edildi. Bu müddət ərzində Harun qövmə rəhbərliyi öz öhdəsinə almışdı.(٣)

Amma Bəni-İsrail qövmü Musanın gecikdiyini gördükdə, Samirinin hiyləsi ilə danaya pərəstiş etməyə başladılar. Qur’an Harunun dilindən nəql edir ki, o (yə’ni, Harun) camaatın şirkə düşməyinə mane olmaq istədikdə, onu öldürmək qərarına gəlmişdilər.(٤)

Yəhudilərin müqəddəs kitabı olan Tövrat bu hadisəni belə nəql edir: «Qövm, Musanın dağdan gec enməsini gördükdə Harunun yanına toplaşıb dedilər: "Qalx ayağa və bizim üçün gözlərimiz önündə olan bir Allah düzəlt. Çünki bu kişinin (Musa), bizi Misir ölkəsindən çıxaran bu kişinin başına nə iş gəldiyini bilmirik." Harun onlara dedi: "Qadınlarınızın, oğlanlarınızın və qızlarınızın qulaqlarında olan qızıl sırğaları çıxarın və mənim yanıma gətirin." Bütün qövm ailə-uşaqlarının



---

۱- [۳۹] Bəqərə-۵۵.

۲- [۴۰] Nisa۱۵۳.

۳- [۴۱] Ə'raf-۱۴۲.

۴- [۴۲] Ə'raf-۱۵۱.

boyun-qulaqlarındakı qızılları çıxarıb Harunun yanına gətirdilər. Harun qızılları alıb qələmlə naxışladı, ondan bir dana qəlibi hazırladı və onlara dedi: "Ey İsrail, bu allahınızdır ki, sizi Misir ölkəsindən çıxarmışdır. Harun bunu gördükdə onun qarşısında bir qurbangah düzəltdi və dedi: Sabah Yəhuvə bayramıdır. Sübh tezdən qalxıb yandırma qurbanlığını keçirib, salamat qalan hədiyyələri gətirdilər. Qövm yeyib-içmək üçün oturdu və oynamaq üçün ayağa qalxdılar. Allah Musaya dedi: "Yola düş, dağdan aşağı en. Çünki sənin Misirdən çıxardığın bu qövm yolunu azmışdır. Onlara əmr etdiyim yoldan azıb özləri üçün dana düzəltmişlər və onun yanında səcdə edir, qurbanlıq kəsirlər. Deyirlər ki, ey İsrail! Bu həmin allahdır ki, səni Misir ölkəsindən çıxarmışdır." (Allah Musaya dedi: "Bu qövmü gördüm. İndi bu çox inadkar bir qövmüdür."(١)

Diqqət yetirilməli məsələ budur ki, Qur'ani-Kərimin nəql etdiyinə əsasən, Bəni-İsrail qövmünün danaya sitayiş etməsinin banisi Samiri adlı bir şəxs olmuşdur. Halbuki təhrif olunmuş Tövratda bu çirkin və şirk əməl Haruna aid edilir. Həqiqətdə isə bu şəxs Harun olmamışdır; o, müqəddəs insan olduğundan heç vaxt şirkə əl atmazdı. Amma necə olursa-olsun, bu tarixi məlumatdan aydın olur ki, Bəni-İsrail qövmü ən kiçik bəhanə ilə bütpərəstliyə meyl göstərirdilər. Qeyd olunan axırıncı ayədən belə aydın olur ki, bu qövmün Allaha şərik qoşmaqda təcrübəsi var idi; Allah da onları inadkar .adlandırmışdır

Həzrət Musa (ə) qayıdan zaman dana bütünü sındırıb ona sitayiş mərasimini ləğv etdi və öz qövmünü yenidən tövhidə qaytardı. Amma onlar Musadan sonra da bütpərəstliyə, danapərəstliyə üz tutdular. O cümlədən, Bəni-İsrail Fələstinə daxil olub bu diyarda yerləşdikdən sonra Kənanın şimal nahiyələrində yaşayan on iki tayfadan onu kənanilərlə qarışmaq nəticəsində Yəhuvəyə e'tiqad və pərəstişlə eyni zamanda Kənanın Bə'l bütü, eləcə də onun həyat yoldaşı olan Əştaruta pərəstiş etməyə başladılar. Amma köçəri həyat tərzi keçirən iki tayfa isə öz Yəhuvə əqidəsində (qalmışdılar.(٢

:Qur'ani-Kərim bu hadisəyə işarə edərək buyurur

.Həqiqətən İlyas da (Bizim tərəfimizdən göndərilmiş) peyğəmbərlərdəndir»

Bir zaman o öz tayfasına belə demişdi: Məgər (bütlərə ibadət etməklə) Allahdan

?qorxmursunuz

Məgər siz yaradanların ən yaxşısını (Allahı) qoyub Bə’lə (Bə’l adlı bütə) ibadət edirsiniz?»(۳)

Tövrat bir çox yerdə Bəni-İsrailin üsyankarlıq, şirk və bütpərəstliklərindən danışır. :Aşağıdakı misallara diqqət yetirin

Ey Yə’qub övladları və İsrail övladlarının bütün qəbilələri! Allahın kəlamını eşidin, Allah» belə buyurur: Sizin atalarınız Məndə nə insafsızlıq görüblər ki, məndən uzaqlaşıb batillərə tabe olublar, batil olublar və...»(۴)

səh:۱۹۸

---

.Sifri xuruc, ۳۲-ci bab, ۱-۹-cu ayələr [۴۳] -۱

.Can.Bi.Nas «Tarixi cameyi ədyan» ۱۳-cü fəsil [۴۴] -۲

.Saffat, ۱۲۳-۱۲۵ [۴۵] -۳

.İrmiya Nəbi kitabı, ۲-ci bab, ayə ۴-۵ [۴۶] -۴

Və siz deyirsiniz ki, bizim Allahımız olan Yəhüvəh nə üçün bu qədər bəlaları bizə» göndərmişdir? Bu zaman sən onlara de: Ona görə ki, siz Məni tərk edib başqa (mə'budlara ibadət etdiniz. Belə isə qəriblərə nökər və qul olacaqsınız»(١)

Və Yərub'am öz qəlbində fikirləşirdi ki, indi səltənət Davud sülaləsinə qayıdacaqdır.» Əgər bu qövm qurbanlıq etmək üçün Allahın evi Yerusəlimə getsələr, həqiqətən bu qövmün qəlbi öz ağaları Rəhübam – yəhudi padşahına qayıdacaqdır və məni qətlə yetirib Yəhudanın padşahı Rəhübamın yanına qayıdacaqlar. Belə isə padşahla məşvərət etdi, iki qızıl dana heykəli düzəltdi və ona dedi ki, sizin üçün Yerusəlimə getmək çətindir. Ey İsrail! (Bunlar) səni Misir diyarından çıxaran mə'budlardır və birini "Beyti-il"də qoydu, digərini "Dan"da qərar verdi. Və bu məsələ də günaha səbəb oldu; qövm o bir dənə "Dan"ın yanına getdilər, uca məkanlarda evlər tikdilər və Bəni Lavidən olmayan qövmün hamısından kahinlər tə'yin etdilər. Yərub'am səkkizinci ayın ١٥-də yəhudi bayramına oxşar bir bayram təşkil etdi və o qurbangaha getdi; "Beyti-il"də həmin cür əməl etdi, düzəltdiyi danalar üçün qurbanlıq kəsdi, düzəltdiyi uca yerlərin kahinləri Beyti-ildə kahinlərini qərar verdi, səkkizinci ayın ١٥-də yə'ni, öz qəlbindən ixtira etdiyi bir ayda Beyti-ildə düzəltdiyi qurbangahın yanına gedirdi və Bəni-İsrail (üçün bayramlıq təşkil edirdi; qurbangahın yanına gəldi və buxur yandırırdı.(٢)

Bəni-İsrail qövmü özlərini Allah tərəfindən seçilmiş bir qövm, yəhudi dinini isə özlərinə məxsus bir din hesab edirdilər. Buna görə də sair qövmləri alçaq, yaramaz və heyvan sayırdılar. (Bu barədə Təlmud bəhsində daha çox araşdırmalar aparacağıq.) Onlar inanırdılar ki, yalnız Bəni-israil övladları yəhudi dinini qəbul edə bilər və başqaları bu qövmdən olmadıqlarına görə bu dinə daxil olmamalıdırlar. Məhz bu dəlilə görə yəhudi xaxamları yalnız yəhudilərin ibadət mərasimlərini yerinə yetirmək və onları düz yola hidayət etməyi öz öhdələrinə götürürlər; sair qövmlər arasında təbliğat tədbirləri yoxdur; öz dinlərinin ardıcıllarının sayını artırmağa meyl göstərmirlər. Həmin irqçilik nəzəriyyəsi əsasında Yəhüvəni Bəni-İsrailin Allahı adı ilə xatırladırlar. Elə bir Allahdır ki, yalnız Bəni-İsrail qövmünü hidayət etməyə vəzifəlidir və sair qövmlərin öz mə'budları .vardır

.İrmiya Nəbi kitabı, ۵-ci bab, ۱۹-cu ayə [۴۷] -۱

.Kitabi əvvəl padşahan, ۱۲-ci bab, ۲۳-۲۶-cı ayələr[۴۷] -۲

## AXİRƏT

Bəni-İsrail qövmü arasında dünyaya ürək bağlamaq elə bir həddə idi ki, müqəddəs kitabın tamamilə hamısı yəhud qövmünün tarixçəsini şərh etməyə həsr edilmiş və onda axirətə e'tiqaddan azacıq da olsa, əsər-əlamət yoxdur. Buna görə də Qur'ani-Kərim Bəni-İsrail barəsində buyurur:

«Sən onları (yəhudiləri) bütün insanlardan, hətta müşriklərdən də daha artıq yaşamağa həris görərsən. Onlardan hər biri istər ki, min il yaşasın...».(۱)

Halbuki Qur'ani-Kərimin aşkar buyuruqlarına əsasən, həzrət Musa (ə) özünü axirətə doğru belə hidayət edir:

«Ey qövmüm! Bu dünya həyatı keçici bir şeydir (fanidir), axirət isə əbədi yurddur.

Hər kəs bir pislik etsə, o ancaq pisliyi qədər cəza alar. Amma hər kişi, yaxud qadın mö'min ikən bir yaxşılıq etsə, belələri Cənnətə daxil olbu saysız-hesabsız ruziyə çatar!»(۲)

## SUALLAR

۱. Bəni-İsrail qövmü həzrət Musadan Allahla əlaqədar nə kimi şeylər tələb edirdi?

۲. Bəni-İsrail danaya nə üçün və necə sitayiş etməyə başladı?

۳. Bəni-İsrail Bə'l bütünə pərəstiş etməyə necə üz tutdu?

۴. Yərüb'am camaatı danaya pərəstiş etməyə necə təşviq edirdi?

۵. Yəhudilərin sair qövmlər barəsindəki nəzəri nədir?

۶. Nə üçün yəhud dini tə'limlərində axirət məsələlərinə diqqət yetirilmir?



---

۱- [۴۹] Bəqərə-۹۶.

۲- [۵۰] Mu'min-۳۹,۴۰.

## QIRXINCI DƏRS

## YƏHUDİ AYİNLƏRİ VƏ İXTİLAFLARI

Yəhudilər mütəmadi olaraq, öz dini qayda-qanunlarını müxtəlif ehtiyac və maraqlarına görə dəyişdirirdilər. Tövratda qurbanlıq mərasiminin yerinə yetirilməsi və hədiyyələrin təqdim olunması üslubu şərh olunur; Bəni-İsrail Fələstində yerləşib Yerusəlimdəki mə'bədi tikdikləri vaxtdan e'tibarən öz ibadi ayinlərini həyata keçirmək üçün xüsusi qayda-qanunlar düzəltmişdilər. Buna əsasən yəhudi qövmü arasında ibadət ayinlərinin əsas meyarı Yerusəlimdəki mə'bədin qayda-qanunlarıdır. Amma əvvəlki dərsdə də qeyd olunduğu kimi, Yerusəlimdəki mə'bəd Dan və İl mə'bədləri kimi rəqiblərə malik idi ki, Yərüb'an Davudun səltənətini zəiflətmək və Yerusəlimdəki mə'bədin mərkəzləşməsinin qarşısını almaq üçün tikilmişdi. Yərüb'an Bəni-İsraildən bir qurupunu öz mə'bədlərinə göndərdi və orada danaya sitayiş etməyin əsasını qoydu. İl və Dan mə'bədlərinin oxşarı olan mə'bədlər Cinkat və Be'ri Şəb'ə .şəhərlərində də mövcuddur

Qurbanlıq mərasimlərinin yerinə yetirilməsi və Allahın hüzuruna hədiyyələrin əta olunması mərasiminin dəqiq üslubu Sifri-xurucda və Sifri-laviyanda müfəssəl şəkildə şərh edilmişdir. Bu hədiyyələrdən bə'zi növləri yandırılmaq üçün idi və onları verərkən Allaha həmd və təqdis nəzərdə tutulur. Onlardan bə'ziləri isə sülh və əmin-amanlıq üçün idi ki, onları verməklə, Allahla olan bağlılıq və rabitələr bir növ möhkəmlənirdi. Günah hədiyyələri də xəta və səhvlərin bağışlanması üçün təqdim olunurdu; nəhayət, bə'zi fərdlərin (kafirlərin) təqsirləri üçün də bə'zi köməklik və qurbanlıqlar edilirdi ki, günahkarları onların cəzalandırılmasından azad etsin. Bu hədiyyələrin hamısı ya heyvanların qurban kəsilməsi, yaxud da kömək və sair hədiyyələr təqdim edilməklə olurdu. Qeyd olunan hədiyyələr göyərtilər, içməlilər, mə'bədin ətirləri və həmçinin sair hədiyyələr, o cümlədən məhsulun ilkin toplanması, nübar meyvələr, heyvan sürüsünün ilk doğulan balası, mal-dövlətdən olan vergilər (onda bir) və s. vergilər qərara alınmışdır. Bu hədiyyə və köməklərin hər birinin xüsusi təqdimat mərasimi var idi ki, müqəddəs kitabda incəliklərinə qədər bəyan olunmuşdur; onlar həmin tərtiblə .də yerinə yetirilməli idi

Yerusəlim mə'bədlərinin rövnəqləndiyi zamana qədər bu mərasimlərin hamısı bütün

incəliklərinə qədər icra olunurdu. Amma bu mərkəz Romalılar tərəfindən dağıdıldıqdan sonra yəhudi mə’bədlərində və ibadi ayinlərində müəyyən dəyişikliklər baş verdi; kənisalar qədim mə’bədlərin yerini tutdu. Dua, razi-niyaz, Tövratın oxunması da qurbanlıq mərasiminin yerini tutdu. Kənisalar həqiqətdə yəhudi şəxslərin toplanış yeri idi ki, orada ibadət mərasimlərini sadə şəkildə bərqərar edirdilər. İbadətdə olan bu mərasimlər dua, dini nəğmələrin oxunması və Tövratın tilavət edilməsi ilə xülasələnirdi; bu kimi yerlər əlavə olaraq, dini hökmlərin və əqidələrin tə’lim verilməsi ,üçün də mərkəz sayılırdı. Əlbəttə

kənisalarda ibadət mərasimlərinin icra olunma qaydasında müxtəlif yəhudi cərəyanları arasında ixtilaf mövcuddur. Amma qədim yəhudilərin kənisalarında Tövrat hələ də qədim ibri dilində oxunur, qadınlarla kişilərin yeri bir-birindən ayrı saxlanır, dua və münacatlar da klassik formada icra olunur. İslahata meyl edən kənisalarda isə bunun əksinə olaraq, ibri dilindən çox az istifadə olunur, dua və münacatların icra .olunmasında, ibadi mərasimlərdə rəqqasəlikdən və musiqidən istifadə olunur

Əlbəttə kənisalar də tədricən öz əhəmiyyətini itirmişdi; çünki yəhudilər öz dini mərasimlərinin və adət-ən’ənlərinin bir qismini ailəvi şəkildə mənzillərdə yerinə yetirir, yalnız kütləvi şəkildə yerinə yetirilən mərasimlər üçün kənisaya gedir və mərasimin .ardını yenidən evlərində davam etdirirlər

## ŞƏNBƏ GÜNÜ MƏRASİMİ

Şənbə günü yəhudilərin istirahət və ibadət günüdür. Tövratda bu gün Allah-taalanın varlıq aləmini xəlq etdikdən sonra istirahətə başladığı gün sayılır. Buna görə də yəhudilər bu gündə işdən əl çəkərək istirahətə və ibadət mərasimi keçirməyə məşğul .olurlar

Yəhudi mö’minləri cümə günü gün batdıqdan sonra mənzillərini təmizləməyə, hamama getməyə, təzə paltarlar geyməyə başlayır və şənbə ibadətlərinə aid olan şamları yandırır, xeyir-duaları tilavət edirlər. Bu iş ailədə ana tərəfindən yerinə yetirilir. Mümkündür ki, uşaqlara aid olan duaları da bu mərasimə əlavə etsinlər. Sonra ailə başçısı şənbə üçün keyduş adlı təbərrük duasını şərabın üstünə oxuyur və şənbə günündə ondan bir qədər içirlər. Daha sonra əllərini xüsusi bir göstərişlə yuyaraq başqa bir təbərrük duasını şənbə çörəyinin üstünə oxuyur ki, həmin çörək də şənbə günü yeyilir. Şənbə günü və gecəsi yeyilən yeməklər də xüsusi göstərişlərə malikdir. Şənbə gününün axırıncı yeməyi elə sərf edilməlidir ki, gün batmazdan əvvəl qurtarsın. Şənbə mərasiminin axırıncı mərhələsi Havdale adlanır ki, bir növ toxunmuş və burulmuş şama (müqəddəs şamdanda qoyulur) dua oxumaq kimi işlərə şamildir; şərabdan olan başqa bir fincanı da içib bir qədər ədviyyələri iyləməkdir. Gün ərzində .dua və münacat mərasimini kütləvi şəkildə yerinə yetirmək üçün kənisaya gedirlər

## BAYRAMLAR

:Yəhudilərin ən mühüm bayramları aşağıdakılardır

Roşhəşnəd» – bu, ilin başı mə’nasına olub, həqiqətdə yəhudi ilinin başlanğıcı və» .۱ onların bayramı sayılır. Yəhudilərin nəzərində ali müqəddəs günlərdən sayılan bu gün qədər əziz gün yoxdur və yəhudilər onu illik mühakimə günü hesab edirlər; o gün asimanın pərdələri açılır və hər şəxsin əvvəlki ildə olan əməlləri onun əməl dəftərində .qeydə alınır

Kippur» – bu gün «Roşhəşnəd»dən on gün sonra yerinə yetirilir və ali müqəddəs» .٢ günlərdən sayılır. Yəhudilər kəffarə və ya tövbə hesab olunan bu gündə öz günahlarını .iqrar edib kəffarə orucu tutur və Allahdan günahlarının bağışlanmalarını istəyirlər

Sukkot», yaxud «Xeymələr bayramı» – «Kippur»dan beş gün sonra yerinə yetirilir.» .٣ Səkkiz gün davam edən bu bayramda Bəni-İsrail qövmünün həzrət Musa (ə)-ın .zamanında ağır şəraitdə səhrada yaşadıqları dövr xatırlanır

Fisəh», yaxud «Pisac» – bu bayram Bəni-İsrailin Misirdən köçmələrini xatırladan bir» .۴ bayramdır və yazda təqribən mart və aprel aylarında bərqərar edilir. Bu bayramda yəhudilər qurbanlıq mərasimlərini keçirir, fətir çörəyi bişirir, şərab içir, bayram şamı .yandırıb Bəni-İsrailin Misirdən köçməsi hadisəsini xatırladırlar

Şavut», yaxud «Əllilik bayramı» – «Fisəh» bayramından doqquz gün sonra yerinə» .۵ yetirilir və həqiqətdə «Fisəh» bayramının davamıdır. Allaha un hədiyyə etməklə keçirilən bu bayram ilahi ne'mətlərə şükr etmək və əkinçilik mərasiminin xatırlanmasıdır. Eləcə də Sina dağında həzrət Musaya Tövratın nazil olmasını .xatırladan bir mərasimdir

Hənukəh», yaxud «İxlas və saflıq bayramı» – bu bayram dekabr ayında səkkiz gün» .۶ müddətində təşkil olunur və bu da yəhudi hekayələrindən birini xatırladır ki, onun əsasında Mekabirun mə'bədində yunanlılarla müharibə zamanında qalan yeganə .çırağın bir günlük yağa malik olduğu halda səkkiz gün yanmasını canlandırır

Purim» bayramı. Bu bayram fevral ayının axırlarında, yaxud mart ayının əvvəllərində» .٧ təşkil olunur; bu ibrani peyğəmbərlərindən biri olan Əstərin əli ilə miladdan beş əsr qabaq baş verən mö'cüzəni xatırladır. Haman şuş yəhudilərinin qırğın tarixini tə'yin etmək üçün püşk atanda Əstərin varlığı xatirinə düzülmüş mizlər tərsinə çevrildi və .Haman öz əli ilə hazırladığı dar ağacından asılı qaldı

Bu hadisə başqa cür də nəql olunmuşdur. Belə ki, Əstər ümumiyyətlə yəhudi bir qadın idi ki, İran padşahı Xəşəyar şah onu gözəlliyinə görə özünə arvad seçdi. Bu arvad əmioğlusu Mərdxay ilə birlikdə İran şahının yəhudilərin əleyhinə tədbir görmək istəyən Haman adlı vəzirindən padşaha mə'lumat verdi ki, guya ona xəyanət etmək məqsədi

vardır. Buna görə də şah Hamanı və onun ətrafındakıları, onun yəhudiləri dara asmaq .üçün hazırladığı iplə asdırdı

**ŞƏRİƏT HÖKMLƏRİ**

Sair şəriətlərdə olduğu kimi, yəhudi şəriətində də müxtəlif şər’i hökmlər vardır ki, :onlardan bə’zilərini nümunə olaraq qeyd edirik

;Əgər bir kəs başqa mə’budlara ibadət etsə, onu daşqalaq etmək lazımdır

Əgər bir kəs Yəhüvənin adına küfr etsə (küframiz bir söz desə,) onu daşqalaq etmək ;lazımdır

;Hər kəs Yəhüvədən başqası üçün qurbanlıq etsə, əlbəttə həlak olacaqdır

;Öz ata-anasına nifrin edən bir şəxs öldürülməlidir

Ata-anasının öyüd-nəsihətlərinə qulaq asmayan, israfçılıq edən və şərab içən övlad ;daşqalaq olunmalıdır

;Ana, bacı, övlad və digər məhrəmlərlə izdivac etmək haramdır və bunun cəzası qətldir

;Livat edən kişi və livat verən kişi, zina edən kişi və qadın öldürülməlidir

;Hər kəs şənbə günü işləsə, öldürülməlidir

Yəhudilər ilin müəyyən günlərində oruc tuturlar: Təşrin ayının ۹-cu və ۱۰-cu kipur günü ۲۵ saat ərzində, purin günü, kədliya günü, təşrinin ۳-cü günü, əqidiya günü, təşrinin ۵-ci günü, sidqiya günü, həsvan ayının ۶-cı günü, yəhuyaqim günü, kilyu ayının ۲۰-si telmiya .günü, təbisit ayının ۸-i fitnə günü və şəft ayının ۱۲-ci əzad günü

## YƏHUDİ ƏXLAQI

:Bu bölmədə yəhudilərin əxlaqi tövsiyələrindən bə’zilərini qeyd edirik

Qərib şəxsə əziyyət vermə və yadına sal ki, səfərdə sən də qərib olmuşdun»; «Miskin» və fəqir olan fəhlələrə zülm rəva görmə; onlar istər sənin qardaşların olsun, istərsə də qəriblərdən»; «Dul qadınlara və yetimlərə əziyyət etmə; əgər fəryad etsələr, mən onu qəbul edərəm və sizi öldürərəm, qadınlarınızı dul, övladlarınızı yetim qoyaram»; «Rüşvət alma və öz əhdinə vəfalı qal»; «Söz gəzdirmək üçün gəzmə»; «Batil və yalan xəbəri yayma»; «Ata-anaya ehtiram et ki, sənin ruzin artsın»; «Təvazökarlıq izzətin müqəddiməsidir»; «Təkəbbürdən dava-dalaşdan başqa bir şey hasil olmaz»; «Allahdan .«qorxmaq insanın ömrünü uzadar» və «Şər adamlarla əlbir olma

## SUAL VƏ TAPŞIRIQLAR

?Yəhudilərin mə’bədlərə hədiyyə etdikləri şeylər hansılardan ibarətdir .۱

?Nə üçün kənisaların əhəmiyyəti azalmışdır .۲

?Yəhudilər şənbə günü nə edirlər .۳

?Yəhudilər hansı günləri oruc tuturlar .۴

.Yəhudilərin ən mühüm bayramlarını qısa şəkildə izah edin

səh:۲۰۴

## QIRX BİRİNCİ DƏRS

### TÖVRAT

Tövrat, yaxud Əhdi-ətiq yəhudi qövmünün tarixini, məzhəbi nəğmələrini və hökmlərini əhatə edən nəzm və nəsr məcmuəsindən ibarətdir. Əhdi-ətiq bir neçə bölmədən ibarətdir ki, həzrət Musaya vəhy şəkilində nazil olan Tövrat yalnız onun bir qismini təşkil edir. Buna görə də Tövratın Əhdi-ətiqin hamısına aid edilməsi qələbə yönündən və Tövratın sair Bəni-İsrail peyğəmbərlərinə nazil olan səhifə və kitablarla .müqayisədə daha artıq əhəmiyyət kəsb etməsidir

Yəhudilərin və məsihilərin nəzərində Əhdi-ətiq müqəddəs kitab sayılır, amma onun kitablarının sayı barəsində ixtilaf mövcuddur. Bə’zi yəhudi alimləri Əhdə müəyyən hissələri əlavə etmişlər, halbuki başqaları həmin hissələri qəbul etmirlər; katolik məsihilərinin nəzərində mö’təbər sayılan nüsxələr protestantların nüsxələrindən ٧ .kitab artıqdır

Əhdi-ətiq kitabı ibri dilində, az bir qismi isə fəldani dilində yazılmışdır ki, hər ikisi də ərəb dili kimi sami dillər qrupundandır. Əhdi-ətiqin bir hissəsi yunan dilində mövcuddur ki, ibri nüsxəsindən tərcümə edilmişdir. Bu tərcümə Misir padşahı Filadelsofun dövründə (Miladdan ٢٥٨ il qabaq) ٧٢ nəfərin vasitəsilə tərcümə edilmiş və onun ibri nüsxəsi ilə müəyyən fərqləri də vardır. Katoliklərin qəbul etdiyi ٧ kitab da bu :tərcümədə movcuddur. Onlar aşağıdakılardır

Tubiya, Yəhudiyyət, Hikmət, Yəsu ibni Yəsrax, Bardək və birinci, ikinci məkatiban. .Yəhudilərin nəzərində ibri nüsxəsi daha mö’təbər sayılır

İbri nüsxəsinə əsasən, Əhdi-ətiq ٣٩ kitab və səhifədən ibarətdir. Onun əvvəldəki ٥ kitabı Tövratın əsfarları adı ilə tanınır və yəhudilərin e’tiqadına görə, eynilə vəhy kəlamıdır və Sina dağında Musaya nazil olmuşdur. İbri kəlməsi olan «Tövrat» şəriət, .yaxud dini tə’limlər mə’nasındadır

:Tövratın beşlik təşkil edən sifrlərindən hər biri xüsusi bir məsələni əhatə edir

Sifri peydayiş: Bu kitabda dünyanın və insanın xilqəti, Adəm ilə Həvvanın başına .١

gələn əhvalatlar, onların düçar olduqları xətalar və nəticədə behiştdən xaric olmaları ilə əlaqədar məsələlərə toxunulub. Adəmin övladlarının başına gələn hadisələr, Nuh tufanı, həzrət İbrahimin və onun nəslindən olan sair peyğəmbərlərin yə’ni, həzrət İshaqın, Yə’qub övladlarının, xüsusilə həzrət Yusifin əhvalatları nəql olunur. Bu sifr
.həzrət Yusifin vəfatını bəyan etməklə sona çatır

Sifri xuruc: Bu kitabda Bəni-İsrail qövmünün həzrət Yusifdən sonrakı tarixi, bu . ۲ qövmün həzrət Musanın zühuruna qədər başına gələn hadisələr, onların arasından Bəni-İsrailin Misirdən çıxaraq çöllərdə avara-sərgərdan qalmaları, məşhur ۱۰
.fərmanın mətni və Yəhuvə ilə əlaqədar çoxlu e’tiqadi məsələlər nəql olunmuşdur

Cifri e’dad: Bu kitabda Bəni-İsrail qövmünün ۱۲-lik təşkil edən əsbat bölgüsü üzrə . ۳ sayı, bu qövmün mənzillərinin, ictimai tərbiyə və tənzimlərinin tərtibə

səh:۲۰۵

salınması bəyan edilib. Bu sifrdə, eləcə də Bəni-İsrail qövmünün daxilində baş verən .bə’zi qiyamlar, Musanın dövründə baş verən hdisələr bəyan edilmişdir

Təsniyə sifri: Bu kitabda əvvəlki dörd kitaba nisbətən geniş şəkildə şərh olunan .۵ mühüm əqidəvi və tarixi bəhslər və şəriət hökmləri ixtisarla təkrar olunmuş, nübüvvət və Yuşe ibni Nunun canişinlik məsələsi ilə əlaqədar olunan bəhslər (həzrət Musanın .yerinə) işıqlanlırılır

Tövratın beşlik təşkil edən əsfarından sonra Bəni-İsrail peyğəmbərlərinin sair kitabları və səhifələri Əhdi-ətiqin sonrakı bölmələrini təşkil edir və onun ۱۲ bölməsi Bəni-İsrail :qövmünün tarixinə həsr edilmişdir

Yuşe ibni Nunun səhifəsi; Bu, həzrət Musa (ə)-ın canişini olan Yuşe ibni Nunun .۱ .tarixinə şamildir

Hakimlər kitabı; Burada padşahlar tə’yin olunmazdan qabaq Bəni-İsrail qazilərinin .۲ .öhdəsinə aldıqları işlər və tarixlər qeyd olunub

Rut kitabı; Bu, Rut adlı qadının tərcümeyi-halını bəyan edir ki, o, Əvbiyənin anası idi. .۳ .Əvbiyə də Yəsanın, o da Davudun atası idi

Səmuil peyğəmbərin birinci kitabı; Bu Bəni-İsrail peyğəmbərlərindən olan Səmuil .۴ .peyğəmbərin tarixi və Şaulun (Talut) padşahlığa seçilməsini bəyan edir

Səmuil peyğəmbərin ikinci kitabı; Bu da həzrət Davud (ə)-ın hakimiyyətini bəyan .۵ .edir

Padşahların birinci kitabı; Bu, həzrət Davud (ə)-ın, həzrət Süleyman (ə)-ın və onların .۶ .canişinlərinin hakimiyyət dövrünü bəyan edir

Padşahların ikinci kitabı; Bu da Bəni-İsrail padşahlarının Buxtunnəsərin hücumundan .۷ .və onun Babildən qovulmasına qədərki tarixini bəyan edir

Təvarixi-əyyamin birinci kitabı; Bu, Bəni-İsrailin nəsəbnaməsini və bu qövmün .۸ .tarixini həzrət Davud (ə)-ın vəfatına qədərki təkrarını bəyan edir

Təvarixi-əyyamin ikinci kitabı; Bu, həzrət Süleymanın və ondan sonrakı padşahların .۹
.Babildən qovulduqları vaxta qədərki tarixini bəyan edir

Əzra’ kitabı; Bu, Yerusəlimin (Beytül-müqəddəsin) yenidən abadlaşdırılması, . ۱۰
.Yəhuyanın azad edilməsi və onun Üzeyrlə birlikdə Yerusəlimə qayıtmasını bəyan edir

Nəhmya kitabı; Yəhudilərin Yerusəlimə qayıdaraq bu şəhəri yenidən . ۱۱
.abadlaşdırması Nəhmyanın dilindən bəyan edilir

İstər kitabı. Burada yəhudilərin məhv olma təhülkəsinin aradan qaldırılması, İran . ۱۲
.padşahı Xəşayarın yəhudi arvadı olan İstərin vasitəçiliyi bəyan olunur

:Sonrakı beş kitab hikmətli sözlər, münacat və şe’rdən ibarətdir

Əyyub (ə)-ın kitabı; Burada Əyyub peyğəmbərin düçar olduğu imtahanlar və . ۱
.çətinliklər, bu çətinliklər qarşısında onun davranışı bəyan olunub

.Davud (ə)-ın Zəburu (Məzamir); Bu, həzrət Davud (ə)-ın münacatlar məcmuəsidir .۲

Əmsali Süleyman kitabı; Bu da Süleyman peyğəmbərin hikmətli kəlamlarından . ۳
.ibarətdir

Camieyi Süleyman kitabı; Bu, həzrət Süleyman peyğəmbərin təxəllüsü olan Camiyə .۴ .ibni Davudun adıdır və bu kitab varlığa və həyata bədbinliklə yanaşır

Süleymanın qəzəlləri kitabı. Bu da Süleyman peyğəmbərin dilindən söylənən aşiqanə .۵ .qəzəllər və şe’rlərdən ibarətdir

Nəhayət sonrakı ۱۷ kitab peyğəmbərlərin Bəni-İsrail qövmü barəsində qabaqcadan verdikləri xəbərlər və bu qövmün başına gələcək çətinliklərlə əlaqədar varid olan .xəbərdarlıqlardan ibarətdir

:Bu ۱۷ kitab aşağıdakılardır

Əşqiya peyğəmbərin səhifəsi, İrmiya peyğəmbərin səhifəsi, İrmiya peyğəmbərlərin mərsiyələr kitabı, Həzqiya peyğəmbərin səhifəsi, Daniyal peyğəmbərin səhifəsi, Ruşəh peyğəmbərin səhifəsi, Yuil peyğəmbərin səhifəsi, Amil peyğəmbərin səhifəsi, Üvəbədya peyğəmbərin səhifəsi, Yunis peyğəmbərin səhifəsi, Mikap peyğəmbərin səhifəsi, Nahun peyğəmbərin səhifəsi, Həbquq peyğəmbərin səhifəsi, Səfniya peyğəmbərin səhifəsi, Həcci peyğəmbərin səhifəsi, Zəkəriyyə peyğəmbərin səhifəsi, .Məlaki peyğəmbərin səhifəsi

Qeyd olunanlar Əhdi-ətiqin ümumi şəkildə təqdim olunması idi ki, yəhudilərin Tövrat və sair müqəddəs kitablarını ehtiva edir. Amma cavab verilməli ən mühüm sual bundan ibarətdir ki, bu müqəddəs kitabın həqiqi e’tibarı nə dərəcədədir? Görəsən onda olan mətləblər doğrudanmı Allah kəlamıdır və Bəni-İsrail qövmünün alimləri tərəfindən təhrif edilməyibdir? Onların şəxsi mənafeləri, xəyal və təsəvvürləri ilə, həmçinin Bəni-İsrail qövmünün nəfsani istəkləri ilə qarışmayıbdır (onlar həmişə maddi bir Allaha malik olmaqlarını arzu edirdilər) və nəhayət görsən bu kitab həqiqət ?yolundan çıxmayıbdırmı

Əgər Qu’ranı əsas me’yar götürsək, şübhəsiz, ikinci ehtimal doğrudur. Çünki Qur’ani-Kərimdə kitabın təhrif edilməsi yəhudi qövmünə aid edilir.(۱) Başqa bir yerdə isə Qur’an aşkar şəkildə onların Allahın kitabını öz tərəflərindən yazaraq Allaha aid (etdikləri bəyan olunur.(۲

Yəhudilər Tövratı (müqəddəs kitabın hamısını) ilahi vəhy hesab edirlər. Amma həqiqət bundan ibarətdir ki, tarixi sənədlər əsasında Tövratın şəhadət sandığında, yaxud Əhd tabutunda saxlanan əsil nüsxəsi Buxtunnəsərin ikinci hücumunda aradan getmiş və o ikinci dəfə olaraq, Miladdan ۴۵۷ il qabaq yazılmışdır. Aydındır ki, bu qədər zaman fasiləsi ilə həmin kitabın düzgünlüyünə xatircəmlik tapmaq olmaz. Bundan əlavə, Təsniyə sifrində həzrət Musanın vəfatı nəql olunduğuna görə şübhəsiz ki, bu kitab həzrət Musanın öz kəlamı ola bilməz; məlumdur ki, başqaları tərəfindən yazılmışdır. Bundan daha mühüm məsələ budur ki, bu kitabda mövcud olan çoxlu mətləblər Allaha heç vaxt aid edilə bilməz və onları vəhy hesab etmək olmaz; ilahi peyğəmbərlər heç vaxt bu kimi sözlər deyə bilməzlər. Məsələn, Həzrət Nuhun həddindən artıq məst olmaq əhvalatı; belə ki, səh:۲۰۷

---

۱- [۵۱] Maidə-۱۳ və ۱۴, Nisa-۴۶.

۲- [۵۲] Bəqərə-۷۹.

məstlik nəticəsində öz övrətini açmış və bu işi özü də hiss etməmişdir(١) Eləcə də həzrət Nuhun kəskin sərxoşluğu, öz iki qızı ilə yaxınlıq etməsi və öz atalarından hamilə olmaları(٢) Harun tərəfindən danaya pərəstiş və camaatın da bu pərəstişə də’vət (edilməsi(٣

Həzrət Süleyman və Davuda şirk və azğınlıq nisbəti vermək,(۴) Yə’qubun Allahla (güləşərək onu məğlub etməsi.(۵

**SUAL VƏ TAPŞIRIQLAR**

?Əhdi-ətiq neçə bölmədən ibarətdir .١

?Cifri peydayiş və Sifri xuruc hansı bəhslərlə əlaqədardır .٢

?Əhd tabutu nədir və o hansı talehə malik olub .٣

.Tövratın təhrif olunmasını göstərən nümunələrdən bir neçəsini bəyan edin



---

.Sifri-peydayiş, ٩-cu bab, ١٩-٢۵-ci ayələr [۵٣] -١
.Sifri-peydayiş, ١٩-cu bab, ٣١-٣٢-ci ayələr [۵۴] -٢
.Sifri-xuruc, ٣٢-ci bab [۵۵] -٣
.Padşahların birinci kitabı ١١-ci bab [۵۶] -۴
.Sifri peydayiş, ٣٢-ci bab, ٢۵-٣٢-ci ayələr [۵٧] -۵

## QIRX İKİNCİ DƏRS

### TƏLMUD

Tövratdan sonra yəhudi qövmünün ən mühüm dini mənbəsi Təlmud kitabıdır. Təlmud kəlməsi tə’lim mə’nasında olub, yəhudilərin şəriət tə’limlərinin geniş şəkildə izahı, Tövratın təfsiri mənasını daşıyır. Onu bir yerə yığıb tənzim edənlərin inancına görə, Musa (ə) beş sifr qalibində gələn yazılı şəriət hökmlərini gətirməmiş, əksinə, ondan əlavə şifahi olan bir şəriət də yadigar qoymuşdur ki, müəllimdən şagirdə, nəsildən nəsilə ötürülərək uzun zaman dövründə yayılmışdır. Qədim yəhudilər bu şifahi şəriəti vəhy kimi ilə qəbul edərək, onun hökmlərini ilahi hökmlər, icra olunmasını isə Tövrat kimi vacib bilirlər. Bu şifahi şəriətlər Təlmud ünvanı ilə bir yerə yığılan bəhslərdən .ibarətdir

### TƏLMUDUN YAZILMASI

Miladın ٦٩-cu ilində Beytül-müqəddəs (Yerusəlim) şəhəri Roma imperatoru Titusun ordusu tərəfindən mühasirəyə alındı. Bir il sonra yə’ni, ٧٠-ci miladı ilində romalıların ordusu tərəfindən işğal olundu və dağıdılaraq viranəyə çevrildi. Şəhər əhalisi çöllərə və digər yerlərə qaçaraq didərgin düşdülər; Süleyman heykəli adlı məşhur mə’bəd də .viran edildi

Romalılar tərəfindən şəhərin mühasirəyə alındığı zaman yəhudi kahinlərindən biri (Rəbilər) Mühəlla ibni Zəkai romalıların mühasirəsindən qaçıb sahildə yerləşən Yəbnə şəhərinə getdi və orada ibri dilində Midras adlanan bir növ mədrəsə təşkil etdi. O, qərara almışdı ki, həmin yerdə öz qövmünün ədəbiyyat həyatını həzrət Musa (ə)-ın ayininin üsullarını və şəriətlərini tənzim edib bir yerə yığmaqla möhkəmləndirsin. Buna görə də öz mədrəsəsi üçün müxtəlif şəhər və məntəqələrdən şagirdlər topladı; müqəddəs kitabın təfsir olunması, İsrail rəvayətlərinin və hədislərinin toplanıb yığılması ilə məşğul oldu. Mühəlla alimlərdən ibarət bir şura təşkil etdi və yəhudilərin illik təqvimini və ayların tarixini yazıb qeydə almağa başladı. Daha sonra yəhudi millətinin qayda-qanunlarını yazmağa başladı. Dünyanın sair ölkələrində olan yəhudilər bu şuranı rəsmi şəkildə qəbul edərək, onun şər’i nəzəriyyələrini - öz dinlərinin qayda-qanunları barədə olan şər’i nəzəriyyələri mö’təbər hesab etdilər.

Bundan sonra Patriyark ləqəbi ilə tanınan bu şuranın rəisi romalılar tərəfindən də rəsmi şəkildə tanındı. Patriyarklar miladın ۴۲۵-ci ilinə qədər yəhud qövmünün dini .rəhbərliyini öhdələrinə almışdılar

Yəbnə şəhərinin mədrəsləri ۶۰ il müddətində davam etdi; Tövratın təfsirindən əlavə, Bəni-İsrail qövmünün yazılmamış rəvayətlərinin, xəbərlərinin bir yerə yığılması ilə başlandı ki, nəhayət Roma imperatoru Hadriyanusun qanlı müharibələri zamanı bu mədrəsələr bağlandı. Burada elmi fəaliyyətlə məşğul olan yəhudi alimləri Xəlil (Cəlilə) şəhərinə getdilər və orada yeni bir mədrəsinin bünövrəsini qoydular. Bu mədrəsədə ,yəhudilərin görkəmli alimlərindən bir neçəsi

o cümlədən Rəbi Mayir, Rəbi Yəhud bu müddət ərzində mədrəsələrdə yazılan Tövratın təfsirlərindən, eləcə də Bəni-İsrail qövmünün yazılmamış mətləb və xəbərlərindən istifadə edərək, Mişna (yə'ni, ikinci nüsxə) adı ilə məşhurlaşan bir kitab yazmağa başladılar. Mişna altı fəsildən ibarət olan bir məcmuədir ki, Tövratın təfsiri ilə əlaqədar dörd minə qədər dini məsələ, onun tərcüməsi, keçmiş dövrlərdə olan rəbbani alimlərin əhkam və fətvalarından ibarətdir ki, alimlərin yazdığı şərh, haşiyə və yozumları özündə əhatə edir. Təlmudun əsas bölməsini təşkil edən bu kitab yəhudi qövmü arasında elə yüksək məqama malikdir ki, hətta Tövratla eyni səviyyədə dayanır. Mişnanın yazılması ٢٣٠-cu miladı ilində sona çatdı yə'ni, Tövratın Üzeyir (Əcra) vasitəsi .ilə yazıldığından ٧ əsr sonra

:Mişnanın altı babı aşağıdakı ardıcıllıqladır

Məvid, yaxud vaxtlar; Bu fəsil bayramlar, şənbə günü və sair müqəddəs günlərlə .٢ əlaqədardır; hər bir münasibətlə əlaqədar keçirilməli olan mərasim və bayramların .necə təşkil olunmasını bəyan edir

Naşin, yaxud qadınlar; Bu fəsil evlənmə, boşanma, ailə münasibətlərində xəyanət, .٣ həmçinin qadın və kişinin öhdəsində olan hüquq və vəzifələri əhatə edir, bundan əlavə .irs, vəsiyyət, nəzr və and kimi mövzulara da aiddir

Nəziqin, yaxud zərərlər; Bu fəsildə cəza qanunları, şəhər qanunları və cinayət .٤ .qanunlarından bəhs edilir, eləcə də qisas, hüdud və diyə məsələlərindən danışılır

Qüdaşim, yaxud müqəddəslər; Bu fəsildə qurbanlıq və eləcə də mə'bədə hədiyyə .٥ olunan hədiyyə və nəzirlərlə əlaqədar olan bütün hökmlər, onların təqdim olunma mərasimi, şərtləri və növlərindən danışır, nəzr və qurbanlıq e'tiqadının məqamını .aşkar edir

Təharut, yaxud təharətlər. Bu fəsil cism, libas, qablar, mənzil avadanlıqlarının paklıq .٦ hökmləri, geyilməli və yeyilməli şeylərdə təharət və nəcasət, haram-halal .məsələlərinə aiddir

Mişnanın malik olduğu əhəmiyyətə diqqət yetirməklə, Bəni-İsrail alimləri onu

kamilləşdirib şərh və izah etmişdir. Bu şərh yazıldıqdan sonra Qomara adlı bir kitab yarandı və Qomaranın Mişnaya əlavə edilməsindən sonra Təlmud kitabı meydana gəldi. Qomara, məzmunundakı müxtəlif iki səbkiyə görə Fələstin və Babil mədrəsələrinin alimləri vasitəsi ilə yazıldı. Buna görə də Təlmud kitabı iki adla tanınır: Yerusəlim Təlmudu, Babil Təlmudu. Ad qoymada mövcud olan bu fərq sadəcə olaraq .qomaraların təfavütünə görədir, çünki hər ikisində Mişna eyni dərəcədədir

## TƏLMUD TƏ’LİMLƏRİNDƏN BƏ’Zİ NÜMUNƏLƏR

Aydın oldu ki, Təlmud yəhud qövmünün pərakəndə, didərgin düşdüyü dövrdə, yadellilərin işğalı altında olan bir şəraitdə yazılmışdır. Şübhəsiz, belə bir şəraitdə sair qövmlərə qarşı kin-küdurət, yadlara olan nifrət həddini aşmışdı; xüsusilə bu illər sair millətlər tərəfindən məğlubiyyətə, sərgərdançılığa düçar olan bir qövm üçün acı təcrübə olmuşdur. Digər tərəfdən yəhudilərdə qövmi ayinlər, sünnələrin dirçəldilməsi, iqtidar və şan-şöhrətin yenidən artırılması ruhiyyəsi daha da güclənirdi. Nəhayət ardıcıllar arasında həmrə’ylik və vəhdətin qorunub saxlanılması, ardıcılların dindən çıxmasının qarşısının alınması, sair dinlər və qövmlər içərisində itib-batmağın qarşısının alınması meylləri get-gedə artırdı. Təlmud tə’limlərinə nəzər salaraq, yuxarıdakı hər üç cəhəti aşkar şəkildə müşahidə etmək olar. İndi isə bu kitabın bə’zi hissələrinə yetirək:

۱. Bu minnət yəhudi ruhlarına qoyuldu ki, Allahın bir hissəsi olsunlar. Bu nəfslər Allahın cövhərindən pöhrələnirdi; necə ki, övlad atanın zatından və cövhərindən çıxar.

۲. Yəhudi ruhu Allahın yanında yer üzərində yaşayan sair millətlərin ruh və nəfslərindən daha yüksək məqama malik olub, daha məqbul sayılır. Çünki bu millətlərin nəfsləri şeytandan ayrılıb, heyvanların və cansızların nəfsləri ilə oxşardır.

۳. Qəti qələbənin bayrağı ucaldılan zaman, məsih bütün millətlərdən razı olar, amma məsihiləri onların arasından qovar. O zaman İsrail övladları yüksək var-dövlət sahiblərinə çevriləcəklər, çünki millətlərin yeraltı-yerüstü sərvətləri və xəzinələri onların əlinə keçəcək. Bu xəzinələr böyük sarayları doldurar; hətta üç yüz yük dəvəsi bu xəzinələrin və qapıların açarlarını daşımaq üçün kifayət etməz. O zaman hamı yəhudiliyə iman gətirər, amma bu məsihilərin bu ne’mətdən heç bir payı yoxdur; əksinə onların kökü yer üzərindən kəsilər, çünki onlar şeytan nəslindəndir. Məsiha gələn zaman yəhudi milləti başqa millətlərə hakim olacaqlar.

۴. Yəhudilər Allahın nəzərində mələklərdən də sevimlidir. Buna əsasən, əgər bir şəxs bir yəhudiyə sillə vursa, sanki Allahın izzətinə zərbə varid etmiş olur; insanla heyvanın arasında olan dərəcə fərqi yəhudi ilə qeyri-yəhudinin fərqi kimidir. Yəuhidilər bayramlarda itə yemək verə bilər, amma qeyri-yəhudiyə yemək verməməlidir.

.Seçilmiş qövm yalnız yəhudilərdir və sair qövmlər heyvanlar kimidir .۵

Əgər yəhudilər olmasaydı, şübhəsiz yer üzündən bərəkət çəkilərdi; yağış yağmazdı, .۶
günəş saçmazdı. Deməli israillilər olmadan yer üzünün sair millətləri həyat sürməyə
.qadir deyillər

Allah yəhudi kişinin yəhudi qadınla zina etməsini haram etmişdir, lakin əcnəbi . ۷
.qadınlar onlara halaldır

٨. Yəhudilərdən başqalarının mal-dövlətini oğurlamaq, onlar hiss etmədiyi təqdirdə caizdir. Çünki başqalarından oğurluq həqiqətdə oğurluq deyil, yəhudilərin öz mallarını özlərinə qaytarmaq deməkdir.(١)

## SUAL VƏ TAPŞIRIQLAR

١. Təlmud nədir?

٢. Təlmud necə yazılmışdır və neçə hissədən ibarətdir?

Mişnanın neçə fəsli vardır və onların adlarını qeyd edin.

Təlmud tə'liminin nümunələrindən bir neçəsini bəyan edin.



---

١- [٥٨] Əcad Nohihəz, səhyun hakimlərinin protokolları, doktor Əhməd Şəlbi: Müqari nətl ədyan ١-ci cild, Əl-yəhudiyyə, Qazi Məhəmməd Fərid, Ən-nişatus-sirriyyil-yəhudiyyi.

## QIRX ÜÇÜNCÜ DƏRS

## YƏHUDİ FİRQƏLƏRİ

### İŞARƏ

Yəhudilər sair xalqlar kimi müxtəlif firqə və quruplara bölünmüşdür. Yəhudi qövmü arasında təfriqənin ən ümdə amili yəhudi dininin şifahi tə'limlərinə (Təlmuda), eləcə də Əhdi-qədimə (Ətiqə) artırılan risalələrə e'tiqad bəsləyib-bəsləməməklə əlaqədardır. Eləcə də axirət aləminə e'tiqad bəsləmək və ya bəsləməmək yəhudilərin firqələrə ayrılmasının digər bir amili hesab olunur.

Bu dərsdə yəhudi firqələrinin ən mühümlərini bəyan edəcəyik.

### 1. FƏRİSYUN

«Fərisyun» kənara çəkilənlər, ayrılanlar mə'nasındadır. Bu ad həmin firqəyə «müxaliflər» tərəfindən verilmişdir. Amma bu firqənin ardıcılları özlərini «Əhbar» yə'ni, rəfiqlər və dostlar, yaxud Rəbbanilər adlandırırlar.

Bu firqənin ardıcılları inanırlar ki, Tövratın hamısı əzəl gündən xəlq olunmuş və Musaya nazil olan müqəddəs lövhələrdə yazılmışdı. Buna əsasən, həzrət Musanın əsrindən sonra Tövratın yenidən yazılması həmin yazıların təkrar olunması kimidir. Fərisyunların nəzərinə görə, Tövrat təklikdə müqəddəs kitabın hamısı deyil, əksinə Təlmud da müqəddəs kitabın bir hissəsidir. Fərisyunun nəzərincə, yəhudi xaxamları mə'nəvi hakimiyyətə və isмət məqamına sahibdirlər; onların danışıqları Allah tərəfindən ilham olunur. Həmçinin deyirlər ki, hər bir mö'min xaxamların kəlamını şəriət hökmü kimi qiymətləndirməlidir. Çünki onların sözləri Allahın buyuruğudur. Buna əsasən, əgər xaxam sağ əlim sol əlimdirsə desə, yaxud bunun əksinə söyləsə, onu təsdiq et və onunla mübahisə etmə.

Fərisyun axirət aləminə, məhşərə, ölülərin dirilməsinə və qiyamət gününə e'tiqad bəsləyir. Onlar inanırlar ki, ölüb dünyadan getmiş saleh şəxslər də Məsihanın qiyamı zamanı diriləcəklər ki, o həzrətin xidmətində olsunlar. Fərisyunlar qurbanlıq ayinlərinə inanmırlar və onların əksəriyyəti zöhd və sufilik halında yaşayır, izdivacdan qaçırlar.

Fərisyun İncildə həzrət İsa (ə)-ın ən qatı düşmənləri kimi təqdim olunaraq, Qeysərin yanında bədbinlik icad edən amil və İsa (ə)-ın dara çəkilməsi ilə nəticələnən bütün .məkrli planların səbəbkarı hesab olunurlar

### SƏDUQİYYUN .٢

Bu firqə həzrət Süleymanın zamanında böyük kahin olan Səduq, yaxud eramızdan əvvəl üçüncü əsrdə yaşamış həmin adda başqa bir kahinə mənsub edilir. Deyirlər ki, Səduq, Üzeyiri Allahın oğlu kimi təqdim edən şəxsdir ki, Qur'anda da buna işarə (edilir.(١

səh:٢١٣

---

.Tövbə-١٣٠) (İbni Həzm, Əl-fəsli fil-miləli vəl əhvai vən-nihəl, ١-ci cild [٥٩]-١

Səduqiyyun şifahi tə’limlər olan Təlmuda e’tiqad bəsləmir və inanırlar ki, bu kitab Fərisiyyun alimləri tərəfindən yazılmışdır və müqəddəs kitab deyildir. Səduqiyyunun Fərisiyyunla olan ixtilaflarından digəri səduqilərin qiyamətə, axirət həyatına, qiyamət gününün hesab-kitabına, behişt və cəhənnəmə e’tiqad bəsləməməsidir; onlar inanırlar ki, insanlar bütün işlərin mükafat və cəzasını məhz bu dünyada görəcəkdir. Əgər yaxşı iş sahibi olarsa, xeyir və bərəkətlə bu həyatdan mükafat alır, əgər çirkin işlər görərsə, müsibətlərə, acınacaqlı hallara giriftar olar. Səduqiyyun mələklərin və .şeytanın varlığına, ilahi qəza və qədərə, və’də verilən Məsihaya da inanmırlar

Səduqiyyun ictimai rəftarda da Fərisiyyunla fərqlənirlər. Çünki Səduqiyyun müxtəlif millətlər və sair din ardıcılları ilə dostluq rabitələrinin bərqərar edilməsinə inanırlar. Halbuki, Fərisiyyun yəhudilərdən başqasına düşmən gözü ilə baxır, hətta sair yəhudi .firqələrinin ardıcıllarına da mənfi hisslərlə yanaşırlar

### SAMİRİYYUN .٣

Bu yəhudi qurupu Fələstinin şimalında yerləşən Samirə şəhərində məskunlaşmış və hal-hazırda da Nablos şəhərində yaşayırlar. Onlar bu şəhəri müqəddəs şəhər və Süleymanın mə’bədinin yeri hesab edir, öz qiblələrini o istiqamətdə qərar verirlər. Samiriyyun Allah-taalanın vəhdətinə, Musanın nübüvvətinə və axirət aləminə e’tiqad bəsləyirlər. Onlar müqəddəs kitabın məcmusundan yalnız Tövrata (beşlik təşkil edən sifrlərə) Yuşenin səhifəsinə, davərlər kitabına inanır, Əhdi-ətiqin qalan hissəsini və Təlmudu rəsmi olaraq qəbul etmirlər. Bu firqə Musadan sonrakı peyğəmbərlərin nübüvvətini və Yuşeni qəbul etmir, özlərini Yə’qub övladlarının varisləri və Tövratın .himayədarları adlandırırlar

### İSİNİYYUN .۴

Bu firqə miladdan dörd əsr qabaq yaranmış, e’tiqad və adət-ən’ənlərində sair yəhudi firqələri ilə əsaslı fərqlərə malikdir. Onların sair yəhudi firqələri ilə olan ixtilaflarından biri də qurbanlığı, hədiyyələri və nəzrləri haram hesab etmələridir; halbuki bu məsələ sair yəhudi firqələrinin ən mühüm ibadətidir və Lavinyan sifri əsas e’tibarı ilə bu mövzuya məxsusdur. Amma digər tərəfdən qüsl və paklanmağa çox tə’kid edirlər. Buna görə də onlar İsiniyyun adlandırılmışdır; onun mə’nası pakizələr və qüsl edənlər

.deməkdir

Bu firqənin ardıcılları bir qövmün başqa bir qövmə üstün olması və irqli fərqlərə inanmırlar və bütün qövmlər arasında bərabərliyə qaildilər. Onlar inanırlar ki, insanlar daimi sülhdə olmalı, zülm, təcavüzkarlıq və müharibədən uzaq yaşamalıdır; bu firqənin .fərdi və xüsusi mülkiyyətə də e'tiqadı yoxdur

### QURRAVUN, YAXUD ƏNANİYYUN .۵

Bu firqə miladın səkkizinci əsrində Bağdad alimlərindən olan Ənan ibni Davudun vasitəsilə yaradılmışdır. Bu firqənin adı da onun banisinə mənsub edilərək Ənaniyyun adlandırılmışdır. Amma Qurravun adlandırılmalarının səbəbi də yalnız Əhdi-ətiqin əsfarına inanmalarıdır. Qurravun məqra kökündəndir ki, yəhudilərin arasında Əhdi-ətiqin əsfarına deyilən "yazılı" mə'nasındadır. Buna əsasən Qurravun, yaxud Ənaniyyun Təlmudun hökmlərinə, Rəbbanilərin və xaxamların tə'limlərinə, onun müqəddəs kitab olmasına və şəriət hökmü daşımasına inanmırlar; yalnız Əhdi-ətiqi .müqəddəs kitab kimi öz əqidə və əməllərinin bünövrəsi qərar verirlər

Bu firqə ardıcılları Fərisiyyunların əksinə olaraq, yəhudi alim və xaxamların sözlərinə əməl etmirlər və onları mə'sum saymırlar. Buna görə də onlar şəriətdə dərk, təhqiq və ictihad qapısını açıq hesab edirlər. Həmin səbəbə görə də çoxlu şəriət hökmlərində sair .yəhudi firqələri ilə ixtilaflıdırlar

### QƏBALƏT .۶

Bu firqə Təlmud düşüncələrinin əsasında, Əflatun, Hindistan fəlsəfəsi və Zərdüşt təfəkkürünün tə'sirindən yaranmışdır. Onlar Təlmuddan təsirlənərək, batini təfsir və tə'villə formalaşmış, məxfi hikmət adı ilə məşhurlaşmış, daha sonra isə Qəbalə adı ilə tanınmışlar. Arami lüğəti olan Qəbalə «qəbul» mə'nasındadır ki, bu da Təlmudun şifahi rəvayətlərinin qəbul edilməsinə işarədir. Bu firqə xaxam Sə'nan ibni Yuşanın vasitəsi ilə yaradılmışdır. Onun ardıcılları inanırdılar ki, o, ۱۳ il Fələstin mağaralarında təklikdə və məxfi şəkildə yaşamış, daha sonra isə kəşf, ilham və işraqla bütün yerlər və .asimanlar onun üçün aşikar olmuşdur

### SUAL VƏ TAPŞIRIQLAR

?Fərisiyyun hansı əqidəyə malikdir .۱

?Sədiqiyyun kimlərə deyilir .۲

?Hansı firqənin Yuşedən sonrakı peyğəmbərlərə əqidəsi yoxdur .۳

?Hansı firqə qurbanlıq və hədiyyələri haram hesab edir .۴

?Qurravun nə üçün belə adlandırılmışdır .۵

?Qəbalə əqidəsini bəyan edin

səh:۲۱۵

## QIRX DÖRDÜNCÜ DƏRS

## SİONİZM

### İŞARƏ

Bu dərsdə bəhsimizin mövzusu dinlərin tanınması ilə əlaqədar əqidəvi və kəlami mətləblər olmasına baxmayaraq, yəhudilərin talehi sionizmin yaranması ilə sıx rabitədə olduğundan, sionistlərin öz siyasi hədəfləri istiqamətində yəhudilikdən və yəhudi tə’limlərindən geniş istifadə etdiklərindən, sionist protokolları vasitəsilə yəhudilər üçün yeni ideologiya nəzərdə tutduqlarından və nəhayət yəhudilərlə ümumi tanışlığı təkmilləşdirməkdən ötrü sionizmin mahiyyətini və tarixini qısa şəkildə .araşdırırıq

### ?SİONİZM NECƏ YARANMIŞDIR

Yəhudi qövmünün bir tərəfdən ardıcıl sərgərdançılıqları, digər tərəfdən də müqəddəs kitablarında və’dəsi verilən diyara getməklə əlaqədar təkrar və’dələrin verilməsi həmişə onların həmin ərazilərə çatmaq arzularında olmasına səbəb olmuşdur ki, orada öz müstəqil hökumətlərini tə’sis etsinlər. Tarix boyu bir neçə dəfə Fələstin diyarında məskunlaşaraq, orada Süleyman heykəli adlı məşhur mə’bədi yaratmalarına görə, həmin yer yəhudilərin nəzərində müqəddəs torpaq, yaxud və’dəsi verilən yer kimi qələmə verildi. Buna görə də həmişə və’də verilən yerlərə getmək, .Fələstinə getmək kimi məşhurlaşdı

Bu arzular keçmiş əsrlərdə, xüsusilə İslam dininin Fələstində hakimiyyəti zamanı, sadəcə olaraq, müqəddəs yerin ziyarəti kimi qiymətləndirilirdi və dünyayın sair məntəqələrindən olan yəhudilər öz müqəddəs məkanlarını ziyarət etmək üçün oraya gedirdilər. Fələstində, eləcə də dünyayın sair məntəqələrində yaşayan yəhudilər heç vaxt Fələstini işğal edib orada müstəqil bir dövlət yaratmaq və müsəlmanları oradan qovmaq fikrində deyildilər. Çünki islamın bu diyara hakim olduğu dövrlərdə müsəlmanlarla yəhudilər qarşılıqlı anlaşma və firavanlıq şəraitində yaşayırdılar. (Amma məsihilərin hakimiyyəti dövründə yəhudilər ən ağır təzyiqlər atlında kütləvi şəkildə qırğına mə’ruz qalırdılar. Bu dövrlərin hamısında yəhudi dövlətinin tə’sis olunması arzusu sadəcə bir e’tiqad şəklində mövcud idi ki, axirəz-zamanda və həzrət

Məsihanın zühurundan sonra ümumdünya bir dövlət tə’sis olunacaq, hamı yəhudiliyi qəbul edəcəkdir. Hətta “səhyun aşiqləri” adı altında hərəkatın başlandığı ۱۹-cu əsrdə onların məqsədi sion dağları ətrafında yəhudi mədəniyyəti və e’tiqadının yayılması üçün ruhani bir mərkəz yaratmaq istəyirdilər; bu dövrə qədər müstəqil yəhudi dövləti .tə’sis etmək üçün siyasi ideya da mövcud deyildi

səh:۲۱۶

Amma ۱۹-cu əsrin axırlarında siona(۱) qayıdış təfəkkürü Teodor Hertzel (۱۸۶۰-۱۹۰۴) tərəfindən siyasi bir ideya kimi irəli sürüldü və bununla da dünyada sionizm hərəkatının əsası qoyuldu. ۱۸۹۷-ci ildə İsveçrənin Bal şəhərində ilk konfrans təşkil edildikdən sonra bu hərəkat başlandı və bunun ardınca sionist təşkilatı yaradıldı ki, yəhudilərə və’də verilən ərazilərə qayıdışın və müstəqil yəhudi dövlətinin tə’sis .olunması üçün lazım olan ilkin işlər görülsün

Teodor Hertzel israillilərin sionist tədbirlərinin əsası olan “yəhudi dövləti kitabı”nda :aşağıdakı üç ilkin fərzi nəzərə almışdır

Dünyanın hər bir yerində yaşayan yəhudilər hansı ölkədə olmaqlarından asılı . ۱ .olmayaraq, ümumi bir milləti təşkil edirlər

.Yəhudilər tarix boyu hər bir yerdə əzab-əziyyətlərə mə’ruz qalmışlar .۲

Yəhudilər harada və hansı millətlərin arasında yaşamasından asılı olmayaraq, heç .۳ .bir xalqa qarışıb onların içərisində assimiliyasiya olmamalıdırlar

Hertzel bu üç müqəddimə əsasında tövsiyə edib deyir: “Yəhudilər sair millətlərə qarışaraq aradan getməməlidir; yəhudi mədəniyyəti və dinini yaymaq üçün bir mərkəzə ehtiyaclı olduğumuz kimi, yəhudi dövlətimizi yaratmağa da ehtiyac duyuruq ki, dünyanın bütün yəhudiləri orada bir yerə toplaşsınlar. Bu dövlət gərək boş və iddiası olmayan bir yerdə təsis olunsun.” Əlbəttə boş və iddiasız yer deyildikdə, məqsəd bu deyildir ki, yerli əhalisi və sakinləri olmayan bir yer tapılsın. Həqiqətdə bu söz həmin ərazinin yerli əhalisinə e’tinasızlıq və diqqətsizliyin və o dövrə hakim olan istismarçı təfəkkür-tərzinin bəyanedicisi idi. Bu müddəanın şahidi də budur ki, Eynşteyn Vaizmendən(۲) «Əgər Fələstin yəhudilərə verilsə, ərəblər nə etməlidirlər?» deyə soruşduqda o, belə cavab verir: “Hansı ərəblər? Onlar elə də nəzərə çarpan millət deyillər.”(۳) Qoldamayr ۱۹۶۹-cu ilin iyun ayının ۱۵-də belə bir e’lan verir: “Fələstin mövcud deyildir; belə təsəvvür olunmasın ki, nə vaxtsa Fələstin xalqı mövcud olmuşdur və biz də gəlib onları buradan qovmuşuq. Onlar ümumiyyətlə mövcud (olmamışlar.(۴

Ümumiyyətlə, sionistlər həmin dövrdən e’tibarən, yəhudilərin dini əqidəsindən istifadə

edərək, fələstinlilərin torpaqlarını alıb onları zorla öz doğma yurd-yuvalarından didərgin salmaq, yəhudiləri dünyanın müxtəlif nöqtələrindən oraya yığmaq və onları bu yerlərdə məskunlaşdırmaq planına başladılar. ۱۹۱۷-ci ildə yəhudilərin Fələstinə qayıtmaq haqqını rəsmi şəkildə tanıyan Bill Four bəyannaməsindən sonra yəhudilərə torpaq və məskən verilməsi çox sür'ətlə başlandı. Hegemon dövlətlərin, o cümlədən ingilis və amerikanlıların göstərdiyi yardımlar sayəsində ۱۹۴۸-ci ildə fələstinlilərin işğal olunmuş ərazilərində müstəqil İsrail dövləti tə'sis olundu. O zamandan indiyə qədər həmin üzdəniraq və



---

Yəhudilərin nəzərində müqəddəs sayılan bir dağın adıdır ki, Beytül-müqəddəsin [۶۰] -۱
.yaxınlığında yerləşir

.o zaman dünya sionist təşkilatının rəhbərlərindən biri idi [۶۱] -۲

.Durnəmayi xavərmiyanə" jurnalı, ۱۹۷۸-ci il səh-۳۴۱" [۶۲] -۳

.Sanbi-tayms jurnalı [۶۳] -۴

qondarma dövlət islam dünyasında törənən müsibət və fitnələrin mərkəzi, yaxın şərqdə əmin-amanlığın pozulmasının və qeyri-stabilliyin əsas səbəbkarı olmuşdur.

## SİONİST TƏRZİ-TƏFƏKKÜRÜ

Sionistlər müstəqil yəhudi dövləti tə’sis etdilər, yəhudiləri və’də verilən diyara qaytardılar və tarix boyu (əlbəttə, öz iddialarına əsasən) məruz qaldıqları zülm, sitəm və sərgərdançılıqdan qurtarmaq üçün öz hədəflərini e’lan etdilər. Amma məsələ bununla da bitmədi; dünya sionist təşkilatı tə’sis olunduqdan və sionist protokolu imzalandıqdan sonra onlar dünyəvi bir hökumət tə’sis etmək, bütün dünyanı və bütün millətləri əsarət altına alıb bəşəriyyətə ümumi rəhbərlik məsələsini irəli sürdülər və əməli olaraq, bu məqsədin həyata keçirilməsi üçün fəaliyyətə başladılar.

Sionistlər bu ideya və düşüncəni irəli sürdükdə Tövrat və Təlmudun “yadları qovmaq” və ifratçı irqçilik nəzəriyyələrindən çox istifadə etdilər; bu düşüncəni əvvəlkindən bir neçə dəfə artıq və qabarıq şəkildə böyüdərək sionist protokolları formasında öz məramnamələri kimi qəbul etdilər. İndi bu protokolun bə’zi hissələrini nəzərinizə çatdırırıq:

“Demokratiya, insan haqları və siyasi azadlıq sırf ideyadan başqa bir şey deyildir və onun heç bir həqiqəti yoxdur. Amma bizlərdən hər birimiz lazım olan hallarda ayrı-ayrı xalqların bəzi quruplarını cəzb etmək üçün bu yağlı tikələrdən istifadə etməliyik; öz partiya və mənafeyimiz naminə, qüdrət və hökuməti ixtiyarlarında olan müxalif partiyaları məhv etməkdən ötrü bu imkanlardan istifadə etməliyik.(١)

Bu gün qızıl və pulun qüdrəti liberalizm tərəfdarları olan hökmutlərin yerini tutmuş, dindarlıq hakimiyyətinin dövrü ötüb keçmişdir. Xalqların azadlıq ideyasının gerçəkləşməsi qeyri-mümkündür.(٢)

Siyasətin mehvəri əxlaqi dəyərlərdən tam ayrıdır. Bu ikisi heç bir vəchlə müştərək deyildir, əxlaqi qayda-qanunlara tabe olan hakim məharətli siyasətçi deyil və nə qədər ki, hakimiyyət kürsüsündə əyləşib, həmişə məhv olmaq ərəfəsində olacaqdır.(٣)

Şərab qeyri-yəhudi millətlərini başını gicəlləndirmişdir. Onların cavanları sərxoşluq nəticəsində kütbeyin olmuşlar. Bu kütbeyinlilik və axmaqlıq onları tənbəlləşdirib; öz

qədim miraslarını araşdırmaq sərhəddində qalmalarına və artıq bir addım götürə bilməmələrinə səbəb olmuşdur. Onlar getdikcə həmin vəziyyətdə qalmağa daha artıq həvəsləndirililirlər. Onların geriliyə təşviq olunmaları bizim vasitəmizlə baş verir. Xüsusilə, ayrı xalqlardan hazırlayıb tərbiyə etdiyimiz insanların vasitəsilə! Həmin xalqlardan hazırlanan bu kimi şəxslər öz millətlərini



---

.Birinci protokoldan [۶۴] -۱

.Birinci protokoldan [۶۵] -۲

.Birinci protokoldan [۶۶] -۳

səfalətə sürükləməkdə, qeyri-yəhudi cavanlarını azğınlığa doğru çəkməkdə daha müvəffəq olurlar. Xüsusi müəllimlər, xidmətçilər, dayələr, varlıların evlərində işləyən xadimələr, katibələr, katiblik işçiləri, saraylarda və əyləncə məkanlarında, qeyri-yəhudilərin gediş-gəliş etdiyi yerlərdə işləyən qadınlar və s. şəxslər sonuncu növdən sayılırlar. Adətən qadınlar cəmiyyəti adı ilə qeydə alınan bu fenomenlər və o yerlərə gediş-gəliş, qaynayıb-qarışmaq, azad əyyaşlıq və fəsad məqsədləri üçün nəzərdə (tutulub.(١

Bizim əlimizdə olan mətbuat mərkəzlərinin vəzifəsi bundan ibarətdir ki, millətin zəruri və həyatı ehtiyaclarından danışsın, insanların şikayətlərini, giley-güzərlarını kütləvi informasiya vasitələrində işıqlandırsın, narazıçılıq və qəzəb amillərini qızışdırmağa çalışsın. Çünki, mətbuat informasiya və əqidə azadlığının qələbə çalmaq (təcəssümüdür.(٢

Bədbəxt fəhlə kütlələrini müsibət və bədbəxtçiliklərdən xilas etmək iddiası ilə ictimai-siyasi səhnəyə varid olub, onları sosializm, anarxizm və kommunizm bayrağı altında yaratdığımız düşərgələrdə vuruşanlara qoşulmağa dəvət edirik. Biz, xromosom qanunlarımızdan biri olan insanlıq, həmrə'ylik və qardaşlığın mə'nasız olması .(prinsipinə tabe olaraq, bu bayraqdarlara kömək göstəririk. (Üçüncü protokoldan

Azadlıq və demokratiya kəlməsi müxtəlif qurupları hər növ qüdrət və istilaçılıqla müharibə səmtinə o qədər çəkir ki, hətta onlar allahla mübarizə aparıb, onun təbii qanunları müqabilində müqavimət göstərirlər. Buna görə də öz hökumətimizi bərqərar etdiyimiz zaman bu kimi sözlər həyat lüğətindən silinəcək; çünki azadlıq ədalətli qüdrətə ilham verən bir əsasdır; elə bir qüdrət ki, insan kütlələrini qana susumuş (heyvanlar kimi quzğunlaşdırır.(٣

Onlardan (qeyri-yəhudilərdən) allaha olan imanı ala bilsək, qüdrətin əzəməti küçələrə çıxarılacaq. Çünki, hal-hazırda hakimiyyət haqqı o kütlələrindir. Belə olan təqdirdə biz (bu haqqa sahib olarıq.(٤

Qeyri-yəhudi ölkələrindəki) sənayeni və istehsalı məhv etmək üçün onların arasında) əyyaşlığa, dünyapərəstliyə eşq-məhəbbət yaratmalıyıq və onları belə bir vəziyyətə doğru təşviq etməliyik. Bu kimi həyatın ləzzətlərini onların nəzərində

cilvələndirməliyik; çünki onun kökləri möhkəmlənsə, bu meylin heç vaxt tə’min (olunmaması heç bir şeyə rəhm etmədən onu udacaqdır.(۵

**SUAL VƏ TAPŞIRIQLAR**

?Sionizmin formalaşmasında hansı amillərin rolu olub .۱



---

۱- [۶۷] Birinci protokoldan.

۲- [۶۸] Birinci protokoldan.

۳- [۶۹] Üçüncü protokoldan.

۴- [۷۰] Beşinci protokoldan.

۵- [۷۱] Altıncı protokoldan.

?Nə üçün sionistlər bu adla çağırılırlar .۲

?Hertzel kimdir və nə kimi işlər görmüşdür .۳

?İsrail dövləti nə vaxt və hansı yolla tə’sis olunmuşdur .۴

.Sionistlərin əqidələrindən bəzi nümunələri qeyd edin

## QIRX BEŞİNCİ DƏRS

## SABEİ DİNİ

### MÜQƏDDİMƏ

Sabei dini İraqın cənubunda(١) yaşayan, İranın qərbi Xuzistan məntəqəsində (Mişan səhrası və Karun haşiyəsində) azlıqda yaşayan bir ayinin ardıcıllarıdır ki, onların sayının .təxminən ٢٠٠ min nəfər olduğu deyilir

Xüsusi adət-ən’ənələrə malik olduğuna, fərdi və ictimai həyatlarında sair millətlər və qövmlərlə qarışmaqdan, öz əqidələrini aşkar etməkdən çəkindiklərinə görə Sabeiilər barəsində kifayət qədər dəqiq mə’lumat yoxdur. Onların keçmişləri də müəmmalıdır; tədqiqatçılar onların barəsində fərqli, bə’zən də zidiyyətli nəzərlər vermişlər. Amma Qur’ani-Kərimdə - Bəqərə-٦٢, Maidə-٦٩, Həcc-١٧ - onların adı məsihilər və yəhudilərlə .yanaşı qeyd olunur

Yuxarıdakı ayələrdən belə nəticə əldə olunur ki, sabeiilər ilahi dinlərin ardıcılları cərgəsində və təkallahlı olmuşlar. Onlar sair din ardıcılları kimi sonradan şirkə tərəf .çəkilmiş, buna görə də bir qurupu mö’min, digər bir qurupu isə müşrik olmuşlar

### SABE KƏLMƏSİNİN LÜĞƏT MƏ’NASI

Sabeə və sabinu kəlmələrinin kökü barəsində müxtəlif nəzər və ehtimallar verilmişdir. Amma ən məşhur nəzəriyyə budur ki, bu kəlmə ibri dilində olan «sad», «bey» və «əyn» kökündən alınmışdır və «suya cummaq» mə’nasını ifadə edir. Bu kəlmə ərəbləşdikdə «əyn» hərfi «həmzə»yə çevrilmiş və «sad», «bey» və «həmzə» şəklini almışdır. Buna əsasən sabeii «suda batanlar» mə’nasını daşıyır. Bu nəzər həmin ayinin həqiqətinə daha yaxındır. Çünki, bu ayinin ardıcılları «qüsl etmək», «tə’mid» vermək və eləcə də əşyaların və yeyinti məhsullarının yuyulmasına həddindən artıq diqqət yetirirlər. Hətta, onlar bəzi müsəlman qövmləri arasında müqtəsilə adı ilə tanınmışlar. Bu dinin xüsusiyyətlərinə görə sabeiilər həmişə Fərat, Dəclə, Karun kimi böyük çayların .sahillərində yaşamışlar

١- [٧٢] Bəsrə ətrafında Fərat çayının sahillərində.

### DİNİ ƏSASLARI

Sabeii dini barəsində tədqiqatçıların ixtilafına səbəb olan məsələlərdən biri də onların hansı ilahi peyğəmbərin ardıcılları olmasıdır. Bə'ziləri demişlər ki, onlar həzrət Nuh peyğəmbərin dininin ardıcıllarıdır, sair peyğəmbərləri isə ilahi elçi olaraq qəbul etmirlər. Digər nəzər budur ki, sabeiilər kitab əhlidir və Zəburu tilavət edirlər. Bə'ziləri inanırlar ki, onlar həzrət Yəhyaya qədər olan bütün ilahi peyğəmbərləri qəbul edir və ondan sonrakılara inanmırlar. Nəhayət sonuncu nəzərdə deyilir ki, onlar yalnız öz dinlərinin alimləri olan ruhanilərə tabe olur və onları da peyğəmbər kimi deyil, öz .dinlərinin bir kahini kimi qəbul edirlər

Bu barədə mövcud olan müxtəlif nəzərlər arasında zahirən üçüncü nəzər (yə'ni, Yəhya peyğəmbərə e'tiqadlı olmaq) həqiqətə daha yaxındır. Çünki, sabeiilərin dini mənbələrində dəfələrlə Yəhya məzhəbi adlı bir ayinin adı çəkilir. Ümumiyyətlə, onlar dinlərinin əsası olan "Tə'mid" ayininin həzrət Yəhyadan qaldığını deyərək, Məsihi də bu ayinə iman gətirənlərdən hesab edir, lakin onun, sonradan bu dinin sirlərinə xəyanət etdiyini iddia edirlər. Həmçinin deyirlər ki, Məsih Yəhyanın məzhəbini korlamış və axar .suda olan tə'mid quslunu dəyişdirmişdir

### MÜQƏDDƏS KİTABLARI

Sabeiilərin dini mənbələri arsında çoxlu müqəddəs kitablar vardır ki, onların nəzərincə bunlar Allah tərəfindən Adəmə, Sama, İbrahimə və Yəhyaya nazil olmuşdur. Bu :kitablar arasında beş kitab daha artıq e'tibara malikdir

Kəncə-rəbbəh", yaxud "Kənca-rəbbah" və yaxud da "Sidrə-rəbbəh" ki, ilahi" .١ xəzinələr mə'nasındadır. Bu kitab sabeiilərin ən mö'təbər kitabı sayılır və iki hissədən - Yəmin və Şimaldan təşkil olunmuşdur. Yəmin hissəsi tövhid və xaliqin sifətləri, onların halal-haram, oruc, vəsiyyət və s. kimi əqidələrini bəyan edir. Şimal hissəsində isə ölülərin dəfn mərasiminin hökmləri, ruhun bədəndən necə çıxması, dualar və .zikirlərdir ki, ölülərin ruhuna oxunur

Binüqdə Sidreyi ədnəşmasəd", yaxud «Nəfslər» kitabı; bu tə'mid və paklıqla əlaqədar" .٢ .olan göstərişləri, tə'mid zamanı oxunan duaları əhatə edir

۳. "İraşə ədihya", yaxud "Yəhya tə'limləri"; bu, həzrət Yəhya (ə)-ın həyatı, onun tə'limləri və tövsiyələrinə şamildir.

۴. "Qolesta"; izdivac və əqd zamanı riayət edilməli olan qayda-qanunları, hökmləri və prinsipləri əhatə edir.

۵. "İnani"; təharət və paklıq və eləcə də namaz üçün dəstəmaz alarkən lazım olan dua və zikirlərə şamildir.

### FİRQƏLƏR

Sabeiilər böyük bir qövm olub, Fələstində məskunlaşmışdılar. Yəhudilər Fələstini işğal etdikləri zaman Yəhya və onun ardıcılları yəhudilər tərəfindən

səh:۲۲۲

təzyiqlərə və zülmlərə mə'ruz qalmışdılar. Həzrət Yəhyanın şəhadətindən sonra onların sabeiilərə göstərdiyi əzab-əziyyətlər daha da artdı; onların mə'bədlərini və mərkəzlərini dağıtdılar. Buna görə də onlar Fələstindən Şama köçüb Hərram şəhərində məskunlaşdılar. Amma yenə də yəhudi təzyiqlərindən qurtara bilmədilər. Nəhayət Beynun-nəhreynə və İrana köçərək orada məskunlaşdılar. Bu müddət ərzində sabeiilər müxtəlif firqələrə bölündülər ki, onlardan Məndai və Hərrani kimi mühüm firqələrin adını çəkmək olar. Hərranilər firqəsi onlar Hərran şəhərində məskunlaşan zaman meydana gəlmişdir. Bu firqə sanki sair qövmlərin əqidələrindən tə'sirlənərək təhrifə mə'ruz qalmışdır. Hal-hazırda da sabeiilərin xalis əqidəsi yoxdur. Bu firqənin müqabilində Məndailər dayanırdı ki, onlar özlərini əsil sabeii hesab edirdilər. Onlar özlərini kitab əhli və təkallahlı sayırdılar; buna görə də hərraniləri qəbul .etmirdilər

Məndai və Hərranilər arsında olan ixtilafa görə, tədqiqatçılar, adları Qur'ani-kərimdə yəhudi və məsihilərlə yanaşı qeyd olunan sabeiilərin məndai olduqlarını güman edirlər; .hərranilər ulduzlara pərəstiş etdiklərinə görə müşrik sabeii adı ilə tanınmışlar

## ƏQİDƏLƏRİ

Sabeiilərin ən müqəddəs kitabı sayılan Kənzarubadan belə aydın olur ki, onlar təkallahlıdırlar və Allahı da sair tövhidçi ayinlərin vəsf etdikləri sifətlərlə tə'rif edirlər; sair tövhidçilər kimi, onlar da Allahı hər cür çirkinliklərdən uzaq və eyblərdən pak bilirlər. Sabeiilər iki aləmə - Nur və Zülmət aləminə inanır və deyirlər ki, xilqətin yaradılışında və idarə olunmasında bir çox ruhani və nurani varlıqlar Allaha kömək edirlər. Onlar inanırlar ki, ilin hər günü bir nurani və ruhani vücudun cilvəsidir. Buna görə də ilin hər günü üçün bir nurani varlıq olduğuna inanırlar. Sabeiilər fələklərə, ulduzlara və on iki bürcə xüsusi əzəmət və ehtiram göstərirlər. Sabeii ardıcıllarının ulduza pərəstiş etmələri və şirkə yuvarlanmaları da məhz buradan başlanmışdır. Yə'ni, ulduzlara tə'zim və ehtiram məsələsi getdikcə öz yerini ulduzların təqdis və .pərəstişinə vermişdir

Sabeiilərin ruhani məada, hesab-kitaba və əzaba e'tiqadları vardır və inanırlar ki, salehlər öldükdən sonra nurlar aləminə (behiştə), günahkarlar isə zülmət aləminə

(cəhənnəmə) varid olacaqlar. Kitab sahibi olan peyğəmbərlər sabeiilərin nəzərində aşağıdakılardır: Adəm, Sam, Ram, İbrahim, Musa və Yəhya.

### AYİNLƏR VƏ HÖKMLƏR

١. Tə'mid: Qüsl və təharət sabeii şəriətinin əsasını təşkil edir və buna görə də müxtəlif hallarda və vaxtlarda verilən Tə'mid qüslü sabeiilərin ən mühüm vəzifəsi hesab olunur. "Kamil" tə'mid qüslünün ən mühüm növüdür ki, izdivac, təvəllüd, məss-meyyit və sair işlər zamanı kahinin əli ilə yerinə yetirilməlidir; heyz, nifas, cənabət və eləcə də böyük günahlar, o cümlədən oğurluq, zina, qətl işlərindən sonra verilməlidir.

Namaz: Sabeiilər gün ərzində üç dəfə cənub istiqamətində namaz qılırlar. Birinci .٢ namaz səkkiz rəkətdir və hər rəkətdə üç səcdə vardır; bu namaz günəş çıxmazdan əvvəl yerinə yetirilir. İkinci namaz günorta vaxtı qılınır ki, hər rəkətin üç səcdəsi vardır. .Üçüncü namaz da ikinci namaz kimidir və günəş batan zaman qılınır

Oruc: Sabeiilər oruc tutmağa (yemək və içməkdən çəkinmək kimi olan oruca) .٣ inanmırlar və onu allahın halal etdiyi şeyi qadağan etmək kimi qiymətləndirirlər. Amma müsəlmanlarla qarışdıqlarına görə zahirdə oruc tuturlar. Onlar orucu mə'nəvi məşğələ .adı ilə otuz gün (ilin ayrı-ayrı günlərində) yerinə yetirirlər

## SUALLAR VƏ TAPŞIRIQLAR

Qur'ani-Kərimin sabeii dininin adını sair ilahi dinlərlə yanaşı çəkməsindən nə başa .١ ?düşülür

?Nə üçün sabeiilərə müqtəsilə deyilir .٢

?Sabeiilər özlərini hansı ilahi peyğəmbərin ardıcılları hesab edirlər .٣

.Sabeiilərin müqəddəs kitablarının adını deyin və mövzusunu izah edin .۴

?Sabeiilər təkallahlıdır, yoxsa müşrik .۵

?Sabeiilərin ən mühüm əqidəsi nədir .۶

.Sabeiilərin dini adət-ən'ənlərindən bə'zilərinin adını sadalayın

.Sabeiilərlə zərdüştlərin əqidələrini müqayisə edin

## QIRX ALTINCI DƏRS

## MƏSİHİLİK

### MÜQƏDDİMƏ

Məsihilik həzrət İsa (ə)-ın ardıcıllarının dinidir. Həzrət İsa (ə) Peyğəmbəri-Əkrəmdən (s) əvvəl ilahi şəriət sahibinə malik olan bir peyğəmbər kimi tanınıb. İslam əqidələrinə əsasən, müsəlmanlar həm o həzrətə həm də sair peyğəmbərlərə inanırlar. Allah-taala :Qur'ani-kərimdə mö'minlərə xitab edərək buyurur

Yəhudilər və xaçpərəstlər müsəlmanlara): «Doğru yolu tapmaq üçün yəhudi, yaxud)» da xaçpərəst olun!» - deyirlər. (Ya Məhəmməd!) Sən de: «Biz batildən haqqa tapınan ((haqq yolda olan) İbrahim dinindəyik; çünki o Allaha şərik qoşanlardan deyildi.»(١

Bütün ilahi peyğəmbərlərə iman gətirmək, onların asimani kitablarına e'tiqad bəsləmək islam dininin tələbidir. Digər tərəfdən, peyğəmbərlərə küfr etmək də :azğınlığa səbəb olur. Qur'ani-Kərimdə belə buyurulur

Ey mö'minlər! Allaha və Peyğəmbərinə, Onun öz Peyğəmbərinə nazil etdiyi kitaba» (Qur'na) və ondan əvvəl nazil etdiyi kitablara iman gətirin! Allaha, Onun mələklərinə, kitablarına, peyğəmbərlərinə və axirət gününə inanmayan şəxs, şübhəsiz ki, (doğru (yoldan) çox azmışdır.»(٢

Bu bəyanla bütün müsəlmanlar ilahi peyğəmbərlərin hamısına iman gətirmişlər və :onların aralarında fərq qoymamağa vəzifəlidirlər. Belə ki, Qur'ani-Kərim buyurur

(Biz Onun peyğəmbərləri arasında fərq qoymuruq...».(٣...»

Bu barədə Bəqərə surəsinin ١٣٦-cı və Ali-İmran surəsinin ٨۴-cü ayələrinə də müraciət etmək olar. Amma həqiqi yəhudi və məsihi o kəslərə deyilir ki, həzrət İsa və Musaya iman gətirməkdən əlavə, digər peyğəmbərlərə də iman gətirmiş olsunlar. Belə nəzərə çarpır ki, yəhudi və nəsrani dedikdə, Qur'ani-Kərim məhz həmin mə'nanı nəzərdə tutmuşdur. Amma haqq dində olan şəxslərin hamısı, o cümlədən peyğəmbərlər həqiqi (müsəlman kimi təqdim edilir.(۴

Ulul-əzm və şəriət sahibi olan peyğəmbərlər həmişə elə bir dövrdə peyğəmbərliyə çatırdılar ki, bəşər cəmiyyətləri müxtəlif cəhətlərdən azğınlığa və tənəzzülə doğru getsin; haqqın ayırd edilməsi mümkün olmasın. Yaxud elə bir



---

۱- [۷۳] Bəqərə-۱۳۶.

۲- [۷۴] Nisa-۱۳۶.

۳- [۷۵] Bəqərə-۲۸۵.

۴- [۷۶] Bəqərə-۱۲۸-۱۳۰-۱۳۱, Ali-İmran-۶۷-۶۸, Yunis-۷۲-۸۴, Maidə-۱۱۱, Yusif-۱۰۱ və Qəsəs-۵۰-۵۳.

vaxtda seçilirdilər ki, əvvəlki şəriətlər dünyapərəst və mənfur şəxslərin sui-istifadəsinə məruz qalır, onların dəxaləti nəticəsində azğınlığa çəkilir və ilahi kitablar .təhrif edilirdi

Həzrət İsa (ə) da belə bir şəraitdə peyğəmbərliyə seçilmişdir. Belə ki, əvvəlki ilahi şəriət yə'ni, həzrət Musanın şəriəti iki cəhətdən təhrif və tənəzzülə mə'ruz qalmışdı. Birincisi, yəhudi alimlərindən ibarət olan Əhbarlar tərəfindən təhrif edilirdi. Yəhudiliklə əlaqədar olan bəhslərdə qeyd etdiyimiz kimi, özünü Əhbar və Rəbbani adlandıran yəhudi alimləri həzrət Musanın be'sətindən onlarla il keçdikdən sonra yəhudilərin müqəddəs kitabını yazmağa başlamış və Allahın kitabına bir çox şeylər artırmışlar; bundan əlavə, Allahın kitabında (Tövrat) ürəkləri istədiyi kimi dəyişikliklər etmişlər. :Qur'an bu həqiqəti dəfələrlə xatırladaraq buyurur

Yəhudilərdən bir qismi (Tövratdakı) sözlərin yerini dəyişib təhrif endir və dillərini» əyərək dinə (islama) tə'nə vurmaq məqsədilə (sənə qarşı): «Eşitdik və qəbul (etmədik...».(١

:Başqa bir ayədə buyurulur

O özlərinə zülm edənlər onlara deyilən (əmr olunan) sözü dəyişdirdilər («Bizi bağışla»» mə'nasında işlədilən «hittə» sözünə gülərək onu «buğda» mə'nasında olan «Hintə» sözü ilə əvəz etilər). Biz də o zalimlərə etdikləri haqsızlığa görə göydən şiddətli əzab (göndərdik.(٢

:Başqa bir ayədə isə belə buyurulur

Ey mö'minlər!) İndi onların (yəhudilərin) sizə inanacaqlarına ümidmi edirsiniz? Halbuki)» (Musa dövründə) onların içərisində elələri vardır ki, Allahın kəlamını (Tövratı) dinləyib (anladıqdan sonra, onu bilə-bilə təhrif edirdilər.»(٣

Digər bir ayədə buyurulur ki, yəhudi alimləri Allahın kitabını öz istədikləri kimi :yazırdılar

Vay o şəxslərin halına ki, öz əlləri ilə (istədikləri kimi) kitab (Tövrat) yazıb, sonra (onun» müqabilində) bir az pul almaqdan ötrü: Bu Allah tərəfindəndir – deyirdilər. Öz əlləri ilə

(təhrif olunmuş) kitab yazdıqlarına görə vay onların halına! Qazandıqları şey üçün vay (onların halına.»(۴

Qur’anın yəhudilər barəsində ifşa etdiyi digər bir gerçəklik də onların Tövratda olan həqiqətləri gizlətməsi və yalnız onun cüz’i bir miqdarını aşkar etməsidir. (Onlar yalnız .(Əhbarların mənafeyi ilə uyğun gələn hissələri aşkar edirdilər



---

.Nisa-۴۶ [۷۷] -۱

.Bəqərə-۵۹ [۷۸] -۲

.Bəqərə-۷۵ [۷۹] -۳

.Bəqərə-۷۹ [۸۰] -۴

De ki: Musanın insanlara bir nur və hidayət yol olaraq gətirdiyi kitabı (Tövratı) kim...»
(nazil etmişdir? Siz onu vərəqlərə yazıb göstərir, bir çoxunu da gizlədirsiniz...»(١)

Yəhudi alimlərinin bu kimi təhrifləri nəticəsində insaniyyətə böyük zərbə dəydi; hidayət və nur mənbəyi olan kitab mövhumat və xurafatlarla dolduruldu; ilahi peyğəmbərlərə yaramaz, əxlaqsız və nalayiq nisbətlər verildi. Bunlardan daha dözülməz olan işlər qarşıya çıxdı; onlar bu kimi üzdəniraq xüsusiyyətləri Allaha da aid etdilər.(٢) Allahın kitabı Bəni-İsrail qövmünün tarix kitabına və onların sərgüzəştlərini əks etdirən dastanlar məcmuəsinə çevrildi. Bu iş elə bir səviyyədə aparıldı ki, yəhudi böyükləri müqəddəs kitabın mühüm əqidəvi bəhslərini, o cümlədən məad və sair əqidələr barədə olan mətləbləri oradan çıxartdılar. Bütün bu təhriflər azmış kimi, yəhud qövmünün firqələrə parçalanması ilə müqəddəs kitabın nüsxələrində də ixtilaflar yarandı; firqələrdən hər biri kitabın bir hissəsini azaldıb-artırır, digər .hissələrini isə rədd və ya qəbul edirdilər

Bu kimi işlər nəticəsində şəriətin qorunması və ilahi hökmlər üçün müəyyən bir me'yar təyin edilməsi mümkün olmadı; düzgün və haqq əqidənin tə'yin edilməsi üçün heç bir imkan qalmadı ki, əgər Allahın bəndələri həqiqət və qurtuluş yolu ilə getmək istəsələr, heyrət və sərgərdançılığa düçar olmasınlar. Belə bir vəziyyət şəriət sahibinə malik olan .digər bir peyğəmbərin zühurunu tələb edirdi

İkinci cəhət romalıların istilası idi. Miladdan ۶۳ il qabaq Fələstin ölkəsi Roma imperatorluğu tərəfindən işğal edildi. Romalılardan əvvəl yunanlar da Fələstini işğal etmişdilər. Yunanıstan elm, mədəniyyət və svilizasiya mərkəzi olduğundan, ora elmi-mədəni şəxsiyyətlər tərəfindən idarə olunduğundan Fələstin əhalisi nisbətən dinc şəraitdə və müəyyən qədər ədalətli şəraitdə yaşaya bilirdi. Amma romalılar Fələstini istila etdiyi vaxt yerli əhaliyə divan tutdu və camaatın çoxu başqa ölkələrə köçməyə .məcbur oldu

Həzrət İsa (ə)-ın təvəllüdü ilə eyni zamanda romalılar tərəfindən Fələstinə padşah tə'yin edilən Herodosi Kəbir vəfat etdi. Onun üç oğlu var idi. Herodosun ölümündən sonra Fələstin ölkəsi üç oğulun arasında bölüşdürüldü. Yəhudiyyə, Samirə və İumiyyə hissələri böyük oğul Yerusəlimə çatdı, Cəlil gölü və Hərya ikinci oğul Herodos Antipasa

düşdü; Cəlil gölünün şimalı isə kiçik oğul Flippə aid edildi. Ölkənin bölüşdürülməsi və bunun ardınca üç qardaşın yerli camaatla kəskin və amansız rəftarları nəticəsində .Fələstində hərc-mərclik yarandı; nəticədə ictimai-siyasi böhranlar hər tərəfi bürüdü

Belə bir şəraitdə təbiidir ki, yəhudi qövmü məğlub edilmişdi və yadların təzyiqləri altında olan qövm kimi çox ağır və dözülməz şəraitdə yaşayırdı; onlar mütəmadi olaraq həzrət Məsihin zühurunu gözləyirdilər. Yəhudilərin müqəddəs kitabının bir neçə yerində həzrət Məsihin zühuru müjdəsi verilmişdi. O cümlədən, Davudun Məzamirində, ikinci məzmurda ٢-٧-ci ayələr; Əş’iya Nəbi peyğəmbərin



---

.Ən’am-٩١ [٨١] -١

.On üçüncü dərsdə bunun nümunələri verildi [٨٢] -٢

kitabının ۹-cu fəslinin ۶-cı ayəsində; Həzqil peyğəmbərin kitabının ۳۲-ci fəslinin ۲۳-cü .ayəsində və ۳۷-ci fəslin ۳۲-ci ayəsində qeyd olunub

Buna görə də həzrət Məsihin zühur etməsi yəhudilər üçün əvvəlcədən mə’lum və məqbul bir məsələ idi. Onlar inanırdılar ki, Məsih Bəni-İsrail qövmündəndir və bu qövmün xilası üçün zühur edəcəkdir. Buna görə də ən ağır və böhranlı şəraitlərdə onun intizarını çəkirdilər. Belə bir şəraitdə həzrət Məsih (ə) Fələstin diyarında Bəni-İsrail qövmü arasında dünyaya gəlib peyğəmbərliyə seçildi.

**SUALLAR**

Müsəlmanların İsa (ə)-a iman gətirmələrini nəzərə alaraq, onları məsihi .۱ ?adlandırmaq olarmı

?Qur’an nöqteyi-nəzərindən Tövrat necə yazılmışdır .۲

?Romalıların Fələstində hökmranlığının bu diyarda nə kimi tə’sirləri oldu .۳

?Həzrət İsa (ə) hansı şəraitdə peyğəmbərliyə seçildi .۴

## QIRX YEDDİNCİ DƏRS

## HƏZRƏT İSA (Ə) VƏ MƏRYƏM

### (QUR’AN NÖQTEYİ–NƏZƏRİNDƏN HƏZRƏT MƏRYƏM (Ə

Bu dərs Qur’ani-Kərimin və İncilin həzrət İsa (ə) və onun anası həzrət Məryəm (ə) haqda buyurduqlarına, eləcə də o iki böyük şəxsiyyətin təvəllüd və be’sətinə həsr .edilmişdir

Qur’ani-kərim Məryəmin anası və İmranın həyat yoldaşının nəzr əhvalatını belə bəyan edir: İmranın həyat yoldaşı Məryəmə hamilə olduğu zaman nəzr etmişdi ki, oğul .«dünyaya gətirərsə onu Allah dininə xidmətçi vəqf etsin

Ya Məhəmməd!) İmranın zövcəsinin (Hənnənin): «Ey Rəbbim, bətnimdəkini Sənə )» xidmətkar (qul) olmaq üçün nəzir edirəm. (Bu naziri) məndən qəbul et! Əlbəttə, Sən (eşidən və bilənsən!» – dediyini xatırla.»(١)

Amma övladını dünyaya gətirəndən sonra onun qız olduğunu gördü, kədərləndi; həsrətlə öz nəzrinin yerinə yetirilməsində nakam qaldığını güman edib Allahla belə :razi-niyaz etdi

Onu (bətnindəkini) doğduğu zaman: «Ey Rəbbim! Mən qız doğdum», – söylədi. Halbuki» Allah onun nə doğduğunu və oğlanın qız kimi olmadığını yaxşı bilirdi. Hənnə: «Mən onun adını Məryəm qoydum, Məryəmi və onun nəslini məl’un (daşqalaq olunmuş) (Şeytandan (Şeytanın şərindən) Sənə tapşırıram» – dedi.».(٢)

Beləliklə, aydın olur ki, Allah-taala Məryəmi ilk əvvəldən Öz diqqətində saxlamış və seçilmiş bir qadın kimi Öz mərhəmətinə layiq görmüşdü. Çünki, qeyd olunan ayələrin .davamında Məryəm üçün gözəl tə’lim-tərbiyə və inkişaf nəzərdə tutulmuşdur

Belə olduqda, Rəbbi Məryəmi yaxşı qəbul etdi, onu gözəl bir fidan kimi böyütdü və» Zəkəriyyaya tapşırdı. Zəkəriyya hər dəfə Məryəmi ibadət etdiyi mehraba girdikdə, onun yanında bir ruzi olduğunu görərdi. (Zəkəriyya): «Ya Məryəm, bunlar sənin üçün haradandır?» – dedikdə, o,: «Allah tərəfindəndir!» – deyə cavab verərdi. Həqiqətən, Allah (istədiyi şəxsə hədsiz ruzi verər!»(٣)

Qur’ani-kərim nöqteyi-nəzərindən həzrət Məryəm xüsusi nəzarət altında və ilahi mərhəmət sayəsində inkişaf edib, Allah tərəfindən onun üçün göndərilən behişt ne’mətlərindən bəhrələnmiş, öz Rəbbinə ibadət etməklə ruhi-mə’nəvi yüksəlişə çatmış və pakizə olmuşdur. O, Allahın seçilmiş bəndəsi olsun deyə, Zəkəriyya



---

.Ali-İmran-۳۵ [۸۳] -۱

.Ali-İmran-۳۶ [۸۴] -۲

.Ali-İmran-۳۷ [۸۵] -۳

kimi ilahi peyğəmbərin nəzarəti altında böyümüşdü. Çünki o, gələcəkdə həm özü Allah nişanələrindən biri olacaq, həm də ən böyük ilahi şəxsiyyətlərdən birini, yə’ni, həzrət İsanı dünyaya gətirəcəkdi. Məhz buna görə də Allah-taala Qur’ani-kərimdə həzrət :Məryəm barəsində belə buyurur

Ya Məhəmməd!) Xatırla ki, bir zamanlar mələklər belə demişdilər: «Ya Məryəm, )» həqiqətən Allah səni seçmiş, (eyblərdən) təmizləmiş, (cəmi) aləmlərin qadınlarından (üstün tutmuşdur.»(١)

:Başqa bir yerdə buyurulur

Məryəm oğulu (İsanı) və (bakirə) anasını (qüdrətimizdən yaranmış) bir mö’cüzə» (etik».(٢)

## (QUR’AN NÖQTEYİ-NƏZƏRİNDƏN HƏZRƏT İSA (Ə

Qur’ani-Kərimdə həzrət Məryəmin, ilahi ruhun üfürülməsi nəticəsində İsaya hamilə olması və İsanın təvəllüdünün necəliyi barədə bir neçə ayə nazil olmuşdur. O cümlədən, “Məryəm” surəsində buyurulur ki, Məryəm öz qohum-əqrəbasından ayrılıb şəhərdən çıxaraq şərq istiqamətində bir nöqtəyə getdiyi zaman Ruhul-qudus bəşər sifətində onun yanında zahir oldu. Pak bir qadın olan Məryəm əvvəlcə ondan qorxub Allaha pənah apardı. Ruhul-qudus dedi ki, mən Allahın göndərdiyi şəxsəm; gəlmişəm ki, sənə pak bir övlad əta edəm. Məryəm soruşdu ki, heç bir kişi ilə təmasda olmadığım və özüm də iffətli bir qadın olduğum halda, oğlan uşağına sahib olmağım necə mümkündür? Cavab verildi ki, bu iş hökmən olacaq və Allah üçün bu iş çox asandır. Biz istəyirik ki, onu camaat üçün ilahi bir nişanə və öz tərəfimizdən rəhmət qərar verək. Nəhayət həzrət Məryəm İsaya hamilə oldu; təvəllüdü yaxınlaşdığı zaman ailəsindən uzaqlaşıb bir ağacın altına getdi və övladını dünyaya gətirdi. İsa (ə) doğulduğu anlarda doğuşun ağrısından qıvrılan anasına toxtaqlıq verib deyir ki, Allahın sənin ayaqların altında bir çeşmə qaynatmışdır; quru xurma ağacını tərpət ki, sənin üçün təzə tər xurma tökülsün. Xurmadan ye və bulağın suyundan iç və öz gözünü (övladına görə) (aydın et.(٣)

Allah-taala Qur’ani-kərimdə İsanı Allahın bəndəsi hesab edir. Onu ilahi ayə və nişanə

hesab edərək(۴) bildirir ki, İsa dünyada və axirətdə böyük məqam sahibidir; ilahi dərgaha yaxın olanlardandır.(۵) Allah-taala onu Bəni-İsrailin sui-qəsdindən və hiylə və məkrindən amanda saxlamışdır.(۶)

Həzrət İsa (ə) uşaqlıq çağlarının əvvəlindən peyğəmbərliyə seçilir. Həzrət Məryəm övladını götürüb şəhərə gətirmək istədiyi zaman Allah tərəfindən ona



---

۱- [۸۶] Ali-İmran-۴۲.

۲- [۸۷] Mu’minun-۵۰.

۳- [۸۸] Məryəm surəsi, ۱۶-۲۶-cı ayələr.

۴- [۸۹] Mö’minin-۵۰, Ənbiya-۹۱.

۵- [۹۰] Ali-İmran-۴۵.

۶- [۹۱] Maidə-۱۱۰.

əmr olunur ki, sükut etmək orucu tutsun və camaatla danışmasın. Ondan bir şey soruşulduqda həzrət İsanı göstərsin; cavab verməyi körpənin öhdəsinə qoysun. O, öz qövmünün yanına qayıtdığı zaman ondan, tə'nə vuraraq, atasız övladın necə dünyaya gəlməsini soruşduqda, İsanı göstərir və işarə ilə ondan cavab almalarını başa salır. :Camaat deyir

(Beşikdə olan uşaqla necə danışaq?»(١...»

:Bu zaman həzrət İsa (ə) özü cavab verir

Mən, həqiqətən Allahın quluyam. O mənə kitab (İncil) verdi, özümü də peyğəmbər...» (etdi».(٢

Bütün ilahi peyğəmbərlər həmişə mö'cüzə və nişanələrlə peyğəmbərliyə seçildiyindən, Allah-taala İsa peyğəmbər barəsində buyurmuşdur ki, onun özünü və anasını ayət və nişanə qərar verdik. Ananın ailə qurmadan övlad sahibi olması, körpə yaşlarında övladın camaatla danışması ilahi mö'cüzələrdəndir. Bundan əlavə, Qur'ani-Kərimdə o :həzrət üçün çoxlu mö'cüzələr də bəyan olunmuşdur

Sizin üçün palçıqdan quşa bənzər bir surət düzəldib ona üfürərəm, o da Allahın izni ilə» quş olar. Anadangəlmə korları, cüzam xəstəliyinə tutlanları sağaldır və Allahın iznilə ölüləri dirildərəm. Mən evlərinizdə yediyiniz və yığıb saxladığınız şeyləri də sizə xəbər (verərəm.»(٣

## (İNCİL NÖQTEYİ-NƏZƏRİNDƏN HƏZRƏT İSA (Ə

Dördlük təşkil edən İncillərdə həzrət Məryəmin şəxsiyyəti barəsində çox da geniş məlumat yoxdur; yalnız qeyd olunur ki, o, təqvalı və pak-pakizə olmuşdur. Amma onun həzrət İsaya hamilə olması və İsanın təvəllüdü barədə nisbətən geniş mətləblər :verilmişdir. Mətta İncilində İsa barəsində belə oxuyuruq

İsa Məsihin təvəllüdü belə oldu: Yusifin əqdinə gətirilən Məryəm ər evinə getməkzən» qabaq Ruhul-qudusun vasitəsi ilə hamilə oldu. Yaxşı əməl sahibi olan və Məryəmin camaat qarşısında rüsvay olmamasını istəyən Yusif gizli şəkildə qərara aldı ki, ondan ayrılsın. Yusif hələ bu fikirdə olduğu zaman Allahın mələyi yuxuda ona zahir olub dedi:

Ey Davudun oğlu Yusif! Məryəmi öz evinə aparmaqdan qorxma, çünki onun bətnində olan Ruhul-qudusdandır. O, bir oğlan dünyaya gətirəcək və sən onu İsa adlandıracaqsan; çünki o, öz qövmünü günahlardan xilas edəcəkdir».

Bu işlər baş verdi, nəhayət Allah-taala peyğəmbərin vasitəsi ilə e’lan etdi:

«Bakirə bir qız hamilə olub dünyaya bir oğlan uşağı gətirəcəkdir ki, Əmanuyil [yə’ni, Allah bizimlə] adlandırılacaqdır».

Yusif yuxudan ayıldı və mələyin göstərişinə əməl edərək Məryəmi öz evinə gətirdi. Amma Məryəm öz oğlunu dünyaya gətirən zamana qədər onunla yaxınlıq

səh:۲۳۱

---

۱- [۹۲] Məryəm-۲۹.

۲- [۹۳] Məryəm-۳۰.

۳- [۹۴] Ali-İmran-۴۹.

etmədi və oğlanın adını İsa qoydu(١) Muka İncilinin birinci və ikinci bablarında da həzrət İsa (ə)-ın təvəllüdü bəyan edilir. İsa (ə) İncilin rəvayətlərinə əsasən, ٣٠ yaşında İordaniya çayında Yəhyanın əli ilə tə’mid qüslu etdi və sudan çıxandan sonra peyğəmbərliyə seçildi. Markos İncilində belə oxuyuruq: «Bu zaman İsa Cəlil nasirəsindən gəldi və İordaniya çayında Yəhyadan tə’mid aldı. İsa sudan çıxan zaman gördü ki, asiman yarılıb və Ruhul-qudus göyərçin surətində ona tərəf nazil oldu və asimandan bir avaz eşitdi ki: Sən mənim əziz oğlumsan, səndən razıyam. Dərhal Allahın ruhu onu çöllərə apardı. Qırx gün çöllərdə qaldı, şeytan onu vəsvəsə edirdi. İsa vəhşi heyvanların arasında idi və mələklər ona xidmət edirdi».(٢) İsa (ə) qırx günlük müddətdən sonra Kəfər Nahuma gedir və camaata tə’lim və moizəni başlayır. Dördlük təşkil edən İncillərin başqa yerində İsanın mö’cüzələrinə ümumi halda çoxlu diqqət .yetirilmişdir

.Gələcək dərslərdə İsanın tə’limləri və məsihilik əqidəsini araşdıracağıq

## SUAL VƏ TAPŞIRIQLAR

?Həzrət Məryəm hansı şəkildə ilahi nişanə kimi tanınır .١

?Qur’ani-Kərim həzrət Məryəmi necə təqdim edir .٢

Qur’an və İncil nöqteyi-nəzərindən həzrət İsa (ə)-ın təvəllüdünün necəliyini bəyan .٣ .edin

?İncil nöqteyi-nəzərindən İsa (ə) peyğəmbərliyə necə seçilib .۴

.Qur’an ayələrindən istifadə edərək həzrət Məryəmin təvəllüd gününü bəyan edin

.Həzrət İsa (ə)-ın mö’cüzələrini sadalayın



---

.Mətta İncili, birinci fəsil, ١٨-٢۵-ci ayələr [٩۵] -١

.Markos birinci bab, ٩-١٣-cü ayələr [٩۶] -٢

## QIRX SƏKKİZİNCİ DƏRS

## PULS RƏSUL

Özünü İsa (ə)-ın rəsulu (nümayəndəsi) kimi təqdim edən Puls məsihiliyin formalaşmasında mühüm rol oynamışdır. Məsihilik haqqında lazımi məlumat əldə .etmək üçün onun rəftar və əməlləri ilə tanış olmalıyıq

### PULSUN KEÇMİŞİ

Pulsun əsil adı Şaul idi. O yəhudi idi; öz dininə qarşı çox təəssübkeş və inadkar insan sayılırdı. Puls özünü Ferisi və Fərisi oğlu kimi təqdim edir.(١) Başqa bir ayədə isə deyilir: «Mən.anadangəlmə israilliyəm; Benyamin qəbiləsindənəm, sırf ibraniyəm. Şəriətə riayət etmək baxımından fərisi idim, təəssüb baxımından kilsəyə əzab-əziyyət çatdırırdım».(٢) Başqa bir ayədə deyilir: «Mənim keçmişimi və yəhudi dinindəki keçmiş əməllərimi eşitmisiniz ki, Allahın kilsəsinə rəhimsizliklə əzab-əziyyət verib onun məhv edilməsinə çalışırdım; yəhudi dininə riayət etməkdə öz həmyaşıdlarımın hamısından qabaqda idim və ata-babalarımızın tə'limlərinin icra olunması ilə əlaqədar onların (hamısından çox-çox təəssübkeş idim.(٣

Məsihilərin müqəddəs kitabı izah edir ki, Şaun məsihilərə necə əzab-əziyyət verirdi. Rəsulların işləri risaləsinin ٧-ci babından sonra İsanın həvariləri arasında seçilmiş şəxs olan İstifanın şəhid olunması hadisəsində Şaulun adı çəkilir. İstifanın əleyhinə şəhadət verən şahidlər paltarlarını soyundurub onun ayaqları altına qoyurdu.(۴) Şaul İstifanın qətlinə razılıq verən şəxslərdən biri idi.(۵) İstifanın daş-qalaq edilməsindən sonra Şaul kilsəyə əzab-əziyyət verməyi davam etdirir: «Həmin gün Yerusəlim kilsəsinə çox ağır zülmə başladıq; rəsullardan başqa bütün iman sahiblərini yəhudiyyə və samirə nahiyələrinə pərakəndə etdilər. Yaxşı əməl sahiblərindən bir qurupu İstifanın cəsədini torpağa tapşırıb onun üçün matəm mərasimi təşkil etdilər. Şaul çalışırdı ki, kilsəni kökündən məhv etsin. O, evləri gəzib kişiləri və qadınları çölə çəkir və zindana salırdı.»(۶) Lakin Pulsun məsihilərlə mübarizə aparmaq üçün Dəməşqə etdiyi səfərdə gözlənilmədən mükaşifə baş verir və onun həyatı tamamilə dəyişir: «Şaul Allahın ardıcıllarını öldürüb təhdid etməkdən heç bir vəchlə əl çəkmirdi. O, böyük kahinin yanına gedib Dəməşq kənisaları üçün bir tə'yinat istədi ki, təriqət əhlindən (İsa

təriqətindən) bir kişi və ya qadını tapsa, onları tutub Yerusəlimə gətirsin. Şaul hələ Dəməşqə çatmamışdı

səh:۲۳۳

---

.Əhdi-cədid, Rəsulların işləri, ۲۳-cü bab, ۶-cı ayə [۹۷] -۱

.Əhdi-cədid, filiplər, ۳-cü bab, ۵۹۶-cı ayə [۹۸] -۲

.Əhdi-cədid, Ğülatlar, birinci bab, ۱۴-۱۵-ci ayələr [۹۹] -۳

.Rəsulların işləri, ۷-ci bab, ۵۸-ci ayə -۴

.ci bab, ۱-ci ayə-۸ -۵

.ci bab, ۱-۳-cü ayələr-۸ -۶

ki, gözlənilmədən şəhərin yaxınlığında asimandan saçan bir nur onun ətrafını işıqlandırdı. O, yerə yıxılıb belə bir səs eşitdi: «Ey Şaul! Nə üçün mənə zülm edirsən?» Şaul soruşdu: «Pərvərdigara, sən kimsən?» Cavab gəldi ki: «Mən İsayam. O kəsəm ki, sən ona zülm edirsən, lakin ayağa qalx və şəhərə get, orada nə edəcəyin haqda sənə deyiləcəkdir...»(١) Bu hadisənin ardınca Şaulun ruhiyyəsi tamamilə dəyişir və məsihiliyin təbliğinə başlayır. Bir müddət Dəməşqdə bir dəstə imanlılarla birlikdə yaşayır və çox çəkmir ki, Dəməşq kənisalarında aşkar şəkildə İsanın Allahın oğlu olduğunu e'lan edir.(٢) O, daha sonra Yerusəlimdə (İsanın həvarilərindən olan) Bornabanın vasitəsi ilə rəsulların hüzuruna gətirilir və bundan sonra Puls adı ilə tanınır.(٣) Sonra Rəsul adı ilə .insanları həzrət Məsihin dininə də'vət edir və bir çox təbliğat səfərlərinə gedir

#### PULSUN İFA ETDİYİ ROL

Puls həmişə özünü İsa Məsihin nümayəndəsi və Rəsulu kimi təqdim edir. O cümlədən Timutavus, Qərəntiyan, Ğulatlar və romalılara yazdığı məktublarda və eləcə də digər hallarda bu işi görmüşdür. Romalılara yazdığı məktubun əvvəlində belə deyir: «İsa Məsihin bəndəsi və İncili müjdə vermək üçün Allahın Rəsulu olan və çağırılan İsanın bəndəsi olan Pulsun tərəfindən». (Rumlar, ١-١). Ğulatlara yazdığı məktubun əvvəlində belə deyir: «Bu Rəsul Puls tərəfindəndir, o şəxs ki, öz risalətini nə insan tərəfindən və nə də bir kəsin vasitəsi ilə əldə etmişdir; əksinə İsa Məsih və ata Allah tərəfindən ki, Məsih öldükdən sonra dirildib, Rəsul olmuşdur».(٤) Məktubun davamında belə deyir: «Ey qardaşlar! İstəyirəm biləsiniz ki, sizə verdiyim İsanın düzüb-qoşduğu deyildir. Mən onu bir kəsdən almamışam və bir kəs də onu mənə öyrətməmişdir; İsa Məsih ilham (vasitəsi ilə onu mənə aşkar etmişdir.(٥

Pulsun sözlərinə diqqət yetirməklə aydın olur ki, o, həzrət İsanın hüzuruna getməmiş və ondan feyz kəsb etməmişdir. Həmçinin məsihiliyin öyrənilməsində başqa bir müəllimi də olmamışdır; yalnız öz nəzər və iddiaları əsasında ilham yolu ilə və İsa .Məsihin vasitəsi tə'lim gördüyünü və o həzrətin İncili ona ilham etdiyini söyləyir

Digər tərəfdən Puls gediş-gəliş etdiyi Rəsullar və həvarilərin,(٦) o cümlədən Bornavanın uzun müddət onunla birlikdə olmasına baxmayarq, ondan ayırılmışlar. Puls nəticədə onları məzəmmət etmiş və kəlamlarını batil hesab etmişdir: «Ey Timutavus,

,sənə tapşırılan şeylərin hamısını hifz et. Mə’nasız və küfrlü sözlərdən



---

.Rəsulların işləri, ۹-cu bab, ۱-۶-cı ayələr -۱

.Rəsulların işləri, ۹-cu bab, ۱۹-۲۰-ci ayələr -۲

.Rəsulların işləri, ۱۳-cü bab, ۹-cu ayə -۳

.Ğulatiyan, ۱-۱ [۱۰۶] -۴

.Ğulatlar, ۱-ci bab, ۱۱-۱۲-ci ayələr [۱۰۷] -۵

Rəsulların işlər, ۹-cu bab, ۲۸-ci ayə [۱۰۸] -۶

yanlış olaraq elm adlanan bəhslərdən uzaq ol. Çünki, bu şeylərdə özlərini mütəxəssis hesab edən bə’ziləri imandan azmışlar. Allahın feyz və mərhəməti sizin hamınıza olsun.»(١) Başqa bir yerdə isə digərlərinin İncil adı ilə tanıtdırdıqları şeyi rədd edərək, yalnız öz İncilini həqiqi İncil hesab edir: «Mən bundan təəccüb edirəm ki, nə qədər tez sizi Məsihin feyzinə də’vət edən şəxsdən üz döndərdiniz; indi başqa bir İncilə tabe olmusunuz (halbuki başqa bir İncil möcud deyildir), amma bə’ziləri vardır ki, sizi iztiraba salıb Məsihin İncilini təhrif etmək istəyirlər. Hətta əgər biz, yaxud asimandan gələn bir mələk bizim e’lan etdiyimiz İncildən başqa bir İncil gətirsə, ona lə’nət olsun! Əvvəlcə dediyim kimi yenə də təkrar edirəm: Qəbul edilən İncildən başqa bir İncili (qəbul edənlərə lə’nət olsun!»(٢

Pulsun bəyanatlar məcmusundan belə nəticə almaq olar ki, o, İsaya tabe olanların imanından istifadə edərək, məsihi dininin əsasını qoymuş Əhdi-cədidin, yaxud müqəddəs İncilin böyük hissəsini yazmış, digər hissəsi isə onun idealları və yol göstərmələri nəticəsində başqalarının vasitəsi ilə yazılmışdır ki, burada Luqanın rolu .başqalarından daha artıqdır

Puls öz doğulduğu şəhərdə həzrət Məsihin dininə qovuşmamışdan əvvəl, fəlsəfə mədrəsəsində Əflatun, Rəvaqi və Kəlbi fəlsəfəsi ilə yaxından tanış olmuş, bundan tə’sirlənərək Məsihi ilahiyyatını yazmağa başlamışdı. Pulsun İsanın ayininə daxil etdiyi ən mühüm təfəkkür İsanın ilahiləşdirilməsi olmuşdur. O, İsa üçün Məsiha məqamının fövqündə dayanan bir məqam təsəvvür etmişdir. Əlbəttə o, İsanı həmin xilsakar hesab edir ki, ilahi mələkutu yer üzərində bərqərar etmək üçün və qiyam etdikdən sonra bir daha buludların üzərində qayıdaraq qiyamət gününə qədər yaxşılarla pislərin arasında mühakimə etmək üçün gəlmişdir. Amma bu qeyri-yəhudi millətləri arasında də’vət etməyə məb’us olunduğundan və məsihilik fikri, həzrət İsanın be’sət və rəc’əti onlar üçün tamamilə düşünülməz bir fikir olduğundan, o qövmlərin təfəkkür və əndişəsinə mütənasib olan başqa bir yolla varid oldu. O, İsa (ə)-ın səciyyəvi xüsusiyyətlərdən olan dünyəvi ölüm və günahlardan qurtuluş və nicat tapmaq məsələsini irəli çəkərək deyirdi: «Şəxs üçün əbədi həyat o vaxt hasil olar ki, özünü ruhən İsa ilə birləşdirsin, qovuşdursun». O, İsanın ölüb-dirilməsindən sonra ölüm və be’sət məsələsini başqa bir şəkildə təfsir edərək deyirdi: «İsa Məsih asimani bir

varlıqdır ki, ilahi zata və təbiətə malikdir; lakin onun özü tənəzzül edərək insani surət və qiyafəni qəbul etmiş, asimandan yerə nazil olmuşdur. Bu mərhələdən də süqut edərək onun dara çəkilməsinə razılıq vermişdir. Bu dərəcələrin hamısını ona görə qəbul etmişdi ki, bir daha qiyam etsin və öz atasının sağ əlində (Allahın) otursun, həyat (və ölümün mütləq qüdrətini öz ixtiyarına keçirsin.(۳

Buna əsasən Puls, öz sirli mənşəyini şərh və təfsir etmək üçün İsa vücudunun əzəli olmasına və onun sifətlər aləmindən pak olmasına inandı. O, kulilərə yazdığı



---

۱- [۱۰۹] ۱-ci Timu tavus, ۶-cı bab, ۲۰-۲۱-ci ayələr.
۲- [۱۱۰] Ğulatlar, ۱-ci bab, ۶-۹-cu ayələr.
۳- [۱۱۱] Can-nas, tarixi cameyi ədyan, ۱۵-ci fəsil.

məktubda deyir: «Məsih gözəgörünməz Allahın məzhəri və surətidir, bütün məxluqatdan üstündür; çünki onun vasitəsi ilə göydə və yerdə olanların hamısı, görünənlər və görünməyənlər, taxtlar, padşahlar, hökmranlar, işlərin ixtiyar sahibləri yaradılmışdır. Bəli, bütün varlıqlar onun vasitəsi ilə bir-birinə qovuşur və bir-biri ilə (əlaqəli olur.(١

Pulsun əndişələrindən ibarət olan digər bir məsihi əqidəsi isə İsa Məsihin bəşəriyyətin günahlarına görə qurban olmasıdır. O, ibranilərə məktub yazaraq Musa şəriətinin qüvvədən düşən qurbanlığı haqda deyir ki, İsa Məsih gəlmişdir ki, Allahın iradəsini .yerinə yetirsin

Sonra sözünü belə davam etdirir: «İsa Məsih Allahın iradəsini yerinə yetirdikdə və öz bədənini həmişəlik olaraq qurbanlıq təqdim etdikdə, biz öz günahlarımızdan (paklaşdıq».(٢

* * *

Gələn dərslərdə məsihilik ayinində özünəməxsus prinsiplərə malik olan Pulsun təfəkkürünü daha artıq araşdıracağıq. Qısa şəkildə demək olar ki, məsihilik əsaslı olaraq, İsa Məsihdən daha artıq ona mənsub edilir. Puls İntakiyəyə getdikdə, ilk dəfə (olaraq, Məsihi adını İsanın ardıcıllarına verdi.(٣

## SUAL VƏ TAPŞIRIQLAR

?Puls məsihi dininə necə qoşuldu .١

?Məsihilik dinində Pulsun nə kimi rolu olmuşdur .٢

.Pulsun tarixi barədə qısa mə’lumat verin

Pulsun keçmişinə və onun əqidə əsaslarına nəzər yetirməklə, onun Allah tərəfindən .Rəsul olub-olmadığının mümkünlüyünü araşdırın



---

.Kulilər, ١-ci fəsil, ١۵-١٧١-ci ayələr [١١٢]-١

[۱۱۳] -۲ İbranilər, ۱۰-cu fəsil, ۱۰-cu ayə.

[۱۱۴] -۳ Rəsulların işləri, ۱۱-ci fəsil, ۲۶-cı ayə.

## QIRX DOQQUZUNCU DƏRS

## (MƏSİHİLİYİN ƏQİDƏLƏRİ (١

### İŞARƏ

Məsihiliyin əqidələri üç əsas mehvərdə araşdırılmalıdır. Birincisi məsihilərin Allah barəsində olan nəzərləri, ikincisi Məsihin bəşər şəklində yer üzünə nazil olub insanların günahlarının kəffarəsi kimi qurban olması, üçüncüsü isə İsanın bəndələrdən hesab çəkməsi üçün qiyamət məsələsi. Bu dərsdə yalnız birinci mehvəri araşdıracaq, .qalanları isə gələn dərslərdə aydınlaşdıracağıq

### BİRİNCİ MEHVƏR

Məsihiliyin əqidələri üç əsas mehvərdə araşdırılmalıdır. Birincisi məsihilərin Allah barəsində olan nəzərləri, ikincisi Məsihin bəşər şəklində yer üzünə nazil olub insanların günahlarının kəffarəsi kimi qurban olması, üçüncüsü isə İsanın bəndələrdən hesab çəkməsi üçün qiyamət məsələsi. Bu dərsdə yalnız birinci mehvəri araşdıracaq, .qalanları isə gələn dərslərdə aydınlaşdıracağıq

### MƏSİHİLİK TƏFƏKKÜRÜNDƏ ALLAH ANLAMI

Məsihilər arasında ilahi həqiqətlə əlaqədar olan ən çox geniş yayılmış məsələ “üç Allah”, yaxud “Təslis” məsələsidir. Məsihi alimləri çalışmışlar ki, üç üqnumun(١) Cəlal, qüdrət, əzəlilik və ilahiliyini (ata, oğlu və Ruhul-qudus) sabit fərz etsinlər. Bununla yanaşı Allahın vahid olmasını da iqrar etməyə və tövhid dini sırasından çıxmamağa çalışırlar. Bu nəzər əsasında məsihilikdə Allahşünaslığın əsli son dərəcə mürəkkəbləşir, burada müəmmalı məsələlər qarşıya çıxır; çünki həm üçlüyü qəbul etmək və həm də tövhidin isbatına çalışmaq çox çətin, hətta qeyri-mümkün bir işdir. Məsihilər özlərini vahid Allahın ardıcılları hesab edərək inanırdılar ki, əql yolu ilə Allahı tanımaq olar. Halbuki iki qeyri-məhdud, yaxud daha çox qüdrətə malik olan varlığın eyni zamanda təsəvvür olunması əql və məntiqin ziddinədir. Allahın vahid olması dedikdə, məqsəd budur ki, yalnız bir Allah vardır və ilahi zat bölüşdürülə bilməz. Digər tərəfdən də inanırdılar ki, ilahilik bir-birindən tamamilə ayrı olan üç şəxsiyyətdən təşkil olunmuşdur. Bu üç varlıq əzəlilik, qüdrət və cəlalda bir-birilə bərabərdir və onlardan

hər biri ilahi sifətlərin hamısına malikdir. Amma eyni halda hər birinin müəyyən xüsusiyyətləri vardır ki, onları təslis vəhdətinin daxili bir-birindən fərqləndirir. Bu üç :üqlum aşağıdakılardan ibarətdir

.Vücud üqlumu, elm üqlumu, həyat üqlumu

Üçlük təşkil edən üqlumlar dedikdə ata, oğul və Ruhul-qudus nəzərdə tutulur ki, ata vücud üqlumu, oğul elm üqlumu, Ruhul-qüdus isə həyat üqnumudur. Bütün bu vəsflərlə eyni zamanda Allah ədəd baxımından birdir. Allah ruhdur və onda heç bir növ bölünmə ola bilməz. Bununla yanaşı deyirlər ki, Allahın vahid olmasının təslislə heç bir təzadı yoxdur. Çünki vahid olmaq vahid ədəd kimi bəsit deyildir, Allahın vahid olmasında, Onun bir olmasına inanmaqla eyni zamanda üçlük təşkil edən üqnumun da vahid Allahda qəbul edirik. Bizim e’tiqadımız budur ki, vahid Allahda vəhdətlə eyni zamanda təslis də mövcuddur. Üçlük üqnum bir-birindən seçilir, amma İlahi zat bölünməzdir: Bu üç üqnum bir-birilə əbədiyyət və



---

.Siryani dilində əsl yaxud şəxs mə’nasına olan üqnum deməkdir [۱۱۵]-۱

oxşarlıqda bərabərdirlər; belə ki, təslisdə vahidliyi və kamil təslisi vahidlikdə ibadət edirik. Bu halla yanaşı qeyd olunan həqiqətlər belə təfsir olunmamalıdır ki, üçlük üqnumları arasında ilkin olmaq haqqı mövcud deyildir, əksinə, bilmək lazımdır ki, ata birinci yer, oğul ikinci yer, Ruhul-qüdus isə üçüncü yerdə qərarlaşır. Bu ilkin olmaq haqqı tərtiblədir. Ruhul-qüdus və oğul bərabərdir, bununla eyni zamanda ataya mütʼidirlər. Bu itaət icbari deyil, iradə və ixtiyar üzündədir.(١)

## MƏSİHİ MƏNBƏLƏRİNDƏ TÖVHİD VƏ TƏSLİS

Bu dərsdə bəyan olunanlar məsihi alimlərinin nəzəridir. Amma bilməliyik ki, məsihilərin müqəddəs kitablarında və möʼtəbər mənbələrində təslis və tövhid məsələləri necə işıqlandırılmışdır? Bilmək lazımdır ki, məsihi alimləri necə olub ki, təslisə etiqadlı olduqları halda tövhid əqidəsinə üz gətirmişlər? Əhdi-qədim və Əhdi-cədidə şamil olan müqəddəs kitab məsihilərin nəzərində müqəddəs və möʼtəbər sayılır. Yəhudi dini barəsində olan bölmədə qeyd olunduğu kimi, Əhdi-qədimdə (Ətiqdə) təslisdən heç bir əsər-əlamət gözə dəymir. Buna görə də yəhudilər özlərini xalis tövhidçi hesab edirlər. Həmçinin Əhdi-cədiddə çoxlu ayələr vardır ki, Allahın yeganə olduğunu aşkar şəkildə bəyan edir. O cümlədən: «Yəhudi ruhanilərindən biri o bəhsi eşidib anladı ki, İsa ona ali bir cavab vermişdir. İrəli gəlib soruşdu: «Şəriət hökmünün ən mühümü hansıdır?» İsa (ə) cavab verdi: «Birincisi budur ki, ey İsrail eşit! Bizim Allahımız yeganə olan Allahdır; öz Allahını cani-dildən və var gücünlə sev».(٢) Həmçinin ٣٢-ci ayədə deyilir: «O şəxs ona dedi: Ey ustad, düzdür. Həqiqəti bəyan etdin, Allah birdir, Ondan başqa heç bir məʼbud yoxdur». Həmçinin Qərintanın birinci risaləsinin dördüncü ayəsində belə deyir: «Bütlərə təqdim olunan yeməklərə gəldikdə isə, biz bilirik ki, büt heç bir həqiqətə malik deyildir və yeganə olan Allahdan başqa heç bir məʼbud yoxdur.» Tövhidi aşkar şəkildə bəyan edən bu kimi təʼbirlər Əhdi-cədiddə çox gözə dəyir, amma onun yanında elə təʼbirlər də vardır ki, təslis əqidəsinin formalaşmasında ondan istifadə olunur. Dördlük təşkil edən İncillərin heç birində təslisə aşkar şəkildə işarə olunmur. Əgər ilkin qanunun tövhid olduğunu qəbul etsək, belə təʼbirlər müəyyən yozuma və təʼvilə məʼruz qala bilər. O cümlədən, Mətta İncilinin ٢٨-ci babının ١٩-cu ayəsində belə deyilir: «Gedin bütün millətləri mənim şagirdlərim edin və onlara ata və Ruhul-qüdusun adından təʼmid qüslu verin.» Yühənna İncilinin ١-ci ayəsindən ١۴-cü ayəsinə qədər belə deyilir: «Əzəldə kəlmə idi. («Kəlmə» həzrət İsanın adına ünvanlanır) Kəlmə Allahla idi və Kəlmə Allahın

özü idi. Əzəldən Kəlmə Allahla idi. Hər bir şey onun vasitəsilə varlıq libası geydi və onsuz heç bir şey yaradılmadı. Həyat ondan vücuda gəldi və o həyat insanların nuru idi».



---

۱- [۱۱۶] Henri Tisen, İlahiyyati məsihi, Can Van vurd, Bizim «Allahımız İsa Məsih» kitabı.

۲- [۱۱۷] Markos, ۱۲-ci bab, ۲۸-۳۰-cu ayələr.

Amma dördlük təşkil edən İncillərdən sonra sair Əhdi-cədid risalələrində qeyd olunanlar təslis məsələsini daha aşkar şəkildə bəyan edirlər. O cümlədən, Yühənnanın ١-ci risaləsinin ٥-ci babının ۴-٨-ci ayələrində belə oxuyuruq: «Çünki Allahdan doğulan şeylər dünyaya qələbə çalır və dünyanı məğlub edən qələbə bizim imanımızdır. Kimdir ki, dünyaya qələbə çalsın?! Yalnız buna imanı vardır ki, İsa Allahın oğludur. Məhz odur ki, su və qana gəldi; yə'ni İsa Məsih təkcə su ilə deyil, üstəlik su və qan ilədir. Ruh o şəxsdir ki, şəhadət verir. Ruh haqdır, ona görə ki, şəhadət verən o üçüdür, yə'ni ruh, su və qan. Bu üçü birdir.»

Əhdi-cədiddən əlavə, məsihilikdə təslis ünvanı ilə tanınan şeylərin Midiyə e'tiqadnaməsi olduğunu qeyd etmək olar. Bu e'tiqadnamə Midiyə şəhərinin yepiskoplar şurası vasitəsi ilə Orta Asiyada yazılmışdır. Bu şura Konistantin imperatorunun göstərişi ilə miladın ٣٢٥-ci ilində məsihilər arasında tövhidlə təslisin ixtilafına son qoymaq üçün təşkil olunmuşdur ki, nəhayətdə "nəqiyyə" e'tiqadnaməsi ünvanı ilə bir qətnamə verməklə sona çatdı. Məsihilər bu əqdnaməni rəbbani gecə mərasimində oxuyurlar. Bu bəyanatda belə qeyd olunur: «Bizim vahid Allaha, mütləq qadir ataya, görünən və görünməyən bütün şeylərin xaliqinə, İsanın vahid Allahına imanımız vardır. O, Allahın oğludur ki, atadan dünyaya gəlmişdir; atanın zatından dünyaya gələn övladdır, onun vasitəsi ilə bütün şeylərə varlıq verilmişdir. Yerdə və göydə olanlar hamısı. Biz insanların xatirinə, bizə nicat vermək üçün yer üzünə enərək cism halına düşdü; insan şəklinə düşdü, əzab-əziyyət çəkdi və üçüncü gündə (dəfn olunandan sonra) qalxıb asimanlara getdi. O, qayıdacaqdır ki, ölüləri və diriləri mühakiməyə çəksin. Biz Ruhul-qüdusa iman gətirmişik». Həmçinin belə deyilir: «İsanın mövcud olmadığı bir zamana inananlara, yaxud vücuda gəlməmişdən qabaq olmadığını, yaxud yoxluqdan varlığa çevrildiyini deyənlərə lə'nət olsun! Bunlara lə'nət olsun; eləcə də lə'nət o kəslərə ki, Allahın oğlunun zatdan, yaxud digər bir cinsdən olduğunu və həmçinin Allahın oğlunun məxluq və dəyişilməyə qabil olan bir şey olduğunu iqrar edirlər!»

Bu bəhslərdən aydın olur ki, məsihiliyin Allah barəsində olan nəzərləri üçlük əsasındadır və eyni zamanda tövhidlə təslis arasında olan ziddiyyət aradan qaldırıla bilməz. Həmin mövzu da məsihi firqələrindən bə'zilərini üçlük əslini tərk edib tövhidə

yönəlmələrinə bais olmuşdur. Onlardan biri də ilk məsihilərin yəhudiləri ünvanı ilə tanınan firqədir ki, məsihilər arasında ən qədim firqə hesab olunur. Bu şəxslər nəqiyyə şurasından əvvəl, hətta bəlkə Pulsdan da qabaq yaşayırmışlar. Həmçinin "şahdan Yəhuvəh" firqəsi də hal-hazırda məsihiliyin bir firqəsi kimi mövcuddur və onlar tövhidə inanırlar. Amma bu firqələri nəzərə almasaq, məsihilərin ata, oğul və Ruhul-qüdus barədə olan ümumi nəzərləri, eləcə də bu üç varlığın "Salusu Əqdəs" adı ilə ilahiləşdirilib əzəli məqamda bilinməsi prinsipindən ibarətdir. Qur'ani-Kərimin məsihilik barədə olan nəzəri məhz həmin əsas üzərində qərar tutmuşdur. Yə'ni, Qur'ani-Kərim məsihiliyi üç Allaha inanan bir əqidə hesab edir və onları kafir adlandırır. O cümlədən :aşağıdakı ayədə buyurulur

səh:۲۳۹

Allah üçün (üç ilahinin) üçüncüsüdür!» - deyənlər, əlbəttə, kafir olmuşlar. Halbuki bir» olan Allahdan başqa heç bir tanrı yoxdur. Əgər onlar dediklərinə son qoymasalar, (onlardan kafir olanlara, şübhəsiz ki, şiddətli bir əzab üz verəcəkdir (toxunacaqdır)».(١)

:Həmçinin başqa bir ayədə buyurulur

Allah barəsində) «üç deməyin». (Belə sözlərə) son qoyun. Həqiqətən Allah tək bir)...» (tanrıdır.»(٢)

**SUALLAR**

?Üç üqnum nədir .١

?Məsihi alimlərinin təslis barəsindəki nəzərləri necədir .٢

?Məsihilərin təslis əqidəsinə dəlalət edən ən mühüm dəlil və mənbələri hansılardır .٣

?Qur'ani-Kərim məsihilərin Allah barəsində olan əqidələrini necə bəyan edir .۴



---

.Maidə-٧٣ [١١٨]-١

.Nisa-١٧١ [١١٩]-٢

## ƏLLİNCİ DƏRS

## (MƏSİHİLİYİN ƏQİDƏLƏRİ (٢

### İŞARƏ

Keçən dərsdə Məsihiliyin Allahşünaslıqla əlaqədar əqidəvi bəhsinin birinci mehvəri .araşdırıldı. Bu dərsdə isə yerdə qalan iki mehvəri aydınlaşdıracağıq

### HƏZRƏT MƏSİHİN İNSAN SURƏTİNDƏ NAZİL OLMASI

İKİNCİ MEHVƏR

Məsihilər inanırlar ki, Məsihin əzəli və ilahi həqiqəti insanlara nicat verib, onları hidayət etmək üçün insan surətində cism formasına düşmüşdür; İsanın özü də həmin cismləşmiş həqiqətdir. İlahi yönə malik olan bu təcəssümün necəliyi barədə qədim zamanlardan məsihi alimləri arasında ixtilaf mövcuddur. Bə’ziləri İsa Məsihin insani və ilahi olan iki zatının vəhdətinə tə’kid edir, digər bir qurup isə bu ikisinin arasında ikilik xarakterinin olduğuna inanırdılar. Nəhayət ۴۵۱-ci Miladi ilində məsihi alimlərindən təşkil olunmuş «Çal si dun» şurası çalsidun e’tiqadnaməsi ünvanı ilə verdiyi bəyanatda özünün ümumi nəzərlərini məsihi tə’limlərindən biri kimi təqdim etdi. Bu bəyanatın əsasında bir vahid şəxsdə yə’ni, İsa (ə)-da iki təbiət və yaxud zat yə’ni, bəşər və ilahi təbiət cəm olmuşdur. Eyni halda bu iki zatdan hər biri özünəməxsus sifət və xüsusiyyətlərini qoruyub saxlayır. Başqa sözlə desək, bir nəfər olan İsa Məsihin iki zatı yə’ni, həm insani, həm də ilahi zatı vardır. Və bu iki zati gerçəklik bir-biri ilə eynidir. Biri ata Allahın zatı gerçəkliyi, digər biri isə hər bir fərdin zatı gerçəkliyidir. “Çal si dun” e’tiqadnaməsində belə oxuyuruq: «Müqəddəs ataya tabe olaraq, biz bütün insanlarla bu tə’limdə müttəhid olmuşuq ki, bir vücuda - yalnız oğula – bizim Allahımız olan İsa .Məsihə iqrar edək

Bu vahid vücud həm ilahi olmaq baxımından, həm də insani yöndən kamil bir varlıqdır. Bu vahid vücud həqiqətdə həm Allahdır və həm də bəşər. Bir yöndən mücərrəd ruh, digər bir yöndən isə cismdən ibarət olan insandır. Buna əsasən o, ilahi yönə malik olan vaxta qədər həmin ata – Allah zatı olan həqiqətə malik olur; insani yöndən də bizim kimi insanlara oxşar bir quruluşa malikdir. Hər bir cəhətdən bizə oxşardır, yalnız

.mə’sum olmamaq və günah ehtimalında oxşarlığımız yoxdur

O, zamanın meydana gəlməsindən qabaq özünün ilahi yönü cəhətindən ata vasitəsi ilə icad olunmuşdur. İndi də insanlara görə və bizim nicat tapıb qurtuluşa çıxmağımız üçün bakirə və müqəddəs Məryəmdən dünyaya gəlmişdir ki, bu baxımdan özünün .insani yönündən ilahi xüsusiyyət daşıyır

Biz din alimləri şurası həmçini tə’lim veririk ki, bəşəri idrak üslubumuz bu yeganə Məsihdən (oğul, ata Allahın yeganə mövludu) iki təbiət, yaxud mahiyyət yolu ilədir. Bu bir-birindən ayrı olan iki zatı, o birisi ilə səhv salmadan və eləcə də o ikisindən hər -birinin digərinə çevrilməsini demədən, yaxud onları tamamilə bir

birindən ayrı olan varlıqlara bölmədən, yaxud onları özümüzün təzadlı fəaliyyət və çərçivəsi hesabında bir-birinin qarşısında qərar vermədən qəbul edirik. O ikisindən hər birinin fərqlənən ayrıca xüsusiyyətləri və onların kamil ittihadı heç bir vəchlə inkar olunmur. Buna əsasən hər iki təbiət bir bir şəxsdə qərar tutur və idrak olunmağa qabil olan bir həqiqətə çevrilir. Onlar (o iki zat) iki şəxs təsəvvür olunmaları ilə iki yerə bölünmür və ya bir-birindən ayrılmır; yaxud bunun əksinə, həmişə birlikdədir və birdir. (Həm oğul, həm də təkcə Allahın mövludu olan kəlmə yə'ni, İsa Məsih Allah.(١

## FİDA

Məsihilər həzrət İsanın (ə) əzəli bir həqiqətinə və ilahiləşdirilmiş bir məqamına inandıqlarından, əlavə olaraq, Məsih, yaxud oğul Allahın bəşər cismi, şəkli və eləcə də ona xas olan xüsusiyyətlərlə təcəssüm etməsinə də etiqad bəsləyirlər ki, o, insanları .hidayət etmək və bəşəriyyətin xilaskarı olmaq üçün belə bir fədakarlıq etmişdir

Həzrət Məsihin vasitəsilə bəşəriyyətin hidayət olunub, xilas edilməsi onun peyğəmbərliyi və nübüvvəti ilə olduğundan (özü də ilahi peyğamın yalnız çatdırılması səviyyəsində, bundan artıq yox) qəbul olunasıdır və burada heç bir mübahisəyə ehtiyac yoxdur. Amma məsihilər inanırlar ki, həzrət İsa (ə) təkcə ilahi peyğamların təbliğ olunması yolu ilə bəşəriyyətin nicatına çalışmamış, ilk kökləri həzrət Adəm (ə)-da olan günahlarımızın xatirinə dara çəkilməyə razı olmuşdur ki, bizim günahlarımız .bağışlansın

Məsihilərin inancına görə, həzrət Adəmin mürtəkib olduğu xəta və bunun nəticəsində behiştdən qovulması, əvvəla, Adəm övladının Allahdan uzaqlaşmasına səbəb oldu, ikincisi də o günah və xətalar irsi yolla sonrakı nəsillərə ötürüldü və nəticədə bəşər (nəslində günahın bünövrəsi qoyuldu; insanlar günah işlər görməyə başladılar.(٢

İndi bəşəriyyətin günahkarlığına diqqət yetirməklə, Allah öz ədaləti əsasında Adəm övladlarını cəzalandırmalıdır. Amma digər tərəfdən də Allahın rəhmət sifəti tələb edir ki, onların günahları bağışlansın. Bu iki sifətin (ədalət və rəhmətin) cəm olunması yolu bundan ibarətdir ki, yalnız Allahın oğlu bəşər surətində zühur etsin, insan kimi yaşasın .və bəşərin zülmü əsasında da dara çəkilsin ki, onların günahlarının kəffarəsi olsun

Bu barədə Əhdi-cədiddə belə deyilir: «Hər kəs əvvəl olmaq istəsə, gərək hamının qulu olsun. Çünki insanın oğlu (İsa) xidmətçi olmaq üçün gəlməmişdir; gəlmişdir ki, başqalarına xidmət etsin və öz canını çoxlarının yolunda fəda etsin.»(٣) Yenə də belə .deyilir: «Hər kəs ona iman gətirsə, əbədi həyata sahib olar

səh:٢۴٢

---

.Buş və başqaları, cahani məzhəbi, ٢-ci cild, Əbdürrəhim Güvahinin tərcüməsi [١٢٠] -١

.Əhdi-cədid, rumlular, ۵-ci fəsil [١٢١] -٢

.Markos, ١٠-cu fəsil, ۴۴-۴۵-ci ayələr [١٢٢] -٣

Çünki aləmlərin Rəbbi o qədər məhəbbət göstərmişdir ki, Özünün yeganə oğlunu vermişdir ki, hər kəs ona iman gətirsə həlak olmasın və əbədi həyata sahib olsun. Çünki, Allah Öz oğlunu aləmə məhkum edilmək üçün göndərmədi; göndərdi ki, onlara nicat versin.»(١) Başqa bir yerdə isə belə deyilir: «Amma Allah bizə olan məhəbbətini tam mə'nada sübut etmişdir, çünki biz hələ günahkar olduğumuz vaxtda Məsih bizim xatirimizə öldü. Onun qanının tökülməsinə görə biz tam mə'nada yaxşı adamlar sayılacağıq və buna görə də onun vasitəsi ilə Allahın qəzəbindən uzaq olacağıq. Biz Allahla düşmən olduğumuz vaxt O, Öz oğlunun ölümü ilə bizim düşmənçiliyimizi dostluğa çevirdi.»(٢)

### TƏNQİDLƏR VƏ MÜLAHİZƏLƏR

Aydın oldu ki, Məsihi əqidəsinə görə, Allah ədalət və rəhmət kimi iki sifəti bir yerə cəm etməyə riayət olunsun deyə, Öz yeganə oğlunun bəşər günahlarının kəffarəsi kimi ilə dara çəkilməsinə razı oldu. İndi bu nəzəri araşdırarkən yalnız iki sualı irəli çəkməklə kifayətlənirik:

١. Allahın ədaləti necə tələb edir ki, İsa kimi günahsız və mə'sum bir insan başqalarının günahının xatirinə ən şiddətli vəziyyətdə əzaba düçar olsun?

٢. Əgər Məsih Allahın oğludursa, onda atalıq məhəbbəti bunu tələb etmirmi ki, Allahın rəhmət sifəti onun da halına şamil olsun və yeganə oğlunu heç bir günah iş görmədiyi halda əzab-əziyyətə, məsxərəyə düçar olmasına və nəhayətdə dara çəkilib əllərinə mıx çalınmasına razı olsun?

٣. Kim Allaha, Onun ədalət və rəhmət sifətinin bir yerə toplanmasına qeyd və şərt qoya bilər?

٤. Adəm övladlarını Adəmin törətdiyi xətaya görə necə günahkar hesab etmək olar, halbuki heç bir şəriətdə övlad atasının günahına görə cəzalandırılmır. O cümlədən, Əhdi-ətiqdə belə deyilir: «Atalar övladların və oğullar da atalarının əvəzində öldürülməzlər. Hər kəs öz günahı səbəbilə öldürülər.»(٣)

٥. Əgər Məsihin dara çəkilməsi Allah tərəfindən qəbul edilirsə, onda nə üçün məsihilər yəhudilərin İsanı dara çəkməsindən bizarlıq edərək onları günahkar sayırlar?

Bəşər günahlarının kəffarəsi üçün Allahın oğlunun dara çəkilməsindən başqa bir yol .۶ yoxdurmu? Məsələn, Nuhun tufanı hadisəsində bütün günahların suya qərq olması, Bəni Adəmin günahkarlarının paklanması üçün kifayət deyildimi? Əgər cavab mənfidirsə, bunu necə qəbul etmək olar ki, Məsihin dara çəkilməsi də bütün əsrlərdə ?və nəsillərdə olan bəşərin günahlarının paklanması üçündür

səh:۲۴۳

---

.Yuhənna, ۳-cü fəsil, ۱۵-۱۷-ci ayələr [۱۲۳] -۱

.Rumlular, ۵-ci fəsil, ۸-۱۰-cu ayələr [۱۲۴] -۲

.Sifri-təsniyə, ۲۴-cü fəsil, ۱۶-cı ayə [۱۲۵] -۳

ÜÇÜNCÜ MEHVƏR

## HƏZRƏT MƏSİHİN MÜHAKİMƏSİ

Məsihilər inanırlar ki, həzrət Məsih dara çəkildikdən və vəfat etdikdən sonra onu qəbirdə dəfn etdilər, amma iki gündən sonra qəbirdən qalxıb dirildi və asimanlara (yüksəldi. Hal-hazırda Allahın sağ tərəfindədir.(١

Allah da bütün varlıq aləminin padşahlığını, qüdrətini və iqtidarını ona bağışladı: «....Bu Allahın istifadə etdiyi məhz həmin əzəmətli qüdrətdir. Həzrət Məsihi öldürdükdən sonra diriltdi və Özünün sağ əlində səmavi məkanlarda yerləşdirdi. Onu zikr olunması mümkün olan hər bir qüdrət, iqtidar, padşahlıq və ümumiyyətlə bütün qüvvələrin fövqündə qərar verdi. Ona bu məqamları təkcə bu dünyada deyil, o biri dünyada da əta etmişdir. Allah hər bir şeyi Məsihin ayaqları altında qoymuş və onu bütün kilsələrin başında qoymuşdur; o kilsələr onun bədənidir və onun vücudunun hər bir yerini əhatə edir. Bununla eyni zamanda bütün kainatı öz hüzuru ilə doldurar.(٢) Allah tərəfindən hamının barəsində mühakimə yürütmək İsaya həvalə edilmişdir: «Ata heç kəsi (mühakimə etmir, O, bütün mühakimələri oğula tapşırmışdır».(٣

### SUALLAR

?Məsihilərin əqidəsinə görə həzrət Məsih necə təcəlli tapmışdır .١

?Həzrət Məsih hansı iş üçün təcəlli etmişdir .٢

?Çal si dun" e'tiqadnaməsinin möhtəvasından nə kimi nəticə alınır" .٣

?Məsihilərin əqidəsinə görə həzrət İsa (ə) nə üçün dara çəkildi .۴

?Fəda əqidəsini necə aydınlaşdırmaq olar .۵

?Həzrət Məsih me'rac etdikdən sonra hansı məqama nail oldu .۶



---

.Əhdi-cədid, Markos, ١۶-cı fəsil [١٢۶]-١

۲- [۱۲۷] Əhdi-cədid, Əfsəsilər, ۱-ci fəsil, ۲۰-۲۳-cü ayələr.

۳- [۱۲۸] Əhdi-cədid, Yuhənna İncili, ۵-ci fəsil, ۲۲-ci ayə.

## ƏLLİ BİRİNCİ DƏRS

## MƏSİHİLİYİN ƏXLAQI

### İŞARƏ

Məsihilik tə’limlərində əxlaqi me’yarlar və onlara riayət edilməsi çox diqqət mərkəzində durur və bu kimi işlərə həddən artıq tövsiyə edilir. Hətta onların müqəddəs kitabı olan İncil əxlaq kitabı, əxlaqi moizələr məcmuəsi adı qazanmışdır. Əxlaqi rəftarlar və sifətlər arasında bir-birinə məhəbbət göstərmək ifrat dərəcədə tə’kid olunmuşdur; belə ki, məsihilik mehr-məhəbbət dini kimi tanınmışdır.

Həzrət Məsih (ə) ilahi bir peyğəmbər ünvanı ilə sair peyğəmbərlər kimi insanlar üçün xeyir-bərəkət mənbəyi olmuşdur. Qur’an-Kərim də o həzrəti bərəkət mənşəyi kimi yad edir və onu inadkarlıq və bədbəxtçilikdən uzaq hesab edərək buyurur:

«(Allahdan bir mö’cüzə olaraq körpə dilə gəlib) dedi: «Mən, həqiqətən, Allahın bəndəsiyəm. O mənə kitab (İncil) verdi, özümü də peyğəmbər etdi.

O, harda oluramsa olum, məni mübarək (həmişə hamıya xeyir verən dini hökmləri öyrədən) etdi və mənə diri olduqca namaz qılıb zəkat verməyi tövsiyə buyurdu.

O, həmçinin məni anama qarşı olduqca itaətkar və nəvazişkar etdi, (heç kəsə qarşı) zülmkar və asi eləmədi!»(1)

Buradan aydın olur ki, həzrət İsa (ə) rəhmət peyğəmbəri adı ilə, sair ilahi peyğəmbərlərin təlimlərində olduğu kimi, əxlaqi səciyyələrə və fəzilətlərə riayət olunmasına, çirkinliyə, rəzil, nəfsani xislətlərə və bədbəxtçiliklərdən uzaq olmağa də’vət edir. Sədaqət, düzlük, niyyətin və əməlin saflığı, zahiri cilvələrdən və riyakarlıqdan uzaq olmaq, əfv və güzəşt etmək, ictimai əlaqələrdə başqaları ilə mehriban və nəvazişli davranmaq bu dinin tə’limlərində geniş şəkildə işıqlandırılmışdır.

Həqiqətən də dindar məsihilərin çoxu başqaları ilə rəftar edərkən mehr-məhəbbət göstərir, qayğıkeş və sədaqətli olurlar. Qur’ani-Kərim də onları bu sifətlərlə təqdim edir. Qur’an yəhudiləri və müşrikləri mö’minlərin ən rəzil düşmənləri adlandırdığı halda, məsihiləri mö’minlərə qarşı ən məhəbbətli şəxslər kimi tanıtdırır:

Ya Məhəmməd!) Yəhudiləri və müşrikləri iman gətirənlərin ən pis düşməni, «Biz)» xaçpərəst», – deyənləri isə onların ən yaxın dostu görəcəksən. Bu onların içində (bilikli, (abid) keşiş və rahiblərin olması və onların özlərini yuxarı tutmalarına görədir.».(٢

Gördüyünüz kimi, məsihi ruhanilərinin təkəbbürlü və lovğa olmamaları bu din ardıcıllarının əksəriyyətinin məhəbbətli olmalarına səbəb olmuş və onların



---

١- [١٢٩] Məryəm-٣٠-٣٢.

٢- [١٣٠] Maidə-٨٢.

başqaları ilə təvazökarlıqla davranmasına gətirib çıxarmışdır. Amma digər tərəfdən, məsihilərin əxlaq tə'limləri arasında ifratçı yönə malik olan göstərişlər də gözə çarpır .ki, həzrət İsanın bu kimi sözləri əxlaqi moizələr şəkilində deməsi çox zəif ehtimaldır

Burada məsihiliyin əxlaqi moizələrindən və yol göstərmələrindən bir qismini bəyan edirik ki, onların məzmununu araşdırmaqla, ilahi dinlərin əxlaqi göstərişlərlə nə .dərəcədə müvafiq olduğu aydınlaşsın

## ASİMANİ MƏLƏKUT ÜÇÜN HAZIRLIQ

Məsihi mənbələri asimani mələkutun yaxın olmasını müjdə vermişlər. Asimani mələkut Bəni-İsrailin nəzərində tanınmış ilahi hökumət növüdür və onlar həmişə ilahi bir və'də ünvanı ilə onun intizarını çəkmişlər. Həzrət İsanın zühurundan bir az öncə həzrət Yəhya yəhudiyyə məntəqəsində qiyam etdi, camaata mö'cüzə göstərib onları tövbə etməyə çağırdı. Əxlaqi çirkinliklərdən, napaklıqlardan tövbə edib paklanmaq asimani mələkut, yaxud ilahi məramlı hökumətin bərqərar edilməsi üçün hazırlıq ünvanı sayılırdı. Mətta İncilində deyilirdi: «O zamanda tə'mid qüslü verən Yəhya yəhudiyyə çölündə zahir oludu və tə'lim verərək dedi: Tövbə edin, çünki asimani mələkut [padşahlıq] yaxındır.» Yəhyanın barəsində Əşkiya Nəbi belə deyir: «Səhrada bir kişi (fəryad edib deyirdi: Allahın yolunu hazırlayın və onun yolunu düzəldin».(١

Həmçinin Markosun ١-ci fəslinin ١-۴-cü ayələrinə, Lukanın ٣-cü fəslinin ١-۶-cı ayələrinə .də baxa bilərsiniz

Yəhya tutulandan sonra həzrət İsa öz də'vətini aşkar şəkildə başladı və onun kimi moizə etməyə başladı: «Yəhya tutulduqdan sonra Cəlil diyarına gəldi və Allahın müjdəsini e'lan edərək dedi: Qərara alınmış saat gəlib çatmış və Allahın padşahlığı (yaxındır, tövbə edin və bu müjdəyə iman gətirin.»(٢

Məsihi dininin mənbələrinə uyğun olaraq, ilahi padşahlıq və hökumətin (asimani mələkut) zəminəsinin hazırlanması üçün və hamının nicata, qurtuluşa nail olub əyriliklərdən yaxa qurtarmalarının şahidi olmaları üçün(٣) tövbə edin, özünüzü əxlaqi aludəliklərdən və rəftar napaklıqlarından təmizləyin; sədaqətə, düzlüyə, niyyətin .xalisliyinə riayət etmək asimani mələkutun intizarında olanlar üçün zəruridir

Bundan da yüksəkdə bütün şəxsi dünyəvi işlərdən və maddi bağlılıqlardan əl çəkmək lazımdır ki, asimani mələkuta hazır olmaq üçün lazımı ləyaqətə malik olalar. Aşağıdakı :ayələrə diqqət yetirin

Yol əsnasında böyük bir kütlə İsa ilə birlikdə idi. İsa onlara üz tutub buyurdu: Əgər bir « kəs mənim yanıma gəlsə, ata-anadan, arvad-uşaqdan, bacı-qardaşdan və



---

.Mətta, ۹-cu fəsil, ۱-۳-cü ayələr [۱۳۱] -۱
.Markos, ۱-ci fəsil, ۱۵-۱۶-cı ayələr [۱۳۲] -۲
.Luka İncili, ۳-cü fəsil, ۵-۶-cı ayələr [۱۳۳] -۳

hətta öz canından əl çəkməsə, şagirdim ola bilməz. Hər kəs xaçını götürüb mənimlə (gəlməsə, şagirdim ola bilməz».(1)

Yol əsnasında bir şəxs ona dedi: “Hər yerə getsən mən də sənin ardınca gələcəyəm.” » İsa cavab verdi: “Quşların da tülkülərin də yuvası vardır, lakin insan oğlu [İsa] üçün heç bir yer yoxdur ki, orada dincəlsin.” İsa başqa bir şəxsə buyurdu: “Mənimlə gəl.” Amma o cavab verdi: “Ey ağa! Qoy əvvəlcə atamı torpağa tapşırım.” İsa buyurdu: “Qoy ölülər öz ölülərini torpağa tapşırsın. Sən gərək gedib Allahın padşahlığını (asimani mələkutu) hər yerdə e’lan edəsən.” Başqa bir şəxs dedi: “Ey ağa! Mən səninlə gələcəyəm, amma icazə ver, əvvəlcə ailəmlə görüşüb xudahafizləşim.” İsa ona dedi: “Bir kəs yer şumlamağa məşğul olsa və arxasına baxsa, Allah padşahlığı üçün xidmət etməyə (ləyaqəti olmaz”».(2)

Allah padşahlığına xidmət üçün ləyaqət kəsb etməkdən ötrü təkcə günahlardan tövbə edib sədaqət və niyyət xalisliyinə riayət etmək kifayət deyil, bu işdə dünyəvi əlaqələrin kəsilməsi, zahidlik, dünyaya rəğbətsizlik, hətta öz əzizlərindən də əl çəkmək zəruridir. Bu mövzu ilahi dinlərin tə’limləri ilə müqayisə olunub üzərində fikirləşilməlidir. Çünki ata-anadan, bacı-qardaşdan və s. əzizlərdən qohum-əqrəbadan əl üzmək, hətta atanın dəfn mərasiminə sə’y göstərilməsə din mədəniyyətində heç bir vəchlə yozula .bilməz

### İNSANLARA MƏHƏBBƏT

Məsihi mənbələrində istər dost, istər düşmən olsun, bütün insanlarla məhəbbətlə rəftar etmək çox tövsiyə olunmuşdur. O cümlədən: «Amma mənim sözümü eşidənlərə deyirəm ki, öz düşmənlərinizə məhəbbət edin. Sizə nifrət edənlərə yaxşılıq edin. Sizə söyüş söyənlərə xeyir-dua edin. Sizinlə bəd rəftar edənləri dua edin. Bir kəs sənin üzünə sillə vursa, o biri üzünü də ona tərəf çevir. Bir kəs sənin libasını aparsa, qoy köynəyini də aparsın. Səndən bir şey istəyən hər kəsə bəxşiş et və sənin malını aparsalar, onu geri tələb etmə. Başqalarının sizinlə necə rəftar etməsini istəyirsinizsə, siz də onlarla elə rəftar edin. Əgər yalnız sizi sevənləri sevsəniz, sizin üçün nə iftixar (olar? Hətta xətakarlar da onları sevənləri sevirlər...»(3)

Başqa bir yerdə oxuyuruq: «Eşitmisinizmi ki, belə deyir: “Göz göz müqabilində, diş diş

müqabilində.” Amma mən sizə deyirəm ki, sizə pislik edən şəxsə pislik etməyin. Əgər bir şəxs sənin sağ üzünə sillə vursa, sol üzünü ona tərəf çevir, əgər bir kəs sənin köynəyini almaq üçün məhkəməyə aparsa, pencəyini də ona bağışla. Hərgah bir şəxs səni bir mil məsafəyə getməyə məcbur etsə, sən onunla iki mil get». (۴)



---

۱- [۱۳۴] Luka, ۱۴-cü fəsil, ۲۵-۲۷-ci ayələr.

۲- [۱۳۵] Luka, ۹-cu fəsil, ۵۷-۶۲-ci ayələr.

۳- [۱۳۶] Luka, ۶-cı fəsil, ۲۷-۳۲-ci ayələr.

۴- [۱۳۷] Mətta, ۵-ci fəsil, ۳۸-۴۱-ci ayələr.

Amma İslam dinində hər bir şeyin me’yarı Allah olduğuna görə dostluq və məhəbbət, kin-küdurət və düşmənçilik də Allah mehvərində dövr etməlidir. Yə’ni, mö’minlər Allahın düşmənləri ilə düşmən, dostları ilə dostluq etməlidirlər. Həmçinin mö’minlərin və Allah dostlarının içində pisliyə pisliklə cavab verilməz, əksinə pisliyə yaxşılıqla cavab verirlər.(١)

Digər tərəfdən də ictimai əmin-amanlığın bərqərar olunması, xətakarların və inadkar insanların mö’minlərin məhəbbətli davranışlarından sui-istifadə etmələrinin qarşısını almaq üçün qisas hökmü də qoyulmuşdur və İncildə qeyd olunan tə’birlərə hökm verilmişdir.(٢)

## RİYAKARLIQDAN UZAQ OLMAQ

İncilin tə’limlərində riyakarlıq və zahiri cilvələrə qarşı geniş mübarizə aparılmışdır. İsa (ə) başqalarını həmişə mehribanlığa, yumşaq davranmağa də’vət etdiyi halda, Ferisim mollalarını riyakarlıqlarına görə şiddətlə məzəmmət etmişdir: «Vay olsun sizə ey riyakar mollalar və ferisilər! Siz asimani padşahlığın qapılarını camaatın üzünü bağlayırsınız, özünüz daxil olmursunuz, başqalarının da oraya daxil olmasının qarşısını alırsınız. Vay olsun sizə, ey riyakar mollalar və ferisilər! Siz dul qadınların mallarını yeyirsiniz, yalnız riyakarlıq məqsədi ilə öz namazlarınızı uzadırsınız. Buna görə də siz ən şiddətli cəzalara düçar olacaqsınız... Vay olsun sizə, ey riyakar mollalar və ferisilər! Siz nanə, şüyüd və zirədən onda bir (vergi) verirsiniz. Amma ədalət, rəhmət və sədaqət olan ən mühüm şəriət hökmlərini görməməzliyə vurursunuz. Siz bunları görməlisiniz və eyni zamanda sair hökmlərdən qafil olmamalısınız... Vay olsun sizə, ey riyakar mollalar və ferisilər! Siz piyalənin və boşqabın kənarlarını təmizləyirsiniz, halbuki onun içi zülm və cinayətlərlə doludur.(٣)

## SUALLAR

١. Qur’ani-Kərim həzrət İsa (ə) üçün hansı sifətləri zikr edir?

٢. Qur’ani-Kərim məsihiləri necə təqdim edir?

٣. Asimani mələkut nədir?

?Asimani mələkuta rəğbətli olanlar hansı sifətlərə malik olmalıdırlar .۴

?Məsihilərin müqəddəs kitabı camaata məhəbbət barəsində hansı tövsiyələri edir .۵

?Qur’anın məhəbbət barəsindəki nəzəri necədir .۶

?Həzrət İsa (ə) riyakarlarla necə rəftar edib davranırdı .۷

səh:۲۴۸

---

.Mö’minin-۹۶, Fussulət-۳۴ [۱۳۸] -۱

.Göz göz müqabilində, diş diş müqabilində; Qur’ani-Kərim, Maidə-۴۵ [۱۳۹] -۲

.Mətta, ۲۳-cü fəsil, ۱۵-۲۵-ci ayələr [۱۴۰] -۳

## ƏLLİ İKİNCİ DƏRS

### MƏSİHİLİYİN DİNİ QAYDA–QANUNLARI VƏ MƏRASİMLƏRİ

Digər dinlərdə olduğu kimi, məsihiliyin də xüsusi ibadi və dini mərasimləri vardır. Adətən müqəddəs məkanlarda və məsihilərin mə'bədlərində yə'ni, kilsədə təşkil olunan ibadi və dini mərasimlərin ən geniş yayılanı birlikdə oxunan dua və yalvarış surətində olan Allaha həmd-səna mərasimidir; bu da Allahın əzəməti və Onun ne'mətlərinin bərəkəti qarşısında şükr etmək məqsədi ilə yerinə yetirilir. Məsihilər dua mərasimlərində Allaha, hər şey əta etdiyinə, xüsusilə həzrət Məsihi onlara verdiyinə görə şükr edirlər. Onların dini qayda-qanunlarından digər biri isə günahları etiraf etmək, qəlbən peşimançılıq hissi keçirərək tövbə etmək və Allahdan günahların bağışlanmasını istəməkdir. Digərləri üçün də dua edib, dini çıxışlar, nəsihətlər və moizələr etmək, təqvaya, zahidliyə, xeyirxahlığa də'vət və çağırışlar da məsihi ibadətlərinin digər bir hissəsini təşkil edir. Müqəddəs kitabın müəyyən hissələrini, xüsusilə Əhdi-ətiqin məzamirini xorla oxumaq kilsələrin dini adətlərindən hesab olunur. Məsihi dinində bazar günləri kilsədə təşkil olunan ibadət mərasimlərindən başqa, dini şüar və qaydalar kimi onların yeddi məşhur ayinləri də mövcuddur ki, bütün məsihi firqələri bu mərasimləri yerinə yetirirlər. Amma onların iki məsələdə bir-birləri ilə ixtilafları vardır. Birincisi, bu yeddi ayinin hamısının həzrət Məsihə mənsub edilməsi və o həzrətin bu barədə şəxsən tövsiyə edib-etməməsidir. İkincisi isə bu ayinlərin müqəddəs olub-olmaması ilə əlaqədardır. Katolik və ortodoks firqələri yeddi ayinin hər birini bu dinin vacib əməllərindən hesab edir və onun İsa tərəfindən tərəfindən olduğuna inanırlar. Protestant firqəsi yalnız tə'mid və rəbbani gecə ayinin müqəddəs olduğuna inanır və yalnız bu ikisini İsa tə'limləri sırasında tanıyırlar. Bu firqə qalan beş ayini yalnız məsihilərin dini mərasimi ünvanı ilə qəbul edir və bunun bə'zi cüz'i məsələlərində də sair firqələrlə ixtilaflıdırlar. Məsihiliyin yeddi ayini :aşağıdakılardan ibarətdir

:Tə'mid qüslü .١

Tə'mid qüslü məsihiliyi qəbul etməyin ilk qayda-qanunlarından sayılır. Bu dini yenicə qəbul etmiş şəxs məsihi körpəsi kimi qüsl almalıdır. Tə'mid qüslündə su başa, yaxud bədənin hər hansı bir hissəsinə tökülür, yaxud da suya girməklə icra olununur. Bu

mərasim məsihi ruhanisi (keşiş) vasitəsi ilə yerinə yetirilir və qüsl edilərkən keşiş tə’mid olunan şəxsə deyir: «Sənə atanın, oğulun və Ruhul-qüdusun adı ilə tə’mid verirəm». Bu cümlə Mətta İncilinin ٢٨-ci fəslinin ١٩-cu ayəsindən götürülmüşdür. Belə ki, orada İsa zahir olduğu zaman şagirdlərinə dedi: “Gedin və bütün millətləri mənim şagirdim edin və onlara ata, oğul və Ruhul-qüdusun adından tə’mid qüslü verin.” Tə’mid qüslu məsihilərdən də əvvəl mövcud olmuşdur. Həzrət Yəhya camaata İordaniya çayında tə’mid qüslu veribmiş; buna görə də Yəhya, “Müəmməda” adı ilə məşhurlaşmışdı. Həzrət İsa da məhz onun vasitəsi ilə tə’mid olunmuşdur. Amma bu dində Məsihin üçlük

üqnum barəsindəki əqidəsi istiqamətinə yönəlmişdir. Məsihilərin e’tiqadı belədir ki, tə’mid qüslu İsanın keçmiş günahlarından paklanmasına səbəb olub. Buna görə də onlardan bə’ziləri tə’mid qüslunu can verən halında yerinə yetirirlər ki, günahlardan paklaşıb ölsün. Körpələr barəsində də e’tiqadları budur ki, tə’mid qüslü verməklə körpəni Adəmdən irsiyyət vastəsilə övlada keçən günahlardan paklaşdırsın. Əlbəttə protestantların tə’mid barəsində belə bir əqidəsi yoxdur və onlar inanırlar ki, tə’mid müvəffəqiyyət vasitəsidir; çünki bu vasitə ilə məsihi şəxs özünü və övladlarını Allaha xidmət yolunda ciddi və rəsmi olaraq vəqf edir, Allaha olan imanını hamının hüzurunda .aşkar edir

(Qüvvəyə mindirmə:(Tənfiz .٢

Məsihi fərdin tənfiz mərasimi həqiqətdə tə’mid qüslünün təkmiledicisidir. Bu mərasimdə məsihi fərd uşaqlıq vaxtında ona tə’mid qüslü verilərkən bağlanan əhdi-peymanı, həzrət İsaya tabe olub məhəbbət bəsləmək və onun dininə xidmət etməklə əlaqədar verdiyi vədləri qüvvəyə mindirir və rəsmi şəkildə bir məsihi fərd kimi kilsə ardıcıllarının sırasına keçir. Bu mərasim adətən yeniyetmələrin məs’uliyyət qəbul etmə qüdrətinə malik olduğu yaşlarda, öz məzhəbi əqidə və imanını əqli baxımdan qəbul edəcəyi bir dövrdə yerinə yetirilir. Müasir dövrdə bu ayin əksərən ١٠-١٣ yaşlarında, .bə’zən də ١۶ yaşında icra olunur

:Tövbə mərasimi .٣

Qeyd olunduğu kimi, məsihilikdə tə’mid ayini insanın günahlardan pak olması üçün bir vasitədir. Amma məsihi şəxsin həyatında yalnız bir dəfə yerinə yetirilən tə’mid qüslü keçmiş günahları pak edə bilər. Lakin hər bir məsihi tə’mid və tənfiz mərasimindən .sonra mürtəkib olduğu günahlar üçün tövbə və bağışlanmaq ayinini də icra etməlidir

Tövbə ayini hər bir şəxsin istədiyi zamanda və bir neçə dəfə icra oluna bilər. Bu ayin :dörd əməldən ibarətdir

Tövbə və bağışlanmaq istəmək, işlətdiyi günahlara görə dərin təəssüf və.١ peşmançılıq hissi keçirmək. Tövbəkar şəxs tərəfindən bu təəssüf hissinin bildirilməsi, .mərasimi yerinə yetirən keşişin qarşısında baş verir

Tövbəkar şəxsin etirafları keşişin qarşısında olmalı və uca səslə mürtəkib olduğu.۲ günahı iqrar edib, hansı işlərə əl bulaşdırdığını izah etməlidir. Günahın e’tiraf olunması ilk əvvəl bir neçə nəfərin hüzurunda baş verirdi. Amma ۱۱-ci əsrdən sonra bu iş bir .qədər xüsusiləşdi və yalnız keşişin hüzurunda təşkil olunması qərara alındı

Razılıq tələb etmə; Bu əməldə tövbəkar şəxs müsbət əməl yerinə yetirməklə, o.۳ cümlədən oruc tutmaq, namaz, dua, fəqirlərə və kilsəyə kömək etmək və s. kimi əməlləri yerinə yetirməklə Allahın razılığını və güzəştini istəməlidir. Bu əməl keşiş tərəfindən tə’yin edilən bir növ tənbeh, kəffarə hesab olur. Belə bir əməl əksər .hallarda pul ödəməklə yerinə yetirilir

Yuxarıdakı üç əməl tövbəkar şəxs tərəfindən yerinə yetirildikdən sonra bağışlanmaq.۴ e’lan olunur; dördüncü mərhələdə keşiş tərəfindən bağışlanmaq və

güzəşt e’lan olunmaqla mərasim sona çatır, günahkar şəxs mürtəkib olduğu günahın .əsərlərindən asudəlik və aramlıq hissi keçirir

Əlbəttə protestanlar bu mərasimə inanmır. Onların əqidəsinə görə, tövbə edib bağışlanmaq üçün vasitəsiz olaraq, Allah dərgahına üz tutulmalı və Ondan bağışlanmaq istənilməldir. Çünki protestantların görə keşiş bəndə ilə Allah arasında .vasitə deyil və günahların bağışlanma ixtiyarı ona həvalə edilməmişdir

:Rəbbani gecə .۴

Rəbbani gecə həzrət İsa (ə)-ın öz şagirdləri ilə vəfatından əvvəlki gecədə keçirdikləri sonuncu gecəni xatırladır. Məsihilərin əqidəsinə görə, o gecədə İsa öz ətinin və qanının əlaməti olaraq, çörək və şərabı şagirdlərinə verdi ki, yeyib-içsinlər və nəticədə onların əti və qanı Məsihin əti və qanı ilə qarışsın. Məsihilər inanırlar ki, rəbbani gecə mərasimində yerinə yetirilən müqəddəs şərabın içilib, çörəyin yeyilməsi çörəyin həzrət Məsihin ətinə və şərabın onun qanına çevrilməsinə, onların əti və qanı ilə qarışmasına səbəb olur. Bu mərasimdə əvvəlcə çörək və şərab keşişin vasitəsi ilə hazırlanır, müqəddəs kitabın bə’zi hissələrini, xüsusilə həzrət İsanın axır gecədə söylədiyi sözləri .oxumaqla təqdis olunur, sonra ondan iştirak edənlərin hər birinə bir qədər verilir

.(Tədhin: (yağ sürtmə .۵

Müqəddəs yağ sürtmə mərasimi xəstə şəxslər üçün yerinə yetirilir. Belə ki, xəstə insanın hər bir yerini müqəddəs yağla yağlayırlar. Məsihilərin inancına görə, bu əməl həzrət Məsihin xəstənin başı üzərində hazır olmasına və ona şəfa verməsinə səbəb olur. Həmçinin inanırlar ki, əgər xəstə şəxs bu halda ölsə, Bərzəx aləminə varid olmaq .üçün hazırlaşır

Protestanların bu ayinə e’tiqadları yoxdur; onlar deyirlər ki, müqəddəs kitabda onun barəsində heç bir şey qeyd olunmamışdır. Amma katoliklər onu həzrət İsanın şəxsən .öz göstərişi ilə icra olunan müqəddəs məsihi ayinlərindən biri hesab edirlər

:İzdivac .۶

İzdivac məsihi dinində ilahi və müqəddəs bir iş sayılır. Məsihilər onu dünyəvi bir iş

hesab etmirlər; onların əqidəsinə görə, izdivac Allahın bəşəriyyətə olan məhəbbət nişanəsidir. Ər-arvad izdivac etməklə bir-birinə qovuşur və söz verirlər ki, ölüm anlarına kimi bir-birinin yanında qalsınlar, həmkarlıq edərək məhəbbət və əmanətdarlıqla həyat sürsünlər və övlad tərbiyə etsinlər. İzdivac məsihiliyin müqəddəs bir işi və yeddi müqəddəs ayindən biri olduğuna görə əqd mərasimi həmişə .kilsədə və keşişin vasitəsilə yerinə yetirilir

:Vürud ayini .۷

Məsihilərin müqəddəs ayinlərinin sonuncusu ruhanilərin və kilsə xidmətçilərin cərgəsinə qoşulmaq istəyən şəxslərlə əlaqədardır. Bu cərgəyə daxil olmaq üçün müəyyən qayda-qanunlar və mərasimlər mövcuddur. Dini təhsildən əlavə, kilsədə əməli təcrübə kəsb edib imtahanlar verdikdən sonra müəyyən iltizamları yerinə yetirmək vacibdir ki, özünü kilsə üçün vəqf etmək, dinə xidmət etmək onların ən

mühümüdür. Buna görə də bu məqama nail olmaq istəyən şəxs dünya işlərindən, xüsusilə izdivacdan çəkinməyə iltizam verir ki, ömrünün axırına qədər subay qalsın, .bütün ömrünü dinə xidmət etməyə vəqf etsin

Protestanlar bu ayini də qəbul etmirlər, keşişlərin və kilsə xadimlərinin evlənməsini qanuni bir iş hesab edirlər. Son zamanlar katolik kilsələri də keşişlərə izdivac icazəsi .vermişdir

**SUALLAR**

?Məsihilərin kilsədə icra etdikləri ibadətlər hansılardır .١

?Tə’mid qüslu nədir .٢

?Tənfiz ayini hansı məqsədlə təşkil olunur .٣

?Məsihilər günahların bağışlanması üçün nə edirlər .۴

?Rəbbani gecə mərasimi necə təşkil olunur .۵

?Hansı əqidə əsasında yağlama mərasimi baş verir .۶

?Məsihilərin ruhanilər cərgəsinə keçmək üçün hansı ayinləri vardır .٧

## ƏLLİ ÜÇÜNCÜ DƏRS

## İNCİL

İncil, yaxud Əhdi-cədid məsihilərin müqəddəs kitabıdır. Məsihilər Əhdi-ətiqi (Əhdi-qədimi) qəbul edib, asimanı kitab ünvanı ilə təsdiq etməkdən əlavə, Əhdi-cədidə də öz müqəddəs kitabları kimi ehtiram qoyurlar. Onlar inanırlar ki, Allah insanla iki əhdi-peyman (əhd) bağlamışdır. Biri qədim əhd-peymandır ki, (Əhdi-ətiq) İsa Məsihdən əvvəlki peyğəmbərlərin vasitəsi ilə insanlardan alınmış və onda bəşəriyyətin nicat yolu, şəriət və ona əməl etməyin necəliyi bəyan olunmuşdur. Digəri isə yeni əhdi-peymandır (Əhdi-cədid) ki, Allahın oğlu İsa Məsih vasitəsilə bağlanmışdır. Bu əhd-peymanlar nicat və qurtuluşdur ki, həzrət Məsihə məhəbbət bəsləmək yolu ilə hasil olur. Çünki, Məsih insan surətində təcəssüm etmiş və insanların günahlarının cəzalarının ən çətini olan dara çəkilməyi qəbul etməklə, bəşəriyyətə nicat vermişdir. Yeganə oğlunu insanlara qurbanlıq edən ata Allaha məhəbbət, insanların nicatı üçün ölüm ayağına qədər dara çəkilməyin üzücü əzab-əziyyətlərinə dözən oğul Allahın məhəbbətinin əvəzində, oğul və ataya məhəbbət bəslənilməli və onların xatirinə başqaları ilə məhəbbətlə, nəvazişlə rəftar edilməlidir. Əhdi-cədid tə’limlərinin ruhu bu .dində həmin əqidə əsaslarının izah, şərh və xatırladılmasıdır

Əhdi-cədid iyirmi yeddi kitab, məktub və risalədən ibarətdir ki, məsihilərin əqidəsinə görə, onların hamısı həzrət Məsihin üruc etməsindən sonra həvarilərin, yaxud onların şagirdlərinin tərəfindən yazılmışdır və onlardan heç biri İsa tərəfindən tənzim olunmamışdır. Onlar hətta inanırlar ki, «Bizim Allahımız olan İsa Məsih Allahın pak kəlməsidir və onda bütün hikmət və elm xəzinələri məxfi olmuşdur, onun bir kitab (yazmağa və yadigar qoymağa heç bir lüzumu yox idi.»(١

Məsihilər tə’kid edirlər ki, müqəddəs kitabın hamısı vəhy kəlamıdır. Onlar müqəddəs kitabı yalnız İsanın risalətinin bəyanı və tərcümeyi-halının şərh olunması, məsihi dininin əqidə əsasları kimi qələmə verir və onun ilahi bir dəyərə malik olduğunu deyirlər. Buna görə də İsanın tərcümeyi-halı, o həzrətin zamanında olan məsihilərin tarixi və həvariyyunun şərhi-halına məxsus olan hissə tarixi yönə malikdir; həzrət İsa Məsihin sözlərini nəql edən hissə isə o həzrətin hədisləri həddində dəyərləndirilə bilər. (Müsəlmanların peyğəmbərlərin hədisinə verdikləri dəyər kimi). Qur’ani-Kərim İncilin

həzrət İsaya (təhrif olunmamış İncili, nəinki dördlük təşkil edən İncili) nazil olunmasını aşkar şəkildə buyurur, onun ayələrini ilahi vəhy hesab edir və onlarıAllah kəlamı adlandırır.

«...O (səmadan) Bundan əvvəl insanları doğru yola yönəltmək üçün Tövratı və İncili də endirdi. (Haqqı nahaqdan ayırd edən) Furqanı (Qur'anı) da O nazil etdi.»(٢)

səh:٢٥٣

---

١- [١٤١] V.M. Müller; Roma və İran imperatorluğunda qədim kilsənin tarixi.

٢- [١٤٢] Ali-İmran ٣-٤.

:Qur’ani-Kərim İsanın sözlərini belə bəyan edir

Mən həqiqətən Allahın quluyam. O mənə kitab (İncil) verdi, özümü də peyğəmbər» (etdi».(١)

Aydındır ki, vəhy vasitəsilə həzrət İsaya nazil olan İncil dördlük təşkil edən İncillə eyni deyildir. Qeyd olunduğu kimi, məsihilərin öz e’tiraflarına əsasən, bu kitab İsa .tərəfindən yazılmamışdır və onu başqaları yazıb tənzim etmişdir

* * *

Qeyd olunduğu kimi, Əhdi-cədid ٢٧ kitab və risaləyə şamildir. Tarixi mə’lumatlardan aydın olur ki, ilk əsrlərdə məsihilər arasında geniş yayılmış müqəddəs kitab və risalələr indikindən qat-qat artıq idi. Hətta onun sayını ١۶٠ nüsxəyə çatdırırlar. Amma Roma imperatorluğunun məsihiliyi qəbul etdiyi dördüncü miladi əsrində ٢٧ kitab və risalə onların müqəddəs kitabı adı ilə tanındı və digərləri qeyri-mö’təbər hesab olundu. Ondan sonra məsihilər arasında müqəddəs kitab yalnız ٢٧ ədəddir. Katolik məsihilərin yığıncağı ١٠۴۶-cı miladi ilində bu kitabın asimani kitab olması barədə düşünülən hər növ şəkk-şübhəni qadağan etmiş və müxaliflərin e’tirazlarına da məhəl qoymamışdır. Bu :kitabın ٢٧ bölməsi aşağıdakılardan ibarətdir

:Mətta İncili .١

fəsldən təşkil olunmuş bu İncil həzrət İsanın həyatı, tarixi, peyğəmbərliyi, tövsiyə və ٢٨ nəsihətlərindən ibarətdir. Orada Əhdi-ətiqin qabaqcadan söylədiyi bə’zi xəbərlərə də işarə olunmuşdur. Bu İncili yazan Mətta, İsanın həvarilərindən biridir və ٧٩-cu miladi .ilində vəfat etmişdir

:Marqos İncili .٢

Ən qısa İncil sayılan bu kitab ١۶ fəsildə yazılmışdır. Markos, həvarilərdən deyildir, amma həvarilərin yanında şagirdlik edərək, həvarilərin həvariləri adı ilə tanınmışdı. Bu İncil ehtimal üzrə miladın ۶۵-٧٠-ci illərində yazılmışdır; bu kitab Markosdan sonra .yazılan Luka və Mətta İncillərinin əsasını təşkil edir

:Luka İncili .۳

Luka da Markos kimi həvarilərin həvarisi idi. Məşğuliyyəti və ixtisası təbib olan və Yunanıstanda təbabətlə məşğul olan bu kişi Puls ilə tanış olub, bir müddət onunla görüşmüşdür. Luka məsihi tə’limlərini Pulsdan əxz etmişdir. Onun İncilinin ۲۴ fəsli vardır. Bu İncil də İsa Məsihin tərcümeyi-halı və moizələrindən ibarətdir; Allahın İsanın bədəninə hülul etməsi və onun Məryəmdən xariqul’adə şəkildə doğulmasından da .danışır

:Yuhənna İncili .۴

Yuhənna həvarilərdən idi, amma onun İncili digər üç İncildən sonra yazılmışdır; bunun yazılma zamanı Yuhənnanın qocalıq illərinə təsadüf edir. Bu İncil ۲۱ fəsldə yazılmışdır və orada həzrət İsanın tərcümeyi-halı və moizələri verilmişdir. Amma



---

.Məryəm-۳۰ [۱۴۳]-۱

onda, əvvəlki üç İncilin əksinə olaraq, İsanın ilahiləşdirilməsi aşkar şəkildə bəyan olunur. Lakin həzrət İsanın təvəllüdü və göylərə getməsi, rəbbani gecə və bə'zi başqa bəhslərdən danışılmır. Buna görə də əvvəlki üç İncil (Mətta, Marqos və Luka) bir-birilə .uyğun olan İncillər kimi tanınır və Yuhənna İncili onlarla fərqli hesab edilir

:Rəsulların əməlləri .۵

:Pulsun romalılara məktubu .۶

Roma camaatına yazılan və ۱۶ fəsildə tənzim olunan bu məktub insanın necə .xilaskarlığa, qurtuluşa çatması barədə olan bəhsləri əhatə edir

:Pulsun Qorintiyana olan ilk məktubu .۷

.Bu məktub ۱۶ fəsildə tənzim olunaraq Qorintes şəhərinin kilsələrinə xitab edilir

:Pulsun Qorintiyana ikinci məktubu .۸

Puls ۱۳ fəsildə tənzim olunun bu məktubda onun risaləti barədə şəkk-şübhə .yaradanlar qarşısında özünü müdafiə edir

.Pulsun Ğəlatilərə məktubu .۹

Bu məktubu Puls ۶ fəsildə tənzim edib Ğəlati bölgəsindən olan kilsəyə göndərmiş və .onda imanı ədalətin şərti bilmişdir

:Pulsun Əfisusyana olan məktubu .۱۰

Puls bu məktubu ۶ fəsildə Əfisus şəhərinin kilsəsinə xitabən yazmış və orada camaatın .əxlaqi vəzifələrini xatırlatmışdır

:Pulsun Filiplərə məktubu .۱۱

Bu məktub ۴ fəsildə tənzim olunmuş və Filipp şəhərinin kilsələrinə göndərilmişdir. Puls bu məktubda o şəhərin məsihi əhalisi üçün dua etmiş və onların hədiyyələri qarşısında .təşəkkür etməklə onların qurtuluşunu, nicatını müjdə vermişdir

:Pulsun Kulsiyana məktubu .۱۲

Puls bu məktubu ۴ fəsildə tənzim edərək Kulsiyə şəhərinin kilsəsinə xitabən yazmışdır və orada Məsihə əqidəli qalmaq dövründə yeni həyatı xatırlamış və sabiq şəriətə (xütnə kimi) tabe olmağı çəkindirmişdi.

:Pulsun Tesalunikilərə məktubu .۱۳

Bu məktub Tesaluniki şəhərinin camaatına xitabən yazılmış və ۵ fəsildə tənzim olunmuşdur. Burada Puls tərəfindən Tesaluniki əhalisinin imanı və bu dinə gözəl .rəğbətləri onun tərəfindən tə’rifəlayiq hesab edilmişdir

:Pulsun Tesalunikilərə ikinci məktubu .۱۴

Bu məktub ۳ fəsildə tənzim olunmuş və həzrət İsanın yenidən qayıdışı şərtləri .ətrafında bə’zi mətləbləri işıqlandırmışdır

:Pulsun Timutalbusa birinci məktubu .۱۵

Timutalbus Pulsun şagirdlərindən biridir ki, onu Əfisus şəhərinin kilsələrinin başçısı tə’yin etmişdir. Altı fəsildən ibarət olan bu məktubda Puls Timutalbus və onun .şagirdlərinin vəzifələrini, eləcə də kilsə başçısının xüsusiyyətlərini bəyan etmişdir

:Pulsun Timutalbusa ikinci məktubu .۱۶

Dörd fəsildən ibarət olan bu məktubda Puls Timutalbusa başqa tövsiyələr və sifarişlər .etmişdir

:Pulsun Teytəsə məktubu .۱۷

Üç fəsildən ibarət olan bu məktub kilsənin təbliğ işləri ilə əlaqədar Teytəsə olunan sifarişləri və tövsiyələri əhatə edir. Puls Teytəsi Kərid şəhərində öz nümayəndəsi tə’yin .etmişdi

:Pulsun Felimuna məktubu .۱۸

Bu Felimuna yazılan qısa bir məktubdur ki, onda qaçmış qulun - qaçdıqdan sonra .Pulsun əli ilə iman gətirən qulamın qəbul edilməsini istəyir

:Pulsun İbranilərə məktubu .۱۹

Bu məktub ۱۰ fəsildən ibarətdir və yəhudi irqindən olan məsihilərə xitab olunur (İbranilərə). Bu məktubda Puls yeni dinin (məsihi dinin) yəhudi dini ilə olan əlaqəsini .bəyan edən bəhsləri, məsihiyyətin üstünlüyünü bəyan etmişdir

:Yə’qubun məktubu .۲۰

Bu məktub İsanın qardaşı və ۴۴-cü miladi ilində Yerusəlim kilsəsinin rəhbərliyini öhdəsinə alan Yə’qubun vasitəsi ilə ۵ fəsildə və Bəni-İsrailin ۱۲ tayfasına xitabən .yazılmışdır. Bu məktubda onlara bə’zi ictimai-əxlaqi vəzifələr də xatırladılır

:Petrosun birinci məktubu .۲۱

Petros İsanın rəsulu və elçisi ünvanı ilə bu məktubu ۵ fəsildə, o dövrdə yaşayan bütün məsihilərə xitabən yazmış və onları Allahın seçdiyi qövm adlandıraraq, Allah dini .yolunda çəkdikləri zəhmətləri qiymətləndirərək onlara toxtaqlıq verir

:Petrosun ikinci məktubu .۲۲

Petros bu məktubu ۳ fəsildə tənzim etmişdir. Bu məktub bütün məsihilərə müraciətdir və onda yalançı müəllimlər və peyğəmbərlərlə əlaqədar xəbərdarlıq edilir və eləcə də .onda İsanın qayıdacağı müjdəsi verilir

:Yuhənnanın birinci məktubu .۲۳

Bu məktub ۵ fəsildən ibarətdir və bütün məsihilərə xitabən yazılmışdır. Onda bə’zi .yanlış inanclar xatırladılır

:Yuhənnanın ikinci məktubu .۲۴

Bu məktub ١ fəsildən ibarətdir və bir məsihi qadına xitabən yazılmış, onda məhəbbətin .həqiqəti izah edilmişdir

:Yuhənnanın üçüncü məktubu .٢۵

Bu məktub da ١ fəsildən ibarətdir və kilsənin idarə olunmasında müəyyən problemlərlə .qarşılaşan kilsə başçılarından birinə xitabən yazılmışdır

:Yəhudanın məktubu .٢۶

Bu məktub İsanın Yəhuda adlı digər bir qardaşının vasitəsi ilə ١ fəsildə yazılmış və .orada camaat onun vasitəsilə imana də’vət olunmuşdur

:Yuhənnanın kəramətləri .٢٧

Bu kitab Yuhənnanın dilindən gələcəkdə baş verəcək xəbərlərə şamildir və ٢٢ fəsildən .ibarətdir

* * *

Qeyd olunanlar məsihilərin nəzərində mö’təbər sayılan kitablar, mətnlər və müqəddəs risalələrdən ibarətdir. Bunlar məsihi dininin araşdırılmasında istifadə oluna bilər. Lakin məsihi aləminin bir çox kitab və risalələri də vardır ki, onlardan bəziləri həvarilərin və rəsulların həyatı ilə əlaqədar olan əməllər kitabı, bir qurupu Bornabaya mənsub edilən risalələr və Petros, Əbinunilər, Misirlilər və s. adlarla məşhur olan bir neçə İncildən ibarətdir; bunlar miladın beşinci əsrində kilsə tərəfindən qadağan edilmiş qeyri-mö’təbər kitablar kimi təqdim edilir. Bu müqəddəs mətnlərin ən məşhuru və mühümü .Bornaba İncilidir

Özü həvarilərdən olan Bornabanın beş İncili var idi və bu İncil beşinci əsrdən əvvəllərə .qədər istifadə olunurdu

ci əsrdə İtaliyada bu İncilin bir nüsxəsi italyan dilində kəşf olunub və onun ingiliscə-١٧ tərcüməsi ١٩٠٧-ci ildə ingilis ər-arvad tərəfindən və ərəbcə tərcüməsi isə ١٩٠٨-ci ildə .misirli bir məsihi tərəfindən Qahirədə çap olunmuşdur

Bu İncilin əqidəvi tə’limləri İslamın əsaslarına çox yaxındır və bir çox hallarda aşkar şəkildə İslam Peyğəmbəri (s) müjdə verilmişdir. Hətta bir neçə dəfə İslamın tövhid və nübüvvət barəsində yə’ni, «La ilahə illəllah və Mühəmmədən Rəsuləllah» kəlmələri .onda qeyd olunmuşdur

Bornabanın əsil İncil olmasını isbat etmək çox çətindir. Bundan əlavə, məsihi rahiblərinin və alimlərinin nəzərində mö’təbər sayılmadığından, məsihiliyin .araşdırılmasında ona istinad oluna bilməz

### SUALLAR

?Qədim və yeni əhd-peyman arasında olan fərq nədir .١

?Dördlük təşkil edən İncillərin bir-birilə nə kimi fərqləri vardır .٢

?Hansı kitabda İsa Allahın oğlu kimi təqdim edilmişdir .٣

## ƏLLİ DÖRDÜNCÜ DƏRS

## (RAHİBLİK (TƏRKİ DÜNYALIQ

### MÜQƏDDİMƏ

Məsihilik nöqteyi-nəzərində rahiblik tərki-dünyalıq, ibadət və dini işlərlə məşğul olmaq məqsədi ilə gündəlik və adi işlərdən əl çəkməkdən ibarətdir. Məsihi rahibliyinin mənşəyini həzrət İsanın tamamilə ruhani həyat seçərək, cəmiyyətdən və maddi həyatdan ayrı bir həyata meyl göstərməsində axtarmaq lazımdır. Həzrət Məsihin ömrünün axırına qədər subay yaşaması, onun da ardınca rəsul Pulsun subay həyat tərzi keçirməsi, subaylıq həyatının rəvac verilməsi,(١) digər tərəfdən isə həzrət Məsihdən «Mənim şagirdlərim ata-anadan, bacı-qardaşdan, arvad-uşaqdan, hətta öz canlarından belə əl çəkməlidir.»(٢) sözlərinin nəql olunması və nəhayət ilahi padşahlığın, yaxud asimani məlakutun təşkil olunması yolunda olan şövq və rəğbət məsihi tə’limləri arasında belə bir əndişənin yaranmasına səbəb olmuşdur; bu məqsədlə həzrət İsanın ardıcıllarının bir çoxu maddi həyatdan üz çevirir, bütün dünyəvi asılılıqlardan və məhəbbətlərdən üz döndərməklə rahiblik həyat şəraitini seçir, ibadət, zikr, təfəkkür və bu kimi digər işlər görməklə müqəddəsliyin, təqvanın yüksək dərəcələrinə nail olmaq üçün, eləcə də asimani mələkuta xidmət etmək üçün .ləyaqət tapmağa çalışırlar

### TARİXÇƏSİ

İrfan və sufiliyə meyllər məsihi dininin yaranmasından əvvəl də mövcud olmuşdur. Bunun ən bariz nümunəsi “Esiniyun” adlanan yəhudi xirqəsidir ki, xüsusi mülkiyyəti və sərvət yığmağı inkar edir, çöllərdə və səhralarda yoxsulluq içərisində yaşayır, ibadət və namaz qılmaqla məşğul olurdular. Bu zahidanə həyat tərzi məsihi aləminə də sirayət etdi və yuxarıda qeyd olunan məsihi ünsürləri rahibliyə meyl göstərməkdə .ondan kəskin şəkildə tə’sirləndilər

Alimlərin əksəriyyəti bu fikirdədirlər ki, məsihi dinindəki rahiblik Antoni (yaxud Antoniyus, ٢٥١-٣٥۶-cı miladi ili) vasitəsi ilə Misirdə başlamışdır. O, ٢٠ yaşında öz var-dövlətinin hamısını fəqirlərin arasında bölüşdürmüş, ucqar nöqtədə yerləşən bir mağaraya gedərək vaxtını ibadət və təfəkkürlə keçirmişdi. Onun tərkidünyalıq və

müqəddəslik şöhrəti digər şəxslərin də onun ətrafına yığılmasına və nəticədə ona tabe olaraq, səhralıqlarda yaşamasına, ibadət, zikr, dua ilə məşğul olmalarına səbəb olmuşdu. Antoni ona məftun olan bu ardıcıllara təşkilatçılıq etdi; onlar üçün dini həyat qanunları müəyyənləşdirdi, sadə yaşamaq, maddi və dünyəvi məhəbbətlərə e’tinasızlıq prinsipini öyrətdi. Beləliklə, məsihi



---

.Burintilərin əvvəli, ۷-ci fəsil [۱۴۵] -۱

.Luka, ۱۴-cü fəsil, ۲۵-۲۷-ci ayələr [۱۴۶] -۲

rahiblərindən ilk qurupu vücuda gəldi. Onlar məsihi alimləri, yaxud məsihi sufiləri adı ilə .də tanınmışdılar

Bu zamandan etibarən rahiblik yeni bir hərəkat və cərəyan kimi məsihi aləmində sür’ətlə inkişaf etdi; məsihilərdən çoxu bu həyat tərzinə üz tutdular. Bunun ardınca kütləvi şəkildə mə’nəvi həyat üçün – ruhani rahiblər üçün sovməə tikilişi geniş şəkildə .yayılmağa başladı

Antonin öz ardıcılları arasında inzibati qayda-qanunlar bərqərar etməsinə baxmayaraq, onların yaşayışı fərdi xarakter daşıyırdı. Onun yaratdığı hərəkatdan az bir vaxt sonra Paximiyus (۲۹۰-۳۴۶-cı miladi) Misirdə yerləşən Tabonda ۹ sovməə tikməklə rahibləri qurup şəklində yaşayan bir həyata qaytarmaq istədi. Onun rahiblik üsul-idarəsi təqva və müqəddəslik əldə etmək üçün mütəşəkkil bir həyat qurmaq qərarına gəldi. Paximiyusun yaratdığı qayda-qanunlar və sistemdən ibarət olan bu yaşayış tərzi bundan sonra rahiblik qayda-qanunlarına yüksək tə’sir qoydu və daha sonra sövmiyələrin sayı məsihi ərazilərinin şərq hissələrində sür’ətlə yayılmağa başladı. Sövmiyələrdə Paximiyusun qayda-qanunları altında yaşayan rahiblər öz alın təri və zəhmətləri ilə bir tikə çörək qazana biləcək müxtəsər işlə məşğul olurdular. Paximiyusdan sonra Bazil (۳۳۰-۳۷۹-cu miladi) Qeysəriyyə şəhərinin yepiskopu (hal-hazırda da onun adı şərq ortodoks kilsələrində izzət və ehtiramla yad edilir) sövmiyə rahiblərinə çox ehtiram göstərdi və onlar üçün müəyyən qayda-qanunlar nəzərə aldı ki, hələ də ona ortodoks məsihiləri arasında əməl olunur. Bazil çalışırdı ki, rahiblərin kütləvi şəkildə yaşamaları üçün ictimai maraq yaratsın. Buna görə də çalışırdı ki, rahiblər işləsin, yaxşı əməllərlə məşğul olsun və həmin halda dua və müqəddəs kitabı oxuyub, dünyəvi məsələlərə e’tinasızlığı davam etdirsinlər ki, bu yolla da rahiblik öz ictimai mövqeyini artırsın. Bazil bu qayda-qanunlarla rahibliyə yeni rövnəq bəxş edə bildi və onun ictimai mövqeyini yüksəltdi. Bundan əlavə, onun gördüyü tədbirlər sayəsində rahiblərin sövmiyələri həmin nahiyələrdəki yepiskopların qüdrət və nüfuzu altına keçdi. Məhz bu dövrlərdə rahiblər Allahın məhəbbətini cəlb etmək, niyyətlərini xalisləşdirmək, ləyaqət və müqəddəslik əldə etmək üçün öz vaxtlarını ictimai xidmətlərə, fəqirlərə, yoxsullara və yetimlərə əl tutmağa sərf edir və öz zəhmətləri ilə əldə etdikləri azacıq ruzi ilə sadə həyat tərzi keçirirdilər. Onlar şərab içməyi, qeyri-dini

.kitabları oxumağı da özlərinə haram etmişdilər

## QƏRBDƏ RAHİBLİK

Rahiblik hərəkatı şərqdə dərin keçmişə malik idi və orada çox sür’ətlə yayılmağa başlamışdı. Amma qərbdə bu yayım çox çətin və ətalətlə baş verirdi. Rahiblik düşüncəsini ilk dəfə olaraq, Atanasiyus dördüncü əsrin ikinci yarısında İsgəndəriyyədən Romaya sürgün olunduğu dövrlərin birində etmişdir. Amma onun qərbdə çiçəklənməsi altıncı əsrin əvvəllərində Bəndikt Nersiya əhalisindən olan Bəndiktin vasitəsi ilə baş vermişdir (۴۸۰-۵۵۰-ci miladi). O, qərb rahibliyinin atası kimi tanınır. Bendikt Bazilin yaratdığı qayda-qanunlara oxşar ayinlər yaratdı

və onda Qərbi Avropaya hakim olan şəraiti nəzərə aldı. O, ۵۲۸-ci ildə Mertaziş ardıcıllarından bir qurupu ilə Montkazinoya köçdü və orada Bendiktlər firqəsinin əsasını qoydu. O da Bazili firqəsində olduğu kimi, silsilə mərtəbələr əsasında olan hökumət növünə üz tutdu ki, onun başında böyük rahib, yaxud sövmiyyənin rəisi dayanırdı. Bu quruluşda bir illik tə'lim dövrəsindən sonra könüllü olan şəxs rahiblik təriqətinə tabe olmaq üçün Allahla əhd-peyman bağlamalıdır. Belə bir əhd-peyman heç vaxt pozula bilməzdi. Sözü gedən şəxs bütün var-yoxunu sovməəyə təslim etməli idi. Bendikt sövmiyyələrindəki rahiblərin gündəlik proqramları aşağıdakılardan :ibarətdir

Altı-yeddi saat gündəlik iş, altı-yeddi saat təmərküz və təfəkkür, iki saata qədər isə .mütaliə

Bendiktlərin silsilə mərtəbəsində olan quruluşda ۷-ci əsrdə o firqənin tə'sis olunduğu zamandan e'tibarən ən böyük rahib silsiləsi olan Kəlani sövmiyyələrinin rəhbərliyini öz öhdəsinə aldı. Bu silsilə bendiktlərin rahiblik quruluşunda bir sıra islahatlar apardı və bu firqənin ağır qanunlarına qayıtmaq istədi. O, ağır ruhi məşğələləri və zahidliyi müdafiə edirdi. Kəlaminin islahatları ۱۱-۱۲-ci əsrlərdə ۷-ci Qriqoriyevin vasitəsi ilə kilsələrdə çox .tə'sir qoydu

Qərbin məsihi cəmiyyətləri ۱۳-cü əsrdən sonra dərviş və dilənçilik təfəkkürü əsasında olan digər bir rahiblik firqəsinin formalaşmasının şahidi oldu. Bu firqənin ən mühümlərindən biri Fransiskenlər idi ki, onun banisi ۱۲۲۶-cı ildə vəfat etmiş Fransvay Asizi idi. Bu firqənin əsas məramı və tutduğu yol mütləq fəqirlik idi. Fransisken firqəsinin ardıcılları və üzvləri özlərinin azacıq zəhmətləri ilə, yaxud dilənçiliklə öz güzaranlarını tə'min etməli idi; onlar pul almaq və var-dövlət sahibi olmaqdan məhrum edilmişdilər. Bu firqələrdən digər biri də Domenikənlərdir. Bu firqə ۱۲۲۱-ci ildə vəfat etmiş Domenikənin vasitəsi ilə tə'sis edilmişdir. Bu firqənin rahibləri dərviş məsləkli və dilənçilik xüsusiyyətində idi; camaatın onlara verdikləri sədəqələrdən başqa güzaranını tə'min etmək üçün artıq bir şey almağa icazəli deyildirlər. Onlar öz vaxtlarını mütaliə və başqalarına moizə etməklə keçirməli idilər. Buna görə də camaat .arasında bu firqə vaizlər, rahiblər adı ilə tanındı

Qeyd etmək lazımdır ki, Domenikənlərin rəqibi kimi tanınan mühüm bir firqə isə .Yezuitlər adlanırdı. Bu firqə İqnatiyus Lyudanın vasitəsi ilə (۱۴۹۵-۱۵۵۶) yaradılmışdır

İqnatiyusun hədəfi təbliğ üsullarının islah olunması və həqiqətə də'vətdən ibarət idi. Bu firqənin ardıcılları rahibliyin üç prinsipindən əlavə yə'ni, yoxsulluq, subaylıq və itaətdən başqa dördüncü bir məsələyə də riyaət edirdilər. O da bundan ibarətdir ki, müqəddəs ata onları hər hansı bir yerə təbliğə göndərsəydi, qeydsiz-şərtsiz qəbul etməliydilər. Buna əsasən, papaya qeydsiz-şərtsiz itaət etmək Yezuit məramının digər .bir prinsipi hesab olunur

Yezuit firqəsi ۱۶-۱۷-ci əsrlərdə sür'ətlə inkişaf etdi və Qərbi Avropanın siyasi dəyişikliklərinə yüksək tə'sir qoydu. Hal-hazırda yezuitlər Roma katolikasının tə'limlərinin ön cərgəsində dayanmaqla mədrəsələrin, unversitetlərin, dünya

səviyyəsində keçirilən seminarların mənbə və bəhslərinə nəzarət etməyi öhdəsinə almışdır.

## SUALLAR

۱. Rahibliyin mənası nədir?

۲. Məsihilərin rahibliyə meyl etməsinin səbəbi nədi?

۳. Məsihi aləmində rahiblik necə formalaşmışdır?

۴. Rahiblik Yepiskopların nüfuz və təsiri altına necə keçdi?

۵. Bendiktlər firqəsi necə yaranmışdır?

۶. Fransiskənlər və Domenikənlər arasında olan fərqlər nədir?

۷. Yezuitlər firqəsi nədir və məsihi aləmində mövqeyi necədir?

səh:۲۶۱

## ƏLLİ BEŞİNCİ DƏRS

### (MƏSİHİ MƏZHƏBLƏRİ (١

### İŞARƏ

Məsihilik də sair məktəblər və dinlər kimi əqidə prinsipləri, nəzəri məsələlər barəsində olan çıxarışlar, təhlillər və dəyişikliklər nəticəsində, yaxud əməli üslubların ixtilafı nəticəsində müxtəlif firqə və məzhəblərə bölünmüşdür. Demək olar ki, heç bir din və məktəb bu din qədər firqələrə bölünməmişdir. Çünki məsihiyyət aləmində dini qayda-qanunlar, əqidə və ixtilaflardan əlavə dil, qəbilə, tayfa amilləri, coğrafi və siyasi xüsusiyyətlər də bu prosesin dərinləşməsində mühüm rol oynamışdır. Bu cərəyanlar arasında üç məzhəb – ortodoks, katolik və protestan məzhəbləri digərləri ilə müqayisədə daha artıq əhəmiyyətə malikdir. Onlar əsas etibarilə tarixi və coğrafi cəhətdən, geniş yayılma, ardıcıllarının çoxluğu, məsihiyyət aləmində dini-ictimai və tarixi tə'sir baxımından əhəmiyyət kəsb edirlər. Bu və gələn dərsdə bu üç məzhəbi araşdıracaq, ٢٨-٢٩-cu dərslərdə isə bu üç məzhəbə nisbətən daha az əhəmiyyət kəsb edən sair məsihi firqələrindən danışacağıq. İndi isə bu üç məzhəbin meydana gəlmə .səbəblərini araşdırırıq

### MƏSİHİLİKDƏ MƏZHƏB VƏ FİRQƏLƏRİN YARANMA SƏBƏBLƏRİ

Məsihiyyət aləmi üç dəfə və üç müxtəlif amilin nəticəsində bir neçə böyük məzhəbə :bölünmüşdür

ci əsrdə Çaldisun şurasının bəyaniyyəsi yayıldıqdan sonra şərqi Meditranin Yunan-٥ .١ dilli kilsələri Şərqdə olan sair məsihi kilsələri ilə əlaqələrini kəsib onlardan ayrıldılar. Misirin İskəndəriyyə şəhərində mərkəzləşmiş kilsələrin bu qurupu belə bir əqidəni yaymağa başladılar ki, həzrət İsa (ə) ilk mərhələdən sonra yalnız bir kamil və ilahi fitrətə malik olmuşdur; bir-birindən ayrı olan iki təbiət və iki fitrət isə düzgün deyildir. (Bunu Çaldisun şurasının bəyaniyyəsi qeyd etmişdir.) Buna görə də onlar Çaldisun bəyaniyyəsini qəbul edən sair kilsələrdən ayrıldılar. Bu qurup Qibti məsihiləri (qədim .Misir) adı ilə tanınırlar

Misirdə bir çox məsihi rahiblərinin sövmiyyələri yeniləşdiyinə görə Qibti məsihiləri üçün

çox münasib bir şərait yarandı ki, bu yolla onlar öz nəzəri fikirlərini yaymağa başladılar. Amma tədricən öz ardıcıllarını itirdilər və hal-hazırda Misirdə azılıq təşkil .edən bir qurup kimi yaşayırlar

ci əsrdə bir sıra ixtilaflar, o cümlədən dil, düşüncə, əməl (adət-ənənə) və eləcə də-۱۱ .۲ Bizans imperiyası ilə Roma imperiyasının qarşıdurmasından yaranan siyasi ixtilaflar nəticəsində məsihi dünyası iki böyük dəstəyə bölündü. Fələstinin şərqində yerləşən kilsələr (Onlar məsihi aləminin mərkəzi sayılırdı), Bizans, yaxud Yunan kilsələri adı ilə tanınan şərqi ortodoks məzhəbinə, Qərb kilsələri isə latın kilsələri adlanaraq sonradan .katolik məzhəbinə çevrildi

Bu iki məzhəbin əsas ixtilaf amilləri dil məsələsindən ibarət idi ki, bu da nəzər və görüşlərin fərqli olması ilə nəticələndi. Bizans kilsələri yunan dilini seçmişdilər. Yunan dili çox zəngin və geniş bir din idi; onda irfani və metafizik

tə’birlər üçün geniş imkan var idi. Buna görə də şərqi məsihilər öz nəzəri üsullarının kamil bəyanı və təfsirində fəlsəfi nəzəriyyələrə meyl edirdilər. Amma Qərb kilsələri hüquqi və dəqiq bir dil olan latın dilinə meyl etməklə, məsihi imanının sadə və saf şərhinin və dəqiq hüququnun tə’rifinə üz gətirdilər.(١)

Şərq və Qərb kilsələri arasında ixtilaf yaranmasına səbəb olan və əsas e’tibarilə fəlsəfi yönə malik olan digər əqidəvi ixtilaf bu iki məktəbin həzrət İsanın ilahiləşdirilməsi barəsində olan fəlsəfi idrakı idi. Şərqi məsihilər əsas nəzərlərini həzrət İsanın hülul və təcəssüdünə yönəldirdilər (yə’ni, Allahın İsanın cismində yerləşməsi və hülul etməsi) və onu (yə’ni hülul və təcəssüdü) bəşəriyyətin kamal mərtəbəsinə çatdırılması və Allahın zatı barəsində təfəkkür etməyin vasitəsi hesab edirdilər. Onların fikrincə, insan ilahi və müqəddəs bir mərtəbəyə çatmaq üçün sə’y göstərməlidir. Amma Qərb məsihiləri bu yönə tə’kid edirdilər ki, həzrət İsanın axan qanı insanların günahlarının kəffarəsidir. Yə’ni, günahkar insan yalnız o Həzrətin ölümü ilə islah olunub qurtuluşa çıxa bilər.(٢)

٣. Məsihi dünyasında məzhəblərə parçalanmanın üçüncü əsas amili ١۶-cı əsrdə meydana gələn dini islahatlar hərəkatı idi. Bu hərəkat kilsənin qərb məsihi cəmiyyətlərinə hakim olmasına e’tiraz sayılırdı və qərb cəmiyyətlərinin geriyə qalması və süquta uğraması birbaşa dinin və dini hakimiyyətin üzərinə yıxılırdı. Bu da dinə qarşı çox kəskin e’tiraz və tənqidlər dalğasının yaranmasına səbəb olmuşdur. Bu zaman məsihi alimlərindən bir qurupu dini təfəkkürün dirçəldilməsi və dini əqidələrin qəbul olunası bir vəziyyətə salınması üçün məsihi tə’limlərinə yenidən baxış etmək fikrinə düşdülər; belə bir əqidəni yaymağa başladılar ki, məsihiyyətin tənəzzülə uğramasının əsas səbəbi məsihi keşişlərinin həzrət İsanın tə’limlərində etdiyi təhriflərdir və əgər bu təhriflər məsihi dinindən kənarlaşdırılsa, bu tə’limlər camaat üçün dərk olunası və qəbul olunası bir şəkilə düşəcəkdir. Başqa sözlə desək, bu quruplar inanırdılar ki, məsihi dininə edilən bütün tənqid və e’tirazlar həqiqətdə məsihi dinini öhdəsinə alan keşişlərin əməllərinin nəticəsidir; həzrət İsanın dini tə’limlərində heç bir çatışmazlıq yoxdur.

Məsihi alimlərindən bu qurupu(٣) protestanizm adı ilə məşhurlaşan belə bir hərəkat başladılar. Protestanizm qərb dünyasında məsihi hakimiyyəti (katolizm) qarşısında

yaranan bir hərəkat kimi formalaşdığından, onun əqidələri də katolik əqidələri ilə qarşı-qarşıya durdu. Avropa kilsələrindən bir qurupunun protestanizm hərəkatına .qoşulması ilə, bundan öncə hamılıqla katolik olan qərb kilsələri iki hissəyə ayrıldı

* * *



---

۱- [۱۴۷] Buş və başqaları» «Din dünyası» ۲-ci cild, Əbdürrəhim Güvahinin tərcüməsi»

۲- [۱۴۸] .Buş və başqaları «Dinlər dünyası» ۲-ci cild

۳- [۱۴۹] .onların ən görkəmli şəxsiyyəti Marten Lüter idi

## (ORTODOKS (ORTHODOX

Şərq kilsələrinin məsihiləri qərb kilsələrinin müqabilində özlərini ortodoks adlandırırlar. Bu ifada düzgün və xalis əqidə mə’nasını daşıyır. Ortodoks kəlməsi düzgün və səhih mə’nasında olan «orthos» və əqidə mə’nasına olan «doxa» kəlmələrindən əmələ .gəlmişdir

Ortodoks və katolik məzhəbləri arasında əsas ixtilaflardan biri Ruhul-qudus ilə əlaqədar olan məsələdir. Ortodokslar Ruhul-qudusun tam mə’nada ata Allahdan əmələ gəldiyini deyirlər. Halbuki katoliklərin inancına görə, Ruhul-qudus oğul Allahdan da yarana bilər. Bu ixtilaf daha böyük bir ixtilafın yaranmasına səbəb olmuşdur ki, bu da ata Allah barəsində yaranan nəzərlə əlaqədardır; bu iki firqə arasında vücuda gəlmişdir, ortodokslar müqəddəs atanı müqəddəs oğuldan üstün hesab edərək, onu bütün işlərin mənşəyi hesab edirlər. Katoliklər isə müqəddəs ata ilə müqəddəs oğulun bərabərliyinə tə’kid edirlər. Buna əsasən müqəddəs üçlük yaxud üç üqnum barəsində olan bəhs, eləcə də bu üçünün bir-birilə necə əlaqədə olması (ata, oğul və Ruhul-qudus) bu iki məzhəb arasında digər əsaslı bir ixtilafın yaranmasına səbəb olmuşdur. Demək olar ki, müqəddəs atanın yerdə qalan iki üqnumdan üstün olmasını təfsir edən ortodoks əqidəsi tövhidə, üç üqnumun bir-birilə bərabər olmasına tə’kid edən .katoliklərdən daha yaxındır; bunlar üçlüklə yanaşı vəhdətə də inanırlar

Bu iki məzhəb arasında yaranan mühüm ixtilaflardan biri də kilsə və kilsə məqamlarının günahsızlığı barəsində idi. Katoliklər papanın və kilsənin ruhani məqamlarının ismətinə, günahsızlığına e’tiqad bəslədikləri və onları xətadan uzaq bildikləri halda, ortodokslar papa və kilsə məqamlarının günahsız olduğunu rədd etməklə yanaşı, həqiqətdə məsihi mö’minlərinin ümumi məcmuəsində külli halda .kilsənin günahsızlığına inanmır və kilsəni xətadan uzaq hesab etmirlər

Dini qayda-qanunlar və onların necə təşkil olunması barədə bu iki məzhəb arasında fərqlər, ixtilaflar gözə dəyir. O cümlədən, ortodoks kilsələri ibadət mərasimlərinin yerli dillərdə icra olunmasını caiz bilir, halbuki katolik kilsələri onun yalnız latın dilində olmasını israr edirlər. Ortodokslar keşişlərin evlənməsini caiz bilirlər, halbuki katoliklər bunu qadağan edib inanırlar ki, keşiş ruhani ata adı ilə dünyəvi işlərə meyl etməkdən

.uzaq qalmalı və özünü kilsəyə vəqf etməlidir

:Kilsə məqamlarının mərtəbələri ortodoksların nəzərində aşağıdakılardır

Oskof (yepiskop) yaxud patriyark (xəlifə), keşiş, şəmmas (kilsə xadimi). Amma katolik kilsələrində yeddi rütbə mövcuddur: Ali rütbədən ibarət olan üç mərhələdə keşiş, şəmmas və şəmmasın müavini, aşağı dörd mərtəbədə isə qapıçı, qari, kilsə xadimi, şər .və çirkin ruhların qovulmasını öhdəsinə alan şəxs

Hal-hazırda Şərqi Avropanın ortodoks kilsələrinin əksəriyyəti Balkan hövzəsində və Rusiyada yerləşir, Qərbi Avropa isə katolik və protestan kilsələri arasında .bölünmüşdür

## SUALLAR

?Məsihi dünyasında müxtlif məzhəblərin yaranmasının amilləri nədir .١

?Qibti məsihiləri kimlər idi .٢

?ci əsrdə məsihi dünyasında hansı ixtilaflar büruzə gəldi-١١ .٣

?Dini islahat hərəkatı necə yarandı .۴

?Ortodoks nə deməkdir .۵

?Ortodoks məzhəbinin ən mühüm əqidələri hansılardır .۶

## ƏLLİ ALTINCI DƏRS

### (MƏSİHİ MƏZHƏBLƏRİ (٢

Keçən dərsdə Məsihi dünyasında baş verən parçalanmanın amillərini şərh etdikdən sonra, Ortodoks məzhəbi ilə tanış olduq. Bu dərsdə bu dinin iki böyük məzhəbi, yə’ni .katolik və protestant məzhəbləri aydınlaşdırılacaqdır

### (KATOLİK (CATHOLİC

Katoliklik məsihi məzhəblərinin ən qədimidir. Əvvəlki dərsdə qeyd olunduğu kimi, .ortodoks məzhəbi ١١-ci əsrdə, protestantlıq isə ١۶-cı əsrdə meydana gəlmişdir

Katolik” sözü lüğətdə «hərtərəfli» mə’nasındadır. Katoliklər öz kilsələrini bütün“ kilsələrin əsası və bünövrəsi hesab etdiklərinə, yalnız onların kilsələrinin həzrət Məsihin dininin həqiqi nümayəndəsi olduğuna və İsanın surətinin məsih kilsəsi olduğuna inandıqlarına görə, özlərinə belə bir ad seçmişlər. Katolik kilsələri Petrosi kilsələri də adlanırlar. Çünki katoliklərin inancına görə, onların əsasını qoyan Petros Həvari olmuşdur. Puls Rəsul da bir müddət o kilsənin rəhbərliyini öhdəsinə almışdır, .buna görə də ona Rəsuli kilsələri də deyilir

Katoliklər inanırlar ki, onların əqidələri xalis məsihiyyət ünvanı ilə tanınır və onların kilsələri sair kilsələr üçün bir mehvər, mərkəziyyət təşkil edir. Bu əqidənin formalaşmasında başqa bir məqsəd də Romanın sair məsihi təbliğat mərkəzlərinə .nisbətən mərkəz olması idi

Həzrət İsanın rəsullarının də’vətindən başlayaraq, İskəndəriyyədə, Yerusəlimdə, İntakiyyədə, Konistantinopolda və Romada yaranan beş böyük məsihi mərkəzləri arasında Roma kilsəsi imperatorluğun mərkəzində yerləşdiyinə görə bu kilsə sair dörd kilsədən üstünlük qazandı. Hətta Konistantinopol kilsəsi yarandıqdan sonra Roma kilsələrinin üstün olmasına daha çox tə’kid olunurdu. Buna görə də Roma kilsələrinə bağlı olan və onun nəzarəti altında fəaliyyət göstərən katolik kilsələri özlərini sair (kilsələr üçün mərkəz və mehvər hesab edirdilər.(١

Roma kilsəsi qələbə çaldıqdan sonra, bu kilsənin böyük yepiskopu ehtiram və tə’zim

əlaməti olaraq papa çağırıldı; kilsələrlə məsihi ardıcılları arasında baş verən ixtilaflarda .müraciət yeri seçildi və onun rə’yi mütləq qəbul olunurdu

Papanın ixtilaf və çəkişmələrin həll edilməsində, xüsusilə ۲-۴-cü əsrlərdə məsihi dünyasında baş verən əqidə ixtilaflarının həll olunmasındakı rolu, həmçinin rəsulların e’tiqadnaməsinin yazılması papanın və kilsə aparatının sair kilsələrə nisbətən öz mövqeyini gücləndirməsinə səbəb oldu. İmperatorluğun mərkəzi Konstantinopola köçdükdən sonra Romada papanın aparatı (hal-hazırdakı İtaliyanın mərkəzi olan Roma) öz iqtidarını məsihiyyət aləminin ruhani mərkəzi



---

۱- [۱۵۰] Hüseyn Tofiqyan, «Dünyanın mövcud dinlərinə bir baxış».

ünvanı ilə daha artıq aşkar etməyə və imperiyanın sair dini mərkəzlərinə qələbə çalmağa nail oldu. O dövrdən renosans hərəkatına qədər Roma kilsəsi məsihiyyət aləminin bütün ictimai işlərinə tam nəzarət edir. Amma renesans dövründən sonra Romanın mərkəzi kilsəsi Vatikanda sadəcə olaraq, katolik məsihilərinin dini-ruhani mərkəzi ünvanı ilə rolunu ifa etməyə başladı; ümumiyyətlə ictimai-siyasi işlərə müdaxilə etməkdən əl çəkdi. Özünü sair məsihi məzhəblərindən ayıran katolik :məzhəbinin ən mühüm əqidələrindən bəziləri aşağıdakılardan ibarətdir

İlahi işlərdə müqəddəs ata və müqəddəs oğulun bərabərliyi, papanın və yepiskopların hər növ günahdan uzaq olmaları və kilsənin yeddilik təşkil edən qayda-qanunlarına .riaəyət etmək

**(PROTESTANT (PROTESTANT**

Keçən dərsdə qeyd olunduğu kimi, kilsənin məsihiyyət aləminin bütün ictimai işlərinə hakim kəsildiyi on əsr müddətində(١) qərb aləmində dini hakimiyyət əleyhinə müəyyən .bir cərəyan başlandı ki, bu proses «renosans» adlandırıldı

Renosansdan sonra bir çox ideoloji-əqidəvi məktəblər yarandı ki, onların da hər biri də öz növbəsində məsihiliyi əvəz etmək fikrində idi. Bu dövr məsihiyyət aləmində dini təfəkkürü uzaqlaşdırmaq mərhələsi hesab olunur. Məhz bu prosesdə bə’zi din alimlər arasında belə bir fikir formalaşdı ki, kilsəyə və dini hakimiyyətə irad və tənqidlərin çoxu .keşişlərin və kilsə xadimlərinin düzgün olmayan əqidə və yanlış əməllərinin nəticəsidir

Başqa sözlə desək, həmin alimlər inanırdılar ki, kilsə xadimlərinin məntiqsiz və yaramaz rəftarları, məsihiyyət dini barəsində düzgün olmayan təhrif və təfsirləri dini hakimiyyətin on əsrlik qaranlıq tarixini əmələ gətirmişdir. Bu dinin bu cür e’tiraz və tənqidlərdən xilas olması üçün dini adət-ənənələr və əqidələrin məcmusunda yenidən nəzər verilməli, keşiş fikrlərinin məhsulu olan inancları dindən ayırmaq lazımdır ki, xalis məsihi dini hamı üçün aşkar olsun. Bu ideoloji cərəyan dini islahatlar adı ilə məşhurlaşdı. Dini islahatlar cərəyanı katolik keşişlərinin kəskin e’tirazları ilə yanaşı başlandığına görə protestanizm adlandırıldı. Çünki protestant «e’tirazçı» mə’nasındadır .və “proetst” kökündən alınaraq e’tiraz və şikayət mə’nasını daşıyır

On dördüncü əsrin əvvəllərindən katolik təfəkkürü əleyhinə e’tirazlar və müxalifətlər başlandı. O cümlədən, ingiltərəli Can Viklif (۱۳۲۹-۱۳۸۴) ۱۳۷۹-cu ildə aşkar şəkildə kilsə rəhbərliyinin əleyhinə çıxış etdi və bildirdi ki, papanın özü üçün nəzərdə tutduğu qüdrət, şəxsiyyət və e’tibarın din nöqteyi-nəzərindən əsaslı olub-olmaması mə’lum deyildir. O, həmçinin çörək və şərabın rəbbani gecə mərasimində həzrət İsanın həqiqi ətinə və qanına mö’cüzəli şəkildə çevrilməsinə sual altına apararaq, bu etiqada şübhə ilə yanaşdı. Ondan sonra çexoslvakiyalı Can



---

Qərblilər bu dövrü «qaranlıq əsr» adlandırırlar; bu illər son dərəcə gerilik, [ ۱۵۱] -۱ .tənəzzül və irtica ilə xarakteriza olunur

Has (۱۳۶۹-۱۴۱۵) kilsənin silsilə rütbələr əsasında olan təşkilatı əleyhinə, eləcə də kilsə aparatının vəqf olunan bütün əmlaka malik olması qarşısında əks mövqe tutdu və .keşişlərin əxlaqı pozğunluqları əleyhinə çox ciddi bir çıxış etdi

Lakin bu e’tirazların və islahatçılıq hərəkatların ən yüksək mərhələsi ۱۶-cı əsrə qayıdır ki, bu dövrdə protestantların islahatçı şəxsiyyətlərinin ən məşhuru yə’ni, almaniyalı Martin Luter (۱۴۸۳-۱۵۴۶) öz islahatlar proqramını ətraflı şəkildə təqdim etdi. Özü də məşhur bir keşiş olan Luter «۹۵ məsələ» adlı müfəssəl bəyənnaməsində katolik məzhəbinin qayda-qanunları ilə müxalif olan nəzərlərini yazaraq, Almaniyanın Vitnberk şəhərində yerləşən öz kilsəsində asdı. O, həmin bəyənnamədə bu əqidəyə daha çox tə’kid edirdi ki, mövcud adət-ənənələrin və əqidələrin çoxu məsihiyyət tarixi dövründə keşişlərin və kilsə xadimlərinin vasitəsi ilə artırılmış və bu dinin haqq yoldan azmasına səbəb olmuşdur. Luter iddia edirdi ki, bu kimi islahatlarla məsihi dinini həqiqi .yoluna qaytarmaq olar

Martin Luterin ən mühüm nəzəriyyəsini nicat və qurtuluş məsələsi təşkil edirdi. O, .inanırdı ki, nicat və qurtuluş ilahi feyz sayəsində iman vasitəsilə hasil olur

Həqiqi qurtuluşa nail olmaq üçün imanlı olmaq lazımdır. İman da dünyada yaxşı işlər görməyi tələb edir. Halbuki katoliklərin nəzərinə görə nicat və qurtuluş yolu günahların bağışlanmasıdır. Keşişlər ilahi feyz və mərhəmət vasitəsi olduğuna, mö’minlərin dünya və din işləri onlara həvalə edildiyinə görə günahkarları e’tiraf və peşimançılıq izhar etməklə, Allah tərəfindən bağışlaya bilər və onların günahları paklana bilər. Bu əqidə nəticəsində katolik kilsələrində e’tiraf, günahın bağışlanması və bağışlanma qəbzinin satılması dini bir ayinlər kimi yayılmağa başladı. Amma Martin Luter bu mərasimlə kəskin şəkildə müxalifət etdi; onun katolik sistemi ilə olan mübarizələrinin ən yüksək səviyyəsi də məhz həmin məsələ ətrafında idi. Çünki o, bir tərəfdən keşişlərin günahsızlığını, onların Allah ilə bəndələr arasında vasitə olmasını qəbul etmir, digər tərəfdən də qurtuluş yolunu yaxşı əməl görməkdə bilirdi. O, yaxşı əməli dünyanın .abadlaşdırıcısı kimi təqdim edirdi

Bundan əlavə, Luter inanırdı ki, kilsədə təşkil olunan yeddi ayindən yalnız tə’mid qüslü və rəbbani gecə məsihi dinində mövcud olmuş, yerdə qalan beş ayin isə keşişlər

.tərəfindən atırılmışdır

O, «۹۵ məsələ» adlı bəyanatını verdikdən sonra Vatikan tərəfindən mürtədlikdə müttəhim olundu və kilsədən uzaqlaşdırıldı. Amma katolik kilsəsi sisteminin əleyhinə olan şiddətli e’tirazlara nəzər yetirməklə (bu Avropanın hər yerində formalaşmışdı) mürtədlik hökmü öz əvvəlki tə’sirini göstərmədi və Avropada protestant hərəkatı sür’ətlə yayılmağa başladı. Hal-hazırda da İngiltərə, Danimarka, Hollandiya, Almaniya, .İsveç, Norveç, Amerika və bu kimi sair yerlərin kilsələri də protestant kilsəsi adlanır

## SUAL VƏ TAPŞIRIQLAR

Katolik” sözü lüğətdə hansı mənanı daşıyır və nə üçün katolik məzhəbi belə” .۱ ?adlandırılmışdır

?Katolik kilsələri necə inkişaf etmişdir .۲

?Katoliklərin ən mühüm əqidələri hansılardır .۳

?Protestantların katoliklərlə olan ən mühüm ixtilafları hansıdır .۴

.Dini islahat hərəkatını izah edin

## ƏLLİ YEDDİNCİ DƏRS

## (MƏSİHİ FİRQƏLƏRİ (١

### İŞARƏ

Keçən iki dərsdə məsihiliyin ən əsas və məşhur məzhəbləri ilə tanış olduq. Əvvəldə qeyd etdiyimiz kimi, bu dindən ayrılmış bir çox firqələr də vardır ki, onlar qeyd olunan məşhur məzhəblərdən ayrılmışlar. Bu və gələn dərsdə həmin firqələri araşdıracağıq. əlavə Diqqət yetirmək lazımdır ki, məsihilikdə başqa firqələr də vardır; irqi, qövmi və dil müxtəlifliyi əsasında formalaşmış həmin firqələrdən danışmaq bu kitabın həcminə .sığmadığı üçün onlar haqda söhbət açmırıq

### PROTESTANT FİRQƏLƏRİ

Renosans dövrünü əhatə edən müxtəlif zaman fasilələrində bir çox islahatçı cərəyanlar da formalaşdı ki, onlar məsihi təfəkkür və rəftarlarında əsaslı dəyişiklik aparmaq barədə müxtəlif təfsir və təkliflər irəli sürdülər. Bu kimi təfsirlərin müxtəlifliyi protestanizm məzhəbində ayrı-ayrı firqələrin formalaşmasına səbəb oldu. Əlbəttə, bə’zi firqələr də sonradan əsl protestanizm cərəyanından yə’ni, Luterə məxsus olan məzhəbdən ayrılmışdı. Protestant firqələrindən yaranan ən mühüm firqələr :aşağıdakılardan ibarətdir

### KALUNİSTLƏR .١

Kalunistlər fransalı Jan Kalunun tərəfdarlarıdır (١٥٠٩-١٥۶۴). Luterin islahatçı hərəkat dövrü ilə azacıq zaman fasilə olan bu cərəyan İsveçrədə Kalunun islahatçı təfəkkürünü əks etdirən «Məsihi dininin əsasları» kitabını yazmaqla başlamışdır; O, .Luterin bə’zi fikirləri ilə müvafiq və bəzilər ilə də müxalif idi

Luter kimi Kalun da inanırdı ki, insan günaha aludə olur; amma onun əqidəsi bu idi ki, hər bir şəxs öz dini vəzifələrinə əməl etməli, nəfsani inzibatçılığın riayət olunmasına əhəmiyyət verməlidir; insan həmişə özünü Allahın hüzurunda görəcəyi bir şəkildə yaşamalıdır. Onun nəzərinə görə, öz ömrünü eyş-işrətdə keçirən əyyaş, rəqs etməyi, qumar oynamağı və bu kimi digər işləri təfəkkürdən, müqəddəs kitabı oxumaqdan

üstün sayanlar şeytanın əlində oyuncağa çevrilən şəxslərdir; onlar cəhənnəm əzabına məhkum olanlardır. İffət və təqva kimi şərafətli sifətlərin əsaslı məntiqi vardır və onları nəzərə almamaq olmaz. Buna görə də Luterin icazəli hesab etdiyi rahatlıq və sərxoşluğu Kalun düzgün saymır, zahidliyi, günah və çirkin işlərdən uzaq olmağı .qurtuluşun əsası hesab edirdi

## ANABA PETİSTLƏR .۲

Anaba petistlər mərkəzi Avropada yaşayan yüksək saylı quruplar idi ki, onlar katoliklərin, Luter və Kalunist dəstələrin müqabilində qərar tutmuşdu. Onlar qeyd olunan bütün bu quruplar tərəfindən tə'qib edilib əzab-əziyyətə mə'ruz qalırdılar. Bu firqənin adı "ikinci dəfə tə'mid qüslü" edənlər mənasını daşıyır. Çünki bu qurup inanırdı ki, tə'mid qüslü uşaqlar və kiçik yaşlılar üçün deyil, həddi-büluğa çatanlar üçündür və tə'mid qüslünü onlar yerinə yetirməlidirlər; uşaqlıq çağlarında tə'mid qüslü verilmiş şəxslər həddi-büluğa çatan zaman yenidən bu qüslü verməlidirlər. Bu firqənin nəzərində tə'mid qüslü mərasimi mehr-məhəbbətin göstəricisi, məsihiliyə keçməyin nişanəsi və həzrət İsaya vəfalı olmaqdan ibarətdir. Bu qurupların bə'ziləri kəramət və ilham əhli idi; həzrət İsa (ə)-ın yenidən zühurunun min illiyinə inanırdılar. Bə'ziləri də ictimai şəkildə yaşayan kommunaçılar əqidəsində idilər; var-dövlətlərindən şərikli şəkildə istifadə edirdilər. Anaba petistləri inanırdılar ki, yalnız tə'mid qüslünü yerinə yetirən, yaxud həddi-büluğa çatdığı zaman onu yenidən əncam verən təqvalı və .dindar şəxslər kilsə üzvləri sayıla bilər

## NANKONFURMİSTLƏR .۳

Kilsənin islahatçılıq cərgəsində dayanan firqələrdən biri də nankonfurmistlər, yaxud müvafiq olmayanlar idilər. Bu qurupun inancına görə, dövlətlər əqidə və vicdan azadlığını pozmayınca, onlara qarşı üsyankarlıq etmək olmaz. Bu firqə məsihi təfəkküründən xaricdə olan əqidələrə qarşı çıxmadıqlarına görə, sair məzhəblər tərəfindən kafirlikdə müttəhim olunmurdular. Onlar "üçlük" əqidəsi ilə də müxalif deyildilər, lakin ictimai-dini işlərdəki təşkilatları rəsmi kilsələrdə mövcud olan adi .təşkilatlarla tamamilə fərqli idi və onlar öz kilsələrini tam müstəqil hesab edirdilər

## PİVERİTENLƏR .۴

Piveritenlər, yaxud "təmizlik sevənlər" ingilis protestantlarından bir qurupudur ki, sair Avropa ölkələrində kalunistlərə qoşulmuşlar. Bu qurup ardıcılları Yelizavetanın dövründə (۱۵۵۸) İngiltərəyə qayıdaraq, Kalun tə'limlərində mövcud olan zahidlik, təqva və sadə yaşamaq kimi ingilis kilsələrinin Roma təsirlərindən təmizlənməsinə, zahiri mərasim və adət-ənənələrdən uzaq olmağa və eləcə də ilahi kəlmənin moizə və

.mə’nalarına üz gətirirdilər

Onlarla kalunistlər arasında olan fərq bu idi ki, piveritenlər rəsmi kilsədən ayrılmağa inanmırdılar və onların əksəriyyəti keşişlərin silsilə rütbələrini, yepiskoplar şurasını və kilsə mənsəblərini qəbul edir, bu dəyərlərin qorunması şərtilə islahatı qəbul edirdilər. Əlbəttə, onlardan bir qurupu da həmin rütbə silsilələri ilə müvafiq deyildi və keşişlərin bərabərlik prinsipinə inanırdılar. Bu müxalif qurup İngiltərə dövlətinin təzyiqləri nəticəsində Hollandiyaya köçdülər və

orada Batistlər, yaxud “müstəqillik istəyənlər” adı ilə hələ də davam etməkdə olan bir .firqəni yaratdılar

### KƏVİKİRLƏR .۵

Bu firqə islahatçılıq ideyalarını irəli sürən dəstələrin ən ifratçısı hesab olunur. Bu, İngiltərədə formalaşmış Corc Paks (۱۶۲۴-۱۶۹۱) ardıcıllarının ayini idi. Corc Paks iddia edirdi ki, o ilham olunmaq yolu ilə yəqinə çatmışdır. Onun əqidəsinə görə, İsanın dini bir sıra kəlami üsullar və quru e’tiqadlarla İncili qəbul etməkdən ibarət deyil, qəlbə və ruha hopmuş e’tiqaddan ibarətdir; kilsəyə getmək, rəsmi keşişin sözlərinə qulaq asmaq, adi duaları təkrar etmək yolu ilə həqiqi iman hasil olmur. İman insanın qəlbini və batinini nurlandırmalıdır. Həyat mənbəyi və feyz mənşəyi olan ilahi kəlmə müqəddəs kitabın səhifələri ilə hüdudlanmır; onun mənşəyi Allahdır və birbaşa mö’min şəxsin batininə daxil olur; Allah, istədiyi şəxslərin qəlbini Öz kəlməsinin məhəlli qərar verir. Paksın əqidəsinə görə, ruhaninin, yaxud keşişin olmasına heç bir vəchlə ehtiyac yoxdur. Çünki, Allah hər kəsi iradə etsə, heç bir vasitə olmadan onunla danışacaq, qadın və kişi olmasından asılı olmayaraq, hər bir şəxs ilahi kəlamı eşidə bilər. Paks inanırdı ki, Allah qarşısında müti olan e’tiqadlı və mö’min şəxslərin hamısı bir-birilə dost və bərabərdirlər. Onun əqidəsinə görə, məsihi dostlar hansı məclisdə olsalar, yeddi ayinin heç birinə riayət etməyə məcbur deyildirlər; müqəddəsləri və peyğəmbərləri təqdis edib onlara hörmət göstərmək bir növ bütpərəstlik hesab olunur. O, xitabə və moizə etmək əvəzinə, sakit oturub təfəkkür etmək və öz nəfsindən hesab-kitab .çəkməyi tövsiyə edirdi

### PİTİSTLƏR .۶

Pitizm, yaxud “zöhd və pəhrizkarlıq” firqəsi ۱۷-ci əsrdə Almaniyanın islahatçı dindarları arasında meydana gəlmişdir. Bu firqənin ardıcılları inanırdılar ki, hər bir insan həqiqi mənada məsihi olmaq üçün yenidən doğulmalıdır. Buna görə də həzrət İsadan yeni həyat və təzə ömür hasil olmalıdır ki, günah vadisində ölən və Allahın nəzərində yollarını azaraq əbədi əzaba məhkum olan insanların hamısı yenidən dirilib yeni həyata qayıtsınlar. İnsanlar bu həyatı əldə etmək üçün ilahi əhdə nail olmalı, günah zəncirlərindən qurtarmalı və qəlbləri Allaha qovuşmalıdır. Bu iş o vaxt müyəssər ola

.bilər ki, insanlar zöhd və pərhizkarlıq yoluna qədəm qoysunlar

Bu firqənin ardıcılları qeyd olunan hədəfə çatmaq üçün çox ciddi əxlaqi üsullara əl atıb riyazət, təharət, təqva və kamil müqəddəsliklə məşğul oldular; bu yolla da kilsənin adi qayda-qanunlarından, dini mərasimlərindən və eləcə də kəlam və əqidə .qanunlarından uzaqlaşdılar

**SUALLAR**

?Kalunin Luterlə olan fikir ayrılıqları nədən ibarətdir .۱

?Anabapetistlər kimlər idi .۲

?Paklanmaq istəyənlərin əqidəsi necə idi .۳

?Nə üçün Kevikerlər islahatçı dini firqələr arasında ən ifratçı cərəyan kimi tanınırlar .۴

?Paklaşmaq istəyən quruplarla Petistlər arasında olan fərq nədədir .۵

səh:۲۷۳

## ƏLLİ SƏKKİZİNCİ DƏRS

### (MƏSİHİ FİRQƏLƏRİ (٢

### YƏSUİLƏR

Əvvəldə qeyd olunduğu kimi, katolik məzhəbi məsihilikdə ən qədim məzhəbdir; ortodoks və protestant məzhəbləri də ondan ayrılmışdır. Amma bu iki parçalanmadan əlavə, katolik dəyərlərinin qorunub saxlanılması üçün yaranan digər firqələr də meydana gəlmişdir ki, onların ən mühümü Yəsuidir. Bu firqə həqiqətdə katoliklərin dini islahatlar hərəkatında tutduğu yolu bir növ yeniləşdirmək məqsədi ilə yaradılan məzhəb sayılır. Başqa sözlə desək, bu dində islahat işləri aparmaq istəyənlər katolik təfəkkürünün əleyhinə hücuma keçdikləri zaman İqnatiyus Luyu Layi başda olmaqla bir qurup (١۴٩١-١۵۵۶) Yəsui firqəsinin formalaşması ilə nəticələnən bir hərəkata .başladılar

Luyu Layi İspaniyanın zadəgan sinfindən idi və bir müddət padşah sarayında xidmətçi işləmişdi. Sonralar İspaniya ilə Fransa arasında baş verən müharibədə əsgər kimi iştirak edərək yaralanmışdı. O, xəstə olduğu illərdə məsihi qibtilərinin tərcümeyi-halını mütaliə etməklə tərkidünyalıq fikrinə düşmüşdü. Buna görə də öz silahını həzrət Məryəmin mehrabından asaraq, kilsədə ibadət və nəfsini paklaşdırmaqla məşğul oldu. Bu əməllər də sonralar Yəsui firqəsinin dini ruhani adət-ənənəsinə çevrildi. Lyu Lay müxtəlif səfərlər edərək özünə ardıcıl və şagirdlər toplamağa başladı. Nəhayət ١۵٢۴-cü ildə “İsanın yoldaşları” adlı hərbi təşkilat yaratdı. O, öz nəzərinə görə kafir və yolunu azmış müsəlmanlara qarşı müharibəyə başladı və bu yolda həddən artıq canfəşanlıq .etdi

Bu firqənin təşkilatı tamamilə hərbi sistem şəklində idi. Burada ona qeydsiz-şərtsiz itaət edənlər toplanırdı. Onlar icazə verilməyən hər növ xoşagəlməz işləri məxfi şəkildə və (onların nəzərində) bəyənilən və düzgün işin müqəddiməsi olduğu halda caiz bilirdilər. Yalan, haqqı gizlətmək, hətta yalandan and içmək belə, onlar üçün .düzgün sayılırdı

Bu firqənin nəzərində ümumi prinsip hər bir Yəsui fərdin özündən yüksəkdə duran

şəxsə tam sədaqətlə və kamil şəkildə itaət etməsi idi. Onların cərgəsinə daxil olan hər bir yeni şəxsə dörd həftə müddətində bir sıra ruhani-mə’nəvi tə’limlər öyrədilir, daha sonra isə, ləyaqət və çıxarına uyğun olaraq ona müəyyən vəzifə və tapşırıqlar verilirdi. O, heç bir qeyd və şərt olmadan öz mə’muriyyət yerində, hətta uzaq ölkələrdə olsa belə, hazır olmalı, ardıcıl və müntəzəm surətdə öz gördüyü işlər barədə yuxarı .məqamlara mə’lumat verməli idi

Yəsuilər firqəsi qurduqları bu təşkilat, rütbələr silsiləsi və üzvlərindən aldıqları ağır iltizamlara görə müxtəlif məntəqələrdə böyük işlər görə bildilər. Onlar təbliğatçılar göndərməklə Asiyanın ucqar yerlərində, xüsusilə Çin, Yaponiya, eləcə də Afrikada .(çoxlu müvəffəqiyyətlər əldə etdilər. (Can bi nas, tarixi cameyi ədyan

səh:۲۷۴

Nurmun kilsələri adı ilə məşhurlaşan son dövrlərin qibti məsihi kilsələri ۱۸۳۰-cu ildə Jozef İsmit Cunivur (۱۸۰۵-۱۸۴۴) tərəfindən yaradılmışdır. İlk əvvəldə yalnız ۶ nəfər .ardıcılı olan bu firqənin hal-hazırda Amerikada ۳ milyondan artıq üzvü vardır

Bu firqənin başçısı olan Cuniver ۱۸۲۰-ci ildə iddia edirdi ki, ona bir sıra ilhamlar olunmuşdur və o, Allahla və İsa Məsihlə görüşmüşdür. Bu sözlərdən sonra o, ilahi hidayətdən bəhrələnmək üçün meşələrə çəkilmişdi. Orada səmavi varlıqlar ona demişlər ki, bütün kilsələr Allahın nəzərində çirkin və bəyənilməz bir yerdir; Allah yer üzündə İncilin yeniləşdirilməsi tapşırığını ona verəcəkdir. Sonrakı mükaşifədə Murini adlı mələk ona yol göstərdi ki, iki daş üzərində və qızılı səhifələrdə yazılan kitabı kəşf edə bilsin. Tərəfdarlarının iddia etdiyinə görə o, ۱۸۲۳-cü ildə Nyu-York yaxınlığındakı təpədə yerləşən mağarının içində bu kitabı kəşf etmişdir. Murmunların inancına görə, bu kitab təqribən ۱۵۰۰ il bundan əvvəl qədim Amerika sakinlərinə oxunan həqiqi .İncildir

Murmun kitabı müqəddəs kitabdan əlavə, əqidələr və peymanlar, dəyərli mirvarid kimi iki kitaba da şamildir ki, murmunlar kilsəsinin əsas e’tiqad və tə’limləri orada .yerləşdirilib və o bu firqənin müqəddəs kitabı kimi tanınıb

Murmunların əqidəsinə uyğun olaraq, Rəbblərdən bir qurupu dünyaya nəzarət etməyi öhdələrinə alıblar. Bu Rəbblər müəyyən dövrlərdə torpaqdan ibarət olan göy cismlərdə yaşayan adi fərdlər olmuşlar. Onlar özlərini ruhi cəhətdən paklaşdırmış ilahlar idi ki, hələ də təkamül mərhələsini qət etməkdədirlər. Amma müxtəlif aləmlərin Rəbbləri arasında yalnız bu dünyanın Rəbbi pərəstişə layiq görülür. Bu dünyanın Rəbbi :üç müxtəlif şəxsdə təcəlli etmişdir

Ata, oğul və Ruhul-qudus. Bunların hər biri digərlərinə nisbətən müstəqildir; cöhvər baxımından da vahid deyildirlər. Murmunlar inanırlar ki, ata və oğul qanı olmayan .sümük və ətdən təşkil olunan bədənə malikdir, lakin Ruhul-qudus ruh cinsindəndir

Murmunlar məsihiyyətin dini qayda-qanunları arasında yalnız rəbbani gecəni dini müqəddəs şüarlar kimi qəbul edir və hər bazar günü onu təşkil edirlər. Amma tə’mid

(qüslü və izdivac mərasimini dini hökmlər sırasında qəbul etmirlər.(۱

## (YƏHÜVƏH (ŞAHİDLƏR

Bu firqə Çarliz Taze Rasselin tərəfindən ۱۳۷۰-ci ildə müqəddəs kitabın tələbələrinin beynəlxalq toplantısı adı ilə Amerikada təşkil olunmuşdur. ۱۹۳۱-ci ildən e’tibarən Yəhüvəhin (Yeqovanın) şahidləri adı ilə tanınmışdır. Rassel həzrət İsanın zühurunun .çox yaxın vaxtlarda olacağına inanırdı

səh:۲۷۵

---

.Buş və başqaları, Cəhani məzhəbi, ۲-ci cild, Əbdürrəhim Güvahinin tərcüməsi [۱۵۲] -۱

Müqəddəs kitabın sözlərinə çox tə’kid edən Yəhüvəh şahidləri müqəddəs kitabın ilham və vəhy əsasında olan gələcək xəbərlərini və sair mətləblərə xüsusi diqqət yetirir, dünyanın axırında yaxşı və pis qüvvələr arasında baş verəcək son mübarizənin çox yaxın olduğuna göz dikmişlər. Həzrət Məsihin tərəfdarları ilə bu firqənin e’tiqadına görə bütün dünyanın nəzarətini öz əllərinə keçirən şeytani qüvvələr arasında son müharibə baş verəcəkdir. Həzrət İsanın qələbəsi bir növ dini hökuməti dünyaya hakim edəcəkdir ki, şəxsən həzrət Məsih bu hökumətin hakimi olacaqdır. Bu firqənin ardıcılları inanırlar ki, həzrət Məsihin yenidən zühur etdiyi vaxta qədər insanın nicat tapıb qurtuluşa nail olması elm və mə’rifət yolu ilə əldə olunur və həqiqət müqəddəs kitabda və dini ədəbiyyatlarda gəlmişdir. Həmçinin bu firqənin nəzərində həzrət İsanın yenidən zühuruna qədər kilsə hökumətləri və ticarətin nəzarəti şeytanın əli ilə .olacaqdır

### MUNİZM

İttihad kilsəsi adlanan bu firqə Songmyung tərəfindən yaradılmışdır. O, ۱۹۲۶-cı ildə iddia etmişdir ki, mükaşifə aləmində həzrət İsa ilə görüşmüşdür; həzrət ona göstəriş vermişdir ki, o, sona çatmamış işi təkmilləşdirmək və dünyanı xilas etmək üçün seçilmişdir. Songmyung bu mükaşifədə anlamışdı ki, həzrət İsa Məsih insanların xilası üçün öhdəsinə aldığı vəzifəni təkmilləşdirmədən öncə dara çəkilmişdir. Buna görə də iyirminci əsrdə başqa bir Məsih Koreyadan zühur edəcəkdir. O, bu məqsədlə ۱۹۴۴-cü ildə bir neçə nəfəri öz ətrafına toplayıb, özünə vəhy olunduğunu iddia etdiyi şeyləri .onlara öyrətdi

Monun əqidə və tə’limləri onun yazdığı «İlahi əsas» kitabında şərh olunmuşdur. Onun ardıcıllarının inancına görə, bu kitab müqəddəs kitabın mətləblərindəki sirləri bəyan edir. Bu kitabda Allahın, bəşəriyyətin bünövrəsini yenidən qurub tə’mir etmək planı .izah olunur

### SUAL VƏ TAPŞIRIQLAR

?Yəsui firqəsi necə bir təşkilata malik idi .۱

?Yəsui firqəsinin ruhani qaydaları necədir .۲

Yəhuvəh şahidlərinin nəzərində həzrət İsanın yenidən zühur etməsindən qabaq .۳ ?mö’minlərin vəzifəsi nədir

?Yəhuvəh şahidləri dünyanın axırı haqda necə fikirləşirlər .۴

?Munizm firqəsinin e’tiqadları hansılardır .۵

.Mormunların əqidəsini bəyan edin

səh:۲۷۶

## Haqqında mərkəzi

Allahın adı ilə

Rəhman və Rəhimli olan Allahın adı ilə.Və bütün həmdlər aləmlərin rəbbi olan Allaha .məxsusdur

.Varlıq aləminin Kövsəri olan Həzrəti Fatiməyi Zəhraya (a) təqdim olunur

(Bilən kimsələrlə (alimlər) bilməyənlər (cahillər) eynidirlərmi? (Zümər surəsi, ayə ۹

:Ön söz

İsfahan Qaimiyyə kompüter araşdırmalar müəssisəsi ۲۰۰۶-cı ildən Mərhum Ayətullah Seyyid Həsən Fəqih İmaminin nəzarəti altında,elmi mərkəzlərdə tanınan görkəmli tələbələrin vasitəsi ilə məzhəb,mədəniyyət və elmi sahələrdə öz fəaliyyətinə .başlamışdır

:Məramnamə

İsfahan Qaimiyyə kompüter araşdırmalar müəssisəsi təhqiqatçıların dini biliklərə rahət və tez bir zamanda yiyələnmələri üçün hər bir xidməti onların ixtiyarında qərar vermişdir.Və bu sahədə təəssübkeşlikdən,ictimai,siyasi,fərdi cəryanlardan uzaq duraraq yalnız və yalnız elmi sahədə ixlasla öz xidmətini həyata keçirməkdədir.Bu səbəbdən adı çəkilən müəssisə layihəsini həyata keçirmiş.Və tədqiqat üçün nəzərdə tutulmuş kitabları,məqalələri mütəxəssislər və müxtəlif təbəqələrdən olan insanlar üçün,bir neçə dillərdə və formalarda hazırlayaraq,heç bir məbləğ tələb etmədən sosial .medyada istifadəçilərin ixtiyarında qoymuşdur

:Hədəflər

Quran və Əhli beyt mədəniyyətini və maarifini yaymaq.۱

İnsanları,xüsusən gəncləri tam dəqiq şəkildə dini məsələləri araşdırmağa.۲ sövqləndirmək

Telefon,tablet və kompüterlərdə olan faydasız,yararsız mövzuların yerini .۳ faydalı,mənəviyyatlı mövzularla doldurmaq

.Təhqiqatla məşğul olan tələbələrə xidmət etmək.۴

.Kitab və elmi əsərlər oxumaq mədəniyyətini yaymaq.۵

.Müəlliflərin öz elmi əsərlərini digital formada yaymaq üçün onlara şərait yaratmaq.۶

:İcraçılıq

.Qanunla icazəli olan lisenziyaya malik əsərlərin yayımı.۱

.Bu mərkəz kimi xidmət göstərən oxşar mərkəzlərlə əlaqə.۲

.(Paralel xidmətlərdən çəkinmək (başqalarının etdiklərini təkrarlamamaq.۳

.Yalnız və yalnız elmi məsələləri yaymaq.۴

.Nəşriyyatın mənbələrini qeyd etmək.۵

.Qeyd:Kitabda olanlara görə məsüliyyət o kitabı yazan müəllifin öhdəsindədir

:Müəssisənin fəaliyyəti

.Kitabların çapı və nəşri.۱

.Kitab oxumaq müsabiqələrinin təşkili.۲

.Məcazi sərgilərin istehsalı.۳

.Kompüter oyunlarının istehsalı.۴

Qaimiyyə internet saytının yaradılması:www.ghaemiyeh.com.۵

.Sərgi məhsullarının və moizələrin istehsalı.۶

.Şər'i,əxlaqi və etiqadi suallara cavab.۷

.Mühasibat,mətbuat yaratmaq və sms... sistemlərinin layihəsi.۸

.Təlim kurslarının həyata keçirilməsi.۹

Tərbiyəçi şəxslər hazırlamaq üçün təlim kurslarının təşkili.۱۰

Kompüterdə,tabletdə və telefonlarda icrası mümkün olan minlərlə proqramların.۱۱ dünyada məşhur olan səkkiz formada istehsalı

JAVA.۱

ANDROID.۲

EPUB.۳

CHM.۴

PDF.۵

HTML.۶

CHM.۷

GHB.۸

.v.Qaimiyyə kitab bazarı adına dörd market

ANDROID.۱

IOS.۲

WINDOWS PHONE.۳

WINDOWS.۴

deyilənlər müəssisənin veb saytında Fars,Ərəb,İngilis və Azərbaycan dillərində pulsuz

.istifadəyə verilmişdir

:Sonunda

Mərcəi təqlid müctəhidlərin dəftərxanalarından (ofis),müəssisələrdən,nəşriyyatçılardan,müəlliflərdən və əməyi olan bütün şəxsiyyətlərdən bizlərə hədəfə çatmaqdan ötrü yardım etdikləri üçün səmimi qəlbdən .təşəkkür edirik


:Mərkəzin ünvanı

İsfahan-Əbdurrəzzaq küçəsi-Hacı Muhəmməd Cəfər adına bazar-Şəhid Muhəmməd Həsən Təvəkküli küçəsi-blok۱۲۹/۳۴-birinci mərtəbə

veb sayt:www.ghbook.ir

mail:Info@ghbook.ir

mərkəzin ofis telefonu: ۰۰۹۸۳۱۳۴۴۹۰۱۲۵

Tehran ofisi: ۰۰۹۸۲۱۸۸۳۱۸۷۲۲

Biznes və alqı satqı: ۰۰۹۸۹۱۳۲۰۰۰۱۰۹

Mərkəzdə çalışan insanlarla əlaqə yaratmaq üçün nəzərdə tutulan nömrə: ۰۰۹۸۹۱۳۲۰۰۰۱۰۹


İsfəhan Qaimiyyə kompüter
araşdırmalar mərkəzi
Qaimiyyə
www
Başqa kitabxanaya sahiblənmək üçün
gördüyünüz sayt mərkəzinə müraciət
etməniz lazımdı:
www.Ghaemiyeh.com
www.Ghaemiyeh.net
www.Ghaemiyeh.org
www.Ghaemiyeh.ir
Və sifariş üçün bizimlə əlaqə saxlayın:
(0098) 0913 2000 109